Şəki

Alim və Ziyalılar

Ш6
Ş 47

ƏLƏFSƏR MƏMMƏDOV
FİKRƏT XALIQOV

ŞƏKİ
Alim və Ziyalılar

II hissə

AZ- 243481

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – "ELM" – 2007

TƏRTİBÇİLƏR: **Ələfsər Bəxtiyar oğlu MƏMMƏDOV**
Fikrət Ramazan oğlu XALIQOV

Bu kitabın işıq üzü görməsində
Cavanşir Əyyub oğlu FEYZİYEVİN
böyük xidməti olmuşdur.

REDAKSİYA HEYƏTİ:

B.Vahabzadə, Y.Mahmudov, Q.Calalov, A.Qəribov, F.Qədirov, R.Hüseynov, Z.Əlizadə, Ş.Şərifov, Ə-C.Əhmədov, M.Fərzəlibəyov, Q.Əbdülsəlimzadə, R.Axundova, Q.Kərimov, Ç.Xəlifəzadə, T.Əfəndiyeva, C.Hacıyev, F.İbrahimov, N.İbrahimov, İ.Abbasov, T.Xəlilova, N.Məmmədov, T.Süleymanov, Ə.Məsimov, R.Qafarlı, C.Quliyev, Ç.Tahirov, N.Nəsrullayev, H.-C.Xəlifəzadə, Ü.Məmmədov.

"ŞƏKİ" Xeyriyyə Cəmiyyətinin təşəbbüsü ilə nəşr olunur.

Tərtibçilər kitabın işıq üzü görməsində təmənnasız köməklərini əsirgəməyən Ülvi Məmmədov, Elmar Rəcəbov, Əhməd Xalıqov, Kamran Əliyev, Vüqar Məmmədov, Polad Hüseynov və Anar Süleymanova təşəkkür edir.

ŞƏKİ. Alim və Ziyalılar. Bakı: "Elm", 2007. – 428 səh.

ISBN 5-8066-1708-4

M 4702060104
655(07)-2007

© Ə.B.Məmmədov, 2007.

Hər söz bir ulduz, bir şəffaf olmaz,
Mənalar dünyası qaranlıq deyil.
Bu böyük kitablar yaranır az-az,
Çünki ömürlükdür, bir anlıq deyil.

Səməd VURĞUN
Xalq şairi, akademik

ÖN SÖZ ƏVƏZİ
(II hissəyə)

Şəki Azərbaycanın dilbər guşələrindən biri olmaqla yanaşı, bir çox üstün cəhətləri ilə dünyada tanınmışdır. Daima gözəlləşən Şəkinin ziyalı və elmi potensialı bu gün də inkişaf etməkdədir.

"ŞƏKİ. Alim və Ziyalılar" kitabının həm birinci, həm də ikinci hissəsinin ərsəyə gəlməsində əsas məqsəd Şəkidən çıxmış tanınmış alim və ziyalılarımızın önəmli fəaliyyətlərinə və uğurlarına ictimai maraq və diqqəti yönəltmək, keçdikləri mənalı ömür yoluna, fəaliyyətlərinin Respublikamız üçün gərəkliliyinə istinadən ictimai sorğu əsasında müəyyənləşdirilmiş alim və ziyalılarımızı respublikamızda və onun hüdudlarından kənarda daha yaxından tanıtmaqdan ibarətdir.

"ŞƏKİ. Alim və Ziyalılar" kitabının hər iki hissəsinə "Ön söz", "Şəki və şəkililər", "Şəkili kimdir?" və s. kimi məlumat və məqalələr, ictimaiyyət arasında yüksək nüfuz qazanmış, müxtəlif təşkilatlarda fəaliyyət göstərmiş və hal-hazırda fəaliyyətini davam etdirən tanınmış alim və ziyalılarımız haqqında bioqrafik məlumatlar, Şəkinin məşhur yerlərindən foto görüntülər daxil edilmişdir.

Kitabın II hissəsində "ŞƏKİ. Alim və Ziyalılar" kitabı haqqında "Təhsil problemləri" və "İnşaatçı kadrlar" qəzetində Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, akademik Y.Məmmədəliyev adına mükafat laureatı Əjdər Xəlili və "İnşaatçı kadrlar" qəzetinin baş redaktoru, filologiya elmləri namizədi Akif Hacının yazdıqları rəyləri də verilmişdir.

Şübhəsiz ki, kitaba daxil edilmiş tanınmış alim və ziyalılarımız sırasında görmək istədiyiniz kimlərəsə rast gəlmədikdə təəssüflənəcəksiniz. Bu da təbii bir haldır.

Çox şükürlər olsun ki, tanınmış alim və ziyalılarımızın sayı kifayət qədər çoxdur və onların hamısı haqqında bir və ya iki kitab daxilində məlumat verməyin qeyri-mümkün olduğu şübhəsiz ki, nəzərə alınmalıdır.

"ŞƏKİ. Alim və Ziyalılar" kitabının ikinci hissəsində, birinci hissədə olduğu kimi, alim və ziyalılar haqqında bioqrafik məlumatları hazırlayarkən, onların doğulduqları il, təhsil aldıqları orta və ali məktəblər, elmi və pedaqoji fəaliyyətləri, çalışdıqları təşkilatlar, üzvü olduqları Beynəlxalq və regional qrumlar, iştirak etdikləri konfrans, qurultay və simpoziumlar, layiq görüldükləri dövlət, hökumət və ictimai təşkilatların təltifləri, ictimai və xeyriyyəçilik fəaliyyətlərinə və digər bu kimi informasiyalara üstünlük verilmişdir.

Tərtibçilər kitabın hər iki hissəsi haqqında irad və təkliflərini bildirəcək hörmətli oxuculara bəri başdan təşəkkürlərini bildirirlər.

Ələfsər MƏMMƏDOV
kimya elmləri doktoru, professor

Fikrət XALIQOV
filologiya elmləri doktoru

Hər bir insanın qiyməti onun elmi,
biliyi qədərdir.

Məhəmməd Peyğəmbər

ÖN SÖZ
(I hissədən)

Ata yurdu müqəddəs əmanətdir! Onun övladı olmağa layiqsənmi? Bu səpgidə düşüncələr neçə-neçə səmimi duyğular üçün örnəkdir: yaşadığın həyatda Vətən torpağını istədiyin kimi seyr etmisənmi, əcdadların başı üzərində əsən yellərdən saçların titrəyibmi, xalqın keçib gəldiyi tarixi yolun cizgilərini daş yaddaşlara həkk etməyə səy göstərmisənmi və s. Belə suallar, belə hisslər və duyğular qədərincədir.

Azərbaycanın sənətkarlıq ruhunu, koloritini klassik səviyyədə ən saf və toxunulmaz vəziyyətdə qoruyub saxlayan qədim şəhərlərdən biri Şəkidir. Qədim İpək Yolunun üstündə yerləşən bu şəhər tarixən Azərbaycanın ictimai, iqtisadi, mədəni və mənəvi həyatının mühüm tərkib hissəsi olmuşdur.

Şəki Azərbaycanın dilbər guşəsi, onun rəqsi, yumoru, mədəniyyəti, elmi, bugünü və gələcəyidir. Onun dağ-dərələrini dolduran, yamaclara dikələn qırmızı kirəmidli evləri ona elə yaraşıq verir ki, bu, heç bir gözəlliklə müqayisə edilə bilməz.

Qədim məscid və karvansaraylar, hamam və ticarət köşkləri özündə yerli əhalinin dühasının qüdrətini yaşadır. Onun möhür daşı olan Xan sarayı Azərbaycan memarlığının təkrarsız incisidir. Bir cüt çinar əmrə müntəzir əsgər kimi gecə-gündüz Şəki Xan sarayının keşiyindədir. Sarayın bir mismar belə işlənmədən

düzəldilmiş şəbəkələri, divarlarındakı bənzərsiz rəsmlər Şəki sənətkarlarının özünəməxsus yaradıcılıq nümunələri kimi diqqəti cəlb edir.

Bunlarla yanaşı, Azərbaycanın ziyalı zümrəsinin ən əhatəli hissəsini təşkil edən şəkili alim və ziyalıların respublikamızın həyatında qazandıqları müvəffəqiyyətlər hər bir Şəki vətəndaşının qəlbini qürur hissi ilə doldurur və ona əvəzsiz zövq verir. Məhz bu istəyin nəticəsi kimi təqdim olunan kitab Şəkinin orta əsrlərdən bugünəqədərki alim və ziyalılarının Azərbaycan oxucusuna tanıdılması məqsədinə xidmət edir.

Kitab bu sahədə ilk təcrübə olduğundan orada öz yerini tapmayan ayrı-ayrı həmvətənlərimizdən üzr istəyir və ikinci hissənin nəşri üçün materialların toplanması prosesinin davam etdirildiyini bildiririk.

Ələfsər MƏMMƏDOV
kimya elmləri doktoru, professor

Fikrət XALIQOV
filologiya elmləri namizədi, dosent

ŞƏKİ VƏ ŞƏKİLİLƏR

ŞƏKİ

Bir nəğmə qoşmadım hələ mən sənə,
Dağlar bunu mənə kəsir sanmasın.
Mən dedim vurğunam Azərbaycana,
Deyirəm, heç zaman xırdalanmasın!

Xalq şairi, akademik, filologiya elmləri doktoru, professor
BƏXTİYAR VAHABZADƏ

Orta əsrlərə dair mənbələrdə Şəki şəhərinin adı – Şəkə, Şaki, Şaka, Şakki, Şakke, Şekən, Şakkan, Şəkkan kimi müxtəlif şəkillərdə işlənmişdir. Bu adın meydana çıxması və eyni adla yaşayış məntəqəsinin (ola bilsin, şəhərin) salınması haqda tarix ədəbiyyatlarında əsasən bir fikir var ki, antik dövrün böyük tarixçiləri Herodot və Strabondan başlayaraq, sonrakı dövrlərin bir sıra qaynaqlarında dayanır. Herodota görə, Şimali Qafqazda yaşayan skiflər - saklar e.ə. VII əsrdə cənuba yeganə asan yol (sonralar Dərbənd keçidi) ilə Zaqafqaziyaya, oradan da Kiçik Asiyaya hücum etmişlər. Həmin ərazidə "Skif çarlığı" yaranmışdı. Bu hadisədən bəhs edən Strabon isə skifləri saklar adlandırır və yazır ki, "Saklar Zaqafqaziyada ən yaxşı torpaqları tutdular və bu yerləri öz adlarına uyğun Sakasena adlandırdılar". Tədqiqatçıların fikrincə, Skif çarlığının əsas ərazisi Azərbaycan, xüsusilə Şimali Azərbaycan olmuşdur.

Mahmud İsmayılov,
Azərbaycan MEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor

Adı – Şəki. Gözəl Vətənimiz Azərbaycanın bir dilbər guşəsi, sakit, rahat, yaşıllığa qərq olmuş qədim şəhər. Vaxtilə Nuxa da adlanırdı. Tarixçilərin dediyi bir rəvayətə görə, "Şəki" sözü qədim dövrdə burada məskən salmış sak (Saka etnonimi) tayfaları ilə əlaqədardır. İndiki Şəkinin tutduğu ərazinin bir hissəsində XVIII əsrin axırlarınadək Nuxa kəndi olmuşdur. 1772-ci ildə şəhərin qərbindəki Kiş çayından gedən güclü sel Şəkinin bir hissəsini dağıtmış, o vaxtdan şəhər bir qədər şərqdə, o cümlədən Nuxa kəndi ərazisində inkişaf etməyə başlamışdır. 200 il daşıdığı Nuxa adı da həmin kəndlə əlaqədardır.

"Doğulduğu" vaxt. Bəzi etnoqrafik mənbələrə görə şəhər kimi inkişafı eramızdan xeyli əvvəl başlanmışdır. Tarixçi respublika Elmlər Akademiyasının müxbir üzvü Mahmud İsmayılovun apardığı tədqiqatlara görə, bir yaşayış məntəqəsi kimi Şəkinin 2600-dən çox yaşı var. Şəki torpağının yaranma tarixi daha qədimdir. Onu əhatə edən dağlar 11 milyon il bundan qabaq, yəni üçüncü geoloji dövrün axırlarında, dördüncü dövrün əvvəllərində əmələ gəlmişdir.

"Doğulduğu" yer. Planetimizin şimal yarımkürəsində, subtropik qurşağın sərhədində, möhtəşəm Böyük Qafqazın cənub ətəklərinin Qanıx Əyriçay dərəsi ilə birləşdiyi yerdə, güclü selləri ilə bütün dünyada məşhur olan Kiş çayının sol sahili. X əsrdə yaşamış ərəb səyyahlarından biri olan Əl-Müqəddəsinin yazdığına görə, Şəki dağətəyində yox, düzənlikdə yerləşirmiş.

Hündürlüyü. Dünya okeanı səviyyəsindən 500-850 m düz xətlə şəhərdən cəmisi 10-15 km aralı olan Baş Qafqaz silsiləsinin qarlı zirvələrinin yüksəkliyi bəzi yerlərdə 3000-3500 m-ə çatır.

"Çöhrəsi". Açıq havada axşamçağı Şəki qapılarından daha yaxşı görünən əsrarəngiz mənzərə. Nəhəng bir divar kimi dayanan Baş Qafqazın meşəli dağ qolları, sürətlə axan çaylar, yaşıl lent kimi uzanan yol kənarı qoz ağacları xiyabanı şəhərin görkəmini, şəhərətrafını daha da gözəlləşdirir. Aleksandr Düma (ata) "Biz Nuxadan uzaqlaşdıqca onun görünüşü daha da gözəlləşir və bütün füsunkarlığı ilə gözümüzün qabağında canlanırdı" sözlərini nahaq yerə deməmişdir. Əsrlər boyu Şərq libasını saxlayan Yuxarı Baş, Çatqal dərəsi (şəkililər onu zarafatla Çaqqal dərəsi də adlandırırlar), Giləhli, Sarı torpaq, Gəncəli məhəlləsi, çoxmərtəbəli yeni binalar, Marxal, Soyuqbulaq... Hansını deyəsən, Şəkinin "çöhrəsini" şair B.Vahabzadə "Şəki" şerində daha gözəl ifadə edir:

Elə bil yenicə sığal vurmusan,
Sanki gül bağısan, çiçəksən Şəki.

Xarici ölkələrdəki "qohumları". Təbii şəraitinə, xüsusilə əsas iqlim amillərinə görə xaricdə "qohumları" yox, analoqları, oxşarları var. Şəki sanki Bolqarıstanın güllər diyarı Kazanlıkla, İtaliyanın cənubunda geniş üzüm və zeytun plantasiyaları olan Potensa, Himalay dağlarının cənub ətəklərində yerləşən Srinaqar şəhərləri ilə əkizdir

Xüsusi əlamətləri. Yevlax-Şəki yolunda rayon sərhədi yaxınlığında qızmar günəşin təsiri nəticəsində yaranan ay mənzərələri, ön dağ silsiləsi boyunca uzanan əsrarəngiz haşiyələr, Əyriçay sahillərindəqırqovullu düzən meşələri, Kiş çayının nəhəng qıfı xatırladan daşlı-çınqıllı gətirmə konusu. Subtropik iqlimin şimal sərhədi Şəkini iki yerə bölür. Şəhərin dəniz səviyyəsindən 650-700 m-dən aşağıda yerləşən hissəsi subtropik, yuxarı hissəsi isə mülayim qurşağa düşür.

Qonaqlarının təəssüratı. A.S.Puşkinin dostlarından biri, keçən əsrin əvvəllərində Şəkidə olmuş rus süvari generalı M.M.Rayevski "Nuxa gözəldir.. Bu yüksək dərəcəli Baxçasaraydır" sözlərini yadigar qoymuşdur.

XIX əsrin ortalarında Şimali Azərbaycana səyahət edən Aleksandr Düma (ata) "Qafqaz səfəri" adlı kitabında "Bərqərar olduğu Qafqaz sıra dağlarının dilbər bir guşəsinə qısılmış Nuxa onu yaşıllığa qərq edən, qoynunda gizlədən ağacların arasından güclə görünür" demişdi.

Həmin dövrə aid daha bir coğrafi məlumatı Lev Tolstoy "Hacı

Murad" əsərində vermişdir. O, Şəki mənzərələrinin gözəlliyini, yaz aylarında qaratoyuqların gecə nəğmələrini, oyanmaqda olan bitki aləminin xoş təravətini çox yaxşı təsvir etmişdir.

Şəki təbiətinin vurğunu, onun heç yerdə təkrarı olmayan mədəniyyət abidələrinə heyran qalan Nazim Hikmət aşağıdakı sözləri xatirə qoyub getmişdir: "Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı bircə Şəki Xan sarayını dünyaya göstərmək bəs edərdi...". Polşa nəqqaşı Malqojata Kujiyar: "Şəki doğrudan da gözəldir. Mən buranın təbiətindəki cazibədarlığı, adamlarındakı səmimiyyəti, mehribanlığı, qonaqpərvərliyi heç yerdə görməmişəm..." - demişdir. Moskvalı şair T.Streşnova qısa müddət Şəkidə qonaq qaldıqdan sonra: "Şəki Azərbaycanın elə dilbər guşəsidir ki, burada şair olmamaq mümkün deyildir" - sözlərini xatirə qoymuşdur.

1978-ci ildə Şəki mənzərələrini seyr edib "Şəkinin təbiəti mənə vətənimi, Himalayın cənub yamaclarını xatırlatdı" - deyən məşhur hind alimi, Dehli Universitetinin rektoru, professor Munis Raza şəhərin gözəlliyinə heyran olduğunu bildirmişdi. Onu da qeyd edək ki, Himalay dağlarının cənub yamaclarında Şəki təbiətinə oxşar şərait dəniz səviyyəsindən təxminən 1300-1600 m hündürlükdə ola bilər. Himalayın dağətəyi hissəsinin iqlimi isə tropiklərə daha yaxındır.

Əsgər Əyyubov,
coğrafiya elmləri doktoru, professor

ŞƏKİLİ KİMDİR?

Belə bir suala cavab axtarsaq ki, "Şəkili kimdir? O hansı keyfiyyətləri ilə başqalarından seçilir?" - onda bu vaxta qədər şəkililər haqqında yazılanları və söylənilənləri ümumiləşdirib deyə bilərik:

– İlk növbədə, şəkili ürəyiyumşaq və mülayim insandır, lakin həlim olduğu qədər sərt və amansızdır. Tərsliyi də var. Bağışlamağı bacardığı kimi onda haqsızlığa, ədalətsizliyə, qanunsuzluğa qarşı barışmazlıq, üzüdönüklük, dağlı prinsipiallığı da müşahidə edilir. Onu yola gətirmək mümkün olsa da, ələ almaq çətindir. Ayıq və gözüaçıqdır. Yalanı və hiyləgərliyi sevmir. Sözün düzünü danışandır. Bəzən müsahibinə iti cavablar verməsini dolayıcılıq kimi anlayırlar. Ancaq şəkilinin kiminsə şəninə toxunmaq niyyəti olmur, sadəcə, tərəf-müqabilinin onu aldatmaq təşəbbüsünü əlindən almağı bacarır.

– Həmişə qayğılıdır, bir az narahatlığı var. Özünü təmkinli aparmasına baxmayaraq, daxilən ətrafda baş verənlərə qarşı narahatlıq keçirir. Onu asanlıqla döyüşə, mübarizə meydanlarına sürükləmək mümkündür.

– Qənaətcil və bədxərcdir. Pulu başından aşıb-daşsa da, boş yerə xərcləmir. Ticarətdə və alış-verişdə düzlüyü, açıq rəqabəti xoşlayır. Alıb-aldatmaqla arası yoxdur. İndi də Şəki dükanlarında "nisyə" dəftərləri mövcuddur. Yalnız sınadığı adamlara malını etibar edir. Gözütoxdur, başqasının var-dövlətinə göz dikən deyil.

– Yoldaşlıqda sədaqətlidir. Sirr saxlayandır. Çətin gündə qazanılan dostluğun qədrini biləndir. Satqınlıqla, ikiüzlülüklə heç arası olmaz.

– Döyüşkən ruhlu görünsə də, dava-dalaşla arası yoxdur. Lakin qanmazı qandırandır.

– Şəkili həmişə Aallah adamı olub, dinə meyllidir. İslama ürəkdən pənah aparıb. Əski inanclarında ilana, qurda, marala, ağaca, suya, dağa, günəşə tapınma özünü göstərir. Pirlərə və övliyalara da pənah aparandır.

– Görüb-götürəndir, yumor hissi güclü olduğundan ömrü boyu nikbindir. Təlim-təhsilin, yazıb-oxumağın acıdır. Maraq dairəsi çox genişdir, ona görə də şəkililərin arasından elmin bütün sahələrində görkəmli adamlar çıxmışdır.

– Torpaqcanlıdır, yurd üçün hər şeyindən keçməyə hazırdır. Lakin onda yerliçilik hissləri zəifdir. Bu da ondan irəli gəlir ki, ailədə hər kəs öz qabiliyyətinə, bacarığına, rəftarına görə qiymətləndirilib. Övlad ata-babasının ad-sanına sığınmayıb, çalışıb ki, öz yolu ilə getsin. Və bir-birinə yarınmaq, boş yerə qohuma, əmiyə, dayıya arxalanmaq, günahkara tanışlığa görə həyan durmaq hallarına pis baxıb.

– Hər məsələdə irəlidə olmağa, təşəbbüsü əldən verməməyə çalışır. İşlədiyi sahənin sirlərinə yiyələnməsə bağrı çatlar. Sənət, peşə ardınca gedəndir. Daha çox qurub-yaratmaq, tikmək həvəskarıdır. Müstəqilliyi sevəndir. Asılılığı şəninə sığışdırmır.

– Məsləhətə qulaq asmaqla yanaşı, məsləhət verməyi də xoşlayandır. Böyüyün sözündən heç vaxt çıxmaz. Səbrli və təmkinlidir. Bir işi yoxlamadan icrasına qərar verməz.

– Hər şeyə qarşı ehtiraslıdır. Məqsədinə çatmaq üçün dəridən-qabıqdan çıxmağa hazırdır. Qərarından dönmür, daha doğrusu, sözünün ağasıdır.

– Ailəcanlıdır. Arvad ərinə, ər arvadına həmişə sadiqdir. Xəyanəti heç biri bağışlamır. Övlad ailənin bel sütunudur.

– Qonaqpərvərdir. Son tikəsini qonaq-qaraya yedirtməkdən ləzzət alandır.

– Yeyib-içməyi, şirniyyatı, mer-meyvəni, ağartını sevəndir.

– Başqalarını geyindirib bəzəsə də, ev-eşiklərini cah-calala döndərsə də, özü təmtərağa, bər-bəzəyə aludə deyil, "insanın daxili aləmi gözəl olmalıdır, ənlik-kirşanla üz ağartmaq mümkün deyil" prinsipini əsas götürür. Lakin bağ-bağatda, gül-çiçək,

əkib-becərməkdə, mal-qara, toyuq-cücə saxlamaqda, biş-düşürdə, süfrə hazırlamaqda bəhsə girəndir.

– Və şəkilinin elm, təhsil, texnika, təsərrüfat, istehsalat sahələri ilə bir sırada bədii yaradıcılıqda da böyük istedada malikliyi folklorun və yazılı ədəbiyyatın bütün rəngarəng qollarında özünü büruzə verir.

Əgər kimsə Şəkiyə və onun sakinlərinə xasiyyətnamə vermək istəyirsə, son yüz ildə Şəkidə yetişən ziyalılara nəzər salsın. Belə etsə, görər ki, elə bir peşə, sənət sahəsi yoxdur ki, şəkili orada ən qadir ustalarını yetişdirməsin. Elə bir yaradıcılıq sahəsi tapılmaz ki, şəkili orada zirvədə dayanmasın. Elmin, istehsalın, idarəetmənin ən yüksək pillələrinə şəkilinin qalxdığını görər. Kimyaçıları, riyaziyyatçıları, iqtisadçıları, fizikləri, dilçiləri, folklorçuları həkimləri, musiqiçiləri, bəstəkarları, şair və yazıçıları bütün dünyada tanınır. Bircə onu yada salmaq kifayətdir ki, Şərqdə ilk professional dramaturq M.F.Axundzadə, ilk yeni tipli ana dili dərsliklərinin, ilk uşaq şerlərinin müəllifi R.Əfəndiyev, müasir komediyanın banisi S.Rəhman, müasir türk poeziyasının korifeyi B.Vahabzadə, folklorşünaslığın S.Mümtaz kimi, dilçi Ə.Dəmirçizadə, ədəbiyyatşünas Y.Qarayev, dünya şöhrətli riyaziyyatçı M.Rəsulov görkəmli kimyaçılar H.Əfəndiyev, Z.Zülfüqarov, neft-qazçıxarma sahəsində tanınmış mütəxəssis akademik Q.Cəlilov, tarixçilər M.İsmayılov, Y.Mahmudov, torpaqşünas C.Hüseynov, geoloqlar Ə.Sultanov, Ə.Şəkinski, ixtioloq Y.Əbdürrəhmanov, bioloqlar N.Həmidov, M.Axundov, fizik M.Bəkirov, bəstəkarlar C.Hacıyev, Ş.Axundova, E.Sabitoğlu, C.Quliyev, xalq artistləri İ.Osmanlı, L.Abdullayev, Şəkili Ələsgər, Ə.Sadıxov, M.Bürcəliyev, məşhur xeyriyyəçi M.Cabbarov (Mamay dayı), neftçilər B.Məmmədov, S.İbrahimov, generallar Z.Yusifzadə, T.Ağahüseynov, F.Hüseünov, M.Həmidov, iqtisadçılar M.Sadıxov, Q.Əbdülsəlimzadə, Ə.Məsimov, maliyyə sahəsində tanınmış mütəxəssislər Ə.Əmircanov, S.Sadıxov, istedadlı inşaatçı A.Şərifov, məşhur heykəltəraş-rəssam F.Əbdürrəhmanov, həkimlər T.Qasımov, A.Qeybulla,coğrafiyaşünaslar Ə.Hacı-

zadə, Ə.Əyyubov, Azərbaycanda təmsilin banisi H.Ziya, dövlət xadimi N.Hacıyev, kino-rejissor R.Ocaqov, musiqiçilər V.Mustafazadə, Ə.Şəkili, əmtəəşünas Ə.İsmayıloğlu, məşhur texnoloq-kulinar C.Xəlifəzadə, əfsanəvi partizanlar Ə.Cəbrayılov, N.Abdullayev, metallurq F.Mustafazadə, aşıq Molla Cümə, ilk dəfə Qurani-Kərimi Azərbaycan dilinə tərcümə edən şəxs M.Şəkuyi və başqaları Şəki torpağının oğullarıdır.

Şəkidə doğulub boya-başa çatmış və şəkilinin Azərbaycan üçün hansı xidmətlər göstərdiyini bilmək istəyənlər Ə.Məmmədov və F.Xalıqovun böyük zəhməti bahasına başa gələn "ŞƏKİ. Alim və Ziyalılar" kitabını vərəqləsə, özünəməxsusluğunu əsrlər boyu qoruyub saxlayan türk yurdunun əzəməti, böyüklüyü qarşısında heyrətlərini gizlədə bilməyəcək.

Ramazan Qafarlı,
filologiya elmləri namizədi, dosent

"ŞƏKİ. Alim və Ziyalılar" kitabı və Şəkidə doğulub boya-başa çatmış kimyaçılar

Azərbaycan müstəqillik qazandıqdan sonrakı illərdə respublikamızın bir çox şəhər və rayonlarında yerli mənşəli alim və ziyalıların, tanınmış elm, mədəniyyət və incəsənət xadimlərinin, təhsil və maarif, mühəndis-texniki işçilərinin, habelə xalq təsərrüfatının müxtəlif sahələrini təmsil edən bacarıqlı mütəxəssislərin həyat və yaradıcılığı, şərəfli ömür yolu haqqında onlarla kitab yazılmışdır. Bunlardan biri də "ŞƏKİ. Alim və Ziyalılar"ıdır. İrihəcmli olan və nəfis şəkildə çap edilən bu orijinal kitabın tərtibçi-müəllifləri AMEA Kimya Problemləri İnstitutunun aparıcı elmi işçisi, kimya elmləri doktoru, professor Ələfsər Məmmədov və Filologiya elmləri namizədi Fikrət Xalıqovdur. Kitab tərtibçi-müəlliflərin "Ön söz"ü ilə başlayır. Sonra kitabın "-Şəki və şəkililər" bölməsinin "Şəki" başlığı altında xalq şairi, akademik, filologiya elmləri doktoru, professor Bəxtiyar Vahabzadənin 4 misralıq şeri verilmiş, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Mahmud İsmayılovun Şəki haqqında kiçik məqaləsi, coğrafiya elmləri doktoru, professor Əsgər Əyyubovun Şəkinin "tərcümeyi-halı" ilə əlaqədar (adı, "doğulduğu" vaxt, "doğulduğu" yer, "hündürlüyü", xüsusi əhəmiyyəti, qonaqlarının təəssüratı) maraqlı, məzəli məqaləsi, habelə filologiya elmləri namizədi, dosent Ramazan Qafarlının "Şəkili kimdir?" adlı məqaləsi öz əksini tapmışdır.

"Ön söz" müəllifləri Azərbaycanın qədim şəhərlərindən biri olan Şəkinin özünəməxsus xüsusiyyətlərindən söz açdıqdan sonra yazırlar: "Bununla yanaşı, Azərbaycanın ziyalı zümrəsinin ən əhatəli hissəsini təşkil edən şəkili alim və ziyalıların respublikamızın həyatında qazandıqları müvəffəqiyyətlər hər bir Şəki

vətəndaşının (həm də Azərbaycan vətəndaşının - *Ə.X.*) qəlbini qürur hissi ilə doldurur və ona əvəzsiz zövq verir. Məhz bu istəyin nəticəsi kimi təqdim olunan kitab orta əsrlərdən bu günə qədərki Şəki alim və ziyalılarının Azərbaycan oxucusuna tanıdılması məqsədini güdür".

Tərtibçi-müəlliflərin böyük zəhməti və fədakarlığı sayəsində yazılıb ərsəyə gətirilən, Bakı Dövlət Universitetinin nəşriyyatı tərəfindən 2002-ci ildə çap olunan bu fundamental nəşrdə əslən şəkili olan 424 nəfər alim və ziyalının həyat-yaradıcılığı haqqında əhatəli bioqrafik oçerklər verilmişdir. Kitabın araşdırılması, təhlili göstərir ki, Şəkidə onlarla görkəmli alim, məşhur elm və mədəniyyət xadimi doğulub boya-başa çatmış, respublikamızda xalq təsərrüfatının, elm və mədəniyyətin, sənaye və texnikanın inkişafında müstəsna rol oynamışdır.

Kitabda Şəkinin ən görkəmli alim və ziyalılarının adı və soyadı R.Qafarlının "Şəkili kimdir?" adlı məqaləsində iftixar hissi ilə sadalanmışdır: "Şərqdə ilk professional dramaturq M.F.Axundzadə, ilk yeni tipli ana dili dərsliklərinin, ilk uşaq şeirlərinin müəllifi R.Əfəndiyev, müasir komediyanın banisi S.Rəhman, müasir türk poeziyasının korifeyi B.Vahabzadə, folklorşünas S.Mümtaz, dilçi Ə.Dəmirçizadə, ədəbiyyatşünas Y.Qarayev, dünya şöhrətli riyaziyyatçı M.Rəsulov, görkəmli kimyaçılar H.Əfəndiyev, Z.Zülfüqarlı, neft-qazçıxarma sahəsində tanınmış mütəxəssis Q.Cəlilov, tarixçilər M.İsmayılov, Y.Mahmudov, torpaqşünas C.Hüseynov, geoloqlar Ə.Sultanov, Ə.Şəkinski, ixtioloq Y.Əbdürrəhmanov, bioloqlar N.Həmidov, M.Axundov, fizik M.Bəkirov, bəstəkarlar C.Hacıyev, Ş.Axundova, E.Sabitoğlu, C.Quliyev, xalq artistləri İ.Osmanlı, L.Abdullayev, Şəkili Ələsgər, Ə.Sadıqov, M.Bürcəliyev, məşhur xeyriyyəçi Mamay dayı, neftçilər B.Məmmədov, S.İbrahimov, generallar Z.Yusifzadə, T.Ağahüseynov, F.hüseynov, M.Həmidov, iqtisadçılar M.Sadıxov, Q.Əbdülsəlimzadə, Ə.Məsimov, maliyyə sahəsində tanınmış mütəxəssislər Ə.Əmircanov, S.Sadıxov, istedadlı inşaatçı A.Şərifov, məşhur heykəltəraş-rəssam F.Əbdürrəhmanov, həkimlər

T.Qasımov, A.Qeybulla, coğrafiyaşünaslar Ə.Hacızadə, Ə.Əsgərov, Azərbaycanda təmsilin banisi H.Ziya, dövlət xadimi N.Hacıyev, kinorejissor R.Ocaqov, musiqiçilər V.Mustafazadə, Ə.Şəkili, əmtəəşünas Ə.İsmayıloğlu, məşhur texnoloq-kulinar C.Xəlifəzadə, əfsanəvi partizanlar Ə.Cəbrayılov, N.Abdullayev, metallurq F.Mustafazadə, Aşıq Molla Cümə, ilk dəfə "Qurani-Kərim"i Azərbaycan dilinə tərcümə edən şəxs M.Şəkuyi və başqaları Şəki torpağının oğullarıdır.

Nəhayət, sonda məqalə müəllifi fikrini belə yekunlaşdırır: "Şəkidə doğulub boya-başa çatmış və şəkilinin Azərbaycan üçün hansı xidmətlər göstərdiyini bilmək istəyənlər Ə.Məmmədov və F.Xalıqovun böyük zəhməti bahasına başa gələn "ŞƏKİ. Alim və Ziyalılar" kitabını vərəqləsə, özünəməxsusluğunu əsrlər boyu qoruyub saxlayan, türk yurdunun əzəməti, böyüklüyü qarşısında heyrətlərini gizlədə bilməyəcək".

Biz də bu maraqlı kitabı oxumaqla orada kimyaçıların necə təmsil olunduqları ilə maraqlandıq. Kitabla tanışlıq və onun materiallarının təhlili göstərdi ki, orada digər ixtisas sahibləri ilə yanaşı, kimyaçılar da ləyaqətlə təmsil olunmuşlar. Belə ki, kitabda haqqında bioqrafik məlumat verilmiş 424 nəfər mütəxəssisin təqribən 60-a qədəri kimyaçıdır. Aşağıda həmin şəxsləri əlifba ardıcıllığı ilə oxuculara təqdim edirik. Bu zaman hər bir şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, elmi dərəcəsi, elmi adı və işləyib-işləmədiyi göstərilir.

243481

1. Abdullayev Asim Səbri oğlu (1958), kimya elmləri namizədi, böyük elmi işçi;

2. Abdullayeva Rima Səməd qızı (1938), kimya elmləri namizədi, böyük elmi işçi;

3. Ağamirzəyeva Zemfira Süleyman qızı (1935), kimya elmləri namizədi, böyük elmi işçi;

4. Bağbanlı İsgəndər Lətif oğlu (1894-1974), kimya elmləri doktoru, professor;

5. Bağbanlı Zemfira İsgəndər qızı (1936), texnika elmləri namizədi, təqaüdçü;

M.F.Axundov adına
Azərbaycan Milli

6. Bağbanlı Solmaz İsgəndər qızı (1937), kimya elmləri namizədi, böyük elmi işçi;

7. Bilalov Yaşar Mahmud oğlu (1936), kimya elmləri doktoru, professor;

8. Cavadova Həqiqət Əliəşrəf qızı (1939), kimya elmləri doktoru, professor;

9. Cəlaləddinov Fidail Fətullah oğlu (1952), kimya elmləri namizədi, böyük texnoloq;

10. Cəlilov Tacəddin Nizaməddin oğlu (1929), kimya elmləri namizədi, dosent, respublikanın əməkdar ixtiraçısı və səmərələşdiricisi;

11. Cəfərova Susanna Abduləziz qızı (1943), kimya elmləri namizədi, baş elmi işçi;

12. Əbdürrəhimov Əsədulla Ömər oğlu (1900-1969), pedaqoji elmlər namizədi, professor.

13. Əbdürrəhimova Reyhan Əsədulla qızı (1939), kimya elmləri doktoru, professor;

14. Ələkbərov Rəsul Əli oğlu (1928-2000), kimya elmləri doktoru, professor;

15. Ələkbərova Səkinə Əşrəf qızı (1906-1991), kimya elmləri doktoru, professor;

16. Əsgərzadə Səadət Məmməd Emin qızı (1949), texnika elmləri namizədi, baş elmi işçi, laboratoriya rəhbəri;

17. Əfəndiyev Heydər Xəlil oğlu (1907-1967), geologiya-mineralogiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü;

18. Əfəndiyev Ramiz Məcid oğlu (1918-1973), kimya elmləri namizədi, baş elmi işçi;

19. Əfəndiyev Məcid Ramiz oğlu (1949), kimya elmləri namizədi, baş elmi işçi;

20. Əfəndiyeva Nərminə Heydər qızı (1940), kimya elmləri namizədi;

21. Əfəndiyeva Şəhla Məmməd qızı (1942), kimya elmləri namizədi, böyük elmi işçi;

22. Əfəndiyeva Kəmalə Arif qızı (1964), kimya elmləri namizədi, böyük elmi işçi;

23. Əhmədov Rüfət Yunis oğlu (1949), kimya elmləri namizədi, kimya müəllimi;

24. Hacıyeva (Əsədullayeva) Tahirə Abdulla qızı (1942), kimya elmləri namizədi, baş elmi işçi;

25. Həmidov Rəhman Hüseyn oğlu (1949), kimya elmləri namizədi, böyük elmi işçi;

26. Heydərova Elçinə Aslan qızı (1937), kimya elmləri namizədi, baş elmi işçi;

27. Hüseynov Cəbrayıl Muxtar oğlu (1913-1974), kənd təsərrüfatı elmləri doktoru (aqrokimya üzrə), AMEA-nın həqiqi üzvü, SSRİ Dövlət Mükafatı laureatı;

28. Hüsenova Zülfiyra Neymət qızı (1955), kimya elmləri namizədi, böyük elmi işçi;

29. İbadzadə Edison Qafar oğlu (1941), kimya elmləri namizədi, böyük elmi işçi;

30. İbadzadə Afaq Cəfər qızı (1944), kimya elmləri namizədi, elmi işçi;

31. İdrisova Səadət Şərif qızı (1955), kimya elmləri namizədi, baş elmi işçi;

32. İsgəndərova Zenfira İsgəndər qızı (1950), kimya elmləri namizədi, baş elmi işçi, dosent;

33. İsrafilov Telman Davud oğlu (1939), texnika elmləri namizədi, dosent;

34. İsrafilova Sevil Zakir qızı (1934), kimya elmləri namizədi, baş elmi işçi;

35. Qasımova Nelli Məmməd qızı (1933), kimya elmləri namizədi, böyük elmi işçi;

36. Qafarov Sabir İbrahimxəlil oğlu, kimya elmləri namizədi, böyük elmi işçi;

37. Qəribov Adil Abdulxaliq oğlu (1950), kimya elmləri doktoru, professor;

38. Quluzadə Esmira Sadıx qızı (1949), kimya elmləri namizədi, baş elmi işçi; Elmi-Texniki məlumat, Patent Tədqiqatları və

Proqnozlaşdırma Şöbəsinin rəhbəri;

39. Qurbanova Rəfiqə Əhməd qızı (1938), kimya elmləri doktoru, professor;

40. Məmmədov Ziyəddin Fərman oğlu (1935), kimya elmləri namizədi, baş elmi işçi;

41. Məmmədov Zaman Mahmud oğlu (1933), geologiya-mineralogiya elmləri namizədi (geokimya üzrə), geoloji-kəşfiyyat dəstə rəisi;

42. Məmmədov Ələfsər Bəxtiyar oğlu (1952), kimya elmləri doktoru, professor;

43. Məmmədova Rahilə İsmayıl qızı (1944), kimya elmləri namizədi, dosent;

44. Məmmədəliyev Fətullah Cəlaləddin oğlu (1928-1992), kimya elmləri namizədi, baş müəllim;

45. Mustafayev Nazim Pirməmməd oğlu (1941), kimya elmləri doktoru, professor;

46. Nəcəfova Tamilla Əliəşrəf qızı (1931), kimya elmləri namizədi, dosent;

47. Novruzova Firəngiz Əhməd qızı (1948), kimya elmləri namizədi, elmi işçi;

48. Pişnamazzadə Böyükağa Fərəcullah oğlu (1918-1977), kimya elmləri doktoru, professor;

49. Rəhimli Mənzər Əhməd qızı, kimya elmləri namizədi, elmi işçi;

50. Sultanova Səbirə Əzəl qızı (1938-1988), kimya elmləri namizədi, böyük elmi işçi;

51. Şahgəldiyev Mais Əlinəcəf oğlu (1935-1993), kimya elmləri doktoru, professor;

52. Teymurov Elxan Fərrux oğlu (1951), kimya elmləri namizədi, baş elmi işçi;

53. Teymurova Emma Abas qızı (1948), texnika elmləri namizədi, baş elmi işçi;

54. Zülfüqarov Zülfüqar Hüseynqulu oğlu (1913-1992), kimya elmləri doktoru, professor, əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü;

55. Zülfüqarova Laləndar Şahid qızı (1922), kimya elmləri namizədi, baş elmi işçi;

56. Zülfüqarova Səadət Zülfüqar qızı (1949), kimya elmləri namizədi, baş elmi işçi.

57. İbrahimov Abdulla Cabbar oğlu (1943), kimya elmləri namizədi, dosent.

Beləliklə, yuxarıda sadalanan alimlərdən 1 nəfəri (professor C.Hüseynov) akademik, 2 nəfəri (professorlar H.Əfəndiyev və Z.Zülfüqarov) AMEA-nın müxbir üzvü, 15 nəfəri kimya elmləri doktoru, professor, 1 nəfəri (Ə.Əbdürrəhimov) pedaqoji elmlər namizədi, professor, qalanları isə böyük (baş) elmi işçilər və ya dosentlərdir. Alimlərdən 3 nəfəri (professor Z.Zülfüqarov, C.Hüseynov, Y.Bilalov) əməkdar elm xadimi, 1 nəfəri isə (T.Cəlilov) respublikanın əməkdar ixtiraçısı və səmərələşdiricisidir.

Sözügedən alimlərdən 13 nəfəri (İ.Bağbanlı, Ə.Əbdürrəhimov, R.Əbdürrəhimov, R.Ələkbərov, S.Ələkbərova, H.Əfəndiyev, R.Əfəndiyev, C.Hüseynov, F.Məmmədəliyev, B.Pişnamazzadə, S.Sultanova, M.Şahgəldiyev, Z.Zülfüqarov) vəfat edib və əbədiyyətə qovuşmuş, qalanları isə müvafiq elmi-tədqiqat və təhsil müəssisələrində elmi və ya elmi-pedaqoji fəaliyyətlərini davam etdirirlər. Dünyasını dəyişənlərə rəhmət diləyir, aramızda olanlara isə cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Əjdər XƏLİLLİ
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, akademik Y.Məmmədəliyev adına mükafat laureatı

"ŞƏKİ. Alim və Ziyalılar" kitabı

Azərbaycan müstəqillik qazandıqdan sonrakı illərdə respublikamızın bir çox rayonlarında yerli alim və ziyalıların, tanınmış elm, mədəniyyət və incəsənət xadimlərinin, təhsil və maarif, habelə xalq təsərrüfatının müxtəlif sahələrini təmsil edən bacarıqlı mütəxəssislərin şərəfli ömür yolu barədə kitablar yazılmışdır. Bunlardan biri də "ŞƏKİ. Alim və Ziyalılar" kitabıdır. Nəfis şəkildə çap edilmiş bu kitabın müəllifləri Azərbaycan Milli Elmlər Akademiyası Kimya Problemləri İnstitutunun aparıcı elmi işçisi, professor Ələfsər Məmmədov və Azərbaycan Müəllimlər İnstitutunun dosenti Fikrət Xalıqovdur.

Kitab "Ön söz" adlı məqalə ilə başlayır. Həm burada, həm də sonrakı məqalələrdə Azərbaycanın qədim şəhərlərindən olan Şəkinin özünəməxsus xüsusiyyətlərindən danışılır.

Böyük zəhmət və axtarışlar sayəsində araya-ərsəyə gələn bu kitabda əslən şəkili olan 424 nəfər alim və ziyalının ömür yolundan söhbət açılır. Qəzetimizin oxucuları üçün maraqlı cəhətlərdən biri odur ki, bu kitabda həm vaxtilə universitetimizdə çalışmış, həm də bu gün işləyən şəkili alim və ziyalılarımız barədə də maraqlı bioqrafik yazılar dərc olunmuşdur.

Maraqlananlar bu kitabı vərəqləyib şəkili alim və ziyalılarımızla tanış ola bilərlər.

Akif HACI
"İnşaatçı kadrlar" qəzetinin baş redaktoru, filologiya elmləri namizədi, dosent

ABBASOVA ƏMANƏT ƏSABƏLİ QIZI

Əmanət Abbasova 1953-cü ildə anadan olmuşdur.

O, 1965-ci ildə Şəki İpək kombinatının fabrik-zavod şagirdləri məktəbinə daxil olmuş və sonradan toxucu istehsalatına toxucu kimi qəbul olmuşdur. Toxuculuq peşəsini tam öyrəndiyi üçün çoxdəzgahlı ustası olmuşdur. Təhsilini axşam məktəbində davam etdirərək 1972-ci ildə orta məktəbi bitirmişdir.

Ə.Abbasova 1972-ci ildə Sov.İKP sıralarına qəbul olunmuşdur. 1976, 1981, 1986 və 1990-cı illərdə Azərbaycan KP MK-nın üzvü seçilmişdir. 1985-ci ildə Bakı Ali Partiya məktəbinə daxil olmuş və həmin məktəbi bitirmişdir.

O, 1987-ci ildə Şəki Texnologiya Texnikumunu bitirmişdir. IX və X çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmişdir (1975-1980).

Ə.Abbasova 1974-cü ildə qazandığı əmək nailiyyətlərinə görə Azərbaycan Respublikası dövlət mükafatı laureatı adına layiq görülmüşdür. 1975-ci ildə əmək fəaliyyətinə görə Azərbaycan Respublikası Lenin komsomolu mükafatı laureatı adını almışdır. 1974-cü ildə IX beşillikdə qazandığı əmək nailiyyətlərinə görə adı respublikanın şərəf kitabına yazılmışdır. 1975-ci ildə Moskvada qələbə bayrağı yanında şəkil çəkdirməyə dəvət olunmuş və orada ittifaqın bir qrup qabaqcılları ilə həmin bayrağın önündə şəkil çəkdirmişdir.

O, SSRİ-də çoxdəzgahlılıq hərəkatının üzvlərindən biri kimi bu sahədə əldə etdiyi nəticələrə görə 1977-ci ildə Lenin ordeni

ilə təltif olunmuşdur.

Ə.Ə.Abbasova İşlədiyi müddət ərzində dəfələrlə Şəki şəhər sovetinin deputatı, Şəki şəhər Partiya Komitəsinin plenum üzvü seçilmiş və həmin təşkilatların fəxri fərmanları ilə təltif olunmuşdur. 1999-cu ildə staja görə təqaüdə çıxmışdır.

ABBASOVA FƏRİDƏ FİRUZ QIZI

Fəridə Abbasova 1964-cü ildə anadan olmuşdur.

1982-ci ildə Bakı şəhərində 175 saylı orta məktəbi Qızıl medalla bitirmiş və Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdur.

1988-ci ildə İnstitutu fərqlənmə diplomu ilə bitirərək 16 saylı poliklinikada göz həkimi kimi iş fəaliyyətinə başlamışdır.

Fəridə Abbasova tələbə ikən, fakültə tələbə elmi cəmiyyətinin sədri olmaqla, oftalmologiyanın ən aktual problemlərindən olan Qlaukoma xəstəliyinin hipertoniya ilə qarşılıqlı əlaqəsinə dair, araşdırmalar aparmış, bir neçə elmi konfranslarda fəal iştirak etmiş, xüsusi diplom və mükafatlarla təltif olunmuşdur.O, poliklinikada Baş oftalmoloq işləməklə elmi araşdırmalarını davam edir, 6 məqalə və 1 səmərələşdirici təklifin müəllifidir

ADHT İnstitutunda ixtisaslaşdırma kursları keçərək bilik və təcrübəsini artırır. Onun məqalələri Tələbə məqalələr toplusunda, Tibb Universitetinin Elmi konfransları məcmuəsində, elmi-praktiki "Sağlamlıq" jurnalında nəşr olunmuşdur. Hazırda Fəridə Abbasova öz elmi işlərini tamamlama və müdafiə etmə ərəfəsindədir. O, I dərəcəli oftalmoloq olmaqla, kamil mütəxəssis, qayğıkeş həkim kimi həmkarlarının, Yasamal rayon sakinlərinin hörmətini qazanmış və sevilmişdir. Onun qüsursuz iş fəaliyyəti yerli qəzetlərdə dərc olunmuş, bir neçə fəxri fərmanla qiymətləndirilmişdir. Bakı şəhər Yasamal rayonunun Baş oftalmoloqudur.

ABBASOVA ŞÖVKƏT İMRAN QIZI

Şövkət Abbasova 1934-cü ildə ziyalı ailəsində anadan olmuşdur. 1952-ci ildə Yasamal rayon 18 saylı orta məktəbi bitirmişdir. Həmin ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuşdur. Universiteti qurtardıqdan sonra 1957-1967-ci illərdə Yasamal rayon 161 saylı orta məktəbində, 1967-1983-cü illərdə Nizami rayonu 210 saylı orta məktəbində müəllimə işləmişdir.

1983-1998-ci illərdə C.Naxçıvanski adına Hərbi Litseyində rus dili və ədəbiyyatı müəllimi işləmişdir.

O, əmək fəaliyyəti dövründə işlədiyi kollektivin hörmətini qazanmış, vətənə layiqli gənclərin təhsili və tərbiyəsi sahəsində şərəfli xidmətinə görə dəfələrlə əməyi yüksək qiymətləndirilmiş, müxtəlif dövrlərdə mükafat və fəxri fərmanlara layiq görülmüşdür.

Şövkət Abbasova hazırda təqaüddədir.

Ş.İ.Abbasovanın atası İmran Kaşıyev dövrünün görkəmli ziyalısı olub. Gəncə Kənd Təsərrüfatı İnstitutunun (indiki Gəncə Kənd Təsərrüfatı Akademiyası) tədris şöbəsinin müdiri, sonra isə AMEA Botanika İnstitutunun elmi katibi vəzifələrində işləmişdir.

ABDULLAYEV FİRİDUN MUXTAR OĞLU

Firidun Abdullayev 1931-ci ildə anadan olmuşdur. F.M.Abdullayev orta məktəbi bitirdikdən sonra ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. Orta musiqi ixtisası təhsili almışdır.

O, 1967-ci ildə Bakı Dövlət Sirkində işləmişdir. 1972-ci ildə Bakı Dövlət Sirkinə rəhbərlik etmişdir. F.Abdullayev bu vəzifədə özünü istedadlı, peşəkar, bacarıqlı, yüksək ixtisaslı bir mütəxəssis kimi göstərmişdir. Sirk sahəsində göstərdiyi böyük xidmətlərinə görə Azərbaycan Respublikasının "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülmüşdür.

Firidun muxtar oğlu Abdullayev 1987-ci ildə vəfat etmişdir.

Hazırda onun oğlu Murad Firidun oğlu Abdullayev atasının layiqli davamçısı olub, Rusiya Dövlət Sirkində "Əhliləşdirici" peşəsində müvəffəqiyyətlə fəaliyyət göstərir və sirk sahəsində göstərdiyi xidmətlərinə görə rusiya Federasiyasının "Əməkdar Artisti" fəxri adına layiq görülmüşdür.

ABDULLAYEV QƏNİ ABDULCƏMİL OĞLU

Qəni Abdullayev 1943-cü ildə Oxud kənd məktəbini bitirdikdən sonra həmin ildə Stalin adına Nuxa Pedaqoji texnikumuna daxil olmuş və 1946-cı ildə qurtarmışdır.

1946-1947-ci dərs ilində Qax rayonunda müəllim işləmişdir.

1947-48, 1948-49-cu illərdə illik Nuxa Müəllimlər İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində oxuyub qayıtmışdır.

Təyinat üzrə Zaqatala rayonunda müəllim işləmiş, 1951-1954-cü illərdə ordu sıralarında qulluq etmiş, 1952-ci ildə Saratov vilayətinin Volski Aviasiya məkiəbini bitirib, Batayski Hərbi Təyyarəçilik məktəbində texnik vəzifəsində işləmişdir. Texnik, baş leytenantdır, hərbi orta təhsillidir 1955-ci ildə ordudan qayıdandan sonra Nuxa (Şəki) rayonunda hal-hazıra qədər müəllim işləyir. İşlədiyi müddətdə Kənd Zəhmətkeş Deputatları Sovetinin üç çağırış (1982, 1990, 1995) deputat seçilmişdir.

1962-ci ildə V.İ.Lenin adına APİ-nin dil-ədəbiyyatı fakültəsini bitirmiş və müəllimlik fəaliyyətini davam etdirmişdir. İşlədiyi müddətdə Şəki şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutunda öz ixtisası üzrə fənnini tədris etmişdir. Azərbaycan SSR Maarif Nazirliyinin və şəki Təhsil Şöbəsinin fəxri fərmanları ilə təltif olunmuşdur. Beşilliklərin qalibi döş nişanları ilə təltif olunmuşdur.

5 may 1965-ci ildə Respublika Müəllimlər konfransının nümayəndəsi olmuşdur.

1985-ci ildə "Metodist müəllim" adı verilmiş, (AzSSR M. Nazirliyinin 75 saylı əmri ilə), Şəki Maarif Şöbəsinin Metodkabineti tərəfindən iş təcrübəsi yayılmış və ayrıca kitabça buraxılmışdır.

1983-cü ildə "Azərbaycan dili və ədəbiyyatı" (№ 1), "Azərbaycan məktəbi" jurnalının məsul katibi məhəmməd Baharlı "Müasirlik əsas amildir" başlığında ("Q.Abdullayevin iş təcrübəsi" 1986 - "Azərbaycan məktəbi", № 4), Sədrəddin Bədiyev - (Azərbaycan MMTŞ-nin Şəki filialı tərbiyə kabinetinin müdiri) "Yeni fənn müvəffəqiyyətlə öyrədilir" başlığında (Q.Abdullayevin iş təcrübəsi) məqalələr verilmişdir.

VI-VII Respublika Müəllimləri qurultaylarının nümayəndəsi olmuş, Almaz Qeysər qızının "Mənəviyyatımızın memarları" kitabında ayrıca səhifə ayrılmış, geniş məlumat verilmişdir. 20-dən çox elmi-pedaqoji məqalələrin müəllifidir. Ali kateqoriyalı metodist müəllimdir. İndi də pedaqoji fəaliyyətini davam etdirir.

O, Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

ABDULLAYEV MAHİR MƏMMƏDİYYƏ OĞLU

Mahir Abdullayev 1963-cü ildə anadan olmuşdur.

Şəki şəhər 19 saylı orta məktəbi bitirdikdən sonra Mahir Abdullayev 1980-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun "İstehsal Proseslərinin Avtomatlaşdırılması" fakültəsinin "tətbiqi riyaziyyat" ixtisasına daxil olmuşdur.

1985-ci ildə ali təhsilini başa vurduqdan sonra o, "Azərbaycan Neft Sənayesinin Elmi Tədqiqat və Layihə İnstitutu"nda mühəndis vəzifəsində ilk əmək fəaliyyətinə başlamışdır. Burada işlədiyi iki ilə yaxın müddətdə o, "Neft laylarında quyudibi zonalara təsir"laboratoriyasında aparılan elmitətbiqi işlərdə fəal iştirak etmiş, gördüyü işlərin yekunlarına dair məqalələrlə institutun elmi məcmuələrində, eləcə də keçmiş Sovetlər İttifaqında nəşr olunan jurnalların səhifələrində məqalələr çap etdirmişdir.

Öz təhsilini davam etdirmək və elmi fəaliyyətlə daha yaxından məşğul olmaq məqsədilə Mahir Abdullayev 1987-ci ildə AzNKİ-nin aspirantura şöbəsinə daxil olmuş və 1992-ci ildə "Özlü elastik heterogen mayelərin boruda hərəkəti zaman mövcud olan qeyri-xətti effektlərin öyrənilməsi" mövzusunda dissertasiya müdafiə edərək "texniki elmlər namizədi" alimlik dərəcəsi almışdır.

Sonrakı illərdə Mahir Abdullayev oxuduğu institutun "Qaz və Neft-mədən" fakültəsində dosent və həmin institutun nəzdində fəaliyyət göstərən "Neftin, qazın geotexnoloji problemləri və kimya" Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi vəzifələrində çalışmışdır. Bu illər ərzində o, beynəlxalq əhəmiyyətli bir sıra elmi seminarlar və konfranslarda məruzələrlə çıxış etmiş, müxtəlif elmi toplularda, dövri jurnallarda onlarla məqalələr çap etdirmiş və həmçinin elmi-metodik rəhbərliklərin tərtib olunmasında həmmüəllif kimi iştirak etmişdir.

Hal-hazırda Mahir Abdullayev yüksək ixtisaslı mütəxəssis kimi xalq təsərrüfatı əhəmiyyətli bir sıra layihələrdə iştirak etməklə yanaşı, ölkəmizin elmi potensialının artırılması və yeni kadrların hazırlanmasında da öz səmərəli fəaliyyətini davam etdirməkdədir.

ABDULLAYEV MUXTAR NAĞI OĞLU

Muxtar Abdullayev 1898-ci ildə anadan olmuşdur.

O, əmək fəaliyyəti dövründə bir çox rəhbər vəzifələrdə çalışmışdır. M.Abdullayev bir müddət Dağıstanın Xasavyurd rayonunun poçt rəisi vəzifəsində çalışmışdır. Sonralar Torpaq Nazirliyində nazir müavini işləmişdir. Muxtar Abdullayev Nuxa-Zaqatala dairəsi üzrə prokuror vəzifəsində çalışmışdır.

1935-1937-ci illərdə Azərbaycan respublikası Şəki şəhərinin İcraiyyə Komitəsinin sədri vəzifəsində işləmişdir.

ABDULLAYEV NURU

Böyük Vətən müharibəsi başlandı. Nuru cəbhəyə getdi. Onu I Belorusiya cəbhəsinə göndərdilər. Onun mətanətlə xidmət etdiyi diviziya 1941-ci ilin sentyabrında döyüşə-döyüşə Ukraynanın Ovolovski kəndinə gəlib çatdı. Altı gün davam edən ağır vuruşmalar səngimədi. Hissə düşmən mühasirəsinə düşmüşdü. Ağır dəqiqələr yaxınlaşırdı. Nuru buna baxmayaraq nikbin görünürdü. O, inamını itirmirdi.

Əsir alınmasına baxmayaraq o, vüqarlı idi.

1942-ci ilin iyul ayında faşistlər azərbaycanlı hərbi əsirlərlə bərabər Nurunu da Jitomirdən Polşanın Edlina şəhərinə gətirdilər. Onlar istəyirdilər ki, əsirlər öz vətənlərinə qarşı çıxsınlar. Buna tam zidd olaraq, düşmənin azğın təbliğatına qarşı yönəlmiş azərbaycanlı hərbi əsirlər öz gizli anti-faşist qruplarını yaratmışdılar. Gizli qrup əsirləri düşmənə qarşı mübarizəyə hazırlayır, fürsət düşdükcə düşərgədən onların qaçmasını və partizanlara qoşulmalarını təşkil edirdi.

1943-cü ilin ortalarında əsirlər Fransanın cənubundakı Rodez şəhərinə gətirildilər.

1944-cü ilin avqust ayının 15-də gecə saat 12-dən artıq vəziyyət dəyişməyə başladı. Kütləvi qırğın başlamışdı. Gizli təşkilatın üzvləri tutulur, həbs edilirdilər. Hər şey məlum idi. Düşərgədən qaçmaq qorxulu olduğuna baxmayaraq, Nuru Abdullayev bir dəstə əsirlə birlikdə əvvəlcədən öyrəndikləri gizli yolla Rodezin cənubundakı meşəliyə qaçmağa müvəffəq oldu. "Arrodez" porolu fransız partizanları ilə onları birləşdirdi.

1944-cü il avqust ayının 18-də Nurunun həyatında əlamətdar bir hadisə baş verdi. Onu Fransa partizanları sırasına qəbul etdilər. O, həmin gündən iki bilet daşıyırdı. Biri qoruyub saxladığı partiya bileti, o biri isə təzə aldığı Fransa partizanı bileti idi. Məhz həmin gündən Nuru Abdullayev Partizan Nuru adı ilə məşhurlaşdı.

ABDULLAZADƏ LƏTAFƏT HƏSƏN QIZI

Lətafət Abdullazadə 1934-cü ildə anadan olmuşdur.

1941-ci ildə Şəki 7 saylı Qızlar orta məktəbinə daxil olmuş, 1951-1952-ci illərdə bitirmişdir. 1953-cü ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutuna daxil olmuş və 1958-ci ildə alman dili ixtisası üzrə təhsilini bitirmişdir.

1962-ci il fevralın 8-dən Azərbaycan Politexnik İnstitutunda laborant kimi elmi fəaliyyətə başlamışdır. Daha sonralar baş laborant işləmiş, 1967-ci ildə asisent, 1975-ci ildən bu günə qədər alman dili fənni üzrə baş müəllim kimi fəaliyyət göstərir. İşlədiyi müddətdə Politexnik İnstitutunda fəaliyyət göstərən Tələbə İnşaat dəstəsində komandir və komissar vəzifələrində çalışmış və orada bu dövrdə tərifnaməyə layiq görülmüşdür. Proqram tərtibçisi kimi iştirak etmişdir. Bir çox yerlərdə (Xaçmaz, Naxçıvan və s.) elmi konfranslarda iştirak etmişdir. 10-a yaxın məqalənin müəllifidir.

İnstitut rəhbərliyi tərəfindən fəxri fərmanlar, tərifnamələr ilə dəfələrlə təltif edilmişdir. Əmək veteranıdır. İşlədiyi kafedrada nöqsansız çalışmış və bu gün də həmkarları tərəfindən hörmət qazanmaqdadır. Kafedrada tələb olunan səviyyədə elmi işlərlə məşğul olmuşdur. Hal-hazırda "Hesablama texnikası" üzrə lüğət üzərində işləyir.

ABDULLAYEVA GÜLARƏ ABDURƏHMAN QIZI

Abdullayeva Gülarə 1970-ci ildə kolxozçu ailəsində anadan olmuşdur. 1977-ci ildə Qoxmuq kənd orta məktəbinin birinci sinifinə getmiş, 1987-ci ildə həmin məktəbi bitirərək, ADPU-nun filologiya fakültəsinə daxil olmuşdur. 1992-ci ildə ali təhsili fərqlənmə diplomu ilə başa vuraraq, təyinatla Qoxmuq kənd orta məktəbində dil-ədəbiyyat müəllimi kimi işə başlamışdır. Həmin oktyabrında başa vurduğu fakültənin rəhbərliyi tərə-

findən aspiranturaya dəvət edilmiş, 1992-1995-ci illərdə "Xalqların dilləri" ixtisası üzrə aspiranturada təhsilini davam etdirmişdir. 1995-ci ildən BDU-nun Şəki filialında işləməyə başlamış, baş müəllim, kafedra müdiri vəzifələrində çalışmışdır.

2000-ci ildə "Azərbaycan dilində -sa, -sə şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. Şəmin ilin noyabrında müdafiə işi AAK tərəfindən təsdiqlənmişdir.

Bir monoqrafiyanın, onlarla elmi məqalənin müəllifidir.

ABDULLAYEV OSMAN ABDULCƏMİL OĞLU

Abdullayev Osman 1930-cu ildə anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra Şəki Kənd Təsərrüfatı texnikumuna daxil olur və oranı müvəffəqiyyətlə bitirmişdir. Atasının yolunu davam etdirmək üçün arıçılıq peşəsini seçən Osman bu peşənin sirrlərini öyrənməyə başlayır.

Arıçılıq peşəsi çox maraqlı və hövsələ tələb edən bir peşədir. O, Rusiyaya, ryazan vilayətinin Rıbnı şəhərinə oxumağa gedir. Arıçı zootexnik kimi qayıdan O.Abdullayev tez bir zaman ərzində işlədiyi "Rayonlararası arıçılıq bazası"nın baş zootexniki və 1960-cı ildə həmin idarənin müdiri vəzifəsinə təyin edilir.

O.Abdullayev 1961-ci ildə Moskva şəhərində keçirilən sərgiyə dəvət alır (VDNX) və oradan təmiz şanı balına görə qızıl medal və diplomla geri qayıdır.

Daha da həvəslə bu işə yiyələnən O.Abdullayev Kənd təsərrüfatı Nazirliyinin "Azərbaycanda arıçılığın inkişaf etdirilməsi" proqramının həyata keçirilməsi üçün yaradılmış komissiyaya rəhbərlik edir və respublikanın rayonları Kəlbəcər, Laçın,

Xankəndi və Zəngilana ezam olunur. Arıçılarla söhbətlər, arı xəstəliklərinin qarşısının alınması və kursların təşkil olunması ilə arıçılığın inkişafına istiqamət verir. Arıların kötük üsulundan pətək üsuluna eçirilməsini və ləvəzimatlarla təmin olunmasını məhz O.Abdullayev etmişdir. Bununla yanaşı texnikumlarda və Kənd Təsərrüfatı İnstitutunda "Arıçılıq" fakültəsinin açılmasının ilk təşəbbüskarı olmuşdur.

Rusiyanın Kənd Təsərrüfatı Nazirliyinin Arıçılıq şöbəsinin rəisi Şişikinin təşəbbüsü ilə Osman Abdullayev Balakən-Zaqatala-Qax zonasına Baş zootexnik təyin edilmişdir.

Osman Abdullayev haqqında qəzetlərdə və Moskva şəhərində nəşr olunan "Pçelovodstvo" jurnalında böyük məqalələr dərc olunur və bir neçə dəfə orden, medallarla təltif olunmuşdur.

ABDURƏHMANOV NƏSİB YUSİF OĞLU

Nəsib Abdurəhmanov (Nəsib doktor) 1913-cü ildə anadan olmuşdur. 4 yaşında olarkən ata və anası ölüb, yaxın qohumlarından biri onu himayəyə götürmüşdür. Çörəkçi yanında, çəkməçi yanında şagird durmuş, barama açan fabrikdə fəhlə işləmişdir. Sonradan Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. 1939-cu ildə institutu bitirmiş və hərbi xidmətə çağırılmışdır. Hərbi xidməti qurtarana yaxın 1941-ci ildə Böyük Vətən müharibəsi başlayıb. Belarusiya cəbhəsindən Berlinə qədər çətin bir yol keçib. Orden və medallarla təltif olunub.

O, 1946-cı ildə Şəkiyə qayıdıb. Kənd həkimindən Səhiyyə Şöbəsinin baş həkimi, baş həkim, baş həkimin müavini vəzifəsinə qədər yüksəlib. Ömrünün sonuna kimi Şəki Mərkəzi xəstəxanasında Baş həkimin müavini olmuşdur. Onun gördüyü işlər par-

tiya və dövlət tərəfindən qiymətləndirilib. IV-V çağırış yerli sovetlərin deputatı olub. Səhiyyə Nazirliyinin, Ali Sovetin fəxri fərmanları ilə təltif olunub. Səhiyyə Əlaçısı döş nişanı ilə təltif olunub. Azərbaycan Respublikasının Əməkdar həkimi adına layiq görülüb. Şəki şəhərinin fəxri vətəndaşı olub. Respublika əhəmiyyətli fərdi pensiyaçı idi.

Nəsib Abdurəhmanovun Şəkidə tibbi kadrların hazırlanmasında böyük rolu olub. Onun tələbələrindən hazırda bir neçə tibb elmləri namizədi, müxtəlif rəhbər vəzifələrdə çalışanlar var. Onun Şəki səhiyyəsində gördüyü işlər indi də xatırlanır.

Nəsib Abdurahmanov 1976-cı ildə Ramazan ayının axırıncı cümə günündə (sentyabr ayının 23-də) ürək xəstəliyindən qəflətən vəfat etmişdir.

ABDURRƏHMANOVA ZÜLEYXA MƏMMƏD QIZI

Züleyxa Abdurrəhmanova 1910-cu ildə ticarətçi ailəsində anadan olmuşdur. Kiçik yaşlarında olarkən ata və anasını itirmişdir. 8 yaşında Nuxa şəhərində fəaliyyət göstərən Qızlar Gimnaziyasına daxil olmuş və oranı müvəffəqiyyətlə bitirdikdən sonra dövrün tələbatına uyğun olaraq, Şəki şəhərinin müəyyən mərhələlərində savadsızlığın ləğv edilməsi ilə əlaqədar təşkil edilmiş məktəblərində savadsız qadınlara dərs demişdir.

1928-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş və 1933-cü ildə oranı bitirdikdən sonra təyinatla Şəki şəhər Pedaqoji məktəbində kimya və biologiya fənlərinin tədrisi üzrə müəllimlik fəaliyyətinə başlamışdır. 1939-cu ildə Salehli Mirzə Məmmədbağır oğlu ilə ailə həyatı qurmuşdur.

Böyük Vətən müharibəsi illərində (1941-1945) Sovet İttifaqı Kommunist Partiyasının üzvü olduğu üçün o, Şəkidə arxa cəbhə təminatı üzrə təşkil edilmiş, Ukrayna və Belorusiyadan qaçqın düşmüş şəxslərin şəhərdə yerləşdirilməsi və onların maddi təminatı ilə məşğul olan Komitəyə rəhbərlik etmişdir. Bununla yanaşı, müharibə illərinin bütün çətinliklərinə baxmayaraq öz evində 10 nəfər yəhudi qaçqını da yerləşdirmişdir. Böyük Vətən müharibəsi illərində arxa cəbhədə əmək fəaliyyətinə görə medalla təltif olunmuşdur.

Müharibədən sonra 1947-ci ildə Şəki şəhər M.Qorki adına orta məktəbinə kimya və biologiya fənnlərinin tədrisi üzrə müəllim təyin olunmuş və əmək fəaliyyətinə görə Şərəf nişanı ordeninə layiq görülmüşdür.

1940-cı ildə Salehli Edison Mirzə oğlu, 1946-cı ildə Salehli Solmaz Mirzə qızı anadan olmuşdur.

Z.Abdurəhmanova 1993-cü ildə vəfat etmişdir.

ABİDOV ATAKİŞİ CABBAR OĞLU

Atakişi Abidov 1936-cı ildə anadan olmuşdur.

O, Şəki şəhər orta məktəbini bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. 1959-cu ildə fərqlənmə diplomu ilə bitirib, Şəkiyə, Böyük Dəhnə kəndinin tibb məntəqəsinə işləməyə göndərilmişdir.

A.Abidov 1962-ci ildən 1964-cü ilədək Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinin Hospital terapiya kafedrasında klinik ordinator kimi fəaliyyət göstərmiş, 1964-cü ildən həmin kafedranın aspirantı olmuşdur.

O, 1968-ci ildə dissertasiya müdafiə edib, tibb elmləri namizədi alimlik dərəcəsini almışdır.

A.Abidov 1967-ci ildən 1971-ci ilədək Terapiya kafedrasının assistenti, 1971-ci ildən isə kafedranın dosenti olmuşdur. Dosent A.C.Abidov geniş elmi-pedaqoji, müalicəvi və ictimai iş aparıb. 31 elmi işin müəllifi olub.

O, 1972-ci ildən 1987-ci ilədək hazırlıq şöbəsinin dekanı olub. Həmin illərdə həmçinin qəbul imtahanlarının məsul katibi olub. 1981-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1981-ci il tarixli fərmanı ilə dosent A.C.Abidova Azərbaycanın əməkdar həkimi fəxri adı verilmişdir.

A.C.Abidov 1990-cı ildə vəfat etmişdir.

ABİDOV AYDIN ATAKİŞİ OĞLU



Aydın Abidov 1962-ci ildə həkim ailəsində anadan olmuşdur.

O, 1979-cu ildə Bakı şəhəri 248 saylı orta məktəbini qızıl medalla bitirdikdən sonra həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olub. Oxuduğu müddətdə institutun ictimai həyatında fəal iştirak etmişdir. Tələbə elmi cəmiyyətinin sədri olmuşdur.

A.Abidov 1985-ci ildə institutu fərqlənmə diplomu ilə bitirdikdən sonra klinik ordinaturaya qəbul olunmuşdur. 1987-ci ildə bitirdikdən sonra Ukrayna Respublikasının Xarkov şəhərində aspiranturaya qəbul olunmuşdur.

O, 1990-cı ildə dissertasiyanı müvəffəqiyyətlə müdafiə edib, tibb elmləri namizədi alimlik dərəcəsini almış, hHəmin ildən Azərbaycan Dövlət Tibb İnstitutunun Daxili xəstəliklər kafedrasında assistent vəzifəsində çalışmağa başlamışdır.

A.Abidov 5 elmi işin müəllifi olub. Onun rəhbərliyi ilə bir neçə dissertasiyalar yerinə yetirilmiş və müdafiə olunmuşdur.

O, 1993-cü ildə İsrail ölkəsinə köçüb Təl-Əviv şəhərinin Kordioloji Mərkəzində öz iş fəaliyyətini davam etdirmişdir.

A.Abidov 2000-ci ildə ABŞ-da Los-Anceles şəhərində doktorluq dissertasiyasını müdafiə etmişdir. Hal-hazırda orada çalışır.

AĞAHÜSEYNZADƏ MÖHTƏRƏM RZA QIZI

Ağahüseynzadə Möhtərəm 1933-cü ildə anadan olmuşdur.

O, Qədim el sənətimiz olan təkəldüz (tikmə) sənətinin sirlərini atası, usta Rza Tağızadədən öyrənmişdir.

M.Ağahüseynzadə orta məktəbi bitirdikdən sonra 1952-ci ildə Azərbaycan Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olaraq, 1958-ci ildə oranı bitirmiş və Şəki şəhər 7 saylı orta məktəbində müəllim kimi əmək fəaliyyətinə başlamışdır.

Sənətə olan həvəsi və atasının zəhmətini itirməmək üçün həm Şəki şəhər 7 saylı orta məktəbində, həm də Şəki şəhər pionerlər evində məktəbliləri təkəlduz dərnəyinə cəlb etmiş və təkəlduz sənətinin sirlərini məktəblilərə öyrətmişdir.

O, xalq sənəti nümunələrinə dair bir çox sərgilərin iştirakçısı olmuş, Azərbaycan SSRİ Ali Rəyasət Heyətinin 1989-cu il 3 noyabr tarixli fərmanı ilə xalq yaradıcılığı sahəsində xidmətlərinə görə "Azərbaycan SSR-in əməkdar mədəniyyət işçisi" fəxri adına, 29 fevral 1996-cı ildə isə "Xalq sənəti və özünüməşğulluq" proqramı çərçivəsində keçirilən 1-ci Şəki yarmarkasının qalibi adına layiq görülmüşdür

M.Ağahüseynzadə 11 noyabr 1999-cu ildə xalq sənətkarları-

nın əl işlərinə II Respublika baxış-müsabiqəsi tikmə bölməsinin I dərəcəli diplomu ilə təltif edilmiş və laureat adını almışdır.

O, 2003-cü ildə "Girdiman" mədəniyyət Diyarşünaslıq Mərkəzinin sertifikatını almışdır.

Möhtərəm müəllimənin haqqında qəzetlərdə çoxsaylı məqalələr, kitablar yazılmış, həmçinin, televiziya filmləri çəkilmişdir.

AĞASIYEV İKRAM KƏRİM OĞLU

İkram Ağasiyev 1963-cü ildə anadan olmuşdur. I Biləcik kənd orta məktəbini müvəffəqiyyətlə qurtardıqdan sonra 1981-ci ildə ordu sıralarına çağırılmışdır. 1983-cü ildə hərbi xidməti başa vurduqdan sonra Ukrayna respublikasına getmiş və 1984-cü ildə Ukraynanın Lutsk şəhərində Volın vilayət tarix muzeyində elmi işçi vəzifəsində çalışmışdır.

O, 1992-ci ildə Volın Dövlət Universitetinin aspirantura şöbəsinə daxil olmuş, "XVIII əsrin sonu - XX əsrin əvvəllərində Qərbi Ukraynada alman koloniyaları" adlı dissertasiya mövzusu üzərində işləmişdir. Rus, ukrayna və alman dillərini mükəmməl mənimsəyən aspirant, elmi fəaliyyət dairəsini genişləndirməyə müvəffəq olmuşdur. Ağasıyev İkram Volın vilayətinin ensiklopediyasının yazılmasında fəal iştirak, Almaniyanın tarixçi alimləri ilə sıx əməkdaşlıq yaratmışdır. Volın vilayətində yaşamış, alman əhalisinin tarixinin öyrənilməsində nailiyyətlərini nəzərə alaraq, Almaniyanın Vizenthayt şəhərində fəaliyyət göstərən "Volın" tarixi cəmiyyəti İkram Ağasıyevi öz sıralarına fəxri üzv kimi qəbul etmişdir.

İ.Ağasiyev 1995-ci ilin sonunda aspiranturanı başa vurduqdan sonra İ.Ağasıyev Rusiya Federasiyasına dəvət olunmuş, 1996-

2002-ci illərdə Krasnoyarsk Dövlət Pedaqoji Universitetində müəllim ləmişdir. 1999-cu ildə "Volın quberniyasında alman koloniyaları (XVIII əsrin sonu - XX əsrin əvvəlləri)" mövzusunda dissertasiya müdafiə etmiş və Rusiya Ali Attestasiya Komissiyasının təsdiqi ilə tarix elmləri namizədi alimlik dərəcəsini almışdır.

O, 2002-ci ilin sonunda İ.Ağasıyev doğma Vətənə - Azərbaycana qayıtmış, 2003-cü ilin əvvəlindən AMEA Tarix İnstitutunda elmi işçi və Bakı Biznes Universitetində baş müəllim vəzifələrində çalışır. İ.Ağasıyev eyni zamanda Bakı Biznes Universitetində nəşr olunan "Audit" jurnalının məsul katibidir. 25 elmi işin müəllifi olan tarixçi-alim elmi araşdırmalarını davam etdirir. Tədqiqatçı Azərbaycan diasporunun problemlərinə dair bir neçə elmi məqalə hazırlanmış və hazırda "Almaniyada Azərbaycan diasporu" adlı monoqrafiya üzərində işləyir.

AĞASIYEV FƏRRUX FƏRHAD OĞLU (AĞASIBƏYLİ)

Fərrux Ağasıyev 1937-ci ildə anadan olmuşdur. 7-illik təhsilini Orta Zəyzid kəndində alıb. 1950-1954-cü illərdə Şəki Pedaqoji Texnikumunda oxuyub və bir müddət Masallıda müəllim işləyib. 1958-1964-cü illərdə BDU-nun filologiya fakültəsində oxuyub və ali təhsil alıb.

Ali kateqoriyalı dil-ədəbiyyat müəllimidir. 1962-ci ildən Bakının müxtəlif məktəblərində təlim-tərbiyə işi üzrə direktor müavini və direktor işləmişdir. Mətbuat təəssübkeşidir. "Qızıl Qələm" mükafatı laureatıdır. Hələ tələbəlik illərindən başlayaraq ədəbiyyatşünaslığa aid maraqlı məqalələrlə mətbuatda çıxış etmişdir. C.Məmmədquluzadə,

M.P.Vaqif haqqındakı yazıları, mətbuat tarixinə aid məqalələri, böyük maarifçi vəkil Mustafa bəy Əlibəyov və Xədicə xanım Əlibəyovaya həsr edilmiş elmi tədqiqatları var.

F.F.Ağasıbəyli yaradıcı müəllimdir. Onlarla elmi pedaqoji və məktəbşünaslığa aid məqalələrin, "Yasamal yaylasında ilk məktəb" kitabının müəllifidir. Onu orta məktəblərdə proqram və dərslik müəllifi kimi də tanıyırlar. VI sinif ədəbiyyat dərsliyinin müəlliflərindən biridir. O, uzun müddətdir ki, müxtəlif məzmunlu qəzet, jurnal məqalələri və publisist yazıları ilə mətbuatda çıxış edir. F.Ağasıbəylinin bədii yazılarını oxuyanlar onu şair kimi də tanıyır.

F.F.Ağasıbəyli 1989-cu ildən Bakı şəhəri Yasamal rayonundakı 21 saylı məktəbin direktorudur. O, eyni zamanda müstəqil ictimai-siyasi "Təzə həyat" qəzetinin baş redaktorudur. F.F.Ağasıbəylinin üzərində işlədiyi "O bizə şərəfdir, biz ona övlad" adlı yeni kitab XIX əsrin sonlarında XX əsrin əvvəllərində yaşayıb-yaratmış vəkil M.Əlibəyovun həyat və yaradıcılığından, onun ictimai-siyasi fəaliyyətindən bəhs edən maraqlı tədqiqat əsəridir. Bundan başqa, "Xaqan" nəşriyyatında çapa hazırlanan "Təmsillər", Şəki ziyalısı. İctimai-siyasi xadim Əbdülrəhim Əbdürrəhman oğlu Məmmədovun "Ömrümdən yadda qalan bəzi xatirələr" adlı iki xatirə-roman və "Monoloqdan dialoqa gedən yol" elmi-pedaqoji əsərləri çapa hazırlanmışdır.

AXUNDOV BAXŞƏLİ KAZIM OĞLU (BAXŞƏLİ ƏFƏNDİ)

Baxşəli Axundov 1898-ci ildə anadan olmuşdur.

Baxşəli Əfəndinin doğma yurdun mədəni, tarixi, ictimai həyatında çox böyük rolu olmuş, Şəki Diyarşünaslıq Muzeyinin yaranışı da onun adıyla bağlıdır.

Baxşəli Əfəndi gənc yaşlarında Parisdə tibb təhsili almaq üçün oxuduğu zaman, hansısa səbəbdən onu ailəsindən məktub

yazıb geri çağırırlar. O, qayıdandan sonra Parisə bir daha geri dönə bilmir. Sonradan o, ata bir, ana ayrı qardaşının yanına Tehran şəhərinə gəlir, burada bir müddət məktəbdar işində çalışır. O, ərəb və fars dillərini gözəl bilirdi. Şimali Azərbaycana qayıdandan sonra O, Qəza Firqə Komitəsinin və Qəza Maarif Şöbəsinin müdiri də işləmişdir.

B.K.Axundov sənətşünas, xalça bilicisi Lətif Kərimovla, köhnə mətbuat işçisi, jurnalist Qulam Məmmədli, Cəfər Cabbarlı və onun ailəsi ilə dost idi.

Dövrünün tanınmış ziyalılarından olan Baxşəli Əfəndinin adıyla bağlı məktəblər sırasında Şəkidə orta ixtisas musiqi texnikumunun, ibtidai musiqi məktəbləri də var. Musiqi texnikumunda o, xeyli illər direktor işləmişdir. Dərin düşüncəli, geniş dünyagörüşü olan Baxşəli Əfəndi daim xalqı üçün əvəzsiz yaxşılıqlar etmiş, dərindən bildiyi böyük Quranı arzu edənlərə cani-dildən öyrədərdi. Şəki bölgəsinin qazisi olan Hacı Səlim Əfəndinin dini bilgi üzrə ilk müəllimi Baxşəli Əfəndi olmuşdur.

B.K.Axundov 1985-ci ildə dünyasını dəyişmişdir.

AXUNDOVA DİLƏFRUZ BAXŞƏLİ QIZI

Diləfruz Axundova 1925-ci ildə anadan olmuşdur.

D.Axundova Stalin adına Şəki Pedaqoji məktəbini, sonra 2 illik qiyabi Müəllimlər İnstitutunu oxumuşdur. 1942-ci ilin mart ayında məcburi təyinatla Balakənin Tala kəndi 1 saylı orta məktəbində əmək fəaliyyətinə başlamış, sonra Şəkinin Baş

Zəyzid kəndində, şəhərin Qışlaq məktəbində, 10 saylı məktəbdə fəaliyyətini davam etdirmişdir.

1966-1987-ci illərdə məktəb partiya təşkilatının katibi işləmişdir.

Diləfruz xanım 1964-cü ildə "Qabaqcıl Maarif xadimi" döş nişanı, 1970-ci ildə "Rəşadətli əməyə görə" medalı, 1971-1976-cı illərdə fəxri fərmanlara, 1982-ci ildə 5 saylı səkkizillik ümumtəhsil məktəbinin yaradılmasının 150 illiyi zamanında, 30 sentyabrda "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. 1980-ci və 1997-ci illərdə "Əmək veteranı" adını almışdır. 1987-ci ildə Azərbaycan müəllimlərinin VII qurultayının nümayəndəsi olmuşdur. D.B.Axundova həm də "Qəhrəman ana" medalı ilə də təltifləndirilmişdir.

Şəkinin çox tanınmış adlı ziyalılarından olan, ömrünün yarım əsrdən çox hissəsini pedaqoji fəaliyyətə həsr edən "Əməkdar müəllim" kimi fəxri ada layiq görülən Diləfruz Axundova hazırda təqaüddədir.

AXUNDOV MİRHƏSƏN MİRABDULLA OĞLU

Axundov Mirhəsən 1893-cü ildə anadan olmuşdur.

Mirhəsən 1905-ci ildə Şəkidə yeni açılmış rus-tatar məktəbinə daxil olmuşdur. Mirhəsən 1910-cu ildə Şəkidə fəaliyyət göstərən "Kommersiya Bank"ına işə getməli olmuşdur. Mirhəsənin çox gözəl, aydın xəttinə heyran olmuş, üz-gözündən hesabdar müavini vəzifəsinə qəbul etmişdir. Sonralar isə şöbə müdirinədək yüksələn Mirhəsən öz üzərində müntəzəm çalışmışdır. Belə ki, iqtisadiyyata aid araşdırmalar aparmış, dünyagörüşünü artırmaq məqsədiylə dünya ədəbiyyatını

mütaliyə etmişdir (Homer, Firdovsi, Nizami, Füzuli, Sədi, Nəsimi, Şekspir, Düma, Puşkin, Tolstoy...).

Öz xalqına hədsiz xidmətləri Mirhəsənin də ziyalı kimi yetişməsinə təkan vermişdir. O, Şəki Xeyriyyə Cəmiyyətinin üzvü olaraq əhaliyə faydalı məsləhətlər, tövsiyyələr verir, imkansızlara yardım göstərərək, onların xeyir-şər işlərində fəal iştirak etmişdir.

1924-1927-ci illərdə Mirhəsən Axundov Moskvada 3 illik İqtisadiyyat İnstitutunda oxumuşdur. Moskva həyatı ona müsbət təsir etmişdirsə də, kədərli günləri də olmuşdur.

1925-ci ildə Azərbaycanın görkəmli ictimai xadimi həkim N.nərimanovun ölümü onu da çox kədərləndirmişdir. Moskvada təhsil alan azərbaycanlı tələbələrlə birlikdə dəfn mərasimində fəal iştirak etmişdir.

İnstitutu bitirərək Şəkiyə qayıdan Mirhəsən Şəki, Zaqatala, Qax, Balakən rayonlarında ticarət sisteminə rəhbərlik etmişdir. O, əsas işi olan koperasiyasının inkişafı üçün yerli kadrların hazırlanması naminə, kooperativ kurslarının açılmasına xeyli əmək sərf etmiş, şəxsən özü də tədrislə məşğul olmuşdur.

Bundan əlavə qadınların savadsızlığının ləğvi məqsədilə kursların açılması, onların ictimai işlərə cəlb olunması, fəal qadınların Bakı şəhərinə oxumağa göndərilməsini təşkil etmişdir. Onlardan Bilqeys xanım Haşımzadə, Səidə xanım İmanzadəni qeyd etməmək olmaz. Bu qadınlar Bakı Dövlət Universitetində təhsil alaraq, dosent adına layiq görülərək Universitetdə hüquq və tarix fakültələrində ömürlərinin sonuna qədər tədrislə məşğul olmuşdur. Bilqeys xanım ilk azərbaycanlı hüquqşünas qadın olmuşdur. Onlar Mirhəsənə minnətdar olmaqla, həmişə xoş münasibət göstərmişlər. Əslində Mirhəsən özü də haqq itirməyən olmuşdur. O ilk məktəb müəlliməsi olan Şəfiqə xanımın adını ilk övladına vermişdir.

1933-cü ildə Mirhəsən Axundov Bakı şəhərində Azərittifaqın plan şöbəsinə baş inspektor, daha sonra şöbə müdiri vəzifəsinə təyin edilir. Xaçmaz-Quba ərazisində olan ticarət sisteminə rəh-

bərlik etmişdir. Artıq əməkdar iqtisadçı adına layiq görülərək Bakı Kooperativ texnikumunda iqtisadiyyat üzrə mühazirələr aparmışdır.

1941-ci ildə Xaçmaz, Xudat, Yalama rayonlarında ticarətin təkmilləşdirilməsi üçün Azərittifaqın Xaçmaz şöbəsinə müdir göndərilir. Qəflətən başlayan Böyük Vətən Müharibəsi işdə böyük məsuliyyət tələb edirdi. Arxa cəbhənin ərzaqla təchizatı, ön cəbhəyə kömək, evakuasiya olunmuş ailələrin yerləşdirilməsi lazım idi. İstedadlı təşkilatçı olan Mirhəsən bunların öhdəsindən bacarıqla gəlmişdir. Arxa cəbhədəki xidmətlərini nəzərə alaraq 1946-cı ildə SSRİ Baş Soveti tərəfindən "Böyük Vətən Müharibəsi 1941-1945-ci illər" "Qafqazın müdafiəsi", 1947-ci ildə isə "Mərdlik və fədakar əməyə görə" medalı ilə təltif olunmuşdur.

1946-cı ildə Azticarətin Quba, Qonaqkənd, Qusar rayonlarında ticarəti idarə edən, Quba şöbəsinə müdir müavini vəzifəsinə keçirilir. Uzun müddət səmərəli, qüsursuz iş fəaliyyətini davam edərək, 1965-ci ildə fərdi təqaüdə çıxaraq Bakı şəhərinə qayıdır. Mirhəsən Axundov 1977-ci ildə Əmək veteranı, 1975-ci ildə - Böyük Vətən Müharibəsinin qələbəsinin 30, 1983-cü ildə qələbənin 40 illiyi medalı, dəfələrlə Ticarət Nazirliyi, rayon İcra Komitəsi tərəfindən fəxri fərmanlarla təltif olunmuşdur.

Gözəl insan, əməkdar iqtisadçı, canlı ensiklopediya sayılan Mirhəsən Axundov, Allahın ona bəxş etdiyi ömrü şərəflə başa vuraraq, 95 yaşında - 1988-ci il aprelin 6-da vəfat etmişdir.

AXUNDOVA (SULTANOVA) FƏZİLƏT MİRHƏSƏN QIZI

Axundova Fəzilət 1920-ci ildə ziyalı ailəsində anadan olmuşdur.

İlk təhsilini Şəki şəhər 7 saylı orta məktəbdə almışdır. 1934-cü ildə iqtisadçı atasının Bakı şəhərinə işə köçürülməsi ilə əlaqədar olaraq, təhsilini Bakı şəhəri, oktyabr rayonu 21 saylı məktəbdə davam etdirmişdir.

1938-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur.

1943-cü ildə institutu müvəffəqiyyətlə bitirərək Xaçmaz şəhərində həkim-terapevt kimi işə başlamışdır.

Malyariya kimi ağır bir xəstəliyin Xaçmaz şəhər və kəndlərində geniş yayıldığı o dövrdə, onun müalicə və profilaktikası üçün bütün həkimlər kimi, ümumi mübarizəyə o da qoşulmuşdur. Belə ki, kəndlərə gedərək xəstələri xüsusi dərmanlarla təmin etmək, onları xəstəxanalarda yerləşdirmək və müalicəsində xeyli əmək sərf etmişdir.

Böyük vətən Müharibəsinin qızğın getdiyi o zaman arxa cəbhənin ön cəbhəyə kömək etməsi məqsədilə təşkil edilmiş "Yardım Komitəsi"nin fəal üzvü olmuş, əsgərlərə sovqat bağlamalarının hazırlanıb göndərilməsində xüsusilə fərqlənmişdir.

Eyni zamanda əksər ailələrin evlərinə gedərək onlara vətənin qorunması haqda ruh verici söhbətlər aparmış, ehtiyaclarını nəzərə alaraq öz şəxsi vəsaitindən bacardığı yardımı etmişdir. Arxa cəbhədə etdiyi xidmətləri nəzərə alaraq 1947-ci ildə "Böyük Vətən Müharibəsi - 1941-1945-ci illər" mərdlik və fədakar əməyə görə medalı ilə təltif olunmuşdur.

1947-ci ildə həyatını cəbhədən uğurla qayıtmış, mühəndis-neftçi Sultanov Bəşir İsmayıl oğlu ilə bağlayaraq, onun familiyasını qəbul etmiş və fəaliyyətini Bakı Semaşko adına xəstəxananın II daxili xəstəliklər şöbəsində davam edərək, şöbə müdiri vəzifəsinədək yüksəlmişdir.

1953-cü ildə həyat yoldaşının Moskva Neft Akademiyasına göndərilməsiylə əlaqədar olaraq Fəzilət xanım da Moskvada təcili yardım xəstəxanasında işləmişdir.

1956-cı ildə hər ikisi doğma şəhərə qayıdaraq iş fəaliyyətlərini davam etdirmişlər. M.F.Axundova - Sultanova 26 Bakı

Komissarı rayonunda 9 saylı poliklinikada kardioloq işləmişdir. O mütəmadi olaraq ADHT İnstitutunda ixtisaslaşdırma kursları (1946, 1960, 1968 1974, 1982) keçərək xəstələrin müalicəsində ən müasir dərmanlardan istifadə etmişdir. Azərbaycan Terapevt, kardioloqlar cəmiyyətinin üzvü olmaqla onların keçirdiyi konfranslarda öz iş təcrübəsindən faydalı çıxışla fəal iştirak etmişdir.

F.M.Axundova - Sultanova qüsursuz iş fəaliyyətinə görə Respublika Səhiyyə Nazirliyi tərəfindən bir neçə dəfə fəxri fərmanlarla təltif olunmuşdur.

O ali dərəcəli həkim olmuşdur. 1975-ci ildə "Böyük Vətən müharibəsi (1941-1945-ci illərdə) qələbəsinin 30 illik yubileyi medalı", 1983-cü ildə "Əmək Veteranı" medalı, 1985-ci ildə "-Böyük Vətən Müharibəsi" (1941-1945) qələbənin 40 illik yubileyi medalı" ilə təltif olunmuşdur.

O, Vektor Beynəlxalq Mərkəzi tərəfindən "Azərbaycanın tanınmış xanımları" kitabında xüsusi qeyd olunmuşdur (2006).

F.Axundova 1986-cı ildə təqaüdə çıxmışdır.

Fəzilət xanım Mirhəsən qızı Axundova - Sultanova 1992-ci ildə vəfat etmişdir.

AXUNDOV SƏDİ MİRHƏSƏN OĞLU

Axundov Sədi 1924-cü ildə anadan olmuşdur.

S.M.Axundov 1951-ci ildə Azərbaycan Sənaye İnstitutunu (hazırda Azərbaycan Dövlət Neft akademiyası) geoloji kəşfiyyat fakültəsini bitirmiş və 6 fevral 1952-ci ildən "Əzizbəyov" neft mədənlər idarəsinin I mədənində baş geoloq və mədən müdiri müavini vəzifəsində işə başlamışdır.

1963-cü ildə "Başdənizneft" İstehsalat

Birliyinə keçirilmiş, neft və qaz yataqlarının işlənməsi şöbəsində 1988-ci ilə qədər böyük geoloq vəzifəsində işləmişdir. Axundov S.M. oğlu 1988-ci ildən "Dənizneftqazlayihə DETLJ" Neft və qaz yataqlarının işlənməsinin layihələndirilməsi və təhlili laboratoriyasında böyük elmi işçi vəzifəsində işləyir.

Axundov S.M. ömrünün 50 ildən çoxunu Azərbaycan Neft-qaz sənayesinin inkişafına həsr etmişdir, o iş ərəfəsində savadlı, zəhmətkeş, işinin öhdəsindən gələn bir mühəndis-geoloq kimi tanınmışdır. Xəzər dənizinin Azərbaycan sektorunda kəşf olunmuş neft-qaz kondensat yataqlarının - Neft Daşları, Günəşli, Səngəçal-Duvanlı-Xərə-Zirə, Palçıq Pilpiləsi, Darvin banqası, Pirallahı, Qum-dəniz, Bahar, Bulla-dəniz və başqaları, elmi-texniki müqavilələrin yerinə yetirilməsində aktiv icraçı olmuşdur. İnstitutun ictimai həyatında aktiv iştirak etmiş, kollektivin hörmətini qazanmış və institutun geologiya və işlənmə şöbəsinin elmi texniki şurasının aktiv iştirakçısıdır. Azərbaycan neft sənayesinin inkişafının yüksəlməsinə həsr olunmuş məqalələri mətbuatda dərc olmuşdur.

Axundov Sədi Mirhəsən oğlu Azneft sənaye birliyi tərəfindən fəxri fərmanlarla təltif edilmişdir.

2004-cü il oktyabr ayında İnstitutda anadan olmasının 80 illik yubileyi təntənəli keçirilmişdir. Əmək veteranıdır.

AXUNDOVA RUHƏNGİZ NƏSİRXAN QIZI

Ruhəngiz Axundova 1930-cu ildə Şəki şəhərində anadan olmuşdur.

1947-ci ildə Şəki 5 saylı orta məktəbi bitirərək, Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun ingilis dili və ədəbiyyatı fakültəsinə daxil olmuşdur.

1952-ci ildə İnstitutu bitirərək Zərdab rayonunda iş fəaliyyətinə başlamışdır.

1954-cü ildən fasiləsiz olaraq Bakı 225 saylı orta məktəbdə

ingilis dilini tədris edir. Çalışdığı məktəbdə "İngilis dili kabineti"nin rəhbəridir. O öz peşəsinin vurğunudur, işlədiyi kollektivdə müəllimlərin və tələbələrin hörmətini qazanmışdır.

Ruhəngiz Axundova uzunmüddətli işində tələbələrin sevimli müəlliməsinə çevrilmidir. O, "Əmək Veteranı" medalı və Təhsil Nazirliyi tərəfindən bir neçə dəfə diplomlar və fəxri fərmanlarla təltif edilmişdir.

AXUNDOV RƏŞİD MİRZƏ FƏTƏLİ OĞLU

Rəşid Mirzə Fətəli oğlu Axundov 1854-cü ildə anadan olmuşdur.

Azərbaycan ziyalısı, tərcüməçi rəşid Mirzə Fətəli oğlu Axundov Brüssel Universitetini bitirmiş, mühəndis diplomu almışdır. Təhsil illərində ailəsinə yazdığı məktublar atası M.F.Axundovun həyat və yaradıcılığını öyrənmək baxımından çox əhəmiyyətlidir.

R.Axundov fransız dilində çoxlu tərcümələr etmişdir.

Axundov Rəşid Mirzə Fətəli oğlu 1905-ci ildə dünyasını dəyişmişdir.

ALXAZOV İSMAYIL MƏMMƏD OĞLU

İsmayıl Alxazov 1927-ci ildə anadan olmuşdur.

Orta təhsilini başa vurduqdan sonra, 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakültəsinə daxil olmuş, 1948-ci ildə oranı müvəffəqiyyətlə bitirərək, təhsilini aspiranturada davam etdirmişdir.

1951-1952-ci illərdə o, SSR Nazirlər Soveti yanında Azər-

baycan SSR Nazirlər Soveti Maarif Nazirliyinin səlahiyyətli nümayəndəsi olmuşdur.

1952-1972-ci illərdə SSRİ Ali Məhkəməsinin Cinayət işləri üzrə Məhkəmə Kollegiyasının baş məsləhətçisi olmuşdur. İsmayıl Alxazov 1972-ci ildə SSRİ Ali Məhkəməsinə hakim seçilmiş və burada 1991-ci ilədək hakim işləmiş, oradan da təqaüdə çıxmışdır.

İ.M.Alxazov ədalət mühakiməsinin həyata keçirilməsində və qanunçuluğun möhkəmləndirilməsindəki xidmətlərinə görə "Qırmızı Əmək Bayratı" və "Şərəf nişanı" orden və medalı ilə təltif olunmuş, ona RSFSR-in "Əməkdar hüquqşünası" fəxri adı verilmişdir.

İ.Alxazov 1989-cu ilin 22 dekabr tarixində SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə I dərəcəli "Hakim" dərəcəsinə layiq görülmüşdür.

ALLAHVERDİYEV MUSTAFAKAMAL HACIBALA OĞLU

Mustafakamal Allahverdiyev 1929-cu ildə anadan olmuşdur. 1946-cı ildə 10 saylı orta məktəbi qızıl medalla bitirmiş, Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə qəbul olunmuşdur. 1951-1954-cü illərdə Nuxa Dövlət Müəllimlər İnstitutunda baş müəllim vəzifəsində çalışmışdır. 1954-cü ildən NDMİ bağlandıqdan sonra ömrünün axırına kimi Şəki Təhsil Şöbəsində işləmiş və müəllimlikdən Təhsil Şöbəsinin

müdiri vəzifəsinə qədər yüksəlmişdir.

O, sözün əsl mənasında "müəllim" idi və işlədiyi vəzifədən asılı olmayaraq öz sənətinin əsl bilicisi olduğunu öz işi ilə sübut etmişdir.

O, 1954-cü ildə şəhər 11 saylı məktəbdə riyaziyyat müəllimi, sonra isə 7 saylı məktəbdə direktor müavini olmuşdur.

M.Allahverdiyev 1967-1972-ci illərdə Şəki şəhər Xalq Maarifi Şöbəsində müdir, 1972-1974-cü illərdə 17 saylı məktəbdə direktor işləmişdir.

1974-cü ildən o, yeni istifadəyə verilmiş 20 saylı məktəbə direktor təyin edilir və tezliklə 20 saylı orta məktəb Respublikanın tanınmış məktəblərindən birinə çevrilir. Direktorun iş təcrübəsi məktəblər arasında yayılmış, onun fəaliyyəti barədə yerli və respublika mətbuatında məqalələr dərc edilmişdir. Şəki 20 saylı orta məktəb 6 yaşlıların təlimə başlamasında və kompüter siniflərinin təşkilində respublikada birincilər sırasında olmuşdur.

Respublika Maarif Nazirliyi 1987-88-ci dərs ilində Şəki şəhər 20 saylı orta məktəbə "Özünə nəzarət statusu" vermişdir.

Şəki 20 saylı məktəbin və onun direktorunun işi haqqında hörmətli pedaqoqlarımızdan M.Mehdizadə, K.Rəhimov, Ə.Əfəndiyev, V.Kərimov, N.Nəcəfov, Ə.Əhmədov və başqaları xoş sözlər söyləmişlər.

1989-cu ildə o, yenidən Şəki şəhər təhsil şöbəsində müdir vəzifəsində işləmişdir. 1991-ci ildə Şəki şəhər və rayon təhsil şöbələri birləşdikdən sonra ömrünün axırına qədər təhsil şöbəsinin metodmərkəzinin müdiri olmuşdur.

Gənclərin təlim-tərbiyəsi işində əldə etdiyi uğurlara, rəhbərlik etdiyi təhsil müəssisələrində işləri nümunəvi təşkil etdiyinə görə o, Azərbaycan və eçmiş SSRİ-nin "Maarif əlaçısı" adlarına layiq görülmüş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. O, dəfələrlə respublika müəllimlər qurultayının nümayəndəsi olmuşdur.

AZƏRLİ (QAŞIMOVA) ALİYA YUSİF QIZI

Azərli Aliya 1923-cü ildə ziyalı ailəsində anadan olub. 1930-1940-cı illərdə Çaparidze rayonunun 161 saylı orta məktəbdə oxumuş və oranı əla qiymətlərlə bitirmişdir. Elə həmin il M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft Akademiyasının geologiya fakültəsinə daxil olmuşdur.

27 iyun 1941-ci il tarixində II kurs tələbəsi Aliya təhsilindən ayrılaraq könüllü olaraq cəbhəyə yola düşdü. Aliyanın cəbhə yolu Novorossisk, Kabardinka, Krasnodar, Şimali Qafqaz, Mozdok, Krım, Rostovdan keçmiş Stalino, Belorusiya, Minsk, Pribaltika, Almaniya, Çexoslovakiya şəhəri uğrunda vuruşmuşdur. Moskvadan Berlinə qədər cəöhə yollarında göstərdiyi döyüş xidmətlərinə görə, "Qırmızı ulduz" ordeni, "Almaniya üzərində qələbəyə görə" medalı ilə təltif olunmuş, dəfələrlə fəxri fərmanlar, təşəkkürnamələr, pul premiyaları ilə qiymətləndirilmişdir. Hərbi qulluğundan ali məktəb tələbəsi kimi azad edilən Aliya təhsilini M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda davam etdirmiş və 1949-cu ildə oranı bitirərək "Azərneftgeofizkəşfiyyat" trestinə, mühəndis vəzifəsinə işə göndərilmişdir.

Aliya xanım 2 dəfə Azərbaycan SSR-i Ali Sovetinin Rəyasət Heyətinin "Fəxri fərman"ı ilə təltif olunmuşdur. O, I dərəcəli "Qəhrəman ana" medalı ilə də təltif olunmuşdur.

BABAYEVA REYHANƏ SƏTTAR QIZI

Reyhanə Babayeva 1948-ci ildə qulluqçu ailəsində anadan olmuşdur. Orta təhsili Şəki şəhərindəki 3 saylı orta məktəbdə almış və 1966-cı ildə oranı bitirmişdir.

R.Babayeva 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kimya fakültəsinə qəbul olmuş və 1971-ci ildə təhsilini bitirmişdir.

R.Babayeva institutu bitirdikdən sonra təyinatı üzrə əmək fəaliyyətinə Abşeron rayonunun Güzdək qəsəbə 41 saylı dəmiryol məktəbində kimya müəllimi kimi başlamışdır.

Reyhanə Babayeva 1972-ci ildən əmək fəaliyyətini Azərbaycan Milli Elmlər Akademiyasının Qeyri-üzvi və fiziki-kimya institutu ilə bağlamışdır. İnstitutda laborant vəzifəsindən baş elmi işçi vəzifəsinə kimi yüksəlmişdir. Babayeva 1973-1977-ci illərdə təhsilini həmin institutun aspiranturasında davam etdirmişdir. O, elmi işini Azərbaycan MEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Zülfüqar Zülfüqarovun və kimya elmləri doktoru, professor Mürşüd Ənnağıyevin rəhbərliyi altında aparmışdır.

Reyhanə Babayeva 1983-cü ildə kimya elmləri namizədi elmi dərəcəsini adını almışdır. Onun namizədlik dissertasiüası "Dehidrogenləşmə katalizatorlarının səthi birləşmələrinin formalaşmasına sintez şəraitinin təsirinin kompleks, fiziki-kimyəvi metodlarla tədqiqi" mövzusunda olmuşdur.

Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti:

Kompleks fiziki-kimyəvi metodlarla tədqiq olunan katalizatorların səthi birləşmələrinin təbiəti və faza tərkibi haqqında yeni nəticələr alınmışdır. Katalizatorların səthində xromun koordinasiyası və valentlik vəziyyəti təyin olunmuşdur.

Tədqiqatlar nəticəsində KNF tərkibli alüminium-xrom və mürəkkəboksid katalizatorların səthində turşu mərkəzlərinin təbiəti öyrənilmişdir. Yeni seolittərkibli oksid katalizatorları sintez edilmişdir ki, bunlardan da aşağı-oktanlı parafinli benzin fraksiyalarının doymamış karbohidrogenlərə katalitik çevrilməsində

istifadə olunur.

Reyhanə Babayeva dəfələrlə Respublika, Zaqafqaziya və Ümumittifaq konfrans və simpoziumlarda iştirak etmişdir. Elmi məqalələri Respublika və Ümumittifaq elmi jurnallarında dərc olunmuşdur. Dəfələrlə müəlliflik şəhadətnaməsi almışdır.

BABAYEV SƏRDAR SƏTTAR OĞLU

Babayev Sərdar 1945-ci ildə qulluqçu ailəsində anadan olmuşdur. 1964-cü ildə Şəki şəhər 3 saylı orta məktəbi bitirib və həmin ildə də Bakı Dövlət Universitetinin fizika fakültəsinə daxil olub. 1970-ci ildə universitetin fizika fakültəsini bitirən S.S.Babayev Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunda baş laborant vəzifəsində işə başlayıb və 1975-1978-ci illərdə Fizika İnstitutunun aspiranturasında təhsil almışdır.

S.S.Babayev akad. E.Y.Salayev və prof. K.R.Allahverdiyevin rəhbərliyi ilə "Lazer spektroskopiyası" monokristalının alınması, onların optik və dielektrik xassələrinə temperatur və yüksək hidrostatik təzyiqin təsirinin tədqiqi ilə məşğul olmuşdur. Aparılmış elmi araşdırmalar nəticəsində laylı yarımkeçirici kristalların fonon spektrlərinin xüsusiyyətləri, optik sabitlərin dispersiyası, atomlararası qüvvə sabitləri, kimyəvi rabitənin təbiətini müəyyən etməyə imkan verən Qrunayzen parametrini və xarici faktorların təsiri ilə kristallarda baş verən müxtəlif faza keçidlərinin xarakterik xüsusiyyətlərini müəyyən etməyə imkan vermişdir.

S.S.Babayev 1981-ci ildə MEA Fizika İnstitutunun "Yarımkeçiricilər və dielektriklər fizikası" elmi şurasında "A3B6 tipli yarımkeçirici kristalların rəqsi spektrlərinin xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1984-cü ildən baş elmi işləyən S.S.Babayev 1985-1986-cı illərdə Moskvada P.N.Lebedev adına SSRİ EA Fizika İnstitutunda elmi fəaliyyətini davam etdirmişdir. 1994-96-cı illərdə S.S.Babayev MEA Fizika İnstitutunun Ankara Orta Doğu Texniki Universitetində birgə elmi-tədqiqat "Lazer Spektroskopiyası" laboratoriyasının yaradılmasında iştirak etmiş və Türkiyə Respublikası TUBİTAK elmi mərkəzinin "Optoelektronika" laboratoriyasında birgə elmi işləri davam etdirmişdir.İki ixtiranın müəllifi olan S.Babayevin 50-dən çox elmi məqaləsi Azərbaycan, Rusiya, İngiltərə, Almaniya və digər ölkələrdə çıxan elmi jurnallarda nəşr olunmuşdur.

BAĞIROVA (MƏMMƏDOVA) BƏYAZ XANIM NƏSİB QIZI

Bəyaz xanım Bağırova qulluqçu ailəsində anadan olmuşdur.

1937-1942-ci illərdə Azərbaycan Tibb İnstitutunun (indiki ATU) müalicə-profilaktika fakültəsini bitirib, həkim-terapevt sənətinə yiyələnmişdir.

İlk əmək fəaliyyətinə 1942-ci ilin martında Zəyzid kəndinin həkim hissəsinin müdiri kimi başlamışdır.

1943-cü ildə Nuxa şəhər (indiki Şəki) Ambulatoriyasının müdiri kimi, 1943-1946-cı illərdə Azərbaycan SSR Səhiyyə Xalq Komissarlığının göndərişi ilə regionoloji İnstitutda ordinator vəzifəsində çalışmışdır.

1948-1988-ci illərdə Bakı şəhər 10 saylı poliklinikada həkim-terapevt işləmişdir.

Xeyirxah, mehriban insan, nümunəvi həkim 40 il ərzində işlədiyi yerlərdə öz xoş, səmimi xasiyyətlə böyük hörmət və sevgi qazanmış və həmçinin Bəyaz xanım Bağırova bir çox orden və medallarla təltif edilmişdir.

BAYRAMOV ÇƏRKƏZ HƏSƏN OĞLU

Çərkəz Bayramov 1939-cu ildə anadan olmuşdur. Orta təhsilini 1947-ci ildə 10 saylı məktəbdə başlamış, 1956-cı ildə valideynlərinin Sumqayıt şəhərinə köçməsi ilə əlaqədar 10-cu sinfi Sumqayıtın 1 saylı məktəbində bitirmişdir. O, həmin il Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) mexanika fakültəsinə daxil olmuş və 1962-ci ildə fərqlənmə diplomu ilə həmin institutdakı təhsilini "Maşınqayırma texnologiyası, metalkəsən dəzgahlar və alətlər" ixtisası üzrə başa vurmuşdur.

Əmək fəaliyyətinə 1962-ci ildə Bakıda Ümumittifaq Elmi-Tədqiqat və Layihə-Texnoloji Neftmaşınqayırma İnstitutunda (ÜETLTİ Neftemaş) mühəndis vəzifəsində başlamış, 1964-cü ildən kiçik elmi işçi vəzifəsində çalışmışdır. 1966-cı ildə o, Moskvada Ümumittifaq Elmi-Tədqiqat Alət İnstitutunun əyani aspiranturasına daxil olmuşdur. Burada institutun keçmiş direktoru, Moskva Kimya Maşınqayırma İnstitutunun kafedra müdiri, texnika elmləri doktoru, professor, SSRİ Dövlət Mükafatı laureatı Y.P.nadeinskayanın rəhbərliyi ilə "Radioaktiv izotoplar" laboratoriyasında "Torna əməliyyatında çoxüzlü kəsici lövhələrin yeyilmə və davamlığının tədqiqi" mövzusunda dissertasiya üzərində işə başlamışdır. Qeyd olunmalıdır ki, o dövrdə radioaktiv izotoplar vasitəsi ilə belə tədqiqatlar aparan mütəxəssislər çox az idilər və SSRİ məkanında bu növ tədqiqatlar yalnız bir laboratoriyada aparılırdı. Radioizotop metodunun üstünlüyü ondadır ki, o, yeyilmədə əmələ gələn ən xırda hissəcikləri - çəkisi qramın milyonda biri miqdarında olduqda belə aşkar etməyə və tez çəkisini ölçməyə imkan verir.

Elmi rəhbərin 1967-ci ildə vəfatı və elmi ixtisasına görə onu əvəz edəcək alimin olmaması dissertasiyaya aid işlərin gedişinə

xeyli əngəllər törətsə də, 1970-ci ildə o müdafiə üçün təqdim edildi və 1971-ci ildə Ç.H.Bayramov namizədlik dissertasiyasını müvəffəqiyyətlə indiki N.Novqorod Texniki Universitetində müdafiə etdi. İşin samballı elmi nailiyyəti onda idi ki, dissertasiyada metalkəsmə nəzəriyyəsində 1906-cı ildən klassik Teylor düsturu kimi məşhur olan alətin davamlığı düsturunun fiziki mahiyyəti aşkar edildi. İşin praktik əhəmiyyəti onda idi ki, o dövr üçün yeni və proqressiv olan, həm də kütləvi istehsal edilən kəsici alətlərin konstruktiv çatışmamazlıqları aşkar edildi və onların aradan götürülməsi yolları göstərildi.

Aspiranturadan sonrakı dövrdə Ç.H.Bayramov ÜETLTİ Neftemaşda böyük elmi işçi vəzifəsində 1972-ci ilədək işləmiş, sonra 1978-ci ilədək Ümumittifaq Elmi-Tədqiqat Elektrik Maşınqayırma Texnologiyası İnstitutunun Bakı bölməsində laboratoriya rəhbəri vəzifəsində çalışmışdır. O, hər iki sahədə institutda maşınqayırmanın vacib elmi-praktiki məsələlərinin həlli üzərində işləmiş, aldığı nəticələrin istehsalatda tətbiqi ilə məşğul olmuşdur. Onun həmrəhbərliyi ilə bir elmi işçi, 1975-ci ildə Moskvada "Radioaktiv izotoplar" laboratoriyasında namizədlik dissertasiyasını başa vurub müvəffəqiyyətlə müdafiə etdi.

1978-ci ildə Ç.H.Bayramov indi AMEA-nın müxbir üzvü, t.e.d. Azərbaycan Milli Yradıcılıq akademiyasının (AMYA) prezidenti və həqiqi üzvü N.M.Süleymanov tərəfindən Fizika İnstitutunun Xüsusi Konstruktor Bürosunun "Metalşünaslıq" şöbəsinə laboratoriya rəhbəri vəzifəsinə dəvət olundu. N.M.Süleymanovun rəhbər olduğu bu şöbə Akademiyanın prezidenti H.B.Abdullayev və Akademiyanın indiki həqiqi üzvü M.H.Şaxtaxtinskinin səyləri nəticəsində N.M.Süleymanovun alət poladları sahəsindəki uğurlu işlərinin inkişafı və tətbiqi üçün yaradılmışdı. 1980-ci ildə bu şöbə əsasında Xüsusi Konstruktor-Texnoloji Metalşünaslıq Bürosu "Kristal" yaradıldı və Ç.H.Bayramov burada şöbə rəhbəri, 1981-ci ildən 2003-cü ildə təqaüdə çıxanadək elmi işlər üzrə direktor müavini işləmişdir.

"Kristal"ın elmi-praktiki işləri qısa zamanda SSRİ-nin nəhəng zavodlarında uğurla sınaqdan çıxdı. Bunu nəzərə alaraq SSRİ

Dövlət Plan Komitəsi, SSRİ Dövlət Elmi və Texnika Komitəsi, SSRİ Elmlər Akademiyası 1982-ci ildə "Kristal"ın işlərinin 22 maşınqayırma nazirliklərinin müəssisələrində və metallurgiya zavodlarında tətbiqinə dair xüsusi plan təsdiq etdilər. Nəticədə bu işlər 1500-dən artıq müəssisədə tətbiq olundu, milyonlarla manat iqtisadi səmərə əldə edildi.

Uzun illər boyu apardığı tədqiqatlar əsasında Ç.H.Bayramov 43 elmi məqalə çap etdirmiş, 22 ixtiraya müəlliflik şəhadətnaməsi almışdır. "Elm" nəşriyyatında onun rus dilində 4 monoqrafiyası çapdan çıxmışdır: "Kəsmədə metalların yüksək sürətli deformasiya fizikasının bəzi məsələləri" (1999), "Bərk xəlitəli kəsici alətin yeyilməsinin fiziki mahiyyəti" (2000), "Volframsız alət poladları və termiki sərtləşdirmə metodlarının sənayedə işlədilməsi təcrübəsi" (həmmüəlliflər: N.M.Süleymanov, A.D.Krepkov, 2003), "Tezkəsən polad alətlərinin incə strukturu və yeyilməsinin təbiəti" (həmmüəllif: S.N.Süleymanova, 2006).

Ç.H.Bayramov apardığı aktual elmi tədqiqatlar və böyük iqtisadi səmərə ilə istehsalatda tətbiq olunan ixtiralarına görə 1991-ci ildə AMYA-nın akademiki və texniki elmlər üzrə vitse-prezidenti seçilmişdir.

BƏDƏLOV VƏZİR NƏZİR OĞLU

Bədəlov Vəzir 1960-cı il də anadan olmuşdur. 1967-ci ildə Cəfərabad kənd orta məktəbinin 1-ci sinifinə getmiş, 1977-ci ildə bitirmişdir.

O, 1978-1980-ci illərdə Almaniya Demokratik Respublikasında hərbi xidmətdə olub.

1981-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) "-Hərbi hazırlıq və bədən tərbiyəsi" fakültəsinə daxil olmuş, 1985-ci ilə həmin institutu bitirmişdir.

1985-ci ildə Cəfərabad orta məktəbində direktorun hərbi işlər üzrə müavini işləyib. Öz xahişi ilə Zaqafqaziya Hərbi Dairəsində (Leninakan şəhərində) zabit kimi hərbi qulluğa başlayır.

1988-1991-ci illərdə Pereküşkül hərbi şəhərciyində hərb üzrə müəllim kimi fəaliyyət göstərib.

1991-ci ildən yenicə qurulan ordumuzun ilk zabitlərindən olub. Həmin ildən Müdafiə Nazirliyinin müxtəlif strukturlarında məsul vəzifələrdə çalışıb.

1998-ci ildə polkovnik-leytenant rütbəsinə layiq görülüb və həmin ildən "Azərbaycan Ali Hərbi Məktəbləri"nin (Hazırkı H.Əliyev adına) kadrlar şöbəsinin rəisi vəzifəsində çalışır. İşlədiyi dövrdə "Qüsursuz xidmətə görə" medal, "Azərbaycan Respublikası Silahlı qüvvələri"nin 10 illik yubiley medalı, silahlı qüvvələrin xatirə döş nişanına layiq görülmüş və müxtəlif dövrlərdə xidmət etdiyi yerlərdə dəfələrlə rəhbərlik tərəfindən mükafatlara layiq görülmüşdür.

Hazırda yüksək hazırlıqlı rəhbər hərbi kadrların yetişdirilməsi sahəsində işini davam etdirir.

BƏDƏLOV NURƏDDİN İBRAHİM OĞLU

Nurəddin Bədəlov 1914-cü ildə anadan olmuşdur. O, 15-16 yaşı olanda Şəkinin muğam ustalarından, ilk növbədə tarzənlərdən Əhmədbəy Tahirovdan, Samavar oğlu Çələbidən, kamançaçılardan Məşədi Yusifdən öyrənən, yaşca özündən xeyli böyük olan Şəki xanəndələrini (Daşdəmir oğlu Məhəmmədi, kiçik Ələsgəri və s.) öz çalğısı ilə müşayiət edən Nurəddin Bədəlov tədricən əsl muğam ustasına çevrildi.

Sənətə sonsuz həvəsi 1930-cu ildə onu Azərbaycan Dövlət Konservatoriyasının Şərq şöbəsinə gətirir. O, burada kamança

ixtisası üzrə təhsil alır və həmin illərdə Bakının musiqi həyatı ilə qovuşur.

N.Bədəlovun gözəl bəstəçilik istedadı vardı və bir sıra dəyərli havaların müəllifidir.

O, 1937-1947-ci illər arası Ağdaş rayonunda musiqi təhsilini xalqa mənimsətmək üçün bir neçə il orada fəaliyyət göstərib. Özünün dediyi kimi hələ o vaxtlar Azərbaycanın gözəl kaman ustası Habil Əliyev 10-15 yaşında kiçik uşaq idi. Mən ona kaman öyrədirdim. O mənim yolumu daha tez qavrayır.

N.Bədəlov Ağdaşda işlədiyi vaxtlarda 1947-ci ildə Əmək igidliyinə görə Şərəf medalına layiq görülmüşdür (15 iyun 1947-ci il AU № 375733). Dəfələrlə dövlət medalı və diplomlarına layiq görülən N.Bədəlovun kamanının füsunkar səsi hələ də yaşlı nəslin qulağında səslənməkdədir.

Azərbaycan Radiosunun Qızıl fondunda onun və Nüsrət Mikayılovun çaldığı Şəki rəqsi, Şəki mahnısı qorunub saxlanılır. Yavər Kələntərli, Seyid Şuşinski Zaqatalada toy çalıblar. Yaqub Məmmədovla, Zülfi Adıgözəlovla qostrolda olublar.

1950-ci illərdə Şəki teatrında fəaliyyətini davam etdirib. C.Cabbarlının "Aydın" tamaşasında musiqi hissəsinə N.Bədəlov başçılıq edirdi. Şəki teatrında oynanılan "Beş manatlıq gəlin", "Durna", "O olmasın, bu olsun", "Əsli və Kərəm", "Ər və arvad" və başqa tamaşaların musiqi tərtibatçısı və müşayiətçisi olmuşdur.

1985-ci ilin fevral ayının 19-da dünyasını dəyişmişdir.

Müəllimlər İnstitutunun Şəki filialının nəzdində yerləşən klub Nurəddin Bədəlovun şərəfinə onun adını daşıyır.

BƏDƏLOV NİYAZİ MUSTAFA OĞLU

Niyazi Bədəlov 1909-cu ildə anadan olmuşdur. Onun həyat və yaradıcılığı nəinki Azərbaycan kinosunun, həm də Sovetlər Birliyinin kino tarixi ilə bağlıdır. O, 1927-ci ildə Şəkidə "Yeni yol" kinoteatrında kinomexanikin köməkçisi kimi əmək fəaliyyə-

tinə başlamış, 1931-1936-cı illərdə Moskvada Kinomatoqrafiya İnstitutunda təhsil almışdır. N.Bədəlov həmin institutu bitirmiş ilk şəkili tələbə olmuşdur.

N.M.Bədəlov birinci filmini - "Komsomol nəsli"ni 1938-ci ildə, axırıncı filmini - "Xəzər üzərində körpü"nü isə 1988-ci ildə çəkmişdir.

1938-1939-cu illərdə o, M.F.Axundoa adına Azərbaycan Dövlət Teatr Məktəbində kino texnikası fənnindən dərs demişdir. 1941-ci ilin əvvəllərində "-Böyük həyat", "Tüfəngli adam", "Oyanmış torpaq" və keçmiş Sovetlər İttifaqının müxtəlif respublikalarında istehsal olunan digər bədii filmləri azərbaycanca səsləndirmişdir. Bakı kinostudiyasının direktoru Ş.Abbasov 1941-ci il mayın 21-də studiya üzrə verdiyi 147 saylı əmrdə "Oyanmış torpaq" filminin dublyajının "əla" qiymətlə qəbul olunduğunu göstərmişdir.

Bu gün tanınmış Azərbaycan kinorejissorunun, sənədli filmlər ustasının özü aramızda olmasa da, adı kinomuzun tarixinə əbədi həkk edilmişdir.

BƏDƏLOVA İNTİZAR NURƏDDİN QIZI

İntizar Bədəlova 1958-ci ildə anadan olmuşdur.

O, 1974-cü ildə Şəki İpək İstehsalatı Kombinatında toxucu peşəsində işləmişdir.

İ.Bədəlova 1983-cü ildə Şəki rayon Mədəniyyət Şöbəsində "Cuma" aşıq qızlar dəstəsinə rəhbər kimi qəbul edilmişdir. Aşıq Pəri məclisinin ilk qonağı olmuşdur.

O, 1983-cü ildə Azərbaycan Mədəniyyət Nazirliyinin təqdim etdiyi "Azərbaycan Muğam və Xalq mahnıları"nın gözəl ifaçısı diplomu və laureat medalına layiq görülmüşdür.

İ.N.Bədəlova 1985-ci ildə Şəki Orta İxtisas Musiqi Texnikumuna daxil olmuşdur.1985-ci ildə "Laureat" medalına layiq görülmüşdür.

O, 1987-ci ildə Qələbənin 42 illiyi və oktyabrın 70 illiyinə aid laureat medalı ilə təltif olunmuşdur.

İ.N.Bədəlova 1990-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qəbul olunmuşdur.

O, 1990-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Yeni Tikinti Sahələrinin Arxeoloji tədqiqi şöbəsinin Şəki arxeologiya və folklor qrupuna laborant kimi qəbul edilmişdir.

İ.Bədəlova 1993-cü ildə baş laborant vəzifəsi artırılmışdır.

O, 1995-ci ildə kiçik elmi işçi adına layiq bilinmişdir.

İ.Bədəlova Məqalələr dərc edib, 11 elmi məqalə müəllifidir.

O, hal-hazırda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Yeni Tikinti sahələrinin Arxeoloji tədqiqi şöbəsinin Şəki arxeologiya və folklor qrupunun kiçik elmi işçisi vəzifəsində işləmişdir. Hazırda elmi işçidir.

İ.N.Bədəlova ixtisası üzrə 1 fəxri diplom, 3 "Laureat" döş nişanı onlarla fəxri fərman və diplomlara layiq görülmüşdür.

BƏKİROV QƏŞƏM MUXTAR OĞLU

Qəşəm Bəkirov 1975-ci ildə anadan olmuşdur.

1981-ci ildə Şəki rayonu Oxud kənd orta məktəbinin 1-ci sinifinə getmiş, 1992-ci ildə orta təhsilini başa vurmuşdur.

1992-ci ildə Gəncə şəhərindəki Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına daxil olmuş və oranı 1996-cı ildə müvəffəqiyyətlə bitirərək "iqtisadçı" ixtisası üzrə ali təhsil haqqında diplom almışdır.

1996-1997-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra o, Moskva şəhərinə işləməyə getmişdir. Q.M.Bəkirov burada öz əməli və işgüzar



əhatəsini genişləndirərək "Master", "XXI əsr", "Masteks", "Danicla Bruqa" adlı firmalarını yaratmışdır. O, işləri ilə əlaqədar bir çox xarici ölkələrdə işgüzar səfərlərdə olmuşdur.

O, həm də tanınmış xeyriyyəçi H.Z.Tağıyevin layiqli davamçılarındandır. Rəhbərlik etdiyi firmalarda yüzlərlə imkansız və ehtiyacı olanlara iş vermiş, onların gündəlik qayğılarını daim diqqət mərkəzində saxlayır.

Q.M.Bəkirov Şəkinin respublikamızda tanınmış ziyalıları ilə seçilən, ən böyük kəndlərindən biri olan Oxud kəndinin su probleminin fundamental həllində böyük xeyriyyəçilik işi görmüşdür.

2006-cı ilin yayında yağan leysan yağışları nəticəsində Oxud kəndinin Kiş çayından öz mənbəyini götürən su kəməri, selin təsirilə tamamilə dağılmış və nəticədə kənd sakinləri içməli sudan bir neçə ay böyük çətinliklə qarşılaşmışdır. Bunun şahidi olan Q.M.Bəkirov gələcəkdə də oxşar hadisələrin baş verə biləcəyini nəzərə alaraq, kəndin əvvəlki əsas su mənbəyindən (Su dərəsi), relyefcə çox çətin ərazilərdən keçən 11 kilometrlik su kəmərini və böyük su anbarını öz hesabına inşa etdirmişdir.

Kəndin istənilən probleminin həllində öz köməyini əsirgəməyən, el-obasına bağlı, səmimi, qayğıkeş, yüksək intellektual səviyyəsi və işgüzarlığı ilə seçilən Qəşəm Muxtar oğlu Bəkirov kəndin hər bir sakininin böyük rəğbətini qazanmışdır.

CABBARZADƏ VAQİF MUSTAFA OĞLU



Cabbarzadə Vaqif 1945-ci ildə anadan olmuşdur. 1962-ci ildə Şəki şəhər 3 saylı məktəbini qızıl medalla bitirmişdir. Məktəbdə oxuduğu müddətdə - 1961-ci ildə Respublika riyaziyyat olimpiadasının qalibi olmuşdur.

1968-ci ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir.

1968-1970-ci illərdə orta məktəbdə müəllim işləmişdir. 1970-ci ildə müsabiqədən keçərək Azərbaycan Dövlət Universitetinin "Hesablama riyaziyyatı və informatika" kafedrasında müəllim vəzifəsinə qəbul edilmişdir, hal-hazırda kafedranın dosentidir.

1988-ci ildə Moldaviya Respublikasının Kişinyov şəhərində riyazi məntiq ixtisası üzrə müdafiə etmişdir. 1992-ci il Rosiya Federasiyasının elm, ali məktəb və texniki siyasət hazırlığının ali məktəb komitəsi tərəfindən dosent adı verilmişdir.

30-dan artıq elmi məqalə və kitabın müəllifidir. Elmi tədqiqat işlərində universal cəbrlərin funksional doluluğuna aid Makkenzi və Tarski problemlərini universal cəbrlərin geniş bir sinfi üçün həll etmişdir. Dəfələrlə riyazi məntiq ixtisası üzrə keçirilən respublika və beynəlxalq konfranslarında elmi məruzələr etmişdir. Uzun illərdir Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının riyaziyyat ixtisası üzrə ekspert kimi fəaliyyət göstərir.

Görkəmli riyaziyyatçı alim Rauf Bayramovun rəhbərliyi altında "Universal cəbrlərin və qəfəslərin doğurduğu çoxobrazlı doğurma, müstəqil bazislik və funksional doluluq məsələləri" mövzusunu işləmişdir.

CAVADOVA ZƏRİNƏ ƏLƏKBƏR QIZI

Zərinə Cavadova 1960-cı ildə anadan olmuşdur. Şəki şəhər 7 saylı orta məktəbi bitirdikdən sonra bir müddət Şəki şəhər İpək İstehsalı Birliyində işləmişdir.

1981-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olmuşdur. 1986-cı ildə universiteti müvəffəqiyyətlə başa vurduqdan sonra Şəkidə Kiş kənd 6 saylı orta məktəbində pedaqoji fəaliyyətə başlamışdır. Pedaqoji fəaliyyətinin ilk günlərindən etibarən şagird və müəllim kollektivin dərin hörmətini qazanan Zərinə xanım Vətən tarixinin tədrisinə xronologiyasının təqdimatından daha çox qəhrəmanlıq və müstəqil düşüncə tərzinin təqdimatı kimi baxırdı. O Kiş kənd orta məktəbində çalışmasına baxmayaraq, tezliklə Şəkinin adlı-sanlı müəllimləri sırasına çıxmışdı. Elmi-metodik konfranslarda məsul çıxışları ona həvalə edirdilər. Onu digər tarix müəllimlərindən fərqləndirən əsas cəhət dərin biliyə, geniş mühakimə və müqayisə qabiliyyətinə malik olması idi. Elmi və sevgini özündə birləşdirən bir şəxsiyyət olduğu üçün onu 1993-cü ildə Bakı Dövlət Universitetinin Şəki filialına dəvət etdilər. BDU-nun Şəki filialının bünövrəsini qoyan görkəmli filosof, professor F.Q.İsmayılov Zərinə Cavadovanın şəxsində Azərbaycan tarixinə töhfələr verə biləcək kadr tapdı.

Bu ali təhsil müəssisəsində qısa müddətdə özünü savadlı, bacarıqlı müəllim kimi tanıtdı və kollektivin dərin hörmətini qazandı. 1995-ci ildə Bakı Dövlət Universitetinin aspirantura şöbəsinə daxil oldu.

Azərbaycan tarixinin yorulmaz tədqiqatçısı, gözəl alim Y.M.Mahmudovun elmi rəhbərliyi altında "Şimal-Qərbi Azərbaycan: tarixi-demoqrafik tədqiqat" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi aldı. Tarix elminin yeni sahələrindən olan tarixi demoqrafiyanın mütəxəssisi hesab olunan Z.Ə.Cavadova yaşadığı regionun X!X əsrdə demoqrafik durumunun öyrənilməsində xüsusi zəhmət çəkmişdir. ZƏ.Cavadova iki monoqrafiyanın, onlarla elmi məqalənin müəllifidir.

Nəşr etdirdiyi məqalələrdə tariximizin aktual problemlərini araşdırmış, indiyədək elm aləminə məlum olmayan maraqlı faktlar ilk dəfə onun tərəfindən elmi dövriyyəyə cəlb edilmişdir.

Hazırda Z.Ə.Cavadova Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının baş müəllimidir. Təlim-tərbiyə işləri üzrə direktor müavini işləyir. Tələbələrinə xüsusi qayğı və hörmətlə yanaşan Z.Ə.Cavadova yüksək insani keyfiyyətləri ilə kollektivin dərin hörmətini qazanmışdır.

CƏBRAYILOV GÜNDÜZ ABDULHƏMİD OĞLU



Cəbrayılov Gündüz 1939-cu ildə anadan olmuşdur.

1958-ci ildə orta məktəbi bitirmiş, 1959-1962-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

Əmək fəaliyyətinə Şəki İpək Kombinatında başlamışdır.

1972-ci ildə Moskva şəhərindəki Yüngül Sənaye İnstitutunun parçaların bədii tərtibatı şöbəsini bitirmişdir.

1976-cı ildən 1996-cı ilin axırına qədər Azərbaycan Respublikası Rəssamlar İttifaqının Şəki şəhər şöbəsinin rəhbəri olmuşdur.

Moskva şəhərində keçirilən parçaların topdan satış yarmarkasında öz rəsm əsərləri ilə iştirak etmiş, onun eskizlərinin əsasında işlənən ipək parçalar ölkəmizdən başqa, digər xarici ölkələrdə keçirilən sərgilərdə nümayiş etdirilmişdir.

Onun xidmətləri nəticəsində 1986-cı ildə Bolqarıstanın Plovdiv şəhərində keçirilən sərgidə Şəki İpək İstehsalı Birliyi rəssamlarının əməyi qızıl medala layiq görülmüşdür. Həmçinin, o, 1976-cı ildə Moskva Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalı ilə təltif edilmişdir.

CƏFƏROVA RƏNA ƏSƏD QIZI



Cəfərova Rəna 1939-cu ildə anadan olmuşdur. Bakı şəhərində 132 saylı orta məktəbi bitirmişdir. Məktəbi bitirdikdən sonra Moskva şəhərində Rəssamlıq Texnikumuna qəbul olunub. Bakıya qayıtdıqdan sonra Azərbaycan Teatr Cəmiyyətində 1 il işləmişdir. Daha sonra AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda işə qəbul olmuş və 41 ildir ki, həmin institutda baş rəssam vəzifəsində çalışmaqdadır.

Bu müddət ərzində çox kitabları çıxmış və 40-a yaxın çıxan kitabların müəllimlərindən biridir. Arxeoloji və Etnoqrafik kitabların içində olan rəsm şəkillərini çəkir və tarixin keçmişini canlandırır.

1. "Azərbaycanlılar"
2. "Bakı içəri şəhər"
3. "Şəkinin Kiş kəndi"
4. "Bərdə"
5. "Şamaxı"
6. "Naxçıvan"
7. "Goranboy"
8. "Gəncə" və s. etnoqrafiyaya aid əl işlərini misal çəkmək olar.

CƏFƏROV ƏHMƏD MƏMMƏD OĞLU

Əhməd Cəfərov 1948-ci ildə anadan olmuşdur. 1955-ci ildə Baş Zəyzid kənd 8-illik məktəbin 1-ci sinifinə daxil olmuş və 1963-cü ildə 8-ci sinfi bitirib, həmin il Orta Zəyzid kənd orta məktəbində təhsilini davam etdirmiş və 1966-cı ildə orta məktəbi bitirmişdir. İki il kənddə elektrik montyoru işləmişdir.

1968-ci ildə N.Nərimanov adına ATİ-nin müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1974-cü ildə institutu əla və yaxşı qiymətlərlə başa vurmuşdur. Oxuduğu müddətdə institutun ictimai həyatında fəal iştirak etmiş və dekanlıq tərəfindən mükafatlar almışdır.

1974-cü ildə Məlikov adına xəstəxanada bir il internatura keçəndən sonra 1975-ci ildə təyinat üzrə Bakı şəhər təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına işə daxil olmuşdur.

Oktyabr rayonu ərazisində yerləşən 4 saylı köməkçi stansiyasında 20 il səyyar həkim və kardioloq işləmişdir. Bundan sonra müxtəlif köməkçi yardım stansiyalarında baş həkim vəzifəsində işləmişdir.

Hal-hazırda Bakıxanov qəsəbəsindəki 13 saylı köməkçi yardım stansiyasında baş həkim işləyir.

30 ilə yaxın bir müddətdə təcili yardım stansiyasında işləyən Cəfərov Əhməd Məmməd oğlu əhali tərəfindən dəfələrlə təşəkkür almış və bu dövri mətbuatda işıqlandırılmışdır.

Attestasiya Komissiyası onu Ali dərəcəli həkim kateqoriyasına layiq görmüşdür.

CƏFƏROV CƏFƏR QƏMƏT OĞLU

Cəfər Cəfərov 1937-ci ildə anadan olmuşdur. 1954-cü ildə kənd orta məktəbini, 1957-ci ildə Bakı Rabitə Elektrotexnikumunun radio şöbəsini və 1962-ci ildə Özbəkistanın paytaxtı Daşkənd şəhərində Daşkənd Dövlət Elektrotexnika İnstitutunun Radio fakültəsini bitirmişdir.

1962-1965-ci illərdə Azərbaycan Televiziya Mərkəzində böyük mühəndis vəzifəsində işləmişdir.

1965-66-cı illərdən 1968-ci ilə qədər Azərbaycan Politexnik İnstitutunun "Ümumi və nəzəri radiotexnika" kafedrasının asistenti, 1968-ci ildən həmin kafedranın baş müəllimi vəzifəsində işləyir. 1991-ci ildən Az.TU-nun "Radiotexnika" kafedrasının dosenti vəzifəsini tutur.

2005-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir və respublikada antenna texnikası üzrə yeganə texnika elmləri namizədidir. 50-dən çox elmi məqalənin, 2 patent-ixtiranın, 5-6 dərs vəsaitinin, 7-8 metodiki işin müəllifidir.

CƏLİLOV NATİQ QURBAN OĞLU

Natiq Cəlilov 1970-ci ildə anadan olmuşdur. 1977-ci ildə 13 saylı məktəbin birinci sinifinə daxil olmuş, 1987-ci ildə bitirmişdir. Həmin il Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olmuş və 1992-ci ildə oranı fərqlənmə diplomu ilə bitirərək Azərbaycan EA Mexanika və Riyaziyyat İnstitutu nəzdindəki aspiranturaya daxil olmuşdur.

Natiq Cəlilov 1995-ci ildə "Qeyri-aşkar ikiqat cırlaşmaya malik bir sinif qeyri-xətti parabolic tənliklərin tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

1966-cı ildən Azərbaycan Beynəlxalq Əməliyyat şirkətinin "İnformasiya texnologiyası" şöbəsində əvvəlcə mühəndis, daha sonra şöbə rəhbəri vəzifəsində çalışmışdır.

Hal-hazırda BP şirkətinin "Rəqəmli və Kommunikasiya Texnologiyaları" şöbəsinin proyektlər proqramı və icra bölməsində menecer işləyir.

1998-2003-cü illər ərzində Maykrasovt sistem mühəndisi, Sisko Şəbəkə Professionalı və İnformasiya Texnologiyası Professional Meneceri Sertifikatları almışdır.

CƏLİLOVA RƏHİMƏ QURBAN QIZI

Cəlilova Rəhimə 1959-cu ildə ziyalı ailəsində anadan olmuşdur.

R.Q.Cəlilova 1966-cı ildə 18 saylı şəhər məktəbinə qəbul olunmuş və 1976-cı ildə qızıl medalla həmin məktəbi bitirmişdir. Uşaqlıqdan riyaziyyat elminə böyük meyl göstərirdi və öz arzusunu 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" fakültəsinə qəbul olunaraq həyata keçirtdi. Tələbəlik illərində özünü elmlərin mənimsənilməsində məharət və istedad göstərmişdir, institutun həyatında aktiv iştirak etmişdir və həmin bilik ocağını 1981-ci ildə əlaçı kimi bitirmişdir. Həmin ildə institutun təyinatı üzrə Azərbaycan E.A.Kibernetika İnstitutunda kiçik elmi işçi vəzifəsinə işə götürülmüşdür və böyük elmi işçi vəzifəsinə qədər yüksəlmişdir.

R.Q.Cəlilova 1983-cü ildə "Hesablama riyaziyyatı" ixtisası

üzrə Azərbaycan E.A.Kibernetika İnstitutunun qiyabi aspiranturasına daxil olmuşdur və 1990-cı ildə akademik A.X.Mirzəcanzadənin rəhbərliyi ilə fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsini almaq üçün uğurla dissertasiya müdafiə etmişdir.

R.Q.Cəlilova tərəfindən tədqiq olunan məsələlər neft-mədən mexanikasında yeni istiqamət süzülmədə qeyri-xətti, qeyri-taraz prosesləri öyrənən istiqamət ilə əlaqədardır. Bu istiqamət layların neftveriminin artırılmasının yeni texnologiyalarının yaradılması üçün əsas ola bilər

R.Q.Cəlilova 18 elmi əsərin müəllifidir.

Onun tərəfindən alınan nəticələr elmi və tətbiqi əhəmiyyətə malikdirlər və xalq təsərrüfatı üçün mühüm problemlərdən biri olan layların neftvermənin artırılması problemi ilə əlaqədardır.

R.Q.Cəlilova 1999-cu ildən elmi işlə yanaşı Bakı Dövlət Universitetinin "İnformatika və proqramlaşdırmanın əsasları" kafedrasının nəzdində müəllimlik fəaliyyəti də aparır.

CƏLİLOVA RUHİM ƏLİHÜSEYN QIZI

Cəlilova Ruhim 1942-ci ildə Respublikanın əməkdar müəllimi Hacıkişiyev Əlihüseyn müəllimin ailəsində anadan olmuşdur. Əlihüseyn müəllim Şəki şəhərində Maarif Şöbə müdiri işləmiş və müharibə illərində arxa cəbhədə fəal iştirakına görə orden və medallarla təltif edilmişdir. Daha sonra isə Əlihüseyn müəllim 10 və 11 saylı məktəblərdə tarix fənnini tədris etmişdir. Belə bir ziyalı ailəsində tərbiyə alan Ruhim Cəlilova 1949-cu ildə Şəki şəhəri 7 saylı məktəbə daxil olub, 1959-cu ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib, M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) "Sənayenin

planlaşdırılması" fakültəsinə daxil olmuşdur. Ali məktəbin yenidən qurulması ilə əlaqədar o, D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutuna (indiki Dövlət İqtisad Universitetinə) keçirilmiş və 1963-cü ildə həmin institutu müvəffəqiyyətlə bitirib iqtisadçı ixtisası almışdır.

İnstitutu bitirdikdən sonra Azərbaycan SSR Elmlər Akademiyasının (indiki Milli Elmlər Akademiyası) "Dərin Neft və Qaz Yataqları Problemləri" İnstitutunda əvvəl mühəndis, sonra isə böyük mühəndis vəzifəsində çalışıb.

1974-cü ildən isə öz xahişi ilə Akademiyanın İqtisadiyyat İnstitutuna keçirilmiş və o vaxtdan hazırki dövrə qədər Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda elmi işçi vəzifəsində çalışır. İnstitutda işlədiyi müddətdə 25-dən çox elmi konfranslarda iştirak etmişdir. Hal-hazırda İnstitutun "Regionların kompleks sosial-iqtisadi inkişaf problemləri" şöbəsində elmi işçi vəzifəsində işləyir.

CUMAYEV SADƏDDİN SƏFƏR OĞLU

Sadəddin Cumayev 1935-ci ildə anadan olmuşdur. 1942-ci ildə Qudula kənd 7 illik məktəbin 1-ci sinifinə daxil olmuş. 1949-cu ildə oranı tərifnamə ilə bitirib. 1949-1950-ci illərdə Şəkidəki Stalin adına Pedaqoji Texnikumuna daxil olmuş. 1955-ci ildə oranı bitirərək, təyinatla Yardımlı rayonuna sinif müəllimi göndərilmişdir.

1957-58-ci illərdə hərbi xidmətə çağırılmış və bu müddətdə o, Alay məktəbini fərqlənmə ilə bitirərək kiçik komandir vəzifəsində işləmiş, ordu sıralarından ehtiyata buraxıldıqdan sonra Qudula kənd 8 illik məktəbinə sinif müəllimi təyin edilmişdir. Təhsilinin azlığından

narazı qalan Sadəddin müəllim 1964-cü ildə Bakıda Lenin (indiki ADPU) adına APİ-nin qiyabi şöbəsinin dil-ədəbiyyat fakültəsinə imtahan verərək qəbul olunmuş, 1970-ci ildə həmin fakültəni müvəffəqiyyətlə bitirmişdir.

1965-ci ildən indiyədək Qudula kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləyir. Kəndin sayılıb-seçilən ağsaqqallarındandır. Sadəddin müəllim hətta şairtəbiətlidir. Bu baxımdan onun bir şerini diqqətinizə çatdırmaq istəyərdik:

Demə bura Culfa, ora Şəkidir,
Lənkəran, Qəbələ, ya da Lənkidir.
Hamısı vətəndir, bütöv çəkidir,
Qoymayın tapdana Vətən torpağı.

İşlədiyi müddətdə bir çox tanınmış dərs dediyi şagirdlərdən ziyalı, elmlər namizədləri, mütəxəssislər yetişmişdir.

ÇƏRKƏZOVA SEVDA SABİR QIZI

Sevda Çərkəzova 1961-ci ildə anadan olmuşdur. 1977-ci ildə Şəki 10 saylı məktəbi bitirib və Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutuna daxil olmuşdur.

1984-cü ildə həmin institutu ingilis və alman dilləri müəllimi ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. Oxuduğu müddətdə Drezden Texniki Universitetində alman dili üzrə kurs keçmişdir.

İnstitutu bitirdikdən sonra Şəkinin müxtəlif məktəblərində ingilis dili müəlliməsi işləyib.

1998-ci ildən Azərbaycan Dövlət Neft Akademiyasının "Xarici dillər" kafedrasında müəllim işləyir.

10 elmi məqalənin, 1 dərsliyin müəllifidir.

ELDAROV SÜLEYMAN ƏLƏSGƏR OĞLU

Süleyman Eldarov 1922-ci ildə anadan olmuşdur.

1942-ci ildə Sovet Ordusu sıralarına çağırılmışdır. Böyük Vətən müharibəsində topçu heyətinin komandiri olmuşdur. Kurskda, Oryol ətrafında, Dneprdə Kariot dağlarının ətəklərində və Çexoslovakiyada gedən döyüşlərdə fərqlənmişdir və ona "Rəşadəli döyüşə görə" medalı verilmişdir.

1944-cü ildə Sov.İKP-nin üzvü seçilmişdir. O, Moskvada Qızıl Meydanda keçirilən (1945, 24 iyun) ilk qələbə rəsmi keçidində iştirak etmişdir. 1945-ci ildə Ordudan tərxis olunmuşdur.

Süleyman Eldarov Böyük Vətən müharibəsi qəhrəmanı, "Baş çavuş", "Şöhrət ordeni"nin hər üç dərəcəsi ilə təltif edilmişdir.

ƏBDÜRRƏHMANOVA SƏFURƏ DADAŞ QIZI

Səfurə Əbdürrəhmanova 1929-cu ildə anadan olmuşdur. 1950-ci ildən Sosialist Əməyi Qəhrəmanı adını almışdır. 1942-1956-cı illərdə S.Əbdürrəhmanova Lenin adına kolxozda kolxozçu, 1947-1961-ci illərdə manqabaşçısı, 1961-ci ildən yenidən kolxozçu kimi fəaliyyət göstərmişdir. O, 1956-cı ildən tütünçülüklə məşğul olmuşdur. 1949-cu ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

ƏBDÜLKƏRİMLİ LOĞMAN ŞƏFAƏT OĞLU

Loğman Əbdülkərimli 1939-cu ildə anadan olmuşdur. Orta təhsilini Şəki şəhərində aldıqdan sonra 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) riyaziyyat-mexanika fakültəsində oxumuşdur. 1962-1965-ci illərdə Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) Riyaziyyat və Mexanika institutunun aspirantı olmuş, 1967-ci ildə akademik Z.İ.Xə-



lilov və professor C.Y.Yaqubovun rəhbərliyi altında "Differ Banax fəzasında differensial-operatorla tənliklər üçün bəzi məsələlərin həlli" mövzusunda müvəffəqiyyətlə müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. 1968-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində dosent vəzifəsində işləyir.

O, 60-dan artıq elmi əsərin və üç kitabın müəllifidir.

ƏBDÜRRƏHİMOVA MƏHRİBAN LƏTİF QIZI

Mehriban Əbdürrəhimova 1972-ci ildə anadan olmuşdur. 1989-cu ildə kənd məktəbini fərqlənmə ilə bitirmiş və həmin il S.M.Kirov adına ADU-nun Şərqşünaslıq fakültəsinə daxil olmuşdur. 1994-cü ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuşdur. 1994-cü ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və həmin il fakültə Elmi Şurasının qərarı ilə kafedrada saxlanmışdır. 1995-1997-ci illərdə BDU-nun Aspiranturasında təhsil almışdır. 1997-2000-ci illərdə BDU-nun Hüquq fakültəsində təhsil alaraq Bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 2002-2004-cü illərdə BDU-nun Hüquq fakültəsində təhsilini davam etdirərək Magistratura pilləsini "Cinayət hüququ, Cinayət prosesi, Kriminalistika və məhkəmə ekspertizası" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

1998-2002-ci illərdə Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında ekspert işləmişdir.

1994-cü ildən indiyə qədər Bakı Dövlət Universitetində müəllim olaraq çalışır.

Mehriban Əbdürrəhimova elmi-pedaqoji fəaliyyətlərlə bərabər ictimai-siyasi fəaliyyətlə də aktiv məşğul olur. 1998-ci ildən BDU-nun Şərqşünaslıq fakültəsində Həmkarlar Təşkilatı sədrinin müavini seçilmidir.

2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin seçkilərində 27 saylı Yasamal 3-cü Seçki dairəsində müstəqil müşahidəçi olmuşdur.

Mehriban Əbdürrəhimova bir sıra beynəlxalq və Respublika elmi konfranslarının iştirakçısı olmuşdur. 1992-ci ildə Türkiyə Cümhuriyyətində keçirilən türkdilli gənclərin elmi simpoziumunda, 2001-ci ildə professor M.Əlizadənin 90 illik yubileyi münasibəti ilə keçirilən elmi konfransda, 2000-ci ildə professor V.Məmmədəliyevin yubileyinə həsr olunmuş Respublika elmi konfransında, 2003-cü ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin 80 illik yubileyi ilə bağlı elmi praktik konfransda, 2003-cü ildə E.Əliyevin 80 illik yubileyinə həsr olunmuş Hüquq fakültəsi magistrantlarının elmi konfransında, 2004-cü ildə BDU-nun 85 illik yubileyinə həsr olunmuş Hüquq fakültəsi magistrantlarının elmi konfransında iştirak və çıxış etmişdir.

2004-cü ildə Azərbaycan Hüquqşünaslar assosiasiyasının Açıq Cəmiyyət İnstitutunun dəstəyi ilə keçirdiyi "Hakimliyə namizədlər üçün treyninq"lərdə, 2005-ci ildə Amerika Dövlət Departamentinin dəstəyi ilə "Procekt Harmony" təşkilatının keçirdiyi "Azərbaycanda qadın liderliyi" proqramında iştirak etmişdir.

2002-ci ildə BDU-nun Rektorluğu tərəfindən "Yüksək ixtisaslı kadrların yetişdirilməsində göstərdiyi xidmətlərə görə" fəxri fərmanla təltif edilmişdir.

2003-cü ildən Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətində hüquqşünas olaraq fəaliyyət göstərir. Bu təşkilat tərəfindən Amerika Dövlət Departamentinin

dəstəyi ilə "Regionlarda insan hüquqlarının müdafiəsi ilə bağlı monitorinq qruplarının yaradılması" mövzusunda keçirilən seminarlarda treyner-hüquqşünas kimi iştirak etmişdir. Hazırda İsveçin "Kvinna till Kvinna" təşkilatının dəstəyi ilə "Qadınlara hüquqi yardım və ictimai müdafiəçilərin hazırlanması" mövzusunda həyata keçirilən proyektdə treyner-hüquqşünas kimi iştirak edir.

2005-ci ildə Mehriban Əbdürrəhimova "Qadın Hüquqşünaslar Birliyi" təşkilatını yaratmış və bu təşkilatın sədri seçilmişdir.

Rus, türk, ingilis və alman dillərini bilir. Cinayət hüquqi ixtisası üzrə dissertasiya işi üzərində işləyir. İndiyə qədər iyirmi elmi məqaləsi və beş tərcümə kitabı çap olunmuşdur.

2005-ci il 6 noyabr parlament seçkilərində 115 saylı seçki dairəsindən millət vəkilliyinə namizəd olmuşdur.

ƏBDÜRRƏHİMOV HÜSEYN YƏHYA OĞLU

Hüseyn Əbdürrəhimov 1912-ci ildə anadan olmuşdur. 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı adını almışdır. 1939-cu ildən Sov.İKP üzvü olmuş, Şəki rayonunda, 1934-cü ildə aqronom işləmişdir. 1947-1952-ci illərdə kənd təsərrüfatı şöbəsinin müdiri, 1953-1957-ci illərdə Şəki Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, sonralar isə təsərrüfat sahələrində işləmişdir. 1948-ci ildə tütünçülük sahələrində yüksək əmək göstəricisinə nail olmuşdur. Azərbaycan SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

Hüseyn Yəhya oğlu Əbdürrəhimov 1966-cı ildə Şəki şəhərində dünyasını dəyişmişdir.

ƏFƏNDİYEV ABDULCƏMİL ABDULLA OĞLU

Abdulcəmil Əfəndizadə 1893-cü ildə mükəmməl dini təhsil almış ziyalı ailəsində anadan olmuşdur. Uşaqlıq illərini kitablarla keçirən Abdulcəmil Abdulla oğlu Əfəndizadə həm də, arıçılığa

həvəs göstərir. Arıçılıq sənətini məşhur arıçı olmuş əmisi Abdurahman kişi bu sənəti həvəslə Abdulcəmilə öyrədir. Boş vaxtlarını əmisinin yanında arıxanada keçirən Abdulcəmil az bir vaxt içərisində bu peşəyə yiyələnir. 10-15 yaşlarında rayonun dövrünün dini təhsilli ziyalılarından ərəb və fars dillərini tam öyrənmişdir. İlahiyyət elmini tam öyrənən A.Əfəndizadə "Qurani Kərim"i əzbər bilirdi və ərəbcədən Azərbaycan dilinə tərcümə edirdi. Dərin hafizəyə malik olduğu üçün o, yoldaşları tərəfindən "Hafiz Əfəndi" deyə çağırılırdı. A.Əfəndizadə ərəb, fars dillərini mükəmməl bilmiş və babaları tərəfindən xəttatlıqla yazılmış kitabları həvəslə oxumuş və mütaliə etmişdir. Deyilənlərə görə Sovet hakimiyyəti qurulmamışdan qabaq rus dilindən dərs demiş və istəmişdir ki, hamı maarifləsin və savadlı olsun.

Aşıq Molla Cumanı yaxından tanıyan, onun yazdıqlarını əzbər bilən A.Əfəndizadə bir az keçmir ki, M.Füzulini, N.Gəncəvini dərindən öyrənməyə başlayır. Görgəmli dilçi alim Əziz Əfəndizadə tez-tez onunla görüşür və Azərbaycan dilində işlənən "və"ni vergüllə əvəz edilməsini məhz A.Əfəndizadə tərəfindən olduğunu deyir. Dövrünün şair və yazıçıları ilə əlaqə saxlayan Abdulcəmil Azərbaycan dilinin təkmilləşdirilməsinə daima səy göstərmişdir. Əmisi oğlu Məcid Əfəndiyev və "Nuxa" qəzetinin redaktoru Camal Qədirli dəyərli məsləhətlərini məhz A.Əfəndizadədən almışlar. Əmisi Abdurahman kişinin 1937-ci ildə sürgün olunduğunu görən Abdulcəmil babasından və atasından qalan bütün əlyazmaları və Ərəbistan ölkələrindən gələn qiymətli kitabları gizlədir. Tam mükəmməl dini savadı olan A.Əfəndizadənin məscidlərə getməyinə qadağa qoyulur.

Hal-hazırda Şəki rayonunun Oxud kəndində yerləşən ziyarətgahda onun babası Şeyx Abdulla Əfəndi daima yad edilir və ziyarətə gələnlərin xoş niyyətləri yerinə yetir.

Bir ağsaqqal kimi də rayonda tanınmış A.Əfəndizadə ömrünün sonuna qədər kitablardan ayrılmamış və arıçılıq peşəsini davam etdirmiş. Bu peşəni oğlu və nəvələrinə öyrətməklə mənalı 105 il ömür yaşamışdır.

ƏFƏNDİYEVA LEYLA HEYDƏR QIZI

Əfəndiyeva Leyla 1943-cü ildə anadan olmuşdur. 1960-cı ildə Bakı şəhərindəki 134 saylı orta məktəbi bitirmişdir. Həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir.

1966-cı ildə oranı qurtardıqdan sonra normal fiziologiya kafedrası nəzdindəki Elmi-Tədqiqat neyro-fiziologiya və funksional neyro-kimya problem laboratoriyasında kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamışdır. 1973-cü ildə prof Q.M.Qəhrəmanovun rəhbərliyi altında "Mərkəzi və periferik xolin və adrenerqik mexanizmlərin fizioloji analizi" mövzulu dissertasiya müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Bu həmin laboratoriyada ilk dissertasiya işi olmuşdur. 1974-cü ildən bu vaxta qədər laboratoriyanın böyük elmi işçisi vəzifəsində işləyir.

L.H.Əfəndiyeva 50-dən artıq elmi əsərlərin müəllifidir.

ƏFƏNDİYEV YALÇIN HEYDƏR OĞLU

Əfəndiyev Laçın 1937-ci ildə anadan olmuşdur.

1954-cü ildə Bakı şəhərindəki 6 saylı orta məktəbdə təhsil almışdır. Həmin il BDU-nin geoloji-coğrafiya fakültəsinə daxil olmuş və 1960-cı ildə bitirmişdir.

1962-ci ildə Moskvada Ümumittifaq Dövlət Kinomatoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil olmuş və 1966-cı ildə həmin institutu bitirmişdir.

1966-cı ildən Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında fəaliyyətə başlamışdır.

Çalışdığı müddətdə bir sıra filmlər yaratmışdır. Bunlardan: "Qayıdacağına inanırdı", "Azərbaycan... Azərbaycan", "Ceyran", "Tərlan", "Burada başlamışdır", "Nə yaxşı ki, dünyada Səməd Vurğun var!", "Naxışların yaddaşı" (sənədli filmlər), "Cırtdan" (cizgi filmi), "Xatirələr sahili" (bədii film) və s.

Bir çox xarici ölkələrdə çəkilişlər aparmışdır. Filmləri Sovetlər Birliyinin festivallarında mükafatlandırılmışdı.

1982-ci ildə Azərbaycan kinosunun inkişafında xidmətlərinə görə "Azərbaycanın əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. Azərbaycan Kinomatoqrafçılar İttifaqının üzvüdür.

1994-cü ildən Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin kinorejissor və kinooperator kafedrasının müəllimidir. Dosentdir.

ƏFƏNDİYEVA RAHİLƏ BƏHRAM QIZI

Rahilə Əfəndiyeva 1939-cu ildə anadan olmuşdur. 1947-ci ildə ildə Şəkidə (Nuxada) 5 nömrəli məktəbin 1-ci sinifinə daxil olub 1957-ci ildə bitirmişdir.

O, 1965-ci ildə şəki Pedaqoji texnikumuna daxil olub, 1967-ci ildə müəllimlik kursunu bitirmişdir.

1967-ci ilin sentyabr ayından Şəki şəhər 10 saylı orta məktəbdə ibtidai sinif müəllimi vəzifəsində çalışmışdır.

Əfəndiyeva Rahilə Bəhram qızı Azərbaycan LKPİ Şəki şəhər Komitəsinin katibi Qarayev T. tərəfindən, 1977-ci il noyabrın 24-də və 1980-ci il dekabrın 6-da T.Orucova tərəfindən böyüməkdə olan nəslin tərbiyəsi sayəsində apardığı səmərəli işinə görə və 1-ci sinif şagirdlərinə əlifbanın öyrədilməsi sayəsində qazandığı nailiyyətlərə görə 2 dəfə fəxri fərmanla təltif olunmuşdur.

12 mart 2002-ci ildə pedaqoji mühazirələri "Savad təlimi dövründə səs təhlil-tərkib metodundan istifadə yolları" və 2004-cü ilin aprel ayında "İbtidai siniflərdə riyaziyyatın tədrisində testlərdən istifadə" mövzuları əsasında şəhər turunda II yer tutduğuna görə Azərbaycan Respublikası Təhsil Nazirliyi Şəki şəhər təhsil şöbəsi tərəfindən fəxri fərmanlarla təltif olunmuşdur.

2000-ci ilin oktyabrından başlayaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Fəal Təlim və Məktəb Rəhbərliyi Layihəsi Çərçivəsində" Təhsil Nazirliyi və UNİSEF tərəfindən 2000-2003-cü illər ərzində keçirilmiş "Fəal Təlim" Proqramı üzrə treninqlər silsiləsində 150 saatlıq kursu dinlədiyinə görə SERTİFİAT almışdır.

2001-2002-ci illərdə biz, ibtidai sinif müəllimlərinin, Xumar və Leyla müəllimlərin göstərişi ilə, "Fəal Təlim" üzrə keçdiyi dərsləri bir neçə dəfə dinləyərək çox-çox bəyəndiklərini bildirmişlər.

R.Əfəndiyevanın 2001-ci ildən sonra "Fəal Təlim" üzrə Şəki şəhər Təhsil Şöbəsinin müdir müavini M.Kamal müəllim, Şəki şəhər ibtidai siniflərin metodisti Ç.Mustafayeva, kənd və şəhər məktəblərinin hər birindən nümayəndələr, sinif şagirdlərinin valideynləri dərsin protokolunu xoşagələn, düzgün xarakteristika vermişlər.Onun işini qiymətləndirmək üçün Pedaqoji iş təcrübəsinə görə və dərslərində yeni interktiv metodlardan istifadə etdiyinə görə "Tumurcuq", "Savalan", "Təhsil Problemləri" qəzetlərində işıqlandırılmışdır. Savalan: № 10 (4855) 13-19 mart 2002-ci il, Tumurcuq: № 4 (84) 2004-cü il. Təhsil Problemləri: № 35-36 (162-163) 21-30 iyun 2005-ci il tarixli qəzetlərində.

R.Əfəndiyevanın iş stajı 38 ildir. Onun işlədiyi müddətdə vətənpərvər, tərbiyəli, savadlı, insani xüsusiyyətlərə malik olan, uzaqgörən şagirdləri olub Hal-hazırda həyatın müxtəlif sahələrində çalışırlar.

Əfəndiyeva Rahilə Bəhram qızı hal-hazırda Şəki şəhər R.Əfəndiyev adına 10 saylı orta məktəbdə ibtidai sinif müəlliməsi vəzifəsində çalışır.

O, əmək veteranıdır.

ƏFƏNDİYEV HƏBİBULLAH MƏMMƏDSƏİD OĞLU

Həbibulla Əfəndiyev 1884-cü ildə ziyalı ailəsində anadan olmuşdur. Sabit Rəhman, Rəşid bəy Əfəndiyev, Məmməd Səid Əfəndi yaxın qohumları olmuşlar.

1 oktyabr 1918-ci ildən müəllim vəzifəsində işləyib. 9, 5, 7, 6, 14 saylı məktəbdə müdir və müəllim kimi çalışmışdır. 1938-ci ildə Zaqatala pedaqoji məktəbini bitirmişdir.

Məktəb və maarif sahəsində uzun müddət və qüsursuz çalışdığına görə Həbibullah Məmmədsəid oğlu Əfəndiyev yoldaş SSR Ali Soveti Rəyasət Heyətinin 1949-cu il 12 fevral tarixli fərmanı ilə Lenin ordeni ilə təltif olunmuşdur.

Məktəbə getmək çətin olduğundan Maarif Komissarlığı qarşısında məsələ qaldırıb və həmin rayonda 14 saylı ibtidai məktəbin açılmağına müvafiq olmuşdur və uzun illər həmin məktəbdə müdir işləmişdir.

1943-cü ilin sentyabr-dekabr müddətində Qızıl Ordu sıralarına səfərbərliyə alınmış müəllimlərə ehtiyac olduğundan geriyə

qaytarılmışdır. Müharibə illərində Ağdaşda ictimai işlərdə çalışmışdır.

1949-cu il 12 fevral tarixində məktəb və maarif sahəsində uzun müddət və qüsursuz çalışdığına görə Həbibullah Məmmədsəid oğlu Əfəndiyev yoldaş SSRİ Ali Soveti Heyətinin fərmanı ilə Lenin Rəyasət ordeni ilə təltif olunmuşdur.

6 iyun 1945-ci ildə "Za doblestnıy trud" (1941-1948), 1970-ci il 3 aprel ("Za doblestnıy trud") Leninin anadan olmasının 100 illiyi münasibətilə medallarla təltif olunmuşdur.

Öz evladlarına çoxsaylı şerlər yazmışdır.

1981-ci il martın 15-də vəfat etmişdir.

ƏFƏNDİZADƏ (ƏFƏNDİYEV) RƏŞİD BƏY İSMAYIL OĞLU

Rəşid bəy Əfəndizadə 1863-cü ildə anadan olmuşdur.

Rəşid bəy tərcüməçilik fəaliyyətinə Zaqafqaziya Müəllimlər Seminariyasının tələbəsi olduğu vaxtlardan başlamışdır. XIX əsrin 80-90-cı illərində Krılovun "-Tülkü və üzüm", "Ördək, balıq və xərçəng", "Əkinçi", "Qurd və pişik" və s. təmsillərini, A.Puşkinin "Torçu və balıq", "Rusalka", "Qafqaz", L.Tolstoyun "At və eşşək", "Ana və oğul", "Baba və nəvəsi", Firdovsinin "Şahnamə"sindən "Ata və oğul" dastanını, Sədinin bir neçə rübaisini, Nafizdən bir neçə qəzəl, Şillerdən "Cam", "Əlcək" şerlərini, Lermantovun "Hava gəmisi", "Dua" şerlərini və başqa şerləri Azərbaycan dilinə tərcümə etmişdir.

R.Əfəndizadənin tərcüməsi həm nəsr, həm də nəzmlə qələmə almış, xalq danışıq dilinin aydınlığı, sadəliyi və şirinliyi əsərin bədii ruhu ilə həmahəng səsləşərək onu daha da oxunaqlı, yaddaqalan etmişdir. Sanki nağıla qulaq açırsan.

Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra R.Əfəndizadə Qutqaşenin (Qəbələ) Xaçmaz kəndində müəllim kimi əmək fəaliyyətinə başlamışdır.

R.Əfəndizadə 1882-ci ildən etibarən öz şagirdləri ilə Çuxur Qəbələ kəndi ərazisində apardığı arxeoloji qazıntılarla sübut etmişdir ki burada böyük və zəngin maddi mədəniyyət nümunələri olmuşdur.

"Nuxa qəzasının əsari-ətiqələri" adlı kitabı ilə R.Əfəndizadə topladığı bütün tarixi materialları geniş oxucu kütləsinə çatdırmışdır.

R.Əfəndizadə 1929-cu ildə "Nuxa qəzasındakı Dəhnələr və Suçma kəndlərinin etnoqrafiyası və iqtisadiyyatı, Trud düzündəki faydalı qazıntılar", 1930-cu ildə "Şəki haqqında bir neçə qeydlər", "Şəki mahalında Baş Laysqı kəndi və eşşək qalası" kimi tarixi məqalələrini yazmış və nəşr etdirmişdir.

1930-cu ildə "Şəki şəhərinə və mahalına məxsus ipəkçilik haqqında tarixi materiallar", 1934-cü ildə isə "Nuxa şəhərində mövcud olan sənətkarlıq barəsində və ustalar haqqında" tarixi məlumat da Rəşid bəy Əfəndizadənin qələmindən çıxan araşdırmalardır.

Rəşid bəy Əfəndizadə 1942-ci ildə doğulduğu Nuxa (indiki Şəki) şəhərində vəfat etmişdir. 1960-cı ildə R.Əfəndizadənin adını əbədiləşdirmək üçün Şəki şəhərində onun Ev Muzeyi yaradılmışdır.

ƏFƏNDİYEV VEYSƏL RƏSUL OĞLU

Veysəl Əfəndiyev 1930-cu ildə anadan olmuşdur.

1952-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirdikdən sonra o. iqtisadçı kimi Azərbaycan Pambıq Tədarükü Trestinin plan şöbəsinə göndərilmiş və tezliklə Baş Pambıq Tədarükü və Emalı İdarəsi Maliyyə İdarəsinin baş iqtisadçısı vəzifəsinə keçirilmişdir.

1953-cü ildə Moskva İqtisad Statistika İnstitutu yanında aspiranturaya daxil olmuşdur. 1959-cu ildə ona iqtisad elmləri namizədi alimlik dərəcəsi verilmişdir.



V.R.Əfəndiyev 1957-ci ildə Azərbaycan KP MK-da işləməyə irəli çəkilmiş, orada kənd təsərrüfatı şöbəsinin təlimatçısı olmuşdur. 1959-cu ildə KP Balakən rayon komitəsinin birinci katibi olmuşdur. Sonrakı illərdə o, Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu (indiki AzTU) siyasi iqtisad kafedrasının dosenti, Azərbaycan Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunun şöbə müdiri, Bakı Ali Partiya Məktəbi siyasi iqtisad kafedrasının dosenti olmuşdur.

V.R.Əfəndiyevin xidmətləri daim yüksək qiymətləndirilmiş, "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.

Görkəmli ziyalı, gözəl insan, Veysəl Rəsul oğlu Əfəndiyev 1979-cu il sentyabrın 17-də vəfat etmişdir.

ƏFƏNDİYEV AQİL NƏSRULLAH OĞLU

Aqil Əfəndiyev 1929-cu ildə müəllim ailəsində anadan olmuşdur. O, 1946-cı ildə orta məktəbi qızıl medalla bitirdikdən sonra Moskva Toxuculuq İnstitutuna daxil olmuşdur. İnstitutu bitirdikdən sonra Şəki İpək Kombinatına göndərilmiş və 1951-ci ildən 1956-cı ilədək burada işləmişdir.

O, 1954-cü ildə SSRİ-də Mühəndis və rəhbər işçilərin təkmilləşdirilməsi institutunu fərqlənmə diplomu ilə bitirmişdir.

A.Əfəndiyev istedadı, təşkilatçılıq qabiliyyəti ilə qısa bir müddətdə böyük hörmət qazanmışdır. O, 1956-cı ildə Azərbaycan SSR Yüngül Sənaye Nazirliyinə işə keçirilmiş, orada baş mühəndis, şöbə rəisi vəzifələrində işləmişdir.

1961-1963-cü illərdə A.Əfəndiyev Azərbaycan respublikası Nazirlər Sovetində referent, 1963-1965-ci illərdə respublika Dövlət Plan Komitəsində şöbə rəisi, 1965-1974-cü illərdə isə Azərbaycan SSR Nazirlər Sovetinə şöbə rəisi vəzifələrində çalışmışdır.

1974-cü ildə Azərbaycan SSR Dövlət Plan Komitəsinin sədrinin müavini vəzifəsinə irəli çəkilmişdir.

A.N.Əfəndiyev respublika yüngül, yeyinti və yerli sənayelərinin inkişafı üçün ciddi səy göstərmiş, bu sahələrdə problemlərin həllinə, müvəffəqiyyətin təmin olunmasına, imkan və ehtiyat mənbələrinin aşkara çıxarılmasına çalışmışdır. Xalq istehlakı mallarının artırılması, əhaliyə göstərilən məişət və ticarət xidmətinin yüksəldilməsi sahəsindəki təşəbbüsləri də gözəl nəticələr vermişdir.

Aqil Əfəndiyevin səriştəliyi, zəngin təcrübəsi və istedadı xüsusən respublikamızda xalq istehlakı malları istehsalının və əhaliyə göstərilən xidmət sahələrinin inkişafı üçün kompleks proqramın hazırlanmasında özünü göstərmişdir. O, həmin proqramın əsas müəlliflərindən biridir.

O, həmçinin "Ayna - Zerkalo" ictimai-siyasi icmal qəzetinin müxbiri kimi də fəaliyyət göstərmişdir.

Onun əməyi daim yüksək qiymətləndirilmişdir. O, "Şərəf nişanı" ordeninə, dəfələrlə fəxri fərmanlara layiq görülmüş, bir çox medallarla təltif edilmişdir, həm də A.N.Əfəndiyev Azərbaycanın "Əməkdar iqtisadçısı" adına layiq görülmüşdür.

Aqil Əfəndiyev 1995-ci ildən dövlət qulluqçusu kimi təqaüddədir.

ƏHMƏDOV MƏMMƏD MƏMMƏDƏLİ OĞLU



Əhmədov Məmməd 1949-cu ildə anadan olmuşdur. 1966-cı ildə Oxud kənd orta məktəbində orta təhsilini başa vurmuşdur. Sonra o, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki İqtisad Universiteti) "Xalq təsərrüfatının planlaşdırılması" fakültəsini iqtisadçı ixtisası üzrə müvəffəqiyyətlə bitirmişdir. Uzun müddət Şəki rayonunda kənd təsərrüfatı sahəsində müxtəlif təşkilatlarda çalışmışdır. Sonrakı fəaliyyətinin əsas hissəsini Sənaye Tikinti Nazirliyində, Bakı Baş Tikinti İdarəsində əhalinin sosial və mənzil problemlərinin həlli məsələlərinə həsr etmişdir. Bu müəssisələrin fəaliyyəti dayandıqdan sonra "Neftçi ekoloqların yaşıllıq elmi-ictimai birliyi"nin sədri vəzifəsində işləmişdir. Hazırda Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Dənizneftqazlayihə" Dövlət Elmi-tədqiqat və Layihə İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır.

Hobbisi şer yazmaqdır. Şerləri respublikanın müxtəlif qəzetlərində çap olunmuşdur. Böyük maraq dairəsi və dərin mütaliə qabiliyyətinə malik olan Məmməd müəllim klassik və müasir şairlərin əsərlərinin böyük əksəriyyətini əzbər bilir.

Yüksək ədəb-ərkanlı, Mehriban insan olan Məmməd müəllim böyük el şənliklərinin və toylarının bəzəyidir Onun şirin-şirin Şəki ləhcəsində danışmağı, duzlu zarafatları məclis əhlinə böyük mənəvi zövq verir. O, el şənliklərinə müqəddəslik, hikmət mənbəyi kimi yanaşır. Hal-hazırda Azərbaycanın qədim və müasir toy adət-ənənələri barəsində kitab üzərində çalışır. Ömrü boyu keçirdiyi ağırlı-acılı həyat yolunda sinəsində dərddən dağlar yaransa da bədbinliyə qapılmayan şair şerlərinin birində bu hissləri bədii şəkildə belə ifadə edir.

Hamı tək dünyaya etmişəm meyl,
Görürəm yığılır il üstünə il.
Məmmədi qocaldan o dağlar deyil,
Sinəmdə yatışır yüzü dağların.

ƏHMƏDOVA MƏLAHƏT QƏDİR QIZI

Məlahət Əhmədova 1938-ci ildə anadan olmuşdur. Orta məktəbi bitirdikdən Axundov adına Dillər İnstitutuna daxil olmuş, 1963-cü ildə həmin institutda rus dili və ədəbiyyatı ixtisası almışdır. İnstitutu bitirib Şəki şəhərinə təyinat almış, bir il orada işlədikdən sonra ailə vəziyyəti ilə əlaqədar Bakı şəhərinə köçmüşdür.

1965-ci ildən Çingiz İldırım adına Politexnik İnstitutunun tədris hissəsinə işə girmiş və müxtəlif işlərdə: baş laborant, inspektor, baş inspektor, baş metodist və s. işləmişdir. Bu illərdə eyni zamanda "Rus dili və pedaqogika" kafedrasında saat hesabı dərs aparmışdır. 2001-ci ildən Azərbaycan Texniki Universitetində "Rus dili və pedaqogika" kafedrasında baş müəllim işləyir. Dəfələrlə institutun rəhbərliyi tərəfindən səmərəli və keyfiyyətli əmək fəaliyyətinə görə təşəkkürlər almışdır.

Bir sıra metodik məqalələri "Dil və ədəbiyyat" nəzəri elmi metodik jurnalda çap olunmuşdr. Bunlara misal olaraq:

1. "Обучение письменной речи студентов технического вуза на уроках русского языка". "Dil və ədəbiyyat" nəzəri elmi metodik jurnal, 2(31), Bakı, 2001.

2. Тексты по аудированию (начальный этап обучения) методразработка, AzTU, Bakı-2001.

3. О некоторых приемах работы над текстами по специальности при развитии письменной речи студентов технического вуза. Dil və əd... 3(32), Bakı, 2001.

4. Некоторые особенности обучения студентов грамматике на уроках русского языка. 2(40), Bakı, 2004.

ƏHMƏDOV ƏLİ DAVUD OĞLU (ÇƏKMƏÇİ ƏLİ)



Əli Əhmədov 1933-cü ildə fəhlə ailəsində anadan olmuşdur.

Şəki 2 saylı orta məktəbində VI sinifi bitirib, natamam orta təhsil almışdır.

1949-cu ildə Şəkidə "Yeni zəhmət artel"ində şagird olub, çəkməçilik sənətini öyrənib.

1953-cü ildə vəziyyətinə görə Bakıya köçmüşdür. 1954-1957-ci illərdə İrkutsk və Alma-Atada hərbi xidmətdə olub.

1957-1960-cı illərdə ayaqqabı sexində fəaliyyət göstərib. 1960-cı il mart ayının 7-dən baletmeyster Əlibaba Abdullayevin dəstəsi ilə Filarmoniyanın direktoru, xalq artisti Soltan Hacıbəyov tərəfindən işə götürülür. O vaxtdan bu günədək milli ayaqqabılar üzrə ustadır.

Onun haqqında "Maestro" adında sənədli film çəkilib. 1991-ci ildə Azərbaycan Respublikası prezidentinin fərmanı ilə ona "Əməkdar Mədəniyyət işçisi" fəxri adı verilmişdir. 1987-ci ildə "Pravda" qəzetində şəkli ilə "Master" ("Usta") adlı məqalə çap edilmişdir. Ümumilikdə, 52 müxtəlif mətbuat orqanlarında və kitablarda onun haqqında məqalələr çıxmışdır. Respublika Kitab Cəmiyyətinin (RKC) İdarə Heyətinin üzvüdür. Hazırda təqaüddədir.

Xalq şairimiz Bəxtiyar Vahabzadə "Çəkməçi" Əlinin zəhmətini yüksək qiymətləndirərək ona "Çəməçi Əli" adlı şer həsr etmişdir (B.Vahabzadənin kitabından).

ƏHMƏDOV NƏZİR LAÇIN OĞLU

Əhmədov Nəzir 1926-cı ildə anadan olmuşdur. Natamam orta təhsilini qonşu Təpəcənnət kəndində başa vurub. Sonra Şəki Pedaqoji Texnikumunda təhsil alıb. 1943-cü ildə könüllü əsgər

gedib. 1944-cü ildə Xarkov Hərbi Kəşfiyyat məktəbində oxuyub. Müxtəlif sərhəd qoşunları hissələrində qulluq edib.

1950-ci ildə ordudan tərxis olunub və həmin il Leninqrad (Sankt-Peterburq) Universitetinə daxil olub. Ali təhsilini başa vurduqdan sonra Leninqrad Vilayət Partiya Komitəsində çalışıb.

1956-cı ildə öz xahişi ilə Azərbaycana qayıdıb Bakı Dövlət Universitetində və Tibb İnstitutunda müəllim işləyib. 1957-ci ildə Bakı şəhər Partiya Komitəsinə bölmə müdiri vəzifəsinə təyin edilib. 1959-cu ildə Azərbaycan KP MK-da təbliğat-təşviqat şöbəsində, sonra isə təşkilat şöbəsində işləyib. 1963-cü ildən 1974-cü ilin noyabr ayınadək Zaqatala rayon Partiya Komitəsinin I katibi, sonralar Abşeron Rayon Partiya Komitəsinin I katibi, Azərbaycan Dövlət Plan Komitəsinin iqtisadiyyat İnstitutunda baş elmi işçi, şöbə müdiri vəzifəsində işləmişdir.

N.Əhmədov iqtisad elmləri namizədidir. 3 elmi kitabın, 40 çap vərəqi həcmində elmi-nəzəri məqalələrin müəllifidir. 2 çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan KP MK üzvü olmuş, 4 orden və 14 medalla təltif olunmuşdur.

ƏHMƏDOVA SEVDA NADİR QIZI

Sevda Əhmədova 1969-cu ildə anadan olmuşdur.1987-ci ildə Bakı şəhərində 36 saylı məktəbi bitirmişdir. Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun I müalicə profilaktika fakültəsinə daxil olmuşdur. 4-cü kursdan Respublika Doğum evinin reanimasiya şöbəsində tibb bacısı kimi fəaliyyətə başlamışdır. 1995-ci ildə İnstitutu həkim ixtisası üzrə bitirmiş, 1995-1996-cı illərdə Respublika Doğum evində mama-ginekoloq ixtisası üzrə

internatura keçmişdir. 1998-ci ildə Bakı şəhər 1 saylı qadın məsləhətxanasında həkim kimi işə başlamışdır.

1998-ci ildə Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzinin Elmi Şurasında "Qadın cinsiyyət üzvlərinin bəd və xoş xassəli şişlərində qara ciyərin funksional vəziyyəti və aktivliyi" mövzusunda elmi tədqiqat işinin annotasiyası təsdiq olunmuşdur.

1998-ci ildə iş yerini Hacı Qasımov adına 1 saylı doğum evinə dəyişmişdir.

2002-ci ildə 140001-140014 ixtisası üzrə Milli Onkologiya Mərkəzinin İxtisaslaşmış Elmi Şurasında elmi işi müdafiə etmişdir.

20 elmi məqalənin müəllifidir. Məqalələr həm respublika daxilində, həm də xaricdə - Almaniya, Moskva, Gürcüstan, həm Çinin Şərq Tibb jurnalında dərc olunub. 2000-ci ildə UNİSEF-in təhlükəsiz analıq proqramında komissiyanın üzvü olmuşdur.

2002-ci ildən Hacı Qasımov adına 1 saylı doğum evinin doğum şöbəsində rəhbərlik edir.

ƏKBƏROVA SƏXAVƏT OQTAY QIZI

Əkbərova Səxavət 1970-ci ildə anadan olmuşdur.

1987-ci ildə Şəki şəhər 7 saylı orta məktəbini bitirmişdir.

Orta məktəbdə oxuduğu müddətdə qədim el sənətimiz olan təkəlduz sənətinə böyük həvəsi olmuş və həmin sənətin sirlərini Ağahüseynzadə Möhtərəm Rza qızından öyrənmişdir.

1985-ci ildə hazırladığı araqçın Moskvada keçirilən əl işləri sərgisinə göndərilmiş və sərgidə iştirak edənlərin böyük marağına səbəb olmuş, 1986-cı ildə Ümumittifaq sərgisində tikdiyi çanta ilə təmsil olunaraq müxtəlif mükafatlara layiq görülmüşdür.

2002-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

2002-ci ildə Bakı şəhərində keçirilən 1-ci ümumrespublika müsabiqəsində bədii tətbiqi dekorativ sənət növü üzrə 2-ci yeri tutmuş və Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin diplomu ilə təltif edilmişdir, təkəlduz sənəti barədə bir çox məqalələrin müəllifidir.

Hazırda o, 7 saylı orta məktəbdə müəllim işləyir.

ƏLİYEV ƏLİ YUSİF OĞLU

Əliyev Əli 1930-cu ildə anadan olmuşdur.

1937-ci ildə orta məktəbə daxil olub, 1947-ci ildə Şəki şəhər 10 saylı məktəbi bitirmişdir. Elə həmin ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsinə daxil olmuşdur. 1952-ci ildə həmin fakültəni mühəndis-energetik ixtisası ilə bitirib Mingəçevir su-elektrik stansiyasının tikintisinə göndərilmişdir. Tikintidə enerqokombinatın laboratoriyasında rəis, 35 kilovatlıq yarımstansiyalarında rəis, 1953-cü ildən elektrik şəbəkəsi və yarımstansiyaları şöbəsinin rəisi, 1955-ci ildən isə Mingəçevir su-elektrik stansiyasının istismara verilməsi ilə əlaqədar olaraq, stansiyanın istismar şöbəsində baş mühəndis vəzifəsində işləmişdir.

1955-ci ildən "Azkəndenerji"nin Nuxa rayonlararası istismar şöbəsinin texnoruku, 1957-ci ildən isə "Azenerji"nin Qərb elektrik şəbəkəsinin 110 kilovatlıq Nuxa yarımstansiyasının rəisi vəzifəsində çalışmışdır.

1960-cı ildən "Azərenerji"nin Qərb elektrik şəbəkəsinin Nuxa şəbəkə rayonunun rəisi vəzifəsində çalışmışdır.

1964-cü ildə "Azkəndenerji" və "Azkommunenerji" trestlərinin ləğv edilib "Azenerji"yə birləşməsi ilə əlaqədar olaraq, Qərb elektrik şəbəkəsinin bazasında yeni şəbəkələr, o cümlədən, sərbəst Şəki elektrik şəbəkəsi yaradılmışdır. Şəki elektrik şəbəkəsinin yaradılmasında özünün müstəsna rolu və böyük zəhməti olan Əli Əliyev, bu şəbəkənin direktoru vəzifəsinə təyin edilmiş və 21 il (1985-ci ilə qədər) bu vəzifədə çalışmışdır.

1985-ci ilin dekabr ayından Şəki İpək İstehsalat Birliyində baş energetik, mexanika və energetika şöbəsinin rəisi vəzifəsində işləmişdir.

Ə.Əliyev yüksək intellektual potensiala və qeyri-adi iradəyə malik, vicdanlı və öz sənətini əla bilən bir şəxsiyyət kimi, daim yüksək məsuliyyətli vəzifələrdə çalışmış və təsadüfi deyil ki, o "Şərəf nişanı" ordeni (1974) və medallarla (1970, 2000), SSRİ Energetika Nazirliyi və Həmkarlar Şurasının "Fəxri fərman"ları ilə təltif edilmişdir.

Ə.Əliyev 2001-ci ildə vəfat etmişdir.

ƏLİYEV NEMƏT ABDÜLƏZİZ OĞLU

Nemət Əliyev 1936-cı ildə anadan olmuşdur. Şəki şəhər 10 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetində oxumuşdur. Universiteti qurtardıqdan sonra əmək fəaliyyətinə metodist vəzifəsilə Respublika Mədəniyyət Nazirliyində başlamışdır. Mədəniyyət Nazirliyində işlədiyi müddətdə metodist vəzifəsindən nazirliyin idarə rəisinin müavini vəzifəsinədək yüksəlmişdir. 1969-cu ildə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin müavini vəzifəsinə seçilmişdir.

1969-cu ildən 1999-cu ilədək 30 il müddətində Azərbaycan Həmkarlar İttifaqlar Şurasında (AHİŞ-də) müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. N.Əliyev AHİŞ-də işlədiyi müddətdə SSRİ-nin və Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibində planetimizin demək olar ki, bütün qitələrinin müxtəlif ölkələrində (İtaliyada, Yuqoslaviya Federativ Respublikasında, Hindistanda, Pakistanda, Şri-Lankada, Polşada, Finlandiyada, Kubada, Misir Ərəb Respublikasında, Yunanıstanda, Türkiyədə, İranda, Yaponiyada, Vyetnamda və s. və i.) olmuş respublikamızın bu ölkələrdə tanınmasında və təbliğində xeyli iş görmüşdür.

O, turizm və ekskursiyalar üzrə Respublika Şurası, Nəşriyyat Poliqrafiya və kitab ticarəti işləri üzrə Dövlət Komitəsi kollegiyalarının, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyətinin üzvü idi.

Harada olmasında, hansı vəzifədə işləməsindən asılı olmayaraq N.Əliyev dədə-baba yurdunu, Şəkini yaddan çıxarmamış, rayonun mədəni, ictimai, iqtisadi həyatı ilə maraqlanmış, inzibati vəzifə imkanından, daşıdığı ictimai vəzifələrdən istifadə edərək Şəki ilə əlaqədar problemlərin müsbət həllinə çalışmışdır.

N.Əliyevin təşəbbüsü və köməkliyi ilə Şəkinin bir neçə nəfər mədəniyyət işçisinə "Azərbaycan SSR-nin əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdir. Şəki mətbəəsinin müasir çap avadanlığı ilə təchiz olunmasında onun əməyi az olmamışdır.

Turizm və Ekskursiyalar üzrə Respublika Şurasına rəhbərlik etdiyi dövrdə N.Əliyev Şəkidə turizm və səyahətlər idarəsi açır. Moskva, Leninqrad və SSRİ-nin başqa mərkəzi şəhərləri ilə həmçinin müttəfiq respublikalarla turist mübadiləsi üçün müqavilələr bağlanılır.

N.Əliyevin təşəbbüsü və səyi, yerli orqanların iştirakı və köməkliyi ilə 200 nəfərlik turist bazası yaradıldı. 1986-cı ildə fəaliyyətə başlayan "Soyuq bulaq" turist bazası müxtəlif rayonlardan turist qəbul etməyə başladı.

N.Əliyev həm də geniş yaradıcılıq işi ilə məşğul olmuşdur. O, "Yanvar plenumunun qərarlarını kütlələrə", "M.Ə.Sabir", "Şanlı 50 il", "A.İ.Gertsen", İtaliya gənclərinin həyatından bəhs edən "Çobanın taleyi", Azərbaycan və dünya xalqları folklorları əsasında uşaqlar və gənclər üçün silsilə televiziya tamaşalarının müəllifi, müxtəlif sahələrə həsr olunmuş onlarla kitabın redaktoru olmuşdur.

SSRİ Jurnalistlər İttifaqının üzvü olan N.Əliyev daim respublika və mərkəzi dövrü mətbuatında müxtəlif sahələrə həsr olunmuş məqalələrlə çıxış etmişdir.

N.Əliyevin xidmətləri "Şərəf nişanı" ordeni, rəşadətli əməyə görə V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə yubiley medalı, əməkdə fərqləndiyinə görə "Əmək veteranı" medalları ilə qeyd edilmişdir. O, Azərbaycan SSR Ali Sovetinin, ÜİHİMŞ-nin, ÜİLKGİ MK-nın fəxri fərmanı ilə təltif olunmuşdur.

ÜİHMŞ-nın və SSRİ Müdafiə Nazirliyinin hərbçilərə mədəni hamilik komissiyasının Azərbaycan Respublika şöbəsi sədrinin müavini (sədr mayestro Niyazi idi) vəzifəsindəki səmərəli işi həmin orqanlar tərəfindən dəfələrlə mükafatlandırılmışdır.

N.Əliyev SSRİ-nin "Əlaçı mədəniyyət işçisi"dir. O, hal-hazırda "Məktəbli və Tələbə İaşə" Açıq Tipli Səhmdar Cəmiyyəti Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində işləyir.

ƏLİYEV ABDUL-ƏLİ RZA OĞLU

Abdul-Əli Əliyev 1906-cı ildə anadan olmuşdur. 1921-ci ilin əvvəlində Tbilisi Rabitə Texnikumuna daxil olmuş, II kursdan bir neçə istedadlı tələbə ilə birlikdə Moskva Rabitə Texnikumuna eçirilmidir. Həmin texnikumu bitirdikdən sonra Moskva Telefon Şəbəkəsində əmək fəaliyyətinə öaşlamışdır.

1928-ci ildə Azərbaycana gələrək telefon stansiyalarında işə başlamışdır. 1920-ci ildə Leninqrad Rabitə İnstitutuna oxumağa göndərilmiş və Bakı şəhərinə qayıdaraq telefon şəbəkəsində mühəndis vəzifəsində işləmişdir. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə ilk 10000 nömrəlik iri telefon stansiyasının quraşdırılması başa çatdırılmışdır. 1937-ci ildə Bakı Telefon Şəbəkəsinin baş mühəndisi vəzifəsinə irəli çəkilmişdir. Milli burjuaziyanın məşhur təmsilçiləri sayılan Şəkili Məmmədsadıq Əliyevin nəslindən olduğuna görə 1938-1941-ci illərdə repressiyaya məruz qalmış, işgəncələrə və təqiblərə baxmayaraq ona qarşı sürülən bütün ittihamların əsassız olduğunu sübuta yetirə bilmiş və azadlığa buraxılmışdır. Müharibə illərində Bakı Şəhər Telefon Şəbəkəsinin fasiləsiz işini təmin etmək üçün rəşadətlə çalışmışdır. Uzun illər Bakı Telefon Şəbəkəsinin baş mühəndisi işləyərək Bakı şəhərində və respublikada telefon rabitəsinin inkişaf layihəsini əsaslandırmış və həyata keçirmişdir Onun iştirakı ilə ATS-5, ATS-2, ATS-7 və digər stansiyalar tikilmişdir.

Rabitəçi kadrların hazırlanmasında böyük əməyi olmuşdur. O xeyli müddət Rabitə Texnikumunda aparıcı fənlər üzrə müəllim işləmişdir. İlk azərbaycanlı telefon rabitəsi mühəndisi idi. Əmək veteranı idi.

Vəfat edib.

ƏLİYEV TELMAN FƏTULLA OĞLU

Əliyev Telman 1939-cu ildə anadan olmuşdur. 1945-ci ildə 14 saylı ibtidai məktəbin birinci sinfinə gedib. Dördüncü sinifdən sonra 10 saylı şəhər orta məktəbində oxuyub. 1955-ci ildə həmin məktəbi bitirib Bakıya gəlmişdir. Ali məktəbə daxil ola bilmədiyi üçün neft texnikumunun yeni açılmış axşam şöbəsinə girmiş-

dir. Gündüzlər Bakı süd kombinatında, buz zavodunda, Stalin adına (26 Bakı komissarı adına) Neft və qazçıxarma idarəsində fəhlə-çilingər işləyib.

1959-cu ilin may ayında neft texnikumunda diplom müdafiə edərək istismarçı-texnik peşəsinə yiyələnmişdir. Həmin ilin iyulunda Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin qiyabi şöbəsinə imtahan vermişdir, konkursa düşdü yçün əyani şöbəyə imtahan verim və ikinci cəhdi uğurlu olub Universitetin jurnalistika fakültəsini 1964-cü ildə müvəffəqiyyətlə başa vurub. Oxuya-oxuya respublikanın "Bakı", "Azərbaycan gəncləri" və xüsusilə "Kommunist" qəzetləri ilə əməkdaşlıq etmişəm. Universitetdə beş il qrup nümayəndəsi olmuş, ictimai işlərdə fərqlənmişdir.

1964-cü il avqustun 1-dən "Kommunist" (indiki "Xalq qəzeti") redaksiyasında çalışır. Kiçik ədəbi işçidən xüsusi müxbir vəzifəsinədək yüksəlib 1971-1983-cü illərdə qəzetin Mil-Muğan, 1984-1989-cu illərdə Naxçıvan Muxtar Respublikası və Qubadlı, Zəngilan rayonları üzrə xüsusi müxbiri olub.

1990-cı ildə Moskvada parlament müxbiri işləyib. 1991-1995-ci illərdə Lənkəran-Astara, Quba-Xaçmaz zonalarında xüsusi müxbir işləyib. Hazırda redaksiyada fəaliyyətini davam etdirir. Bu il 65 yaşı tamam olur. Bunun 40 ilini "Xalq qəzeti"ndə çalışıb.

Xüsusi müxbir işlədiyi zonaların iqtisadiyyatının inkişaf etdirilməsində, sosial problemlərinin həllində fəal iştirakı olub. Harada çalışıbsa böyük hörmət, nüfuz sahibi olub. Jurnalistikanın bütün janrlarında qələmini sınaqdan çıxarmışdır. Hər çıxışı oxucular tərəfindən rəğbətlə qarşılanıb. 1990-cı ildə Moskvada SSRİ Ali Sovetinin 4-cü sessiyasında Parlament müxbiri olarkən "Hara gedirik?" sərlövhəli yazısı ilə SSRİ-nin dağılmağa doğru getdiyini çəkinmədən oxucuların nəzərinə çatdırıb. Erməni millətçilərinin ifşa edilməsinə dair kəskin çıxışları olub. Talış-Muğan Respublikası yaratmaq istəyən Əlikram Hümbətovun əməllərini elə onun hakimiyyətdə olduğu vaxtda ifşa etmişdir.

ƏLİYEV CAVANŞİR İSMƏT OĞLU

Əliyev Cavanşir 1954-cü ildə hərbiçi ailəsində anadan olmuşdur. Atası Əliyev İsmət Abbas oğlu Şəkidə tanınmış Əliyevlər ailəsindəndir. Əliyev Cavanşir 1976-cı ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirmiş və Azərbaycan Elmlər Akademiyasının Radiasiya Tədqiqatları Sektorunda aspirant olmuşdur. Aspirant olan müddət ərzində C.İ.Əliyev öz elmi fəaliyyətini SSRİ EA-nın Kimyəvi Fizika İnstitutunda tanınmış rus alimi A.F.Vaninin rəhbərlik etdiyi laboratoriyada davam etmiş və 1982-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində dissertasiyasını müdafiə etmişdir.

1984-cü ildən etibarən C.İ.Əliyev BDU-nun molekulyar biofizika elmi-tədqiqat laboratoriyasında əvvəlcə böyük elmi işçi, sonra baş elmi işçi vəzifələrində çalışmışdır. O, 200-dən çox elmi əsərin müəllifidir. Onun əsərləri dünyanın bir çox aparıcı jurnallarında dərc olunmuşdur. Elmi əsərlərinin nəticələri ABŞ-da, Almaniyada, İtaliyada, Türkiyədə keçirilən Beynəlxalq konqres və simpoziumlarda məruzə edilmişdir. C.İ.Əliyev 1995-ci ildə Bakı Dövlət Universitetində "Səobəst dəmir və onun biosistemlərdə olan oksid azota stabilləşdirici təsiri mövzusunda biologiya elmləri doktoru elmi dərəcəsi almaq üçün müvəffəqiyyətlə dissertasiyasını müdafiə etmişdir.

1988-ci ildə elm və texnika sahəsində Lenin komsomolu mükafatına layiq görülmüşdür. SOROS fondunun (1990, 2002-ci illərdə) qrantlarını almış, ABŞ Departamentinin (2001-ci ildə) Azərbaycan Biofizika Cəmiyyətinin Vebsaytını yaratmaq üçün ayırdığı qrantının koordinatoru olmuşdur. 1999-cu ildə "Tibbdə və biologiyada maqnit rezonansı" Beynəlxalq konqresində o, ruhi xəstəliklərin müalicəsində oksit azotdan, dəmir tərkibli dərman

preparatlarından və kofeindən istifadə edilməsi kimi yeni müalicə üsulunu təklif etmiş, və bu yeniliyə görə E.P.Zavoyski mükafatına layiq görülmüşdür.

C.İ.Əliyev EPR Spektroskopiya Cəmiyyətinin (ABŞ), "Tibbdə maqnit rezonansı" Beynəlxalq Cəmiyyətinin (ABŞ) və Nyu-York Elmlər Akademiyasının (ABŞ) həqiqi üzvü idi. Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının və Azərbaycan Biofizika Cəmiyyətinin İdarə Heyətinin üzvü olmuşdur.

C.İ.Əliyev 2003-cü ildə vəfat etmişdir.

ƏLİYEV FEYZULLA BAHARÇI OĞLU



Feyzulla Əliyev 1948-ci ildə anadan olmuşdur. 1966-cı ildə orta məktəbi başa vurmuş, həmin ildə də Bakı Rabitə Elektrotexnikumunun axşam şöbəsinə daxil olmuşdur. Hələ tələbə ikən əmək fəaliyyətinə başlamış, Yasamal rayon 9 saylı poçt şöbəsində poçtalyon işləmişdir. 1968-ci ildə texnikumun "Poçt-rabitə" şöbəsini bitirib, ordu sıralarına hərbi xidmətə yola düşür. Hərbi xidmət zamanı Leninqradda "Hərbi Aviasiya" məktəbini qurtarıb, sonra Polşada hərbi vertolyot hissəsində vertolyotda bort-mexanik vəzifəsində hərbi xidmətini davam etdirmişdir. Hərbi xidmət zamanı SSRİ Hərbi-Hava Qüvvələrinin əlaçısı nişanına layiq görülmüşdür. 1970-ci ildə hərbi xidməti başa vurub, geri qayıtmışdır.

1970-1982-ci illərdə Yasamal rayon 9 saylı poçt şöbəsində əməliyyatçı, rəis müavini, 1982-1998-cii illərdə Xətai rayonunda 149 saylı poçt şöbəsinin rəisi olmuşdur.

1998-2002-ci illərdə Xətai rayon Poçtamtının, 2002-2003-cü illərdə Səbail rayon Poçtamtının rəisi vəzifələrində işləmişdir.

Hal-hazırda Azərbaycan Rabitə Nazirliyinin Azərpoçt Dövlət müəssisəsinin Binəqədi rayon Poçtamtının rəisi vəzifəsində işləyir.

2001-ci ildə Azərbaycan Respublikası Rabitə Nazirliyi tərəfindən "Rabitə ustası" fəxri adına layiq görülmüşdür.

F.B.Əliyev 2003-cü ildə Kərbəla və Həcc ziyarətində olmuş və ona Qafqaz Müsəlmanlar İdarəsinin Xarici Əlaqələr Şöbəsi tərəfindən Həcc ziyarətinə getmək barədə "Şəhadətnamə" verilmişdir.

ƏLİYEVA SÜRƏYYA HAŞIM QIZI

Sürəyya Əliyeva 1926-cı ildə anadan olmuşdur. O, 1950-ci ildən Sosialist Əməyi Qəhrəmanıdır. 1954-cü ildən Sov.İKP üzvü seçilmişdir. O, 1943-1950-ci illərdə manqabaşçısı olmuşdur. 1950-ci ildən "Azərbaycan" kolxozunda tütünçü işləmişdir. O, 1949-cu ildə tütünçülük sahəsində yüksək əmək göstəricisinə nail olmuşdur. S.H.Əliyeva Az.SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur.

ƏLİYEV FAİQ VƏLHƏM OĞLU

Faiq Əliyev 1977-ci ildə ziyalı ailəsində anadan olmuşdur. 1984-cü ildə Şəki rayonu Baş Layısqı kənd orta məktəbinin 1-ci sinfinə getmiş, 1994-cü ildə bu məktəbi "əla" qiymətlərlə başa vurmuşdur. Həmin ildə sənədlərini Azərbaycan Tibb Universitetinə qəbul üçün təqdim etmiş, imtahanları müvəffəqiyyətlə verərək universitetin "II müalicə-profilaktika" fakültəsinə qəbul olmuşdur. Əmək fəaliyyətinə çox erkən, hələ universitetin II

kursunda oxuyarkən, təcili tibbi yardım stansiyasında sanitar işçi olaraq başlamışdır. Tələbəlik dövründə müxtəlif vaxtlarda təcili tibbi yardım stansiyasında və hərbi hospitalda orta tibb işçisi-feldşer kimi çalışmışdır.

2000-ci ildə Tibb Universitetini yüksək qiymətlərlə başa vuraraq həkim-cərrah ixtisasına yiyələnmişdir. 2000-2001-ci illərdə Bakı şəhəri M.Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasında həkim-cərrah kimi internatura keçmişdir. 2001-2003-cü illər ərzində Şəki rayonu 2 saylı poliklinikasında və "sanitar tibbi hissə"də həkim-cərrah vəzifəsində çalışmışdır.

2003-cü ildə müsabiqədən müvəffəqiyyətlə keçərək Azərbaycan Tibb Universitetinin "II cərrahi xəstəliklər" kafedrasında, cərrahlıq ixtisası üzrə əyani aspiranturaya qəbul olmuşdur. Həmin ildən etibarən akademik Böyükkişi Ağayevin rəhbərliyi altında yoğun bağırsağın cərrahi xəstəliklərinin öyrənilməsi istiqamətində elmi tədqiqat işlərinə başlamışdır. 2006-cı ildə tədqiqat işlərini uğurla başa çatdıraraq "Xroniki kolostazların cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılmasının kompleks üsulları" mövzusunda dissertasiya işi müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. 20-dən çox tezis və məqalənin, 10 səmərələşdirici təklifin, 1 ixtiranın müəllifidir. Hazırda M.A.Topçubaşov adına Elmi-Tədqiqat Kliniki Təbabət İnstitutunda elmi işçi vəzifəsində çalışır. Qarındaxili təzyiqin kliniki təbabətdə törətdiyi problemlər üzərində elmi-tədqiqat işləri aparır. Eyni zamanda həkim-cərrah kimi aktiv praktiki fəaliyyətlə də məşğuldur.

ƏLİYEVA FƏRƏH ŞİRMƏMMƏD QIZI

Əliyeva Fərəh 1961-ci ildə anadan olmuşdur. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tarix-nəzəriyyə fakültəsini (1984) və aspiranturasını (1990) bitirmişdir. Namizədlik dissertasiyası müasir Azərbaycan musiqisinin bədii-estetik və üslub təmayüllərinə həsr olunmuşdur. Doktorluq tədqiqatının

mövzusu - XX əsr Azərbaycan musiqi mədəniyyətinin tarixi inkişaf istiqamətləridir.

Hazırda Bakı Musiqi akademiyasının elmi katibi, "Musiqi Tarixi" kafedrasının professorudur.

Ü.Hacıbəyovun 110 illiyinə həsr olunmuş musiqişünasların Respublika müsabiqəsinin laureatı (I mükafat, 1994). Azərbaycan musiqi tvrixi ilə bağlı elmi, elmi-publisistik məqalələrinə görə "Humay" milli mükafatı ilə (2005) təltif olunmuşdur. Azərbaycan musiqi tarixinə, bəstəkar yaradıcılığına dair 100-dən artıq elmi, publisistik, tənqidi məqalələrin, 3 dərslik, "Azərbaycan musiqisində üslub axtarışları" (1996) monoqrafiyasının, "Musiqi tariximizin səhifələri" məqalələr toplusunun (2003) müəllifi, "XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin qaynaqları" (2005, I kitab) kitabının tərtibçisidir. Televiziya və radioda çoxsaylı verilişlərin aparıcısı, müəllifidir. Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

ƏLİYEV QOŞQAR SEYFULLA OĞLU



Qoşqar Əliyev 1966-cı ildə anadan olmuşdur. 1983-cü ildə Şəki şəhər 7 saylı orta məktəbi bitirmişdir. Sənədlərini Azərbaycan Neft və Kimya İnstitutunun "İstehsalat proseslərinin avtomatlaşdırılması" fakültəsinin "Tətbiqi riyaziyyat" ixtisasına vermiş və qəbul olunmuşdur.

1984-1986-cı illərdə Sovet Ordusu sıralarında qulluq etmişdir. Ordudan tərxis olunduqdan sonra Qoşqar Əliyev öz ixtisası üzrə təhsilini davam etdirmişdir.

1990-cı ildə institutu fərqlənmə diplomu ilə bitirib təyinatla Azərbaycan Milli Elmlər Akademiyasının Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutuna göndərilmişdir. Elə həmin il Q.Əliyev "Kimya texnologiyasının proses və aparatları" ixtisası üzrə aspiranturaya qəbul olunmuşdur. Aspiranturada təhsilini başa vurduqdan sonra 1995-ci ildə professor Çingiz İbrahimovun rəhbərliyi altında "Səthi aktiv maddələrin neftdaşıyıcı layların məsaməli mühitində qeyri-izotermik adsorbsiya proseslərinin modelləşdirilməsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

Qoşqar Əliyev hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda elmi işçi vəzifəsində çalışır. Onlarla elmi məqalə və tezislərin müəllifidir.

ƏLƏKBƏROVA ARİFƏ YUSİF QIZI

Arifə Ələkbərova 1934-cü ildə anadan olmuşdur. 1942-ci ildə Bakı şəhəri Voroşilov rayonundakı 189 saylı rus orta məktəbinin birinci sinifinə daxil olub və 1952-ci ildə şərəflə həmin məktəbi bitirib. 1952-1957-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində təhsil almış, institutu fərqlənmə diplomu ilə bitirmişdir. Tələbə ikən bir neçə Ümumittifaq və Beynəlxalq olimpiadaların qalibi, elmi konfransların aktiv iştirakçısı olmuşdur. "Ən yaxşı tələbə elmi işi üçün" fəxri fərmanla və pul mükafatı ilə təltif edilmişdir (7 iyun 1957-ci il). 1957-ci ildə Azərbaycan SSR EA Kimya institutunun qeyri-üzvi və elektrokimya laboratoriyasına laborant vəzifəsinə göndərilmişdir. Sonralar baş laborant vəzifəsinə keçmiş, 1960-1961-ci

illərdə Azərbaycan SSR EA Qeyri-üzvi və Fiziki-kimya İnstitutunun korroziya və elektrokimya laboratoriyasında kiçik elmi işçi, 1961-1964-cü illərdə Azərbaycan SSR EA Qeyri-üzvi və Fiziki-kimya İnstitutunun korroziya və elektrokimya laboratoriyasının "kimyaçı" ixtisası üzrə aspiranturasına qəbul olmuş, 1964-1967-ci illərdə həmin laboratoriyanın kiçik elmi işçisi, 23 dekabr 1966-cı ildə kimya elmləri namizədlik dissertasiyasını müdafiə edərək (Azərbaycan Dövlət Universitetində) alimlik dərəcəsi adı almışdır. Dissertasiyanın elmi rəhbəri, Azərbaycan EA-nın müxbir üzvü, SSRİ-nin və Azərbaycanın Lenin mükafatı laureatı, elm və texnika sahəsində Azərbaycanın əməkdar elm xadimi, texniki elmlər doktoru, professor Vsevolod Fyodoroviç Neqreev olmuşdur. 26 yanvar 1967-ci ildə AAK kimya elmləri namizədi alimlik dərəcəsini təsdiq etmişdir. 1967-ci ildən kimya elmləri namizədidir. 23 aprel 1968-ci ildə həmin laboratoriyada müsabiqə yolu ilə baş elmi işçi vəzifəsinə seçilmişdir. 27 oktyabr 1969-cu ildən N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin "Fizkolkimya və biofizika" kafedrasının (müsabiqə yolu ilə) dosenti seçilmişdir. 30 aprel 1971-ci ildə SSRİ-nin AAK-ı "Fiziki və kolloid kimya" ixtisası üzrə dosent elmi dərəcəsini təsdiq etmişdir. 1969-1974, 1974-1980, 1980-1985, 1985-1990, 1990-1995 və 1995-2000-ci illərdə Azərbaycan Tibb Universitetinin "Ümumi və toksikoloji kimya" kafedrasının (müsabiqə yolu ilə) dosenti seçilmişdir. Bu müddətdə kafedranın adı dəyişilmişdir.

1969-1985-ci ilə kimi kafedranın tədris hissə müdiri olmuşdur. Hal-hazırda Azərbaycan Tibb Universitetinin "Ümumi və toksikoloji kimya" kafedrasında dosent vəzifəsində çalışır.

Bir neçə dəfə fizkolkimya fənni üzrə S.Seçenov adına 1 saylı MTİ-un ixtisasartırma fakültəsində kurs keçmişdir (Moskva, 1985, 1990).

100-dən çox elmi əsəri, 10 müəlliflik şəhadətnaməsinin, 2 monoqrafiyanın, 6 dərs vəsaitinin və 2002-ci ildə fiziki və kolloid kimya fənni üzrə 2 yeni tədris proqramının müəllifidir. Məqalələri Moskva, Leninqrad, minsk, Ufa, Kiev, Tula, Oryol, Okt-

yabrsk (Başqırdıstan) şəhərlərində çap olunmuşdur.

Universitetin ictimai işlərində aktiv iştirak edir, 1979, 1980, 1981-ci illərdə qruplarda kuratorluq vəzifəsini aparmış, 1983-1993-cü illərdə elmi-tədqiqat işlərinin cavabdehi və 1991-ci ildən indiyə kimi "Ümumi və toksikoloji kimya" kafedrasının profqrupporqu, eyni zamanda 1991-ci ildən ATU-nun əczaçılıq fakültəsinin həmkarlar təşkilat komitəsinin büro üzvüdür. Profqrupporq kimi Universitetin və kafedranın bütün iclaslarında və ictimai işlərində aktiv iştirak edir. Hər il Respublika institutlararası olimpiadalara tələbələr hazırlayıb və TEC-nin elmi rəhbəri kimi, Azərbaycan Tibb Universitetinin rektoru, Əməkdar Elm Xadimi, akademik Ə.T.Əmiraslanov tərəfindən onun tələbələrindən 3 nəfərinə (19-20 may 2000-ci ildə), birinci dərəcəli (24 may 2001-ci ildə), bir tələbəyə 2-ci dərəcəli və (16-17 may 2002-ci ildə) 1 tələbəyə 2-ci dərəcəli Diplom, birinə isə Sertifikat təltif olunmuşdur.

Dos. A.Y.Ələkbərova, ATU-nun əczaçılıq fakültəsinin tələbə-elmi cəmiyyətinin münsiflər heyətinin üzvüdür.

Gənc alimlərin hazırlanmasında aktiv iştirakına görə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ATU-nun rektoru ə.e.x., akademik Ə.T.Əmiraslanov tərəfindən Ələkbərova A.Y. layiq görülmüşdür.

1988-1989, 1989-1990-cu illərdə DOSAF tərəfindən "Gənclərin uğurlu hərbi-siyasi tərbiyələndirməsinə" görə fəxri fərmanla təltif olunmuşdur.

6 mart 2002-ci ildə ATU və HTK tərəfindən 8 mart qadınlar bayramı münasibəti ilə dos. A.Y.Ələkbərovaya şəxsi işinə yazılmaqla təşəkkürnamə verilmişdir.

Əczaçılıq fakültəsinin həmkarlar təşkilatının büro üzvü kimi və kafedranın profqrupporqu kimi, ATU-nun NTK-nin sədri, Azərbaycanın Əməkdar Həkimi prof. S.Musayev cənabları tərəfindən A.Y.Ələkbərovanın işi yüksək qiymətləndirilmiş və "Azərbaycan qadını" jurnalında ATU-nun 8 nəfər tanınmış alim qadınları arasında onun adını da qeyd etmişdir ("Azərbaycan

qadını" jurnalı, № 38, 4, 2001).

"Vektor" Beynəlxalq Elm Mərkəzi Mükafat Komissiyasının qərarı ilə Azərbaycanın Tanınmış Xanımları, Beynəlxalq layihəsinin qalibi olmuş, xanım Arifə "XXI əsrin Tanınmış Xanımı" Beynəlxalq diplomu ilə təltif olunur (Diplom № 067, Bakı şəhəri, 2002-2003).

Arifə xanım Universitetin bir çox konfrans və simpoziumlarında fəal iştirak etmişdir (ATU-nun 1995-ci ilin yekun elmi konfransında (1996, s. 7), ATU-nun Əczaçılıq fakültəsinin tədris-metodik konfransında (7 may, 2001), Tələbə elmi konfransında (2000), tibbi-profilaktika və tibbi biologiya fakültəsinin tələbə elmi konfransında (16 aprel, 2001).

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, ATU-nun 70 illik yubileyinə həsr edilmiş elmi konfransda və ADPU-nun 80 illiyi (5-7 noyabr) konfransında iştirak etmişdir.

Bununla bərabər Moskva, Leninqrad, Minsk və Perm Ümumittifaq Ali Məktəblərarası konfranslarda yaxından iştirak etmişdir.

ƏLƏKBƏROVA ŞƏFİQƏ

Ələkbərova Şəfiqə xanım 1919-cu ildə anadan olmuşdur. Şəfiqə xanım birinci bilik addımlarını 7 illik məktəbdə alıb, sonra fəhlə fakültəsini bitirib. Həkim olmaq arzusu ilə daha sonra isə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil oldu.

1942-ci ildə müharibənin qızğın dövründə Şəfiqə xanım ali məktəbi bitirdi. O, müalicə-profilaktika fakültəsinin məzunu kimi işə başladı. Əvvəlcə həkim-terapevt, sonralar isə sanitar həkim işlədi. Çoxillik əmək fəaliyyəti dövründə rayon və respublika sanitar-epidemiologiya stansiyalarında (SES) baş həkim, rayon səhiyyə

şöbəsinin müdiri, Azərbaycan Səhiyyə Nazirliyi sanitar Epidemiologiya idarəsi rəisinin müavini, Səhiyyə Nazirinin müavini, 1970-ci ildən isə Caparidze adına xəstəxananın baş həkimi vəzifəsində çalışmışdır.

1955-1960-cı illər ərzində Elmi-Tədqiqat mikrobiologiya, virusologiya və gigiyena institutunda işləmişdir. Şəfiqə xanım 1968-ci ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi alır. O, rayon və Bakı Sovetinin deputatı olmaqla yanaşı, həm də dəfələrlə Respublika Həmkarlar İttifaqı Plenumuna və Qırmızı Aypara Mərkəzi Komitəsinin Plenumuna üzv seçilmişdi. Respublika "Bilik" Cəmiyyətinin üzvi idi. İşlədiyi müddət ərzində dəfələrlə əməyi qiymətləndirilmiş, müxtəlif mükafatlar almışdı. Bunlara "Şərəf nişanı" ordeni, "Qafqazın müdafiəsinə görə", "Əmək igidliyinə görə", "Səhiyyə əlaçısı" və "Sanitar müdafiə əlaçısı" nişanlarını misal çəkmək olar.

Şəfiqə xanım indinin özündə də onu sevənlərin qəlbində incə qəlbli, zərif duyğulu bir insan kimi qalmaqdadır.

ƏLƏKBƏROV SƏNAN CABBAR OĞLU



Ələkbərov Sənan 1959-cu ildə professor ailəsində anadan olmuşdur. O, 1965-ci ildə 225 saylı orta məktəbin 1-ci sinfinə qəbul edilmişdir. Məktəbdə oxuyarkən o, bir neçə fərmanlarla, tərifnamələrlə təltif edilmişdir. Bakı şəhəri 225 saylı məktəbin 7-ci sinif şagirdi Ələkbərov Sənan ilk dəfə 1972-ci ildə gəmi modeli dərnəyinin üzvü kimi minadaşıyıcı "Xrabrıy" adlı modelə görə "Gənclər yaradıcılığı" Respublika sərgisində nümayiş olunan Azərbaycan SSR Maarif Gəncliyi Mərkəzi "Gənc texniklər stansiyası"nın fərmanı ilə təltif olunmuşdur.

Həmin il Y.Qaqarin adına pioner və məktəblilər sarayı Bakı şəhəri Oktyabr rayonunun 225 saylı məktəbin 7 sinif şagirdi S.Ələkbərov V.İ.Lenin adına Ümumittifaq pioner təşkilatının 50 illiyinə həsr olunan Gənclər yaradıcılığı sərgisində nümayiş edilən "Dəqiq elektroqaynaq" aparatının modelinə görə I dərəcəli Diplomla təltif edilmişdir.

225 saylı məktəbin 10-cu sinif şagirdi S.Ələkbərov Bakı şəhərinin məktəbliləri arasında keçirilən hərbi "Zarnitsa" ("Зарница") oyununda da birincilik qazanmışdır. 10-cu sinif şagirdi Ələkbərov Sənan məktəbin bütün ictimai işində, hərbi vətənpərvərlik işində, idmanda, təhsildə böyük nailiyyətlərinə, əla qiymətlərinə, göstərdiyi fəallığına görə, komsomol həyatında fəal iştirakına görə bir çox tərifnamələrlə təltif edilib (8 tərifnamə). Məktəbi bitirərkən təlimdə, əməkdə, təhsildə əla müvəffəqiyyətlərinə və nümunəvi davranışına görə "Qızıl medal"la təltif edilmişdir. Bundan əlavə o, təsviri incəsənət, nəğmə və musiqi üzrə proqramları da əla yerinə yetirmişdir. S.Ələkbərov məktəbin fizika və riyaziyyat fakültətiv kurslarını da əla qiymətlərlə bitirmişdir.

27 avqust 1975-ci ildə Azərbaycan mərkəzi Komitəsinin Birinci Katibi Heydər Əliyev cənabları V.İ.Lenin adına sarayda (indiki H.Əliyev adına saray) ölkədən kənarda Ali məktəblərə daxil olan tələbələrlə görüş keçirmiş, onları Dövlət tərəfindən tərifnamələr və hədiyyələrlə təbrik etmişdir. Ələkbərov Sənana da tərifnamə və hədiyyələr verilmidir.

Ələkbərov Sənan Cabbar oğlu SSRİ-nin Ali və Orta İxtisas Nazirliyinin komissiyasının 467 saylı əmri əsasında 14 may 1975-ci il Qızıl medalla məktəbi bitirən əlaçı tələbələr arasından müsabiqədən kənar milli kadr kimi seçilmiş və Qırmızı Əmək Ordenli M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fizika fakültəsinin, radio-fizika və elektronika "ixtisas 0704" I kursa qəbul edilmişdir. MDU-in I kurs tələbəsi Ələkbərov Sənan VI Ümumittifaq Kommunist Gənclər İttifaqının müsabiqəsinin iştirakçısı V.İ.Leninin "İnqilab hərəkatının başlanması" adlı elmi işə – referata görə I dərəcəli diplom almışdır. MDU-nun ictimai

işində də fəal iştirak etmiş (fizika fakültəsinin "Molniə" adlı divar qəzetinin redaktoru, futbol komandasında qapıçı, MDU-nun "Könüllü Xalq Drujinaçısı, şahmatda I dərəcəli şahmatçı, gözəl üzgüçü, bir sözlə Ələkbərov Sənan həmişə idmanla məqsədyönlü formada məşğul olmuşdur, o, hərtərəfli idmançı idi. İdman nailiyyətlərinə görə bir çox idman nişanları, tərifnamələr almışdır.

Moskvanın "İdman klubu", "Burovestnik" klubu, "İdman Mərkəzi", Kiyev, Leninqrad "İdman klubları"nın yarışlarında iştirak etmiş, hər dəfə də çoxdərəcəli Çempion adına layiq görülmüşdür.

1979-cu ilin avqust ayında MDU-nun fizika fakültəsinin V kurs 104 saylı qrupun tələbəsi Ələkbərov Sənan "Voyenkadan" imtahan vermək üçün başqa tələbələrlə birlikdə Dmitrieva şəhərinə göndərilmişdir. Komandir briqadısının müavini təyin edilmişdir. MDU-nun xətti tələbə dəstəsinin döyüşçüsü kimi 300 tələbə içərisində birinci əla qiyməti və tərifnaməni imtahandan Ələkbərov Sənan almış və Vətənə - Bakıya üzü ağ qayıtmışdır. Hərbi hazırlığına görə, hərbi nailiyyətlərinə görə Moskvada, Bakıda onu televizorla göstərmiş və onun haqqında veriliş olmuşdur. Moskvada bayramlarda 7 noyabr, 1 may, 9 may həmişə bayraq aparıcı Ələkbərov Sənan təyin olunurdu. Bunlardan başqa Ələkbərov Sənan gözəl rəssam, insan, piano çalan, oxuyan oynayan, bir çox dərnəklərdə iştirak edən, qaçış üzrə qabaqcıl idmançı, 20 yaşı təzə olmuş MDU-nun fizika fakültəsinin axırıncı kurs tələbəsi əlaçı Ələkbərov Sənan kənd təsərrüfatı dəstəsində Mojaysk şəhərində "kartof" yığımında briqadir vəzifəsini bir gənc komsomolçu kimi gözəl yerinə yetirərkən lapdan erməni tərəfindən vəhşicəsinə hücuma məruz qalaraq növbəti şəhid olmuşdur.

Sənan Cabbar oğlu Ələkbərov Bakı Dövlət Universitetində (BDU) 40 ilə yaxın dekan, kafedra müdiri və professor vəzifələrində uğurla çalışmış "Lenin" ordeninə, Təhsil Nazirliyinin və Azərbaycan Ali Sovetinin fəxri fərmanlarına layiq görülmüş məşhur kimyaçı Səkinə Əşrəf qızı Ələkbərovanın nəvəsi idi.

ƏLİZADƏ ZAHİD İLYAS OĞLU

Zahid Əlizadə 1910-cu ildə anadan olmuşdur.

Z.İ.Əlizadə Respublikanın ilk doktoru-fizikidir. O, 1927-ci ildən Respublikanın orta məktəblərində və texnikumlarında müəllimlik etmişdir, aspirant olmuş, Bakı şəhərinin ali məktəblərində elmi-tədqiqat işləri aparmış, dosent kimi V.İ.Lenin adına APİ-də, S.M.Kirov adına ADU-da, Azərbaycan Dövlət Qiyabi İnstitutunda fizika kafedrasının müdiri vəzifəsində çalışmış. 12 ildən çox Azərbaycan SSR Elmlər Akademiyasının fizika-riyaziyyat institutunun elmi işlər üzrə müdir müavini, metallar fiziki laboratoriyasının müdiri olmuşdur.

Böyük Vətən Müharibəsi illərində Z.İ.Əlizadə Zaqafqaziya cəbhəsi təşkilatının işini yerinə yetirmək üçün səfərbərliyə alınmış və müharibədən sonra Moskvaya, SSRİ Elmlər Akademiyasına, doktoranturaya göndərilmişdir. 1948-ci ildən 1950-ci ilə kimi Z.İ.Əlizadə MDU nəzdindəki Fizika institutunun baş elmi işçisi vəzifəsində işləmişdir. 1951-ci ildə Z.İ.Əlizadə yüksək elmi-nəzəri və təcrübi səviyyədə öz doktorluq işini qurtarmış və MDU-da müdafiə edərək fizika-riyaziyyat elmlər doktoru elmi dərəcəsini almışdır.

1951-ci ildə respublikanın ilk doktoru-fiziki kimi Azərbaycana qayıtmışdır.

Z.İ.Əlizadə 50-dən artıq elmi əsər və kəşflərin müəllifidir. Bunlardan əksəriyyəti SSRİ Elmlər Akademiyası, MDU Xəbərləri, Az.SSR Elmlər aademiyasının Xəbərləri və AzPİ-nin nəşriyyatında çapdan çıxmışdır. Z.İ.Əlizadənin elmi işləri Sovet və xarici ölkə alimləritərəfindən yüksək qiymətləndirilmiş və bir sıra sovet və dünya ədəbiyyatına daxil edilmişdir.

Professor Z.İ.Əlizadə elmi pedaqoji və ictimai işini bacarıqla

aparır. Respublikada cavan mütəxəssislərin, elmlər namizədlərinin hazırlanmasında Z.İ.Əlizadə çox aktiv iştirak edir. Təkcə axırıncı 5-6 il ərzində o, 26 namizədlik dissertasiyasının opponenti olmuş və onun rəhbərliyi altında cavan mütəxəssislər öz namizədlik dissertasiyalarını hazırlamışlar.

Elmi-pedaqoji işinə, Vətən müharibəsi zamanı Dövlət tapşırığını yerinə yetirdiyinə və kəşflərinin sənayedə tətbiqinə görə professor Z.İ.Əlizadə "Qırmızı Ulduz" ordeni və bir sıra medallarla təltif olunmuşdur.

Vəfat etmişdir.

ƏLİZADƏ FİRƏNGİZ ƏLİAĞA QIZI

Firəngiz Əlizadə 1947-ci ildə anadan olub. İlk musiqi təhsilini Bülbül adına orta ixtisas musiqi məktəbinin fortopiano sinifində aldıqdan sonra o, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında təhsilini davam etdirib. Firəngiz Əlizadə konservatoriyanı iki ixtisas üzrə - 1970-ci ildə fortepiano və 1972-ci ildə bəstəkarlıq üzrə professor Q.Qarayevin sinfini bitirib. 1973-1976-cı illər ərzində o, bəstəkarlıq kafedrasında Q.Qarayevin rəhbərliyi altında asisstent-təcrübəçi kimi təkmilləşib.

Müstəqil yaradıcılıq yoluna qədəm qoyduqdan sonra bəstəkar müxtəlif musiqi janrlarına müraciət etmiş və maraqlı əsərləri ilə daima musiqi ictimaiyyətinin diqqətini cəlb etmişdir. O, "Ağatlı haqqında əfsanə" biraktlı operasının, "Boş beşik" baletinin, "-Ölümsüzlüyə səyahət" oratoriyasının, instrumental konsertlərin, kamera ansamblı üçün "Miraj", "İtirilmiş zaman axtarışında", "Üç akvarel" vokal silsiləsinin, violonçel və fortepiano üçün "Habilsayağı", solo violonçel üçun "Eşq havası", "Dərviş" septeti,

"Abşeron" kvinteti və b. əsərlərin müəllifidir.

Firəngiz Əlizadə Azərbaycan musiqisini xarici ölkələrdə müvəffəqiyyətlə təmsil edir. Onun sorağı daima beynəlxalq musiqi forumlarından gəlir. O, Almaniya, İngiltərə, ABŞ, Hollandiya, İsveç, Fransa, İtaliya, Polşa və b. ölkələrdə keçirilən nüfuzlu festivallarda həm bəstəkar, həm pianoçu kimi uğurla çıxış edir.

1983-cü ildə müasir musiqinin ənənəvi "Varşava payızı" festivalında Firəngiz Əlizadənin "Habilsayağı" əsəri böyük müvəffəqiyyət qazanmışdır. 1989-cu ildə ABŞ-ın Los-Anceles şəhərində bəstəkarın müəllif konserti keçirilmişdir. 1993-cü ildə Türkiyənin Mersin şəhərində "Boş beşik" baleti tamaşaya qoyulmuşdur. Avropanın müxtəlif ölkələrində məşhur kollektivlər, ifaçılar Firəngiz Əlizadənin əsərlərini öz repertuarlarına daxil edirlər.

Son illər Avropanın bir sıra ölkələrində, xüsusilə, Almaniyada geniş fəaliyyət göstərən Firəngiz Əlizadənin yaradıcılığı yüksək qiymətləndirilir. O, 1999-cu ildə Almaniyanın akademik Qarşılıqlı Mübadilə Xidmətinin təqaüdçüsü, İsveçrənin Beynəlxalq musiqi seminarında birinci qadın bəstəkar-rezidenti, 2001-ci ildə Bonn şəhərinin "Bethovenxalle" orkestrinin bəstəkar-rezidenti seçilmişdir. 2003-cü ildə Kembric Bioqrafiya Mərkəzi tərəfindən medal və diplomla təltif olunan Firəngiz Əlizadə "XXI əsrin görkəmli intellektualları" siyahısına daxil edilmişdir. Alman rejissorları onun haqqında "Azərbaycanlı maestro" adlı film çəkmişlər.

Firəngiz Əlizadə bəstəkarlıqla yanaşı virtuoz texnikaya malik, yüksək səviyyəli pianoçudur. Onun ifasında ilk dəfə Messianın, keycin, Krambın əsərləri səslənmişdir. O, Şonberqin əsərlərinin ən yaxşı təfsirçisi hesab edilir. Firəngiz Əlizadə Azərbaycanda müasir musiqinin fəal təbliğatçısıdır. Onun təşəbbüsü ilə ilk dəfə Bakıda müasir musiqi festivalları keçirilmişdir.

Firəngiz Əlizadə habelə pedaqoji fəaliyyət göstərir. O, müxtəlif illərdə Bakı Musiqi Akademiyasında, həmçinin Türkiyənin Mersin şəhərində müəllim işləmişdir.

Firəngiz Əlizadənin musiqi tənqidçisi, publisist kimi fəaliy-

yəti də diqqətəlayiqdir. O, "Qara Qarayev" və "Azərbaycan simfonik musiqisi" kitablarının, 150-dən artıq məqalənin müəllifidir.

Fəal ictimai musiqi xadimi olan Firəngiz Əlizadə 1974-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, 1979-1985-ci illərdə və 1990-cı ildən hazırkı dövrədək Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibidir.

Görkəmli bəstəkar, pianoçu, ictimai musiqi xadimi, respublikanın xalq artisti, professor Firəngiz Əlizadənin yaradıcılığı milli musiqi mədəniyyətimizin dünya miqyasında tanınmasında mühüm rol oynayır. Onun əsərləri nəinki Respublikamızda, habelə onun hüdudlarından uzaqlarda, bir sıra avropa ölkələrində çox maraqla qarşılanır.

Firəngiz Əliağa qızı Əlizadə 2007-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının növbəti VIII qurultayında yekdilliklə həmin İttifaqın sədri vəzifəsinə seçilmişdir.

Firəngiz Əlizadə 2007-ci ildə YUNESKO tərəfindən "Dünya artisti" tituluna layiq görülmüşdür.

ƏLİBƏYOV ƏNVƏR MUSTAFABƏY OĞLU

Ənvər Əlibəyov 1911-ci ildə anadan olmuşdur. Ənvər Əlibəyov dövrünün görkəmli ziyalılarından olmaqla yanaşı, məşhur yazıçı, publisist vəkil Mustafa bəy Əlibəyovun oğludur.

O, hərbiçi olmuşdur. Böyük Vətən müharibəsində cərimə batalyonunda xidmət etmiş və mayor rütbəsi almışdır.

Ə.M.Əlibəyov haqqında bir çox qəzet və jurnallarda məqalələrdə yazılar getmişdir. Ənvər Əlibəyov Respublika Repressiya Qurbanları Cəmiyyətində sədr müavini vəzifəsində çalışmışdır.

ƏLİBƏYOV MUSTAFA BƏY

Mustafa bəy Əlibəyov 1872-ci ildə Nuxa şəhərində anadan olmuşdur. O, XX əsrin əvvəllərində yaşayıb-yaratmış, "Yaşıl qələm" Cəmiyyətinin üzvü, yazıçı, publisist vəkil Mustafa bəy

Əlibəyov dövrünün görkəmli ziyalısı, Şəki Xan Sarayının mirzəçi Mirzə Cabbar bəyin ailəsində dünyaya gəlib. Mustafa bəy ilk təhsilini atasından alıb, ərəb, fars dillərini mükəmməl öyrənib, Nuxada rus-tatar məktəbində oxuyub. Sonralar Bakıya köçmüş, Bakıda və Tiflisdə təhsilini davam etdirmişdir. Rus və fransız dillərini kamil bilirdi. M.Əlibəyov 20 yaşında, yəni 1892-ci ildə Bakı şəhər məhkəməsində baş müstəntiqin tərcüməçisi işləmişdir.

Mustafa bəyin ən böyük arzusu xalqın maariflənməsi idi. O, bütün gücünü bu sahəyə yönəltmişdi. İxtisası ilə əlaqədar insan hüquqlarının qorunması, haqq divanında ədalətin hər şeydən üstün tutulması onun amalı və uğrunda mübarizə apardığı məsələlər idi. Təsadüfi deyil ki, 1905-1908-ci illərdə "Abşeron neft cəzirəsi" əsərini yazmış və 1908-ci ildə Bakıda Neft sənayesi fəhlələri və xırda sənətkarların yoldaşlıq cəmiyyətini (M.Əzizbəyovun fəal iştirakçısı olduğu) təsis etmişdir.

1914-cü ildə "Məhkəmələr qapısında tökülən qanlı yaşlarımız" adlı altı pərdəli faciə əsərini yazmışdır. Əsərlə tanışlıq göstərir ki. bu. Təcrübəli yazıçının qələmindən çıxmışdır. Bu mənada M.Əlibəyov yaradıcılığının böyük tədqiqata ehtiyacı var.

M.Əlibəyov vəkillikdən əlavə, yazıçı, nasir, publisist kimi də tanınmışdır. 1911-1912-ci illərdə müsəlman dünyasında ilk dəfə həftəlik qadın məcmuəsi "İşıq"ın naşiri olmuşdur.

Mustafa bəy başqa qəzet və jurnallarda 1890-cı illərdən başlayaraq "Yuxarı - başlı" təxəllüsü ilə amal və məqsədinə uyğun onlarla məqalə və publisist yazılarla çıxış etmişdir. O, S.Hüseynin sədr olduğu "Yaşıl qələm" ədəbi cəmiyyətinin üzvi idi. Mustafa bəy 1920-ci ildə mərkəzdən uzaqlaşmağa məcbur olur və 1937-ci ilə qədər Şəkidə fəaliyyət göstərir. Şəkidə "Yuxarı baş" deyilən ərazidə bir neçə hektar sahəni əhatə edən yerdə bağ salır. Bu

bağ (Yeddi yüzdən çox meyvə ağacı əkib, su çəkdirib) "Mustafa bəyin bağı" adı ilə məşhurlaşır. Həmin yerə yolu düşənlər bağı Mustafa bəyin zəhmətindən, əməyindən yaranmış yaşıl sənət abidəsi də adlandırırlar.

Mustafa bəy Şəkinin bütün ictimai həyatında fəal iştirak etmidir. 1936-cı ildə SSRİ Konstitusiyası, 1937-ci ildə isə Azərbaycan SSR Konstitusiyasının layihələrinin müzakirəsində fəal iştirak etmiş, faydalı təkliflər vermişdir.

Mustafa bəy Əlibəy 1943-cü ildə vəfat etmişdir.

Mustafa bəyin beş evladının hamısı ali təhsil almışdır. Əruziyyə xanım ilk iqtisadçı qadın-alim, İlham və Aliya atalarının ixtisasına yiyələnsələr də, məlum səbəbdən həmin işdə çalışa bilməmişdilər. Ənvər Əlibəyov hərbiçi olmuş, Samsam mühəndis olmuşdur.

ƏLİBƏYOVA XƏDİCƏ ƏLƏDDİN QIZI

Xədicə Əlibəyova 1884-cü ildə anadan olmuşdur. Azərbaycanın ziyalı qızı ali təhsilli ginekoloq həkim Xədicə xanım Mustafa bəy Əlibəyovun həyat yoldaşı olmuşdur.

Xədicə xanım ilk təhsilini Tiflisdə rus qız gimnaziyasında almış, sonra Zaqafqaziya Olqinskaya Mamalıq İnstitutunu bitirmişdir.

Xədicə xanımın atası Ələddin Əfəndi Zaqafqaziya Müsəlmanlar İdarəsinin sədr müavini olmuşdur.

Xədicə xanım Əlibəyova yoldaşı Mustafa bəyin ilk dəfə həftəlik qadın məcmuəsi "İşığ"ın naşiri olduğu qəzetdə redaktorluq etmişdir. Xədicə xanım həm də Mustafa bəyin yaxın silahdaşı olmuş, Şəkinin bütün ictimai həyatında fəal iştirak etmişdir.

ƏLİBALAYEV ƏBDÜLƏLİ BAQİ OĞLU

Əlibalayev Əbdüləli 1909-cu ildə sənətkar ailəsində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra Şəki Kənd Təsərrüfatı Texnikumuna daxil olaraq orada təhsilini başa vurub Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuşdur. 1931-ci ildə institutu bitirən Ə.Əlibalayev həmin ildə Bakı Kolxozlar İttifaqında aqronom kimi fəaliyyətə başlamışdır.

1942-ci ilə qədər baş aqronom, partiya təşkilat katibi kimi çalışmışdır.

1942-ci ildən 1945-ci ilə qədər Şəki rayon Torpaq Şöbəsinin, 1945-1950-ci illərdə Bakı şəhər Əzizbəyov rayonu Torpaq Şöbəsinin müdiri işləmişdir.

O, Ucar MTS-nin, Şəki Daşüz Camışçılıq sovxozunun direktoru vəzifələrində çalışmışdır.

1961-ci ildə Şəki Üzümçülük sovxozunun yaradıldığı gündən həmin sovxozda direktor olmuş və buranı ən qabaqcıl təsərrüfata çevirmək üçün böyük əmək sərf etmiş, sovxozun tikilib istifadəyə verilməsində müstəsna rol oynamışdır.

Onun kənd təsərrüfatındakı yorulmaz əməyi partiya və hökumətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 1939-cu ildə Ümumittifaq Kənd Təsərrüfatı Sərgisinin diplomuna layiq görülmüşdür. Böyük Vətən müharibəsi dövründə "Qafqazın müdafiəsi" qələbə medalları, 1960-cı ildə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə təltif olunmuşdur.

1966-cı ildə respublikada kənd təsərrüfatının inkişafında xidmətlərinə görə Ə.Əlibalayev SSRİ Ali Sovetinin fərmanı ilə Qırmızı Əmək Bayrağı ordeninə layiq görülmüşdür.

1973-cü ildən respublika əhəmiyyətli fərdi təqaüdçü olan Ə.Əlibalayev 1980-ci ildə dünyasını dəyişmişdir.

ƏMRAHOV MAİS İSRAİL OĞLU

Mais Əmrahov 1948-ci ildə anadan olmuşdur.

M.İ.Əmrahov 1966-cı ildə Şəki Pedaqoji Texnikumunun, 1970-ci ildə isə Azərbaycan Pedaqoji Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. O, 1977-1981-ci illərdə həmin universitetin "Azərbaycan tarixi" kafedrasının aspirantı olmuş, 1984-cü ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 60-dək elmi əsərin, o cümlədən 9 kitabın, 40-dək elmi, elmi-publisistik və elmi metodiki məqalənin müəllifidir.

M.İ.Əmrahov "Azərbaycan mədəniyyəti İkinci Dünya müharibəsi illərində" mövzusunda doktorluq dissertasiyası üzərində işi başa başa çatdırmış və AAK-na təqdim etmişdir. M.İ.Əmrahovun elmi əsərləri Rusiyanın nüfuzlu elmi jurnallarında çap olunmuş, XXV Beynəlxalq elmi konfransın iştirakçısı olmuşdur.

M.İ.Əmrahov 1970-73-ci illərdə müəllim, 1973-79-cu illərdə məktəb direktoru, 1979-1988-ci illərdə Şəki şəhər Partiya Komitəsində təlimatçı, şöbə müdirinin müavini və şöbə müdiri, 1989-1991-ci illərdə 43 saylı TPM-də direktor vəzifəsində işləmişdir.

1979-1988-ci illərdə Azərbaycan KP Şəki şəhər Komitəsinin üzvü, 1979-1990-cı illərdə Şəki şəhər XDS-nin deputatı olmuşdur.

M.İ.Əmrahov 1992-1994-cü illərdə Şəki şəhər Təhsil Şöbəsində işləmiş, 1994-cü ildə yenidən Şəki şəhər İcra Hakimiyyətinə dəvət olunmuş və 1994-1998-ci illərdə orada məsul vəzifələrdə çalışmışdır.

M.İ.Əmrahov 1999-cu ildə APKİA və YH Baş İnstitutunu Şəki filialında fəaliyyətini davam etdirmişdir. 1999-2000-ci

illərdə həmin filialda böyük metodist və kabinet müdiri vəzifələrində işləmiş, əmək fəaliyyətini Azərbaycan Respublikası Təhsil Nazirliyinin Respublikanın Elmi-Metodiki Mərkəzində davam etdirmişdir. O, həmin məktəbdə böyük metodist vəzifəsində çalışmış və Azərbaycan Müəllimlər İnstitutunda dərs demişdir.

Azərbaycan Müəllimlər İnstitutunn Şəki filialının açılması ilə əlaqədar M.İ.Əmrahov yenidən Şəkiyə qayıtmışdır. 2001-ci ildən həmin filialda kabinet müdiri vəzifəsində işləyir və dərs deyir.

Kitabları:

1. Qələm süngüyə çevriləndə, 1995, 32 s.
2. Unutsan, unudularsan, 2002, 116 s.
3. Narodnoe obrazovanie v Azerbaydjane v qodı voynı. 2004, 146 s.
4. Azərbaycan mədəniyyəti İkinci dünya müharibəsi illərində. Bakı, 336 s.
5. Qədim dünya tarixinin tədrisi metodikası, 2003, 224 s.

Mais Əmrahov 2006-cı ildə müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsi almışdır.

ƏSGƏRZADƏ SALEH ƏSGƏR OĞLU

Əsgərzadə Saleh 1898-ci ildə dəmirçi usta Əsgərin ailəsində anadan olmuşdur. İlk təhsilinin əsas hissəsini Şəkinin rus-tatar məktəbində almışdır.

1922-ci ildə bir neçə şəkili gənclərlə birlikdə Bakıya, təhsilini davam etdirməyə yola düşmüşdür. Burada, o vaxt "rabfak" adıyla şöhrətlənmiş təhsil müəssisəsinə daxil olmuş, daha sonra Universitetin riyaziyyat fakültəsini bitirmişdir.

Bununla o, Azərbaycanın milli ziyalıları və müəllimləri sırasına daxil olmuşdur. Ona görə də, onun bilik və bacarığına harada ehtiyac olmuşsa, orada da çalışmışdır. Daha sonralar, yeni təşkil edilmiş, Məşədi Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutu və Dövlət Universitetinin fizika-riyaziyyatın ali fənnləri kafedraları onun daha çox çalışdığı məkanlar olmuşdur. Müəllim və həmkarları özündən böyük riyaziyyatçılar və Rusiyadan gələn mütəxəssislər olmuşdur. Müəllim və həmkarları özündən böyük riyaziyyatçılar və Rusiyadan gələn mütəxəssislər olmuşlar. S.Əsgərzadənin fərdi təşəbbüslərindən biri o olub ki, o, dərs dediyi fakültələr üçün, xüsusən, Azərbaycan Sənaye İnstitutunun geniş diapazonlu fakültələrinin hər birisi üçün ""li riyaziyyat""fənninin tədrisi ilə əlaqədar mühazirələr kursu, metodikası və silsilə növlərini yaratmışdır. Bunlara görə onu çox təqdir və təltif edirdilər. O, saysız-hesabsız konfrans, elmi sessiyalar, metodik görüşlər, seminarlarda və s. iştirak və çıxış edirdi. O, rayonlara da başqalarından daha çox göndərilirdi. Oralarda o, müəllim və qabaqcıl tələbələrlə işləməkdən yorğunluq nə olduğunu bilmirdi. İstedadlı və çalışqan tələbələrə o qədər vurulurdu ki, onlar ali məktəbə daxil olmayınca ürək dincliyi tapmazdı.

Xüsusi elmi əsər yazmaq istəyi də onu rahat qoymurdu. Sadə rəqəmlər haqqında əsər yazmaq istəyini ətrafdakılardan çoxu duymuşdu ki, bu da, onun ömrünün axır illərinin ən böyük arzusu idi. Lakin tarixi hadisələr qabağını sədd kimi tutmuşdu.

Bu sahədə onun bacarıq və bilikləri iki ali təhsil ocağında aldığı hazırlığa əsaslandı. Bunlar Pedaqoji İnstitutun və Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültələri idi. S.Əsgərzadə, həyat yoldaşı ilə əl-ələ, həddən çox çalışaraq, Şəki gənclərinin tərəqqisi uğrunda mümkün olan-olmayanı da etmişdi.

Ailənin hər iki başçısı, gəncliklərindən başlayaraq, Azərbaycanın çox ziyalı, fədakar, təşəbbüskar, tərəqqipərvər və hər cəhətdən qabaqcıl və tanınmış ziyalılarına çevrildilər.

Saleh Əsgərzadənin adı Azərbaycan Sənaye İnstitutu (indiki Neft Akademiyası) və Bakı Dövlət Universitetinin tarixlərini əks

etdirən yubiley və s. kitablarının səhifələrində əbədiləşdi, Azərbaycanın görkəmli riyaziyyatçılarına həsr edilmiş nəşr nümunələrində çəkildi. Həyat yoldaşı Həmidə müəllimə, ən ilkin çağlarından başlamış sonralara qədər, qabaqcıl Azərbaycan qadınları arasında sıralandı.

Azərbaycanın ilk ziyalılarından bir çoxları kimi, bu ailə cütlüyü səhnədə də çıxış etmiş, musiqi kollektivlərinin tərkibində Bakının o zamankı kəndlərində mədəniyyət quruculuğu işlərində fəaliyyət göstərmiş, hər bir işə kömək əllərini uzatmışlar.

Musiqiyə, teatra, ədəbiyyat və musiqi, teatr xadimlərinə xüsusi münasibət və rəğbət bu insanların həyatıyla qoşa mövcud olmuşdur.

Saleh müəllim gözəl ney-tütək çalmış, orkestrlərdə ilk vaxtlarda fleyta ilə iştirak etmiş, sonralar evdə tarsız qala bilməmişdir.

Yay aylarında Şəkiyə təsadüf etdikdə, orada ziyalılar üçün təşkil edilən ziyafətlərin ən yaxşıları elələri olardı ki, onların təşkilatçılığını öz üzərinə Saleh müəllim götürərdi və belə məqamlarda o qonaqlarına diyarın ən yadda qalan yerlərini göstərər və bu yerləri onlara sevdirərdi. Bu zamanlarda onun göstərmiş olduğu təşkilatçılıq qabiliyyəti, yüksək mədəniyyəti və çevikliyi hamını heyran edər və özünə sevdirərdi.

Nəticədə onun gözəgəlimli, xoş, eyniaçıq siması, təmiz, iti baxışları istər böyük, istərsə də nisbətən aşağı yaşlı adamların ürəyində silinməz izlər qoyurdu.

Saleh Əsgərzadə qısa müddətli xəstəlik və cərrahiyyə əməliyyatından sonra 1960-cı ildə vəfat etmiş və Şəkidə dəfn olunmuşdur.

ƏSGƏRZADƏ MƏMMƏDEMİN ƏSGƏR OĞLU

Əsgərzadə Məmmədemin 1919-cu ildə dəmirçi usta Əsgərin ailəsində anadan olmuşdur. Orta təhsilinə Şəkidə başlamış və Bakıda başa vurmuşdur.

1936-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə fakültəsinə daxil olmuş və 1941-ci ildə bitirmişdir. Müharibə başladıqda, həmin ilin avqust ayında, Respublika hərbi komissarlığı tərəfindən səfərbər edilir. Xanlar şəhərində yaşayan almanları daşıyan qata eşelon həkimi təyin olunur və onları Qazaxıstan SSR-in Aktyubinsk vilayətinədək müşayiət edir.

Qazaxıstandan qayıtdıqda, M.Əsgərzadə hərbi-səhra cərrahiyyəsi üzrə altı aylıq kurslara göndərilir. Kursları bitirən kimi, o, döyüşən orduya, 223-cü motoatıcı diviziyasının 320-ci tibbi-sanitariya batalyonuna cərrah vəzifəsinə göndərilir və Mozdok ətrafında ağır döyüşlərlə onun müharibə yolları başladı.

M.Əsgərzadə, Böyük Vətən müzaribəsi cəbhələrində, 30 ay müddətində, geri çəkilmədən, ancaq hücumda olan 223-cü Qırmızı Bayraq ordenli Belqorod diviziyasının tərkibində, Bakıdan Praqayadək, 6 Avropa ölkəsindən Rumıniya, Bolqariya, Yuqoslaviya, Macarıstan, Avstriya, Çexoslovakiyadan keçərək, 5000 km-dək döyüş yolu qət etmişdir. Bu müddət ərzində 19 şəhərin Mozdok, Georgiyevsk, Benderı və s. azad edilməsində iştirak etmişdir.

Diviziya, irili-xırdalı, 50 çayı düşmən atəşi altında döyüşə-döyüşə aşmış, geri çəkilməyin nə olduğunu bilməmiş və Ali Baş Komandanın 11 təşəkkürünü qazanmışdır.

223-cü diviziyanın 320-ci tibbi-sanitaria batalyonunun şəxsi heyəti: həkimləri tibb bacıları, sanitarları gecə-gündüz, yay-qış, hücumda və müdafiədə, mərmi, güllə və qəlpə yağışı altında yaralılara yardım etmiş, döyüşə-döyüşə irəliləyən qoşunların ardıyca, əksər hallarda piyada yaxud arabalarda hərəkət etmiş, çadırlarda, evlərdə və zirzəmilərdə yerləşərək, ixtisaslı tibbi-cərrahiyyə yardımı göstərmiş, minlərlə yaralı və xəstənin həyatını

xilas etmişdir.

Faşist Almaniyası üzərində qələbə çalındıqdan sonra, 223-cü motoatıcı diviziyası Uzaq Şərqə, militarist Yaponiya ilə müharibə cəbhəsinə göndərildi. Lakin, diviziya cəbhə xəttinə çatmamış, Yaponiya təslim olur, bu səbəbdən də eşelonlar boşaldılmadan geriyə, İrkutsk vilayətinə qaytarılır. Burada diviziya ordu sıralarından silinərək ləğv edilir.

M.Əsgərzadə hərbi qulluğunu İrkutsk, Naxçıvan, Bakı qospitallarında, cərrahiyyə şöbəsinin ordinatoru vəzifəsində davam etdirir.

1950-ci ildən 1971-ci ildə ordudan tərxis olunanadək, M.Əsgərzadə "Qızıl Şərq" hərbi şəhərciyinin hissələrində müxtəlif vəzifələrdə çalışmışdır tibb məntəqəsinin rəisi, polkun böyük həkimi, uzun müddət diviziya lazaretinin rəisi vəzifəsini tutmuşdur.

1971-ci ildən bu günədək Azərbaycan Dövlət Tibb Universitetinin travmatologiya, ortopediya və hərbi-səhra cərrahiyyəsi kafedrasının assistenti vəzifəsində çalışır.

M.Əsgərzadə bir sıra dövlət mükafatları ilə, o cümlədən dörd döyüş ordeni, 20-dən artıq medalla təltif edilmiş. Sovet Ordusunun Ali Baş Komandanlığının çoxsaylı təşəkkürlərini almış, Fəxri fərmanlarla mükafatlandırılmışdır. 1965-ci ildə "Əməkdar həkim" fəxri adına layiq görülmüşdür.

ƏSGƏRZADƏ (ƏLİYEVA) RƏQİYYƏ YUSİF QIZI

Rəqiyyə Əsgərzadə 1925-ci ildə anadan olmuşdur.

1932-ci ildə Şəkidəki 7 saylı orta məktəbə daxil olub, 1941-ci ildə məktəbi bitirmişdir. 1942-ci ildə İ.Stalin adına Nuxa ikiillik Pedaqoji İnstitutuna daxil olmuş və 1 il ərzində təhsilini bitirib, müəllim diplomuna nail olmuşdur. İnstitutu bitirdikdən sonra Şəkidəki 12 saylı məktəbə direktor vəzifəsinə göndərilmişdir.

1944-cü ildə Azərbaycan Sənaye İnstitutunun kimya-texnologiya fakültəsinə daxil olmuş, 1949-cu ildə həmin fakültəni bitirib təyinatla Neft Emalı Nazirliyinin "Giproazneft" layihə institutuna göndərilmişdir.

1949-1979-cu illərdə "Giproazneft" layihə institutunda 30 ildən çox çalışaraq, sıravi mühəndis vəzifəsindən, institutun aparıcı bölməsi olan texnoloji şöbənin rəisi vəzifəsinə qədər yüksəlmişdir. Bu zaman Azərbaycanın neft emalı müəssisələrinin rekonstruksiyası, SSRİ-nin mühüm neft emalı müəssisələrinin, Polşanın neft emalı qurğularının, Əfqanıstanın neft emalı zavodunun layihə işlərinə rəhbərlik etmişdir.

Yüksək nəzəri və peşə hazırlığı ilə fərqlənən R.Y.Əsgərzadə, dəfələrlə Moskvada, Yaroslavl, Qroznı, Polotsk, Qorki, Kuybışev, Krasnovodsk, Volqoqrad şəhərlərində konfrans, konqress, sessiyalarda iştirak etmişdir. O, öz peşəsinin vurğunu, işlədiyi kollektivdə və ümumiyyətlə neft emalı sahəsində çalışan mütəxəssislər arasında böyük nüfuza malik idi.

R.Y.Əsgərzadənin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, yüksək əmək nailiyyətlərinə görə, o, "Əməkdar neftçi" fəxri adına layiq görülmüş, "Za doblestnıy trud", "Za trudovoe otliçie" və s. medallarla təltif edilmişdir.

R.Y.Əsgərzadə 1982-ci ildə Şəki şəhərində vəfat etmişdir.

ƏSGƏROV VEYSƏL ƏLİNAĞI OĞLU

Veysəl Əsgərov 1913-cü ildə anadan olmuşdur.

1930-cu ildən Bakıda yaşamışdır. 1941-ci ilə qədər Bakı ş. Su Kəmərləri İdarəsində baş mühasib işləmişdir. Böyük Vətən müharibəsi başlanandan etibarən 1941-1945-ci illərdə, yəni

müharibənin sonuna kimi ön cəbhədə olmuş, Mozdok ətrafındakı döyüşlərdə iştirak etmişdir. Bir sıra orden və medallarla təltif olunmuşdur.

1945-1955-ci illərdə Nazirlər Sovetində İşlər İdarəsinin rəis müavini işləmişdir. Xalq Təsərrüfatı Şurası təşkil olunduqda 1956-cı ildən 1966-cı ilə qədər (ləğv olunana qədər) İşlər İdarəsinin rəisi vəzifəsində işləmişdir.

Yüksək təşkilatçılıq qabiliyyətinə malik olan Veysəl Əsgərov işlədiyi hər sahədə böyük bacarıq və qabiliyyət göstərmişdir. 1966-1972-ci illər ərzində Yeni Bakı Neftayırma zavodunda direktor müavini vəzifəsində işləmişdir. 1972-ci ildən ömrünün sonuna qədər Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası İnstitutunun Maliyyə ekspertizası laboratoriyasının rəisi vəzifəsində işləmişdir.

1986-cı il sentyabrın 13-də Bakıda vəfat etmişdir.

ƏSGƏROV KAMAL ƏLİNAĞI OĞLU



Kamal Əsgərov 1925-ci ildə anadan olmuşdur.

1932-1939-cu illərdə Şəkidəki 5 saylı orta məktəbdə, daha sonra, 1939-1942-ci illərdə Şəki Tibb Texnikumunda feldşer ixtisası üzrə orta tibb təhsili almışdır.

İlk əmək fəaliyyətinə 1942-ci ildən feldşer kimi başlamışdır.

1943-1945-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olduğu müddətdə Polşa şəhərlərinin azad olunmasında və Berlinin alınması uğrunda gedən qızğın döyüşlərdə iştirak etmişdir.

1946-cı ildə ordu sıralarından tərxis olunmuşdur. Bundan sonra o, Bakıya qayıdaraq Tbilisi Dəmiryol Nəqliyyatı mühəndisləri İnstitutunun Bakı filialına (sonradan bu filial Azərbaycan Sənaye İnstitutuna, daha sonra Azərbaycan Politexnik İnstitutuna verilmişdir - ADNA və AzTU) daxil olmuşdur.

1951-ci ildə Azərbaycan Politexnik İnstitutu Dəmiryol Nəqliyyatının istismarı mühəndisliyi ixtisası üzrə müvəffəqiyyətlə başa vurmuşdur. İnstitutu bitirdikdən sonra o, Azərbaycan Dəmiryol İdarəsinə işləməyə göndərilmişdir.

K.Ə.Əsgərov Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun qiyabi şöbəsinə daxil olmuş (indiki Azərbaycan İqtisad Universiteti) və aspirantura təhsilini "Mühasibat uçotu və təsərrüfat fəaliyyətinin analizi" ixtisası üzrə başa vurmuşdur.

1967-1983-cü illərdə Azərbaycan dəmiryol İdarəsinin Maliyyə şöbəsinin rəisi, 1983-1996-cı illərdə Yolların maşın hesablama stansiyalarının rəisi vəzifəsində çalışmışdır.

Onun fədakar əməyi daim yüksək qiymətləndirilmiş və o, dəfələrlə Baş İdarənin rəhbərliyi tərəfindən mükafat və fəxri fərmanlara layiq görülmüşdür.

Kamal Əlinağı oğlu Əsgərov 1996-cı ildə vəfat etmişdir.

ƏSƏDOVA RƏNA ŞƏRİF QIZI

Əsədova Rəna 1962-ci ildə ziyalı ailəsində anadan olmuşdur. 1969-1979-cu illərdə orta məktəbdə təhsil almış, 1979-cu ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutuna daxil olmuş və 1984-cü ildə institutu mühəndis-elektrik ixtisası üzrə əla qiymətlərlə bitirmişdir.

1980-2003-cü illərdə Sumqayıt Dövlət Universitetində (keçmiş Azərbaycan Sənaye İnstitutu) laborant, baş laborant,

assistent, baş müəllim vəzifələrində çalışmışdır.

2001-ci ilin oktyabr ayında AMEA-nın müxbir üzvü, professor F.İ.Məmmədovun rəhbərliyi altında "Sənaye obyektlərinin idarə sistemləri üçün bütöv maqnit keçirici ikiölçülü elektromaqnit böyük yerdəyişmələr çeviricilərinin işlənməsi və tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsini almışdır. Dissertasiyada təklif olunan çevirici iqtisadi cəhətdən səmərəli, sadə hazırlanma texnologiyasına və yüksək ölçmə dəqiqliyinə malik olmaqla bərabər eyni zamanda iki çeviricinin işini yerinə yetirməyə qadirdir.

2003-cü ilin yanvar ayından AMEA-nın Kibernetika İnstitutunda elmi işçi, 2004-cü ilin sentyabr ayından isə "Elmi-texniki informasiya, patent tədqiqatları və menecment" şöbəsinin rəhbəri vəzifəsində çalışır.

Rəna xanım həm də Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosentidir.

O, dəfələrlə Respublika və Beynəlxalq elmi konfranslarda, Beynəlxalq Elmi simpoziumlarda məqalə ilə çıxış etmişdir. Rəna xanım 14 elmi məqalənin, iki elmi ixtiranın və bir metodik vəsaitin müəllifidir. Məqalələri Respublikanın və xarici ölkələrin nüfuzlu elmi jarnallarında çap olunmuşdur.

ƏYYUBOV NATİQ CABBAR OĞLU



Natiq Əyyubov 1941-ci ildə anadan olmuşdur. 1959-cu ildə 2 saylı Şəki orta məktəbini bitirmişdir. Həmin il Əzim Əzimzadə adına Azərbaycan dövlət rəssamlıq məktəbinin heykəltəraşlıq fakültəsinə daxil olub. II kursdan ordu sıralarına çağırılıb.

1964-1969-cu illər Azərbaycan dövlət İncəsənət Universitetinin tətbiqi sənət fakültəsində oxumuşdur.

1979-cu ildə SSRİ Rəssamlar İttifaqının üzvi monumentalçı rəssam olmuşdur.

Şəhərimizin bir çox inzibati binalarında iri həcmli divar rəsmləri var, əlavə olaraq metal, qrafika, rəngkarlıq sənətində uğurlu müvəffəqiyyətləri olmuşdur.

Lənkəran, Moskva, vatikan, Ankara, İstanbul muzeylərində işləri var.

1999-cu ildə İstanbulda keçirilən türkdilli xalqların simpoziumunda 10 günlükdə mədəniyyət Nazirliyi tərəfindən iştirak etmişdir. Son illər ərzində çoxsaylı beynəlxalq və yerli sənət yarışmalarının mükafatlarını almışdır.

2005-ci ildə Nizami adına Ədəbiyyat Muzeyini xüsusi mükafatını almışdır. Eyni zamanda karikatura yarışmasında şəkililərin Rostov futbol komandasına uduzmasının səbəblərini aşkarlamaqda xidmətlərinə görə mükafat almışdır. Bunlarla yanaşı dəyərli insanların, dövlət xadimlərinin portretlərini işləmişdir.

ƏYYUBOV CƏMALƏDDİN BİLAL OĞLU



Cəmaləddin Əyyubov 1943-cü ildə anadan olmuşdur.

1971-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Bədii Fondu nəzdindəki yaradıcılıq kombinatında zərgər kimi ilk əmək fəaliyyətinə başlamışdır.

Avstriyanın paytaxtı Vyana şəhərində 55 ölkənin zərgərlərinin iştirakı ilə keçirilən rəssam-zərgərlərin iştirakı ilə keçirilən rəssam-zərgərlərin beynəlxalq zərgərlik sərgisində Azərbaycan Respublikasını məhz şəkili C.Əyyubovun işləri təmsil etmişdir.

O, 2 ay müddətində Palanqa (Latviya)-da yaradıcılıq evində olmuşdur və onun bir çox sənət əsərləri (qolbaq, kəmər, sırğa, boyunbağı və s.) Yaponiya, Fransa, Türkiyə, Çexoslovakiya, Bolqarıstan, İsrail, Misir, Ukrayna, Macarıstan və s. Beynəlxalq rəssam-zərgərlərin sərgisində nümayiş etdirilmişdir.

SSRİ-nin 50 illiyinə həsr olunmuş "Sovet rəssam-zərgərləri" kitabında (Moskva, "Sovetskiy xudojnik", 1980) C.Əyyubovun 2 sənət əsəri, "Üç düymə" sırğası və "Sevil" boyunbağı əsərləri təmsil olunmuşdur.

Cəmaləddin Əyyubov haqqında qəzet və jurnallarda dəfələrlə yazılar dərc olunmuş və onun haqqında 2002-ci ildə məşhur kino tədqiqatçısı Aydın Kazımzadə "Zərgər" telefilmini çəkmiş və ekranlarda nümayiş etdirilmişdir.

Filmdə uzun illər zərgərlik sənətimizdə öz dəst-xəttini saxlayan rəssam, ustad zərgər Cəmaləddin Əyyubovun yaradıcılıq yolundan, onun xalq yaradıcılığına söykənən zərgərlik sənətində əldə etdiyi böyük uğurlardan bəhs olunur.

Cəmaləddin Bilal oğlu Əyyubov hazırda öz bilik və təcrübəsini, əbədi, ölməz sənətinin sirlərini gənc nəsillərə öyrətməklə fəaliyyətini davam etdirir.

ƏYYUBOV MAHİR ƏLƏKBƏR OĞLU

Mahir Əyyubov 1951-ci ildə ziyalı ailəsində anadan olmuşdur. 1968-ci ildə Şəki şəhər 2 saylı orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra həmin il ADU-nun Fizika fakültəsinə daxil olmuşdur. Oxuduğu müddətdə tələbi elmi cəmiyyətinin üzvü olmuşdur. 1973-cü ildə Fizika fakültəsini bitirərək fizik, fizika müəllimi ixtisasını almışdır.

1973-cü ildən Şəki şəhər 11 saylı orta məktəbdə, 1974-cü ildən hal-hazıra

qədər şəhər 20 saylı orta məktəbdə fizika və informatika müəllimi vəzifəsində çalışır.

İşlədiyi müddətdə tədrisin keyfiyyətini və səmərəsini yüksəltmək məqsədilə bir neçə səmərələşdirici pedaqoji üsulların müəllifi olmuş, 1988-ci ildə rayon miqyasında onun iş təcrübəsi geniş yayılmışdır.1990-cı ildə pedaqoji fəaliyyətinə görə "Metodist müəllim" adına və 1992-ci ildə Azərbaycan Respublikasının "Maarif əlaçısı" döş nişanına layiq görülmüşdür. 1994-cü ildə Təhsil Nazirliyinin keçirdiyi kompüter proqramlarına baxış müsabiqəsinin qalibi olaraq I yer qazanmışdır, 1997-1998-ci illərdə Şəki Özəl türk litseyində fizika fənni üzrə Olimpiada qrupu aparmışdır. Onun şagirdləri 1997-ci ildə respublika turunda I yer, 1998-ci ildə İtaliyanın Milan şəhərində dünya olimpiadasına vəsiqə qazanmışdır, 1999-cu ildən hal-hazıra qədər həmin Litseydə kompüter olimpiada qrupunu aparır. Onun şagirdləri 2001-2003-cü illərdə keçirilən respublika olimpiadasında dəfələrlə yüksək yerlərə layiq görülmüşdür.

M.Ə.Əyyubov eyni zamanda texniki yaradıcılıq mərkəzində dərnək rəhbəri vəzifəsində də çalışır. Onun şagirdləri respublika yarışlarında dəfələrlə yüksək yerlər tutaraq müəlliflik şəhadətnamələri almışlar.

Müəllimlik peşəsinə qəlbən vurğun olan, öyrənməyi və öyrətməyi özünə mənəvi tələbata çevirən Mahir müəllim gözəl bir insan kimi öz el-obasının dərin hüsn-rəğbətini qazanmışdır. Bir neçə dəfə Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuşdur. 2001-ci il tarixindən Respublika Təhsil Şurasının üzvüdür.

Respublika Prezidentinin 2000-ci il 18 Mart tarixli fərmanı ilə Respublikanın "Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

ƏZİZOV MƏNSUR QARA OĞLU



Əzizov Mənsur 1964-cü ildə anadan olmuş, 1980-ci ildə Bakı incəsənət təmayüllü orta məktəbi bitirmişdir. 1980-1984-cü illərdə Bakı 84 saylı Texniki-peşə məktəbini tərtibatçı rəssam ixtisası üzrə təhsil almışdır.

1984-1992-ci illərdə Şəki şəhər M.F.Axundov adına kinoteatrda rəssam vəzifəsində işləmişdir.

1984-1986-cı illərdə hərbi xidmətdə olmuşdur.

1995-ci ildə Türkiyənin İstanbul şəhərində "Basın" muzeyində və "Mərmərə" otelinin rəsm qalereyasında şəxsi sərgisi təşkil olunmuşdur.

1997-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür, hazırda rəngkarlıq üzrə yaradıcılığını davam etdirir.

M.Əzizov dəfələrlə diplom və fəxri fərmanlara layiq görülmüşdür.

ƏZİZOVA NAİMƏ MAHMUD QIZI

Naimə Əzizova 1917-ci ildə anadan olmuşdur. Bir müddət orta məktəbdə oxuduqdan sonra fəhlə fakültəsinə daxil olur. Fəhlə fakültəsini bitirdikdən sonra 1936-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olur və 1941-i ildə Tibb İnstitutunu bitirir.

N.M.Əzizova əlinə diplom aldığı ilk gündən başlayaraq peşəsinə dərindən bağlandığı həkimlik sənətini həyatının mənası saymışdır.

Bir nurlu ömrün əlçatmaz, ünyetməz səhifələrini vətəninin ağır günlərində yorulmaq bilmədən elinə-obasına sədaqətlə xidmət etmiş N.M.Əzizova respublikamızın sayılan, seçilən həkimlərindən olmuşdur. 1941-ci ildə müharibə zamanı o xalqına, vətəninə öz əməli işləri ilə xidmət etməyi qarşısına qoydu. O, diplomunu, təyinatını alan kimi Xudat rayonuna yollandı. O vaxt Xudat rayonunda baş alıb gedən malyariya və yatalaq xəstəliklərinə qarşı mübarizə aparıb qısa bir müddət ərzində Xudat əhalisini bu qorxulu bəladan qurtarır. Bu gənc həkim bir sıra çətinliklərlə üzləşdi, bəzən büdrədi, fəqət yıxılmadı, addımları bərkidi. Az bir müddət içərisində bu ağ xalatlı gənc həkimin səsi ətraf rayonları bürüyür, xəstələrin isə xilaskarı və sevgilisinə çevrilir. Naimə xanımın istedadı və bacarığı barədə hamı ürəkdolusu ilə danışır, onun qəbulunda olan hər kəs ondan razılıq hissi ilə ayrılırdı. Onun yanına hətta qonşu rayonlardan da müalicəyə gəlirdilər. Həyat yollarında uğurlu addımlar atan naimə xanım rayon rəhbərliyinin nəzərindən qaçmır. Onu baş həkim təyin edirlər və müharibə zamanı təşkil olunan Hərbi Tibb Komissiyasının sədri təyin edirlər.

On iki il Xudat rayonunda çalışdıqdan sonra Respublika Səhiyyə Nazirliyinin sərəncamı ilə Şuşa səhiyyə şöbəsinin müdiri vəzifəsinə göndərilir. İşlədiyi 9 il ərzində təkcə Şuşada yox, ətraf rayonlarda olan xəstəliklərə qarşı mübarizə aparır. Onun yeni üsullarla apardığı müalicə bir səhiyyə işçisi kimi elinə, torpağına dərindən bağlılığı haqqında neçə-neçə xoşməramlı məqalələr, oçerklər və təşəkkürlər yazılır.

1961-ci ildə Şuşada Səhiyyə şöbəsinin müdiri vəzifəsində 9 il işlədikdən sonra Respublika Səhiyyə Nazirliyinin sərəncamı ilə Bakıya çağırılır və Səhiyyə Nazirliyinin 4 saylı Baş İdarəsinin o vaxt "Leçkomissiya" adlanan poliklinikasına təyin edilir.

Hər bir yerdə olduğu kimi Naimə M.Əzizova bu poliklinikada da işlədiyi müddət ərzində özünü təcrübəli, alicənab, işgüzar, tələbkar, daxili mədəniyyəti ilə seçilən həkim kimi göstərmişdir. O yorulmadan səhərdən axşamadək dinclik və rahatlıq bilmədən 10-12 saat işləyərdi. Heç təsadüfi deyil ki, onun qəbul otağının qarşısında dərdlərinə əlac axtaran xəstələr böyük ümidlə onun

qəbuluna düşmək üçün növbəyə dayanardılar. Hətta başqa sahələrdən gələn xəstələr də. O, böyük diqqətlə xəstələrini qəbul edərdi. Şəfalı əlləri ilə müayinə edərdi və qəbuldan çıxan xəstələr sevinc, fərəh hissi ilə ondan ayrılardılar. Bundan əlavə o hər gün 27-30 xəstəyə baxmaq üçün çağırışla evlərə gedərdi. Məhz bunun nəticəsidir ki, N.M.Əzizova çoxlarına şəfa verən həkim çalışdığı kollektivin və bütün xəstələrin dərin hörmət, ehtiramını qazanmışdı.

Bununla belə N.M.Əzizova ürəyi ailəsi ilə döyünürdü. O, əvəzsiz qayğıkeş ana, ailə başçısı, qohumlara isə dayaq idi.

Xalq üçün şölələnən ürək, sərf olunan ömür ən yüksək mükafatlara layiqdir. Milyonların etimadını qazanmış N.M.Əzizova "Qafqazın müdafiəsi uğrunda" və bir neçə başqa medallarla, "Əla Səhiyyə işçisi" fəxri adına layiq görülmüşdür.

N.M.Əzizova respublika mətbuatında aktual səhiyyə mövzularında çıxışlar edir, bir çox məqalələr nəşr etdirmişdir. Moskvada çap olunan "Kardioloqiə", "Terapevtiçeskiy arxiv" jurnallarında "Mediüinskaə qazeta" qəzetində kardiologiya və xroniki pnevmaniya haqqında bir çox elmi məqalələr nəşr etdirmişdir və bu xəstəliklərə aid elmi konfranslarda çıxış etmişdir.

ƏZİZOV FƏRHAD ŞİRİN OĞLU



Fərhad Əzizov 1946-cı ildə anadan olmuşdur. 1964-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun kimya-texnologiya fakültəsinə qəbul olub, 1969-cu ildə bitirmişdir.

1969-cu ildən 1970-ci ilə qədər Sumqayıt Kimya zavodunda aparatçı vəzifəsində, 1970-ci ildən 1974-cü ilə qədər "-Neft Kimya Avtomat" Elmi-Tədqiqat Layihə İnstitutunda mühəndis vəzifəsində işləmişdir.

1974-cü ildən AzEA-nın Şəki zona Elmi bazasında kiçik elmi işçi vəzifəsinə qəbul edilmişdir. 1976-cı ildə AzEA Genetika və Seleksiya İnstitutunda aspiranturaya qəbul olmuş, 1980-ci ildə bitirmişdir.

1983-cü ildə Daşkənd şəhərində Özbəkistan EA-nın "Bio-üzvi-Kimya" İnstitutunun Elmi şurasında dissertasiya işini müdafiə etmiş, biologiya elmləri namizədi elmi adı almışdır.Hal-hazırda AzMEA-nın Genetik Ehtiyatlar İnstitutunun Şəki Elmi-tədqiqat bazasında böyük elmi işçi vəzifəsində işləyir.

İxtisasım üzrə 5 müəlliflik şəhadətnaməsi, 1 səmərələşdirici təklif üçün şəhadətnamə almış, 25 məqalə və tezis dərc etdirmiş, 1 monoqrafiya nəşr etdirib. Məqalə və tezislər Moskva, Novosibirsk, Düşənbə, Sankt-Peterburq, Vladiqafqaz şəhərlərində nəşr olunan kitab və elmi jurnallarda dərc olunmuşdur.

2001-ci ildən pedaqoji fəaliyyətlə məşğul olur.

Şəki Pedaqoji Texnikumunda "Anatomiya, fiziologiya və gigiyena" fənnini Musiqi Texnikumunda "Biologiya fənnini" tədris edir.

2001-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi Tədris Proqramları İnstitutu tərəfindən təsdiq olunmuş "Anatomiya, fiziologiya və gigiyena", "Biologiya fənnləri" üzrə tədris proqramlarının müəllifidir.

Bir sıra MDB ölkələrində Rusiya, Gürcüstan, Bolqarıstan, Türkiyə respublikalarında keçirilən konfrans və simpoziumlarda iştirak etmişəm

2001-ci ildə "Bioflor" Ekoloji Tərbiyə İctimai Birliyini təsis etmiş, onun sədridir

2002-ci ildən "Şəki Sənətkarlar Assosiasiyası"nın və 2003-cü ildən Şəki "Ailə Turizm Assosiasiyası"nın, 2004-cü ildən Şəki "Sahibkarlar Assosiasiyası"nın təsisçisidir.

2002-ci ildə "Mədəni irsin qorunma layihəsi" üzrə Şəki ictimai işçi qrupunun rəhbəri seçilmiş, Cənubi Qafqazda Turizm təşəbbüsləri Proqramı çərçivəsində "Transqafqaz" Turizm layihəsi üzrə 2002-ci ildə Tbilisidə keçirilən Beynəlxalq seminarın

iştirakçısı olmuş, fasilitator sertifikatı almış, 2001-ci ildə Alman-Azərbaycan texniki əməkdaşlıq "GTZ" xətti ilə təşkil olunmuş bir illik "Məsləhətçilərin seminar yolu ilə hazırlanması" kursunun müdavimi olmuş, sertfikatlar almışdır.

2003-cü ildə "İmpuls" firmasına icraçı direktor təyin olunmuş, "Biznes-məsləhət" Mərkəzinin rəhbəridir.

ƏZİZOV FİKRƏT ŞABAN OĞLU

Fikrət Əzizov 1938-ci ildə anadan olmuşdur. 1946-cı ildə M.F.Axundov adına 2 saylı məktəbə daxil olmuş, 1956-cı ildə oranı qurtarmışdır. Elə həmin ildə də N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin (ATİ) "Əczaçılıq" fakültəsinə daxil olmuşdur. 1961-ci ildə həmin fakültəni provizor ixtisası ilə bitirib işləmək üçün Ermənistan SSR-ə göndərilmişdir. Orada iş şəraitinin dözülməz olduğuna görə 1 bildən sonra Azərbaycana qayıtmış, Mingəçevir və Şəki şəhərlərində bir müddət işləmişdir.

1964-cü ildə Bakı şəhərinə köçmüş, burada o, müxtəlif vəzifələrdə çalışmışdır. 1966-cı ildə Lökbatan qəsəbəsində yeni açılmış uşaq xəstəxanasının nəzdində aptek təşkil etmiş və orada müdir işləmişdir. 1967-1968-ci illərdə 438 saylı hərbi hospitalda aptek rəisi, daha sonra Bakı şəhərində apteklərdə müxtəlif vəzifələrdə çalışmışdır.

1969-cu ildə Səhiyyə Nazirliyinin Baş Apteklər İdarəsinə işə qəbul olunmuş və burada əczaçılıq işləri üzrə təşkilatçı inspektor vəzifəsində işləmişdir.

1974-cü ildə ona SSRİ Səhiyyə Nazirliyinin "Səhiyyə əlaçısı" döş nişanı verilmişdir. 1976-cı ildə apteklər üçün texniki təhl-

ükəsizlik işlərinə dair yaddaş kitabçası nəşr etdirib aptekləri təchizh etmişdir.

1977-ci ildə Baş Apteklər İdarəsinin nəzdindəki Mərkəzi Analitik laboratoriyasına müdir təyin edilmişdir.

F.Ş.Əzizov 1971-1979-cu illərdə 2 dəfə Moskva şəhərində ixtisasartırma kurslarında 4 və 2 ay olmaqla oxumuşdur. 1971-ci ildə ona ali dərəcəli "provizor" fəxri adı verilmişdir. 1971-1990-cı ilə qədər idarənin Aptek Şurasının və Attestasiya Komissiyasının daimi üzvi olmuşdur.

O, 1981-ci ildə respublikada ilk dəfə olaraq dərman preparatlarının yararlılıq müddətini göstərən braşüra buraxdırmışdır.

1988-ci ildə Elyaşeviçin "Farmatsevtu o dentoloqii" kitabını Azərbaycan dilinə tərcümə etmiş və bütün aptekləri bu kitabça ilə təmin etmişdir.

O, daim şəhərin keyfiyyətli dərmanlarla təmin edilməsi və apteklərdə əczaçılıq qaydalarının qorunması üçün öz bilik və bacarığını tətbiq edir.

F.Ş.Əzizov hazırda Bakı şəhər Apteklər İdarəsinin Əczaçılıq işlərinin təşkili şöbəsinə rəhbərlik edir.

ƏZİZOV FİKRƏT VAHİD OĞLU

Fikrət Əzizov 1930-cu ildə anadan olmuşdur. O, orta təhsilini başa vurduqdan sonra. 1949-cu ildə Azərbaycan Politexnik İnstitutunun (indiki AzTU) Dəmir yolu nəqliyyatı fakültəsinə daxil olmuş və 1954-cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

1954-1956-cı illərdə Şimali Qafqaz Dəmir yolu "Proxladnıy" stansiyasının texniki kontorunun rəisi vəzifəsində çalışmışdır. O, 1956-1958-ci illərdə

Azərbaycan Dəmir yolu "Keşlə" stansiyasında dispetçer işləmişdir.

Fikrət Əzizov 1960-cı ilədək Sumqayıt Alüminium zavodunda nəqliyyat sexinin rəisi olmuş, 1960-1962-ci illərdə Azərbaycan SSR Maşınqayırma İdarəsi Şöbəsinin rəisi işləmişdir. 1962-ci ildə Kondisioner zavodunda direktor müavini olmuşdur. Onun əməyi daim yüksək qiymətləndirilmiş, bir çox fəxri fərmanlara və diplomlara layiq görülmüşdür.

1970-ci ildə Mali və Qvineya Respublikasında işi ilə əlaqədar rəsmi-işgüzar ezamiyyətdə olmuşdur.

Fikrət Əzizov 1972-ci ildə Bakı şəhər Nərimanov rayonundan millət vəkili seçilmişdir.

F.Əzizov 1975-ci ildə "Azərelektrikişıq" Bakı İstehsalat Birliyində baş direktor vəzifəsində çalışmışdır.

FƏRƏCOVA ƏSMAYƏ ŞİRİN QIZI



Fərəcova Əsmayə Şirin qızı 1929-cu ildə anadan olmuşdur. Orta məktəbi Şəki şəhərində gümüş medalla bitirmiş və Şəki Müəllimlər İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuşdur.

1951-ci ildə təyinatla Şəki rayonunun Böyük Dəhnə kənd orta məktəbinə Azərbaycan dili və ədəbiyyatı müəllimi vəzifəsinə göndərilib.

50-ci illərdə kənddə savadsızlığın ləğvi ilə əlaqədar axşam məktəblərinin təşkilində və yaşlı əhalinin məktəblərə cəlb edilməsi işində xüsusilə aktiv fəaliyyət göstərmiş və maarifpərvər şəxs kimi böyük nüfuz qazanmışdır.

Daha sonrakı 10 illiklər ərzində ümumi icbari orta təhsilə keçid üzrə dövlət proqramının həyata keçirilməsində xüsusi fəal-

lıq göstərmiş, Böyük Dəhnə kəndində axşam və qiyabi orta məktəblərin təşkil olunmasında yaxından iştirak etmiş və həmin məktəblərdə tədris keyfiyyətinin artırılmasında xüsusilə fərqlənmişdir.

36 il müddətində fasiləsiz olaraq Böyük Dəhnə kənd orta məktəbində müəllimə işləmiş, "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif olunmuşdur. Uzun illər ərzində məktəb pedaqoji şurasının katibi və rayonlararası metodbirləşmənin sədri olmuşdur.

36 il ərzində minlərlə şagirdə Azərbaycan dili və ədəbiyyatı fənnini tədris etmiş və həmin şagirdlərin arasından onlarla dilçilər və ədəbiyyatçılar yetişmişdir. Eyni zamanda həmin mütəxəssislərdən üçü Əsmayə Fərəcovanın tədris etdiyi fənn üzrə təhsilini daha da dərinləşdirərək, filologiya elmləri namizədi elmi dərəcəsinə yüksəlmiş və hal-hazırda ölkəmizin müxtəlif ali məktəblərində çalışırlar.

Əsmayə Şirinqızı nadir istedada, yüksək pedaqoji qabiliyyətlərə malik olan müəllimə olmaqla yanaşı, həm də yaşadığı elin, obanın ən möhtərəm ağbirçəklərindən biridir. O öz həyatını el-obası ilə birgə yaşayıb, onun sevincinə şərik olub, elin ağrı-acılarını da özününkü bilib. Bu obada hər kəs onu sevdiyini, ona böyük məhəbbət bəslədiyini ifadə edir.

25 aprel 2004-cü ildə Fərəcova Əsmayə Şirin qızının 75 yaşı tamam olmuşdur. Şəki şəhər İcra Hakimiyyəti Başçısının imzaladığı 15 aprel 2004-cü il tarixli, 1/72 saylı Sərəncama müvafiq olaraq. Şəki rayon ictimaiyyətinin iştirakı ilə Əsmayə Fərəcovanın yubileyi təşkil olunmuş və yubiley mərasimində eləcə də Əsmayə Fərəcovanın həyat və fəaliyyətini əks etdirən "Ağ günlər sorağında" adlı sənədli romanın təqdimatı olmuşdur.

Jurnalist-yazıçı Sadıq Zamanoğlunun qələmə aldığı bu kitabda Əsmayə Şirinqızının həyat yolu və onunla birgə işləmiş ziyalıların, onun yetirmələrinin xatirələri, yüksək bədii zövqlə, nəfis tərtibatda verilmiş, müxtəlif dövrləri əks etdirən foto-şəkillər toplanmışdır.

Fərəcova Əsmayə Şirin qızı Şəki şəhər İcra Hakimiyyəti Başçısının Fəxri fərmanı və Azərbaycan Respublikası Təhsil Nazirinin Fəxri fərmanı ilə təltif olunmuşdur. O, həmçinin akademik M.Mehdizadə adına mükafatın və Azərbaycan Kütləvi İnformasiya Vasitələri işçilərinin Həmkarlar İttifaqı tərəfindən təsis olunmuş "Vətən" mükafatı laureatıdır.

FƏRZƏLİBƏYOV ŞARİD NƏSİB BƏY OĞLU

Fərzəlibəyov Şarid Nəsib bəy oğlu 1937-ci ildə anadan olmuşdur.

1946-cı ildə Şəkidə 2 saylı məktəbə getmiş və oranı 1956-cı ildə bitirmişdir.

1956-1959-cu illərdə Moskva Politexnik Texnikumunda təhsil almış, oranı fərqlənmə diplomu ilə bitirmişdir. Həmin dövrdə qüvvədə olan qanun əsasında, texnikumu fərqlənmə diplomu ilə qurtaran məzunların 5%-i müvafiq ali məktəblərə imtahansız qəbul edilirdilər. Məhz, Ş.Fərzəlibəyov bu 5%-li imtiyaz qrupunun içərisində Moskva Energetika İnstitutunun "Elektrik avadanlıqları" fakültəsinin qiyabi şöbəsinə imtahansız qəbul edilmişdir. 1965-ci ildə həmin ixtisas üzrə ali təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

Moskvada qiyabi təhsil aldığı müddətdə həm də istehsalatın müxtəlif sahələrində çalışmışdır.

1960-1962-ci illərdə Şəki İpək Kombinatında elektrik mühəndisi, 1962-1964-cü ilə qədər Azərkənd Energetikası üzrə baş dispetçer işləmişdir.

1964-1974-cü illərdə AzenerjiSazlama İdarəsində böyük mühəndis vəzifəsində çalışmışdır.

1974-1982-ci illərdə Şəki Rabitə idarəsində rabitə rəisi vəzifəsində işləmişdir. Bu vəzifədə işlədiyi müddətdə Şəkinin 20-

dən artıq kəndinin telefonlaşdırılmasında fəal iştirak etmişdir.

Ş.Fərzəlibəyov rabitə sahəsində 60-dan çox səmərələşdirici təklifin müəllifidir. 1979-cu ildə Azərbaycan Respublikası Rabitə Nazirinin əmri ilə rabitə sahəsindəki nailiyyətlərinə görə "Azərbaycanın fəxri səmərələşdiricisi" kimi yüksək ada layiq görülmüşdür.

1982-1994-cü illərdə Moskva Ümumittifaq Geofizika İnstitutunun Bakı filialında Seysmoloji hadisələrin qabaqcadan xəbər verilməsi sahəsi üzrə böyük geofizik vəzifəsində işləmişdir.

1994-cü ildən təqaüdçü Şarid Fərzəlibəyov ömrü boyu partiya mənsubiyyətinə görə bitərəf olsa da o, şərəfli həyat fəaliyyətilə (o, həm də atası məşhur Nəsib bəyin sənətini davam etdirmiş, 1974-cü ildən bu günə qədər bacarıqlı diş texniki kimi də fəaliyyət göstərir) daim xalqın tərəfində olub, öz bacarıq və istedadını xalqından əsirgəmir.

FƏRZƏLİBƏYOV VARİD NƏSİB OĞLU

Varid Fərzəlibəyov 1933-cü ildə ziyalı ailəsində anadan olmuşdur. Şəki sənətkarlar diyarıdır. Varid Fərzəlibəyov da uşaq yaşlarından Şəki sənətkarlarının əl işlərinə dərin maraq göstərmiş, onlardan çox şey öyrənmişdi. Bu insan taxta oyma sənətində özünü daha bariz göstərmişdi. Gələjəkdə də sənətkarlıq onun böyük xobbisinə çevrilmişdi. Varid Fərzəlibəyov Şəkidəki 2 saylı məktəbi bitirib M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun energetika fakültəsinə daxil olaraq, uzun illər qabaqjıl mühəndis kimi çalışıb, tanınmış insan olub, lakin həyatının sonunadək sənətkarlığı əldən qoymamışdı. Eyni zamanda da Azərbaycan Mədəniyyət Nazirliyinin filialı olan suvenir fabrikinə öz əl işlərini təqdim etmişdi. O, özünü taxta üzərində oyma sənətində, yapışqansız taxta hissələrini bir-birinə keçirmək, yəni şəbəkə sahəsində daha mükəmməl göstərmişdir. Onun əsərlərində monumentallıq, memarlıq ölçülərini, Azərbaycan milli ornamentlərini nejə dəqiq bilməsi diqqəti jəlb edir. O dövrkü mətbuat onun əl işlərini "Azərbaycan levşasının injiləri" adlandırıb. Rus yazıçısı Leskovun qəhrəmanının adından götürülmüş bu söz "zərif məhsul düzəldən" mənasında da işlədilir.

V.Fərzəlibəyov uzun illər "Azərelektroişıq" istehsalat birliyində çalışmışdır. O, bir sıra istehsalat işlərini təkmilləşdirmiş, bu yolla müəssisə xeyli gəlir əldə etmişdir.

O, 30 il böyük laboratoriyaya rəhbərlik etmişdir. Sovet məkanında ilk ağ işıq lampaları zavodunun yaranmasında, istehsalın təkmilləşdirilməsində və genişləndirilməsində onun böyük əməyi olmuşdur. Varid Fərzəlibəyov istehsalatda yaranmış çox problemlərin yüksək səviyyədo həllinə müvəffəq olmuşdur.

Bu insan həm də ixtiraçı mühəndis kimi də özünü göstərmişdir. O, Azərbaycan musiqi mədəniyyətinə yeni bir musiqi aləti "-bas tarı" bəxş etmişdir. Bu ixtiraya görə 60-70i illərin musiqi mütəxəssisləri ona "əlləri qızıldır" demişlər. Bu ixtiranı edəndə müəllifin 29 yaşı var idi. Varid Fərzəlibəyov xariji görünüşü və səsinə görə ijad etdiyi alətə "bas tar" adı vermişdir. O vaxt Azərbayjan Dövlət Konservatoriyasında İ.Hacıbəyov, Ə.Abbasov, C.Hacıyev, Ə.Bakıxanov, H.Xanməmmədovun iştirakı ilə təşkil olunmuş komissiya bu ixtiraya yüksək qiymət vermişdir. Onların qeyd etdiyinə görə, ansambl və orkestrlərimizdə bas səs çatışmırdı. Digər musiqi alətləri vasitəsi ilə yaradılmış bas səs lazımi effekti vermirdi. Xarici görünüşjə tara və uda bənzəyən bu alətin böyük üstünlükləri var. Bu alətdə özünü göstərən çox mühüm xüsusi detallara ayrı heç bir musiqi alətində təsadüf etmək mümkün deyil. Mütəxəssislərin fikrinjə, bu alət alətşünaslıq baxımından çox düzgün və dəqiq ölçülüb biçilmişdir. Belə ki, böyük və kiçik çanaq arasında xüsusi qurğunun qoyulması bu aləti daha da mükəmməlləşdirmişdir. Bu qurğu səs rezonansının tənziminə

xidmət edir. Bas tardan indi də ansambllarımızda istifadə edilir. Oricinalı isə müəllifin özü tərəfindən 1982-ci ildə Musiqi mədəniyyəti Dövlət muzeyinə bağışlanılmışdır.

Varid Fərzəlibəyov 23 mart 1999-cu il tarixdə dünyasını dəyişmişdir.

Müasirləri Varid Fərzəlibəyov şəxsiyyəti haqqında

Bas tarın müəllifi Varid Fərzəlibəyovdur. O, xalis bəy nəslindən idi. Onun istedadı atasından, əslindən, kökündən gəlib. Əhməd Bakıxanov deyərli ki, bu səs – bas tarın səsi bizə çox lazım idi. Bas tar ansambl və orkestrlərimizdə uzun müddət qəbul olunub və istifadə edilib. Bu insanın əlləri qızıl idi. Taxtaya əl vursaydı "çiçəklənərdi". Elə təkcə bas tarı onu yaşadacaq. Ziyalılıq, nəcabət bu ailə, nəslə xas olan xüsusiyyətlərdir. Bu insan çox orijiqal, ziyalı ailədən idi.

Bəxtiyar Vahabzadə, *Xalq şairi, akademik*

Baxanda heyran oldum. Musiqiçi olmayasan, amma belə gözəl musiqi aləti icad edib yaradasan. Bizim orkestrlərimizdə bas səs çatışmır. Adi tarda bas simlər var, amma bu simlərdə melodiya çalmaq olmur. Ansamblda piano və başqa alətlərlə bas səs yaradılırdı. Amma bu da lazımi səviyyədə deyildi. Bas tarda isə bütün parametrlər və göstəricilər elə nəzərə alınıb ki, hiss edirsən ki, tar nəslindənidir, qondarma deyil, amma bu alət tamamilə bambaşqadır. Müəllif burada Azərbaycanın qədim musiqi alətlərinə nəzər salmışdır. Lakin bu ixtiranın bədii-texniki imkanları daha yüksəkdir. Əsas odur ki, müəllif ansamdlda vacib səs tembrini tapa bilsin. Varid Fərzəlibəyov buna müvəffəqiyəətlə nail olmuşdur.

Onun sənətindən istifadə edən gənclərə, musiqiçilərə demək istərdim ki, onun ixtirasına hörmət və ehtiramla yanaşsınlar və bu irsi qorumağı, təkmilləşdirməyi məsləhət görürəm.

Ramiz Quliyev, *tarzən, Xalq artisti*

Mən bu alətə heyran olmuşam. Sənətkarlıq cəhətdən dəqiq hazırlanmış bir alətdir. Belə bir alətə ansmbl və orkestrlərimizdə ehtiyac böyük idi. Onun yaranması da elə bu zərurətdən doğub. Musiqişünas olmasa da, bu insanın musiqi zövqü çox yüksək idi. Bu ixtira alətşünaslıq baxımından çox düzgün və dəqiq ölçülüb-biçilmişdir.

Məcnun Kərimov,
sənətşünas

Varid Fərzəlibəyov Azərbaycan xalqına, Şərq musiqi aləminə, xalq çalğı alətləri ansamblına və orkestrinə çox lazımlı alət bəxş etmişdir. Onun bu aləti daim yaşayacaq və bu belə də olmalıdır.

Sidqi Mustafayev, *"İrs" folklor ansamblının bədii rəhbəri*

Azərbaycanda belə insanlarla birgə yaşayıb onu tanımamaq böyük qəbahətdir. Çox təəssüf olsun ki, biz bu adamı bu vaxta qədər tanımamışıq. Onun necə gözəl hissiyatı, böyük şeylərdən kiçik suvenirlər hazırlamaq qabiliyyəti olmuşdur. Hələ dünya muzeylərini bəzəyə biləcək bu çilçıraq... Bu əsərdə də ixtiraçılıq, monmentallıq var. O. böyük heykəltəraş ola bilərdi. Qohumu Fuad Əbdürrəhmanovla yaxınlığı daha çox olsaydı, bu belə də olardı. Taxta işlərində mən bunu hiss edirəm...

Vaxtı ilə Varid Fərzəlibəyovun əsərləri Almaniya və başqa xarici ölkələrdə nümayiş etdirilmək üçün çıxarılmışdır, onların geri qaytarılmasına nail olmaq lazımdır. Yaxşı olardı ki, bu əsərlərdən bəhs edən ayırca kataloq hazırlansın.

Kübra Əliyeva,
sənətşünas

Varid Fərzəlibəyov bəy nəslindən idi, özü də bəy idi. Mən bu insanın adını eşidəndə, tələffüz edəndə, haradasa oxuyanda ona olan böyük hörmətimə, onun böyük fitri istedadına görə ayaq üstə qalxmaq istəyirəm. Onun şəxsiyyətində olan sadəlik, əvəzsiz

hörmətcillik, təmənnasız insan olması barədə saatlarla danışmaq olar. Varid Fərzəlibəyov həm sakit, həm də xasiyyətcə sabit insan idi. O, həqiqətən qeyri-adi fitri istedada malik insan, ən böyük insanlığa layiq yoldaş, dost, həyat yoldaşı, ata, qardaş və s. olmuşdur.

Hacı İlham Hacıyev,
uşaqlıq dostu

FƏRZƏLİBƏYOV NƏSİB BƏY MUSTAFABƏY OĞLU

Nəsib bəy Fərzəlibəyov 1911-ci ildə anadan olmuşdur. N.Fərzəlibəyov uşaq yaşlarında mədrəsədə təhsil alıb.

O, Nuxa Pedaqoji texnikumunda ali orta təhsilini başa vurub, ali təhsil almaq üçün Bakıya gəlir. Nəsib bəy burada Pedaqoji İnstitutun riyaziyyat fakültəsinə daxil olur. Lakin Böyük Vətən müharibəsinin başlanması Nəsib bəyin ali təhsil almaq arzusunu yarımçıq qoyur. O, ailəsinin ağır vəziyyəti ilə əlaqədar Şəkiyə qayıdır.

Yüksək istedadı və bacarığı sayəsində saatsazlığın, dülgərliyin, texnikanın müxtəlif sahələrinin sirlərinə yiyələnən Nəsib bəy zəmanəmizin nəbzini tuta bilən, nadir insanlardan biri idi.

Müharibədən əvvəl Şəkidə diş texniki çox az idi. Belə bir dövrdə o, Gülüzadələr soyundan olan Zahid həkimin məsləhəti ilə zamanının məşhur, milliyyətcə yəhudi olan diş texniki Kasnerin yanında diş texnikliyinin sirlərinə yiyələnmişdir. Ciddi səylə öz üzərində işləyərək, sahəsinə dair elmi ədəbiyyatlar toplayıb oxumaqla biliyini artırıb. Müəyyən müddətdən sonra şəhərdə ehtiyacı ödəyə bilən, xəstələri razı salan, gördüyü işdən heç

zaman şikayət eşitməyən, məşhur diş həkiminə çevrilir.

Hər sahəyə marağı, elmi, ziyalılığı onu məşhurlaşdırdı.

Nəsib bəy Böyük Vətən müharibəsi ərəfəsində artıq məşhur diş həkimi kimi fəaliyyətlə yanaşı, həm də 2 saylı məktəbdə direktor vəzifəsində işləyirdi.

Rus dilində yaxşı danışa bilən, qızıl əlləri olan nəsi bəyi komandanlıq gözünün zəifliyini nəzərə alaraq cəbhədən geri qaytarır. Geri dönən Nəsib bəy gözəl insan, ziyalı, bacarıqlı sənətkar kimi elinə, xalqına xidmətini böyük həvəslə davam etdirir.

Xalq şairi B.Vahabzadə tərəfindən Nəsib bəy haqqında "Azəri qəlbli, alman tərbiyəli Nəsib bəy" ifadəsi bir daha Nəsib bəyin yüksək insanpərvərliyini və sənətindəki dəqiqliyini çox gözəl təsdiqləyir.

Nəsib bəy 10 sentyabr 1974-cü ildə dünyasını dəyişməsinə baxmayaraq, onun əziz xatirəsi daim onu sevənlərin qəlbində yaşamaqdadır.

FƏRZƏLİBƏYOV MƏRAHİM FƏRZƏLİ OĞLU

Mərahim Fərzəlibəyovun yaradıcılıq bioqrafiyasında altmışa yaxın tamaşa var. Geniş fantaziyalı rejissordur, əlvan kompozisiyalar qurmaqda məxsusi səriştəsi var. Janr əlvanlığına meyli güclüdür və buna görə də mövzuca bir-birindən fərqli, təzadlı süjet, kompozisiya, konflikt, ideya qurumlu pyeslərə müraciət edir.

Mərahim Fərzəlibəyovun atası Fərzəlibəy Fərzəli Mustafa oğlu 1915-ci ildə Şəki şəhərində ziyalı ailəsində anadan olmuşdur. Fərzəlibəyovlar nəsli Şəkidə öz bacarığı və istedadı ilə bu gün də çox yaxşı tanınırlar. Şəki mədəniyyətində və Azərbaycan Respublikasının bir çox sahələrində, diplomatiyada, biznesdə,

incəsənətdə və elmdə fəaliyyət göstərirlər. Onlardan biri də görkəmli teatr xadimi, xalq artisti, Akademik Dram Teatrının baş rejissoru Mərahim Fərzəlibəyovdur.

Mərahim Fərzəli oğlu Fərzəlibəyov 26 iyun 1949-cu ildə Bakıda doğulub. Bakıdakı 56 saylı orta məktəbi bitirib. Səhnəyə 10-cu sinifdən maraq göstərib.

26-lar adına Mədəniyyət sarayının xalq teatrında hazırlanan tamaşalarda epizodik rollar oynayıb. Lakin rejissor sənətinə daha çox maraq göstərib. Orta məktəbi bitirəndən sonra Azərbaycan Respublikası Jurnalistlər İttifaqının yaradıcılıq fotostudiyasında şagird-laborant, Suraxanı rayon mədəniyyət evində kinomexanik köməkçisi, 26-lar Mədəniyyət sarayında pioner "Şəfəq" dram dərnəyinin rəhbəri işləyib.

Az və həvəskar səviyyəsində olsa da müəyyən təcrübə toplayan Mərahim Fərzəlibəyov ali təhsil almaq üçün Leninqrada (indiki Sankt-Peterburq şəhəri) gedib. Burada Dövlət Teatr Musiqi, Kinomatoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil olub. İxtisas müəllimi dünya şöhrətli rejissor, SSRİ xalq artisti professor Georqi Tovstonoqovdan beş il (1970-1975) seçdiyi ixtisasın incəliklərini öyrənib. Diplom işi kimi Azərbaycan Musiqili Komediya Teatrının rus bölməsində dramaturq Maykl Stüartın və bəstəkar Cevri Germanın "Hello Doli" muziki-operettasını tamaşaya hazırlayıb. Bundan sonra isə bütün yaradıcılığı boyu bir daha operetta janrına müraciət etməyib, yalnız dram teatrında tamaşalar hazırlayıb.

İnstitutu bitirəndəMərahimin təyinatını Çeçenistan Muxtar Respublikasının paytaxtı Qroznı şəhərindəki Mixail Lermontov adına Dövlət Rus Dram Teatrına veriblər. O, mövcud təyinat qaydasına əsasən iki il bu teatrda quruluşçu rejissor işləyib (16 noyabr 1975-ci il - 18 avqust 1977-ci il). Bu təcrübəli kollektivdə Tennissi Uilyamsın "Arzu tramvayı" dramına, Yan Batist Molyerin "Tartüf" komediyasına, Boris Vasilyevin "Qış gecəsinin nağılı" pyesinə, Alla Sokolovanın "Faryatevin fantaziyası" psixoloji tragikomediyasına, "Yevgeni Sefip və Nikolay Novitskinin səadəti", uşaqlar üçün Sergey Mixalkovun "Lovğa dovşan" nağılına maraqlı səhnə quruluşları verib

Mərahim Fərzəlibəyov Sumqayıt Dövlət Dram Teatrında baş rejissor (1noyabr 1977 - 9 mart 1981) işlədiyi illərdə gənc kollektivin yaradıcılıq işlərində, janr və üslub axtarışlarında səmərəli reformalar apara bilib. Bu teatra özü ilə bərabər yeni janrlar, təzə və orijinal kompozisiya, dil, ifadə, bədii təsvir prinsipləri gətirib. Dörd il ərzində sənət ocağının repertuar quruluşuna əlvanlıq, canlılıq, mövzu rəngarəngliyi verə bilib. Bir sıra aktyorun "gizli" yaradıcılıq imkanlarının genişliyi, məlahət və cazibəsi xarakterik səviyyələri məhz M.Fərzəlibəyovun Sumqayıt teatrında bitkin quruluşlar verdiyi aşağıdakı tamaşalarda açılıb. G.Bokarev "Poladəridənlər", H.Muxtarov "Mən nənəyə evlənirəm", "P.Pançev "Məktub", C.Cabbarlı "Vəfalı Səriyyə", O.Məmmədov "Mehrişah", T.Kazımov "Muradın kələkləri", N.Həsənzadə "Bütün Şərq bilsin", N.Xəzri "Mənim arxalandığım" və s. Sumqayıt teatrında "Bütün Şərq bilsin" tamaşasına quruluş verəndən on altı gün sonra M.Fərzəlibəyov Respublika Mədəniyyət Nazirliyinin əmri ilə Akademik Milli Dram Teatrına rejissor təyin olunub (9 mart 1981). Kollektivin məhsuldar rejissorlarından biri kimi əsasən çağdaş dramaturgiyamızın, həmçinin dünya klassiklərinin əsərlərinə müxtəlif janrlarda səhnə quruluşları verib. İ.Əfəndiyev "Xurşidbanu Natəvan", "Şeyx Xiyabanı", "Bizim qəribə taleyimiz", "Dəlilər və ağıllılar", "Hökmdar və qızı", V.Şekspir "Maqbet", Anar "Təhminə və Zaur", N.Xəzri "Torpağa sancılan qılınc", "Mənsiz dünya", Q.Lorka "Qadın faciəsi", "Dişi canavar", J.Rasin "Fedra", V.Şekspir, M.S.Ordubadi, N.Hikmətin əsərlərinin motivləri əsasında səhnə redaksiyası M.Fərzəlibəyovun "Misir gecələri", C.Məmmədquluzadə "Ölülər" və s.

1980-ci illərin əvvəllərində C.Cabbarlı adına "Azərbaycanfil" kinostudiyasının nəzdində Kino-Aktyor Teatrı truppası fəaliyyət göstərirdi. Həmin kollektiv Mərahim Fərzəlibəyovun quruluşunda M.Muradın "Təkan", Q.Lorkanın "Qanlı toy", A.Nikitinin "Abşeronda bir gecə" pyeslərinin tamaşalarını oynayıb

teatr sənətinin inkişafında göstərdiyi xidmətlərə, rejissorluqda qazandığı nailiyyətlərinə görə Mərahim Fərzəlibəyov 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 28 oktyabr 2000-ci ildə isə xalq artisti fəxri adları ilə təltif olunub.

12 yanvar 2006-cı il tarixində Respublika Mədəniyyət Nazirliyinin əmri ilə Mərahim Fərzəlibəyov Akademik Milli Dram Teatrına baş rejissor təyin olunub.

FƏRZƏLİYEV ÇİNGİZ ƏBDÜLMƏCİD OĞLU

Çingiz Fərzəliyev 1943-cü ildə anadan olmuşdur. 1951-1961-ci illərdə orta təhsil almışdır. O, 1962-ci ildə Ə.Əzimzadə adına rəssamlıq məktəbinə daxil olmuş, 1967-ci ildə həmin məktəbi "Rəngkarlıq" ixtisası üzrə bitirmişdir.

Ç.Fərzəliyev 1967-1973-cü illərdə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda "Rəngkarlıq" ixtisası üzrə ali təhsil almışdır.

Rəssamlar İttifaqının üzvüdür.

1973-1983-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) müəllim və baş müəllim kimi fəaliyyət göstərmişdir.

2002-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "Rəssamlıq" kafedrasında müəllim kimi fəaliyyət göstərən Çingiz Fərzəliyev 2005-ci ildə həmin kafedranın dosenti, az sonra isə kafedra müdiri seçilmişdir.

Ç.Ə.Fərzəliyev "Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi", professor olmaqla yanaşı, həm də bir neçə kitabın müəllifidir. "Natürmort janrı haqqında" (2003), "Rəngkarlıqda portret janrı" (2006), "Azərbaycan rəngkarlığı" (Antologiya, 2007) kimi kitablar da bu sıradandır.

Onun "Azərbaycan rəngkarlığı" (Antologiya, 2007) kitabı "Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi", Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, "Azərbaycan Mədəniyyətinin dostları" Fondu, Azərbaycan Rəssamlar İttifaqının təşəbbüsü ilə nəşr edilmiş 420 səhifədən ibarət kitabdır. Bu kitabda Azərbaycan rəngkarlıq sənətində XIII-XXI əsr arasında baş verən bütün diqqətəlayiq, Azərbaycan rəngkarlığında hər şeyi əhatə edən bütün hadisələr haqqında və həmin əsrlərdə fəaliyyət göstərmiş görkəmli rəssamların həyat və yaradıcılığı haqqında hərtərəfli məlumatlar var.

Ç.Fərzəliyev Mədəniyyətin və İncəsənətin inkişafında göstərdiyi xidmətlərə görə akademik Y.Məmmədəliyev adına mükafata layiq görülmüşdür.

Bacarıqlı təşkilatçı, gözəl rəssam, professor Fərzəliyev Çingiz Əbdülməcid oğlu respublika, ümumittifaq, xarici ölkə və beynəlxalq rəssamlıq sərgilərinin iştirakçısıdır. Bir sıra Beynəlxalq sərgilərin və müsabiqələrin laureatıdır. Hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyətini uğurla davam etdirir.

FEYZİYEV CAVANŞİR ƏYYUB OĞLU

Cavanşir Feyziyev 1963-cü ildə ziyalı ailəsində anadan olmuşdur. 1970-1980-ci illərdə Şəkidə orta təhsilini almışdır.1983-1985-ci illərdə Qazaxıstanda həqiqi hərbi xidmətdə olmuşdur.

1986-1991-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunda (indiki Azərbaycan Dillər Universiteti) ali təhsil almış və tərcümə fakültəsini tərcüməçi-müəllim ixtisası üzrə fəpqlənmə diplomu ilə bitirdikdən sonra həmin ali

məktəbin "fransız dili və tərcümə" kafedrasına müəllim vəzifəsinə təyin olunmuşdur.

Hələ tələbəlik illərində - 1987-ci ildə SSRİ-də "yenidənqurma" prosesi getdiyi zaman Azərbaycanda ilk özəl müəssisələrdən biri olan "Linqvist" tədris-tərcümə mərkəzinin yaradıcılarından biri olmuş və 1994-cü ilədək Dillər İnstitutunda müəllim işləməklə yanaşı, həm də "Linqvist" Mərkəzini idarə etmişdir.

1994-1995-ci illərdə Belçikanın "Sərhədsiz həkimlər" Beynəlxalq təşkilatında əvvəlcə tərcüməçi, daha sonra isə cəbhəboyu bölgələr üzrə administrator vəzifələrində çalışmışdır.

1995-1998-ci illərdə "Filip Morris" şirkətinin Qafqaz nümayəndəliyində müxtəlif vəzifələrdə işləmişdir.

Nəhayət, özəl biznes sahəsində əldə etdiyi bilik və təcrübəyə arxalanaraq öz şəxsi biznesini qurmaq qərarına gəlmiş və sonrakı illərdə əldə olunan nailiyyətlər bunun çox düzgün qərar olduğunu bir daha təsdiqləmişdir. Belə ki, onun təsis etdiyi yerli müəssisələr Amerika Birləşmiş Ştatları (ABŞ) və Avropanın bir çox ölkələrinin dünya miqyaslı şirkətləri ilə işgüzar əlaqələr qurub, Azərbaycanın bazar iqtisadiyyatının və eləcə də özəl sektorun inkişaf etdirilməsində önəmli nəticələr əldə etmişdir.

1998-2002-ci illərdə "Planet CO. LTD" Şirkətinin təsisçisi və direktoru olmuşdur.O, bir neçə şirkətin təsisçisi və ya həmtəsisçisi olmaqla, yüzlərlə işçisi olan müxtəlif profilli biznes müəssisələrini idarə edir. Bu müəssisələr ölkənin reklam sənayesində, istehlak mallarının idxalı və özəl tibb xidmətləri sahəsində aparıcı rola malikdirlər.

2002-ci ilin noyabrından Feyziyev "Avromed" Azərbaycan-İngiltərə Birgə Müəssisəsinin Baş direktorudur. Eyni zamanda "İMEKS" MMC, "Krokus" MMC, "Saba" LTD, "Avromed" BM, "Qafqaz turizm" jurnalı redaksiyası MMC, Şəkidə fəaliyyət göstərən "Tour-invest" şirkətlərinin təsisçisi və ya həmtəsisçisidir. Bu şirkətlərin filial və nümayəndəlikləri ölkəmizin 15 bölgə mərkəzlərində fəaliyyət göstərir və Cavanşir Feyziyevin yaratdığı müəssisələrdə 1500-ə yaxın yerli adamlar yüksək əmək haqqı

ilə iş yerləri tapmışlar.

"Avromed" şirkətinin Mingəçevir, Sumqayıt, Gəncə, Şəki və Lənkəranda regional bazası tikilir. "İmeks"in 15 rayonda regional bazası fəaliyyət göstərir.

Cavanşir Feyziyevin təsis etdiyi "Tour-İnvest" şirkəti tərəfindən Şəkidə 2004-cü ilin sentyabrından inşasına başlanılan "Şəki Saray" oteli 2006-cı ildə müasir tələblərə tam cavab verən səviyyədə istifadəyə verilmişdir. Oktyabrın 14-də "Şəki saray" otelinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları iştirak etmişdir.

C.Feyziyevin təşəbbüsü ilə "Tour-İnvest" şirkəti hal-hazırda Şəki şəhərində turizmin inkişaf etdirilməsi məqsədilə Soyuqbulaq ətrafında 4 hektar ərazidə turizm bazasının tikintisi üçün hazırlıq işləri aparır. Həm mehmanxana-biznes kompleksinin və həm də turizm bazasının yaxın gələcəkdə fəaliyyətə başlaması yüzlərlə yeni iş yerlərinin açılmasına səbəb olacaqdır.

Cavanşir Feyziyevin təsis etdiyi şirkətlərdə respublikanın əksər rayonlarından olan yüzlərlə adam əmək fəaliyyəti ilə məşğul olur.

O cümlədən, indiyədək Şəki şəhərindən, Böyük Dəhnə, Kiçik Dəhnə, Suçma, Qoxmux, Kiş, Oraban, Baş Göynük, Biləcik, Oxud kəndlərindən, Turan və s. qəsəbələrdən yüzlərlə həmyerlimiz Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Bərdə və Şəki şəhərlərində yüksək maaşlı iş yerləri ilə təmin olunmuşlar.

O, Şəki rayonunun Böyük Dəhnə kəndində smeta dəyəri 350 min ABŞ dolları olan 620 yerlik orta məktəb binasını şəxsi vəsaiti hesabına tikdirmiş, 2005-ci ildə məktəblilərin istifadəsinə vermişdir.

Onun rəhbərliyi ilə Kiçik Dəhnə kəndində 2 saylı orta məktəbin cari təmiri həyata keçirilmiş, Böyük Dəhnə, Kiçik Dəhnə və Suçma kəndlərinin içməli su ilə təmin olunması üçün layihə işləri aparılmışdır.

C.Feyziyev fransız, ingilis, rus, türk və Azərbaycan dillərini

mükəmməl bilir. Biznes fəaliyyəti ilə əlaqədar 20-yə yaxın ölkədə işgüzar səfərlərdə olmuşdur.

Ciddi intizam, əməksevərlik və yüksək təşkilatçılıq qabiliyyətinə malik C.Ə.Feyziyev həm də xeyriyyəçi iş adamı kimi tanınır. Belə ki, o, onlarla imkansız vətəndaşın cərrahiyyə əməliyyatlarını öz üzərinə götürmüş, 7 nəfər valideynsiz uşaqların Alma-Ata şəhərində Ahmet Yasevi Universitetdə təhsil alması üçün onlara hər il maliyyə yardımları etməklə yanaşı, Bakı və Şəki şəhərlərində yerləşən uşaq evlərinə və internat məktəblərinə müntəzəm olaraq yardımlar etməkdədir.

Cavanşir Feyziyev yaradıcı adamlara da həmişə qayğı ilə yanaşmışdır. Böyük Dəhnə kəndində onun dəstəyi ilə yaradılmış məktəblilərdən ibarət "Dəhnə" folklor qrupu 2005-ci ilin aprel ayında ümumrespublika müsabiqəsinin qalibi olmuşdur. Bir neçə yazıçı və şairlərin kitabları onun göstərdiyi maliyyə dəstəyi nəticəsində işıq üzü görmüşdür. Qarşınızdakı kitabın sponsoru da məhz Cavanşir Feyziyevdir.

Respublikanın müxtəlif ictimai təşkilatları tərəfindən dəfələrlə diplom və fəxri fərmanlarla təltif olunmuş və 2005-ci ildə Avropa Biznes Assambleyası (London, Oksford) tərəfindən "Şöhrət çələngi" beynəlxalq mükafatına layiq görülmüşdür.

Cavanşir Feyziyev Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun dissertantı olmuş və fəlsəfə elmləri doktoru İlham Məmmədzadənin rəhbərliyi altında "Qafqazda etno-siyasi münaqişələrin mənəvi aspektləri" mövzusunda dissertasiyasını 2007-ci ildə müvəffəqiyyətlə müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır.

C.Feyziyev "Qafqazda etnik münaqişələr və onların dövlət müstəqilliyinə təsiri" (ingilis dilində, 2002-ci il), "Sülh fəlsəfəsi" (Azərbaycan dilində, 2006) monoqrafiyalarının və 10-dan çox elmi əsərin müəllifidir.

FEYZULLAYEV MÜŞFİQ ƏHƏD OĞLU

Müşfiq Feyzullayev 1972-ci ildən anadan olmuşdur.

1978-ci ildə Oxud kənd orta məktəbinə getmiş, 1988-ci ildə həmin məktəbi gümüş medalla bitirmişdir.

1988-ci ildə Leninqrad Maliyyə İqtisad İnstitutunun Bakı filialına "Maliyyə kredit" ixtisasına qəbul olmuşdur.

1989-cu ilin fevralında Leninqrad Maliyyə İqtisad İnstitutuna köçürülmüşdür.

1993-cü ildə Sankt-Peterburq Dövlət İqtisad Maliyyə Universitetini qırmızı diplomla qurtarmışdır.

1993-cü ildə Kalininqrad Dövlət Universitetinin "İqtisadiyyatı idarəetmə" fakultəsinin aspiranturasına qəbul olunmuşdur. 1997-ci ildə həmin Universiteti "Tədqiqatçı iqtisadçı" diplomu ilə bitirmişdir.

1999-cu ildə Sankt-Peterburq Dövlət Universitetinin "İqtisadi siyasət" ixtisası üzrə həm də "Maliyyə kredit" ixtisası üzrə "Воздействие денежно-кредитных инструментов на становление и развития промышленного производство" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1997-ci ildən indiyədək Surqut Dövlət Universitetində əvvəl asisstent, baş müəllim, dosent vəzifələrində işləyir.

2001-ci ildə dosent diplomu almış, eyni vaxtda 1999-cu ildə ASG "Xantı - Mansiskdorstroy" idarəsində işə düzəlmişdir.

30-a yaxın elmi əsərin müəllifidir.

Onun 2001-ci ildə "Политика доходов и заработной платы" dərsliyi buraxılıb və dərs prosesində istifadə edilir.

HACIYEV MƏMMƏD CƏBRAYIL OĞLU

Məmməd Hacıyev 1885-ci ildə anadan olmuşdur. O, 1916-cı ildə Odessa Universitetinin tibb fakültəsini qurtarmışdır. M.Hacıeyv 1926-cı ilə qədər Kerç şəhərində xəstəxananın Baş həkimi işləmişdir. Sonra isə ömrünün axırına kimi Şəki şəhəri rayonlararası Mərkəzi xəstəxananın baş həkimi olmuşdur.

M.Hacıyev "Azərbaycan SSR əməkdar həkimi", "Azərbaycan SSR Əmək Qəhrəmanı" kimi fəxri adlara layiq görülmüşdür.

Hacıyev Məmməd Cəbrayıl oğlu 1955-ci ildə vəfat etmişdir.

Hazırda Şəki şəhər Mərkəzi xəstəxanası Hacıyev Məmməd Cəbrayıl oğlunun adını daşıyır və tibb sahəsindəki xidmətləri yüksək qiymətləndirilən M.C.Hacıyevin həmin xəstəxananın qarşısında büstü qoyulmuşdur.

Məmməd Cəbrayıl oğlu Hacıyevin oğlü tibb elmlər namizədi Hacıyev Fövzi Məmməd oğlu Azərbaycan Tibb Universitetinin (ATU) "Ümumi cərrahi xəstəliklər" kafedrasının dosenti olmuşdur. Fövzi Hacıyev zob xəstəliyi üzrə mütəxəssis-həkim, məşhur endokrinoloq kimi fəaliyyət göstərmişdir.

Böyük ürəyə malik insanpərvər F.Hacıyev öz həkimlik fəaliyyəti dövründə zəngin təcrübi və nəzəri biliyinə arxalanaraq şəfalı əlləriylə mütəmadi olaraq xeyriyyəçilik missiyası ilə Bakı şəhərində və Azərbaycanın rayonlarında burun, qulaq və boğazın müxtəlif növ xəstəliklərindən əziyyət çəkən minlərlə insanın yenidən sağlam həyata qayıtmasında əvəzolunmaz rol oynamışdır.

HACIYEV İLHAM ORUC OĞLU

Hacıyev İlham Oruc oğlu 14 iyul 1949-cu ildə Şəki şəhərində anadan olmuşdur. 1956-cı ildə 10 saylı orta məktəbə getmiş, 1967-ci ildə oranı bitirmişdir. İş fəaliyyətinə 1966-cı ildə bufetçilik üzrə kurs alaraq, Şəkidə ictimai-iaşə sistemində fəaliyyətə başlamışdır.

O, 1968-1970-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

İ.Hacıyev 1972-1975-ci illərdə Ticarət Texnikumunun "Yeməklərin hazırlanması texnologiyası" fakültəsini oxumuşdur. Texnikumu qurtardıqdan sonra Şəki ticarətində bufetçi, yeməkxana müdiri, daha sonra isə "Sevinc" restoranının müdiri olub.

İlham Hacıyev 1979-cu ildə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunun (XTİ–indiki İqtisad Universiteti) "Ərzaq mallarının əmtəəşünaslığı" ixtisasını bitirib, sonra bir müddət işini Şəkidə davam etdirmişdir.

O, 1982-ci ildə yenidən Bakıya qayıdaraq, Nizami rayonunda 1988-ci ilədək yeməkxana müdiri olub.

İ.Hacıyev 1988-1992-ci illərdə Bakı şəhər Təsərrüfat Malları İdarəsində "Büllur" mağazasının direktoru, 1993-cü ildən "Məktəbli və tələbə iaşə tresti"nin baş direktoru, 1994-cü ildən Bakı şəhər İctimai İaşə İdarəsinin rəisi, 1995-1997-ci illər ərzində Bakı Mal-Qara Tədarükü və Emalı İstehsalat Birliyinin (Keşlə Ət Kombinatı) baş direktoru işləmişdir.

İlham Hacıyev 1997-ci ildən hazırkı dövrə qədər Bakı şəhər məktəbli və tələbə iaşə ATSC müşahidə şurasının sədri vəzifəsində işləyir.2001-ci ildən Azərbaycan İqtisad Universitetinin "İstehlak mallarının ekspertizası" kafedrasının baş müəllimi kimi pedaqoji fəaliyyət göstərir. O, həmçinin 2001-ci ildə Həcc ziyarətində də olmuşdur.

İ.Hacıyev müasir dövrdə mühüm əhəmiyyət kəsb edən İqtisad Universitetinin tələbələri üçün nəzərdə tutulmuş "İstehlak mallarının ekspertizasının nəzəri əsasları", İqtisad Universiteti nəşriyyatı, Bakı-2003-cü il dərs vəsaitinin həmmüəllifidir. O, eyni zamanda çalışdığı sahə üzrə 20-dən artıq elmi məqalə və bir çox tezislərin müəllifidir.

O, 1995-ci ildə "Bazar iqtisadiyyatına keçid dövründə" eyni adlı sahədə kurs keçmişdir.

Hacı İlhamın bir çox xeyriyyəçilik əməlləri də var və bunlara misal olaraq bir çox kitabların çıxmasına etdiyi köməkliklər, imkansız bir neçə tələbənin təhsil haqqına etdiyi köməyi, Şəkidə Sabir küçəsinin bərpası və təmirini göstərmək olar.

İlham Oruc oğlu Hacıyev Şəkidə məskunlaşmış köçkünlərə və başqa ehtiyacları olan bir çox şəxslərə mütəmadi olaraq yardım göstərməkdədir.

HACIYEVA ELMİRA ƏLƏKBƏR QIZI

Elmira Ələkbər qızı Hacıyeva 1952-ci ildə anadan olmuşdur.

O, 1968-ci ildə Şəki 2 saylı orta məktəbini bitirmiş, həmin ildə Azərbaycan Tibb İnstitutunun (ATİ–indiki ATU) pediatriya fakültəsinə daxil olmuş, 1975-ci ildə həmin ali məktəbi bitirmişdir.

E.Hacıyeva həmin ildən Şəki uşaq poliklinikasında sahə həkimi kimi işə başlayıb və 1976-cı il avqust ayında həmin poliklinikaya baş həkim təyin olunmuşdur. O, 1985-ci ildən Şəki Birləşmiş uşaq xəstəxanasına baş həkim təyin olunmuşdur.

Elmira Hacıyeva 1988-ci ildən Şəki Tibb texnikumuna direktor təyin edilmişdir.

E.Ə.Hacıyeva YAP-ın üzvüdür, Şəki Tibb Məktəbi ilk ərazi təşkilatının, 1988-ci ildən Respublika Uşaq Fondunun Şəki şöbəsinin sədridir.

O, Respublika Uşaq Fondunun Rəyasət Heyətinin üzvü seçilib.

Müxtəlif xeyriyyə işlərində fəal iştirak edir.

Sevil Qadınlar Cəmiyyətinin üzvüdür.

HACIYEV RASİM RƏMZİ OĞLU

Hacıyev Rasim 1956-cı ildə anadan olmuşdur. Bakı şəhərində 1963-cü ildə 47 saylı (Nərimanov rayonu) məktəbin 1-ci sinifinə daxil olmuş, 1973-cü ildə oranı bitirmişdir. 1973-cü ildə ADU (indiki BDU)-nun "Tətbiqi riyaziyyat" fakültəsinə daxil olmuş, 1978-ci ildə həmin ixtisas üzrə fərqlənmə diplomu ilə qurtarmışdır.

R.Hacıyev 1978-1981-ci illərdə AMEA Kibernetika İnstitutunun "Riyazi kibernetika" üzrə aspiranturasını qurtardıqdan sonra 1988-ci ilə qədər həmin institutun elmi işçisi vəzifəsində çalışmışdır.

O, 1984-cü ildə akademik C.Allahverdiyevin rəhbərliyi altında "Stoxaostik sistemlərin müşahidə və idarə edilməsi" mövzusunda mühüm nəzəri əhəmiyyətə malik namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

Rasim Hacıyev 1988-1994-cü illərdə AMEA Genetika və Seleksiya institutunda baş elmi işçi vəzifəsində işləmiş və akademik U.Ələkbərovun rəhbərliyi altında müasir elmi-tədqiqat sahəsi olan genetikanın riyazi modelləşdirilməsi məsələləri ilə məşğul olmuşdur.

R.Hacıyev 1978-1994-cü illərdə həm də pedaqoji fəaliyyətlə məşğul olmuş, BDU və AzTU-da riyazi kibernetikadan tələbələrə mühazirələr oxumuşdur. 1994-cü ilin fevral ayından hazırkı dövrə qədər Birləşmiş Millətlər Təşkilatının (BMT) "-Ümumdünya Ərzaq Proqramı"nın Azərbaycandakı nümayəndəliyində "Maliyyə inzibati" şöbəsinin rəhbəri vəzifəsində çalışır.

HACIYEV RƏMZİ NİYAZİ OĞLU

Rəmzi Hacıyev 1951-ci ildə qulluqçu (müəllim) ailəsində anadan olub. 1967-ci ildə şəhər 3 saylı orta məktəbini bitirərək BDU-nun mexanika-riyaziyyat fakültəsinə daxil olub.

1972-ci ildə universitetdə təhsilini başa çatdırıb riyaziyyatçı, hesablayıcı-riyaziyyatçı ixtisasına yiyələnmişdir.

1972-1974-cü illərdə ordu sıralarında Vzvod komandiri vəzifəsində xidmət etmişdir.

1974-cü ildən BDU-nun Elmi-tədqiqat Hesablama Mərkəzində mühəndis-proqramist, baş mühəndis-proqramist, qrup rəhbəri, aparıcı mühəndis mütəxəssis, şöbə müdiri direktor müavini vəzifələrində çalışmışdır. Ali məktəb AİS-lərinin baş konstruktorunun müavini kimi bir çox mövzuların yerinə yetirilməsinə rəhbərlik etmiş, məsul icraçı kimi "qapalı xarakterli" informasiya texnologiyalarının hazırlanmasında yaxından iştirak etmişdir.

Bakı şəhəri "Bilik" Cəmiyyətinin müasir konstruktor sistemlərinin riyazi və proqram təminatı məsələləri üzrə mühazirəçisi olmuş, Ali və orta ixtisas məktəbləri müəllimlərinin ixtisasartırma sistemində uzun illər "İnformatika" fənnini tədris etmişdir.

1976-cı ildən pedaqoji fəaliyyətlə məşğuldur.

1982-ci ildən BDU-nun tətbiqi-riyaziyyat və kibernetika

fakültəsində baş müəllim vəzifəsində çalışır. Fakültədə İnformatika "İqtisadi informasiyanın işlənməsi sistemləri", "Riyaziyyatın və informatikanın tədris üsulları" fənnlərini tədris edir.

Müasir kompüter sistemlərinin riyazi və proqram təminatı, İnformatika, informatikanın tədris metodikası ilə əlaqədar bir sıra elmi, elmi-metodiki, metodiki işlərin müəllifidir.

Hal-hazırda BDU-nun İqtisadi informatika kafedrasında baş müəllim vəzifəsində çalışır.

HACIYEVA SONA SALMAN QIZI

Sona Hacıyeva 1907-ci ildə anadan olmuşdur.

Sona Hacıyeva səhnə fəaliyyətinə 1921-ci ildə Bakı Azad Tənqid-Təbliğ Teatrında başlamışdır. 1923-1979-cu illərdə Azərbaycan Dram Teatrının aktrisası olmuş, 1927-ci ilədək eyni zamanda opera və musiqili komediyalarda müvəffəqiyyətlə çıxış etmişdir: Leyli, Əsli ("Leyli və Məcnun", "Əsli və Kərəm", Ü.Hacıbəyov), Şahsənəm ("Aşıq Qərib", Z.Hacıbəyov) və s.

S.Hacıyevanın yaradıcılığı üçün milli kolorit, təbiilik, özünəməxsus lirizm səciyyəvi idi. Ən yaxşı rolları: Sona ("Hacı Qara", M.F.Axundov), Xumar ("Şeyx Sənan", H.Cavid), "Atlas ("-Həyat", M.İbrahimov), Gülnar, Mehriban ("Vaqif", "Xanlar", S.Vurğun), Ofeliya, Cülyetta ("Hamlet", "Romeo və Cülyetta", V.Şekspir), Qalçıxa ("Günahsız müqəssirlər", A.Ostrovski) və s. olmuşdur.

"Sevimli mahnı", "Qızmar günəş altında", "O olmasın, bu olsun", "Səhər" filmlərində çəkilmişdir.

Sona Hacıyeva "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir.

S.S.Hacıyeva 1979-cu ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

HACIYEV ƏBDÜLƏLİ MƏMMƏD OĞLU

Əbdüləli Hacıyev 1920-ci ildə sənətkar ailəsində anadan olmuşdur.

O, Şəki şəhərindəki 10 saylı orta məktəbi bitirdikdən sonra 1938-ci ildə Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdur.

1941-1945-ci illərdə cəbhədə olmuş, Zaqafqaziya cəbhəsində gedən döyüşlərdə iştirak etmiş, yaralanmışdır. Böyük Vətən müharibəsindən sonra, 1946-cı ildə Azərbaycan Sənaye İnstitutunda təhsilini davam etdirmişdir. 1948-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirdikdən sonra 1948-1952-ci illərdə "Azenerji" idarəsində baş mühəndis vəzifəsində çalışmışdır.

1952-ci ildə SSRİ DTK-sına həqiqi hərbi xidmətə çağırılmışdır.

1959-1987-ci illərdə Azərbaycan SSR DTK-nın hökumət rabitəsi şöbəsinə rəhbərlik etmişdir.

1975-ci ildə Ə.M.Hacıyevə mühəndis-polkovnik hərbi rütbəsi verilmişdir. Təhlükəsizlik orqanlarında qüsursuz xidmətlərinə görə o, dəfələrlə orden və medallarla təltif edilmişdir.

1977-ci ildə isə respublikanın hökumət rabitəsi ilə təmin edilməsində xidmətlərinə görə Ə.M.Hacıyev Azərbaycan Respublikasının "Əməkdar rabitəçisi" yüksək fəxri adı verilmişdir.

Sadə, səmimi insan Hacıyev Əbdüləli Məmməd oğlunun əməyi fəaliyyət göstərdiyi dövrlərdə daim yüksək qiymətləndirilmiş, o, dəfələrlə dövlət tərəfindən orden, medal, diplom və bir çox fəxri fərmanlara layiq görülmüşdür.

Ə.M.Hacıyev 26 fevral 1998-ci ildə vəfat etmiş və doğulduğu Şəki şəhərində dəfn edilmişdir.

HACIMUSTAFAZADƏ HÜSEYN TOFİQ OĞLU



Hacımustafazadə Hüseyn 1973-cü ildə anadan olmuşdur.

1990-cı ildə Şəki şəhər M.F.Axundov adına 2 saylı orta məktəbi qurtardıqdan sonra əmək fəaliyyətinə başlamışdır. İşlədiyi müddətdə dəfələrlə bir çox sərgilərdə iştirak etmişdir.

1997-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Hazırda "Şəki Xan Sarayı"nın bərpası emalatxanasında şəbəkə ustası vəzifəsində işləyir. Nadir memarlıq incilərindən sayılan "Şəki Xan Sarayı"nın bərpasında böyük əməyi olmuşdur.

HACƏHMƏDZADƏ XURAMAN ŞAMİL QIZI

Xuraman Hacəhmədzadə 1961-ci ildə anadan olub. Orta təhsilini Şəki şəhər 20 saylı məktəbdə almışdır. Hacəhmədzadə Xuraman 1987-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun "Kimya texnologiyası" fakültəsini bitirmişdir.

1992-ci ildən Azərbaycan MEA-nın Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunun əməkdaşıdır. Hal-hazırda AMEA Kimya Problemləri İnstitutunda elmi fəaliyyətini davam etdirməkdədir.

X.Hacəhmədzadə professor Çingiz İbrahimovun rəhbərliyi altında "Poliizobutilenin modifikasiyası, katalitik destruksiyası proseslərinin tədqiqi, riyazi modelləşdirilməsi və parametrlərinin hesablanması" mövzusunda namizədlik dissertasiyası üzərində işi

başa çatdırıb texnika elmləri namizədi alimlik dərəcəsi almaq üçün Elmi Şuraya təqdim etmişdir.

Bu mövzuya aid müəllifin 10-dan artıq məqalə çap edilmişdir. X.Ş.Hacəhmədzadə əvvəlki elmi elmi mövzusunu davam etdirməklə yanaşı yeni elmi mövzular üzərində də çalışır. Elmi nəticələri istehsalatda müvəffəqiyyətlə tətbiq edilir.

HACI-SEYİDOV TOFİQ KƏRİMBALA OĞLU



Tofiq Hacı-Seyidov 1937-ci ildə anadan olmuşdur.

Orta təhsilini Oxud kənd orta məktəbindən başlayan T.K.Hacı-Seyidov 1953-cü ildə Bakıya gələrək, təhsilini 4 saylı sənət məktəbində davam etdirmişdir. Burada o, suvaqçılıq sənətinə yiyələnmişdir.

1955-ci ildə Nazirlər Soveti yanında SSRİ Əmək ehtiyatları idarəsinin Bakı Sənaye pedaqoji texnikumuna imtahan verərək qəbul edilmiş və 1959-cu ildə sənaye və mülki tikinti ixtisası üzrə tam kursu bitirmişdir. Dövlət İxtisas Komissiyasının qərarı ilə tikinti texniki və peşə-texnika məktəbində ixtisas müəllimi və istehsalat təlimi ustası diplomu verilmişdir. Bu texnikum Moskvaya tabe olduğundan, Moskvanın təyinatına əsasən Tacikistan Respublikasının Peşə-Texnika Nazirliyinə göndərilmiş, 1959-1966-cı illərdə Tacikistan Respublikasının Kanibadam şəhərinin 8 saylı sənət məktəbində istehsalat təlimi ustası, ixtisas müəllimi və sonra isə baş usta vəzifəsində işləmişdir.

1961-ci ilin noyabrında Tacikistan Respublikasının Kanibadam şəhərindən hərbi xidmətə çağırılmış, Gürcüstan Respublikasının Axalkalaki şəhərində hərbi xidmətdə olmuşdur. 1964-cü ildə "kapitan" rütbəsi ilə ordu sıralarından tərxis edilərək, əvvəl-

ki vəzifəsində fəaliyyətini davam etdirmişdir. Rəşadətli əməyə görə Tacikistan Peşə və Texnika Nazirliyi tərəfindən fəxri fərman almış və Tacikistan Respublikasının "Əməkdar inşaatçısı" adına layiq görülmüşdür.

O, 1966-cı ildə Şəkiyə qayıtmış, 1975-ci ilin martına qədər şəhər təmir tikinti idarəsində iş icraçısı vəzifəsində işləmişdir. 1975-1993-cü illərdə Şəki İpək İstehsalat Birliyində iş icraçısı, daha sonra isə baş iş icraçısı vəzifəsində çalışmışdır.

Onun məşhur "Marxal" istirahət zonasının salınmasında inşaatçı kimi böyük xidməti olmuşdur.

T.K.Hacı-Seyidov əmək fəaliyyəti ərzində bir çox əşya, pul mükafatlarına layiq görülmüşdür.

1970-ci ildə V.İ.Leninin 100 illiyi ilə əlaqədar yaxşı işinə görə "Lenin" yubiley medalı və 1974-cü ildə "Sosializm yarışı qalibi" döş nişanı ilə təltif olunmuşdur.

Öz yüksək ziyalılığı ilə seçilən, el ağsaqqallarından biri olan Tofiq Kərimbala oğlu Hacı-Seyidov hal-hazırda təqaüddədir.

HAŞIMOVA CEYRAN ƏSƏD QIZI

Musiqiçi ailəsində anadan olmuş Ceyran Haşımova 1956-cı ildə A.Zeynallı adına Bakı musiqi məktəbinin (indiki Musiqi kolleci) Azərbaycan xalq çalğı alətləri ansamblının "tar" sinfini əla diplomla bitirmişdir və sonralar həmin məktəbdə müəllim vəzifəsində çalışmışdır.

O, ömrünün 50 ilindən çox hissəsini Milli Mədəniyyətimizin inkişafına, musiqi mədəniyyətimizin təbliğinə həsr etmişdir. Müəllim işlədiyi illərdə neçə-neçə istedadlı tar ifaçıları yetişdirmişdir. Onların içərisində bəziləri hətta "Əməkdar artist" və fəxri adlara layiq görülmüşdür. Müəllimlik etməklə bərabər S.Rüstəmovun rəhbərlik etdiyi

Azərbaycan xalq çalğı alətləri orkestrində "Saz" qrupunun konsertmeystri vəzifəsində də çalışmışdır. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan incəsənətinin 10 günlüyünə həsr olunmuş "Dekada"nın iştirakçısı olmuşdur.

1964-cü ildə "Lalə" qızlar ansamblını yaratmışdır. Bu ansambl 1966-cı il martın 8-də qadınlar bayramı münasibətilə ilk dəfə "Mavi ekran"a çıxmışdır.

1964-1971-ci ilə qədər Az.Radio və Televiziyanın, 1971-1978-ci ilə qədər Az.Dövlət Flarmoniyasının və 1978-1992-ci ilə qədər Az.Dövlət Konsert Birliyinin nəzdində öz fəaliyyətlərini davam etdirmişlər. Artıq 40 ildir ki, ansambl fəaliyyət göstərir və bu müddət ərzində ansambl Azərbaycanı qarış-qarış gəzmiş, Orta Asiyanı, SSRİ-nin demək olar ki, bütün şəhərlərində və bəzi xarici ölkələrdə konsertlər vermiş və Azərbaycan milli musiqisini təbliğ etmişdir.

1987-ci ildə Azərbaycanın "Əməkdar artist"i fəxri adına layiq görülmüşdür. Bundan başqa 1972-1979-cu illərdə Naxçıvan MR Ali Sovetinin fəxri fərmanına, bir çox medallara, 2003-cü ildə Azərbaycan Respublikası prezidenti tərəfindən prezident təqaüdünə layiq görülmüşdür.

Ceyran xanım Haşımovaya 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Xalq artisti" fəxri adı verilmişdir.

Ansamblın bütün fəaliyyəti mətbuatda, qəzet və jurnallarda qeyd olunmuş, fəxri fərman və diplomlarla təltif olunmuşdur.

HAŞIMOVA MAHİYƏ MÜZƏFFƏR QIZI

Mahiyə Haşımova 1940-cı ildə fəhlə ailəsində anadan olmuşdur. 1959-cu ildə Şəki şəhər 10 saylı orta məktəbi Qızıl medalla bitirib. Həmin ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsinə daxil olub, 1965-ci ildə Fərqlənmə diplomu ilə bitirmişdir.

1965-ci ildən Şəki şəhər mərkəzi uşaq poliklinikasında sahə

həkimi vəzifəsində işləyir. İşlədiyi müddət ərzində həm valideynlərin, həm də rəhbərliyin hörmətini qazanmışdır.

1982-ci ildə sahə həkimlərinin I qurultayının iştirakçısı olmuş, ona qurultayda "Əməkdar həkim" fəxri adı verilmişdir. Elə həmin il "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. 1990-cı ildə "Ali dərəcəli həkim" adı verilmişdir.

Hal-hazırda Şəki şəhər mərkəzi uşaq poliklinikasında sahə pediatrı vəzifəsində çalışır. Sənətinə çox bağlıdır.

Ailəlidir, 2 qız, 1 oğlan övladı var. Övladları ali təhsil almış və cəmiyyətdə layiqli yerlərini tutmuşlar.

Allahına iman edən, ibadətlərini layiqincə yerinə yetirməyə çalışan bir insandır.

HAŞIMOV RƏŞAD MİRHAŞIM OĞLU



Rəşad Haşımov A.Zeynallı adına musiqi texnikumunun "Saz" şöbəsini bitirmişdir.

1993-cü ildə "Rast" qrupunu yaratmış, onun bədii rəhbəridir. Bəstəkardır, "Bakılı oğlanlar"ın (KVN) qrupunun musiqi rəhbəridir. Bütün "Nominasiya"ların qalibidir. Mahnılarından ibarət disk və kosetləri çıxmış, "Yaşa prezidentim", "Azərbaycan" və "Qarabağ" adlı mahnıların da müəllifidir.

2006-cı ildə Rəşad Haşımov Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə "Əməkdar artist" fəxri adına layiq görülmüşdür.

HƏŞİMOV ABİDDİN ABDULLA OĞLU

Həşimov Abiddin 1978-ci ildə anadan olmuşdur. 1991-ci ildə Bakı 44 saylı orta məktəbi bitirmişdir (13 yaşında, gümüş medalla). Həmin il Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə təhsilini ali məktəbdə davam etdirmək üçün Türkiyəyə göndərilmişdir. İstanbul Mərmərə Universitetində 3 il oxuduqdan sonra atasının vəfatı ilə əlaqədar Bakı Dövlət Universitetinə köçürülmüş və 1997-ci ildə bakalavr, 1999-cu ildə magistr pilləsini bitirərək Tətbiqi riyaziyyat istiqamətində "İqtisadi fəaliyyətin riyazi və informasiya təminatı" ixtisası üzrə magistr dərəcəsi almışdır.

O, 1999-cu ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Elmi-tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun aspiranturasına qəbul olunmuşdur. "Aqrar Sektorun Regional İnkişafının Proqnazlaşdırılması Modelinin İşlənməsi Məsələləri" adlı dissertasiya işini başa vuraraq, iqtisad elmləri namizədi elmi dərəcəsi almaq üçün Elmi Şuraya təqdim olunmuşdur. Onun dövrü mətbuatda 5 elmi məqaləsi nəşr edilmişdir.

A.Həşimov 1995-ci ildən 2001-ci ilə qədər Azərbaycan Respublikası Milli Bankında işləmişdir.

O, hal-hazırda Azərbaycan Dövlət Neft Fondunda işləyir.

HƏŞİMOVA AYNURƏ ABDULLA QIZI

Həşimova Aynurə 1979-cu ildə anadan olmuşdur. 44 saylı orta məktəbdə oxumuşdur. 1993-cü ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna daxil olmuş və

1997-ci ildə "Təsviri sənət və rəsmxətin tədrisi" ixtisası üzrə tam kurs bitirmişdir. 1998-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Qrafika fakültəsinə daxil olmuşdur. 2002-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "Sənayenin qrafikası" ixtisası üzrə rəssam bakalavr pilləsini bitirmişdir. Həmin ildə Dövlət Rəssamlıq Akademiyasında Sənətşünaslıq fakültəsinin magistraturasının qiyabi şöbəsinə qəbul olunmuşdur.

A.Həşimova 2005-ci ildə Sənətşünaslıq fakültəsinin İncəsənət tarixi kafedrasında elmi işini başa vuraraq, sənətşünas magistr dərəcəsi almışdır.

O, 1997-ci ildə T.İsmayılov adına Bakı Dövlət Təsviri və tətbiqi sənət rəsm Qalereyasında bölmə müdiri vəzifəsinə işə qəbul olunmuş, 1999-cu ildən hal-hazırkı dövrə kimi Qalereyanın direktoru vəzifəsində işləyir.

A.Həşimova 1998-ci ildən Azərbaycan Dövlət Rəssamlar İttifaqının Gənclər şöbəsinin, 2005-ci ildən Azərbaycan Rəssamlar İttifaqının həqiqi üzvüdür.

O, 2005-ci ildən Azərbaycan Elmlər Akademiyası İncəsənət və Memarlıq Elmi Tədqiqat İnstitutunun qiyabi aspirantıdır.

A.A.Həşimovanın iki elmi məqaləsi "İncəsənət" jurnalında dərc olunmuşdur və H.Əliyev adına MTK 2-ci sinif şagirdləri üçün musiqi kitabının rəsmlərini işləmiş, 3-4-cü sinif şagirdləri üçün rəsm üzrə dərslik kitabının müəllifidir.

A.Həşimovanın kətan üzərində yaratdığı əsərləri dəfələrlə V.Səmədova adına Sərgi salonunda, İncəsənət muzeyində, Türkiyə muzeylərində, Fransada, BƏR-nin sərgi salonlarında nümayiş etdirilmişdir.

HƏMİDLİ TAHİR ƏHMƏDİYYƏ OĞLU

Həmidli Tahir 1953-cü ildə anadan olmuşdur.

1968-ci ildə Şəki şəhər 10 saylı orta məktəbinin 9-cü sinfini bitirmiş və həmin ili Bakıda Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq texnikumuna daxil olaraq, 1972-ci ildə həmin texnikumu bitirmişdir.

1972-ci ildə Daşkənd şəhərində N.Ostrovski poliqrafiya və kitab ticarəti üzrə Dövlət Komitəsində redaktor vəzifəsində işləmişdir.

1978-1980-ci illərdə Şəki şəhər Mədəniyyət şöbəsində rəssam kimi fəaliyyət göstərmiş, 1982-1997-ci illərdə Şəki Dövlət rəsm qalereyasında direktor vəzifəsində işləmişdir.

1984-cü ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü və 1987-ci ildən indiyədək Azərbaycan Rəssamlar İttifaqı Şəki təşkilatının sədridir.

2000-ci ildən Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialında müəllim işləyir.

Şəki Dövlət rəsm qalereyasında işlədiyi müddətdə onun rəhbərliyi ilə İ.Y.Repinin 39 faksimed qrafik əsərinin, həmçinin xalq sənəti nümunələri və digər əsərlərin sərgiləri təşkil edilmişdir.

Şəkidə "Sülh" meydanında "Üç güyümlü" kompozisiyanın və şəki şəhərinin gerbinin layihəsinin müəllifidir.

HƏMİDOV BƏYLƏR ƏBDÜL RƏHİM OĞLU

Həmidov Bəylər 1912-ci ildə xırda sənətkar-boyaqçı ailəsində anadan olub. 1929-cu ildə birinci pillə əmək məktəbini bitirərək, Nuxa şəhər neft fəhləsi fakültəsində təhsil almağa başlayıb.

Oxuya-oxuya katib vəzifəsində çalışıb. Elə həmin ildə də Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqına (ÜİLKGİ), 1932-ci ildə isə Ümumittifaq Kommunist (bolşevik) partiyası sıralarına daxil olub. Fəhlə fakültəsini 1932-ci ildə bitirərək, Azərbaycan Neft İnstitutunun nəqliyyat şöbəsinə qəbul edilib. Bir ildən sonra şöbə bağlandığına görə yenidən Nuxaya qayıdıb. Təhsilini buradakı Ali Kommunit məktəbində davam etdirib. "-Nuxa fəhləsi" qəzetində çalışıb. Eyni vaxtda Nuxa şəhər Komsomol Komitəsi təbliğat-təşviqat şöbəsinin müdiri işləyib.

O, 1933-cü ilin mart ayında Şəhər Partiya Komitəsinin qərarı ilə İpək Kombinatındakı çoxtirajlı qəzetin məsul katibi vəzifəsində fəaliyyətə başlayıb. Qəzetdə bir müddət işlədikdən sonra Bəylər Həmidov Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin Buzovna qəsəbəsindəki partiya fəalları kurslarına göndərilib. Dörd aylıq kursları bitirdikdən sonra 1934-cü ildə Mil düzünə, "Stalinçi pambıqçı" partiya qəzetinə məsul redaktor göndərilib.

B.Həmidov 1935-ci ilin mart ayında isə o, Qızıl Ordu sıralarına çağırılıb. Bununla yanaşı "Kommunist Maarifi" qəzetinin (indiki "Müəllim" qəzeti) mədəni-kütləvi şöbəsinə başçılıq edib. Elə həmin il Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsi yanında birillik Marksizm-Leninizm İnstitutuna daxil olub. Buranı bitirdikdən sonra təhsilini Azərbaycan Farmokologiya İnstitutunda davam etdirib. Lakin Kommunist (bolşevik) Partiyasının Bakı Komitəsi onu Bakının Lenin rayonundakı "Leninçi neftçi" çoxtirajlı qəzetinin məsul redaktoru vəzifəsinə təyin etdiyinə görə təhsilini bitirə bilməyib.

1938-ci ilin martında Həmidov Azərbaycan SSR "Baş Mətbuat Müdirliyi"ndə respublika mətbuatı üzrə siyasi-redaktor-senzor vəzifəsinə təyin olunub. Noyabr ayında isə Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin qərarı ilə yenidən

Nuxa şəhərindəki "Nuxa fəhləsi" qəzetinin məsul redaktoru kimi fəaliyyətə başlayıb. Elə həmin ildə Moskva şəhərində SSRİ Ali Soveti II sessiyasının işə başlaması ilə əlaqədar olaraq Sovet Mətbuatının gənc müxbiri kimi ora ezam edilib.

1939-cu ilin sentyabrında Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsi bürosunun qərarı ilə Həmidov Bəylər Bakıya çağırılaraq Mərkəzi Komitənin təbliğat-təşviqat şöbəsinin mətbuat bölməsinə təlimatçı vəzifəsinə işə götürülüb. Bu vəzifədə o, 1941-ci ilin mart ayına qədər çalışıb. Mart ayında Dövlət Təhlükəsizliyi orqanlarında işləməyə göndərilib. Burada işləyə-işləyə o, 1947-ci ildə Azərbaycan Dövlət Universiteti tarix fakültəsinin qiyabi şöbəsinə daxil olub.

Bəylər Həmidovun fədakar əməyi dəfələrlə dövlət səviyyəsində yüksək qiymətləndirilib, 1944-cü ildə "Qafqazın müdafiəsinə görə", 1946-cı ildə "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində Almaniya üzərində qələbəyə görə", 1948-ci ildə "Sovet Ordusu və Donanmasının 30 illiyi", 1951-ci ildə isə "-Döyüş xidmətlərinə görə" medalları ilə təltif edilib.

Həmidov dövlət və partiya işində səmimiliyi, saflığı sevib. Hələ durğunluq illərində o, partiya iclaslarında çəkinmədən vəzifəli şəxsləri kadrlar seçimində və sairə buraxdıqları səhvlərə görə tənqid atəşinə tutub.

Dövlət Təhlükəsizliyi orqanlarında 13 il işlədikdən sonra 1954-cü ilin may ayında infarkt keçirdikdən sonra Bəylər Həmidov, həmin ilin avqustunda xəstəliyinə görə müvəffəqi olaraq Azərbaycan SSR Rabitə Nazirliyində II şöbənin rəisi vəzifəsinə keçirilib.

Bu vəzifədə çox işləmək ona müəssər olmayıb. Cəmi bir ay çalışıb. 1954-cü ilin oktyabr ayında, 42 yaşında ürək çatışmamazlığından qəflətən vəfat edib.

HƏMİDOV SƏDRƏDDİN QAFUL OĞLU

Sədrəddin Həmidov 1928-ci ildə papaqçı ailəsində dünyaya göz açmışdır.

1949-cu ildə Şəki şəhərinin 5 saylı orta məktəbini müvəffəqiyyətlə bitirmiş və Moskva şəhərində ali məktəbə daxil olmuş, səhhətilə əlaqədar Bakıya dönərək 1950-ci ildə Azərbaycan Sənaye İnstitutunun qaz-neft yataqlarının istismarı fakültəsinə daxil olmuşdur.

1955-ci ildə institutu bitirərək dənizdə - o vaxtlar hələ yeni şöhrət tapmış Neft Daşlarına işləməyə getmişdir. Neft Daşlarının 1 saylı mədəninə 5-ci dərəcəli operator vəzifəsinə qəbul edilmişdir. Neft çıxarma operatoru işlədiyi müddətdə neft çıxarma, neft laylarının istismarı, layların perspektivliyini, quyularda baş verən mürəkkəbləşmələrin əmələ gəlməsini və s. məsələləri dərindən öyrənmişdir.

Bu illərdə mətbuat səhifələrində Həmidov Sədrəddinin haqqında iri həcmli məqalələr, hekayələr dərc edilmişdir. Moskva və xarici dövlətlərin mətbuptlarında Neft Daşları haqqında gedən məqalələrdə Həmidov Sədrəddinin xüsusi yeri olmuşdur.

Həmidov Sədrəddin Neft Daşlarında işlərkən Neft Daşları haqqında gedən məqalələrdə Həmidov Sədrəddinin xüsusi yeri olmuşdur.

Həmidov Sədrəddin Neft Daşlarında işlərkən neftçıxarma sahəsində göstərdiyi fəaliyyətə görə ona "Qırmızı Əmək Bayrağı" ordeni və "Əməkdə fərqlənməyə görə" medalı ilə mükafatlandırılmışdır.

1967-ci ildə yeni açılmış Səngəçal-Duvannı-Bulla-dəniz neft yataqları bazasında yaranmış Nərimanov adına dəniz neft-qaz çıxarma idarəsinə 1 saylı mədənə müdir vəzifəsinə işləməyə gedir.

1973-1976-cı illərdə Nərimanov adına Neft-Qazçıxarma idarəsində Mərkəzi-Mühəndis-Texnoloji idarənin rəisi işləyir.

1976-1983-cü illərdə dənizdə Nərimanov adına neft-qazçı-

xarma idarəsinin baş mühəndisi vəzifəsində işləmişdir. Qeyd etmək lazımdır ki, həmin müddət ərzində həmin idarənin rəisi olmasının təklifini almışdı, lakin ora gələn 6 rəisin heç biri orada işləyə bilməmişdi, ona görə də idarənin rəisi olması təklifini dəfələrlə rədd etmişdi.

1984-1987-ci illərdə Vyetnam Sosialist Respublikasına ezamiyyətə getmişdir. Orada dəniz üzrə baş mütəxəssis kimi və dəniz yataqlarında işləyən mütəxəssislərin təhlükəsizliyinin qorunması üzrə baş idarənin rəisi işləmişdir. Vyetnamda işlərkən özünün təşəbbüskarlığı, bacarığı ilə hamıdan seçilmişdir, birinci neft quyusunun açılışında fəal iştirak etmiş və Vyetnam Dövlət mükafatı almışdır.

1988-ci ildən öz kollektivinə qayıdaraq Səngəçal-Duvannı-Bulla-dəniz yatağında baş mühəndisin müavini vəzifəsində çalışmışdır.

1966-cı ildən ömrünün sonuna kimi Bulla-dəniz Neft və Qazçıxarma idarəsində işləmişdir.

HƏSƏNOV HÜSEYN İLYAS OĞLU



Həsənov Hüseyn 1932-ci ildə anadan olmuşdur.

O, Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib. Ağsuda, Qaxda, Şəkinin bir çox kəndlərində müəllim və dərs hissə müdiri işləmişdir. Dövrünün tanınmış, hörmətli ziyalılarından olub. İşlədiyi müddətlərdə dəfələrlə təşəkkürlər, fəxri fərmanlar alıb.

1970-ci illərdə V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə "Əməkdə fərqlənmə" medalı ilə təltif olunmuşdur.

Həsənov Hüseyn İlyas oğlu 1982-ci ildə vəfat etmişdir.

HƏSƏNOVA SEVDA HÜSEYN QIZI

Həsənova Sevda 1961-ci ildə müəllim ailəsində anadan olmuşdur.

1979-cu ildə Baş Göynük kənd orta məktəbini bitirmiş, 1980-1985-ci illərdə SSRİ-nin 50 illiyi adına ARXDİ-nun ingilis dili fakültəsində təhsil almışdır. Təhsil aldığı müddətdə təhsildə və ictimai işlərdə fəal iştirakı ilə seçilmiş və dəfələrlə təşəkkürlər almış, fəxri fərmanlarla təltif olunmuşdur.

1985-ci ildə Bakı şəhər 8 saylı texniki-peşə məktəbində, 1989-1992-ci illərdə Qaradağ rayon Lökbatan qəsəbəsi 106 saylı məktəbdə müəllim işləmiş, daha sonra 1992-1995-ci illərdə Qaradağ rayonu Lökbatan qəsəbəsindəki 288 saylı məktəbdə tədris hissə müdiri olmuşdur.

1993-cü ildə Azərbaycan Dillər Universitetinin "Ölkəşünaslıq və nitq praktikası" kafedrasında saat hesabı müəllim kimi fəaliyyətə başlamış, 1995-ci ildə isə "Tərcümə" kafedrasında müəllim vəzifəsində çalışmışdır. İndi həmin kafedranın baş müəllimi vəzifəsini aparır.

Bir neçə elmi məqalə və proqramların müəllifidir. Hal-hazırda "Milli koloritin tərcümədə saxlanması" mövzusu üzərində tədqiqat aparır. "Tərcümə" fakültəsi Həmkar Komitəsinin və universitetin əmək intizamı komissiyasının sədridir.

HACI HƏSƏNOV CAMAL QƏDİR OĞLU
(Qədirli Camal)

Qədirli Camal 1903-cü ildə anadan olmuşdur. Oxud məktəbini bitirdikdən sonra 30-cu illərdə Şəkidə "Firqə" məktəbini bitirdikdən sonra "Şəki fəhləsi" qəzetinin redaksiyasında məsul katib

işləmiş və redaksiyanın özək katibi olmuşdur. 1942-ci ilə qədər həmin vəzifədə işləmişdir.

Şəki üzrə Təftiş Komissiyasının üzvü olub. "Qızıl Qələm" Cəmiyyətinin üzvü olub və həmin cəmiyyətin mükafatına layiq görülüb.

C.Qədirli öz yüksək ziyalılığı ilə seçilib. Görgəmli dramaturq Sabit Rəhmanla uzun müddət dostluq etmişdir.

1942-ci ildə "bron"a malik olduğu halda könüllü olaraq Böyük Vətən Müharibəsinin (1941-1945) ön cəbhəsinə yola düşüb. Krım uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

HÜSEYNOV TÖHRAB FƏRRUX OĞLU

Hüseynov Töhrab Fərrux oğlu 1954-cü ildə anadan olmuşdur.

O, 1961-ci ildə Şəki 10 saylı orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 1971-ci ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir.

T.Hüseynov 1963-cü ildə yeddiillik uşaq musiqi məktəbinin tar sinifinə daxil olub, 1968-ci ildə tar ixtisası üzrə tam tədris kursunu bitirmişdir.

Töhrab Hüseynov 1969-cu ildə Şəki musiqi texnikumunun tar sinfinin I kursuna daxil olmuş, 1973-cü ildə həmin texnikumun tar ixtisası üzrə tam kursunu bitirmişdir.

O, 1974-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq çalğı alətləri kafedrasının tar ixtisası üzrə I

kursuna daxil olmuş, 1979-cu ildə həmin Konservatoriyanın tar ixtisası üzrə ali təhsilli tam tədris kursunu bitirmişdir.

Əmək fəaliyyətinə əvvəlcə uşaq bağçalarında, sonralar yeddiillik uşaq musiqi məktəblərində (Şəki və Bakı şəhərlərində), 1969-cu ildən hal-hazıradək 1979-cu ildə isə təyinatla Şəki musiqi texnikumuna göndərilmişdir.

T.Hüseynov 1979-cu ildən 1987-ci illər arası Musiqi texnikumunda şöbə müdiri, 1987-ci ilin yanvar ayından Şəki şəhər Uşaq İncəsənət məktəbində direktor vəzifələrində işləmişdir.

O, 1989-cu ildən hal-hazıradək Şəki musiqi texnikumunda direktor vəzifəsində çalışır.

Dövri mətbuatda Azərbaycan xalq musiqisinin təbliği ilə çıxışlar etmişdir. 1989-cu il Azərbaycan Respublikasının Mədəniyyət Nazirinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Töhrab Hüseynov 1993-cü ildən YAP-ın üzvüdür.

O, I-II-III qurultayın nümayəndəsi olub. Dəfələrlə Respublika Müəllimlər qurultayının üzvü olub. Mütəmadi olaraq xeyriyyəçilik işi ilə də fəal məşğul olur.

HÜSEYNOV ŞİRMƏMMƏD AĞAMƏMMƏD OĞLU

Şirməmməd Hüseynov 1924-cü ildə anadan olmuşdur. 1940-cı ildə Şəki şəhər 2 saylı orta məktəbi bitirmişdir. 1941-1943-cü illərdə Şəki 2 illik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində təhsil almışdır. 1943-1944-cü illərdə Zaqatalanın Varxian, Şəkinin Aşağı Göynük və Oxud orta məktəblərində fizika-riyaziyyat müəllimi işləmişdir. 1944-1945-ci illərdə "Nuxa fəhləsi" qəzetində ədəbi işçi kimi fəaliyyət göstərmişdir.

O, 1945-1950-ci illər ərzində Azər-

baycan Dövlət Universitetinin (indiki BDU) filologiya-jurnalistika şöbəsində təhsil almışdır.

S.Hüseynov 1948-ci ildə "Nizami təqaüdü", 1966, 1972-ci illərdə "Qızıl qələm" mükafatına, 1988-ci ildə "Respublikanın əməkdar jurnalisti" adına layiq görülmüşdür. O, 1991-ci ildə Zərdabi mükafatını, 1992-ci ildə Y.Məmmədəliyev adına mükafat, 1998-ci ildə M.Ə.Rəsulzadə adına mükafat almışdır.

1948-1950-ci illərdə "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri işləmişdir.

Ş.A.Hüseynov 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin aspiranturasında təhsil almışdır və 1954-cü ildə həmin universitetin jurnalistika fakültəsinin Elmi Şurasında, MDU mətbuat tarixi kafedrasının müdiri, professor İ.A.Portyankinin rəhbərliyi ilə "Azərbaycan mətbuatı 1917-1918-ci illərdə" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.

O, 1954-1961-ci illərdə filologiya fakültəsi jurnalistika kafedrasının baş müəllimi, sonra dosenti, 1961-1971-ci illərdə jurnalistikanın nəzəriyyə və təcrübəsi kafedrasının dosenti, 1971-1988-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının dosenti olmuşdur.

1962-1969-cu illərdə ADU-nun (indiki BDU) Filologiya fakültəsinin dekan müavini, 1971-1976-cı illərdə ADU-nun (indiki BDU) jurnalistika fakültəsinin dekanı, 1976-1980-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri, 1988-2004-cü illərdə isə həmin kafedranın professoru vəzifəsində çalışmışdır.

Professor Ş.Hüseynov indiyə qədər 5 dissertantın elmi rəhbəri, 14 dissertasiya işinin rəsmi opponenti, 5 monoqrafiyanın elmi redaktoru olmuşdur.

HÜSEYNOVA ÜLKƏR İBRAHİM QIZI

Ülkər Hüseynova 1937-ci ildə anadan olmuşdur. 1955-ci ildə Bakıdakı Hüseyn Cavid adına orta məktəbi gümüş medalla bitirib, Azərbaycan Dövlət Universitetinin (İndiki BDU) filologiya fakültəsinə daxil olmuş, 1960-cı ildə həmin fakültənin jurnalistika şöbəsini bitirmişdir.

1966-cı ildən bu günədək "Elm və həyat" jurnalında çalışır. 1966-1995-ci illərdə jurnalda şöbə müdiri, redaktor müavini, 1995-1997-ci illərdə isə baş redaktor işləmişdir. Hazırda "Elm və həyat" jurnalında baş redaktorun müavini vəzifəsində çalışır.

Jurnalda işlədiyi müddətdə elmin müxtəlif sahələrindən bəhs edən onlarla yazının müəllifidir. Ü.Hüseynova 1977-ci ildən Azərbaycan jurnalistlər Birliyinin üzvüdür. 1999-cu ildə Açıq Cəmiyyət və Açıq Cəmiyyət İnstitutu ilə Rusiya Federasiyası Təhsil Nazirliyinin birgə layihəsi əsasında hazırlanan, yeni nəsil üçün tədris ədəbiyyatı olan A.Z.Zakın "6, 7, 8, 9 yaşlı uşaqların intellekt qabiliyyətinin inkişaf etdirilməsi" üçcildlik kitabının tərcüməçi və redaktorlarından, "Rusca-azərbaycanca-ingiliscə sənaye kimya lüğəti"nin redaksiya-nəşriyyat qrupunun üzvlərindən biri olmuşdur.

Ü.Hüseynova "Elm və həyat" jurnalında elmin müxtəlif sahələrindən bəhs edən yazılarına və dünya mətbuatındakı elmi yenilikləri Azərbaycan oxucularına çatdırdığına görə Azərbaycan Jurnalistlər Birliyinin diplomuna, Azərbaycan KİV işçiləri Həmkarlar İttifaqının "Qızıl qələm" mükafatına layiq görülmüş və "Vətən" media diplomu ilə təltif olunmuşdur.

2004-cü ildə 17 çap vərəqi həcmində "Elm və həyatın işığında" adlı kitabı çap olunmuşdur. Kitabda tanınmış elm adamları,

Azərbaycan səhiyyəsinin görkəmli xadimləri ilə müsahibələr, elm və texnikanın sürətli inkişafı ilə səciyyələnən XX əsr şəhərlərində təmiz hava problemi, texniki səs-küy, ekologiyanın müasir problemləri; bu yazıların əsas mövzusudur.

O, "Heydər Əliyev və Azərbaycanın kimya sənayesi" (Bakı, 2004), Lütfi Zadənin həyat yoldaşı Fey Zadənin "Qeyri-səlis məntiqin atası ilə həyatım və səyahətlərim" (Bakı, 2006) adlı kitabları rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir.

Ülkər İbrahim qızı Hüseynova hal-hazırda "Mənim məktəbim" adlı sənədli kitab üzərində işləyir.

HÜSEYNOVA LALƏ ŞİRMƏMMƏD QIZI

Lalə Hüseynova 1962-ci ildə anadan olmuşdur. 1969-1980-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil almışdır. 1980-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tarix-nəzəriyyə fakültəsinə daxil olmuş və 1980-ci ildə həmin ixtisas üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

1985-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqında baş məsləhətçi kimi əmək fəaliyyətinə başlamışdır.

1987-ci ildən SSRİ və Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, 1990-cı ildən İdarə Heyətinin üzvüdür.

2002-ci ildən İttifaqın məsul katibidir. Sənətşünaslıq namizədidir (2005). Elmi işi Azərbaycan Bəstəkarlar İttifaqının musiqi mədəniyyətimizin inkişafında, milli bəstəkarlıq məktəbinin təşəkkülü və formalaşmasındakı roluna həsr olunmuşdur. Müxtəlif beynəlxalq və yerli mətbu orqanlarda, dövri mətbuatda 60-dan çox məqaləsi dərc olunmuşdur.

1986-cı ildən televiziyada müxtəlif silsilə musiqi verilişlərinin, habelə ayrı-ayrı musiqiçilərin yaradıcılığına həsr olunmuş verilişlərin ssenari müəllifi və aparıcısıdır.

O, 2005-ci ildən AzTV kanalında "Kino və musiqi" verilişinin ssenari müəllifi və aparıcısıdır.

Lalə Şirməmməd qızı Hüseynova hal-hazırda Bakı Musiqi Akademiyasında və H.Əliyev adına Müasir Təhsil Kompleksində dərs deyir.

HÜSEYNOV QURBAN ZƏKƏRİYYƏ OĞLU

Qurban Hüseynov 1906-cı ildə anadan olmuşdur. O, hələ uşaq yaşlarından oxumağa böyük həvəs göstərdiyindən atası onu molla məktəbinə qoymuşdur. Çox qısa bir zamanda həddən artıq çətin olan ərəb əlifbası ilə yazıb-oxumağı öyrənmiş və xüsusi bacarığına görə özündən qat-qat yaşca böyük olan məktəb yoldaşlarından fərqlənmişdir.

Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan sonra o həmin vaxtlar Şəkidə fəaliyyət göstərən fabrik-zavod peşə məktəbində barama açan. Toxucu peşəsinə yiyələnmiş və Şəki İpək Kombinatında toxucu, usta vəzifələrində işləmişdir. Nümunəvi və fədakar işinə görə çox cavan yaşlarında, 1927-ci ildə Sov.İKP sıralarına qəbul edilmişdir.

1932-ci ildə bir qrup əmək və partiya qabaqcılları ilə birlikdə Ali təhsil almaq üçün Azərbaycan Sənaye İnstitutuna göndərilmiş və qəbul imtahanlarını müvəffəqiyyətlə verdikdən sonra "Sənaye tikintisi" fakültəsinə qəbul edilmişdir.

1937-ci ildə institutu əla qiymətlərlə bitirdikdən sonra yenidən Şəkiyə qayıtmış və doğma şəhərinin bir çox sənaye obyektlərinin və yaşayış binalarının tikintisinə rəhbərlik etmişdir.

1938-1940-cı illərdə Şəki şəhər kommunal-mənzil təsərrüfatına rəhbərlik etmişdir.

1941-1950-ci illərdə Şəki şəhər Partiya Komitəsində və Şəhər İcraiyyə Komitəsində rəhbər vəzifələrdə çalışmışdır.

1950-1952-ci illər ərzində qabaqcıl inşaatçı kimi partiya rəhbərliyi tərəfindən Sumqayıt şəhərinin salınmasında və inkişafında yaxından iştirak etmiş. Sumqayıt şəhər əsaslı tikinti trestinə rəhbərlik etmişdir.

Onun rəhbərliyi və bilavasitə təşəbbüsü ilə Şəki İpək Kombinatının bütün əsas sexləri yenidən qurulmuş, yeni sexlər inşa edilmiş və zamanın tələblərinə uyğun yeni avadanlıqlarla təmin edilmişdir. Bu dövrlərdə Q.Z.Hüseynovun bilavasitə rəhbərliyi ilə 7 minə yaxın işçi kontingenti olan Şəki İpək Kombinatının işçiləri üçün çoxmərtəbəli yaşayış evlərinin inşasına başlanmışdır.

1960-1966-cı illərdə Q.Z.Hüseynov Bakı, Əli-Bayramlı şəhərlərindən çalışmış və uzun müddət bu şəhərlərdə xüsusi təyinatlı tikinti idarələrində rəhbərlik etmişdir.

Q.Z.Hüseynov ömrünün son illərində Bakı Komvol Parça İstehsal kombinatında tikinti-təmir işlərinə rəhbərlik etmişdir.

Q.Z.Hüseynov 1929-1930-cu illərdə Azərbaycanda banditizmə və qaçaqlara qarşı əməliyyatlarda fəal iştirak etmiş və yüksək Dövlət mükafatlarına layiq görülmüşdür.

Q.Z.Hüseynov Böyük Vətən müharibəsi və müharibədən sonrakı dövrlərdə səmərəli fəaliyyətinə görə "Lenin ordeni"nə, "Qırmızı Əmək Bayrağı ordeni"nə, "Şərəf nişanı"na, "Əmək rəşadəti" ordeninə, "Qafqazın müdafiəsinə görə", "Berlinin alınmasına görə" və s. orden və medallarla təltif edilmişdir.

O, dəfələrlə Şəki və Sumqayıt Zəhmətkeş Deputatları Sovetlərinin deputatı, Şəki və və Sumqayıt Şəhər Partiya bürolarının üzvü olmuşdur.

Azərbaycan, rus, türk və ərəb dillərində sərbəst danışıb, yazdığına görə o dövrlərdə istər doğma şəhəri Şəkidə, istərsə də çalışdığı başqa kollektivlərdə görkəmli ziyalı, mütəxəssis kimi böyük rəğbət və hörmətə malik olmuşdur.

Q.Z.Hüseynov 1995-ci ilin avqustun 1-də ömrünün 90-cı ilində Şəkidə vəfat etmiş və orada da dəfn olunmuşdur.

HÜSEYNOVA CƏMİLƏ SALMAN QIZI

Cəmilə Hüseynova 1952-ci ildə anadan olub.

1970-ci ildə Azərbaycan Dövlət Dillər İnstitutuna qəbul olmuşdur. 1974-cü ildə İnstitutu müvəffəqiyyətlə bitirmiş və təyinatı üzrə Şəki şəhərinə göndərilmişdir.

Qaradağlı və Babaratma kəndlərində ilk dəfə ingilis sinifləri təşkil etmişdir. Həmin kəndlərdə işlədiyi müddətdə öz fədakar əməyi ilə istər məktəb şagirdləri və müəllimlərin, istərsə də müəllim kimi fəaliyyət göstərdiyi kənd əhlinin hörmət və rəğbətini qazanmışdır.

1981-ci ildə həyat yoldaşının Bakı şəhərində işləməsi ilə əlaqədar olaraq Bakı şəhərinə köçmüş və həmin vaxtdan hal-hazırkı dövrə qədər Bakı şəhəri Qaradağ rayonu 106 saylı orta məktəbdə ixtisası üzrə müəllimə işləyir. Zəngin əməyi, əməksevərliyi sayəsində, kollektivin üzvləri ilə səmimi və mehribn münasibətlər qura bilməsinin nəticəsi olaraq işlədiyi 106 saylı məktəbdə qısa müddətdə say-seçmə müəllimlər cərgəsinə yüksələ bilmiş və kollektiv onu metodbirləşmə rəhbəri seçmişdir. O, işlədiyi kollektivi və eləcə də Qaradağ rayonunun müəllimlər ordusunu ləyaqətlə təmsil edir.

Hal-hazırda öz fəaliyyətini davam etdirir.

HÜSEYNOV İSA ZİLFAY OĞLU

İsa Hüseynov 1950-ci ildə anadan olmuşdur. Orta təhsilini həmin kəndin 2 saylı məktəbində almışdır.

1967-ci ildə Bakı şəhəri "Azərnəqliyyat Tikinti Tresti"ndə əmək fəaliyyətinə başlamışdır. Eyni zamanda Azərbaycan Neft

Kimya İnstitutunun mühəndis-iqtisad fakültəsinə qəbul olunmuş və təhsilini axşam şöbəsində davam etdirmişdir. 1971-ci ilin oktyabr ayında "İliç Buxtası" (yeni "Bayıl limanı") Dəniz Kəşfiyyat Qazma İdarəsində mühəndis-iqtisadçı vəzifəsinə işə qəbul olunmuşdur.



1974-cü ilin noyabr ayından 1975-ci ilin oktyabr ayına qədər ordu sıralarında hərbi xidmətdə olmuşdur. Ordudan qayıtdıqdan sonra həmin idarədə əmək fəaliyyətini davam etdirmişdir.

1977-1979-cu illərdə plan-iqtisad şöbəsinin rəisi olmuşdur.

1979-cu ilin noyabr ayından 1981-ci ilin avqust ayına qədər həmin idarənin partiya komitəsinin katibi işləmişdir. 1981-1983-cü illərdə istehsalatdan ayrılmaqla Bakı Ali Partiya məktəbində təhsilini davam etdirmişdir. 1983-cü ildən 1991-ci ilin may ayına qədər partiya işində işləmiş və iyun ayından "Bayıl limanı" Dəniz Kəşfiyyat Qazma İdarəsində iqtisadiyyat üzrə rəis müavini təyin olunmuşdur və hal-hazıra qədər işləyir.

Burada çalışdığı illərdə neft sahəsindəki uğurlu fəaliyyətinə görə, keçmiş SSRİ Ali Soveti rəyasət heyətinin fərmanı ilə, "Əmək rəşadəti" medalı ilə təltif olunmuşdur.

HUSUİNOV QƏNİ MƏCİD OĞLU

Qəni Husuinov 1913-cü ildə anadan olmuşdur. O, ibtidai təhsilini Nuxa şəhər (indiki Şəki şəhəri) 1 saylı məktəbdə, orta təhsilini isə Nuxa-nümunə zəhmət məktəbində almışdır.

1930-cu ildə Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna (indiki Kənd Təsərrüfatı Akademiyası) daxil olmuş, 1934-cü ildə həmin institutun "Cənub texniki bitkiləri" fakültəsini aqronom ixtisası üzrə başa vurmuşdur.

İlk əmək fəaliyyətinə 1934-cü ildə başlamışdır.

1934-1937-ci illərdə Azərbaycan Tütün Təcrübə Stansiyasında kiçik elmi işçi, Masallı tütün dayaq məntəqəsinin müdiri.



1937-1941-ci illərdə Nuxa Kənd Təsərrüfatı Texnikumunda tədris təsərrüfatı müdiri və müəllim vəzifəsində çalışmışdır.

1941-1945-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

1945-1947-ci illərdə Şəki rayon Torpaq şöbəsində sahə aqronomu, sonra isə rayon texniki bitkilər şöbəsinin baş aqronomu vəzifəsində işləmişdir.

1947-1951-ci illərdə Azərbaycan tütün təcrübə stansiyasında şöbə müdiri, 1951-1956-cı illərdə MTS-də aqronom, sonra kolxozda aqronom işləmişdir.

1956-1958-ci illərdə kənd təsərrüfatı bitkilərinin dövlət sınaq məntəqəsi müdiri vəzifəsində çalışmışdır.

1958-1965-ci illərdə Şəki Meyvə tingliyi sovxozunda direktor, 1965-1967_ci illərdə Şəki rayon Kolxoz-Sovxozlar İstehsalt İdarəsinin rəisi, 1968-1971-ci illərdə Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin Bağçılıq İdarəsində baş aqronom vəzifəsində çalışmışdır.

1971-1980-ci illərdə Şəki təsərrüfatlararası bağçılıq müəssisəsində direktor vəzifəsində işləmişdir.

Husuinov Qəni Məcid oğlu Xalq Deputatlar Soveti İcraiyyə Komitəsinin deputatı olmuş və əmək fəaliyyəti dövründə daim müxtəlif kənd təsərrüfatı təşkilatları və müəssisələrində rəhbər vəzifələrdə çalışmışdır.

Qəni Husuinov 1987-ci il 6 iyun tarixində vəfat etmişdir.

XALIQOV FİKRƏT RAMAZAN OĞLU

Fikrət Xalıqov 1949-cu ildə anadan olmuşdur. O. 1966-cı ildə Baş Layısqı kəndindəki orta məktəbi bitirmiş və M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitunun Avropa dilləri fakültəsinin alman-Azərbaycan dilləri ixtisasına qəbul olunmuş və oranı 1971-ci ildə müvəffəqiyyətlə bitirmişdir.

Nəsimi adına Dilçilik İnstitutunda kiçik elmi işçi, elmi işçi, şöbə müdiri vəzifələrində işləmişdir. İnstitutun ictimai həyatında fəal iştirak etmiş, 1998-1990-cı illərdə həmkarlar komitəsinin sədri vəzifəsinə seçilmişdir, Azərbaycan Texniki Universitetində (AzTU) dosent kimi fəaliyyət göstərmişdir.

Moskva, Ufa, Daşkənd, Gülüstan, Mahaçkala və başqa şəhərlərdə keçirilmiş simpozium və konfranslarda iştirak etmişdir. Tez-tez namizədlik işlərinin müdafiəsində rəsmi-opponent kimi çıxış edir.

Xalıqov Fikrət Ramazan oğlu "Azərbaycan dilinin folklor onomastikası" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə 2004-cü ildə mydafiə edərək, filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır.

Hal-hazırda Azərbaycan Müəllimlər İnstitutunda (AMİ) "Ədəbiyyat" kafedrasının müdiri vəzifəsində uğurla fəaliyyətini davam etdirir.

F.Xalıqov 2 cildlik "Şəki. Alim və Ziyalılar" kitabının tərtibçilərindən biridir və maraqlananlar onun haqqında bu kitabın birinci cildindən daha ətraflı məlumat əldə edə bilərlər.

XASMƏMMƏDOV FATİQ İSA OĞLU

Fatiq Xasməmmədov 1934-cü ildə qulluqçu ailəsində anadan olmuşdur. Hələ uşaq ikən atasını itirmiş və anası ilə birlikdə doğma Nuxa (indiki Şəki) şəhərinə köçmüşlər.

1942-ci ildə Şəkidə 10 saylı orta məktəbin birinci sinifinə getmiş və 1952-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirdikdən sonra o dövrün ən nüfuzlu ali məktəblərindən biri olan M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) Neft mexanika fakültəsinin "Neft və qaz proseslərinin emalının avtomatlaşdırılması" ixtisası üzrə təhsilini davam etdirmişdir. İnstitutda S.M.Kirov adına təqaüdlə oxumaqla yanaşı o, elmi axtarışlara böyük maraq göstərmiş və institut tələbə elmi cəmiyyətinin fəal üzvlərindən biri olmuşdur. Dəfələrlə institut və respublika miqyasında keçirilən tələbə elmi konfranslarında maraqlı məruzələrlə çıxış etmiş, müvafiq elm sahələrinin aparıcı mütəxəssislərinin diqqətini cəlb etmişdir.

F.İ.Xasməmmədov 1957-ci ildə institutu fərqlənmə diplomu ilə bitirdikdən sonra Azərbaycan EA Yesman adına Energetika institutuna göndərilmiş və kiçik elmi işçi vəzifəsinə qəbul edilmişdir. Bir neçə il orada işlədikdən sonra aspirantura qəbul edilmiş və daha ciddi tədqiqat işləri ilə məşğul olmağa başlamışdır. Tezliklə onun tədqiqatları öz nəticəsini vermiş və o, 1964-cü ildə bilavasitə neft emalı prosesləri ilə bağlı olan "Bir və çoxaxınlı qızdırıcı borulu sobaların avtomatik tənzimləyicisi obyekti kimi tədqiqatı və onların avtomatlaşdırma sxemləri" adlı çox maraqlı dissertasiya işini "Energetika və İstehsal Proseslərinin Avtomatladırılması" birləşmiş Elmi Şurada müvəffəqiyyətlə müdafiə etmiş və AAK-nın qərarı ilə ona texnika elmləri namizədi alimlik dərə-

cəsi verilmişdir. Həmin ildən o, M.Əzizbəyov adına Neft və Kimya institutunun "İstehsal Proseslərinin Avtomatlaşdırılması" kafedrasına müəllim keçmişdir. 1969-cu ildən həmin kafedranın dosenti seçilmiş və ömrünün axırına qədər orada çalışmışdır. 1972-ci ildə onun İ.Ə.İbrahimov ilə birlikdə yazdıqları "Avtomatik tənzimləmə nəzəriyyəsinin əsasları və istehsal proseslərinin avtomatlaşdırılması" dərsliyi bu gün də müvafiq elm sahələrində çalışan alim və mütəxəssislərin, aspirantların və tələbələrin stolüstü kitabıdır. Bundan başqa o, bir sıra metodik vəsait və kitabçaların da müəllifidir ki, bunlardan ikisi 1972 və 1977-ci illərdə Moskvada çap edilmişdir.

1980-ci ildə F.İ.Xasməmmədovun Moskvanın "Kimya" nəşriyyatında "Borulu sobaların idarə edilməsinin avtomatlaşdırılması" adlı 216 səhifəlik monoqrafiyası da çap edilmişdir.

F.İ.Xasməmmədov 93 elmi əsərini çap etdirmişdir ki, onların ümumi həcmi 81 çap vərəqidir. Bundan başqa onun 4 işi keçmiş SSRİ-nin ixtiralar və kəşflər komitəsinin müəlliflik şəhadətnamələrinə layiq görülmüşdür. Onun əsas əsərləri dünyanın və keçmiş SSRİ-nin aparıcı elmi mərkəzlərində çap edilmiş və bu da onun o zaman ümumittifaq miqyasında yüksək səviyyəli mütəxəssis kimi tanınmasına imkan vermişdir.

F.İ.Xasməmmədov daima elmi-tədqiqat işlərini davam etdirərək texnika elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini başa çatdırmış və fakültə elmi şurasında müzakirə etmişdir. Lakin amansız ölüm ona bu arzusuna çatmağa imkan vermədi. 1980-ci il fevralın 8-də ömrünün və elmi yaradıcılığının çiçəkləndiyi bir vaxtda avtomobil qəzasına düşərək faciəli şəkildə dünyasını dəyişmişdir.

XASMƏMMƏDOVA GÜLNARƏ FATİQ QIZI

Xasməmmədova Gülnarə 1960-cı ildə müəllim ailəsində anadan olmuşdur. 1977-ci ildə Bakı şəhəri 70 saylı orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan

Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) "İstehsal proseslərinin avtomatlaşdırılması" fakültəsinin əyani şöbəsinə qəbul olunmuşdur. 1982-ci ildə "Avtomatik idarəetmə" sistemləri" ixtisası üzrə institutu fərqlənmə diplomu ilə bitirdikdən sonra Gülnarə xanım Elmlər Akademiyasının "Avtomatlaşdırılmış idarəetmə sistemləri" şöbəsində mühəndis kimi əmək fəaliyyətinə başlamışdır.

1988-ci ildən ömrünün sonuna qədər ADNA-nın "Avtomatika, telemexanika və elektronika" kafedrasında ardıcıl olaraq kiçik elmi işçi, elmi işçi, assistent və dosent vəzifələrində çalışmışdır.

1995-ci ildə namizədlik dissertasiyası müdafiə etmiş və texnika elmləri namizədi elmi dərəcəsi almışdır. Apardığı elmi işlərin əsas istiqamətləri müasir avtomatlaşdırılmış nəzarət və idarəetmə sistemlərində, eləcə də, elmi təcrübənin və sənaye sınaqlarının avtomatlaşdırılmış sistemlərində mikrorprosessor texnikasının geniş tətbiqinə imkan yaradan səmərəli diskret analiz alqoritmlərinin və qurğularının təhlili, sintezi və yaradılmasına həsr edilmişdir.

G.Xasməmmədova 20-dən çox elmi əsərin, 4 sayda müəlliflik şəhadətnaməsi və bir neçə tədris vəsaitinin müəllifi olmaqla yanaşı Azərbaycanın elmi ictimaiyyətini bir sıra beynəlxalq elmi konfrans və simpoziumlarda layiqincə təmsil etmişdir. Onun elmi araşdırmalarının nəzəri və praktiki nəticələri asinxron mühərriklərin kütləvi istehsalında sınaq diaqnostikasının avtomatlaşdırılmış sisteminin yaradılmasında, məişət kondisionerlərinin kompressor mühərriklərinin stator dolaqlarının elektrik xarakteristikalarının təyin olunması üçün istifadə olunan avtomatik qurğuda, eləcə də ADNA-nın müvafiq kafedralarının tədris prosesində istifadə olunmuşdur.

2001-ci il dekabrın 8-də faciəli şəkildə dünyasını dəyişib.

XƏLİFƏZADƏ MAHİR ÇİNGİZ OĞLU

Mahir Xəlifəzadə 1962-ci ildə anadan olmuşdur. O, 1979-cu ildə Bakı şəhəri 20 saylı orta məktəbi əla qiymətlərlə bitirmişdir. Mahir Xəlifəzadə 1984-cü ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. 1984-1987-ci illərdə Azərbaycan Milli Elmlər akademiyasının (AMEA) akademik A.Qarayev adına Fiziologiya İnstitutunun əməkdaşı olmuşdur.

1988-1992-ci illərdə SSRİ EA-nın Moskvadakı Beynəlxalq Bioloji Tədqiqatlar Mərkəzinin Nəzəri və Təcrübi Biofizika İnstitutunda məqsədli aspiranturasında təhsil almışdır.

O, həmin institutda, 1992-ci ildə "Görə prosesinin molekulyar əsasları" mövzusunda müvəffəqiyyətlə dissertasiya müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. Bu dissertasiya işində insanın görmə prosesinin fiziki əsaslarını öyrənmə və görmə prosesində baş verən biofiziki hadisələrin molekulyar səviyyədə mahiyyəti açıqlanmışdır. 1993-cü ildə AMEA-nın Fiziologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmışdır.

M.Xəlifəzadə 1993-cü ildə Azərbaycan Respublikası Ali Soveti yanında Humanitar Tədqiqatlar və Proqnozlaşdırma Mərkəzində beynəlxalq münasibətlər problemləri üzrə analitik qrupun rəhbəri olmuşdur.

1994-cü ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Avropa, ABŞ və Kanada İdarəsinin ABŞ sektoruna II katib vəzifəsinə təyin olunmuşdur. Həmin ilin sentyabr ayında Yaponiya XİN tərəfindən təşkil olunmuş diplomatik kurslarda iştirak etmiş və Yaponiyanın Yeni Müstəqil Dövlətlərinin siyasətinə dair Yaponiya XİN-nin Sertifikatına layiq görülmüşdür.

1995-1997-ci illərdə Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyində siyasi məsələlər üzrə II katib vəzifəsində işləmişdir. Dövlət departamenti və Konqresi ilə əlaqə yaratmış, Azərbaycana məxsus olan məsələlərin həllinə çalışmışdır.

1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi-işgüzar səfərində iştirak etmişdir. Həmin ilin avqust ayında xidməti ezamiyyəti başa çatmış, Avropa, ABŞ və Kanada İdarəsinin ABŞ sektoruna II katib vəzifəsinə təyin olunmuşdur. Sentyabr ayında Yunanıstan XİN tərəfindən təşkil olunmuş diplomatik kurslarda iştirak etmiş, Avropa Birliyinin siyasətinə dair Yunanıstan XİN-in Sertifikatını almışdır.

1999-cu ilin yanvar-mart aylarında XİN-nin xətti ilə ATƏT-in Kosovodakı missiyasına ezam olunmuşdur. Kosovodakı fəaliyyətinə görə ATƏT-in Baş Katibi C.K.Araqona tərəfindən fəxri diploma layiq görülmüşdür.

2000-ci ilin oktyabr ayında İsveç XİN tərəfindən təşkil olunmuş diplomatik kurslarda iştirak etmiş, İsveç Avropa Birliyində siyasətinə dair İsveç XİN-nin sertifikatına nail olmuş, elə həmin ilin fevral ayında ABŞ və Kanada şöbəsinin I katibi (müdir əvəzi) vəzifəsinə təyin olunmuşdur.

2002-ci ilin fevral ayının 25-də İkinci Ərazi İdarəsinin Orta Şərq və Cənubi Asiya şöbəsinə I katib vəzifəsinə (müdir müavini) təyin olunmuşdur.

2004-2006-cı illərdə Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İslandiya Krallığındakı səfirliyinə siyasi məsələlər üzrə I katib vəzifəsində çalışmış, işlədiyi müddətdə İsveç və İrlandiya ilə bağlı məsələlərlə məşğul olmuş, həmçinin, Azərbaycan tərəfindən Böyük Britaniya və Şimali İrlandiya Krallığının Kraliçası II Yelizavetanın Britaniyada akkreditə olunmuş diplomatlarına həsr olunmuş qəbulunda iştirak etmiş və 2004-cü ilin noyabr ayında Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyevin bu krallığa işgüzar səfərində iştirak etmişdir.

O, 2005-ci ildə AR-nın XİN tərəfindən dünya azərbaycanlı-

larının İsveçdə keçirilən 8-ci konqresinə ezam olunmuşdur. M.Xəlifəzadəyə 2006-cı il iyun ayında XİN-də Müşavir diplomatik rütbəsi verilmişdir.

Mahir Xələfzadə 2006-cı ilin dekabr ayından bu günə kimi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi I Avropa şöbəsinin müdiri vəzifəsində çalışır.

M.Ç.Xəlifəzadə yerli və xarici jurnallarda beynəlxalq münasibətlərə dair nəşr olunmuş bir sıra məqalələrin müəllifidir.

XƏLİLOV CƏLİL ƏLİHEYDƏR OĞLU

Cəlil Xəlilov 1924-cü ildə anadan olmuşdur. Orta təhsilini M.F.Axundov adına məktəbdə almışdır. 1940-cı ildə orta məktəbi bitirdikdən sonra ikiillik Müəllimlər İnstitutunda təhsilini davam etdirib, tərcümə işinə də elə həmin vaxtdan başlayıb.

M.F.Axundovun "Hacı Qara"sından bəzi səhnələri rus dilinə çevirmişdir. Azərbaycan dilindən rus dilinə tərcümə etməklə özünü bu peşəyə daha sıx tellərlə bağlamışdır. Böyük Vətən müharibəsinin ən ağır vaxtlarında dörd il döyüş cəbhəsində olmuşdur. Göstərdiyi rəşadətlərə görə orden və medallarla təltif edilmişdir.

1946-cı ildə ordudan tərxis olunan C.Xəlilov doğma Şəkiyə qayıdıb və oradakı M.Qorki adına orta məktəbdə rus dilindən dərs deyib.

1950-ci il 22 sentyabr tarixli qərarına əsasən A.Əfəndiyev, Ə.Abbasov, M.Tağızadə, V.Hacıoğlu ilə birlikdə C.Xəlilov da Azərbaycan Teleqraf Agentliyinin tərcüməçilər və redaktor qrupunda fəaliyyətə başlaüır. Az sonra Azərinformun (AzərTAC) direktor müavini təyin olunur. Sonrakı illərdə C.Xəlilov Azər-

baycan KP MK yanında Partiya Tarixi İnstitutunun baş elmi işçisi, tərcüməçi-redaktor, "Kommunist" qəzeti redaksiyasında tərcümə şöbəsinin müdiri işləmiş, təqaüdə çıxdıqdan sonra isə respublika Statistika Komitəsində və AzərTAC-da tərcüməçi-redaktor vəzifəsini yerinə yetirmişdir.

Cəlil Xəlilovun fədakar əməyi vaxtilə Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri, Azərbaycan Ali Sovetinin fəxri fərmanları ilə qiymətləndirilib. Ona respublikanın "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib. O, "Ustad sənətkar" ali jurnalist mükafatına layiq görülüb. "Əsrin müqaviləsi"ni və son illərin bir sıra beynəlxalq sənədlərini yüksək səviyyədə tərcümə etdiyinə görə aldığı rəsmi təşəkkürlər də bu qəbildəndir.

XƏLİLOV RÜFƏT QAFFAR OĞLU

Rüfət Xəlilov 1926-cı ildə anadan olmuşdur.

1936-1946-cı illərdə Şəki 10 saylı orta məktəbdə təhsil almışdır.

1946-cı ildə Şəki Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, oranı 1948-ci ildə ipəkçi-aqronom ixtisası üzrə bitirmişdir.

1948-1952-ci illərdə Şəki Dövlət Təhlükəsizliyi Komitəsinin xüsusi məktəbini qurtarmış və 1960-cı ilin ortalarına kimi Dövlət Təhlükəsizliyi Komitəsində (DTK) xidmətdə olmuşdur.

1960-1962-ci illərdə Şəki şəhər Partiya Komitəsində təlimatçı işləmiş, 1961-1966-cı illərdə Ali Partiya Məktəbində oxumuşdur.

Kiyev və Daşkənd şəhərlərində rəhbər işçilərinin təkmilləşdirilməsi kurslarını qurtarmışdır. 1986-cı ilin sentyabr ayında DTK-dan polkovnik-leytenant rütbəsində təqaüdə çıxmışdır.

1986-1987-ci illərdə Azərbaycan Elmlər Akademiyasında (indiki AMEA) kadr və aspirantura şöbəsinin rəisi, 1988-1994-cü illərdə isə Azərbaycan Neft Kimya İstehsalat Birliyində və Rabitə Nazirliyinin (indiki Azərkimya İB və Azərbaycan Rabitə və

İnformasiya Texnologiyası Nazirliyi) mülki müdafiə qərargah rəisi işləmişdir.

Dəfələrlə Şəki, Qazax rayon sovetlərinin deputatı olmuşdur. Bir çox orden və medallarla təltif edilmişdir.

1994-cü ildən təqaüddədir, Milli Təhlükəsizlik Nazirliyinin veteranıdır.

İBADZADƏ QAFAR MƏMMƏD OĞLU

Qafar İbadzadə 1903-cü ildə anadan olmuşdur. İlk təhsilini mədrəsədə almış, sonra 6 saylı məktəbi qurtarmış və 1920-ci ildə Şəki Pedaqoji Texnikumuna daxil olub, 1925-ci ildə texnikumu bitirmişdir. Texnikumu bitirdikdən sonra orta məktəbdə müəllimlik etmişdir.

1925-ci ildə Azərbaycan Pedaqoji İnstitutuna daxil olub oranı 1932-ci ildə bitirir. İnstitutu qurtardıqdan sonra 1934-cü ilə qədər müəllimlərin təkmilləşmə institutunun qiyabi şöbəsində müəllim və metodist kimi işə başlayır.

1936-cı ildən 1940-cı ilə qədər AzSSR Xalq Komissariyatında müəllimlərin hazırlıq şöbəsində ali məktəb və texnikumların tədrisi proqramlarının hazırlanması sahəsində elmi işçi vəzifəsində çalışmışdır. 1940-cı ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Botanika İnstitutunda aspiranturaya daxil olmuşdur. Aspiranturada təhsilini davam etməklə Azərbaycan qiyabi Pedaqoji İnstitutunun baş müəllim və kafedra müdiri kimi fəaliyyət göstərmişdir.

1942-ci ildən 1945-ci ilə qədər 4 il Böyük Vətən Müharibəsində iştirak etmişdi. Müxtəlif medallarla: "Döyüşdə xidməti", "Rəşadətə görə", "Qafqazın müdafiəsi üçün", 1941-1945-ci illərin "Böyük Vətən Müharibəsində Almaniya üzərində Almaniya üzərində qələbə" medalları ilə təltif olunmuşdur.

Müharibədən sonrakı illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Botanika afedrasında baş müəllim işləmişdir. Ömrünün 33 ilini müəllim kadrların yetişdirilməsinə həsr etmişdir. Maarif sahəsindəki xidmətlərini nəzərə alaraq o "Qabaqcıl maarif xadimi" nişanı ilə təltif edilmişdir.

1964-cü ildən Azərbaycan Sovet Ensiklopediyasında biologiya şöbəsində müdir vəzifəsində çalışmışdır.

İşlədiyi müddətdə İbadzadə Q. bir çox elmi əsərlərin və metodik monoqrafiyaların müəllifi olmuşdur.

İBRAHİMOVA VALİDƏ YAQUB QIZI

Validə İbrahimova 1931-ci ildə müqəddəs "Qırxlar" nəslindən sayılan Yaqub İbrahim oğlu Qaffarovun (Yar oğlu Yaqubun) ailəsində dünyaya göz açmışdır. Nuxa şəhərindəki 5 saylı orta məktəbi bitirdikdən sonra 1948-53-cü illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) ali təhsil alaraq tarixçi ixtisasına yiyələnmişdir.

1953-1965-ci illərdə Bakıdakı Lenin muzeyində elmi işçi vəzifəsində çalışmışdır. 1965-1969-cu illərdə Bakıdakı "Səadət" sarayının direktoru vəzifəsində işləmişdir. 1969-cu ildən elmi-pedaqoji fəaliyyətə başlayan V.İbrahimova 28 il müddətində N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki Azərbaycan Dövlət Tibb Universiteti) siyasi iqtisad fakültəsində baş müəllim işləmişdir. O, vəzifəsinə yüksək məsuliyyətlə yanaşan, etibar edilən sahənin öhdəsindən bacarıqla gələn kadr kimi tanınmışdır.

V.İbrahimova işlədiyi illərdə fəal ictimai-siyasi fəaliyyət göstərmiş, xüsusilə qadın hərəkatında faydalı işi ilə fərqlənmişdir. V.İbrahimova Bakı Şəhər Qadınlar Şurasının ən fəal üzvlərindən biri kimi ictimai, siyasi və maarifçilik işi aparır, sözün həqiqi mənasında əsl ziyalılıq edirdi. Yüksək ədəb-ərkanı, insanlarla ünsiyyət yaratmaq mədəniyyəti, xeyirxahlığı ilə seçilən V.İbrahimova işlədiyi kollektivlərin və ictimaiyyətin böyük hörmətini qazanmışdı. İnsanlara kömək əlini uzatmaq, dara düşənlərə, çıxılmaz vəziyyətə mübtəla olanlara istiqamət vermək, arxa olmaq, onun həyat qayəsinə çevrilmişdi.

V.İbrahimova 1998-ci ildə vəfat etmişdir.

İBRAHİMOVA XALİDƏ YAQUB QIZI

Xalidə İbrahimova 1934-cü ildə Nuxa şəhərində anadan olmuşdur. Atası "Otaq eşiyi" məhəlləsində məskunlaşmış "Yar oğlu Yaqub" təxəllüsü ilə tanına Yaqub İbrahim oğlu Qaffarov, anası Qaffarova Həyat Hüseyn qızı idi. Yaqub Qaffarov müsəlman dünyasında müqəddəs sayılan "Qırxlar" nəslindən olub, bu ailədə onun sonuncu yadigarı idi. Türk dünyasının böyük şairi Yunus İmrə "Güldəstə" şerlər toplusunda "Qırxlar"la bağlı fərziyyələrə belə aydınlıq gətirir:

Yenə sordum çiçəkdən,
Bilirmisən Qırxları?
Çiçək dedi, ey Dərviş,
Qırxlar Allah yarıdır.

Görünür "Qırxlar"ın Allah "yarı" sayılması ilə bağlı Yaqub İbrahim oğluna "Yar oğlu", onun mənsub olduğu nəslə isə "Yar uşağı" "Yarılar" ləqəbi verilmişdir.

X.İbrahimova Nuxa şəhərindəki 5 saylı orta məktəbi bitirdikdən sonra bir müddət V.İ.Lenin adına Nuxa İpək Kombinatında mühasibat işində işləmiş, eyni vaxtda fəal ictimai işlərə qoşulmuş, bu sahədə güclü təşkilatçılıq potensialına malik olduğun göstərmişdir. O, İpək Kombinatının komsomol komitəsinin katibi, 1957-ci ildə isə Şəki şəhər Komsomol Komitəsinin ikinci katibi seçilmişdir. Onun təşkilatçılıq keyfiyyətləri şəhərin və kombinatın rəhbərliyi tərəfindən qiymətləndirilmiş, gələcəkdə ictimai-siyasi xadim, dövlət xadimi kimi hazırlanması məqsədilə ali siyasi təhsil almaq üçün Bakı Ali Partiya məktəbinə göndərilir. Buranı bitirdikdən sonra Kombinat Həmkarlar İttifaqı Komitəsinin sədri, sonralar Partiya Komitəsinin katibi vəzifəsinə seçilən X.İbrahimova bir müddət sonra Daşkəsən rayon Sənaye-İstehsalat İdarəsi Partiya Komitəsi katibinin müavini vəzifəsinə irəli çəkilir. Bir neçə il bu vəzifədə işlədikdən sonra səhhətilə əlaqədar yenidən Şəkiyə, V.İ.Lenin adına İpək Kombinatı Partiya Komitəsinin katibi vəzifəsinə qayıdır, eyni zamanda Nuxa şəhər partiya Komitəsinin Bürosunun üzvü seçilir. X.İbrahimova daşıdığı vəzifələrdə özünü bilikli və səriştəli rəhbər işçi, bacarıqlı təşkilatçı, insanlarla ünsiyyət yaratmağı, onlara düzgün istiqamət verməyi bacaran xeyirxah, həssas insan kimi göstərmişdir. O, Şəkinin və Daşkəsənin sosial-iqtisadi problemlərinin, insanların ehtiyac və qayğılarının həllində bacarığını əsirgəməmişdir. X.İbrahimova "Əməkdə fərqlənməyə görə" və 1970-ci ildə "V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə. Rəşadətli Əməyə görə" medalları ilə təltif edilmişdir. Dəfələrlə Şəki şəhər Sovetinin deputatı seçilmişdir. X.İbrahimova D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (qiyabi) bitirərək iqtisadçı-mühəndis ixtisasına da yiyələnmişdi.

Gözəl nitq və ünsiyyət mədəniyyətinə, insani keyfiyyətlərə, ədəb-ərkana malik olan X.İbrahimova əsl azərbaycanlı qadına və ziyalıya xas olan dəyərli xüsusiyyətləri özündə əxz etmişdi. Böyük nüfuz sahibi olan şəxsiyyət idi. O, şəxsi keyfiyyəti, qeyriadi təşkilatçılıq və rəhbərlik bacarığı sayəsində daha böyük mənsəb astanasında idi. Lakin vaxtsız ölüm buna imkan vermədi. O, 1970-ci ilin sentyabr ayında 36 yaşında dünyasını dəyişdi.

İBRAHİMOV RİZVAN PAŞA OĞLU

Rizvan İbrahimov 1929-cu ildə anadan olmuşdur. O, 1947-ci ildə Şəki Kənd Təsərrüfatı texnikumunun tütünçülük şöbəsini fərqlənmə diplomu ilə burada təşkil edilmiş 6 aylıq baytar-feldşer kursunu bitirmişdir.

1952-ci ildə Azərbaycan Kənd Təsərrüfat İnstitutunun baytarlıq fakültəsini bitirib baytar həkimi ixtisasına yiyələnmişdir.

R.P.İbrahimov 1960-cı ilə qədər Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin arıçılıq idarəsində rəis müavini işləmiş və sonralar Azərbaycan Elmi-tədqiqat Baytarlıq İnstitutuna işə keçmiş, 1965-ci ilə kimi baş elmi işçi əvəzi, 1967-ci ildən şöbə müdiri və nəhayət 1970-ci ildən bu günə qədər arı və balıq xəstəliklərini öyrənən laboratoriyanın müdiri vəzifəsində çalışır.

1964-cü ildə Qazan Baytarlıq İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir.

R.P.İbrahimov Azərbaycan ilk arıçı alimdir O, Azərbaycanda arıçılığa aid müasir ədəbiyyatın əsasını yaratmışdır.

R.P.İbrahimov 8 kitab və kitabçaların müəllifidir. Bunlar "Gənc arıçılara məsləhətlər", "Arı xəstəlikləri və onlarla mübarizə tədbirləri", "Arıların düşmənləri və onlarla mübarizə tədbirləri", "Arı məhsullarının müalicə əhəmiyyəti", "Arı ailələrinin məhsuldarlığını artırmaq yolları", "Arıçıların yaddaşı" və "Arı və arıçılıq" adı altında nəşr olunan elmi əsərlərdir. Eyni zamanda 6 plakatın və 69 elmi məqalənin müəllifidir. Bunların bir hissəsi Bolqarıstanda, Macarıstanda, Rumıniyada və s. xarici ölkələrdə çap olunmuşdur.

R.P.İbrahimov "Azərbaycan Sovet Ensiklopediyası"nın nəşri zamanı arıçılığın vacib məsələlərinə aid bütün cildlərində məlumat vermişdir.

Eyni zamanda Respublikada arıçılığın problemlərini açıqlamaq və qabaqcıl arıçıların iş təcrübəsini elmin nailiyyətlərini mütəmadi təbliğ etmk məqsədilə mərkəzi və rayon mətbuatında çoxlu miqdarda məqalələr dərc etdirmişdir. 1962-ci ildən SSRİ Jurnalistlər İttifaqının, hazırda isə Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Azərbaycanda ibtidai üsulda kötükdə, kondulda, kodda və səbətdə saxlanan arı ailələrini kütləvi halda çərçivəli pətəklər götürülməsini bilavasitə mütəşəkkil şəkildə təşkil etməlidir.

Respublikada bir çox arıçılıq təsərrüfatlarının infeksion, invazion (parazitar) və yoluxmayan xəstəliklərdən sağlamlaşdırılmasında yaxından iştirak etmişdir.

R.P.İbrahimov Azərbaycanın əksər rayonlarında müxtəlif kütlə təbəqələrində arıçılığa həvəs yaratmış, onun inkişafında böyük rolu olmuşdur.

İBRAHİMOV FİRƏDUN NADİR OĞLU

Firədun İbrahimov 1952-ci ildə anadan olmuşdur.

Orta məktəbi M.Füzuli adına Şəki şəhər 3 saylı orta məktəbində bitirmişdir.

O, 1972-ci ildə APİ-nin riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə başa vurmuşdur.

F.İ.İbrahimov Təpəcənnət kənd məktəbində müəllim (1972-1973), Baltalı kənd məktəbində müəllim və direktor (1973-1982), Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutunun Şəki filialının direktoru (1983-2000) vəzifələrində çalışmışdır.

F.İbrahimov 1982-ci ildə aspiranturanı bitirmiş, Y.M.Kolya-

qin və N.A.Sadıqovun rəhbərliyi ilə namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

O, Şəki Şəhər İcra Hakimiyyəti Aparatında şöbə müdiri (2000-2005) olmuş və hazırda Şəki şəhər Təhsil şöbəsinin müdiri vəzifəsində işini uğurla davam etdirir.

Firədun İbrahimov "Qabaqcıl Maarif xadimi" döş nişanını, Ali Sovetin fəxri fərmanını almışdır və Beynəlxalq Yaradıcı Müəllimlər İttifaqının üzvüdür.

Sankt-Peterburqda "Pedaqogika zorakılığın əleyhinə" mövzulu Beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir.

Moskvada "Brandes" nəşriyyatında "O zakonax pedaqoqiki" əsəri çap olunub.

Moskvada, Sankt-Peterburqda, Oryolda, Novosibirskdə "Образование и общество", "Философия образования", "Образования в мире", "Актуальные проблемы гуманитарных наук", "Педагогические науки" kimi nüfzulu jurnallarda 11 elmi məqaləsi çap olunubdur.

14 kitabın, o cümlədən 10 monoqrafiyanın müəllifidir. Çap olunan əsərlərinin ümumi həcmi 200 ç.v.-nə yaxındır.

F.İbrahimov riyaziyyat fənninin tədrisinə həsr olunmuş aşağıdakı dəyərli kitabların müəllifidir:

"Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal nisbətlərinin əsaslarına dair oçerklər"Natural ədədlər üzərində əməllərin öyrədilməsinin alqoritmik əsasları.
"Təlimin dərkinə "sistem-struktur" baxımından yanaşma".
Riyaziyyatın təlimi haqqında pedaqoji düşüncələr.
Təlimdə sistemdaxili münasibətlər.
Təlimin mükəmməl sistemi.
Təlimin idarə olunmasının formal, dialektik və qeyri-səlis məntiqi.
Təlim prosesinin mahiyyəti.
Təlim tapşırıqlarının başlıcaya görə sistemləşdirilməsi.
Təlimdə alqoritmik və evristik fəaliyyət növlərinin yeri.
O zakonax pedaqoqiki.
Təlimin idarə olunmasının bəzi məsələlərinə dair mühazirə konspektləri.
Şəki Müstəqillik illərində.
Şəki dövlətçiliyimizin qalasıdır.

İbrahimov Firədun Nadir oğlu 2006-cı ildə "Təlim prosesində alqoritmik və evristik fəaliyyətlərin optimal münasibətlərinin əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, pedaqoji elmlər doktoru alimlik dərəcəsi almışdır.

F.İbrahimovun elmi yaradıcılığı və kitabları haqqında Azərbaycanın riyaziyyat, fizika, fəlsəfə, pedaqogika və psixologiya sahəsində çalışan görkəmli alimləri - Abdulla Mehrabov, Əli Abasov, Misir Rəhimov, Əjdər Ağayev, Fərrux Rüstəmov, Yəhya Kərimov, Bəşir Əhmədov və başqaları yüksək rəy söyləmişlər.

İBRAHİMOV NAZİM ASABƏLİ OĞLU

Nazim İbrahimov 1951-ci ildə anadan olmuşdur.

O, 1968-ci ildə Bakı şəhərində 150 saylı orta məktəbi bitirmişdir. N.İbrahimov həmin ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan İqtisad Universiteti) "Ticarətin iqtisadiyyatı" fakültəsinə daxil olmuşdur. 1972-ci ildə o, ali təhsilini müvəffəqiyyətlə başa çatdırmışdır. 1973-1974-cü illərdə N.İbrahimov ordu sıralarında hərbi xidmətdə olmuşdur.

1974-1976-cı illərdə Xüsusi Tikinti-quraşdırma idarəsində mühəndis vəzifəsində çalışmışdır.

1976-2001-ci illərdə N.İbrahimov Azərbaycan Respublikası Ticarət Nazirliyində şöbə rəisi, nazir köməkçisi, idarə müdiri, departament rəisi kimi məsul vəzifələrdə çalışmışdır. N.İbrahimov 2001-ci ildən 2004-cü ilin 30 sentyabrına qədər Azərbaycan Beynəlxalq Bankının Mərkəzi İdarəetmə Deartamentinin rəisi və Bank idarə heyətinin üzvü vəzifələrini icra etmişdir.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə N.İbra-

himov 2004-cü ildən Şəki şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdir. N.İbrahimovun Şəkiyə gəlişi ilə rayonda və şəhərdə böyük canlanma yaranıb. O, ilk növbədə "Şəki" qəzetinə və "Şəki" radiosuna müasir avadanlıqların alınmasında kömək etmiş, şəhərin küçələrinin təmiri işinin sürətlə davam etməsinə şərait yaratmışdır.

Şəkidə ən böyük kərpic və tikinti materialları və konserv zavodlarının, Şin çayı üzərində körpünün tikintisinin başa çatdırılması və istifadəyə verilməsinin, İpək kombinatının işinin daha da canlandırılması və orada iş yerlərinin artırılmasının bacarıqlı iş adamı olan N.İbrahimovun Şəkiyə gəlişindən sonra sürətlənməsi heç də təsadüfi deyildir.

N.İbrahimov əhalinin şikayət və təkliflərinə qayğı ilə yanaşır və onlara mümkün olan köməyini əsirgəmir.

İBRAHİMOVA RƏXŞƏNDƏ YAQUB QIZI

Rəxşəndə İbrahimova 1928-ci ildə anadan olmuşdur. Soykökü müsəlman dünyasında müqəddəs sayılan, "Allahın Yarı" hesab edilən (Yunus İmrə) qırxlar nəslidir.

R.İbrahimova 5 saylı şəhər orta məktəbinin 7-ci sinifini bitirdikdən sonra Şəki pedaqoji texnikumunda pedaqoji təhsil almışdır. Əmək fəaliyyətinə şəhərdəki 7 saylı qızlar məktəbində pioner baş dəstə rəhbəri vəzifəsində başlamışdır. Sonralar Qoxmuq kənd məktəbində ibtidai sinif müəllimi işləmiş, eyni zamanda qiyabi yolla təhsilini Azərbaycan Dövlət Universitetində davam etdirərək ali təhsilli tarixçi ixtisası almışdır. 1956-cı ildən Bakı şəhərinin Kirov rayonundakı (Binəqədi rayonu) 99 saylı məktəbdə 35 il müddətində tarix fənnini tədris etmiş, ümumiyyətlə 50 ildən artıq bir müddətdə maarifçiliklə məşğul olmuşdur.

Onun pedaqoji və ictimai fəaliyyəti həmişə yüksək qiymətləndirilmişdir. "Əmək veteranı" medalı, çoxsaylı Fəxri fərmanlar və mükafatlarla təltif edilmişdir.

Rəxşəndə İbrahimova azərbaycanlı ziyalı qadına məxsus keyfiyyətlərilə həmişə başqalarına örnək olmuşdur. Yüksək ədəb-ərkanı, geniş erudisiyası, diskussiya aparmaq, inandırmaq qabiliyyəti, haqq-ədaləti müdafiə etmək bacarığı,insanpərvərliyi, sadəliyi, qeyri-adi təvazökarlığı və ağayana təbiəti ilə seçilirdi.

R.İbrahimova Azərbaycana, onun gözəl guşəsi olan Şəkiyə bağlı bir insan idi, sanki Şəki ilə nəfəs alırdı. Mükəmməl bir tarixçi kimi Şəkinin də tarixini və etnoqrafiyasını, məhəllə, nəsil və soy adlarını, adət və ənənələrini xalq arasında deyildiyi kimi "beş barmağı" kimi bilir və təbliğ edirdi.

Rəxşəndə Yaqub qızı İbrahimova 2006-cı ilin dekabr ayında dünyasını dəyişmişdir.

İBRAHİMOV NƏSİB ƏLƏKBƏR OĞLU



İbrahimov Nəsib 1926-cı ildə anadan olmuşdur. 1943-cü ildə Şəki şəhəri 2 saylı orta məktəbi bitirmişdir. 1060-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuşdur. Təhsilini 1966-cı ildə (qiyabi) bitirmişdir.

1961-1966-cı illərdə Nuxa rayonu Mədəniyyət evinin direktoru vəzifəsində çalışmışdır. İşlədiyi müddətdə rayonun mədəni-kütləvi tədbirlərinin keçirilməsində fəal iştirakına görə müxtəlif mükafatlara layiq görülmüşdür.

1967-ci ildə tale onu Bakı şəhərinə gətirdi. 1967-1979-cu

illər ərzində Bakı şəhəri 10 və 29 saylı texniki-peşə məktəblərində təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır. Peşə məktəbində işləyərkən özünün təşəbbüsü ilə musiqi dərnəyi yaratmış və ona rəhbərlik etmişdir.

1979-1986-cı illərdə Yüngül Sənaye Nazirliyində baş mühəndis vəzifəsində çalışmışdır.

1986-cı il noyabr ayının 7-də uzun sürən xəstəlikdən vəfat etmişdir.

İSAKOV HAKİM VƏLİCAN OĞLU



Hakim İsakov 1953-cü ildə ziyalı ailəsində anadan olmuşdur. 1971-ci il Şəkidəki 10 saylı orta məktəbi bitirdikdən sonra Bakı dənizçilik məktəbinə daxil olmuş, 1972-ci ildə məktəbi başa vuraraq Xəzər dəniz gəmiçiliyi sistemində əmək fəaliyyətinə başlamış, eyni zamanda 1972-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olaraq istehsaldan ayrılmadan təhsilini davam etdirmişdir.

1973-1975-ci illərdə ordu sıralarında hərbi xidmətdə olmuşdur. 1980-ci ildə Bakı Dövlət Universitetini bitirmiş, bir müddət dənizçi peşəsi üzrə çalışmış, 1985-1986-cı illərdə Bakı Rabitə Texnikumunda tərbiyəçi müəllim, 1986-1996-cı illərdə Q.Məmmədov adına Bakı Dəniz Yolları Məktəbində, 1996-1998-ci illərdə isə Azərbaycan Dövlət Dənizçilik Akademiyasında pedaqoji fəaliyyətini davam etdirmişdir.

1998-ci ildən bugünə kimi Bakı Rabitə Kollecində əmək fəaliyyətini davam etdirir. Hakim İsakov bu illərdə həm dənizçi peşəsi üzrə, həm də tarixçi kimi ixtisasını artırmaqda davam etmişdir. 1997-ci ildə Bakı Dənizçilik məktəbinin gəmi sürücülüyü fakültəsini qiyabi yolla bitirərək gəmi sürücüsü ixtisasına yiy-

ələnmişdir. Hakim İsakov 1996-cı ildən Elmlər Akademiyası Tarix İnstitutunun dissertantı olmuş, Azərbaycanın müasir dövr tarixinin görkəmli tədqiqatçısı, tarix elmləri doktoru, Humay mükafatı laureatı Tahir Qaffarovun rəhbərliyi altında "Azərbaycan Respublikası dəniz nəqliyyatının inkişaf tarixi (90-cı illər)" mövzusunda namizədlik işi üzərində çalışmış, 2000-ci ildə müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır.

Hazırda Hakim İsakov dövrümüzün qlobal strateji layihəsi olan "Qədim İpək Yolunun bərpası və Azərbaycan" adlı doktorluq işi üzərində elmi yaradıcılığını davam etdirir. Qeyd etmək lazımdır ki, müəllif özünün namizədlik işi ilə respublikamızın strateji sahələrindən biri olan dəniz nəqliyyatının müstəqillik illərini kompleks şəkildə tədqiq edərək Azərbaycanın mülki və iqtisadi tarixini yeni təfəkkür tərzi əsasında öyrənilməsində, zənginləşdirilməsində öz elmi töhfəsini vermişdir. Müəllifin bu əsəri gələcəkdə bu sahədə yeni elmi tədqiqat əsərlərinin yazılması üçün mənbə rolunu oynayan, orijinal tədqiqat əsərlərindən biridir.

Hakim İsakovun elmi fəaliyyəti onun elmi konfranslarda məruzələrində, nəzəri, elmi, metodik jurnallarda çıxışlarında özünü göstərmişdir.

10-dan çox məqalənin müəllifidir. Bu məqalələrdə dəniz nəqliyyatının maddi-texniki bazası, kadrları, sahənin nəqliyyat sistemində yeri, xarici iqtisadi əlaqələrdə, xüsusilə "Qədim İpək Yolu"nun fəaliyyətindəki rolu, yeni istehsal münasibətlərinə keçid şəraitində dəniz nəqliyyatının idarəçiliyində baş verən dəyişikliklər öz əksini tapmışdır.

Hakim İsakov "Hərbi dəniz elmi və Xəzərin problemləri" mövzusuna həsr edilmiş elmi konfransda, həmçinin, Azərbaycan Xalq Cümhuriyyətinin 83-cü ildönümünə həsr edilmiş konfranslarda İpək Yolu ilə bağlı "Yeni əsrə aparan strateji yol", "Qədim İpək Yolunun bərpası və Azərbaycan" adlı məruzələrlə çıxış etmişdir.

Hakim İsakov bu gün də yorulmadan elmi və pedaqoji fəaliyyətini davam etdirməkdədir.

İSMAYILOV AĞƏLİ LÜTFƏLİ OĞLU

Ağəli İsmayılov 1948-ci ildə anadan olmuşdur. 1963-67-ci illərdə Bakı Neft Texnikumunda "Nəzarət-ölçü cihazlarının təmir və istismarı" peşəsi üzrə təhsil almışdır. Texnikumu bitirdikdən sonra o, bir müddət Sumqayıt şəhər Sintetik Kauçuk zavodunda çalışdıqdan sonra 1970-ci ildə Sovet ordusu sıralarına çağırılmışdır. Jurnalistika sahəsinə meylli olan A.İsmayılov hələ o illərdən texnikumun divar qəzetində tez-tez oxunaqlı maraqlı məqalələrlə çıxış edirdi.

Ordudan tərxis olunduqdan sonra A.İsmayılov yenidən Sumqayıt "SK" zavodunda işləmişdir. 1973-cü ildən sonra isə Azərbaycan Respublikası DİN Yanğından Mühafizə İdarəsində işə qəbul olunmuşdur. Sıravi döyüşçü kimi xidməti fəaliyyətə başlayan A.İsmayılov qısa müddət ərzində işdə fərqləndiyinə görə təhsil almaq üçün Xarkov Yanğın-Texniki Məktəbinə göndərilmişdir. Bacarıqlı mütəxəssis kimi tanınan A.İsmayılov az bir zamanda Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə dəvət olunmuşdur. O, həmin idarənin Dövlət Yanğına Nəzarət şöbəsində əvvəlcə müfəttiş, sonra baş mühəndis, bölmə rəisi, Planlaşdırma və Kompleks Təhliletmə şöbəsinin rəisi işləmişdir. Hazırda "Yanğınla mübarizə" jurnalının baş redaktoru və eyni zamanda İctimaiyyətlə Əlaqələr Mərkəzinin rəisi vəzifələrində çalışır. Sıravidən polkovnik rütbəsinədək yüksələn A.İsmayılov gənc yaşlarından yaradıcılığa böyük həvəs göstərib. Rəssamlıq və musiqi ilə məşğul olub. A.İsmayılov xidmət etdiyi bütün dövrlərdə bədii yaradıcılıqla, jurnalistik fəaliyyəti ilə məşğul olmuşdur. Daxili xidmət polkovniki A.İsmayılov 5 kitabın, 4 qısametrajlı filmin, onlarla televiziya verilişlərinin, yüzlərlə elmi-publisist yazıların müəllifidir.

Yanğın təhlükəsizliyi orqanlarında öz iş üslubu və bacarığı ilə həmişə fərqlənən daxili xidmət polkovniki A.İsmayılov 30 ildən artıq qulluq etdiyi bu sahədə çox böyük işlər görmüşdür. Məhz onun təşəbbüsü və gərgin əməyi sayəsində yanğınların söndürülməsində igidlik göstərən Ramiz Kərimovun Bakıda, 1956-cı ildə Şəki İpək Kombinatında baş vermiş yanğını söndürərkən həlak olmuş Məmmədiyyə Məmmədovun büstü isə Şəkidə qoyulmuşdur.

A.İsmayılov keçmiş SSRİ Daxili İşlər Nazirliyinin "Pojarnoe delo" jurnalının Azərbaycan Respublikası üzrə müxbir punktuna 10 il rəhbərlik etmişdir.

Polkovnik A.İsmayılov yaradıcılıq dövründə görkəmli yazıçı, şair və bəstəkarlardan mayestro Niyazi, Tofiq Quliyev, Cahangir Cahangirov, Ramiz Zöhrabov, Oleq Şestinskiy, Lev Oşanin, Nəriman Həsənzadə, Əli Vəkil və başqaları ilə sıx əlaqələr saxlamış, musiqi və ədəbiyyatın gücündən ölkəmizin inkişafı, yanğın təhlükəsizliyinin möhkəmləndirilməsi naminə uğurla istifadə etmişdir.

Polkovnik A.İsmayılov yaradıcılıq fəaliyyəti ilə yanaşı yanğın təhlükəsizliyi sahəsində də yüksək nailiyyətlər əldə etmişdir. O, 1987-ci ildə Ağcabədi rayonundakı pambıq zavodunda baş vermiş yanğını söndürərkən göstərdiyi fədakarlığa görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Yanğında igidliyə görə" medalına layiq görülmüşdür. Bundan başqa müxtəlif illərdə SSRİ Daxili İşlər Nazirliyinin hədiyyə və Fəxri Fərmanları ilə təltif olunmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı, daxili xidmət polkovniki A.İsmayılov bu gün də yanğın təhlükəsizliyi orqanlarında yaradıcı zabit kimi xidmətini ləyaqətlə davam etdirir, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, müstəqilliyimizin əbədiliyinə öz dəyərli töhfələrini verir.

İSMAYILOV İSMƏT ŞİRƏLİ OĞLU



İsmayılov İsmət 1924-cü ildə anadan olmuş, Şəki şəhər 7 saylı orta məktəbi bitirmişdir.

1943-cü ilin avqust ayında ordu sıralarına çağırılmış, 1952-ci ildə qısamüddətli serjant məktəbini bitirmişdir Hərbi qulluqda olarkən qərargahda rəssam kimi fəaliyyət göstərmiş, çoxlu sayda döyüş yoldaşlarının və komandirlərin ordu qəzetinə portretlərini çəkmişdir.

Hərbi xidməti bitirdikdən sonra Şəki pionerlər evində və 7 saylı orta məktəbdə rəsm müəllimi kimi fəaliyyət göstərmişdir.

Ə.Əzimzadə adına rəssamlıq məktəbinə daxil olmuş, lakin ailə vəziyyətinə görə təhsilini yarımçıq qoymuş və kommunal-tikinti texnikumunda təhsilini davam etdirmişdir.

Bir müddət Ağdaş rayonunda tikintidə iş icraçısı vəzifəsində çalışmış, sonra Şəkidə tikintidə mühəndis, kommunal təsərrüfatı idarəsində şöbə müdiri, ticarət idarəsinin soyuducu qurğusunda rəis və s. vəzifələrdə işləmişdir.

1959-1965-ci illərdə Şəki Xan Sarayının bərpasında iş icraçısı olmuşdur.

1959-cu ildə Şəki İpək Kombinatına parça tərtibatı üzrə rəssam vəzifəsinə təyin edilmiş, 1973-cü ildə keçmiş SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilmişdir.

1988-ci ildə "Azərbaycan SSR-in əməkdar rəssamı" fəxri adına layiq görülmüşdür.

Keçmiş SSRİ-də təşkil olunmuş bir çox sərgilərin diplomları, bir sıra döyüş və əmək medalları ilə təltif edilmişdir. Böyük Vətən müharibəsi və əmək veteranıdır.

Yaradıcılığının əsas istiqamətləri: qrafika, rəngkarlıq (xüsusən portret), tətbiqi sənət (parçaların bədii tərtibatı, ağac üzərində bədii oyma, nəqqaşlıq).

İSMAYILOV MƏMMƏDSALEH CƏLİL OĞLU

Məmmədsaleh İsmayılov 1912-ci ildə anadan olmuşdur.

1940-cı ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Tarix-nəzəriyyə şöbəsini bitirmişdir. 1944-cü ildə Qırmızı Əmək Bayrağı Ordeni almışdır. M.İsmayılov 1963-cü ildən sənətşünaslıq namizədidir.

1972-ci ildə Azərbaycan SSR "Əməkdar İncəsənət Xadimi" adına layiq görülmüşdür.

M.C.İsmayılov 1982-ci ildə professor vəzifəsinə seçilmişdir. O, həm də görkəmli musiqişünasdır. İsmayılov Məmmədsaleh Cəlil oğlu 1985-ci ildə II dərəcəli "Böyük Vətən Müharibəsi" ordeni ilə təltif edilmişdir.

İSLAMOVA ŞƏFƏQ İSRAFİL QIZI

İslamova Şəfəq orta məktəb təhsilini Bakı şəhərinin 62 saylı orta məktəbində almışdır. 1985-ci ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-İnformasiya fakültəsini bitirdikdən sonra Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında baş biblioqraf vəzifəsində işləmişdir., daha sonra isə AMEA İqtisadiyyat İnstitutunun kitabxanasına müdir vəzifəsinə köçürülmüşdür.

1995-2000-ci illərdə Bakı Dövlət Universitetinin dissertantı olmuşdur. 1995-ci ildə BDU-nun "Kitabxanaşünaslıq" kafedrasında "Azərbaycan Respublikası

Elmlər Akademiyası kitabxana şəbəkəsinin təşəkkülü və inkişafı (1923-1990-cı illər)" mövzusunda dissertasiya işi təsdiq olunmuşdur. 2004-cü ildə 07.00.02 - Vətən tarixi, 05.25.03 - Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq ixtisası üzrə tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün BDU-nun Tarix fakültəsində dissertasiya işini müdafiə etmişdir.

11 elmi məqaləsi və bir monoqrafiyası vardır. Azərbaycanın müxtəlif konfranslarında və məqalələr məcmuəsində tezis, məqalə şəklində çap olunmuşdur. Görkəmli elm xadimi, akademik Ziyad Səmədzadə, AMEA-nın müxbir üzvləri Ağasəlim Ələsgərov və Şahbaz Muradov haqqında biblioqrafik göstəricilərin tərtibatçısıdır. Bundan başqa Ş.İ.İslamova Bakı Biznes Universitetinin kitabxanasında avtomatlaşdırılmış elektron kataloqun yaradılmasının təşkilati rəhbəri olmuşdur.

İslamova Şəfəq İsrafil qızı Azərbaycan Respublikasında 07.00.02 - Vətən tarixi, 05.25.03 - Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq ixtisasları üzrə tarix elmləri namizədi alimlik dərəcəsi alan ilk qadın mütəxəssislərindəndir.

İSGƏNDƏROVA AİŞƏ İSGƏNDƏR QIZI

İsgəndərova Aişə 1963-cü ildə fəhlə ailəsində anadan olmuşdur.

Şəki şəhər M.Qorki adına 10 saylı orta məktəbi 1980-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. 1982-ci ildə Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsinə qəbul olunmuşdur. 1988-ci ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Tibb Universitetini bitirdikdən sonra Elmi Şuranın qərarı ilə Moskva həkimləri təkmilləşdirmə İnstitutunun "Neonotoloq" ixtisası üzrə ordinaturasına göndərilmişdir.

1990-cı ildə Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunun ordinaturasını əla qiymətlərlə başa vurub, respublikaya yüksək ixtisaslı həkim-reanimatoloq-neonotoloq kimi gəlmişdir.

1990-cı ildə "Ana və uşaqları mühafizə" İnstitutunda neonotoloq kimi işə başlamışdır.

1991-ci ildə Krupskaya adına Doğum evinə reanimasiya şöbəsinə reonimatoloq-neonatoloq kimi işə dəvət olunur. İşlədiyi müddətdə bütün kollektivin hörmətini qazanmış və respublikada yüksək səviyyəli reanimatoloq-neonatoloq olduğunu sübut etmişdir.

İsgəndərova Aişə İsgəndər qızı respublikada neonatologiya üzrə ilk ixtisaslı mütəxəssis idi.

Elmi məqalələri Moskvada bir sıra elmi konfranslarda, formlarda müzakirə edilmişdir.

İsgəndərova Aişə İsgəndər qızı 1994-cü ilin iyunun 22-də dünyasını dəyişmişdir. Onun işıqlı xatirəsi onu tanıyanların qəlbindən heç vaxt silinməyəcək.

İLYASOV GÜLÜ GÖYÜŞ OĞLU

Gülü İlyasov 1925-ci ildə anadan olmuşdur.

1937-ci ildə Kiş kənd orta məktəbini bitirib, həmin ildə də Şəki şəhər Tibb məktəbinə daxil olmuş, 1941-ci ildə təhsilini başa vuraraq, "feldşer" ixtisasına yiyələnmişdir.

1941-ci ildə Şəki Sanitar Epidemioloji Stansiyasına işə qəbul olunmuş, həmin il avqust ayının 26-da könüllü surətdə ordu sıralarına yola düşmüşdür. Xidmətinə 394-cü atıcı diviziyasında hərbi feldşer kimi başlamış, 1942-ci ildə 416-cı atıcı diviziyasına göndərilmiş, həmin diviziyanın tər-

kibində 1374-cü alayın I batalyonunda "Baş hərbi feldşer" vəzifəsinə göndərilmişdir. Həmin alayın tərkibində Mozdok şəhərinə doğru hücum zamanı tibb xidməti üzrə leytenant rütbəsi alır.

G.G.İlyasov Nikolayev, Melitopol, Kerç, Odessa, Yassa-Kişinyovda gedən döyüşlərdə çox fəal iştirak etmişdir. Yanvar 1945-ci ildə Varşavanın azad olunmasında iştirak etmiş və medalla təltif edilmişdir. O, 416-cı Toqanroq Qırmızı Bayraqlı Suvorov Ordenli diviziyanın 1373-cü alayının tərkibində ilk Berlinə gedənlərdən olmuşdur.

8 may 1945-ci il tarixində general Qeytel, admiral Qriderburq və Avrasiya general-polkovniki Friderburq əsgərlərinin qarşısından keçərək 9 mayda təslim aktına qol çəkdikləri mərasimin canlı şahidi olmuşdur.

O, Böyük Vətən müharibəsində igidcəsinə iştirakına görə bir çox müxtəlif orden və medallarla təltif olunmuşdur.

Şəkinin və Kişinyovun fəxri vətəndaşıdır. Hazırda Şəki rayon Mərkəzi xəstəxanasında baş tibb qardaşı vəzifəsində çalışır.

G.İlyasov "Səhiyyə əlaçısı" və "İctimai asayişin qorunması"na görə medallarına layiq görülmüşdür.

İSRAFİLOV AZƏR TELMAN OĞLU



Azər İsrafilov 1974-cü ildə anadan olmuşdur.

1991-ci ildə 158 saylı məktəbi əla qiymətlərlə başa vurmuşdur. Həmin il Azərbaycan Tibb İnstitutunun stomatologiya fakültəsinə qəbul olmuşdur. İnstitutu fərqlənmə diplomu ilə bitirərək 1995-ci ildə Elmi Şuranın qərarı ilə Cərrahi stomatologiya kafedrasında aspirant kimi saxlanılıb. İşlədiyi müddətdə özünü həm praktik həkim-cərrah stomatoloq, həm də

gənc alim kimi göstərmişdir.

Aspiranturanı müvəffəqiyyətlə başa vurduğu üçün Elmi Şuranın qərarı ilə həmin kafedrada aspirant vəzifəsinə qəbul olunmuşdur.

2004-cü ildə namizədlik dissertasiyasını müdafiə etmiş və tibb elmləri namizədi adına layiq görülmüşdür. 8 elmi məqaləsi, 1 ixtirası və 1 səmərələşdirici təklifi var.

2000-ci ildə imtahandan keçərək Səudiyyə Ərəbistanına həkim-stomatoloq kimi göndərilmişdir.

İSRAFİLOV HACI RAFİQ ABİD OĞLU



Hacı Rafiq İsrafilov 1940-cı ildə anadan olmuşdur.

1957-ci ildə Nizami adına Nuxa şəhər 7 saylı məktəbi bitirmişdir.

1958-ci ildə Sumqayıt Texnologiya Texnikumuna daxil olmuş, 1961-ci ildə texnik-elektrik ixtisası üzrə bitirmişdir.

1962-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş, 1973-cü ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu iqtisadçı ixtisası üzrə müvəffəqiyyətlə başa vurmuşdur.

1964-cü ildə hərbi xidmətə çağırılmış, 1965-ci ildə səhhəti ilə əlaqədar hərbi xidmətdən azad edilmişdir.

Böyük Vətən Müharibəsində qələbənin 20 illiyi döş medalı ilə təltif edilmişdir. (07.05.1965).

1957-ci ildə Nuxa şəhəri Şahmat üzrə birincilikdə I yer, 1957-ci ildə Voleybol üzrə birincilikdə III yeri tutmuşdur.

Əmək fəaliyyətinə 1961-ci ildə mühəndis kimi başlamış, 1975-ci ildə o "VAZ"ın Şəki texniki təmiri stansiyasına direktor vəzifəsinə təyin edilmiş və son günlərinə qədər həmin vəzifədə işləmişdir.

Heç vaxt heç bir partiyanın üzvü olmamışdır.

1993-cü ildə Şəki "Yanıq Məscid" dini icmasını yaratmış və vəfat edənə qədər icmaya rəhbərlik etmişdir.

Dini icma Hacının şəxsi vəsaiti hesabına maliyyələşmiş, məvaciblər şəxsi hesabından verilmişdir.

25 oktyabr 2002-ci vəfat etmişdir.

İDRİSOV ŞƏRİF YUNUS OĞLU

İdrisov Şərif 1916-cı ildə anadan olmuşdur. O, 1934-38-ci illərdə Şəki Pedaqoji Texnikumunu, 1946-1948-ci illərdə Nuxa 2 illik Dövlət müəllimlər İnstitutunu, 1949-1951-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsini bitirmişdir.

Minlərlə azərbaycanlı oğulları kimi, 1940-cı ildə hərbi xidmətə çağırılan Ş.Y.İdrisovun da qismətinə Böyük Vətən müharibəsində vuruşmaq yazılmışdır. Müharibə dövründə o, Lvov vilayəti, Yulkev şəhəri, 34-cü süvari polkunun 3-cü alayında bir çox döyüşlərdə iştirak etmişdir. 1942-ci ilin aprelində ağır yaralanaraq Hərbi Hospitala göndərilmiş və uzun müddət müalicə olunmuşdur. Onurğa sümüyündəki qəlpə onun yenidən döyüş meydanına qayıtmasına mane olsa da, müəllim kimi əmək fəaliyyətinə başlamasına mane ola bilməmişdir. Şərif müəllim 1942-1980-ci illər ərzində müxtəlif orta məktəblərdə müəllim, dərs hissə müdiri, direktor müavini, direktor vəzifələrində çalışmışdır.

1963-1967-ci illərdə "Mədəni maarif" daimi komissiyasının sədri olmuşdur.

Şərif müəllim bir sıra orden və medallarla təltif olunmuşdur. Bunlardan: 1941-45-ci illər Almaniya üzərində qələbənin müxtəlif illərdə yubileyləri ilə bağlı olan orden və medallar, o

cümlədən 14 mart 1985-ci il tarixli SSRİ Ali Sovetinin fərmanı ilə "1-ci dərəcəli Vətən Müharibəsi veteranı" ordeni ilə təltif edilmişdir.

Şərif müəllim adı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən verilən fərmanla əbədiləşdirilmiş və Şəki rayonunun Baş-Göynük kənd kitabxanasına onun adı verilmişdir.

Şərif müəllim pedaqoji fəaliyyətlə yanaşı, bir sıra maraqlı bədii əsərlərin müəllifidir. Onun yazdığı "Tütünçü qız", "Şin çayı" kimi silsilə şerləri, "Görüş", "Sonuncu toy", "Övlad kimindir", Gülarə - Köylü qızı", "Nəsillərin yolu", "Dəfinə", "Sən kiminsən", "Güllü Mövsüm" pyesləri, "Yenə də çəkistəm" oçerki, "Tarixdə heç kim unudulmur", "Məmməd Cavad oğlu", "Albertin faciəsi" kino-oçerkləri, "Mənim faciəm" əsəri və başqaları dövri qəzet və jurnallarda çap edilmişdir.

Bundan başqa Şərif müəllim uzun müddət Aşıq Molla Cümənin yaradıcılığının tədqiqatçısı olmuş, heç kimə məlum olmayan əsərlərinin əlyazmalarını toplamış və çap etdirmişdir. Molla Cümənin qəbirüstü abidəsinin qoyulmasının səbəbkarı məhz Şərif müəllimdir.

KAŞANLI RAFİQ RİZVAN OĞLU

Kaşanlı Rafiq 1941-ci ildə anadan olmuşdur.

1964-cü ildə Azərbaycan Mədəniyyət və İncəsənət İnstitutunu, 1969-cu ildə isə M.F.Axundov adına Azərbaycan Dövlət Rus Dili və Ədəbiyyatı institutunu bitirmişdir.

İş fəaliyyətinə 1964-cü ildə Radio və Televiziya Komitəsində rejissor köməkçisi vəzifəsində başlayıb. 1967-1969-cu illərdə Komsomolun Mərkəzi Komitəsində mədəniyyət şöbəsinin bölmə müdiri vəzifəsində çalışmışdır.

1971-1988-ci illərdə R.R.Kaşanlı Azərbaycan Mədəniyyət Nazirliyinin sistemində işləmişdir. 1971-ci ildə mədəni-maarif müəssisələri idarəsinin rəis müavini vəzifəsinə təyin edilmişdir.

1976-cı ildə Mədəniyyət İşçilərinin İxtisasartırma kursunun direktoru, 1983-cü ildə Mədəniyyət Nazirliyinin mədəni-maarif müəssisələri idarəsinin rəisi vəzifəsinə təyin olunmuşdur. Mədəniyyət Nazirliyinin aparatında işlədiyi müddətdə R.R.Kaşanlı Respublikada bədii özfəaliyyətin inkişafında fəal iştirak etmiş, gənc istedadların üzə çıxarılmasına xidmət etmiş və xalq yaradıcılığı festivallarının keçirilməsinin təşkilatçısı olmuşdur.

1988-ci ildə Azərbaycan Mədəniyyət Fondu İdarə Heyətinin sədr müavini vəzifəsinə təyin edilmişdir və bu günədək bu vəzifədə çalışır. Mədəniyyət Fondunda işlədiyi müddət ərzində o, özünü yaxşı təşkilatçı və mədəni-maarif işinin bilicisi kimi göstərmişdir. Rafiq Rizvan oğlu Kaşanlı Mədəniyyət Fondunun "Sönməyən ulduzlar" teatrının bədii rəhbəridir.

24 dekabr 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə R.R.Kaşanlıya Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdir.

KAŞIYEV AYDIN RİZVAN OĞLU



Kaşıyev Aydın 1933-cü ildə qulluqçu ailəsində anadan olmuşdur.

O, 1958-ci ildən Sov.İKP üzvüdür, ali təhsili var Azərbaycan Politexnik İnstitutunu və Sov.İKP MK yanında Ali partiya Məktəbini bitirmişdir.

A.Kaşıyev 1956-1959-cu illərdə dəmiryolunda stansiya növbətçisi, dispetçer, stansiya rəisinin baş köməkçisi, mühəndis vəzifələrində işləmişdir.

O, 1960-1964-cü illərdə Azərbaycan

KP MK təlimatçısı, ali partiya məktəbinin dinləyicisi olmuşdur.

Aydın Kaşıyev 1964-cü ildən Azərbaycan KP MK partiya orqanları şöbəsinin məsul təşkilatçısı, inspektoru vəzifələrində işləmişdir.

O, 1967-ci ildən Azərbaycan KP Şəki Şəhər Komitəsinin birinci katibi olmuşdur.

Azərbaycan SSR Ali Sovetinin Sənaye, nəqliyyat və rabitə komissiyasının üzvü olmuşdur.

KAŞİYEVA TAMİLLA RİZVAN QIZI

Tamilla Kaşiyeva 1929-cu ildə anadan olmuşdur. O, 1953-cü ildə Bakı Dövlət Universitetini (BDU) bitirmişdir.

1954-cü ildən Bakıdakı 31 saylı orta məktəbdə çalışmışdır. 25 il rayon metodisti olmuş və 50 ildən çoxdur ki, rus dili üzrə metodbirləşmənin sədri vəzifəsində çalışır.

1986-cı ildə "Baş müəllim", 1987-ci ildə "Maarif əlaçısı" adlarına layiq görülmüşdür.

1964-1988-ci illərdə KiDin rəhbəri olmuşdur. "Klub Beynəlxalq Dostluğu. Sülh Naminə Mübarizə"də aktiv iştirak etmişdir.

O, 1994-cü ilə qədər istismarda olmuş "Rus ədəbiyyatı" 9-cu sinif şagirdləri üçün nəzərdə tutulmuş dərslik kitabının S.O.Yüzbaşevlə birgə müəllifi olmuşdur.

1979-1983-cü illərdə 3, 4, 9-cu siniflərin dərslikləri haqqında resenziya yazmışdır. O, 1975-ci ildə Tallin şəhərində məktəbdənkənar fəaliyyətə görə 1982-ci ildə Maarif Nazirliyi (indiki Azərbaycan Respublikası Təhsil Nazirliyi) tərəfindən olimpiadada qələbə qazandığına görə və bir çox digər işlərlə əlaqədar olaraq fəxri fərmanlara, orden və medallara layiq görülmüşdür.

10-a yaxın məqalələrin müəllifidir. Tələbələrin xüsusi tərbiyə olunma proqramını hazırlamışdır. Yazıçıların yaradıcılıqları üzrə yekun fəaliyyət, problemli təhsil, hərtərəfli inkişaf, təhsilə kompleks yanaşma kimi mövzularla bağlı olan "sinifdaxili və sinifdənkənar fəaliyyətin (işin) birliyi" mövzusunda dissertasiya işi üzərində işləyir.

T.R.Kaşiyeva işlədiyi kollektivdə böyük hörmət qazanmış və həmçinin o da öz növbəsində təmsil etdiyi kollektivin adını daim yüksəklərdə tutmuşdur.

KAŞIYEV RİZVAN HÜSEYN OĞLU

Kaşıyev Rizvan 1905-ci ildə anadan olmuşdur.

O, 1920-ci ilə qədər təhsil almışdır. 1921-1922-ci illərdə Nuxa şəhərində ibtidai məktəb müəllimi işləmişdir. 1922-ci ilin sentyabr ayından təhsilini davam etdirmiş və 1923-cü ildə Bakı şəhər 5 saylı məktəbi bitirmişdir. Sonra isə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub və 1926-cı ildə fizika-riyaziyyat fakültəsini bitirmişdir.

R.Kaşıyev 1926-cı ilin sentyabrından 1928-ci ilə qədər Nuxa pedaqoji və kənd təsərrüfatı texnikumunda riyaziyyat və fizika müəllimi, 1928-ci ilin sentyabr ayından 1934-cü ilin sentyabr ayına qədər Qədirli adına əczaçılıq texnikumunda riyaziyyat müəllimi və təhsil bölməsinin müdiri, 1934-cü ilin sentyabr ayından 1939-cu ilin yanvar ayına qədər Bakı şəhər 44 saylı orta beynəlmiləl məktəbinin rəhbəri və riyaziyyat müəllimi vəzifəsində, 1939-cu ilin yanvar ayından 1942-ci ilin noyabr ayına qədər Bakı şəhər 7 saylı orta məktəbində riyaziyyat müəllimi vəzifəsində işləmişdir.

O, 1942-ci ilin noyabr ayından 1945-ci ilin avqust ayına qədər

Sovet Ordusunda serjant rütbəsində xidmət etmişdir. 1944-cü ilin yanvar ayında Sovet İttifaqı Kommunist Partiyasına daxil olmuşdur. 1945-ci ilin avqust ayından 1949-cu ilin avqust ayına qədər Azərbaycan Respublikası Təhsil Nazirliyində tədris üzrə müfəttiş vəzifəsində işləmişdir. 1948-ci ilin noyabr ayında vicdanlı və səmərəli işinə görə Təhsil Nazirliyi tərəfindən təşəkkürnamə verilmişdir.

Rizvan Kaşıyev 1949-cu ilin sentyabr ayında Bakı şəhər 1 saylı məktəbə riyaziyyat müəllimi vəzifəsinə keçirilmişdir. 1951-ci ilin sentyabr ayından 1965-ci ilin sentyabr ayına qədər Bakı şəhər 18 saylı məktəbdə riyaziyyat müəllimi vəzifəsində işləmişdir. Məktəbin bütün ictimai-siyasi işlərində fəal iştirak etmiş və 18 saylı məktəbdə işləyərkən "Şərəf nişanı" ordeninə təltif olunmuşdur və eləcə də Azərbaycan SSR-in əməkdar müəllimi adına layiq görülmüşdür. Bundan əlavə mən "Əməkdə fərqlənmə", "-Əmək igidliyi", Almaniya üzərində qələbə və Böyük Vətən Müharibəsinin 20 illik yubileyi medalları ilə təltif olunmuşam.

O, 1965-ci ildən Respublika 1 saylı eşitmə qabiliyyəti məhdud olan uşaqlar üçün xüsusi məktəbdə riyaziyyat müəllimi vəzifəsində işləmişdir.

KƏRİMOVA SARİYƏ MƏCİD QIZI



Sariyə Kərimova 1907-ci ildə fəhlə ailəsində anadan olmuşdur. O, əmək fəaliyyətinə N.Nərimanov adına 5 saylı ipək fabrikindən fəhləlikdən başlamışdır. 1930-cu ildə rəhbər partiya işinə irəli çəkilərək Qəza Partiya Komitəsində qadınlar arasında iş aparan təlimatçı vəzifəsində işləmiş, 1931-1937-ci illərdə V.İ.Lenin adına İpək Kombinatında təlimatçı, 2 saylı əyirici fabrikində direktor vəzifəsində çalışmışdır.

Kərimova S.M. 1937-ci ildən 1942-ci ilədək Azərbaycan İpəkçilik İttifaqına başçılıq etmiş sonra Şəki rayon ZDS İcraiyyə Komitəsinin sədr müavini, ictimai təminat şöbəsinin müdiri olmuş, V.İ.Lenin adına İpək Kombinatında rəhbər həmkarlar və təsərrüfat işlərində çalışmışdır.

Mehriban insan, fəal ictimaiyyətçi, bacarıqlı təşkilatçı olan S.Kərimova dəfələrlə Azərbaycan KP Şəki şəhər Komitəsinin büro üzvü, Rayon Soveti İcraiyyə Komitəsinin üzvü, Şəhər Sovetinə deputat seçilmişdir.

S.Kərimova əmək fəaliyyətinə görə əmək rəşadəti medalı ilə təltif olunmuşdur.

Respublia əhəmiyyətli fərdi təqaüdçü Sariyə Kərimova 69 yaşında qəflətən vəfat etmişdir.

KƏRİMOV MƏZAHİR MƏMMƏDƏLİ OĞLU

Məzahir Kərimov 1940-cı ildə anadan olmuşdur. 1947-ci ildə 6 saylı məktəbin 1-ci sinifinə daxil olmuş, 1957-ci ildə Nizami adına 7 saylı məktəbi əla qiymətlərlə bitirmişdir. Elə həmin ildə M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ADNA) "Avtomatika və telemexanika" fakültəsinə daxil olmuş və oranı 1962-ci ildə "mühəndis-elektrik" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

Təyinat üzrə Gəncə şəhərində Cihazqayırma zavoduna göndərilmiş. 8 ay zavodda işlədikdən sonra, Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutunda gənc mütəxəssislərə ehtiyac olduğuna görə instituta dəvət edilmişdir.

1963-cü ildən bu institutda fəaliyyətə başlamış və ömrünün

sonunadək burada işləmişdir. "Elektrotexnika və avtomatika" kafedrasında assistent, müəllim və baş müəllim vəzifəsində çalışmışdır. İşlədiyi müddətdə "Elektrik enerjisinin kənd təsərrüfatında tətbiqi" kafedrasının müdiri olmuşdur.

M.Kərimovun elmi-pedaqoji fəaliyyəti 2 müəlliflik şəhadətnaməsində, 39 elmi əsərdə, tədris və tədris-metodiki vəsaitlərdə öz əksini tapmışdır.

Məzahir Məmmədəli oğlu Kərimov 2004-cü ildə dünyasını dəyişmişdir.

KƏRİMOV CƏFƏR MƏCİD OĞLU

Kərimov Cəfər 1923-cü ildə anadan olmuşdur. 1931-ci ildə 6 saylı orta məktəbin birinci sinifinə daxil olmuş, 1938-ci ildə yeddinci sinfi bitirərək Şəki Pedaqoji Texnikumuna daxil olmuşdur, oranı bitirib pedaqoji fəaliyyətə başlamışdır.

1945-ci ildə Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, 1950-ci ildə İnstitutun baytarlıq fakültəsini bitirmişdir. Sonra rayonda şəhərlərarası baytar laboratoriyada laborant, sonra baytar həkimi vəzifəsində fəaliyyət göstərmişdir. 1958-ci ildən Şəki şəhər baytarlıq müalicəxanasında baş həkim vəzifəsində çalışmışdır. 1959-cu ildə Azərbaycan elmi-tədqiqat baytarlıq institutunun qiyabi aspiranturasına qəbul olunmuşdur.

1973-cü ilə "Şəki Süd zavoduna daxil olmuş inək, camış və qoyun südünün müqayisəvi qiymətləndirilməsi və ondan hazırlanan brınzanın aminli turşu tərkibi" mövzusunda dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, baytarlıq elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. Sonralar da elmi fəaliyyətini davam etdirərək, həmin baytarlıq müalicəxanasında baş həkim

işləmişdir. Bir çox elmi əsərlərin müəllifi olmuş və bir çox konfranslarda mühazirələrlə çıxış etmişdir.

C.Kərimov həm də fəal ictimaiyyətçi idi.

Şəki "Bilik" Cəmiyyətinin kənd təsərrüfatı bölməsinin rəhbəri olmuşdur. Onun zəhmətsevərliyi və xalqa bağlılığı sayəsində uzun müddət Xalq nəzarəti şöbəsində işləmişdir.

C.Kərimov 2004-cü ildə dünyasını dəyişmişdir.

QAFAROV TELMAN ƏHMƏDİYYƏ OĞLU

Qafarov Telman 1940-cı ildə anadan olmuş, 7 saylı Şəki şəhər orta məktəbini bitirmiş, Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, Neft və Qaz mədənlərinin maşın və avadanlığı fakültəsində təhsilini davam etdirmiş, 1966-cı ildə isə Xəzər Hərbi Ali Dənizçilik Məktəbində kimyaçı-mühəndis ixtisası üzrə mütəxəssis kimi Kamçatka vilayətinə hərbi qulluğa göndərilmiş, orada Atom Sualtı qayıqlarda Radiasiyadan mühafizə xidmətinin rəisi, sonra Kimya-xidməti rəisi, Briqadanın flaqman Kimya-xidməti rəisi vəzifələrində hərbi xidmətdə olmuş, Atom reaktorunun "İstilik törədən elementlərinin" dəyişdirilməsinə bilavasitə rəhbərlik etmiş, A.N.Kosıqinin rəhbərlik etdiyi Dövlət Qəbul Komissiyasında ilkin Dəniz Qüvvələri texnikasının qəbulunda iştirak etmiş (təyyarə, vertolyot daşıyan kreyserlərin "Kefal" tipli Atom Sualtı qayığın, Qəzaya məruz qalmış Atom Sualtı qayığına Okeanda yardım göstərən "Üzən bazanın" və 629 layihə tipli 24 raketli Atom Sualtı qayığın), sonra Sahil bazasında Kimya-xidməti rəisi vəzifəsindən Kimyadan mühafizə Akademiyasına daxil olmuş ilk azərbaycanlı, 1972-ci ildən isə "Sintez-kauçuk" zavodunda Baş direktorun ayrı-ayrı sahələr üzrə müavini vəzifəsində işləmiş, 1992-ci ildə yenidən Azərbaycan Ordusuna çağırılmış, 1992-1994-cü illərdə Qarabağ müharibəsi iştirakçısı olmuş, Mülki Müdafiə Qərargahında Mühəndis-Texniki Tədbirlər şöbəsinə rəhbərlik etmiş, Sumqayıt Regional Mülki müdafiə İdarəsində 10 il qulluq etmiş və həmin vəzifədən yaş həddi üzrə təqaüdə çıxmış, I dərəcəli kapitan rütbəsi daşıyan bir şəkili balası indi Sumqayıt Dövlət Universitetində Mühafizə xidməti rəisi vəzifəsində işləyir.

Müəyyən dövrlərdə Dövlət medalları ilə təltif olunmuşdur:

- V.İ.Lenin-100
- Hərbi qulluğa görə - 10 il
- SSRİ Mülki Müdafiə Əlaçısı
- SSRİ Sanitariya Əlaçısı
- Əmək veteranı və s.

SDU-də tibbi biliklərin əsasları fənnindən dərs deyir.

Azərbaycanda ilk dəfə Mülki müdafiə sistemində lokal xəbərdarlıq sisteminin qurulması üzrə ixtiranın müəllifidir və bu sahəyə SSRİ Neft-Kimya Sənayesi Nazirliyi tərəfindən verilmiş müəlliflik şəhadətnaməsinə malikdir.

Bu ixtira imkan verir ki, mərkəzləşdirilmiş qaydada texniki qəzalar, təbii fəlakətlər və qəfil düşmən basqını zamanı əhalinin tez bir zamanda (cəmi 30 saniyə ərzində) xəbərdar etməyə imkan verir.

Atom-sualtı qayıqlarının redaktorlarının təmiri zamanı dozimetrik nəzarətin təşkili üzrə ixtiranın müəllifidir.

QAFFAROV ƏNVƏR AĞABABA OĞLU

Qaffarov Ənvər 1913-cü ildə tacir ailəsində anadan olmuşdur. Orta təhsilini Şəki şəhərində almışdır.

O, 1931-ci ildə Şəki şəhərində Kənd Təsərrüfatı Texnikumunu bitirmişdir.

Ə.Qaffarov 1939-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirdikdən sonra Dağlıq Qarabağda (Xankəndi və Şuşada) hərbi qospitalda cərrah kimi fəaliyyət göstərmişdir. Müharibə illərində Berlinə qədər getmiş mayor rütbəsinə qədər yüksəlmişdir.

O, 1941-1942-ci illərdə - Zaqafqaziya hosbitallar şöbəsinin rəisi (Zaqafqaziya cəbhəsi); 1942-1945-ci illərdə Qafqaz hospitalları cərrahiyə şöbəsinin rəisi (Ukrayna cəbhəsi); 1945-1946-cı illərdə Qafqaz hospitallar tibb şöbəsinin rəisi (Şimal qoşun qrupu) işəlimişdir.

Ənvər Qaffarov müharibə illərindən sonra öz doğma şəhərinə qayıtmış və 1966-cı ilə qədər rəhbər vəzifələrdə çalışmışdır. O, vərəm dispanserinin baş həkimi, tibb texnikumunun müdiri, şəhər xəstəxanasının baş həkimi olmuşdur.

Ə.Qaffarov 1966-cı ildə öz ailəsi ilə Bakıya köçüb və burada öz həkimlik fəaliyyətini 20 saylı poliklinikada davam etdirmişdir.

Ənvər Ağababa oğlu Qaffarov 1986-cı ildə dünyasını dəyişmişdir.

QAFFAROV İSMAYIL HÜSEYN OĞLU



Azərbaycan Respublikasında oftolmologiya tibb xidməti sahəsində xüsusi yeri olmuş, Şəki Səhiyyəsində Oftolmoloji Tibbi xidmət yaradan və onu müvəffəqiyyətlə inkişaf etdirərək Respublika səviyyəsinə çatdırılmasına nail olmuş Qaffarov İsmayıl Hüseyn oğlu 21 may 1924-cü ildə

kustar fəhlə ailəsində anadan olmuşdur.

İ.Qaffarov 1931-ci ildə natamam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 1937-1938-ci ildə həmin məktəbi bitirərək pedaqoji işçi fakültəsinə daxil olmuş, oranı isə 1940-cı ildə bitirmişdir. Elə həmin ildə İ.Qaffarov Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1947-ci ildə həmin institutu bitirərək "göz həkimi" ixtisası almış və Nuxa Səhiyyə Şöbəsinə gənc mütəxəssis kimi işə göndərilmişdir.

İ.Qaffarov əmək fəaliyyətinə 22 sentyabr 1947-ci il tarixdə Şəki səhiyyə Şöbəsində göz həkimi kimi başlamışdır. Əmək fəaliyyətinin ilk illərində ayrı-ayrı tibb ocaqlarında oftolmoloji tibbi xidməti yaratmaq, qurmaq məqsədilə İ.Qaffarov 4 saylı uşaq evində, Tibbi Dispanserdə işləmiş, burada xidməti qabiliyyəti və əməksevərliyi ilə fərqlənmişdir. Gənc olmasına baxmayaraq İ.Qaffarov göz xəstəlikləri sahəsində xüsusi fitri istedada malik olduğuna görə onu 1952-ci ildə Nuxa rayon Hərbi Komissarlığına çağırışçı gənclərin müayinə komissiyasına üzv qəbul edilir.

Əmək fəaliyyətinin ilk günlərində onun sənətinə olan dərin məhəbbəti nəticəsində təkmilləşdirmə kurslarına getmiş, elmin sirlərinə yiyələnmişdir.

1 aprel 1966-cı ildə Şəki Səhiyyəsində yeni bir tibb müəssisəsi - Göz xəstəxanası açılmışdır. İ.Qaffarov da həmin xəstəxanaya Baş həkim təyin edilmişdir.

Bundan sonra İ.Qaffarov Moskva şəhərinə təkmilləşmə kursuna getmiş və orada bəzi ağır cərrahi əməliyyatları öyrənərək şəki Göz xəstəxanasında tətbiq etməyə başlamışdır.

Əmək fəaliyyətinin sonrakı illərində İ.Qaffarov Şəki-Balakən regionunda göz xəstəlikləri sahəsində tanınmış mütəxəssis kimi bir çox dövlət əhəmiyyətli tədbirlərdə iştirak etmişdir. 1971-ci ildə İ.Qaffarov Zaqafqaziya Ofotolmoloqlarının II konfransında nümayəndə kimi iştirak etmişdir. İ.Qaffarov Qax, Balakən, Zaqatala, Oğuz, Qəbələ və İsmayıllı rayonlarından müraciət edən xəstələri konsultasiya etmiş və onlar üzərində cərrahi əməliyyatlar həyata keçirmişdir. Azərbaycan Respublikası Səhiyyə Nazir-

liyi onun bu yüksək peşə qabiliyyətini nəzərə alaraq ona "Ali" həkim ixtisası dərəcəsi vermişdir.

İ.Qaffarov işlədiyi müddət ərzində özünü yaxşı təşkilatçı, işgüzar, bacarıqlı həkim kimi göstərmiş, səhiyyənin təşkilində xidmətlərinə görə "Səhiyyə əlaçısı" fəxri adla təltif olunmuşdur.

Amansız ölüm ona aman vermədi. 1993-cü ildə İ.Qaffarov ömrünün çiçəklənən vaxtı aramızdan getdi. Onun neçə-neçə arzuları yarımçıq qaldı.

QAFFAROV MAHİR İSMAYIL OĞLU

Mahir Qaffarov 1951-ci ildə həkim ailəsində anadan olmuşdur. O, 1958-ci ildə 8 saylı orta məktəbin 1-ci sinifinə getmiş və 1968-ci ildə həmin məktəbdə orta təhsilini başa vuraraq Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. 1974-cü ildə həmin institutun müalicə-profilaktika fakültəsini bitirərək "Göz həkimi-oftolmoloq" ixtisası almış və Azərbaycan Respublikası Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda 1 illik internatura keçərək təkmilləşmişdir.

Mahir Qaffarov Səhiyyə Nazirliyinin göndərişi ilə Şəki Mərkəzi rayon xəstəxanasına işə göndərilmişdir. Gənc həkim əmək fəaliyyətinə 16 dekabr 1976-cı il tarixdə Uşaq poliklinikasında göz həkimi kimi başlamışdır. Sənətinə olan dərin maraq onu tezliklə daha geniş auditoriyada-stasionarda işləməyə sövq etmiş və o, Göz xəstəxanasına stasionarda işə başlamışdır.

Göz xəstəliklərinin incə sirlərinə bələd olmaq üçün Mahir Qaffarov Azərbaycan Respublikası Elmi-Tədqiqat Göz xəstəlikləri institutunda təkmilləşmə kursundan keçmişdir.

M.Qaffarov Göz xəstəxanasında atası ilə birgə mürəkkəb cərrahi əməliyyatların aparılmasını təşkil və icra etmişdir. M.Qaffarov 11 avqust 1987-ci il tarixdə Şəki Bölgə Qanköçürmə Mərkəzinə Baş həkim vəzifəsinə təyin olunmuşdur. Uzun müddət bu vəzifədə ləyaqətlə və hörmətlə işləmişdir. Stansiyada baş həkim işlədiyi müddətdə neçə-neçə insanların həyatı üçün lazım olan qan preparatlarının hazırlanması, rayona gətirilməsi və xəstələrə təmənnasız çatdırılması ideyası gerçəkləşdirmişdir.

M.Qaffarovun səhiyyənin təşkilində qazandığı uğurlar Səhiyyə Nazirliyinin nəzər diqqətini cəlb etmiş və Şəki Səhiyyəsinin azalmaqda olan nüfuzunu, ənənələrini bərpa etmək məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirinin 124-k saylı 25 sentyabr 2001-ci il tarixli əmri və Şəki şəhər İH Aparatının təqdimatı ilə M.Qaffarov Şəki MRX-nın Baş həkimi vəzifəsinə təyin edilmişdir. O, Baş həkim vəzifəsini icra edən gündən səhiyyənin maddi-texniki bazasının yaxşılaşdırılması, səhiyyə quruculuğu istiqamətində böyük ideyalar irəli sürmüş və son üç ildə bu ideyaları həyata keçirmişdir.

Balakən-Qəbələ iqtisadi zonasında yeganə olan "Diaqnostika şöbəsi" yaratmış və ən müasir, Avropa istehsalı olan tibbi aparaturalarla təchiz edərək əhalinin istifadəsinə vermişdir. Əksəriyyət Səhiyyə idarələrində geniş həcmli təmir işləri aparılmış, ixtisaslara uyğun avadanlıqlarla təchiz etmişdir. Uzun illər geridə qalan onkoloji tibbi xidmət sahəsi dirçəlmiş, oraya yeni kadrlar cəlb etmişdir.

M.Qaffarovun Şəki Səhiyyəsi və Şəki camaatı üçün etdiyi nailiyyətləri haqda çox saymaq və yazmaq olar. Bunların ən yaxşısını sadə Şəki camaatı bilir və qiymətləndirir.

M.Qaffarovun Şəki Səhiyyəsi və Şəki camaatı üçün yaratdığı və yaradacağı uğurlar davam etdirilir.

QAFFAROVA HÜSNİYƏ YAQUB QIZI

Qaffarova Hüsniyyə 1940-cı ildə Müsəlman dünyasında Müqəddəs Qırxlar kimi tanınan Yaqub Qaffarovun ailəsində dünyaya göz açmışdır. 1956-1957-ci dərs ilində Şəki şəhərindəki 5 saylı orta məktəbin 10-cu sinifini bitirdikdən sonra Şəki İpək Kombinatının boyaq-bəzək istehsalatında əmək fəaliyyətinə baş-

lamışdır. Bakı 1 saylı tibb məktəbini və Azərbaycan Xarici Dillər İnstitutunun Azərbaycan və ingilis dili fakültəsini bitirdikdən sonra 1968-ci ilədək 30 il müddətində Şəki şəhər R.B.Əfəndiyev adına (M.Qorki adına) 10 saylı orta məktəbdə ingilis dili müəllimi vəzifəsində işləmişdir.

H.Qaffarova ixtisasını mükəmməl bilən və ingilis dilini şagirdlərinə qabaqcıl metodiki qaydalarla öyrətməyi bacaran qabaqcıl maarif xadimi kimi nüfu qaanmışdır.

O, şagirdlərində tədris etdiyi fənnə böyük həvəs və rəğbət yarada bilmişdir. Məhz bunun nəticəsidir ki, onların bir hissəsi ingilis dili fənnini özlərinə ömürlük peşə seçmiş. Bu fənn üzrə ali təhsil almışlar.

Tədris etdiyi fənn üzrə biliyini ardıcıl olaraq artırmaq, bu sahədə mütərəqqi üsulları tətbiq etmək, prinsipiallıq, tədrisin mənafeyini heç kimə güəştə getməmək, xidməti vəzifəsinə yüksək məsuliyyət hissilə yanaşmaq onun həyat meyarı idi.

H.Qaffarovanın pedaqoji xidmətləri yüksək qiymətləndirilmiş və Azərbaycan SSR Maarif Naziri K.Rəhimovun 12 sentyabr 1986-cı il tarixli 305 saylı əmri ilə ona "Metodist müəllim" adı verilmişdir.

H.Qaffarova Şəki folklorunun bilicilərindən sayılır. Onun dilindən atalar sözləri, vəsflər, bayatılar, qoşmalar, sanamalar, rəvayətlər, lətifələr, həm də kiçik formalı, lakin çox dəyərli folklor nümunələri yazıya alınaraq Şəki Folkloru Toplularında nəşr edilmişdir.

Əsl ziyalıya xas olan xüsusiyyətlər prinsipiallıq, xeyirxahlıq, öz biliyini təmənnasız olaraq hamıya və hər kəsə öyrətmək, imkanı daxilində insanlara əl tutmaq, hamını haqq yoluna, düz yola dəvət etmək Hüsniyə Yaqub qızı Qaffarovanın təbiətinə həkk olunmuş gözəl insani keyfiyyətlərdir.

QAFARZADƏ CƏLİL DAVUD OĞLU

Cəlil Qafarzadə 1914-cü ildə anadan olmuşdur. O, 1933-cü ildə Şəki şəhər 7 saylı orta məktəbi bitirdikdən sonra elə həmin ildə Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki ATU) daxil olmuşdur. 1939-cu ildə institutu müvəffəqiyyətlə bitirdikdən sonra Vartaşen rayon (indiki Oğuz rayonu) uşaq məsləhətxanasının müdiri vəzifəsinə təyin olunmasına baxmayaraq, o, 1939-1940-cı illərdə Sovet ordusu sıralarına çağırılmışdır.

C.D.Qafarzadə hərbi xidmətə Pribaltika hərbi dairəsində 62-ci Atıcı Polkunda (Litvanın Breslav və Qretinka şəhərlərində) başlamışdır.

1941-ci ildə Böyük Vətən müharibəsi başlanır və bu zaman Cəlil Qafarzadə Leninqrada 98-ci Atıcı Dviziyasının tibb bölüyünün komandiri vəzifəsinə köçürülmüşdür.

1943-1945-ci illərdə leninqrad cəbhəsinin 30-cu Artilleriya polkunda böyük həkim vəzifəsində xidmət etmişdir.

1945-ci ildə Leninqrad cəbhəsinin 62-ci Atıcı polkuna böyük həkim vəzifəsinə köçürülmüşdür. O, 1945-1946-cı illərdə Təbriz şəhərinə (İran) IV Ordunun BAK-130 və ZaKVO 1595-ci Ayrıca Tank Əleyhinə Artilleriya polkuna göndərilmişdir.

1946-1947-ci illərdə Tbilisi şəhərindəki dviziyaya böyük həkim vəzifəsinə, 1947-1948-ci illərdə 22-ci ayrıca Aerodrom-Tikinti polkuna (Nasosno stansiyası) böyük həkim vəzifəsinə göndərilmişdir.

1948-1949-cu illərdə 370 saylı Bakı Hərbi Hospitalına köçürülmüşdür.

1949-1953-cü illərdə Azərbaycan Respublikası Pirsaat qəsəbəsində 20-ci ayrıca Aerodrom-Tikinti polkunda böyük həkim vəzifəsində fəaliyyət göstərmişdir.

1953-cü ildə ZaKVO-nun 1327 saylı Hospitalının "İnfeksiya" şöbəsinə rəis təyin edilmişdir.

1954-1960-cı illərdə Polşa Xalq Respublikasındakı (PXR) 1328 saylı Hərbi Hospitalının "İnfeksiya" şöbəsinin rəisi vəzifəsinə göndərilmişdir. 1961-ci ildə Azərbaycan Su Səhiyyə sistemində "İnfeksiya" xəstəxanasında həkim işləmişdir. Həmin ildən 1986-cı ilədək orada baş həkim vəzifəsində çalışmışdır.

1986-cı ildə təqaüdə çıxmışdır.

Gözəl ziyalı, səmimi insan, Cəlil Davud oğlu Qafarzadə xidmət etdiyi dövrlərdə ona tapşırılan işlərin öhdəsindən layiqincə gəlmiş və özünü çox qabiliyyətli həkim və bacarıqlı səhiyyə təşkilatçısı kimi göstərmişdir.

O, "Leninqradın müdafiəsinə görə", "Döyüş xidmətlərinə görə", "Almaniya üzərində qələbəyə görə", 2 dəfə "Qırmızı ulduz" və bir çox orden və medallara layiq görülmüşdür.

Qafarzadə Cəlil Davud oğlu 1996-cı ildə vəfat etmişdir.

QARAYEV ƏNVƏR VAHİD OĞLU



Ənvər Qarayev 1947-ci ildə ziyalı ailəsində anadan olmuşdur. 1962-ci ildə Oktyabr rayonu (indiki Yasamal rayonu) 25 saylı məktəbin 8-ci sinifini bitirib. Əzim Əzimzadə adına rəssamlıq məktəbinə daxil olmuş, məktəbi 1967-ci ildə bitirdikdən sonra M.A.Əliyev adına İncəsənət İnstitutunun rəssamlıq fakültəsinə daxil olmuşdur. 1973-cü ildə İnstitutu bitirdikdən sonra ordu sıralarında xidmət etmişdir.

1967-ci ildən başlayaraq respublika, ümumittifaq və beynəlxalq sərgilərdə iştirak etmişdir.

1975-ci ildə Uşaqların təsviri yaradıcılığı üzrə Respublika

Metodik Mərkəzinin əsas təşkilatçılarından biri olmuş və 3 il burada direktor müavini işləmişdir. 1977-ci ildən Azərbaycan Dövlət Televiziya Şirkətində 4 il ərzində quruluşçu rəssam vəzifəsində çalışmışdır.

1976-cı ildən SSRİ, indi isə Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Dünyanın bir çox ölkələrində Almaniyada, Polşada, Avstriyada, Macarıstanda, Rusiyada, Türkiyədə, Misirdə rəssamlıq sərgilərində iştirak etmişdir. Almaniya, Rusiya, Türkiyədə müxtəlif muzey və qalerayalarda əsərləri saxlanılır. Türkiyədə, Moskvada və Berlində fərdi yaradıcılıq sərgiləri açılıb.

2002-ci ildə Azərbaycanın Əməkdar rəssamı fəxri adı verilib. Hal-hazırda Azərbaycan Rəssamlar İttifaqının Rəyasət Heyətinin üzvü, sədrin müşaviri və Dekorativ-tətbiqi sənət bölməsinin sədridir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəssamlıq fakültəsinin dosentidir.

QASIMOV İBRAHİM İSRAFİL OĞLU



Qasımov İbrahim 1923-cü ildə anadan olmuşdur. XX əsrin 30-cu illərində Qasımovlar ailəsi Bakıya köçür. 1940-cı ildə o 132 saylı Bakı orta məktəbini əla qiymətlərlə bitirir.

1946-cı ildə Azərbaycan Sənaye İnstitutunu mühəndis-mexanik ixtisası üzrə bitirir və oxuduğu təhsildə nailiyyətlərinə görə fakültənin dekan müavini vəzifəsində saxlanılır.

Bir neçə ildən sonra təhsil fəaliyyətini mühəndis fəaliyyəti ilə əvəz edərək Respublikanın Ətsüdsənaye Nazirliyinin müəssisələrində davam etdirmişdir. Geniş imkanlara malik olan fəal ixtiraçı kimi 1962-ci ildə "Dəmir-beton alətləri üçün tutacaq" ixtirasına görə müəllif vəsiqəsini almışdır.

1963-cü ildən "Azərquraşdırmaxüsusitikinti" trestinin quraşdırma istehsalatında, trestin texniki şöbəsinin müdiri vəzifəsində və sonralar 2 saylı Bakı Tikinti Quraşdırma İdarəsinin (TQİ-2) müdiri kimi fəaliyyətini davam etdirmişdir.

Bu illərdə onun başçılıq etdiyi idarə maşınqayırmanın, neftkimyasının bir sıra əhəmiyyətli obyektlərinin tikintisində quraşdırma işlərini yüksək səviyyədə yerinə yetirmişdir. Bunlardan dəniz neftinin Bakıdan kənara axıdılması xəttinin, magistral su borularının çəkilməsini, Yeni Bakı Neftayırma zavodunda ELOUAVT qurğusunun quraşdırılmasını və bir çox işləri göstərmək olar.

Respublika Sarayının, qarşısındakı fontan kompleksinin, dənizqabağı Milli Parkdakı oxuyan işıqlı fontan kompleksinin, Bakı Məişət Kondisionerləri zavodunun, "Bakı" üzən qurğusunun tikintisində quraşdırma işlərini TQİ-2 işçiləri yerinə yetirmişdilər.

İ.İ.Qasımov artıq bu vəzifədə çalışaraq idarənin və trestin işində dəyərli və fəal iştirakına görə 1976-cı ildə Əməkdar inşaatçı adına layiq görülmüşdür.

1978-ci ildə İ.İ.Qasımov uzun sürən xəstəlikdən sonra vəfat etmişdir.

QASIMOV ƏBUZƏR FƏRƏC OĞLU

Qasımov Əbuzər 1926-cı ildə anadan olmuşdur.

1935-ci ildə 1-ci sinifə qəbul edilərək və 1942-ci ildə yeddiillik məktəbi bitirmiş, 1942-ci ildə Şəki Pedaqoji texnikumuna daxil olaraq, 1945-ci ildə bu texnikumu fərqlənmə diplomu ilə başa vurmuşdur. O, 1945-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olaraq, 1950-ci ildə həmin universitetin filologiya fakültəsini bitirmişdir.

1950-1952-ci illərdə "Şəki fəhləsi" qəzetinin məsul katibi, 1952-1954-cü illərdə redaktor müavini vəzifələrində işləmişdir.

1954-1960-cı illərdə Oğuz rayonunda çıxan "Varlı həyat" qəetinin redaktoru olmuşdur.

1960-1962-ci illərdə Moskvada Sov.İKP MK yanında Ali Partiya məktəbinin müdavimi olmuş, 1962-1965-ci illərdə Şəki rayon Partiya Dövlət Nəzarəti Komitəsinin sədri, 1966-1967-ci illərdə Şəki rayon Xalq Nəzarəti Komitəsinin sədri vəzifələrində işləmişdir.

1968-1970-ci illərdə Şəki şəhər 43 saylı Texniki-peşə məktəbinin direktoru, 1971-1972-ci illərdə Şəki şəhər kinoteatrları və kino qurğuları birliyinin direktoru, 1973-1978-ci illərdə Şəki şəhər 19 saylı orta məktəbdə direktor müavini, 1979-1993-cü illərdə Şəki şəhər 11 saylı orta məktəbdə direktor müavini, 1994-2002-ci illərdə yenidən 19 saylı məktəbdə direktor müavini vəzifələrində işləmiş, hazırda təqaüddədir.

QASIMOVA - AXUNDOVA OFELYA MİRHƏSƏN QIZI

Qasımova-Axundova Ofelya 1938-ci ildə anadan olmuşdur. 1955-ci ildə orta məktəbi bitirərək M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutuna qəbul olmuşdur.

1962-ci ildə İnstitutu bitirdikdən sonra təyinat üzrə Azərbaycan Dövlət Baş Arxiv İdarəsinin rus şöbəsində elmi işçi kimi fəaliyyətə başlamışdı. Apardığı işlər təqdirəlayiq sayılaraq Nazirlər Soveti tərəfindən Fəxri fərmanla mükafatlandırılmışdır.

1970-ci ildə Xəzər Dəniz Donanması mühəndisi və fprs dili

üzrə tərcüməçi olan həyat yoldaşı Qasımov Firuz Əliheydər oğlu ilə birlikdə Tehran şəhərinə ezam olunmuşdur.

O.M.Qasımova və F.Ə.Qasımov rus dili-fars dili üzrə Texniki İnstitutunda ixtisaslarına uyğun tədrislə, eyni zamanda tərcüməçi kimi işləyərək 1975-ci ildə vətənə qayıtmışlar.

O.M.Qasımova 1978-ci ildən Bakı şəhəri, Yasamal rayonunda 21 saylı orta məktəbdə öz ixtisası üzrə fəaliyyətini davam etdirmişdir. O, işlədiyi məktəbdə rus dili və ədəbiyyatını tədris etməklə, onu şagirdlərə sevdirməyi bacarmış, yüksək mədəniyyəti, qayğıkeşliyi ilə onların sevimli müəlliməsinə çevrilmişdir.

O.M.Qasımova müxtəlif forum, konfrans, tədbirlərdə fəal iştirak etmişdir, öz iş təcrübəsindən dəyərli dəyərli məlumatlar vermişdir və qüsursuz işinə görə Maarif Nazirliyi tərəfindən dəfələrlə yazılı, şifahi təşəkkürlər almışdır.

O.M.Qasımova səhhətinə görə 2005-ci ildən təqaüdə çıxmışdır.

QASIMOVA BİLQEYİS ƏLİ QIZI

Bilqeyis Qasımova 1922-ci ildə qulluqçu ailəsində anadan olmuşdur. 1938-ci ildə Şəki Pedaqoji məktəbini bitirmiş və 2 saylı İpək fabrikinin nəzdində olan uşaq bağçasına müdir təyin edilmişdir və fabrik Komsomol Komitəsinin katibi seçilmişdir.

Vətən göylərini almış qara buludlar, ana torpağın düşmən tapdağı altında olması 20 yaşlı Bilqeyisi vətəni müdafiəyə çağırdı. Cəsarətliyi, qorxmazlığına görə onu projektor bölməsinin komandiri təyin etdilər. 1943-cü ildən Sov.İKP sıralarına qəbul olunur.

O, "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilmişdir.

Müharibə qurtardıqdan sonra o, Zaqatalaya gəlir, əvvəl uşaq evində tərbiyəçi və 1947-ci ildə müdir təyin edilir.

1956-cı ildən 1988-ci ilədək o, Zaqatala şəhər 1 saylı uşaq bağçasına rəhbərlik etmişdir.

Bilqeyis Qasımova 23 aprel 1960-cı ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir. O, Respublikanın Əməkdar müəllimi fəxri adına, "Qabaqcıl Maarif xadimi" nişanına layiq görülmüşdür.

O, rayonun ictimai həyatında da fəal iştirak etmişdir. Rayon partiya komitəsi Təftiş Komissiyasının sədri, rayon Qadınlar Şurasının sədri işləmişdir.

1988-ci ildən fərdi təqaüdçü kimi təqaüdə çıxmışdır.

Bilqeyis Qasımova 2002-ci il oktyabr ayının 29-da vəfat etmişdir.

QASIMOVA FƏRZANƏ ZAHİD QIZI

Fərzanə Qasımova 1949-cu ildə anadan olmuşdur.

1967-ci ildə Bakı şəhərinin 175 saylı orta məktəbi bitirdikdən sonra həmin ili N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1973-cü ildə oranı bitirmiş və 1974-cü ildə terapiya üzrə internaturanı Klinik Hövzə xəstəxanasının nəzdində bitirmişdir. Təyinata görə 1974-cü ildən 12 saylı poliklinikada sahə həkimi işləmiş, 1983-cü ildə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun terapiya I kafedrasına ordinaturaya daxil olmuş və 1985-ci ildə uğurla bitirərək həmin institutun terapiya II kafedrasına assistent vəzifəsinə qəbul olunmuşdur.

1991-ci ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Mövzunun adı "Essential hipertenziyalı xəstələrdə uzunmüddətli antihipertenziv müalicə zamanı mərkəzi və periferik hemodinamikanın vəziyyəti". 1997-ci ildən həmin kafedrada dosent vəzifəsində işləyir. Hal-hazırda doktorluq dissertasiyası üzərində işləyir.

60 elmi əsərin müəllifidir.

1994-cü ildə Almaniyada keçirilən Beynəlxalq Ümumdünya və Avropa kardioloqların konqresində iştirak etmişdir. 1995-ci ildən "Dünya ətrafında ürək dostları" adlanan Ümumdünya Kardioloqların Assosiasiyasının üzvü və 1995-ci ildə İtaliyanın Vrvietto şəhərində keçirilən həmin Assosiasiyanın I Elmi və Təşkilati Beynəlxalq Konfransında iştirak etmişdir.

Dəfələrlə Rusiyada (Moskvada, Sankt-Peterburqda və s.), Tiflisdə keçirilən Beynəlxalq kardioloqların elmi konfranslarda iştirak etmiş və elmi işlərini məqalə və məruzə şəklində təqdim etmişdir.

2001-ci ildə Amerikanın nyu-York şəhərində keçirilən "Təbabətdə reabilitasiya və umminoreabilitasiya"ya aid Beynəlxalq Konfransda iştirak etmişdir və 2002-ci ildə Fransada keçirilən Beynəlxalq konfransında da iştirak etmişdir.

2003-cü ildə Avstriyada Vena şəhərində keçirilən Avropa kardioloqların hər il keçirilən Beynəlxalq konqresinə dəvət olunmuşdur.

Hal-hazırda Ə.Əliyev adına ADHTU-nun terapiya II kafedrasının dosenti kimi elmi, pedaqoji və müalicə fəaliyyətini davam etdirir.

QASIMOVA ZÜLQƏDƏ ALLAHVERDİ QIZI

Zülqədə Qasımova 1932-ci ildə anadan olmuşdur. O, 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı adını almışdır.

O, 1944-cü ildən "Şəfəq" kolxozunda fəaliyyət göstərmiş, 1948-1955-ci illərdə həmin kolxozda manqa başçısı olmuşdur.

Zülqədə Allahverdi qızı Qasımova 1955-1976-cı illərdə təsərrüfatın müxtəlif sahələrində çalışmışdır. 1948-ci ildən tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Qəhrəman anadır. O, 1976-cı ildən İttifaq əhəmiyyətli fərdi pensiyaçı olmuşdur.

QAZIYEV ŞAMİL ƏHMƏDAĞA OĞLU

Qazıyev Şamil 1918-ci ildə Nuxa şəhərində anadan olmuşdur.

Atası, Qazızadə Əhmədağa Məmməd oğlu, Nuxa Kişi Seminariyasının nəzdində olan nümunəvi məktəbin müəllimi olub, sonralar isə Bakı Kişi seminariyasında dərs deyib. 1942-ci ildə vəfat edib.

Anası, Qazıyeva Kövsər xanım Mirzə Həsən qızı müəllimə olu. 1974-cü ildə vəfat edib.

1937-ci ildə Bakıda 1 saylı orta məktəbi bitirib və Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub.

10 sentyabr 1941-ci ildə V kurs tələbəsi ikən Bakı şəhər Hərbi Komissarlığı tərəfindən cəbhəyə göndərildi. 1942-ci ildə Cənubi-Qərb cəbhəsinin 14-cü Qvardiya atıcı diviziyasının ayrıca sapyor batalyonunun baş həkimi təyin olunmuşdur.

1943-1945-ci illərdə 4-cü Ukrayna və Kareliya cəbhələrində 7-ci artilleriya diviziyasının 216-cı qvardiya artileriya alayına baş həkim təyin olunur və 1945-1946-cı illərdə həmin diviziyanın İzmayıl zenit briqadasının 101-ci minomyot alayının baş həkimi vəzifəsində xidmət edib.

4-cü Ukrayna cəbhəsində hərbi xidmətini başlayaraq (Debalçovo, Nikitovka, Donbas, Voroşilovqard, Xarkov, Krivoy-Roq, Uzyum-Barvenkovo, Barvenkovo-Lozovaya, Karel-Fin respublikası, Krasnodar, Stalinqrad cəbhələri, Moldova, Rumıniya, Mac-

arıstan, Yuqoslaviya) Avstriyanın Qraç şəhərində başa çatdırıb.

31 iyul 1946-cı ildə tibb xidməti kapitanı rütbəsində ordu sıralarından tərxis olunub. Azərbaycan Tibb İnstitutunda təhsilini davam etdirib və 1947-ci ildə bitirib. İnstitutu bitirdikdən sonra Ağstafa rayonuna sahə həkimi vəzifəsində təyinat alıb.

1948-ci ildən əvvəl DTH, sonra DİH-in 2 saylı poliklinikasında həkim-terapevt vəzifəsində işləmişdir.

1955-ci ildən 1979-cu ilə qədər həmin poliklinikanın rəisi və DİH-in Hərbi-Həkim Komissiyasının sədri vəzifələrində işləyib.

O, 1979-cu ildə tibb xidməti polkovniki rütbəsində təqaüdə çıxıb.

18 döyüş ordenləri və medallarla təltif edilmişdir. Bunlardan 2 "Qırmızı Ulduz Ordeni", 2 "Böyük Vətən müharibəsi ordeni", "Fəxri çekist", "Səhiyyə əlaçısı" nişanı və s.

Qazıyev Şamil Əhmədağa oğlu 2005-ci ilin fevralın 19-da vəfat etmişdir.

QAZIYEV QURBAN HƏBİBULLAH OĞLU

Qazıyev Qurban 1935-ci ildə anadan olmuşdur. Orta məktəbi gümüş medalla qurtarıb. 1953-cü ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyasının) Geoloji Kəşfiyyat fakültəsinə daxil olmuşdur. İnstitutda dərin biliyə yiyələnmiş Qazıyev Qurban 1958-ci ildə "Neftkimyaavtomat" (indiki "Neftqazavtomat") Elm istehsalat Birliyində ömrünün son gününə qədər çalışmışdır.

O, yüksək kvalifikasiya konstruktor olaraq neftçıxarma, neftin emalı, neft və neft məhsullarının nəqli üçün kəmərin avtomatlaşdırılması, idarə olunması sistemləri üçün çox müxtəlif 140-a qədər cihazların konstruksiyasını yaratmışdır.

Konstruksiya sahəsində bütün məsələlərin (konstruksiyanın möhkəmliyi, texnoloji cəhətdən sadəliyi, hissələrin örtüklərinin, materiallarının ətraf mühitin aqressiv təsirinə davamlılığı) həllində bir elmi tədqiqat işçisi kimi elmi əsaslandırmalardan istifadə edərdi. Onun 10-a qədər ixtiraları və 15-dən çox elmi məqalələri dərc edilmişdir.

O, kollektivdə çox incə yumoru, köməyə gələn, təmənnasız yaxşılıq edən hörmətli yoldaş idi.

Qazıyev Qurbanın konstruksiyaları bir çox SSRİ və xarici elmi texniki sərgilərin qızıl, gümüş və bürünc medallarına layiq görülmüşdür.

O, 5 iyun 2005-ci ildə Sumqayıt şəhərində vəfat etmişdir.

QƏDİROV MƏZAHİR HÜSEYN OĞLU

Məzahir Qədirov 1947-ci ildə anadan olmuşdur. 1954-cü ildə Oxud kənd orta məktəbinə getmiş, 1961-ci ildə Bakı şəhər 172 saylı orta məktəbini bitirmişdir. 1970-ci ildə Ç.İldırım adına AzPİ (indiki AzTU) tərifnamə ilə ixtisas kodu 05 01 olan "Maşınqayırmanın texnologiyası, metal kəsən dəsgahlar və alətlər" ixtisasını bitirmişdir.

Sonrakı fəaliyyəti elmi-pedaqoji olmuşdur, belə ki, institutda saxlanmış, "Kəsmə nəzəriyyəsi", "Metal kəsən alətlərin konstruksiya edilməsi və hazırlanma texnologiyası", "Maşınqayırmanın texnologiyası və tərtibatların layihələndirilməsi" dərslərini demişdir.

AzTU-da dosent, baş müəllim və dosent vəzifəsini tutmuşdur. Elmi tədqiqat işi yüksək bərk materialların pardaqlanmasına və itilənməsinə həsr olunub. Ukrayna SSR EA-nın Yüksək bərk materiallar İnstitutunda Ukrayna SSR EA-nın müxbir üzvü məş-

hur elm xadimi, texnika elmləri doktoru, professor Boris İvanoviç Kosteçkiyin rəhbərliyi altında yüksək bərk materialların sintetik almala emalı prosesini dərindən tədqiq etmiş və müvəffəqiyyətlə namizədlik dissertasiyasını müdafiə etmiş və t.e.n. alimlik dərəcsi almışdır. Eyni zamanda bu sahədə tədqiqatlarını davam etdirmiş və bunun nəticəsi olaraq müvafiq jurnallarda elmi əsərləri dərc olunmuşdur.

Beynəlxalq və respublikada keçirilən onlarla konfranslarda məruzələrlə çıxış etmişdir. Hal-hazırda müəllimlik fəaliyyətini uğurla davam etdirməklə bərabər tədris etdiyi fənlərdən elmi-metodiki vəsaitlərin müəllifidir. 6 magistr dissertasiyasının rəhbəri olmuşdur. M.Qədirov istehsalatla da sıx əlaqəsini heç vaxt itirməmişdir.

O, neft-mədən avadanlıqları istehsal edən zavodlarda təsərrüfat hesablı müqavilələr əsasında elmi-tədqiqat işlərini davam etdirmiş, istehsal olunan avadanlıqların işdə etibarlılığının və keyfiyyətinin yüksəldilməsi üçün vacib tövsiyyələr vermişdir. 2007-ci ildə qəflətən dünyasını dəyişmişdir.

QƏLƏNDƏROV SABİR ƏHMƏD OĞLU

Qələndərov Sabir 1940-cı ildə anadan olmuşdur.

1958-ci ildə Şəkidə M.F.Axundov adına 2 saylı orta orta məktəbi bitirmişdir.

1964-cü ildə Bakı şəhərində Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunu bitirmişdir.

1965-1966-cı illərdə Kirovabad (indiki Gəncə) Alüminium zavodunda mühəndis vəzifəsində çalışmışdır.

1967-1976-cı illərdə Azərbaycan Respublikası Kibernetika İnstitutunda baş mühəndis vəzifəsində çalışmışdır.

1976-1983-cü illərdə AR EA Kİ nəzdində Avtomatlaşdırma sistemlərin idarə etmə şöbəsində aparıcı mühəndis vəzifəsində çalışmışdır.

1983-1984-cü illərdə ADU nəzdində Elmi-Tədqiqat Hesablama Mərkəzində şöbə müdiri vəzifəsində çalışmışdır.

1984-1989-cu illərdə ADU nəzdində Elmi-Tədqiqat Hesablama Mərkəzində baş mühəndis vəzifəsində çalışmışdır.

1989-1991-ci illərdə ADİ nəzdində Elmi-Tədqiqat Hesablama Mərkəzində plan-təsərrüfat şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

1991-ci ildə Elmi-Tədqiqat Hesablama Mərkəzinin adı Elmi-Təsərrüfat Mərkəzinə dəyişdirilmişdir.

1991-1995-ci illərdə BDU nədində Elmi-Təsərrüfat Mərkəzində baş iqtisadçı vəzifəsində çalışmışdır.

1995-1996-cı illərdə "Tacir" Kommersiya Bankında Baş mühasib vəzifəsində çalışmışdır.

1996-2003-cü ilədək BDU nəzdində Elmi-Təsərrüfat Mərkəzində baş iqtisadçı vəzifəsində çalışmışdır.

Bir neçə dəfə mükafatlandırılmışdır.

12 elmi məqaləsi nəşr edilmişdir.

V.İ.Lenin adına mükafatın alınmasına təqdim edilmişdir.

25 aprel 2003-cü ildə Bakı şəhərində vəfat etmişdir.

QULİYEVA MİNAYƏ ƏLİƏŞRƏF QIZI

Minayə Quliyeva 1926-cı ildə anadan olmuşdur. 1944-cü ildə orta məktəbi "Qızıl" medalla qurtarıb və həmin ildə imtahansız ADTU-nin "Pediatriya" fakültəsinə daxil olub.

1949-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu "Pediatriya" ixtisası üzrə qurtarıb.

1949-1950-ci illərdə Şəki uşaq poliklinikasında həkim işləyib. 1950-1955-ci illərdə Şəki Uşaq xəstəxanasının baş həkimi işlədikdən sonra Bakı şəhərinə köçmüşdür.

1955-1957-ci illərdə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun "Pediatriya" kafedrasının ordinatoru olmuşdur.

1957-1972-ci illərdə 1 saylı Uşaq klinik xəstəxanasında baş həkimin müalicə üzrə müavini işləmişdir.

1972-ci ildən ömrünün son günlərinədək Ə.Qarayev adına 2 saylı Uşaq klinik xəstəxanasında fəaliyyət göstərmişdir.

1972-1996-cı illərdə baş həkim, 1996-cı ildən yeni doğulan uşaqların patologiyası şöbəsinin rəhbəri işləmişdir.

M.Quliyeva "Azərbaycan Respublikasının Əməkdar həkimi", "SSRİ-nin Səhiyyə əlaçısı" və SSRİ "Şərəf nişanı" ordeninə və "Rəşadətli Əməyə görə" medalına layiq görülmüşdür.

QULİYEV CAVANŞİR RƏHİM OĞLU



Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Rəhim oğlu Quliyev 22 noyabr 1950-ci ildə Şəkidə doğulmuşdur.

Orta təhsilini rusca almaqla bərabər, 6 yaşından əvvəlcə uşaq musiqi məktəbindən, daha sonra musiqi texnikumundan və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (Bakı Musiqi Akademiyasının) bəstəkarlıq fakültəsini professor C.Hacıyevin sinifindən 1975-ci ildə məzun olmuşdur.

Diplom işi "Böyük simfonik orkestri üçün "Birinci simfoniya" olmuşdur.

İşlədiyi müəssisələr və tutduğu vəzifələr:

1. 1969-1972 - Azərbaycan Teleradiosu - xalq Çalğı Alətləri Orkestri - artist

2. 1973-1990 - Az.Dövlət Teleradiosu - səs rejissoru
3. 1990-1993 - "Azkonsert" Birliyi - bədii rəhbər
4. 1980-1998 - Bakı Musiqi Akademiyası - müəllim (Partitura oxunuşu)
5. 1995-2003 - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti - müəllim (Teatrda və kinoda musiqi)
6. 1993-2003 - Azərbaycan Dövlət Milli Dram Teatrında - musiqi hissə müdiri
7. 2003-b.ğ.q. - Azərbaycan Milli Konservatoriyasında - dosent
8. Azərbaycan bəstəkarlar İttifaqının İdarə Heyətinin üzvü, Mahnı bölməsinin sədri

Musiqi əsərləri:

1. "Məhəbbət oyunu" - operetta - libretto müəllifi - Q.Rəsulov
2. "Yeddi məhbusə" - operetto - libretto müəllifi - Ə.Əmirli
3. Birinci, ikinci, üçüncü və dördüncü simfoniyalar
4. "Birinci və ikinci simli "Kvartet"
5. Simfonik orkestr və zurna üçün "Uvertüra"
6. Violino və saz üçün "Sonata"
7. Taxta nəfəslilər üçün "Kvartet"
8. Mis nəfəslilər üçün "Kvintet"
9. Trio "Karvan"
10. Poema "Bayatı"

Yuxarıdakılarla yanaşı simfonik və kamera orkestrləri, piano, xor üçün müxtəlif əsərlərin müəllifidir.

Ayrıca on bədii - 1. "Çoban bayatı". 2. "Araqarışdıran". 3. "Süd dişinin ağrısı". 4. "Qəm pəncərəsi". 5. "Girişmə, öldürər!". 6. "Lətifə". 7. "Şirbalanın məhəbbəti". 8. "Aşıq Qərib" (Gürcüfilm). 9. "Fəryad". 10. "Tövbə".

Bir sıra sənədli ("Lahıc", "Sovet Azərbaycanı", "DQMV-60", "Anarla üz-üzə" və s.) və cizgi ("Xeyir və Şər", "Çalalar" və s.) filmlərinin və 200-ə yaxın teatr tamaşalarının musiqisinin müəllifidir.

Bir çox Azərbaycan müğənnilərinin repertuarında yer alan 500-ə yaxın mahnının müəllifidir.

Azərbaycanda bəstələnmiş ilk əsgər marşının müəllifidir.

Müxtəlif dövri mətbuatda Azərbaycan musiqisinin inkişaf proble-

mlərinə dair məqalələrin, müsahibələrin, araşdırmaların müəllifidir ("Musiqi dünyası" jurnalı, "Azərbaycan qadını" jurnalı, "Şərq", "Ədalət", "Millət" və s. qəzetlər).

1992-ci ildən Əməkdar İncəsənət xadimidir.

Müxtəlif cəmiyyətlərin təsis etdiyi mükafatların sahibidir.

("Humay-2000", "Qızıl Dərviş-2001", "Şəhriyar-90")

Əsərləri Rusiya, Almaniya, ABŞ, Finlandiya, İsrail, Hollandiya, Polşa, Estoniya, Özbəkistan, Bolqarıstan, Rumıniya və s. ölkələrdə səslənmişdir.

2000-ci ildə məşhur violonçelist Yo-Yo-Ma tərəfindən sifariş edilən Çello, Fleyta və Saz üçün bəstələdiyi "Karvan" triosunun premyerası 9 iyul 2000-ci ildə Amerikada, Tanglewoodda olmuşdur.

2001-ci ildə adı Amerika Bioqrafiya İnstitutunun Ensiklopediyasına daxil edilmişdir.

QULİYEVA XURAMAN VEYSƏL QIZI

Xuraman Quliyeva 1950-ci ildə anadan olmuşdur. 1968-1973-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil almışdır. 1974-cü ildən milli Elmlər Akademiyasının nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsində çalışır. Hal-hazırda böyük elmi işçidir.

1990-cı ildə "Rus dilindən Azərbaycan dilinə kalkaetmə yolları" adlı namizədlik dissertasiyası müdafiə etmişdir. Tədqiqat işində ilk dəfə olaraq müasir Azərbaycan dilində kalkaetmə məsələləri, o cümlədən, ekstralinqvistik amillərin təsiri altında Azərbaycan dilində kalkaların yaradılması prosesi araşdırılmış, dilimizin zənginləşməsində onların rolu şərh edilmiş, müasir Azərbaycan dilinin terminologiyasının formalaşma yolları müəyyənləşdirilmişdir.

Ümumi dilçilikdə diqqət mərkəzində duran kalkaetmə problemi Azərbaycan dilçiliyində xüsusi tədqiqat obyekti kimi ilk dəfə olaraq X.Quliyeva tərəfindən tədqiq olunmuşdur. Bu sahəyə aid bir sıra məqalələrin müəllifidir.

QULİYEV HƏSƏN NURMƏMMƏD OĞLU



Həsən Quliyev 1949-cu ildə anadan olmuşdur. Məktəbi bitirdikdən sonra 1967-1972-ci illərdə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunda (indiki Neft Akademiyası) təhsil almış və mühəndis-iqtisadçı diplomunu almışdır. Təhsil aldığı müddətdə institutun elmi həyatında fəal iştirak etmiş, müxtəlif Ümumittifaq konfranslarda öz məruzələri ilə çıxış etmiş və fərmanlarla təltif edilmişdir.əmək fəaliyyətinə Respublika "Bilik" Cəmiyyətinin aparatında iqtisadi texniki məsələlər üzrə referent vəzifəsində işləmişdir.

O, 1977-1982-ci illərdə Elmlər Akademiyasının Kibernetika İnstitutunda aparıcı mühəndis, 1982-1988-ci illərdə Elmlər Akademiyasının Rəyasət Heyətində elmi katib vəzifəsində çalışmışdır.

H.Quliyev 1988-1990-cı illərdə Kosmik Tədqiqatlar Mərkəzində iqtisadi məsələlər üzrə sektor müdiri işləmişdir.

O, "Texniki tərəqqi və əməyin təşkili", "Azərbaycan SSR ümumi istehsalında maddi resursların rolu" kitablarının, bir sıra məqalələrin müəllifidir.

Həsən Quliyev hal-hazırda Milli Elmlər Akademiyasının Kibernetika İnstitutunda çalışır.

QULİYEV NURMƏMMƏD HƏSƏN OĞLU

Nurməmməd Quliyev 1905-ci ildə anadan olmuşdur. 1920-1924-cü illərdə bir sıra idarələrdə çalışmış, 1924-1930-cü illərdə Nuxa qəza komitəsinin aparatında, sonra şəhər komitəsində, daha sonra isə dairə partiya komitəsində kargüzar, şöbə katibi, ümumi şöbə müdiri, daxili işlər müdiri və məxfi hissə müdiri vəzifələrində işləmişdir. 1930-cu ilin sentyabrında nuxa Partiya dairə Komitəsinin qərarı ilə Bakıya Kənd Təsərrüfatı İnstitutuna oxumağa göndərilmiş, respublika hökumətinin qərarı ilə 1930-cu ildə Baş Siyasi İdarəyə daimi işə göndərilməsi ilə əlaqədar təhsilini yarımçıq qoymuşdur.

1941-ci ildə İran İslam Respublikasına ezamiyyətə göndərilmişdir. 1943-cü ildə Sovet Təhlükəsizlik orqanlarının Təbrizdə nümayəndəsi, Pəhləvi şəhərində ticarət nümayəndəliyinin müavini, Qəzvin şəhərində "İransovneft"in şöbə müdiri, sonra isə SSRİ-nin Təbrizdə Baş Konsulluğunun vitse-konsulu vəzifələrində işləmişdir.

N.H.Quliyev Seyid Cəfər Pişəvəri və Qulam Yəhya ilə birlikdə İranda Azərbaycan Demokratik Respublikasının yaradıcıları və rəhbərlərindən olmuş və buradakı xidmətlərinə görə polkovnik rütbəsi almış, İranın bir çox görkəmli şəxsiyyətlərinin həyatının xilas edilib Bakıya köçürülməsində böyük xidmətləri olmuşdur. Bakıya qayıtdıqdan sonra da onun Qulam Yəhya ilə dostluğu ömrünün sonlarına qədər davam etmişdir.

N.H.quliyev İrandan qayıtdıqdan sonra Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) sədr müavini vəzifəsinə təyin olunmuş, 1954-cü ildən istefaya çıxmışdır.

O, bir sıra dövlət mükafatlarına layiq görülmüşdür: "Şərəf nişanı", "Qırmızı Ulduz" ordenləri, bir sıra medallarla, Azərbaycan SSR Ali Sovetinin "Fəxri fərmanı" ilə mükafatlandırılmışdır.

1963-cü ildə Ümumittifaq Səhmdarlar Cəmiyyətinin Xarici turizm İdarəsinin başçısı iəyin olunmuş və ömrünün axırınadək çalışmışdır. Bu vəzifədə də onun böyük təşkilatçılıq qabiliyyəti üzə çıxmışdır. O, Bakıda "Azərbaycan", "Moskva" kimi mehmanxana komplekslərini, bəzi rayonlarda isə onların filiallarını yaratmışdır.

Nurməmməd Quliyev 1979-cu ildə vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

QULİYEVA NÜYVƏR XƏLİL QIZI

Nüyvər Quliyeva 1929-cu ildə anadan olmuşdur.

O, 1950-ci ildən Sosialist Əməyi Qəhrəmanıdır.

N.X.Quliyeva 1944-1947-ci illərdə Karl Marks adına kolxozda kolxozçu, 1947-1961-ci illərdə manqa başçısı, 1961-ci ildən yenidən kolxozçu kimi fəaliyyət göstərmişdir.

Nüyvər Quliyeva 1949-cu ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

QULİYEV ƏSABƏLİ MUSA OĞLU



Əsabəli Quliyev 1932-ci ildə kolxozçu ailəsində anadan olub.

1947-ci ildə Oxud kənd orta məktəbin birinci sinifinə gedərək, 1957-ci ildə məktəbi bitirmişdir. Bir il kolxozda işlədikdən sonra 1958-ci ildə ordu sıralarına çağırılıb.

1961-ci ildə ordudan tərxis olduqdan sonra Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) Mexanika fakültəsinə qəbul olunub.

1966-cı ildə institutu müvəffəqiyyətlə bitirib təyinatını Bakıdakı 11 saylı peşə məktəbində almışdır. Peşə məktəbində bir il istehsalat təlimi ustası və 3 il ixtisas fənn müəllimi işlədikdən sonra, 1971-2001-ci illərdə Azərbaycan Peşə Təhsili Komitəsinin "Elmi tədqiqat və metodiki idarəsi"nə rəis təyin olunmuşdur (Sonralar "Respublika tədris metodika kabineti" adlandırılmışdır).

2001-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun "Təhsilin idarə edilməsi" kafedrasında baş müəllim işləyir.

1977-ci ilin sentyabrından 1979-cu ilin sentyabrına qədər Kuba Respublikasının Təhsil Nazirliyində məsləhətçi işləmişdir.

1988-ci ildə keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyasının şöbə müdiri Akademik Sergey Yakreviç Batişevin rəhbərliyi ilə "Kubada Texniki Peşə Təhsilinin inkişafı" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi elmi adı almışdır.

Elmi işində peşə litseyləri və Ali Peşə məktəblərinin yaradılması ideyaları irəli sürülmüş və böyük məmnuniyyətlə qəbul olunmuşdur. Bu gün Azərbaycanda fəaliyyət göstərən peşə litseyləri onun ideyası ilə yaradılmışdır.

1997-1998-ci illərdə YUNESKO-nun peşə təhsili üzrə eksperti olmuşdur.

2003-cü il sentyabr ayının birindən Alman Texniki Əməkdaşlıq Cəmiyyətinin "Peşə təhsili müəssisələrinin istehsalat təlimi ustaları və ixtisas fənn müəllimlərinin ixtisaslarının artırılması" layihəsinin assistentidir.

40-dan artıq elmi məqalənin və bir neçə monoqrafiyanın müəllifidir.

QULİYEV İLHAM NURMƏMMƏD OĞLU

İlham Quliyev 1929-cu ildə anadan olmuşdur.

1954-cü ildə Azərbaycan Sənaye İnstitutunu (indiki ADNA) "Neft və qaz yataqlarının geofiziki üsullarla kəşfiyyatı" ixtisası üzrə qurtararaq, dağ-mədən sənayesi üzrə mühəndis geofizik ixtisasına yiyələnmişdir.

1954-1960-cı illərdə "AzNEFT Geofiziki Kəşfiyyat" trestində mühəndis geofizik vəzifəsində işləmişdir.

1960-1967-ci illərdə "AzNEFT" Birliyinin Baş Geologiya İdarəsində geoloq və böyük geoloq vəzifələrində çalışmışdır.

1967-1968-ci illərdə AMEA-nın Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda sektor rəhbəri olmuşdur.

1968-1970-ci illərdə Əlcəzair Xalq Demokratik Respublikasının Əlcəzair şəhərində "SANATRAC" Dövlət Neft Təşkilatının geofizika üzrə eksperti olmuşdur.

1970-ci ilin yanvarından, həmin ilin noyabrınadək AMEA Fizika İnstitutunun "Tətbiq" şöbəsində sektor rəhbəri işləmişdir.

1972-1979-cu illərdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Xarici əlaqələr şöbəsinin Xaricəgetmə Komissiyasının məsul katibi işləmişdir.

İ.N.Quliyev 1979-1989-cu illərdə Azərbaycan Respublikası Dövlət Kinomatoqrafiya Komitəsinin sədrinin müavini olmuşdur.

1989-1991-ci illərdə AKP MK İdeologiya şöbəsinin instruktoru işləmişdir.

1993-1998-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində (KİV) Dövlət Sirlərini Mühafizə edən Baş İdarədə böyük redaktor vəzifəsində işləmişdir.

Hazırda İlham Quliyev əmək veteranı və fərdi təqaüdçüdür.

LƏTİFOV CÖVDƏT ŞAKİR OĞLU

Cövdət Lətifov 1949-cu ildə anadan olmuşdur.

1956-1966-cı illərdə Şəki şəhər 8 saylı rus məktəbini bitirdikdən sonra Bakı Ali Ümumqoşun komandirləri məktəbinə daxil olmuşdur.

1970-1975-ci illərdə Almaniyada sovet qoşunları 1975-1986-cı illərdə Belorus hərbi dairəsində, 1986-1992-ci illərdə Zaqafqaziya hərbi dairəsində xidmət etmişdir.

1992-ci ildən Milli Ordu yaranandan ordu sıralarında xidmət etmiş, Tağım komandirindənBriqada komandiri vəzifəsinə kimi yol keçmiş və bir çox medallarla təltif edilmişdir. Qarabağ döyüşlərinin iştirakçısı olmuşdur.

1995-ci ildən hərbi təqaüdə çıxmış və hazırda rabitə sistemində fəaliyyət göstərir.

MAHMUDOV EMİN SABİT OĞLU

Mahmudov Emin Sabit oğlu (Emin Sabit oğlu) 1937-ci ildə yazıçı-dramaturq Sabit Rəhmanın ailəsində anadan olmuşdur. Anası İsmət xanım ixtisasca kimyaçıdı. Gələcək bəstəkar çox kiçik yaşlarından musiqiyə həvəs göstərməyə başlamışdır. Atası Sabit Rəhmanın musiqi təhsili olmasa da. O gözəl piano çalırdı.

1944-cü ildə Emini Bülbül adına orta ixtisas musiqi məktəbinə təyin edirlər. Onun piano müəlliməsi o dövrdə həmin

məktəbin direktoru olan görkəmli pedaqoq, bir çox məşhur Azərbaycan musiqiçilərini yetirmiş Kövkəb xanım Səfərəliyeva olmuşdur. Emin Sabitoğlu onun ən sevimli tələbələrindən biri olmuşdur. Gələcək bəstəkar ilk əsərlərini hələ məktəbdə oxuduğu illərdə yazmışdır. Bu fortopiano üçün pyeslər və bir neçə romans idi.

1954-cü ildə E.Sabitoğlu Bülbül adına məktəbi müvəffəqiyyətlə bitirərək Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə daxil olur. Burada o. dünya şöhrətli bəstəkar Qara Qarayevin bəstəkarlıq sinifində oxumağa başlayır. 1957-ci ildə təhsilini davam etdirmək məqsədilə E.Sabitoğlu P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına keçirilir və məşhur bəstəkar Yuri Şaporinin bəstəkarlıq sinifində oxumağa başlayır. 1961-ci ildə E.Sabitoğlu Moskva Konservatoriyasını əla qiymətlərlə bitirir.

Konservatoriyanı bitirdikdən sonra E.Sabitoğlu Azərbaycana qayıdır və onun ilk iş yeri "Azərbaycanfilm" kinostudiyası olur. O burada musiqi redaktoru vəzifəsində çalışır. Sonrakı illərdə o, həmçinin Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyasında) müəllim, sonralar professor vəzifəsində işləmişdir. 1994-cü ildən E.Sabitoğlu İstanbul Texniki Universitetinin xalq musiqisi Konservatoriyasına işə dəvət olunur və bu təklifi qəbul edərək orada işləməyə başlayır.

Emin Sabitoğlu 2000-ci ilin noyabrında Sabit Rəhmanın 90 illik yubileyinin keçirilməsi üçün Bakıya gəlmişdi. Yubiley noyabrın 22-də Milli dram Teatrının səhnəsində keçiriləcəkdi. Lakin həmin günü görmək bəstəkara nəsib olmadı. Noyabrın 18-i səhərə yaxın onun ürəyi qəfildən dayandı. O, Bakıda, ikinci Fəxri xiyabanda dəfn olunmuşdur.

E.Sabitoğlu musiqinin müxtəlif janrlarında bir çox dəyərli əsərlərin müəllifidir. Belə ki, o bir simfoniya, üç simfonik poema, üç kantata. Simli kvartet, skripka və fortopiano üçün poema, başqa əsərlər yazmışdır. Lakin elə musiqi janrları var ki. onlar E.Sabi-

toğlu yaradıcılığı üçün əsas, müəyyənedici olmuşdur. Bu baxımdan onun bəstələdiyi 600-dən artıq mahnı, 9 musiqili komediya, 22 bədii, 14 sənədli və mənzərə filminə, 4 qısa metrajlı filmə, çoxlu sayda teatr tamaşalarına yazılmış musiqiləri xüsusi qeyd etmək lazımdır. Azərbaycanın bir çox tanınmış müğənniləri Emin Sabitoğlunun mahnılarının ifaçıları olmuşlar. Onların arasında Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Mirzə Babayev, Yalçın Rzazadə, Flora Kərimova, İlhamə, Elmira Rəhimova, Anatollu Qəniyev, Gülağa Məmmədov, Hüseynağa Hadıyev, Akif İslamzadə, Azər Zeynalov, Brilyant Dadaşova, Zülfiyyə Xanbabayeva və başqa tanınmış ifaçıların adlarını çəkmək olar.

Emin Sabitoğlu bir çox Azərbaycan şairlərinin sözlərinə mahnılar bəstələmişdir Rnun yaratdığı mahnıların bəzilərinin adlarını şer müəlliflərinin və ilk ifaçılarının adlarını çəkmək istərdik:

1. "Ana kür" - Nəbi Xəzri - Şövkət Ələkbərova (1963)
2. "Düşürsən yadıma" - Anar - Vaqif Səmədoğlu - Mirzə Babayev (1964)
3. "Dərələr" - Nəbi Xəzri - Şövkət Ələkbərova (1966)
4. "Ağ çiçək" - Nəbi Xəzri - Şövkət Ələkbərova (1967)
5. "Çay" - Zeynal Cabbarzadə - Şövkət Ələkbərova (1966)
6. "Bakı sabahın xeyir" - İslam Səfərli - Yalçın Rzazadə (1970)
7. "Kəpənək" - Bəxtiyar Vahabzadə - Yalçın (1970)
8. "Bu gecə" - Zeynal Xəlil - Hüseynağa Hadıyev (1975-76)
9. "Sən olmuşam" - Gəray Fəzli - Hüseynağa Hadıyev (1975-76)
10. "İnsaf da yaxşı şeydi" - Rəsul Rza - Zeynəb Xanlarova (1975-76)
11. "Dağlar" - Səməd Vurğun - Şövkət Ələkbərova (1975-76)
12. "Heç xəbərin yoxdu sənin" - Əliağa Kürçaylı - Zeynəb Xanlarova (1975-76)
13. "Dağları duman alanda" - Nigar Rəfibəyli - Zeynəb Xanlarova (1975-76)
14. "Uzaq yaşıl ada" - Vaqif Səmədoğlu - Flora Kərimova (1976)
15. "Güllər" - Nigar Rəfibəyli - Şövkət Ələkbərova (1978-79)

16. "Sənsiz keçən günlərim" - Nəriman Həsənzadə - Zeynəb Xanlarova (1980-82)
17. "Sıravi Əhməd" - Rüfət Əhmədzadə - Xədicə Abbasova (1980-82)
18. "Şükriyyə" - Əhməd Cavad - Azər Zeynalov (1993)
19. "Can Azərbaycan" - Əhməd Cavad - Xədicə Abbasova (1985-87)
20. "Gəncədən gəlirəm" - Əhməd Cavad - Azər Zeynalov (1994)

Emin Sabitoğlunun ən çox sevdiyi və diqqət etdiyi janrlardan biri də musiqili səhnə əsərləri idi Azərbaycan Dövlət Musiqili komediya teatrı üçün o 9 musiqili komediyaya musiqi bəstələmişdir. Onun bu sahədə ilk təcrübəsi atası - atası Sabit Rəhmanın librettosu əsasında yadığı "Hicran" musiqili komediyası idi. Xalq artistləri Nəsibə Zeynalova Lütfəli Abdullayev (sonralar, L.Abdullayevin vəfatından sonra bu rolu xalq artisti Hacıbaba Bağırov ifa etmişdir), Səyavuş Aslanın baş rollarını ifa etdikləri bu tamaşa teatrın səhnəsində böyük uğur qazanaraq, uzun illər səhnədən düşməmiş, sonralar isə orta Asiya respublikalarında da uğurla tamaşaya qoyulmuşdur. Sonrakı illərdə həmin teatrın səhnəsində E.Sabitoğlunun bəstəkarı olduğu aşağıdakı tamaşalar səhnəyə qoyulmuşdur.

1. "Hicran" - Sabit Rəhman (1973)
2. "Nəğməli Könül" - Xalidə Hasilova (1982)
3. "Gülüş sanatoriyası" - Rüfət Əhmədzadə (1988)
4. "Hələlik" - Rüfət Əhmədzadə (1990)
5. "Qırmızı papaq" (1993)
6. "Odnajdı v Baqdade" - Kolmanovski (1996)
7. "On min dollarlıq keyf" (1997)
8. "Meşşanın zadəganlığı" (1999) (Bu tamaşanın musiqisi yazılıb teatra təhvil verilsə də əsər hələ də müəyyən səbəblər üzündən səhnələşdirilməyib)
9. "Bankir adaxlı" - Tamara Vəliyeva (2000)

Emin Sabitoğlu bir çox dram teatrları ilə yaradıcılıq əməkdaşlığı etmişdir. O, Akademik Milli Dram Teatrının bir çox tamaşal-

arına musiqi yazmışdır. Və yenə də ilk təcrübə Sabit Rəhmanın pyesi olmuşdur. Belə ki, o 1965-ci ildə atasının "Yalan" tamaşasına, sonrakı illərdə isə bir çox məşhur Azərbaycan dramaturqları, o cümlədən S.Vurğun, S.Rəhman, İ.Əfəndiyev, B.Vahabzadə, Anar, V.Səmədoğlu və başqalarının "Xoşbəxtlər", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Küləklər", "Yağışdan sonra", "Qəribə oğlan", "Adamın adamı", "Nişanlı qız", "Əliqulu evlənir", "Təhminə və Zaur", "Fərhad və Şirin" və bir çox başqa tamaşalarına musiqi bəstələmişdir. Bundan əlavə E.Sabitoğlu Sumqayıt, Gəncə, Şəki, Lənkəran, Mingəçevir, Naxçıvan, Bakı teatrlarından Dövlət kukla Teatrı, Dövlət Gənclər teatrı, Rus Dram teatrı, Gənc Tamaşaçılar teatrı və başqa teatrların tamaşalarına musiqi yazmışdır.

Emin Sabitoğlunun kino sahəsində də fəaliyyəti çox səmərəli olmuşdur. O, ən tanınmış Azərbaycan kinorejissorlarının filmlərinə musiqi bəstələmişdir. Onlardan H.Seyidbəyli, Ş.Mahmudbəyov, A.Babayev, T.Tağızadə, R.Ocaqov, V.Mustafayev və b. qeyd etmək olar. E.Sabitoğlunun bəstəkarı olduğu filmlərin siyahısı:

1. "Bizim Cəbiş müəllim"
2. "Gün keçdi"
3. "Dədə Qorqud"
4. "Ad günü"
5. "Priletela sova"
6. "İstintaq"
7. "Dantenin yubileyi"
8. "Od içində oazis"
9. "Bağlı qapı arxasında"
10. "Onun bəlalı sevgisi"
11. "Bizi bağışlayın"
12. "Park"
13. "Bəyin oğurlanması"
14. "Xram vozduxa"
15. "Dörd bazar günü"
16. "7 dney posle ubiystva"

MAHMUDOVA CEYRAN EMİN QIZI

Mahmudova Ceyran Emin qızı 1964-cü ildə bəstəkar Emin Sabitoğlunun ailəsində anadan olmuşdur. 1971-ci ildə Bülbül adına orta ixtisas musiqi məktəbinə fortopiano ixtisası üzrə daxil olmuş, 1982-ci ildə məktəbi bitirmişdir. Həmin ildə C.Mahmudova Azərbaycan Dövlət Konservatoriyasının tarixi-nəzəriyyə fakültəsinə daxil olur. Bu ali məktəbi o 1987-ci ildə qırmızı diplomla bitirmişdir və Aərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun aspiranturasına qəbul edilmişdir. Aspiranturanı müvəffəqiyyətlə bitirən C.Mahmudova İnstituta elmi işçi kimi qəbul edilmişdir.

1994-cü ildə o, "Azərbaycan təsniflərinin problemləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Memarlıq və İncəsənət İnstitutunda işləyərkən C.Mahmudova "Azərbaycan xalq musiqisinin antologiyası" fundamental nəşrinin tərtibatında yaxından iştirak etmiş, onun "Azərbaycan xalq mahnıları" adlanan I cildinin tərtibatçılarından biri olmuşdur.

1991-ci ildən C.Mahmudova Bakı Musiqi Akademiyasında əvvəl müəllim kimi, hal-hazırda isə dosent kimi çalışır. Dövri mətbuatda, müxtəlif elmi jurnallarda 30-dan artıq məqalələrlə çıxış etmişdir, bir neçə elmi-metodik işin müəllifidir. C.Mahmudova Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. 2001-ci ildə o dosent elmi adını almışdır.

MAHMUDOVA (ŞƏRİFOVA) TƏRANƏ ABİD QIZI

Mahmudova (Şərifova) Təranə Abid qızı 1969-cu ildə qulluqçu ailəsində anadan olmuşdur. 1976-cı ildə Bakı şəhəri Nərimanov rayonu 258 saylı orta məktəbin 1-ci sinifinə getmiş və 1986-cı ildə həmin məktəbi bitirmişdir.

O, 1986-cı ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Pediatriya fakültəsinə daxil olmuş və 1992-ci ildə ATU-nu bitirmişdir.

T.Mahmudova 1992-1993-cü illərdə K.Fərəcova adına ETPİ-da həkim-interna vəzifəsində çalışmışdır.

O, 1994-cü ildən hal-hazıradək Ş.Ələsgərova adına 5 saylı kliniki-doğum evində həkim-nevropotoloq vəzifəsində çalışır.

T.A.Mahmudova 1996-cı ildən elmi sahəyə həvəs göstərmişdir. 2003-cü ildə "Hamiləliyin pozulma təhlükəsi olan analardan doğulan yenidoğulmuşlarda intraleykositar mikrobicid sisteminin vəziyyəti" mövzusunda elmlər namiədi dissertasiyasını müdafiə etmişdir (elmi rəhbər ATU-nun Neonatologiya kafedrasının professoru, tibb elmləri doktoru S.Ş.Həsənov).

16 elmi məqalənin müəllifidir. Bir sıra elmi konfransların üzvü olub, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və UNİSEF tərəfindən təşkil edilmiş təlim kurslarını keçmişdir.

Təranə Abid qızı Mahmudova (Şərifova) 1999-cu ildə Yaponiyada JICA tərəfindən təşkil edilmiş təlim kursunu uğurla bitirmişdir.

MAHMUDOV FAİQ ƏDHƏM OĞLU

Mahmudov Faiq 1949-cu ildə anadan olmuşdur. 1956-cı ildə Bakı şəhəri 176 saylı orta məktəbə daxil olub, 1966-cı ildə həmin məktəbi bitirmişdir. Həmin ildə sənədlərini M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutuna vermiş və İstehsalat proseslərinin avtomatlaşdırılması fakültəsinə qəbul olunmuşdur. 1971-ci ildə institutu "Avtomatika və telemexanika" ixtisası üzrə qurtarmışdır.

1971-ci ildən Sumqayıt şəhərində "Neftkimyaavtomat" elmi-tədqiqat və layihə institutunda iş fəaliyyətinə başlamışdır. Keçmiş SSRİ-nin müxtəlif neftçıxarma məsələlərində avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi ilə məşğul olmuşdur.

1973-cü ildən 1976-cı ilə qədər M.Əizbəyov adına Aərbaycan Neft və Kimya institutunda aspiranturada təhsilini davam etdirmişdir.

1977-ci ildən Milli Elmlər Akademiyasının Fizika institutunda çalışır. İnstitutda elektron hesablama mərkəzində uzun müddət işləmişdir. Moskva şəhərində ixtisas artırma kurslarında təhsil almışdır. Hal-hazırda həmin institutda informasiyanın qəbulu və işlənməsi şöbəsində mühəndis-proqramçı vəzifəsində çalışır.

Elmi məqalələri və müəlliflik şəhadətnaməsi var.

MAHMUDOV ƏDHƏM ABDULKƏRİM OĞLU

Ədhəm Mahmudov 1914-cü ildə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1934-cü ilə kimi Şəki şəhər 7 saylı məktəbdə müəllim vəzifəsində işləmişdi. 1934-cü ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş və 1939-cu ildə həmin universitetin fizika-riyaziyyat fakültəsini bitirmişdir.

Böyük Vətən müharibəsi iştirakçıdır.

Ə.A.Mahmudov 1939-cu ildə hərbi xidmətə çağırılmışdır. İlk döyüş təcrübəsini o Finlandiya cəbhəsində keçmişdir. Keçmiş SSRİ-nin Finlandiya ilə apardığı müharibədə iştirak etmişdir. 1941-ci ildə

Böyük vətən müharibəsi başladıqdan sonra Ə.A.Mahmudov Şimali Qafqazda öz öz döyüş yolunu davam etdirmiş, Qafqaz uğrunda gedən ağır vuruşmalarda iştirak etmişdir. 1942-ci ildə yaralanmış və səhhətinə görə 1944-cü ildə ordudan tərxis olunmuşdur.

Ə.A.Mahmudov Böyük Vətən müharibəsi medalları ilə təltif olunmuşdur.

Müharibədən qayıtdıqdan sonra Mahmudov Ədhəm Abdulkərim oğlu 1944-cü ildən şəki Dövlət Müəllimləri Təkmilləşdirmə İnstitutunun riyaziyyat kafedrasında baş müəllim kimi fəaliyyətə başlamışdır.

1953-cü ildə həmin institut ləğv edildiyinə görə, Ə.A.Mahmudov Bakıya köçmüş və M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun ali riyaziyyat kafedrasında işə düzəlmişdir. O, ömrünün axırına qədər həmin kafedrada çalışmışdır. O, ali riyaziyyat üzrə dərs vəsaitlərinin müəllifidir.

Ə.A.Mahmudov 1978-ci ildə vəfat etmişdir.

MAHMUDOV TEYMUR SEYRAN OĞLU

Teymur Mahmudov 1973-cü ildə anadan olmuşdur. 1990-cı ildə Yevlax şəhər Ş.Qurbanov adına 8 saylı orta məktəbi bitirmişdir.

Əmək fəaliyyətinə orta məktəbi bitirdikdən sonra Yevlax rayonu Maddi-Texniki Təchizat Birliyinin Neft Məhsulları Anbarında başlamışdır.

1998-ci ildə Bakı Şəhər Sosial İdarəetmə və Politalogiya İnstitutunun Sosial idarəetmə və sosiologiya fakültəsini bitirmişdir.

T.S.Mahmudov bir sıra mətbuat orqanlarında fəaliyyət göstərmişdir. 1996-2002-ci illərdə o, ANS televiziyası və Türkiyənin

Samanyolu televizisyasının Azərbaycan nümayəndəliyində müxbir vəzifələrində çalışmışdır.

2002-2003-cü illərdə Bakı şəhəri Xətai rayonu İcra Hakimiyyətinin Təhsil, Səhiyyə və Mədəniyyət şöbəsində Baş məsləhətçi işləmişdir.

Mahmudov Teymur Seyran oğlu hazırda Bakı şəhər Mədəniyyət və Turizm İdarəsi Xətai rayon Mədəniyyət Mərkəzinin direktoru vəzifəsində çalışır.

MANAFOV TƏRLAN MƏMMƏD OĞLU

Tərlan Manafov 1935-ci ildə anadan olmuşdur. 1951-1952-ci tədris ilində Şəki şəhər 10 saylı orta məktəbi bitirmişdir. Həmin il M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki ADNA) Energetika fakültəsinə daxil olmuş və 1957-ci ildə "Elektrik Şəbəkələri və Sistemləri" ixtisası üzrə təhsilini fərqlənmə diplomu ilə bitirmişdir.

Təyinatla Azərbaycan Dövlət Layihə İnstitutuna layihəçi-mühəndis vəzifəsinə göndərilmişdir. 1958-ci ilin fevralında Azərbaycan Energetika Nazirliyinin əmri ilə Şki 5 saylı elektrik quraşdırma idarəsinə baş mühəndis vəzifəsinə təyin edilmişdir. 1961-ci ilin oktyabrında Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun "Kənd Təsərrüfatının elektrikləşdirilməsi" kafedrasının məqsədli aspiranturasına qəbul olunmuşdur. 1968-ci ildə P.Qoryaçkin adına "Moskva Kənd Təsərrüfatı Məhsullarının İstehsalı üzrə mühəndislik" İnstitutunun Elmi Şurasında SSRİ Elmlər Akademiyasının həqiqi üzvü, akademik İ.A.Budzko və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun dosenti B.Mustafayevin rəhbərliyi altında "Kənd elektrik şəbəkələrində elektrik yüklərinin proqnozlaşdırılması üsulları"

mövzusu üzrə namizədlik dissertasiyası müdafiə edərək texniki elmlər namizədi alimlik dərəcəsi almışdır.

Dissertasiya müdafiəsindən sonra 1968-1976-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun "Kənd Təsərrüfatının Elektrikləşdirilməsi" kafedrasında baş müəllim, dosent, kafedra müdiri vəzifəsində çalışmışdır.

1976-cı ildən 1979-cu ilə qədər Azərbaycan Neft-Kimya İnstitutunun Sumqayıt filialında "Elektrik Şəbəkələri və Sistemləri" kafedrasında müsabiqədən keçərək dosent vəzifəsində işləmişdir. 1979-cu ildən 1992-ci ilə qədər "Kaskad" adlı Zaqafqaziya Elmi İstehsalat Birliyində Baş direktorun elmi işlər üzrə müavini və eyni zamanda "Xəzri" konstruktor bürosunun baş mühəndisi işləmişdir. Konstruktor bürosu məxfi konstruksiyaların işlənməsi ilə məşğul olduğundan T.Manafov məxfi temaların işlənilməsində və bu işlərin maketlərinin hazırlanmasında yaxından iştirak etmiş, çoxsaylı hərəkətli kosmik gəmilərdə (Vımpel) rabitə sistemlərini əlaqələndirən blokların layihələrinin işlənilməsində və hazırlanmasında konstruktor kimi iştirak etmişdir.

Qəbələ RLS-də elektrorabitə komplekslərinin quraşdırılması və sazlaşdırılmasında texniki məsləhətlər vermişdir. Mütəmadi olaraq elektrorabitə sahəsində apardığı məxfi işlərin nəticələri haqqında Elmi-texniki informasiya məcmuəsində "Ekos" qabaqcıl təcrübə texniki-istehsalat məcmuəsində (1985-1992-ci illər) silsilə məqalələr dərc etdirmişdir. Bu işlərlə əlaqədar o, Moskva, Leninqrad, Kuybışev, Odessa, Kiyev, Daşkənd, Riqa və s. şəhərlərdə elmi simpozium, konfrans və elmi yığıncaqlarda iştirak edib, çıxışları və məqalələri çap olunmuşdur.

1992-ci ildən bu günə qədər Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin Dövlət əmlakının idarəedilməsi və özəlləşdirilməsi departamentində Aqrarsənaye sahələrinin özəlləşdirilməsi şöbəsinin müdiri, baş mütəxəssis, aparıcı mütəxəssis vəzifələrində çalışmışdır.

O, üç kitab, 12 səmərələşdirici təklif, 7 ixtiranın, 47 müxtəlif dillərdə çap olunmuş məqalələrin müəllifidir.

MEHDİYEV VAHİD ZÜLFÜQAR OĞLU

Vahid Mehdiyev 1929-cu ildə anadan olmuşdur. 1952-ci ildə o, Nuxa (Şəki) Kənd Təsərrüfatı Texnikumunu "əlaçı" diplomla bitirmiş, həmin ildə Kirovabad (Gəncə) Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş və orada 3-cü kursa qədər oxuduqdan sonra ailə şəraiti ilə əlaqədar təhsilini yarımçıq saxlamışdır.

1967-ci ildə Bakı Ali Partiya məktəbinə daxil olmuş, 1973-cü ildə həmin ali məktəbi bitirərək partiya, sovet, təşkilat işçisi diplomunu almışdır.

V.Z.Mehdiyev əmək fəaliyyətinə 13 yaşında adi kolxozçu və hesabdarlıqdan başlayaraq uzun müddət partiya və təsərrüfat rəhbəri vəzifələrində çalışmışdır. O, 1952-1958-ci illərdə aqronom, 1959-1963-cü illərdə Qoxmuq, Oxud, Kiş, Baltalı kəndlərində kolxoz idarə heyətinin sədri, 1965-1966-cı illərdə "1 May" kolxozu Partiya Komitəsinin katibi, 1966-1971-ci illərdə Azərbaycan KP Şəki şəhər Komitəsinin təlimatçısı, 1971-ci ildən 1989-cu ilə qədər Azərbaycan KP Şəki şəhər komitəsinin ümumi şöbə müdiri vəzifələrində işləyərək fərdi təqaüdə çıxmışdır.

O, 1988-1989-cu illərdə qaçqın problemi meydana çıxanda növbə qaydası ilə aldığı 3 otaqlı evi yerli hökumətə təhvil vermişdir ki, "yaranmaqda olan sosial problemlərə onun da bir köməyi dəysin".

V.Z.Mehdiyevin əməyi hökumət və xalq tərəfindən lazımınca qiymətləndirilmişdir. Ona "Şöhrət nişanı" ordeni, "Əməkdə fərqlənməyə görə", "Rəşadətli əməyə görə" medalları, eləcə də 1955, 1957-ci illərdə Moskvada Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin medalları və bir çox digər medallar təltif edilmişdir.

20 ildən artıq bir dövrdə Şəki şəhər XDS deputatı olmuşdur.

1974-cü ildə Moskvada (Kremldə) Sov.İKP MK-nın, respublika vilayət və digər partiya komitələrinin ümumi şöbə müdirlərinin IV Ümumittifaq konfransının iştirakçısı olmuşdur. Onun rəhbərlik və idarəetmə sahəsində səmərəli təklifləri Ümumittifaq miqyasında tətbiq edilmişdir.

Yüksək humanist duyğulara və dərin mənəvi zənginliklərə malik olan, parlaq bir ziyalı V.Z.Mehdiyev 1999-cu ildə dünyasını dəyişmişdir.

MƏCİDOV MƏCİD MƏMMƏD OĞLU

Məcid Məcidov 1939-cu ildə anadan olmuşdur. 1958-ci ildə Nuxa Kənd Təsərrüfatı Texnikumunu fərqlənmə diplomu ilə bitirmişdir.

1966-1971-ci illərdə Azərbaycan Dövlət Universitetində oxumuş, ali təhsilini başa vurduqdan sonra ADU-nun "Genetika və darvinizm" kafedrasında saxlanılmışdır. Akademik U.K.Ələkbərovun rəhbərliyi altında "Selenli birləşmələrin sitoloji və sitogenetik təsirinin tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Müəyyən olunmuşdur ki, selenli birləşmələrin antimuragen effektinin üzə çıxarılması spontan və süni mutasiyaların universallığı ilə xarakterizə olunur. İşin praktik əhəmiyyəti ondan ibarətdir ki, antimutagenlərin temperaturdan asılılıq təsiri üzə çıxarılmışdır.

Müdafiədən sonra BDU-nun "Genetika və darvinizm" kafedrasında müəllim vəzifəsində çalışmışdır. 1990-cı ildən dosentdir. Konfranslarda, elmi sessiyalarda dəfələrlə iştirak etmişdir. Xarici ölkələrdə iki məqaləsi çap olunmuşdur.

1992-ci ildə 10 ç.v. həcmində "Mutagenez və mutasiyanın analizi üsulları" adlı dərs vəsaiti nəşr edilmişdir.

MƏMMƏDOV ƏLƏFSƏR BƏXTİYAR OĞLU

Ələfsər Məmmədov 1952-ci ildə anadan olmuşdur. O. 1969-cu ildə Oxud kənd orta məktəbini tərifnamə ilə bitirmiş və həmin ildə respublika kimya olimpiadasının qalibləri sırasında olmuşdur.

Ə.Məmmədov anası Fəridə xanımın və atası Bəxtiyar kişinin xeyir-duası ilə Bakıya ali təhsil almağa gəlmiş və 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Ə.Məmmədov 1973-1977-ci illərdə AMEA Kimya Problemləri İnstitutunun əyani aspiranturasında təhsil almışdır.

1974-1975-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

O. 1980-ci ildə Tbilisi Dövlət Universitetində namizədlik dissertasiyasını, 1994-cü ildə AMEA Kimya Problemləri İnstitutunda doktorluq dissertasiyasını müdafiə etmiş, kimya elmləri doktoru alimlik dərəcəsi almışdır.

Hazırda AMEA Kimya Problemləri İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. 85-dən çox dərc olunmuş elmi əsərin müəllifidir, 4 müəlliflik şəhadətnaməsi vardır, 25-dən çox elmi əsəri xarici ölkələrdə dərc olunmuşdur, 30-dan çox beynəlxalq konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış etmişdir.

Ələfsər Məmmədov müxtəlif dövrlərdə Su Təsərrüfatı və Meliorasiya Nazirliyinin Su Problemləri İnstitutunda məsləhətçi kimi işləmişdir.

1997-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Su Təchizatı və Suayırma" kafedrasında professor vəzifəsində çalışır.

Su təchizatı və suyun təmizlənməsinə aid 12 elmi iş dərc etdirmiş, müxtəlif elmi konfranslarda bu sahəyə aid elmi məruzə

ilə çıxış etmişdir.

"Su Təchizatı və Suayırma" kafedrası üzrə 2 magistrlik və 1 namizədlik dissertasiyasının elmi rəhbəri təyin olunmuş, magistrlər üçün nəzərdə tutulan "Suyun fiziki-kimyəvi və bioloji analizi üsulları" proqramlarını tərtib etmişdir.

Hal-hazırda Azərbaycan Dövlət Neft Akademiyası, AMEA Kimya Problemləri İnstitutu, AMEA Neft Kimya Prosesləri İnstitutu, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Dövlət Universitetində (sədr akademik Abel Məhərrəmov) fəaliyyət göstərən namizədlik və doktorluq dərəcəsi verən dissertasiya şurasının və elmi seminarların üzvüdür.

Ələfsər Bəxtiyar oğlu Məmmədov 2 cildlik "ŞƏKİ. Alimlər və Ziyalılar" kitabının müəllifidir və onun haqqında daha ətraflı məlumatı Kamil Adışirinov "Qədim Türk-Oğuz yurdu Oxud", Ə.B.Məmmədov, F.R.Xalıqov "ŞƏKİ. Alim və Ziyalılar", Abel Məhərrəmov, Mirzə Allahverdiyev, Rəfiqə Əliyeva "Azərbaycan kimyaçıları", Azərbaycan Milli Ensiklopediyası və Azərbaycan Milli Elmlər Akademiyasının internet saytından əldə etmək olar.

MƏMMƏDOV ƏLİŞ ZABİT OĞLU

Əliş Məmmədov 1958-ci ildə anadan olmuşdur. Orta təhsilini Şəki rayonunun Oraban kəndində almışdır.

O, 1979-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun (indiki AzMİU) "İnşaatçı mühəndis" ixtisası üzrə qurtarmış və öz şəxsi xahişi ilə Yakutiyaya işləməyə göndərilmişdir. O, ilk əmək fəaliyyətinə Moxsoqollox qəsəbəsindəki "Yakutsənayematerialları" İstehsalat Birliyinin təmir-tikinti sexində usta kimi başlamışdır. O vaxtdan bəri fasiləsiz olaraq onun əmək fəaliyyəti Yakutiya və Xanqala mahalı ilə bağlıdır.

Ə.Z.Məmmədov 1981-ci ildə ordu sıralarında həqiqi hərbi xidmətini başa vurduqdan sonra o, yenidən öz doğma müəssisəsinə qayıdır. O, "Yakutsənayematerialları" İstehsalat Birliyində 1982-ci ildən əsaslı tikinti şöbəsinin rəisi, 1987-ci ildən isə əsaslı tikinti üzrə baş direktorun müavini vəzifələrində işləmişdir.

Gənc, savadlı, təşəbbüskar mütəxəssis, enerjili, ünsiyyətcil bir insan Ə.Məmmədov 1989-cu ildə müəssisənin kollektivi tərəfindən müsabiqə əsasında Birliyin baş direktoru vəzifəsinə irəli çəkilir. İstehsalat Birliyi "Yakutsement" Səhmdar Cəmiyyətinə çevrildikdən sonra da o, yenidən baş direktor seçilir.

Ə.Məmmədov ölkədə o vaxtkı iqtisadi böhran şəraitində zavoda rəhbərlik etmiş və bu zaman o, öz yüksək təşkilatçılığı və bacarığı sayəsində müəssisəni böhrandan çıxarmış və məhsul buraxılışını yüksək templə inkişaf etdirmişdir.

Əliş Məmmədov müəssisədə fəaliyyəti dövründə tikinti işləri ilə məşğul olmuşdur. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə 31 min kvadratmetrlik sahəsi olan yaşayış binası, 280 yerlik müasir uşaq bağçası - körpələr evi, çörək zavodu, sanatoriya-profilaktoriyalar və başqa vacib obyektlər tikilmiş və istifadəyə verilmişdir.

Uzaq şimal şəraitində obyektlərin tikintisi sahəsində böyük təcrübəyə malik Ə.Məmmədov Yakutiyanın bir çox şəhər və qəsəbələrində də mühüm obyektlərin tikintisində çox vacib rol oynamışdır. Belə ki, onun rəhbərlik etdiyi "Yakutsement" Açıq Səhmdar Cəmiyyətinin bilavasitə iştirakı ilə "Ana və uşaq" mərkəzi idman sarayı, stadion, idman mədəniyyət mərkəzi, respublikanın çayları üzərində 9 körpü-keçidlər, texniki litsey, çox sayda yaşayış və məhkəmə binaları, məktəblər inşa edilmişdir.

Tikinti və sənaye sahəsində nailiyyətlərinə görə Ə.Məmmədov "Saxa-Yakutiya" Respublikasının "Əməkdar inşaatçısı" fəxri adına layiq görülmüşdür. O, Xanqala mahalının və Saxa (Yakutiya) Respublikasının fəxri vətəndaşıdır.

Əliş Məmmədov üçün ən böyük mükafat yakutiyalıların onun böyük şəxsiyyətinə olan etibarı və hörmətidir.

МАМЕДОВ АЛИШ ЗАБИД ОГЛЫ

Мамедов Алиш Забид оглы родился в 1958 году в многодетной крестьянской семье в с. Орабан Шекинского района. После окончания в 1979 году Бакинского инженерно-строительного института с дипломом инженера-строителя, по своему личному желанию направляется в Якутию. Здесь он начал свою трудовую деятельность мастером ремонтно-строительного цеха ПО "Якутпромстройматериалы" в п. Мохсоголлох. И с тех пор его жизнь и трудовая деятельность неразрывно связана с Якутией и Хангаласским улусом.

Отслужив в 1980-81 гг. в рядах Советской Армии в п. Тикси, он возвращается на родное предприятие. С 1982 года работал начальником отдела капитального строительства, а с 1987 года заместителем генерального директора по капитальному строительству ПО "Якутпромстройматериалы".

Молодой, грамотный, инициативный специалист, энергечный и общительный человек Мамедов А.З. в 1989 году коллективом предприятия на конкурсной основе избирается генеральным директором объединения. После преобразования объединения в акционерное общества "Якутцемент" он вновь избирается генеральным директором.

Управление заводом Мамедову пришлось взять на себя в тяжелые времена, в эти годы во всей стране происходил экономический спад. Все усилия Мамедова А.З. были направлены на сохранение работоспособности предприятия, коллектива и жизнеобеспечения п. Мохсоголлох. Благодаря его высокой активности и ответственности, экономически грамотному подходу к делу, умению найти оптимальные решения проблем и установление деловых партнерских связей, предприятие преодолело спад и начало наращивать выпуск продукции.

За ведь период работы на предприятии Мамедов А.З. занимался строительными работами. Под его руководством и при непосредственном участии построены жилые дома общей площадью 31000 кв.м. современный детсад-ясли на 280 мест, хлебзавод, санаторий-профилакторий и другие важные объекты.

Получив такой богатый опыт строительства объектов в условиях Крайнего Севера, с целью создания новых рабочих мест, по инициативе Мамедов А.З., ОАО "Якутцемент" начал выступать генеральным порядчиком по строительству объектов социально-культурного назначения, как по Хангаласскому улусу, так и за его пределами. В роли генподрядчика ОАО "Якутцемент" построило Центр материнства и детства, хлебзавод и котельную Холбос, школу № 2, Дворец спорта, первую очередь стадиона г. Покровск, школы в Тит-Эбя и Качикатцах, спортивно-культурный центр в селе Чапаево, девять мостовых переходов на реках Республики, в том числе на Большой Кэтэмэ. Продолжается строительство учебно-лабораторного корпуса Октемского филиала ЯГСХА, оранжереи и технического лицея в с. Чапаево, жилого дома и дома суда в г. Ленске, школы в с. Бульгунньахтах и Тит-Ары, двух школ в Нюрбинском улусе, школы в Среднеколымском улусе и ряда других объектов.

За достижения в строительстве и строительной индустрии Мамедову А.З. присвоено звание "Заслуженный строитель Республики Саха-Якутия", он является Почетным гражданином хангаласского улуса, Почетным гражданином Республики Саха (Якутия). Но главная награда для А.Мамедова доворие и уважение якутян.

MƏMMƏDOV ÜLVİ ƏLƏFSƏR OĞLU



Ülvi Məmmədov 1982-ci ildə ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini 1989-1999-cu illərdə Bakı şəhəri 191 saylı orta məktəbdə almışdır. 1999-cu ildə Azərbaycan Texniki Universitetinin (AzTU) "Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi" ixtisasına qəbul olunmuş və oranı 2003-cü ildə həmin ixtisas üzrə ali təhsilin bakalavr pilləsini fərqlənmə diplomu ilə başa vurmuşdur.

O, 2003-cü ildə müvəffəqiyyətlə imtahan verərək AzTU-nun "Ekologiya və Həyat Fəaliyyətinin Təhlükəsizliyi" kafedrasına "Ekologiya və təbiətdən istifadə" ixtisası üzrə magistraturaya qəbul olunmuşdur.

Ü.Ə.Məmmədov 2005-ci ildə magistraturanı fərqlənmə diplomu ilə bitirərək "Ekologiya və təbiətdən istifadə" ixtisası üzrə magistr dərəcəsi almışdır.

Ü.Məmmədov AzTU-da təhsil aldığı müddətdə "Metallurq" qəzetində müxbir, şöbə müdiri, məsul katib, baş redaktor və "Azərbaycan həqiqətləri" Beynəlxalq-analitik informasiya qəzetində xüsusi müxbir vəzifələrində çalışmışdır. O, həm də paralel olaraq BMT-nin Könüllülər Təşkilatının "Xəzər ekoloji" proqramı çərçivəsində "Rüzgar ekoloji Cəmiyyəti"ndə professor İ.Mustafayevlə birgə layihə aparıcısı olmuşdur.

O, 2004-2005-ci illərdə "Avromed" İngiltərə-Azərbaycan birgə müəssisəsində selismen işləmişdir.

AzTU-da oxuduğu fakültənin dekanlığının Elmi Şurasının qərarı ilə təhsilini fərqlənmə diplomu ilə başa vurduğuna və universitetin ictimai həyatında fəal iştirakına görə ona aspiranturada təhsilini davam etdirməsinin tövsiyyə olunmasına baxmayaraq o, 2005-2006-cı illərdə Azərbaycan Milli Ordusu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

Ü.Ə.Məmmədov hərbi xidmətdən qayıtdıqdan sonra "Azərbaycan Həqiqətləri" qəzetində xüsusi müxbir kimi fəaliyyətini davam etdirir. O, respublika dövri mətbuatında şer və məqalələri ilə dövri olaraq çıxış edir.

Ü.Ə.Məmmədov 2006-cı ildə müvəffəqiyyətlə imtahan verərək Azərbaycan Milli Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunun (AMEA KPİ) "Fiziki-kimya" ixtisası üzrə aspiranturasının əyani şöbəsinə qəbul olunmuşdur və hazırda kimya elmləri doktoru, professor M.X.Ənnağıyevin rəhbərliyi altında mühüm ekoloji problemlərdən birinin həllinə həsr olunmuş "-Təbii alümosilikatlar əsasında alınmış sorbentlərlə hava axınından zərərli maddələrin tutulması" mövzusunda namizədlik dissertasiyası üzərində elmi-tədqiqat işlərini müvəffəqiyyətlə davam etdirir.

Ü.Ə.Məmmədov Azərbaycan Texniki Universitetinin və Azərbaycan Dövlət İqtisad Universitetinin alimləri, professorlar Ə.Məmmədov, F.Quliyev və başqaları ilə Ekologiyanın müxtəlif sahələrinə həsr olunmuş 10-dan artıq elmi əsərlərin müəllifidir.

O, AzTU, BDU və AMEA-da keçirilən Respublika və Beynəlxalq konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

Ü.Ə.Məmmədovun "Şəki. Alim və Ziyalılar" kitabının birinci hissəsinin və qarşınızdakı kitabın işıq üzü görməsində böyük rolu olmuşdur.

Ülvi Ələfsər oğlu Məmmədov hazırda "Həyatın işini nə bilmək olar?" adlı şer kitabını Ülvi Hislər təxəllüsü ilə nəşrə hazırlayır və o kitabdakı şerlərdən birini diqqətinizə təqdim edirik:

Min bir dərdə sən dərman ol

Bu həyatda sən bir işi,
Eylə, sonra peşiman ol.
Çalış kömək et, əl uzat,
Min bir dərdə sən dərman ol.

Bir günəş kimi alış, yan,
İşıqlansın bütün cahan.
Ədalətlə danış, din ki,
Sözün olsun ona fərman.

Gecə varsa, sən gündüz ol,
O əyrisə, sən bir düz ol.
Hər yan alovsa, sən buz ol,
Sərinlik gətir o yerə.

Xoş nəğmə ol dildə gəzən,
Xoş xəbər ol eldə gəzən.
Olma heç vaxt ürək üzən,
Ürəklərə sən qüvvət ol.

MƏMMƏDOVA GÜLYAZ ZAKİR QIZI

Məmmədova Gülyaz 1970-ci ildə anadan olmuşdur. O, 1977-1987-ci illərdə Böyük Dəhnə kəndinin 1 saylı orta məktəbində təhsil almışdır. O, 1988-ci ildə Bakı şəhərində Asəf Zeynallı adına musiqi texnikumuna daxil olmuş, 1992-ci ildə həmin texnikumu bitirmişdir.

G.Z.Məmmədova 1992-ci ildən bu günə kimi Azərbaycan Dövlət Opera və Balet teatrının solistidir. Bir çox tamaşalarda: Üzeyir Hacıbəyovun "Leyli və Məcnun"da Leyli, Z.Hacıbəyovun "Aşıq Qərib"də Şahsənəm, Ş.Axundovanın "Gəlin Qayası"nda Gülbahar, "Vaqif"də Xanəndə qız, "Arşın mal alan"da Telli kimi obrazları yaratmışdır.

Gülyaz Məmmədova 1992-ci ildən Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı teatrının solistidir. O, 1997-ci ildən Musiqi Kollecində ustad Nəriman Əliyevin sinifində muğam dərsi verir.

G.Məmmədova 1998-ci ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən Əməkdar Artist adına layiq görülmüşdür.

O, Azərbaycan İncəsənət Universitetinin tələbəsidir.

Gülyaz Zakir qızı Məmmədova 2 dəfə Avstriyada Dünya festivalında iştirak etmiş, Fransada, Türkiyədə, Almaniyada, SNQ dövlətlərində, Moskvada, Ərəb ölkələrində, Kitayda, Çində və bir çox xarici ölkələrdə Azərbaycan musiqi mədəniyyətini təbliğ etmişdir.

MƏMMƏDOVA GÜLYANAQ ZAKİR QIZI



Məmmədova Gülyanaq 1973-cü ildə anadan olmuşdur.

1980-1990-cı illərdə Böyük Dəhnə kəndinin orta məktəbində təhsil almışdır.

G.Z.Məmmədova 1992-1996-cı illərdə Asəf Zeynallı adına musiqi texnikumunda muğam ustadı Nəriman Əliyevin sinifində təhsil almışdır.

G.Z.Məmmədova 1996-cı ildə Azərbaycan Dövlət İncəsənət Universitetinə daxil olub. 2000-ci ildə həmin Universiteti bitirmişdir.

Gülyanaq Məmmədova 1998-ci ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən Əməkdar Artis adına layiq görülmüşdür.

G.Z.Məmmədova 2000-2002-ci illər isə İncəsənət Universitetinin magistri olmuşdur.

G.Z.Məmmədova 2003-cü ildə prezident mükafatçısı adına layiq görülüb. Bir çox ölkələrdə İsveçrədə "Maemo" festivalında, Avstriyada Azərbaycan musiqi mədəniyyəti günləri, Ərəb ölkələrində, Fransada Avropa Şurasının 1-illiyində, Almaniyada, Çində, SNQ dövlətlərində, türkiyədə, Peterburq və bu kimi ölkələrdə musiqi mədəniyyətini təbliğ etmişdir.

MƏMMƏDOV ETİBAR ƏBÜLFƏT OĞLU

Etibar Məmmədov 1954-cü ildə anadan olmuşdur.
1973-1975-ci illərdə sovet ordusunda xidmət etmişdir.
1978-ci ildə Donetsk orta milis məktəbini bitirmişdir.
1986-cı ildə Kiyev Ali milis məktəbini bitirmişdir.
1976-1989-cu ilədək keçmiş Sovetlər İttifaqının Luqansk və

Krasnoyarsk vilayətlərində polis orqanlarında müxtəlif vəzifələrdə işləmişdir.

1984-1989-cu illərdə Krasnoyarsk şəhəri Baykıtrnı polis şöbəsinin CAB-nin rəisi vəzifəsinədə işləmişdir.

1989-cu ildə Azərbaycan respublikasında Qarabağda erməni təcavüzkarlarının baş qaldırdığı bir vaxtda vətənpərvərlik hissi onu Vətənə qayıtmağa məcbur edir.

O, Azərbaycan Respublikasında Qaradağ rayon Polis şöbəsində cinayət axtarış müvəkkili, Azərbaycan Respublikası DİN-nin axtarış idarəsində baş əməliyyat müvəkkili, axtarış şöbəsinin rəis müavini, Şəki rayon polis şöbəsinin CAB-nın rəisi işləmişdir.

1992-ci ildə Qax rayon polis şöbəsinin rəis müavini, 1994-1995-ci illərdə Yevlax rayon polis şöbəsinin rəisi, 1995-1996-cı illərdə Quba rayon polis şöbəsinin rəisi, 1996-cı ildə Bərdə rayon Polis şöbəsinin rəisi işləmişdir.

O, dəfələrlə Qarabağda – Şuşada, Ağdamda və Laçında gedən döyüşlərdə iştirak etmişdir.

Keçmiş sovetlər ittifaqının milis orqanlarında, həmçinin Azərbaycan Respublikası daxili işlər orqanlarında işlədiyi vaxtlardla rəhbərlik tərəfindən müxtəlif fəxri fərmanlar və diplomlarla təltif olunmuşdur.

Ən yüksək mükafat isə Azərbaycan Respublikası Prezidenti H.Ə.Əliyev cənabları tərəfindən Qarabağ müharibəsində iştirakına görə 26 dekabr 1995-ci il tarixində verilmiş "İgidliyə görə" medalı olmuşdur.

MƏMMƏDOV İBRAHİM QƏRİB OĞLU

İbrahim Məmmədov 1970-ci ildə anadan olmuşdur. 1978-ci ildə Baş Göynük kənd 2 saylı orta məktəbinə daxil olmuş, 1988-ci ildə oranı əla qiymətlərlə başa vurmuşdur.

1988-1990-cı illərdə keçmiş sovet ordusunda xidmət etmişdir.

1991-ci ildə Bakı Dövlət Universitetinin hazırlıq kursuna, 1992-ci ildə isə kimya fakültəsinin birinci kursuna qəbul olunmuşdur.

1997-ci ildə BDU-nun kimya fakültəsini fərqlənmə diplomu ilə başa vurmuş, Azərbaycan Respublikası Təhsil Nazirliyinin göndərişi ilə "Neft kimyası və kimya texnologiyası" kafedrasının nəzdində fəaliyyət göstərən "Alkenilfenollar və karbonil birləşmələr kimyası" elmi-tədqiqat laboratoriyasında kiçik elmi işçi vəzifəsiənə işə qəbul edilmişdir.

2000-ci ilin may ayından həmin kafedranın dissertantı olmuş, AMEA-nın müxbir üzvü, k.e.d. prof. A.M.Məhərrəmov və k.e.d. prof. M.R.Bayramovun rəhbərliyi ilə "Sulfat anhidridilə aktivləşdirilmiş elektrofil reagentlərin bəzi olefinlərə birləşmə reaksiyaları" mövzusunda dissertasiya işini yerinə yetirməyə başlamışdır. 30 aprel 2004-cü ildə kimya elmləri namizədi alimlik dərəcəsi adını almaq üçün dissertasiya işini müdafiə etmişdir. 15-ə yaxın elmi məqalə və tezisin müəllifidir. Elmi əsərləri xarici, yerli jurnallarda çap olunmuş, Beynəlxalq və Respublika konfranslarında məruzə edilmişdir.

MƏMMƏDOV NƏSİR QƏDİR OĞLU

Məmmədov Nəsir Qədir oğlu 1955-ci ildə anadan olmuşdur. 1969-cu ildə Şəki şəhər Baş Göynük kənd orta məktəbinin 8-ci sinifini tərifnamə ilə qurtarmış və Balakən Politexnik Texnikumunun "Sənaye və mülki tikinti" ixtisası üzrə 1974-cü ildə qurtarıb. Həmin ildə Şəki Yeyinti Sənayesi Kombinatının tikintisində işə başlayıb. 1974-cü ilin dekabr ayında Ordu sıralarında xidmətə gedib. 1976-cı ildə Ordu sıralarından qayıtdıqdan sonra Şəki İpək Kombinatının nəhəng tikintisində iş icraçısı kimi əmək fəaliyyətini davam etdirib. Burada fəaliyyətini N.Məmmədov baş iş icraçısı vəzifəsində başa vurub. Birbaşa Moskvanın nəzarətində olan bu obyektin tikintisində fəal iştirakına görə Azərbaycan Sənaye Tikinti Nazirliyi tərəfindən dəfələrlə fəxri fərman və mükafatlara layiq görülmüşdür.

Növbəti mərhələdə o, işini Şəkidə Təmir Tikinti İdarəsində iş icraçısı kimi, Təzə Bazarın tkintisində cavabdeh icraçı kimi işini müvəffəqiyyətlə başa vurduqdan sonra Şəki Sənaye Tikinti Kombinatında beton tökmə sexinin rəisi, ağac emalı sexinin rəisi və 1988-ci ildə həmin kombinatın baş direktoru təyin olunmuşdur. Həmin ildən Şəki Sənaye Tikinti Kombinatının Dövlət əhəmiyyətli obyektlərin tikintisində istifadə olunan əsas inşaat materiallarının yüksək səviyyədə hazırlanıb, həmin obyektlərin tələbatına vaxtında cavab vermişdir. Həmin kombinat inşaat materiallarının istehsalı ilə yanaşı ayrı-ayrı obyektlərin müstəqil tikilib istifadəyə verilməsi ilə də məşğul olmuşdur. Bu yaxınlarda istifadəyə verilmiş Kiş kəndində ən müasir standartlara cavab verən 640 yerlik orta məktəbin tikilib istifadəyə verilməsini bu təşkilat öz üzərinə götürmüş və vaxtında yüksək səviyyədə başa çatdırmışdır. Bununla bərabər, Azərbaycanın İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala rayonlarında sel təhlükəsinə qarşı mühüm

əhəmiyyətə malik sahil bərkitmə bəndlərinin tikinti-quraşdırma işlərini, yüksək keyfiyyət və müvəffəqiyyətlə başa çatdırmışdır.

O, Azəraqrar Tikinti Açıq Tipli Səhmdar Cəmiyyətinin İdarə Heyətinin üzvüdür.

Nəsir Məmmədov hazırda Bakı və respublikanın demək olar ki, əksər rayonlarında vacib obyektlərin tikintisinə rəhbərlik edir.

MƏMMƏDOV FƏRRUX MƏMMƏD OĞLU

Fərrux Məmmədov 1915-ci ildə Şəki rayonunun Aşağı Layski kəndində anadan olmuşdur. Özünün tərcümeyi-halında yazdığı kimi, o doğma atası Həsənin 8 övladından biri idi və 2 yaşında olarkən Məmməd Əhməd oğlu Mahmudov (Ləzgi Məmməd) onu övladlığa götürərək tərbiyə vermiş, təhsil almasını təmin etmişdir. Ləzgi Məmməd əsasən tədarük-ticarət işlərilə məşğul olmuş, 1930-1932-ci illərdə Nuxa qəzasında banditizmə qarşı fəal mübarizə aparanlardan idi, bu zaman sol ayağını və sağ əlini itirmişdir. O, 1963-cü ilədək fərdi təqaüdçü olmuş və həmin il vəfat etmişdir.

Fərrux müəllimin anası Məmmədova Gülnaz Adışirin qızı 1898-ci ildə anadan olmuş, 1972-ci ildə vəfat etmişdir.

F.Məmmədov Aşağı Layski kəndində ibtidai təhsil aldıqdan sonra 1928-ci ildə Bakı şəhərinə getmiş, orada 7-illik məktəbi bitirərək 1930-cu ildə Avtomobilyolları texnikumuna daxil olaraq 1934-cü ildə orta-texniki təhsil almış, yol tikinti texniki ixtisasına yiyələnmişdir.

1934-cü ildə Tiflis Rabitə İnstitutuna daxil olaraq 1938-ci ilədək orada təhsil almış, lakin həmin il bu institutun bağlanmasilə əlaqədar olaraq Odessa Rabitə Mühəndisləri Elektrotexnika İnstitutuna keçirilmişdir. 1940-cı ildə həmin institutu bitirərək şəhər-

lərarası telefon-teleqraf stansiyaları və rabitə xətləri mühəndis-elektriki ixtisası almışdır.

1940-cı ildə Bakıya qayıdan F.Məmmədov rabitəçi mühəndis kimi həmin ilin iyul ayının 26-da Rabitə Nazirliyinin 1 saylı rabitə xətləri texniki qovşağında sahə rəisi vəzifəsində əmək fəaliyyətinə başlamış, 1941-ci il fevralın 12-dək bu vəzifədə işlədikdən sonra həmin vaxtdan 1946-cı il dekabrın 24-dək Bakı ATS-i texniki şöbəsinin mühəndisi, xətt qurğuları üzrə böyük mühəndis, Bakı ATS-nin rəisi vəzifələrində işləmişdir.

F.Məmmədov 1946-ı il dekabrın 24-dən 1 iyul 1985-ci ilədək 40 ilə yaxın bir müddətdə "Azneft" İstehsalat Birliyi Radio-telefon rabitəsi idarəsinin Baş mühəndisi, həmin vaxtdan ömrünün sonunadək qeyd olunan idarənin rəisi vəzifəsində işləmişdir. F.Məmmədov rabitəmizin sayılıb-seçilən milli kadrlarından idi. O, ixtisasını mükəmməl bilən rabitəçi-mütəxəssis, rabitənin səriştəli və bacarıqlı təşkilatçısı və rəhbərlərindən sayılırdı. Daşıdığı vəzifəyə, göstərilən etimada böyük məsuliyyətlə yanaşar, həmişə də üzü ağ, alnı açıq olardı.

O, özünü Azərbaycanın neft sənayesinin radio-telefon rabitəsi sahəsinədə yüksək ixtisaslı mütəxəssisi kimi göstərmiş, sahənin daimi fəaliyyət göstərən vahid rabitə sisteminin yaradılması üçün gərgin əmək, bilik və qüvvə sərf etmişdir. Neft Daşlarında, Bulla adasında, Əli Bayramlı şəhərində, Siyəzəndə, Səngəçalda, İmişlidə, Saatlıda, Məmmədlidə, Tərsdəllər və s. yeni neft sahələrinin istifadəyə verilməsinin rabitə ilə təmin edilməsinin fəal təşkilatçılarından və rəhbərlərindən olmuşdur. Onun bilavasitə təşkilatçılığı ilə ən yeni radio-telefon rabitəsi texnikasının neft sənayesi sahəsində tətbiq edilməsi bu sahədə ciddi irəliləyiş yaratmış, 24 kanallı Tral tipli radio-tele rabitəsi, 404 tipli 24 kanallı radiostansiya tətbiq edilmişdir. Yeni kəşfiyyat sahələri telefonlaşdırılmış, əl ilə işlədilən telefon stansiyaları avtomat stansiyalarla əvəz olunmuşdur.

F.Məmmədovun "Azneft"in radio-telefon rabitəsi idarəsinə rəhbərliyi dövründə müntəzəm olaraq istehsalat planlarının yerinə yetirilməsi təmin edilmişdir.

Radiotelefon rabitəsi idarəsinin kollektivi Azərbaycan Kommunist Partiyasının 50 illiyi şərəfinə Respublika yarışında qalib çıxaraq Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin, Azərbaycan SSR Nazirlər Sovetinin, Neft və qaz sənayesi işçiləri Həmkarları Respublika Komitəsinin Xatirə Bayrağı ilə təltif olunmuşdur.

Doqquzuncu beşillikdə sosializm yarışının yekunlarına görə radio-telefon rabitəsi idarəsi "Azneft" Birliyi müəssisələri arasında ikinci və üçüncü yerləri tutmuş, "Doqquzuncu beşilliyin qalibi" nişanı ilə təltif edilmişdir.

Onun işinə, vəzifəsinə münasibəti dəfələrlə layiqincə qiymətləndirilmişdir. F.Məmmədov "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəf nişanı" ordeni, "Qafqazın müdafiəsinə görə" medalı, "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində rəşadətli əməyə görə" medalı, "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsinin 30 illiyi" medalı, "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsinin 40 illiyi" medalı ilə təltif edilmiş, 1977-ci ildə "-SSRİ-nin Fəxri radisti" adını almış, çoxsaylı fəxri fərmanlar və təşəkkürlərə layiq görülmüşdür.

Neft sənayesi sahəsində qüsursuz və rəşadətli əməyinə görə F.Məmmədov neft Sənayesi Nazirliyinin Lenin ordeni "Azneft" İstehsalat Birliyi, Neft və Qaz sənayesi fəhlələri Həmkarlar İttifaqı Azərbaycan Respublika Komitəsinin 14 mart 1985-ci il tarixli 81(k) 95 saylı birgə əmr-qərarı ilə Fəxri fərmanla təltif edildi. F.Məmmədovun şərəfli əmək fəaliyyəti yalnız öz xidməti vəzifəsini yüksək səriştə, bacarıq və vicdanla yerinə yetirməklə bitmirdi. O, eyni zamanda dəyərli hami tərbiyəçi, pedaqoq-rabitəçi idi. Onun bilavasitə səyi, nəzarəti və atalıq qayğısı ilə Bakı Telefon Şəbəkəsində və "Azneft" İstehsalat Birliyində rabitə sahəsində onlarla bacarıqlı mütəxəssislər, rəhbər işçilər yetişdi.

Müdriklər deyirdilər ki, bir övlad dünyaya gətirib böyüdərək ədəb-ərkana çatdıran və bir ağac əkərək ona bar verənədək qulluq edən insanın dünyaya gəlməsinə dəyər. Fərrux Məmməd oğlu

ömür-gün yoldaşı Dilbər xanımla iki oğlu, üç qız böyüdüb, təlim, tərbiyə, təhsil verdilər, cəmiyyətə yüksək ədəb-ərkanlı beş vətəndaş bəxş etdilər.

Fərrux Məmməd oğlu dünyasını dəyişəndən, cismani yoxluğundan sonra da qədirbilən insanların ürəyində, qəlbində özünə yer tapdı, ikinci həyatını yaşamağa başladı. O, indiki və gələcək nəsillərə örnək olacaq şərəfli bir həyat yaşadı, Yaxşı insan, Nurani insan, Müqəddəs insan, əsl Vətənpərvər vətəndaş kimi yaddaşlarda qaldı.

MƏMMƏDOVA ZİYNƏT CABBAR QIZI

Məmmədova Ziynət 1928-ci ildə Nuxada anadan olmuşdur. 1944-cü ildə Nuxa Müəllimlər İnstitutunun "Azərbaycan dili və ədəbiyyatı" fakültəsini, sonra isə Azərbaycan Pedaqoji İnstitutunun müvafiq fakültəsini bitirmişdir. O, əmək fəaliyyətinə 1944-1946-cı illərdə rayonun Böyük Dəhnə kənd orta məktəbində müəllimliklə başlamışdır.

Z.Məmmədova 1945-ci ildə Şəhər Komsomol Komitəsində məsul işlərdə: şöbə müdiri, I və II katib vəzifəsində çalışmışdır. Bu dövrdə onun gənclərlə işləmək qabiliyyəti, işgüzarlığı və təşkilatçılıq bacarığı ilə Şəki cəmiyyətinin böyük hörmətini qazanır. Bu illərdə o, həmçinin Azərbaycan Lenin Komsomol Cəmiyyətinin plenum üzvü olmuşdur.

1954-1963-cü illərdə Z.Məmmədova şəhər 11 saylı orta məktəbdə Azərbaycan dili və və ədəbiyyatı müəllimi işləmişdir.

1963-1967-ci illərdə Z.Məmmədova Şəki Tibb məktəbinə tədris işləri üzrə direktor müavini təyin edilir. Bu dövrdə o, həmçinin Rayon Birləşmiş Xəstəxanasının partiya təşkilatı katibi

vəzifəsində çalışmışdır.

Bu işlərdə o öz prinsipial mövqeyi və işinə olan ciddi münasibəti ilə hamının hörmətini qazanır.

1967-ci ildə Z.Məmmədova daha məsul vəzifəylə Şəki Pedaqoji məktəbinə direktor təyin edilir. 1972-ci ildə dövrün intriqalarından bezib vəzifəsindən imtina edir və şəhər 7 saylı orta məktəbə direktor müavini vəzifəsində işləməyə başlayır.

Şəhər əhalisi içərisində böyük hörmət sahibi olan Z.Məmmədova 1963-1972-ci illərdə Şəki şəhər Qadınlar Şurasının sədri olmuşdur.

1990-cı ildən təqaüddədir.

MƏMMƏDOVA SEVDA CƏBRAYIL QIZI

Məmmədova Sevda 1955-ci ildə anadan olmuşdur.

1972-ci ildə M.F.Axundov adına Xarici Dillər İnstitutuna daxil olmuşdur. 1976-cı ildə institutu bitirmişdir.

1979-cu ildən Azərbaycan Texniki Universitetinin rus dili kafedrasında müəllim vəzifəsində çalışırdı.

1991-ci ildə Moskva şəhərində "Ali məktəblərin tədris televiziyasından istifadə etməklə aərbaycanlı tələbələrin rus dilində şifahi nitqinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1995-ci ildən Azərbaycan Texniki Universitetinin rus dili kafedrasında dosent vəzifəsində çalışır.

45-dən çox elmi məqalələrin, tezislərin, metodiki vəsait və göstərişlərin, rus dili dərsliyinin və müasir tələblərə cavab verən işçi Proqramı hazırlamışdır. Bütün bunları nəzərə alan (müəlliflərdən biri Sevda xanımdır) 2003-cü ildə yeni "Rus dili" dərsli-

yi hazırlamışdır. Sevda xanım hal-hazırda "Sopostavitelğno-tipoloqiçeskoe izuçenie proüessa perexoda odnoy çasti reçee v druquö v azerbaydjanskoqo i russkoqo əzıka" mövzusunda doktorluq dissertasiyası işi üzərində işləyir.

MƏMMƏDOVA SOLMAZ VƏLİCAN QIZI

Solmaz Məmmədova 1952-ci ildə anadan olmuş, 1969-cu ildə isə orta məktəbi bitirmişdir. Elə həmin ili o, Şəki Pedaqoji Texnikumuna daxil olur və 1970-ci ildə oranı bitirir. Bir müddət müəllim işlədikdən sonra, Azərbaycan Pedaqoji İnstitutuna daxil olur. O, institutu bitirdikdən sonra uzun müddət Şəkidə 19 saylı orta məktəbdə müəllim və dərs hissə müdiri işləmişdir.

S.Məmmədova Azərbaycan Müəllimlər İnstitutunun ixtisasartırma kursunu bitirərək, psixoloq ixtisasına yiyələnir. 1997-ci ildən həmin institutda məktəbə psixoloji xidmət kabinetində metodist kimi fəaliyyətə başlayır və 1998-ci ildən kabinetin müdiri vəzifəsinə təyin edilir. O, məktəbə psixoloji xidmət kabinetinin fəaliyyətə başlayarkən ilk növbədə kabinetin pedaqoji-metodik tələblər baxımından tərtib edilməsinə xüsusi diqqət yetirmiş və bu sahədə xeyli iş görmüşdür. Belə ki, psixoloji xidmət işinin elmi-metodik istiqamətini əks etdirən stendlər, albom və praktik psixoloqlara metodik kömək məqsədilə hazırlanmış nümunəvi iş planları, test və anket sorğuları hazırlamışdır. S.Məmmədova məktəbə psixoloji xidmət işini yüksək səviyyədə qurmaq üçün müasir metod və vasitələrdən istifadə etməyə çalışır. O, bununla yanaşı respublika, rayon və şəhər miqyasında təşkil etdiyi elmi-praktik konfranslarda və ixtisasartırma kurslarında psixoloji xidmətin aktual məsələlərinə dair müxtəlif

mövzularda məruzə və çıxışlar edir.

Məktəblərdə fəaliyyət göstərən praktik psixoloqlara elmi metodiki köməkliyini S.Məmmədova heç vaxt əsirgəməmişdir. O, bir neçə elmi məqalənin müəllifidir.

Hal-hazırda "Azərbaycanın görkəmli psixoloqlarının həyat və fəaliyyəti"ni əks etdirən kitab üzərində iş aparır.

Azərbaycanda Psixoloqlar Assosiasiyasının üzvü, S.Məmmədova Azərbaycan Müəllimlər İnstitutunda Psixoloji xidmət şəbəkəsinin formalaşması ilə psixologiyanın təlim-tərbiyə prosesinə tətbiqi sahəsində mahiyyətcə yeni mərhələlərlə işini davam etdirir.

Məktəbə psixoloji xidmət sahəsində tanınmış müəllimlərdən biri kimi 20-yə qədər tezis və 18-ə qədər məqalənin müəllifidir.

MƏMMƏDOV SƏLHAB İSA OĞLU

Səlhab Məmmədov 1943-cü ildə anadan olmuşdur.

O, 1962-1968-ci illərdə Tbilisi Dövlət Rəssamlıq Akademiyasında təhsil almışdır.

1970-ci ildən bu günə kimi Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

1982-1988-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının Məsul Katibi olmuşdur.

S.Məmmədov 1988-ci ildən Azərbaycan respublikasının əməkdar incəsənət xadimidir.

1989-1993-cü illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) müəllim kimi fəaliyyət göstərmişdir. O, 1993-1999-cu illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti olmuş və 1993-cü ildən bugünə kimi Azərbaycan

Rəssamlar İttifaqının Katibidir.

Monumental saxsı və metalişləmə pannolar, nəqqaşlıq, qrafika lövhələri, tirajlar, çoxsaylı mənzərə əsərləri S.Məmmədovun geniş bədii düşüncə dairəsinin nümunələridir. Lakin, ustad sənətkarı fərqləndirən daha bir başlıca əlamət də mövcuddur. O, fəza tutumunu görmək həssaslığında yüksək məharətə malikdir. Bu baxımdan rəssam ekspozisiya üçün ayrılan sərgi zallarının tektonikasını, əsərlərin ən münasib tərzdə yerləşdirilməsini yaxşı bacarır. Beləliklə, bu əvəzedilməz xüsusiyyətin nəticəsində nümayiş etdirilən sənət əsərləri sanki yeni, bədii səslənmə dairəsi qazanır.

Bu və digər keyfiyyətlərinə görə S.Məmmədov dəfələrlə Amerika, Kanada, Yaponiya, Çin, Fransa, İtaliya, Almaniya, avstriya, Hollandiya, Misir, türkiyə, MDB ölkələrdə açılan bədii sərgilərin təşkilatçısı olmuş, baş rəssam və ya dizayner vəzifələrinin icrası üçün dəvət olunmuşdur. Rəssamın öz əsərləri isə özünəməxsus bədii təsəvvürləri ilə seçilərək şöhrət qazanmışdır.

Yaradıcı maraqlarının müxtəlifliyinə baxmayaraq, Səlhab Məmmədovun bütün əsərləri parlaq şəxsiyyət möhürü ilə həkk edilmişdir. Hər şeydən əvvəl onun bədii işləri milli mövzu və mənbələrə bağlanır, yüksək peşəkarlıq səviyyəsi ilə seçilir.

Xalqının tarixində müxtəlif dövrlərin ən dərin laylarını açıqlamış milli köklər rəssamın bir çox əsərində öz əksini tapır. Bunların içərisində həm "Naxçıvan", mehmanxanasının parlaq vitrajlarını, həm də Qobustana həsr edilmiş 16 kompozisiyasını misal çəkmək olar.

Səlhab Məmmədovun 30-dan çox elmi, publisistik məqalələri var.

Onun sənəti güclü yaradıcılıq üslubu və mahir sənətkarlığı ilə yadda qalır. Onun yaradıcılıq yolu öz bədii təfəkkürünü və təəssüratlarını geniş, mükəmməl inkişaf etdirən, daim təcrübəsini artıran ustad sənətkarın məntiqli sənət yoludur.

O, 1999-cu ildən bu günə kimi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru, Elmi şuranın üzvü, 2004-cü ilin oktyabr ayından isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının

Beynəlxalq Əlaqələr üzrə prorektoru vəzifəsində çalışır.

Səlhab İsa oğlu Məmmədov 2006-cı ilin dekabr ayında "Azərbaycan Respublikasının Xalq Rəssamı" fəxri adına layiq görülmüşdür.

S.Məmmədov "Təsviri incəsənətdə rəsm" kimi maraqlı elmi əsərin müəllifidir. Əsər rəsm sənətinin yaranması və inkişafından bəhs edir, ali məktəb tələbələri üçün lazımi dərs vəsaitidir.

O, 20 ildən artıqdır ki, Rəssamlar İttifaqının katibi və sədr müavinidir, keçmiş SSRİ Rəssamlar İttifaqının bədii şuralarına və sərgi komitələrinə dəfələrlə üzv seçilmişdir.

MƏMMƏDOVA NAZƏNDƏ KNYAZ QIZI

Nazəndə Məmmədova 1969-cu ildə anadan olmuşdur. 1986-cı ildə Baş Zəyzid kənd orta məktəbinin 10-cu sinifini əla qiymətlərlə qurtarmış, həmin il SSRİ-nin 50 illiyi adına APXDİ-nin ingilis-alman dili fakültəsinə daxil olmuş, 1991-ci ildə institutu əla qiymətlərlə bitirmişdir.

İnstitutu bitirdikdən sonra Vərəzət kənd orta məktəbində ingilis dili müəllimi vəzifəsində çalışmış, işlədiyi müddət ərzində həmin kollektivin dərin hörmətini qazanmışdır.

2000-ci ildən Azərbaycan Dillər Universitetinin leksikologiyası kafedrasında öz fəaliyyətini davam etdirir.

N.K.Məmmədova hal-hazırda professor Z.Ağayevin rəhbərliyi altında elmi işlə məşğuldur, 6 məqaləsi çapdan çıxmışdır. Hal-hazırda orta məktəblərin aşağı sinif şagirdləri üçün dərs vəsaiti üzərində işləyir.

MƏMMƏDOV ŞÜKÜR ŞÜKÜR OĞLU

Şükür Məmmədov 1956-cı ildə ziyalı ailəsində anadan olmuşdur. Orta təhsili şəki 10 saylı məktəbində aldıqdan sonra 1973-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Meyvə-tərəvəz və Üzümçülük fakültəsinə qəbul imtahanlarını müvəffəqiyyətlə verib, həmin fakültəyə daxil olmuşdur. 1978-ci ildə İnstitutu fərqlənmə diplomu ilə başa vurub üzümçülük üzrə alim-aqronom ixtisasına yiyələnmişdir.

İş fəaliyyətinə 1979-81-ci illərdə İsmayıllı rayonunda təyinat üzrə sahə aqronomluğundan başlamış, iri üzümçülük sovxozunun baş aqronomu, ismayıllı İstehsalat Aqrar Birliyində baş aqronom müavini, kənd təsərrüfatı şöbəsinin rəisi kimi vəzifələrdə çalışmışdır. İşlədiyi müddət ərzində statdan kənar rayon Partiya Komitəsinin inspektoru, rayon komsomolu komitəsinin katibi, "Zəhmətkeş" qəzetinin k/t şöbəsinin müxbiri, rayon partiya komitəsinin büro üzvü kimi ictimai vəzifələri yerinə yetirmişdir.

1982-ci ildən elmə olan marağı onu Azərbaycan Elmlər Akademiyasının Genetika və Seleksiya İnstitutuna gətirib çıxardı. Müsabiqə yolu ilə kiçik elmi işçi vəzifəsinə qəbul olunmuş və institutun Şəki Elmi Tədqiqat bazasında elmi fəaliyyətə başlamışdır.

Fəaliyyəti dövründə Azərbaycanın canlı keçmişi olan xalq seleksiyası sortlarının aşkar edilməsi, toplanması, elmi cəhətdən öyrənilməsi və onların əsasında genofond bağının salınması işləri ilə məşğul olmuşdur. Ciddi elmi axtarışlara 1985-ci ildən başlamış və bununla əlaqədar beş il Moldaviya Elmlər Akademiyasının Botanika İnstitutunda Moldaviyanın əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor İvan Sergeyeviç Rudenkonun rəhbərliyi altında elmi axtarışlar aparmışdır.

1990-cı ildə Azərbaycan Elmlər Akademiyasının Botanika İnstitutunun aspiranturasına daxil olub, Akademiyanın müxbir üzvü, biologiya elmləri doktoru. Professor Maqsud Qurbanovun rəhbərliyi altında "Böyük Qafqazın Cənub yamaclarında yayılmış adi zoğalın bioekoloji xüsusiyyətləri və inkişaf perspektivləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Dissertasiya mövzusu aktual bir məsələnin - Şəki-Zaqatala bölgəsinin dağ yamaclarında adi zoğalın dəniz səviyyəsindən müxtəlif hündürlüklərə görə yayılma arealını, bioekoloji fə forma müxtəlifliyinin öyrənilməsini əhatə edir. O, bir sıra elmi məqalənin müəllifi, 3 müəlliflik şəhadətnaməsi var. Bir sıra elmi konfranslarda və simpoziumlarda məruzələrlə çıxış etmişdir.

Hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Genetik Ehtiyatlar İnstitutunun Şəki Elmi-Tədqiqt Bazasının rəhbəridir.

MƏMMƏDOVA DÜRRƏ ƏLİABBAS QIZI

Dürrə Məmmədova 1923-cü il dekabrın 25-də Şəki şəhərində anadan olub. 1940-cı ildə Bakı Əczaçılıq Texnikumunu bitirib. Təhsilini bitirdikdən sonra Şəki şəhərindəki 85 saylı aptekə müdir təyin edilir.

1941-ci il iyunun 22-də Böyük Vətən müharibəsi başlayır. 17 yaşlı Dürrə Məmmədova da müharibənin birinci günü ilk könüllülər sırasında cəbhəyə yollanır. müharibənin ilk günlərində Qara Dəniz Donanmasındakı 227 saylı ekspedisiya şöbəsinin sanitar anbarına rəis təyin olunub. O, fəaliyyətini 1948-ci ilədək Hərbi Dəniz Donanmasının Hospitalında davam etdirdi.

1951-ci ildən 1961-ci ilədək Primorsk Vilayətinin Sovet körfəzi şəhərindəki 16 saylı aptekdə müdir vəzifəsində, sonralar

Çin Xalq Respublikasının Port-artur şəhərində çalışmışdır.

1961-ci ildə Bakıya qayıdan Dürrə Məmmədova 329 saylı aptekdə 40 ildən çox reseptçi-nəzarətçi vəzifəsində işləyib.

O, Azərbaycan Respublikası Ali Sovetinin fəxri fərmanları, digər fəxri fərmanlarla təltif edilib, "Səhiyyə əlaçısı", "Əmək şücaəti", "Fəxri şücaət", "Azərbaycan Respublikasının Əməkdar tibb işçisi" adlarına layiq görülüb. Onun haqqında müxtəlif mənbələrdə məlumatlar dərc olunub.

Dürrə Əliabbas qızı Məmmədova 31 avqust 2005-ci ildə vəfat edib.

MƏMMƏDƏLİYEV VASİM MƏMMƏDƏLİ OĞLU

Vasim Məmmədəliyev 1942-ci ildə anadan olmuşdur.

O, 1949-1959-cu illərdə Bakı şəhər 113 saylı orta məktəbdə oxumuşdur.

V.M.Məmmədəliyev 1959-1964-cü illərdə BDU-nun Şərqşünaslıq fakültəsində ərəb filologiyası ixtisası ürə təhsil almışdır.

1964-1967-ci illərdə BDU-nun aspirantı olmuşdur.

V.M.Məmmədəliyev 1968-ci ildə Tbilisi Dövlət Universitetində "Müasir Ərəb-Azərbaycan ədəbi dilində və İraq dialektində felin zaman formalarının müqayisəli-tipoloji təhlili" mövzusunda namizədlik, 1974-cü ildə həmin universitetdə "Müasir ərəb dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1978-ci ildən professordur.

Professor V.M.Məmmədəliyevin elmi nəticələri ərəb dilçiliyi və ümumi dilçilik sahələrində (eləcə də Azərbaycan dilçiliyində), islamşünaslıqda, Ərəb-Azərbaycan ədəbi-mədəni əlaqələrində geniş istifadə olunur.

Professor V.M.Məmmədəliyev bir çox ölkələrdə beynəlxalq və regional konfransların iştirakçısı olub.

Professor V.M.Məmmədəliyev 16 dissertasiya işinə rəhbərlik, 30-dan artıq dissertasiya işinə rəsmi opponentlik etmişdir.

Professor V.M.Məmmədəliyev İraq Elmlər Akademiyasının (1989), islam Təşkilatı Konfrnsı nədində İslam Hüquqi Akademiyasının (1994), Suriya Quran Elmləri və Ərəb Filologiyası Akademiyasının (1995) üzvü seçilmişdir.

Professor V.M.Məmmədəliyev BDU-nun şərqşünaslıq fakültəsinin dekanı (1981-1991), prorektoru (1991-1992) vəzifələrində çalışmışdır.

Hal-hazırda BDU İlahiyyat fakültəsinin dekanı, Ərəb filologiyası kafedrasının müdiridir. O, dünyanın müxtəlif ölkələrində çap olunmuş 300-dən çox elmi əsərin, 20 kitabın müəllifidir.

Professor V.M.Məmmədəliyev 1991-ci ildən indiyə qədər AzTV-də "Haqqın-dərgahı" adlı dini verilişin aparıcısıdır.

Professor V.M.Məmmədəliyev 1992-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2001-ci ildə Azərbaycan MEA-nın müxbir üzvü seçilmişdir.

Vasim Məmmədəliyev 26 avqust 2002-ci ildə Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin fərmanı ilə ölkənin ali mükafatı - "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Vasim Məmmədəliyev AMEA-nın həqiqi üzvü seçilmişdir.

AZƏRBAYCANIN TANINMIŞ ZİYALILARI AKADEMİK VASİM MƏMMƏDƏLİYEV ŞƏXSİYYƏTİ HAQQINDA:

Elimizin cövhəri, Dinimizin şərəfi Vasim Məmmədəliyev fenomeninin bir cəhəti də var: O, həm öz sahəsinin inkişaf istedadını, həm də universal biliklərin toplusunu özündə birləşdirməyi bacaran şəxsiyyətdir.

Şeyxülislam Hacı Allahşükür Paşazadə
Qafqaz Müsəlmanları İdarəsinin sədri

Mən onunla fəxr edirəm, o, dərin zəka sahibi,
Maqnitafon yaddaşa malik və adı böyük hərflərlə yazılan qüdrətli müəllimdir, şöhrətli alimdir. V.Məmmədəliyev sözün əsl mənasında dinləyicisi, auditoriyası olan nəhəng məktəbdir.

Bəxtiyar Vahabzadə
Xalq şairi, akademik

Qəlbində müqəddəs sevgini gəzdirən böyük alim, 1959-cu ildən taleyini Bakı Dövlət Universiteti ilə bağlayan və bu qocaman təhsil ocağının sütunlarından hesab olunan Vasim müəllim burada fəaliyyət göstərdiyi ayrı-ayrı vəzifələrdə həmişə öz sözünü deməyi bacarmış, dəyərli məsləhətləri, yüksək elmi səviyyəsi, geniş erudisiyası ilə bütün kollektivin rəğbətini qazana bilmişdir. Universitetdə onun bir elm adamı, müəllim və müdrik insan kimi sevilməsi məhz onun insani xüsusiyyətlərindən doğur.

Abel Məhərrəmov
BDU-nun rektoru,
AMEA-nın həqiqi üzvü

Fəxr etməli vətəndaş, Müqəddəs kitabımız "Qurani-Kərim"in doğma dilimizə çevrilməsindəki xidmətinin qiymətini yalnız Böyük Allah verə bilər, sən dostların üçün fəxr etməli dost, xalqımız üçün fəxr etməli vətəndaşsan.

Fəttah Heydərov
Milli Məclisin deputatı

"Qurani-Kərim"in tərcüməsi onun şah əsəridir, Vasim müəllim əsl ziylı, müsəlman şərqinin müdrikliyini özündə cəmləşdirən, təvazökar, səmimi insan, peşəkar müəllimdir.

Mahmud Kərimov
Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik

Azərbaycan şərqşünaslığının iftixarı Vasim Məmmədəliyev doğma Azərbaycanımızı hər yanda - daxildə, xaricdə yüksək ləyaqətlə təmsil edən, ali mərifət sahibi olan, hələ çoxlarının dərindən tanımadığı nadir şəxsiyyətdir, adi ölçüsü - çəkisi olan bir insan bədənində minlərlə qiymətli insani keyfiyyətləri birləşdirən nurlu bir ziyalıdır.

Yaqub Mahmudov
Millət vəkili, AMEA Tarix İnstitutunun direktoru,
AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi

İslam Dünyasının Mahir Bilicisi, Vasim müəllim yüksək mədəniyyət sahibi, səmimi, ədalətli bir insan, əsl Azərbaycan ziyalısıdır.

Akif Əlizadə
AMEA-nın vitse-prezidenti, akademik

Hamını heyran qoyan istedad.

Hidayət Orucov
Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri

Onunla bir yerdə işləmək xoşbəxtlikdir, onun böyüklüyü varlığında, xarakterində, insanlara münasibətində öz təcəssümünü tapır.

Məsumə Məlikova
AMEA-nın müxbir üzvü, hüquq elmləri doktoru

Gənclərimizin yaxın dostu, sizin yazdığınız elmi əsərlər, monoqrafiyalar və məqalələr Azərbaycan elminə əvəzsiz töhfə olmuşdur və sizin görkəmli alim, ictimai xadim kimi xalqına və vətəninə böyük sadiqliyiniz respublika gənclərinə də əvəzsiz örnəkdir.

Əbülfəs Qarayev
Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri

Vasim auditoriyaların şahıdır, fatehidir, onun Azərbaycan, ərəb, fars, türk, ingilis, rus dillərini dərindən bilməsi onu daim maraqlı həmsöhbətə çevirir, onun müsahibini ehtiyatlı olmağa səsləyir, ondan xüsusi məsuliyyət tələb edir.

İzzət Rüstəmov
Fəlsəfə elmləri doktoru, akademik
S.İ.Vavilov adına medalın laureatı,
Lütfizadə adına Beynəlxalq Elmlər
Akademiyasının akademiki

Bu gün Azərbaycanda mənəvi mühitin saflaşması üçün sizin bir ilahiyyatçı alim kimi böyük xidmətləriniz vardır.

Teymurçin Əfəndiyev
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət
Universitetinin rektoru, professor

Haqqın dərgahına sadiq insan.

Ramiz Quliyev
Xalq artisti

Azərbaycan ziyalısı.

Ramiz Mirişli
Xalq artisti, professor

Musiqimizin və sözümüzün xiridarı.

Canəli Əkbərov
Xalq artisti

Nadir inci.

Məmmədbağır Bağırzadə
Əməkdar artist

Allah tərəfindən seçilən və sevilən bəndə.

Ağaxan Abdullayev
Xalq artisti

Tanrının mərhəmət şəfəqlərində,
Göydəyik, yerdəyik, Vasim müəllim!
Əsrin nəhayətsiz üfüqlərində,
Yenə səfərdəyik, Vasim müəllim!

Yalnız Rəbbimədir təşəkkürlərim,
Calanır il-ilə, Vasim müəllim!
Əgər ki, qırılsa mənim səfərim,
Sən məni yad elə, Vasim müəllim!

Nəbi Xəzri
Xalq şairi

Ey əziz dost, Hacı Vasim,
İsmətli, namuslu asimsən, asim.
Rizqdə ədalət sahibi, qasimsən, qasim,
Elmdə sənətkar rasimsən, rasim!

Fuad Qasımzadə
akademik

MƏMMƏDƏLİYEV VAMİQ MƏMMƏDƏLİ OĞLU



Vamiq Məmmədəliyev 1946-cı ildə anadan olmuşdur. 1965-ci ildə Kürdəxanıdakı 113 saylı orta məktəbi bitirmişdir. 1965-1967-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

1967-ci ildə N.Krupskaya adına Bkı Kitabxanaçılıq Texnikumunun "Xor-dirijorluq" şöbəsinə daxil olmuş, 1970-ci ildə həmin şöbəni "Tar" ixtisası üzrə qurtarmışdır.

1972-1976-cı illərdə A.Zeynallı adına Musiqi Texnikumunun "Xalq çalğı alətləri. Tar" şöbəsində təhsil almışdır.

1971-1993-cü illərdə Bakı Kitabxanaçılıq Texnikumunda (indiki Mədəni Maarif Texnikumu) tar müəllimi işləmişdir.

V.M.Məmmədəliyev 1980-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki musiqi Akademiyası) "Xalq çalğı alətləri. Tar" şöbəsinə daxil olmuş, 1985-ci ildə həmin şöbəni Tar ixtisası üzrə müvəffəqiyyətlə başa vurmuşdur. O, 1987-ci ildən indiyə qədər muğam sənəti üzrə tar müəllimi, həmçinin 2001-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində yeni açılan "Musiqi sənəti" fakültəsinin dekanı vəzifəsində çalışır.

Vamiq Məmmədəliyev 1996-cı ildə "Dosent" elmi dərəcəsini almışdır. 20-yə qədər müxtəlif elmi və publisistik məqalələrin müəllifidir. Bir gözəl tarzən kimi bir neçə kitabda və dövrü mətbuatda haqqında maraqlı məqalələr getmişdir.

O, İran, İraq, Türkiyə, İsveç, Danimarka, Fransa, Rusiya, Ukrayna və s. ölkələrdə verdiyi konsertlərlə musiqimizi və ölkəmizi dünya miqyasında layiqincə təmsil etmişdir.

2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə ona "Respublikanın Əməkdar Artisti" fəxri adı verilmişdir.

Ustad tarzən V.M.Məmmədəliyev həm də muğam sənətində olan "Dəramət", "Rəng" və "Diringi"lərin müəllifidir.

O, ömrü boyu muğama bağlı bir insan olub, respublikamızın görkəmli muğam ustadlarını tarda müşaiyət etmiş və onun gənc nəslin bu sahədə yetişməsində əvəzolunmaz xidmətləri var.

Vamiq Məmmədəliyev sadə, səmimi insan və xanəndəlik sənətində gözəl müşaiyətçi-tarzən, bacarıqlı pedaqoq və musiqi sənəti sahəsində layiqli təşkilatçı olmaqla yanaşı, həm də görkəmli muğam tənqidçisidir.

MƏMMƏDƏLİYEV RAQİF RƏŞİD OĞLU

Raqif Məmmədəliyev 1948-ci ildə anadan olmuşdur. 1967-ci ilə kənd orta məktəbini bitirmiş, və həmin il N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (İndiki ATU) müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1974-cü ildə institutu bitirmişdir.

O, 1974-1976-cı illərdə təyinatla orduda həkim işləmişdir. 1976-cı ildə Tibb Universitetinin patoloji-anatomiya kafedrasına müsabiqə yolu ilə assistent vəzifəsinə seçilmişdir.

R.Məmmədəliyev 28 yanvar 1993-cü ildə t.e.d. professor V.M.Korxmazovun rəhbərliyi altında "Dəri apidomaların elektron-mikroskopik və histokimyəvi diaqnostikası" mövzusu üzrə t.e.n. elmi dərəcəsi almaq üçün Tibb Universitetinin elmi şurasında dissertasiya müdafiə etmişdir.

O, 19 mart 1993-cü ildə Tibb Universiteti elmi şurasının qərarı ilə Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmişdir.

R.R.Məmmədəliyev 1994-cü ilin fevral ayında müsabiqə yolu ilə elmi şuranın qərarı ilə patoloji anatomiya kafedrasının dosenti seçilmişdir və sınaq müddəti keçdikdən sonra 19 mart 1996-cı ildə Azərbaycan Respublikası prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə patoloji-anatomiya kafedrasının dosenti adı verilmişdir.

O, hal-hazırda patoloji-anatomiya kafedrasının dosenti vəzifəsində və Səhiyyə Nazirliyi "Məhkəmə Tibbi ekspertizası və patoloji-anatomiya" Birliyinin "prenatal patologiya laboratoriyası"nın rəhbəri vəzifəsində çalışır.

"Dissertasiya mövzusunun əsas məqsədi dəri apidomalarının (apidosit hüceyrələrdən inkişaf edən şiş), dəridə inkişaf edən

digər şişlərdən fərqləndirən kriteriyalarının elektron-mikroskopik və histokimyəvi müayinə metodları ilə öyrənilməsidir".

Elmi-praktik fəaliyyəti müddətində 28 elmi məqaləsi və 3 metodik tədris vəsaiti çapdan çıxmışdır.

MƏHƏRRƏMOV MƏHƏRRƏM NƏCƏF OĞLU



Məhərrəm Məhərrəmov 1937-ci ildə anadan olmuşdur. 1944-54-cü illərdə Qayabaşı kənd orta məktəbində oxumuşdur. 1955-ci ildə Bakı Dövlət Universitetinin (BDU) kimya fakültəsinə qəbul olunmuş, 1960-cı ildə oranı qurtardıqdan sonra "Neft kimyası" kafedrasının aspirantı olmuşdur. 1963-cü ildə aspiranturanı bitirərək "Aromatik karbohidrogenlərin halogenalgenlərlə reaksiyasının tədqiqi və reaksiya məhsullarının bəzi çevrilmələri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1963-cü ilin sonunda BDU-nun kimya fakültəsi nəzdində olan "-Neft karbohidrogenlərinin katalitik çevrilmələri" Elmi Tədqiqat Laboratoriyasına böyük elmi işçi vəzifəsinə işə götürülmüşdür. 1966-86-cı illərdə həmin laboratoriyaya rəhbərlik etmişdir.

1985-ci ildə "Aromatik karbohidrogenlərin doymamış və hidroksilsaxlayan birləşmələrlə alkil, alkenil və alkoksilləşdirilməsi və alınmış məhsulların praktiki tətbiqi yolları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1986-cı ildə "Neft-kimyası" ixtisası üzrə professor adına layiq görülmüşdür.

1994-96-cı illərdə BDU-nun kimya fakültəsi "Üzvi kimya" kafedrasında professor vəzifəsində işləmişdir. 1996-cı ildən indiyə kimi "Üzvi kimya" kafedrasının müdiri və "Süni antigen və vaksinlərin kimyası" ETL-nin elmi rəhbəri vəzifəsində işləyir.

Professor M.H.Məhərrəmov tərəfindən tək və çoxnüvəli aromatik karbohidrogenlərin alkil, - alkenil və alkoksilləşdirilməsi sahəsində aparılan araşdırmalar nəticəsində bir sıra nəzəri məsələlər müəyyən edilmişdir. O, səthi aktiv maddələr, polimerlər üçün plastifikatorlar, stabilləşdirijilər, poladın korroziyasının qarşısını alan ingibitorlar, yüksək keyfiyyətli vakuum yağı və digər bir sıra praktiki əhəmiyyətli birləşmələrin alınması üçün iqtisadi cəhətdən səmərəli proseslər işləyib hazırlamış və onları geniş tətbiq üçün tövsiyə etmişdir. Onun aromatik karbohidrogenlərin müxtəlif törəmələrinin sintezi, xassələri və onların müxtəlif sahələrdə tətbiqinə dair çoxsaylı məruzələri Beynəlxalq və respublika simpozium və konfranslarında maraqla dinlənilmişdir.

Professor M.N.Məhərrəmov BDU-da "Üzvi kimya" kafedrasına başçılıq etməklə respublikamızda "Üzvi kimya" ixtisası üzrə gənc kadrların hazırlanması kimi mühüm və məsuliyyətli işi müvəffəqiyyətlə həyata keçirir.

Professor M.N.Məhərrəmovun apardığı elmi-pedaqoji fəaliyyəti 200 elmi əsərdə, o cümlədən 20 müəlliflik şəhadətnaməsində, bir sıra redaktə etdiyi dərs vəsaiti və dərslikdə öz əksini tapmışdır. Onun elmi rəhbərliyi altında 9 elmlər namizədi hazırlanmışdır.

MUXTAROV NƏSİB MİRSALEH OĞLU



Nəsib Muxtarov 1951-ci ildə fəhlə ailəsində anadan olmuşdur.

O, 1968-ci ildə Şəki şəhər 11 saylı orta məktəbi bitirmiş, həmin ildə Politexnik İnstitutuna daxil olmuş, 1970-1971-ci illərdə ADR-də könüllü hərbi xidmətdə olmuş, hərbi xidmətdən qayıtdıqdan sonra bənna, çilingər işləmiş, 1979-cu ildə

ADU-nun əyani tarix fakültəsini müvəffəqiyyətlə bitirmişdir.

N.M.Muxtarov 1979-cu ildən tarix və mədəniyyət abidələrinin mühafizəsi, muzey və s. sahələrdə yaradıcı işlə məşğul olmuşdur. Şəki "Ocaq" Cəmiyyətinin yaradıcılarından biri olmuş, 1984-cü ildən cəmiyyətin sədri olmuşdur.

Onun ciddi və qətiyyətli siyasi, elmi, publisist qələmi vardır. 50-dən çox məqalə müəllifidir. Şəki, Qax, Balakən bölgələrində arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi kimi 25 ilə yaxındır ki, arxeoloji ekspedisiyalara rəhbərlik etmişdir. Bu ərazilərdə 20-yə qədər yeni arxeoloji abidə qala, tunc - antik dövrlərə aid yaşayış məskənləri, qəbiristanlıqlar, sınaqlar, memarlıq abidələri, epiqrafik abidələri və s. tapmış, ilkin elmi tədqiqata cəlb etmişdir.

N.M.Muxtarovun ictimai, elmi, siyasi fəaliyyəti çoxşaxəlidir.

Özünü bacarıqlı yurdsevər kimi tanıtmış və sevdirmişdir.

O, Şəkidəki Fazıl kəndindəki qədim qəbirlər silsiləsinə aid olan "Əbədi sükut dünyası"nı aşkar etmişdir.

MUSTAFAYEV RASİM FƏRMAN OĞLU

Rasim Mustafayev 1950-ci ildə anadan olmuşdur. 1966-cı ildə Şəkidə 10 saylı orta məktəbi gümüş medalla bitirib və həmin ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə qəbul olunmuşdur.

1971-ci ildə Universitetdə təhsilini başa vurduqdan sonra, Azərbaycan Elmlər Akademiyasının Qeyri-Üzvi Kimya İnstitutuna işə göndərilmişdir.

1972-ci ildə Novosibirsk şəhərində SSRİ Elmlər Akademiyasının Sibir şöbəsinin, Qeyri-Üzvi Kimya İnstitutunun aspiranturasına qəbul olunmuşdur. 1977-ci ildə

kimya elmləri namizədi elmi dərəcəsi adı almaq üçün dissertasiya müdafiə etmişdir. Dissertasiya platin qrupu metallarının müxtəlif mürəkkəb məhlullardan selektiv ayrılmasına və onların mikro miqdarının atom-absorbsiya metodu ilə təyin olunmasına həsr olunub. Dissertasiyanın nəticələri bir neçə kimya zavodunda öz tətbiqini tapıb.

Elmi dərəcə aldıqdan sonra Novosibirskdə "Elmi-tədqiqat kimya texnologiyası institutuna" işə keçirilib. Əvvəl baş elmi işçi, 1980-ci ildən laboratoriya müdiri, 1985-ci ildən otdel müdiri, 1991-ci ildən elmi işlər üzrə direktor müavini olmuşdur. Bu müddətdə gördüyü elmi işlər əsasən, yüksək molekullu suda həllolan polimerlərin və onların əsasında sintez olunan maddələrin alınması, kütləvi istehsalı və sənayenin müxtəlif istiqamətlərində və birinci növbədə hərbi sahədə istifadə olunması ilə bağlı olub.

1998-ci ildən "Elmi tədqiqatlar və kimyəvi maddələr" müəssisəsində direktor vəzifəsində işləyir. Müəssisəmiz müxtəlif zavodların sifarişi ilə onlara lazım olan yeni keyfiyyətli, ekologiya cəhətdən təhlükəsiz olan kimyəvi maddələrin alınması və istehsalı ilə məşğuldur.

72 elmi əsərin, o cümlədən 27 ixtiranın müəllifidir. İxtiralarından 2-nə Almaniyada patent verilib.

1985-ci ildə mənə Novosibirsk oblastının ən yaxşı ixtiraçısı adı verilib. 2002-ci ildə məni Rusiyanın Keyfiyyət Problemləri Akademiyasının müxbir üzvü seçiblər.

MUSTAFAYEV AKİF HƏTƏM OĞLU

Akif Mustafayev 1947-ci ildə anadan olmuşdur. İlk təhsilini Şəki şəhərindəki 8 saylı orta rus məktəbində almış və 1965-ci ildə bitirmişdir Həmin ildə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsinin avtomobil nəqliyyatı bölməsinə daxil olmuş və 1970-ci ildə ali təhsilini başa vurmuşdur.

Həmin il ali təhsili bitirdikdən sonra gənc mütəxəssis qismində Tacikistan Respublikasının Neftqazçıxarma İdarəsinə işə göndərilmişdir. Orada işlədiyi iki il ərzində NQÇİ-nin Avtonəqliyyat Müəssisəsinin rəisi vəzifəsinə ucalmışdır.



1972-ci ilin sonunda Bakıya qayıtmış və uzun illər ərzində Azərbaycan Respublikasının Avtomobil Nəqliyyatı sistemində çalışmışdır. Belə ki. 1972-1977-ci illərdə, əvvəl Nazirliyin Elmi Tədqiqat və Konstruktor Bürosunda şöbə rəisi və sonralar Əməyin Elmi Təşkili İdarəsinin müdiri vəzifələrində çalışmışdır.1977-1979-cu illərdə Avtomobil Nəqliyyatı Nazirliyinin Bakı şəhəri ictimai sərnişin nəqliyyatının 2714 saylı Avtomobil Dəstəsində baş mühəndis və rəis 2706 saylı Avtomobil Dəstəsində rəis vəzifələrində işləmişdir.

1980-ci ildə Bakı şəhəri sərnişin nəqliyyatı Baş İdarəsi rəisinin müavini vəzifəsinə təyin edilmişdir. Bu vəzifələrdə çalışdığı müddətdə Bakı şəhərində əhaliyə nəqliyyat xidmətinin yaxşılaşdırılması üçün xeyli səylər göstərmişdir, bir neçə nümunəvi avtobus marşrutlarının və sərnişin nəqliyyatı müəssisələrinin yaradılmasına nail olmuşdur.1983-1986-cı illərdə 2701 saylı Avtomobil Dəstəsində (yük daşımaları müəssisəsi) Baş mühəndis və Rəis vəzifələrində çalışmışdır.

1986-cı ilin sonunda Bakı Nəqliyyat-Ekspedisiya Qovşağı İdarəsinə Direktor vəzifəsinə təyin edilmişdir və bu vəzifədə 1992-ci ilədək işləmişdir.

1982-1992-ci illərdə A.Mustafayevin rəhbərlik etdiyi müəssisələr dəfələrlə Sovet İttifaqının və Azərbaycan Respublikasının Keçici Bayraqlarını almışdır və müxtəlif mükafatlarla təltif edilmişdir. Akif Mustafayev 1985-ci ildə Moskva Avtomobil Yolları İnstitutunun aspiranturasına daxil olmuşdur və qiyabi olaraq 1989-cu ildə oranı bitirmişdir. Azərbaycan Respublikasının və

xarici ölkələrin mətbu orqanlarında bir sıra elmi məqalələri çap olunmuşdur.

1992-ci ildə "Azəravtonəqliyyat" Dövlət Konserninin mərkəzi aparatına idarə rəisi, Baş İdarə rəisi və sonra da Dövlət Konserninin Vitse-prezidenti vəzifələrinə irəli çəkilmişdir və bu vəzifədə 2001-ci ilin sonuna qədər işləmişdir.

2000-ci ildə bir neçə ay ərzində İsveçin paytaxtı Stokholm şəhərində müxtəlif ölkələrin Nəqliyyat Nazirliklərinin yüksək səviyyəli rəhbərləri üçün təşkil olunmuş hazırlıq kurslarında məşğul olub və bu kursları bitirdikdə beynəlxalq səriştəlik sertifikatına layiq görülüb.

2002-ci ilin əvvəlindən TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) üzrə Hökumətlərarası Komissiyasında Azərbaycanın Milli Katibi vəzifəsinə irəli keçirilib. Nəqliyyat sahəsində, Respublika əhəmiyyətli bir sıra qanunverici və normativ sənədlərini (qanun, sərəncam, Hökumətlərarası Sazişlərin, konvensiya, əsasnamə) o cümlədən "Nəqliyyat haqqında Qanun"nun hazırlanmasında aktiv çalışmışdır. 35-dən çox müxtəlif (nəqliyyat sahəsində) beynəlxalq tədbirlərdə (konfranslarda, toplantılarda, qurultaylarda) iştirak etmişdir və məruzələrlə çıxış etmişdir. Respublikanın Nəqliyyat sahəsində bir sıra layihələrin hazırlanmasında və tətbiqində fəal iştirak etmişdir.

MUSTAFAYEVA RƏHİMƏ İSMAYIL QIZI

Rəhimə Mustafayeva Şəki şəhər 7 saylı orta məktəbi bitirdikdən sonra, Şəki ikiillik Müəllimlər İnstitutuna daxil olmuş və oranı 1943-cü ildə fizika-riyaziyyat ixtisası üzrə tam kursu fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə Balakən rayonu şəhər orta məktəbindən başlamışdır.

O, 1947-ci ildə M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Sənaye İnstitutuna (indiki ADNA) daxil olmuş və oranı 1952-ci ildə Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı ixtisası üzrə bitirmişdir.

Rəhimə Mustafayeva 1952-ci il 19 sentyabr tarixli qərarı ilə Dağ geoloq mühəndisi ixtisası verilmiş, 1952-ci ildən "Orjonikidze" neft qaz mədənlərində geoloq işləmişdir. 1953-cü ildə həmin trestdə baş geoloq vəzifəsinə keçirilmişdir.

R.İ.Mustafayeva Bakı Şəhər Sovetinin 1955-ci il V çağırış deputatı seçilmişdir. Mustafayeva namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş, 15 mart 1968-ci ildə Moskvada geologiya-minerologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

O, 1968-ci ildə neft ehtiyatının hesablanması ilə əlaqədar olaraq, Mustafayeva Rəhimə Türkmənistana dəvət edilmiş və 1972-ci ilin may ayına qədər orada işləmişdir. O, sonra Bakıya qayıdaraq AzNİPİ-də Neft və Qazın ehtiyatının hesablanması laboratoriyasında 1948-ci ilə qədər baş elmi işçi vəzifəsində işləmişdir.

R.İ.Mustafayeva Yenidən Türkmənistana iş ilə əlaqədar dəvət almış, 1978-ci ildən burada işə başlamış, neft və qazın ehtiyatının hesablanmasında gördüyü işlərə yüksək qiymət verərək Kommunist Əməyi Zərbəçisi vəsiqəsi və nişanı verilmişdir. Bir çox orden və medallarla təltif edilmişdir.

MUSTAFAYEV İBRAHİM NURMƏMMƏD OĞLU

Mustafayev İbrahim 1938-ci ildə anadan olub.

O, 10 və 11 saylı orta məktəblərdə təhsil almış və orta məktəbi 1957-ci ildə bitirmişdir.

İ.Mustafayev 1957-ci ildən 1959-cu ilə qədər Şəki Toxuculuq Texnikumunda oxumuş və oranı texnik-texnoloq ixtisası üzrə bitirmişdir.

O, 1960-cı ildən 1965-ci ilə qədər Daşkənd Toxuculuq İnstitutunda təhsil almış və orada toxuculuq üzrə mühəndis-texnoloq ixtisasına yiyələnmişdir.

İ.N.Mustafayev əməyə fəaliyyətinə 1959-cu ildə toxucu, Şəki İpək Kombinatında toxucu, baramaaçan, usta köməkçisi peşələrində işləmişdir.

O, 1960-cı ildə Daşkənd Toxuculuq İnstitutuna daxil olub, 1965-ci ildə bitirmişdir.

İ.Mustafayev 1965-ci ildən 1967-ci ilə qədər Şəki İpək Kombinatında texnoloji istehsal sahəsində usta, baş mühəndisin müavini vəzifələrində çalışmışdır.

O, 1967-1977-ci illər arasında Şəki İpək Birliyində baş mühəndis vəzifəsində işləmişdir.

İ.N.Mustafayev 1977-1984-cü illər ərzində Respublika Yerli-Sənaye Nazirinin müavini vəzifəsində çalışmışdır.

İbrahim Mustafayev1984-1989cu illər ərzində Şəki İstehsal İpək Birliyinin baş direktoru vəzifəsində işləmişdir.

O, 1989-1994-cü illərdə idarə rəisi, "Xalq Üçün Mallar" Dövlət Konsernin İdparə Heyətinin sədr müavini vəzifələrində çalışmışdır.

İbrahim Nurməmməd oğlu Mustafayev ictimai işlərdə və gənc ipəkçi və toxucular üzrə ixtisasçı yeni kadrların hazırlanmasında fəal iştirak etmişdir.

Onun dövlət tərəfindən "Şərəf nişanı" ordeni, "Rəşadətli əməyə görə" medalı ilə təltif edilmişdir.

MUSTAFAYEVA-HƏMİDOVA ADİKƏ MƏCİD QIZI

Mustafayeva-Həmidova Adikə 1920-ci ildə xırda sənətkar ailəsində dünyaya göz açıb. İbtidai məktəbi 1931-ci ildə bitirib. Nuxa şəhər Sənaye texnikumuna daxil olub. Orada təhsilini 1935-ci ildə başa çatdırıb. Elə həmin ildə də Bakıda Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olub.

Oranı bitirdikdən sonra Xalq Maarif Komissariatı tərəfindən respublikanın Qax rayonu orta məktəbinə riyaziyyat fənnindən dərs deməyə göndərilmişdir.

O, 1930-cu ildə həmin məktəbdə tədris hissə müdiri kimi çalışmışdır. 1939-cu ildə 3-cü Əmirhacıyan seçki dairəsindən Qax rayon Zəhmətkeş Deputatları Sovetinə deputat irəli çəkilib. Bir müddət bu vəzifədə işlədikdən sonra ailə vəziyyəti ilə əlaqədar olaraq Bakıya köçüb və Azərbaycan Pedaqoji İnstitutunda təhsilini davam etdirib. Buranı uğurla bitirdikdən sonra Bakı şəhəri Caparidze rayonundakı 13 saylı məktəbində fizika-riyaziyyat müəllimi kimi fəaliyyətə başlayıb. Bununla yanaşı Azərbaycan SSR "Baş Mətbuat Müdirliyi"nin müvəkkili işləyib.

Adikə xanım 1942-ci ilin sonundan 1943-cü ilin may ayına qədər Azərbaycan SSR Xalq Daxili İşlər Komissariatı orqanlarında çalışmışdır. Lakin ailə vəziyyətinə görə respublikanın Vartaşen rayonuna köçüb və uşaq evi müdirinin tədris hissəsi üzrə müavini işləmişdir. 1948-ci ildə yenidən Bakıya qayıdaraq Şəhər Maarif Şöbəsinin 219 saylı, daha sonra 36 saylı məktəblərində müəllimlik edib.

O, 1952-ci ildə Azərbaycan Elmlər Akademiyası Elmi Mərkəzi Kitabxanasının xüsusi fondunun müdiri vəzifəsində çalışıb. Həmin kitabxanada baş biblioqraf işlədiyi müddətdə o, respublikanın görkəmli akademikləri olan Yusif Məmmədəliyev, Murtuza Nağıyev və digər görkəmli elm xadimlərinin əsərləri, həyat və yaradıcılığının biblioqrafiyasını tərtib etmişdir.

Fədakar əməyinə görə o, dəfələrlə fəxri fərmanlarla təltif edilib və 1977-ci ildə "Əmək veteranı" medalına layiq görülüb.

Elmlər Akademiyasında 27 il işlədikdən sonra Adikə Mustafayeva Həmidova 1979-cu ildə təqaüdə çıxıb, 1988-ci ildə 68 yaşında dünyasını dəyişib.

MUSTAFAYEV ŞƏMSƏDDİN RƏHİM OĞLU



Şəmsəddin Mustafayev 1932-ci ildə anadan olmuşdur. 1945-ci ildə 7 illik məktəbi bitirdikdən sonra Şəki Kənd Təsərrüfatı texnikumunun ipəkçilik şöbəsinə daxil olmuşdur. 1948-ci ildə həmin texnikumu bitirdikdən sonra Ağdaş şəhər damazlıq stansiyasında işə başlamışdır.

Ş.R.Mustafayev 1951-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun meyvə-tərəvəzçilik və üzümçülük fakültəsinin ipəkçilik şöbəsinə daxil olmuş və oranı 1956-cı ildə fərqlənmə diplomu ilə qurtarmışdır. Sonra o, Şəki rayonunun ipəkçilik idarəsində ipəkçi aqronom işləmişdir. İpəkçilik sahəsində yüksək nailiyyətləri ilə rayonda, eləcə də respublikada tanınır və onu Azərbaycan Elmi-Tədqiqat İpəkçilik İnstitutuna toxumçuluq şöbəsinə kiçik elmi işçi təyin edirlər. Mustafayev yüksək elmi işi ilə fərqləndiyinə görə onu aspiranturaya göndərirlər. Orada yaxşı oxuyur və az vaxt içərisində xüsusi istedada malik olan Şəmsəddin "Tut ipəkqurdunun sənaye hibridləşdirilməsi üçün yüksək dözümlü xətlərin yaradılması" mövzusunda müdafiə edib Kənd Təsərrüfatı elmlər namizədi alimlik dərəcəsini alır.

Ş.R.Mustafayev 1975-ci ildən həmin institutda baş elmi işçi vəzifəsində çalışır. Yüksək elmi nailiyyətləri ilə tanınan alim doktorluq dissertasiyasını yazmaq üçün Azərbaycan Elmlər Akademiyası Şəki Regional Elm Mərkəzində Baş elmi işçi kimi çalışır. İpəkçilik sahəsində yenilikçi kimi tanınır və ipəkçi alim kimi də yüksək dövlət mükafatlarına layiq görülür. Elmi monoqrafiyalarından əlavə on beş elmi məqalələri müxtəlif dövri qəzet və jurnallarda nəşr olunur. Onun ipəkçilik fəaliyyəti yüksək qiymətləndirilir. Onun yetişdirdiyi "Şəki-1", "Şəki-2", "Sevinc" kimi

ipəkqurdu toxumları indiyə kimi də davamlı, səmərəli sortlar kimi fəaliyyət göstərir.

İpəkçi kadrların hazırlanmasında xidmətləri olmuş Mustafayev texnikumlarda kolxozçular arasında mühazirələr oxumuş və onlara faydalı məsləhətlər vermişdir.

Ş.R.Mustafayev 1994-cü ildə dünyasını dəyişmişdir.

MUSTAFAYEV NURU İSMAYIL OĞLU

Nuru Mustafayev 1909-cu ildə sənətkar ailəsində anadan olmuşdur. O, 1919-cu ildə Nuxa zəhmətkeşləri məktəbini bitirmişdir.

1927-ci ildə Xalq Pedaqoji Texnikumunu qurtarmış və elə həmin ildə 53 saylı məktəbə müəllim göndərilmişdir.

1928-ci ildə şəhər məktəbinin direktoru, 1931-1935-ci illərdə texnikumun direktoru vəzifəsinə irəli çəkilmişdir.

1937-1939-cu illərdə Şəki Xalq Maarif Şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1941-1945-ci illərdə Qax rayon Partiya Komitəsinin II katibi olmuşdur.

N.M.Mustafayev 1946-cı ildə Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.

O, 1941-1945-ci illərdə Qax rayon partiya Komitəsinin I katibi vəzifəsində çalışmışdır.

1951-1953-cü illərdə AKP MK-da təlimatçı vəzifəsində, 1953-1961-ci illərdə Azərbaycan "Kinoprokt" idarəsinin rəisi vəzifəsində işləmişdir.

1961-1964-cü illərdə "Azərkitab"ın rəisi vəzifəsinə təyin olunmuşdur.

1964-1969-cu illərdə Azərbaycan Mətbuat Yayımı və Pərakəndə Satış Agentliyinin rəisi olmuşdur.

1970-1983-cü illərdə təqaüdə çıxdıqdan sonra, Bakı şəhərində "Azərbaycan" kinoteatrının direktoru vəzifəsində fəaliyyət göstərmişdir.

Gözəl insan, bacarıqlı təşkilatçı Nuru İsmayıl oğlu Mustafayevin fəaliyyət göstərdiyi dövrdə daim əməyi yüksək qiymətləndirilmiş, o, "Şərəf nişanı" ordeni ilə, "Fədakar əməyə görə", "Qafqazın müdafiəsi uğrunda" və bir çox başqa dövlət təltifləri və mükafatları ilə təltif olunmuşdur.

MUSTAFAYEV ELŞAD NURU OĞLU

Elşad Mustafayev 1939-cu ildə ziyalı ailəsində anadan olmuşdur.

1957-ci ildə Bakı şəhəri Səbail rayon 7 saylı orta məktəbi qurtarmışdır.

1963-cü ildə Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) "Tarix-filologiya" fakültəsini bitirmiş, tarix və ədəbiyyat üzrə müəllim ixtisasına yiyələnmişdir.

1963-cü ildən M.Əliyev adına Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) tarix kafedrasında laborant kimi əmək fəaliyyətinə başlamış və 1965-ci ildə müsabiqə yolu ilə həmin kafedrada fəlsəfə ixtisası üzrə müəllim vəzifəsinə keçirilmişdir.

1971-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinə fəlsəfə ixtisası üzrə ixtisasını artırmaq məqsədilə təkmilləşdirmə kurslarında olmuşdur.

O, 1972-ci ildə müsabiqə yolu ilə həmin kafedranın baş müəllimi vəzifəsinə keçirilmişdir.

1977-1987-ci illərdə institut partiya təşkilatının katibi olmuşdur.

1991-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində mədəni-maarif fakültəsinin dekan müavini işləmiş və həmin ildə "dosent" vəzifəsinə seçilmişdir.

1993-1995-ci illərdə Universitetin tərbiyə işləri üzrə prorektoru vəzifəsində çalışmışdır.

Elmi maraq dairəsi: Mədəniyyətlərin qarşılıqlı zənginləşməsi və qarşılıqlı təsir problemlərinin tədqiqi sahəsinə aiddir. Bu elmi istiqamətdə, onun 20-dən çox məqalələri və bir neçə kitabı çap olunmuşdur.

Elşad Mustafayev bir çox mötəbər Beynəlxalq elmi konfranslarda (Moskva, Riqa, Minsk, Sparta-Türkiyə və s. şəhərlərdə) almış və elmi məruzələrlə çıxış etmişdir.

E.N.Mustafayev 2000-ci ildən hazırkı dövrə qədər "Əcnəbi tələbələrlə iş üzrə" dekanı vəzifəsində çalışır.

MUSTAFAYEV RASİM BƏXTİYAR OĞLU

Rasim Mustafayev 1934-cü ildə anadan olmuşdur. 1952-ci ildə Şəki şəhərində 10 saylı orta məktəbi bitirmişdir. Həmin ildə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsinə daxil olmuş və 1957-ci ildə bu fakültənin "Maşınqayırma texnologiyası" ixtisasını bitirmişdir.

1957-ci ildən 1958-ci ilə qədər Şəki İpək Kombinatında "İxtisaslaşdırma və səmərələşdirmə işləri üzrə mühəndis vəzifəsində çalışmış, 1959-cu ildən 1964-cü ilə qədər Sumqayıt Alüminium zavodunda texnik konstruktor, mühəndis konstruktor, böyük mühəndis konstruktor, konstruktor şöbəsinin rəisi və zavodun texniki şöbəsinin rəisi işləmişdir.

İşlədiyi müddətdə zavodda bir çox səmərəli təkliflərin müəllifi olmuş, istehsalata tətbiq olunduqdan sonra zavoda xeyli mənfəət vermişdir. Göstərilən illər müddəti zavodun inkişaf dövrü olmuş, onun II seriyası işə salınmış, zavodda maye metaldan diametri "9" mm olan məftil istehsalının, maye metaldan yayma məmulatları istehsal etmək üçün slikatların tökülməsinin təşkilatçısı və iştirakçısı olmuşdur.

İşlədiyi müddətdə göstərdiyi bacarığa görə 1967-ci ildə Azərbaycan Respublikasının Nazirlər Sovetinin Əlvan Metallurgiya Birliyinə baş mexanik vəzifəsinə təyin edilmişdir. İşlədiyi müddətdə respublikada Əlvan Metallurgiya Birliyinin zavodlarının təşkilatçısı və məhsul istehsalının iştirakçısı olmuşdur. Həmin illərdə respublikada alüminium təbəqəsindən məişət soyuducularının buxarlandırıcılarının istehsalının təşkilatçısı olmuşdur. O, həmçinin respublikada əlvan metaldan presləmə yolu ilə fasonlu profillərin istehsalının iştirakçısı olmuşdur.

1970-ci ildən Bakı Yerli Sənaye Texnoloji Texnikumunda müəllim, şöbə müdiri və istehsalat təcrübəsi üzrə direktor müavini işləmişdir.

Yüksək mədəniyyəti və ziyalılığı ilə seçilən Mustafayev Rasim Bəxtiyar oğlu 1999-cu ildə Bakı Yerli Sənaye Texnoloji Texnikumu ləğv edilmiş, həmin texnikumun bazasında Bakı İdarəetmə və Texnologiya Kolleci təşkil edildiyi üçün müəllimlik fəaliyyətinə başlamış, hal-hazırda kollecdə fəaliyyətini uğurla davam etdirir.

MUSTAFAYEV BƏXTİYAR İSMAYIL OĞLU

Bəxtiyar Mustafayev 1901-ci ildə sənətkar ailəsində anadan olmuşdur.

O, orta təhsilini Şəkidə rus-tatar məktəbində almışdır. Rus-tatar məktəbini bitirdikdən sonra bir müddət Şəki şəhərində müəllimlik etmişdir.

1920-ci ildə təhsilini davam etdirmək məqsədilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş və eyni zamanda Bakıda neft buruqlarında çalışmışdır.

1925-ci ildə respublikanın kənd təsərrüfatı mütəxəssislərinə ehtiyac olduğu üçün onu Mil-Muğan bölgələrinə mütəxəssis kimi təhkim etmişlər, təhsilini də Kirovabad (Gəncə) şəhərində qiyabi şöbədə başa vurmuşdur.

1930-cu ildə mütəxəssis kimi Ağdam rayonunun Kənd Təsərrüfatı Texnikumuna müəllim göndərilmiş, bir müddət işlədikdən sonra texnikumun müdiri vəzifəsinə təyin edilmişdir. Uzun müddət texnikumda çalışdıqdan sonra onu Ağdam rayonunun İcra Hakimiyyətinin torpaq şöbəsinin rəhbəri, 1940-1945-ci illərdə rayon İcra Hakimiyyətinin müavini işləmişdir.

1945-ci ildən Kənd Təsərrüfatı Nazirliyinin müvafiq əmri ilə Şəki şəhər İcra Hakimiyyətinin torpaq şöbəsində rəhbər olmuş, sonra rayon Partiya Komitəsinin kənd təsərrüfatı üzrə III katibi seçilmişdir.

1950-1951-ci illərdə Şəki rayonunun İcra Hakimiyyətində kənd təsərrüfatı üzrə müavin işləmişdir.

1952-ci ildən ömrünün sonuna kimi texnikumun direktoru olmuşdur.

1960-cı ildə təqaüdə çıxmış, 1964-cü ildə vəfat etmişdir.

MUSTAFAYEVA AFƏT SƏDRƏDDİN QIZI

Afət Mustafayeva 1950-ci ildə anadan olmuşdur. 1956-1964-cü illərdə Şəki şəhər 12 saylı məktəbdə orta təhsilini almışdır. 1964-cü ildə Şəki Pedaqoji Texnikumuna daxil olmuşdur. 1968-ci ildə texnikumu müvəffəqiyyətlə başa vuraraq, ibtidai sinif müəllimi ixtisasına yiyələnmişdir. İlk əmək fəaliyyətinə 11 saylı orta məktəbdə başlamışdır.

1970-ci ildə Bakıya köçmüş, ailə vəziyyəti ilə bağlı bir müddət işləməmiş, 1976-cı ildən Oktyabr rayonu (indiki Yasamal rayonu) Mənzil yaşayış idarəsinin nəzdində təşkilatçı müəllim vəzifəsində çalışaraq çətintərbiyəolunan uşaqların tərbiyəsi ilə məşğul olmuşdur.

1984-cü ildən, yenidən orta məktəbə qayıtmış, RXMŞ onu hal-hazırda işlədiyi 21 saylı orta məktəbə ibtidai sinif müəllimi göndərmişdir.

O vaxtdan kiçikyaşlı məktəblilərin təlim-tərbiyəsi ilə məşğul olmağa başlamışdır.

1986-cı ildə ali təhsil almaq məqsədi ilə Qırmızı Əmək Bayrağı ordenli Aərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş və 1991-ci ildə həmin institutu fərqlənmə diplomu ilə başa vurmuşdur.

Dövri mətbuatda dəfələrlə məqalələri dərc olunmuşdur.

Məktəbdə və rayonda metodbirləşmə iclaslarında və pedaqoji şuranın yığıncaqlarında, elmi konfranslarda dəfələrlə çıxışlar etmişdir.

Qabaqcıl işi nəzərə alınaraq dəfələrlə fəxri fərmanlara, ilin ən yaxşı müəllimi, ilin ən yaxşı mühazirəçisi adlarına layiq görülmüşdür.

Bir neçə ümumrespublika müsabiqələrinin respublika turlarının qalibi olmuşdur.

MUSTAFAYEV MUSTAFA SEYİDƏHMƏD OĞLU

Mustafa Mustafayev 1912-ci ildə anadan olmuşdur.

O, orta məktəbi Tbilisidə bitirdikdən sonra, Bakıda Universitetin memarlıq fakültəsinə qəbul imtahanlarını uğurla verməyinə baxmayaraq, 1927-ci ildə ehtiyac olduğuna görə, Azərbaycan

Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olmuşdur.

M.Mustafayev uzun müddət məsul vəzifələrdə çalışmış, müharibə illərində bir sıra xarici ölkələrdə mühüm dövlət tapşırıqlarını yerinə yetirmişdir.



Onun vətən qarşısında göstərdiyi xidmətləri yüksək dövlət mükafatları - Qırmızı Bayraq, II dərəjəli Vətən müharibəsi, Qırmızı Ulduz, "Şərəf nişanı" ordenləri, "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə qeyd olunmuşdur.

O, Dövlət Təhlükəsizliyi orqanlarında qüsursuz xidmətdən sonra polkovnik rütbəsində istefaya çıxmış və bundan sonra 30 il Azərbaycan SSR Elmlər Akademiyasında (indiki AMEA) işləmişdir. Akademiyanın Rəyasət Heyəti aparatında çalışdığı illərdə kollektivin ictimai həyatında fəal iştirak etmiş, dəfələrlə partiya təşkilatının katibi seçilmişdir.

Mustafa Seyidəhməd oğlu Mustafayev 1994-cü ildə dünyasını dəyişmişdir.

MUSTAFAYEV YUSİF MUSTAFA OĞLU



Yusif Mustafayev 1948-ci ildə anadan olmuşdur. O. 1955-1966-cı illərdə Bakı şəhəri 85 saylı orta məktəbdə, axşam şöbəsində təhsil almışdır. 1964-cü ildə Azərbaycan SSR EA-nın Fizika İnstitutunda laborant kimi fəaliyyətə başlamışdır.

1966-1972-ci illərdə Azərbaycan Dövlət Universitetində fizika fakültəsində ali təhsil almışdır.

1972-1973-cü illərdə ordu sıralarında

həqiqi hərbi xidmətdə olmuşdur.

1981-ci ildə AMEA-nın Fizika İnstitutunun "Yarımkeçiricilər fizikası" üzrə əyani aspiranturasına daxil olmuş və oranı 1982-ci ilin payızında, vaxtından əvvəl "Ge-S" bərk məhlul əsasında diffuziya üsulu ilə alınan diodların elektrik xassələri" mövzusunda müvəffəqiyyətlə müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

O, 1985-1995-ci illərdə institutun elmi katibi vəzifəsində çalışmışdır. İşlədiyi müddətdə 40-dan çox elmi məqalələri yerli və xarici jurnallarda dərc olunmuşdur. Onların içərisində fotoqəbuledicilərə aid 16 müəlliflik şəhadətnaməsi var.

Hal-hazırda AMEA Radiasiya Problemləri İnstitutunda baş elmi işçi vəzifəsində uğurla fəaliyyətini davam etdirir.

MUSTAFAZADƏ ABDULLA HÜSEYN OĞLU

Görkəmli ipəkçi, respublika dərəcəli fərdi pensiyaçı, respublikanın əməkdar aqronomu Abdulla Hüseyn oğlu Mustafazadə 1908-ci ildə anadan olmuşdur.

İlk təhsilini Şəkidə alan Mustafazadə 1923-34-cü illərdə Kirovabad (Gəncə) Kənd Təsərrüfatı Texnikumunun ipəkçilik şöbəsinə daxil olur. Oranı bitirdikdən sonra Vartaşen barama zavodunda, Şəki İpəkçilik stansiyasında aqrotexnik, texniki rəhbər vəzifələrində çalışmışdır.

1934-cü ildə Kirovabad Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra Şəki Təcrübə İpəkçilik Stansiyasına direktor göndərdilər. Vaxtilə burada adi bir işçi olan, sonralar isə həmin müəssisəyə başçılıq edən A.Mustafazadənin rəhbərliyi altında yetişdirilən yüksək keyfiyyətli məhsulun sorağı çox uzaqlardan eşidilməyə başladı. "Kommunist" qəzetinin 1935-ci il 23 sentyabr

tarixli nömrəsində dərc olunmuş "Yaponlar Şəkidə" sərlövhəli yazı A.mustafazadənin apardığı maraqlı tədqiqatlara həsr olunmuşdur. Yapon cinsindən olan ipək qurdlarının palıd yarpağı ilə bəslənilməsindən bəhs edən müəllim yazır: "Bu il A.Mustafazadə meşəyə yüz min barama qurdu buraxmışdır". Qurdlar iyun ayının 5-dən 27-dək palıd yarpağı yemiş və barama sarımışdır. Onlar 5-8 dərəcə soyuğa, şiddətli yağışlara və istiyə davam gətirmişlər. Həmin il palıd ağaclarında 300 kiloqramadək barama yetişdirən Abdulla məhsulu Moskvaya göndərmiş, həmin barama tellərindən toxunan zərif və davamlı çeçunça adlanan parçanı alimlər yüksək qiymətləndirmişlər".

1938-ci ildə Respublika İpəkçilik İdarəsinə aqronom-seleksiyaçı kimi dəvət olunan A.Mustafazadə Respublika Baş İpəkçilik İdarəsində baş aqronom, rəis müavini, rəis vəzifələrində işləmişdir.

Bu illərdə o ipək qurdlarının yemlənməsinə başlama vaxtlarının düzgün təyin olunması məsələsini həll edir. Onun yaratdığı "-Şəki-1" "Şəki-2" cinsləri, onların hibridləri istehsalatda tətbiq olunur. 1972-ci ildə "Şəki-1", "Şəki-2" cinsləri və onların hibridləri başqa cinslərdən 25% artıq məhsul verdiyinə görə SSRİ Kənd Təsərrüfatı Nazirliyi tərəfindən müəlliflik şəhadətnaməsi almışdır.

Hindistanın Koonor təcrübə stansiyasında dünyanın bir çox ölkəsinin 44 cins barama qurdu təcrübədən keçirilir. Mütəxəssislərin fikrincə, bu cinslərin içərisində məhsuldarlığına və ipək çıxımına görə "Şəki-2" cinsi xüsusi yer tutur. Həmin cinslər ölkəmizin ipəkçiliyində mühüm yer tutmuşdur.

A.Mustafazadə "Baramanın boğulması və qurudulması", "Tut barama qurdu qrenasının inkubasiyası", "İpəkçilərə kömək" kimi kitabların və bir çox elmi məqalələrin müəllifidir.

A.Mustafazadə əməkdar aqronom adı almış, "Şərəf nişanı" ordeni və müxtəlif medallarla təltif olunmuşdur.

O, ömrünün sonunadək Respublika Kənd Təsərrüfatı Nazirliyində təcrübəli mütəxəssis kimi çalışmış, 1984-cü il martın 25-də ömrünün 76-cı ilində dünyasını dəyişmişdir.

İpəkçilik sahəsində böyük xidmətlərini nəzərə alaraq Respublikanın Əməkdar Aqronomu, həmyerlimiz A.Mustafazadənin adını əbədiləşdirmək üçün onun adına priz təsis olunması haqqında qərar qəbul edilmişdir.

MUSAYEVA TAMİLLA HƏŞİM QIZI

Musayeva Tamilla 1931-ci ildə anadan olmuşdur. O, 1940-cı ildə Bakı şəhərinin 46 saylı məktəbinə getmiş və 1949-cu ildə oranı bitirmişdir. Həmin ildə o, Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub. Onun yaradıcılıq fəaliyyəti, 1954-cü ildə fərqlənmə diplomu ilə bitirdiyi Dövlət Universitetinin Tarix fakültəsi Elmi Şurasının qərarı ilə göndərildiyi Azərbaycan Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutu ilə sıx bağlıdır. T.Musayeva həmin vaxtdan indiyədək Tarix İnstitutunda elmi-tədqiqat işi ilə məşğuldur.

O, 1962-ci ildə namizədlik, 1980-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. T.Musayevaya 1982-ci ildə "Vətən tarixi" ixtisası üzrə professor elmi adı verilmişdir. T.H.Musayeva 1984-cü ildə "İnqilab və Azərbaycanda xalq təhsili" monoqrafiyasına görə Azərbaycan SSR Dövlət mükafatı laureatı fəxri adına layiq görülmüşdür.

T.H.Musayevanın elmi axtarışlarının əsas istiqamətlərindən biri 20-40-cı illərdə Azərbaycanda xalq təhsilinin inkişafı tarixi, bu sistemin yaranması və respublika zəhmətkeşlərinin ümumtəhsil səviyyəsinin yüksəldilməsində onun rolunun tədqiqi olmuşdur. T.H.Musayeva respublikada birincilər sırasında Azərbaycanda savadsızlıqla mübarizə kimi həlledici problemin həllinin araş-

dırılması ilə məşğul olmuşdur. Azərbaycanlı qadınların təlimi və təhsili, onları azadlığa və bərabərliyə aparan mürəkkəb yolların öyrənilməsi, onların respublikanın ictimai-siyasi və iqtisadi həyatına cəlb edilməsi məsələləri T.H.Musayevanın elmi axtarışlarının mövzusudur. Onun tədqiqatlarında 20-30-cu illərdə həyata keçirilən əlifba islahatı, yazı problemləri, Sovet hakimiyyətinin dindarlara münasibəti məsələləri əhəmiyyətli yer tutur. Onun elmi axtarışlarının mühüm istiqamətlərindən biri elmi formalaşması və inkişafı məsələsidir. O, Azərbaycanın mədəniyyət tarixini kompleks şəkildə tədqiq etmişdir.

T.H.Musayeva üçcildli "Azərbaycan tarixi"nin (Bakı, 1963, III c., I, II hissələr) müəlliflərindən biridir. O, 2000-ci ildə çap olunmuş çoxcildli "Azərbaycan tarixi"nin VI cildinin müəllifi və redaksiya heyətinin üzvlərindən biridir. O, 20-30-cu illərdə Azərbaycan mədəniyyətinin yaranması və inkişafı tarixinə həsr edilmiş, V, VIII, X fəsillərin müəllifidir. O, 66 elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. Onun dövrü mətbuat səhifələrində Azərbaycanın sosial iqtisadi və mədəni inkişafı məsələlərinə həsr edilmiş 25 publisistik məqaləsi nəşr olunmuşdur.

T.H.Musayeva beynəlxalq, ümumittifaq və respublika konfransı, simpozium və sessiyalarında elmi məruzələri ilə dəfələrlə çıxış etmiş, bu forumlarda respublika tarix elmini ləyaqətlə təmsil etmişdir.

T.H.Musayeva elmi-təşkilatçılıq işində də fəal iştirak edir. Bir çox illərdir ki, o, İnstitutun Elmi Şurasının və doktorluq dissertasiyalarının müdafiəsi üzrə İxtisaslaşdırılmış Şuranın üzvüdür. O, 12 doktorluq və 26 namizədlik dissertasiyası müdafiə edənlərin opponenti olmuşdur.

T.H.Musayeva elmi kadrların hazırlanması sahəsində böyük iş aparır. Onun rəhbərliyi altında 10 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir və iki doktorluq dissertasiyasının elmi məsləhətçisi olmuşdur. Hazırda o, bir sıra aspirant və dissertantın elmi rəhbəridir. O, eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olur.

T.H.Musayeva bir neçə il ərzində Bakı Dövlət Universitetinin Tarix fakültəsində "Azərbaycan tarixi" üzrə ümumi kursdan, "Azərbaycanda mədəni quruculuq tarixi" üzrə ixtisas kursundan dərs demişdir, dəfələrlə Universitetin Tarix fakültəsində Dövlət imtahanları komissiyasına sədrlik etmişdir.

MUSAYEV ƏBDÜLƏLİ ƏHMƏD OĞLU



Əbdüləli Musayev 1943-cü ildə Şəki şəhər M.F.Axundov adına 2 saylı orta məktəbin 7-ci sinifini bitirib, Şəki Tibb Texnikumuna daxil olmuşdur.

1947-ci ildə Aşağı-Şabalıt kənd sovetliyində (4 kənd) feldşer məntəqə müdiri vəzifəsinə təyin edilmişdir. Bir il işlədikdən sonra Şəki şəhər xəstəxanasına dəyişdirilib. Şəki şəhər 10 saylı məktəbin 10-cu sinifinə daxil olub.

1949-cu ildə Xarici dillər, 1950-ci ildə Moskva iqtisadi-statistika institutunun Bakı filialına qəbul olunub. Gündüz xarici dillər, axşam statistika institutunda oxuyub hər iki institutu bitirmişəm.

1953-cü ildə Xarici dillər institutunu bitirib Şəki şəhərinə təyinat alıb. 1959-cu ilə qədər Şəki şəhər 2 saylı orta məktəb və Toxuculuq texnikumunda fransız dili müəllimi işləyib.

1959-cu ildən 1996-cı ilədək İqtisadi-statistika Universitetində Mühasibat uçotu kafedrasında baş laborant, maşın-hesablama stansiyasının müdiri, müəllim vəifələrində çalışıb.

1966-1984-cü illərdə Xalq Təsərrüfatı İnstitutunun "-Təsərrüfat fəaliyyətinin təhlili hesablayıcı maşınlar və proqramlaşdırma", iqtisadi informasiyanın maşınla işlənməsi kafedralarında müəllim, baş müəllim, dosent vəzifələrində işləyib. Proqram və metodiki göstərişlərin hazırlanması, Azərbaycan dilində dərs

vəsaitinin hazırlanmasında fəal iştirak edib. 50 çap vərəqi həcmində elmi məqalə və dərs vəsaitlərinin müəllifidir.

1969-cu ildə Moskva Plexanov adına Xalq Təsərrüfatı İnstitutunun Mühasibat uçotu kafedrasına rəsmi olaraq "Tədqiqatçı" təyin edilmiş, 1972-ci ilin fevralında "Pərakəndə ticarət uçotu informasiyasının maşınla işlənməsinin əsas istiqamətləri" mövzusunda alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

1975-ci ildə dosentlik diplomunu almışdır.

1974-cü ildə informatikaya aid olan fənlərin müxtəlif kafedralar arasında bölüşdürülməsini əsassız hesab edərək müstəqil "Hesablayıcı maşınlar və proqramlaşdırma" kafedrasının yaradılması məsələsini rəhbərlik və nazirlik qarşısında qaldırmış və həmin kafedranın yaradılmasına nail olmuşdur. Sonralar bu kafedranın əsasında "İqtisadi informasiyanın maşınla işlənməsi" kafedrası yaradılıb.

1978-1979-cu illərdə öz qruplarında ilk dəfə zaçot və imtahanları Kisi adlı maşınlarda qəbul etmişdir. Bu maşınların hər birinə (8 ədəd idi) 10 kart yerləşdirilirdi və hər karta 5 sual verilirdi. Sualların ancaq biri düz olurdu. 9-10 suala düz cavab verənə maşın əla, 8-9-a yaxşı, 6-7-yə kafi, 6-dən aşağı maşın qeyrikafi qiymət verirdi.

1962-63-cü dərs ilində Moskva şəhərində, 1964-cü ildə Vilnüs, 1968-ci ildə Voronej şəhərlərinə hələ istehsalata buraxılmayan hesab maşınlarını öyrənmək məqsədilə ezam edilmişdir.

1971, 1976-cı illərdə Moskva İqtisadi-statistika institutunda 4 aylıq ixtisas artırma kursunda olmuş, 1987-ci ildə Maliyyə Nazirliyi tərəfindən yenə həmin instituta göndərilmişdir.

1984-1990-cı illərdə Maliyyə Nazirliyinin Hesablama Mərkəzində şöbə müdiri vəzifəsində çalışıb. 1987-ci ildə ilk dəfə Azərbaycana SSRİ Maliyyə Nazirliyindən 20 ədəd AVM markalı kompüter gətirib nazirliyin bütün idarələrinə, Bakı Soveti və Nəsimi rayon maliyyə şöbələrinə kompüter quraşdırıb hesablama işlərinin və nazirliyin hesablama məsələlərinin keyfiyyətinin yaxşılaşdırılması sahəsində xeyli irəliləyiş əldə edilmişdir.

MUSTAFABƏYLİ HÜSEYN LÜTVƏLİ OĞLU

Hüseyn Mustafabəyli 1954-cü ildə anadan olmuşdur. 1960-1970-ci illərdə Şəki 2 saylı orta məktəbdə və 1970-75-ci illərdə ADU-nin Geoloji-coğrafiya fakültəsində oxumuşdur. 1975-76 illərdə Qazaxıstanın Çezkazçan vilayətində geoloji ekspedisiyada mühəndis-geoloq işləmişdir. 1976-cı ildən Az. EA-nın Şəki Zona Elmi bazasında kiçik elmi işçi vəzifəsinə qəbul olmuşdur.

1977-79-cu illərdə SSRİ EA QEOXİ İnstitutunda 2 illik stajirovka keçmişdir. 1980-ci ildə Az. EA-nın Geologiya İnstitutunun aspiranturasına qəbul olmuşdur. 1984-cü ildə Şərqi Qafqazın aalen çöküntülərində endikator elementlərinin paylanma qanunauyğunluqları və onların axtarış əhəmiyyəti" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1986-92-ci illərdə Şəki Geofizika observatoriyasının geokimya laboratoriyasında baş geokimyaçı vəzifəsində çalışmışdır.

1992-93-cü illərdə Şəki şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdir.

1993-96-cı illərdə Şəki müəllimlərinin hazırlığı və bərpası institutunda təlimatçı işləmişdir.

1996-cı ildən AMEA-nın Şəki Regional Elmi Mərkəzinə baş elmi işçi və "Geokimya" laboratoriyasının rəhbəri vəzifəsinə qəbul olunmuşdur.

Elmi tədqiqatları Böyük Qafqazın cənub yamacının geokimyası, tətbiqi geokimyanın mühüm problemləri, B.Qafqazın cənub yamacının landşaftının geokimyəvi xüsusiyyətləri, biogeokimyəvi qanunauyğunluqlarının öyrənilməsi və xalq təsərrüfatının inkişafı üçün əməli elmi təkliflərin hazırlanmasına həsr olunmuşdur.

Respublikamızın ictimai-siyasi həyatında zəruri məqamlarda iştirak etmişdir.

1986-89-cu illərdə Şəki Ocaq Cəmiyyətində xalq folklorunun dərman bitkiləri və vasitələrinin təbliğinə aid bölməsində fəaliyyət göstərmiş, 1989-92-ci illərdə Aərbaycan Xalq Cəbhəsinin Şəki şöbəsinin sədri olmuşdur. 1996-cı ildən fəal ictimai-siyasi fəaliyyətdən kənarlaşıb yenidən elmi fəaliyyətini davam etdirir.

MİRZƏZADƏ XƏYYAM



Xəyyam Mirzəzadə 1935-ci ildə ziyalı ailəsində anadan olmuşdur.

O, 1957-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsini bitirmişdir. Onun müəllimi dahi bəstəkar bu fakültədə dərs demişdir.

X.Mirzəzadə 1969-cu illərdə konservatoriyanın "Bəstəkarlıq" kafedrasına rəhbərlik etmişdir.

Onun yaradıcılığı instrumental və vokal musiqini, simfonik və kamera janrlarını əhatə edir. Görkəmli bəstəkar dramatik tamaşalara və kinofilmlərə də musiqilər bəstələmişdir.

X.Mirzəzadə "Çiçəklən mənim vətənim", incə və dərin "Etiraf", "Dünya və Məhəbbət" mahnıları kimi gözəl vokal əsərləri yazsa da, onun əsas yaradıcılığı instrumental sahədə daha parlaq şəkildə özünü biruzə vermişdir.

Xəyyam Mirzəzadə İncəsənəti üçün milli ənənələr və XX əsrin bütün nailiyyətləri ilə təchiz olunmuş bəstəkar texnikasının birgə sintezi xarakterikdir.

Musiqi aləmində Xəyyam Mirzəzadənin öz dəsti-xətti digər bəstəkarlardan aydın surətdə seçilir.

O, Artıq Konservatoriyada təhsil alarkən, onun istedadını üzə çıxaracaq bir çox əsərlər yazmışdır.

X.Mirzəzadə tələbə ikən I simfoniyasını yazmışdır. 1962-ci ildə yazdığı II simfoniya SSRİ-nin gənc bəstəkarları arasında keçirilən müsabiqədə mükafatlandırılmışdır. "Oçerklər-63" və II simfoniya Moskvanın, Leninqradın və başqa şəhərlərin ən tanınmış orkestrləri tərəfindən dəfələrlə ifa olunmuş və onu məşhurlaşdırmışdır.

O, bir çox kamera əsərlərinin və sonataların müəllifidir. Onun əsərləri İngiltərə, Avstriya, Almaniya, Macarıstan, Bolqarıstan, Yuqoslaviya, Hollandiya, Fransa, İtaliya, İsveçrə, Flippin, Misir, Polşa, Rusiya, Gürcüstan, Litva, Ukrayna, ABŞ, Türkiyə, Kipr, Yaponiya, Latviya, Estoniya, Moldova, Özbəkistan, Monqolustan və s. ölkələrdə dəfələrlə səslənmişdir və əsərlərini Simon Kavalla (Polşa), Spandjaaru (Hollandiya), Raxlin, Hinzburq, Mansurov, Arkin, Georgiyev (Rusiya), Kaxidze (Gürcüstan), K.Abdullayev, R.Abdullayev, Niyazi, Z.Hacıbəyov, N.Rzayev, Toledo (Flippin) kimi dirijorların rəhbərlik etdiyi orkestrlər ifa etmişdir.

X.Mirzəzadə 1957-ci ildən Musiqi Akademiyasında fəaliyyət göstərən X.Mirzəzadənin yetişdirmələri Azərbaycan, Rusiya, İsrail, Dağıstan, İran, Türkiyə, Suriya, İraq, Türkmənistan və Bolqarıstanda musiqi yaradıcılığı sahəsində müvəffəqiyyətlə fəaliyyət göstərirlər.

O, Musiqi Akademiyasının professoru, Xalq artisti, görkəmli bəstəkar, gözəl insan Xəyyam Mirzəzadə 1964-cü ildə Ümumittifaq Bəstəkarlar müsabiqəsinin qalibi olmuş, 1970-ci ildə komsomol və 2 dəfə, 1975, 1986-cı illərdə Respublika Dövlət Mükafatını almışdır.

Xəyyam Mirzəzadə musiqi sahəsində göstərdiyi xidmətlərinə görə "Şöhrət ordeni"nə və "Yusif Məmmədəliyev" medalına layiq görülmüşdür və hazırda prezident təqaüdçüsüdür.

MÜRŞÜDOVA ULDUZ BƏŞİR QIZI

Ulduz Mürşüdova 1958-ci ildə anadan olmuşdur. 1965-1975-ci illərdə Şəki şəhər 7 saylı orta məktəbi bitirmişdir. 1979-cu ildə Azərbaycan Dillər Universitetinin "İngilis dili" fakültəsinə daxil olub, 1985-ci ildə həmin fakültəni "ingilis-fransız" dilləri müəllimi ixtisası üzrə qurtarmışdır.

1985-ci ildə təyinatla Şəkiyə qayıdan U.Mürşüdova 1988-ci ilə qədər Qaradağlı kənd 8 illik məktəbində və paralel olaraq Şəki 21 saylı Texniki-peşə məktəbində ingilis dili müəllimi işləyib.

1988-ci ildən Azərbaycan Milli Elmlər Akademiyası Şəki Regional Elm Mərkəzində (AMEA ŞREM) laborant, 1989-cu ildən "Folklorşünaslıq və el sənətləri" laboratoriyasında kiçik elmi işçi vəzifələrində işləmişdir.

1991-ci ildə AMEA-nın Ədəbiyyat İnstitutunun direktoru, müxbir üzvü, professor Yaşar Qarayev tərəfindən AMEA-nın Ədəbiyyat İnstitutuna dissertant kimi dəvət olunur. O, Y.Qarayevin məsləhəti ilə "Rəşid bəy Əfəndizadə (Əfəndiyev) və folklor" mövzusunda "Folklorşünaslıq" şöbəsinin müdiri, professor İsrafil Abbasovun rəhbərliyi ilə dissertasiya işi üzərində çalışır.

1998-ci il iyun ayının 23-də xalq şairi, akademik B.Vahabzadənin sədrliyi ilə AMEA ŞREM-də yaradılmış İxtisaslaşdırılmış müdafiə şurasında yuxarıda qeyd olunan mövzuda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək, 10.01.03 - Azərbaycan ədəbiyyatı və 10.01.09 - Folklorşünaslıq ixtisasları üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

U.Mürşüdova 1997-ci ildə AMEA ŞREM-də "Folklorşünaslıq və el sənətləri" şöbəsinə rəhbər təyin edilib.

1999-cu ildən o, paralel olaraq Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şəki filialında "Azərbaycan şifahi xalq ədəbiyyatı" və "ingilis dili" dili fənlərindən dərs deyərək, pedaqoji fəaliyyət göstərir.

U.Mürşüdova 1999-cu ildən, həmçinin Şəki Pedaqoji Texnikumunun ingilis dili şöbəsində "İngilis dilinin tarixi" və "Şifahi nitq praktikası" fənlərini tədris edir. 2004-cü ildən bəri həmin şöbənin Dövlət İmtahan Komissiyasının sədri kimi də fəaliyyət göstərir.

2000-ci ildən ADU-nun (indiki BDU) Şəki filialında fəaliyyət göstərən İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvü olub.

2002-ci ildən Azərbaycan müəllimlər İnstitutunun Şəki filialında açılmış "İngilis dili" fakültəsinin dekanı, 2006-cı il noyabr ayında "Dillər" kafedrasının müdiri vəzifəsinə seçilmişdir.

2004-cü ilin mart ayında müsabiqə yolu ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi və ABŞ Təhsil Departamentinin "Təhsil və Mədəniyyət məsələləri" şöbəsinin təyinatı ilə "2003-2006-cı illərdə Azərbaycanın orta məktəblərində sosial fənlər sahəsində müəllim hazırlığı üzrə tədris KURİKULUMIN hazırlanması" layihəsi üzrə mart-may aylarında Virciniya ştatının Fefaks şəhərində "Corc Meysn" Universitetində kurs keçən 6 nəfərlik akademik heyətin üzvlərindən biri olub. ABŞ-da olarkən professor Qəri Varellanın elmi rəhbərliyi altında U.Mürşüdova "Müəllim hazırlığının və orta təhsilin perspektivləri" (Qərb təhsili sisteminin təcrübəsi əsasında) adlı müəllimlər üçün 473 səhifəlik metodik vəsait (Bakı, "Adiloğlu" nəşriyyatı, 2005) yazmışdır.

2005-ci ildən bəri Bakı, Şəki, Mingəçevir orta məktəb və Universitet müəllimləri üçün seminarlar təşkil etmiş və onların rəhbəri olmuşdur. ABŞ-da olarkən "Corc Meysn" Universitetinin doktoru diplomunu almış, "Öyrədənlərin öyrədəni" ("Mentor") adına layiq görülmüşdür.

Hazırda AMİ-nin Şəki filialında "İxtisas dəyişmə və ixtisas artırma" şöbələrində müəllimlərə yeni təlim metodlarından dərs deyir.

O, 4 kitabın və 16 elmi əsərin müəllifidir. Hazırda "Azərbaycan və Şimali Amerika folklorunda oxşar motivlər, mövzusunda doktorluq dissertasiyası üzərində işləyir.

NAİBOV NURMƏMMƏD HACIMƏMMƏD OĞLU



Nurməmməd Naibov 1909-cu ildə Şəki şəhərində anadan olmuş, 1929-cu ildə Şəki pedaqoji məktəbini, 1933-cü ildə isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmişdir. O, həmin ildən ömrünün sonuna kimi Şəki şəhərinin ayrı-ayrı orta məktəblərində riyaziyyat müəllimi işləmişdir.

Pedaqoji sahədə nailiyyətlərinə görə 1960-cı ildə Azərbaycan SSR-in Maarif Nazirliyi tərəfindən "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif edilmiş. 1967-ci ildə Azərbaycan Müəllimlərinin V Respublika qurultayına nümayəndə seçilmişdir.

N.Naibov 1966-cı ildə "Qırmızı əmək bayrağı" ordeni ilə təltif edilmiş, həmin ildə "Azərbaycan SSR-in əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

1971-ci ildə vəfat etmişdir.

NAĞIYEV AYDIN ƏNVƏR OĞLU

Aydın Nağıyev 1951-ci ildə ziyalı ailəsində anadan olub.

O, 1958-1968-ci illərdə M.F.Axundov adına 2 saylı orta məktəbdə, 1971-1977-ci illərdə N.Nərimanov adına Tibb İnstitutunda təhsil almışdır.

1976-1981-ci illərdə Belarus Respublikasının Qomel vilayətində ümumi cərrah, 1981-1985-ci illərdə Mir-Qasımov adına Respublika Klinik xəstəxanasında həkim-neyrocərrah işləmişdir.

1985-ci ildən Respublika Neyrocərrahlıq Mərkəzi yarandığı gündən həmin mərkəzdə çalışıb, 1996-cı ildən ATU-nun Neyrocərrahlıq kafedrasında assistent vəzifəsində çalışır.

2 monoqrafiya, 11 elmi məqalə, 1 müəlliflik şəhadətnaməsi və 1 elmi kəşfin müəllifidir.

1995-ci ildə Kiyevdə A.P.Romodanov adına Elmi-Tədqiqat Neyrocərrahlıq İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1985-ci ildə uşaqlarda (həm də yaşlılarda) hidrosefaliya xəstəliyinin, fəqərə sütununun onurğa beyninin boyun nahiyəsinin, ön fəqərəarası yırtıqların, baş beyin yamacının şişlərinin, boyun kələfəinin (boyun sinirlərin) cərrahi müdaxilələrinin ilk dəfə respublikada tətbiqini həyata keçirmişdir.

1998-ci ildə kranio-fasial şişlərin cərrahi yolla müalicəsinin ilk icraçısı olmuşdur.

2005-ci ildə onurğa beyninin fiksə olunma sindromunun cərrahi müalicəsini ilk tətbiq etmişdir.

1991-ci ildə Moskvada keçirilən ümumdünya Neyrocərrahlar konqresində, 1999-cu ildə Almaniyanın Nyunberq şəhərində, həmin ildə Danimarkanın Koppenhagen şəhərində, 2004-cü ildə Aluştada keçirilən konfranslarda Hidrosefaliyanın müalicəsi mövzusunda çıxış etmişdir.

A.Ə.Nağıyev hal-hazırda Tibb Universitetinin Neyrocərrahiyyə kafedrasının dosenti kimi fəaliyyətini davam etdirir.

NƏBİBƏYOVLAR AİLƏSİ

Nəbibəyovlar – bu ziyalı nəsil Şəkidə, hətta Azərbaycanın hər yanında rütbə və hər imkana malik bəy nəsilli hərbiçilər kimi tanınmışlar.

Qasım bəy Nəbibəyov 1920-ci ilə qədər, uzun müddət podpolkovnik rütbəsində "çar pristavı" olmuşdur. Rusiyada mükəm-

məl təhsil alan Qasım bəy həm də İrandakı rus səfirliyində çalışmış, 1915-1917-ci illərdə isə Türkmənistanda məşhur general Kuropatkinin qərargahında Şərq dilləri üzrə tərcüməçi olmuşdur.

Qasım bəyin tacirlik fəaliyyətinin də olması barədə məlumat verən nəticəsi Murad Nəbibəyovun dediyinə görə onun İranda, Türkmənistanda, Ərəbistanda da ipək fabrikləri olmuş və həmin fabriklərə Şəkidən parça toxumaq üçün xam ipək gedərmiş.

Qasım bəy 90-dan yuxarı yaşı olan vaxtlarında da çox gümrah və iti ağıla malik olub. 1917-ci ildə bir növ özünü müdafiə məqsədilə at ilxılarını bolşeviklərə bağışlamışdır.

Qasım bəyin 5 oğlundan 4-ü Vahid bəy (kapitan), Bəhram bəy (polkovnik), Hüseyn bəy (podpolkovnik), Zahid bəy (kapitan) olmuş və bir oğlu - Hidayət bəy isə Nuru Paşa ilə Türkiyəyə getmiş və burada Nuru paşanın qızı ilə evlənib İstanbulda qalmış, sonra da əlaqə saxlamamışdır.

Hüseyn bəy təhsilini Parisdə almışdır. O, həm də tarix, ədəbiyyat və etnoqrafiya ilə də dərindən maraqlanmış, onun bu səpgidə hətta bir kitabı Polşada nəşr olunmuşdur. Hüseyn bəy 30-u illərə qədər Şəki Pedaqoji Texnikumunda da dərs demişdir.Bəhram bəy ilk təhsilini Kutaisi realnı məktəbində, 194-cü ildən isə Peterburqdakı Konstantin Artilleriya Məktəbində davam etdirmişdir. Oranı birinci dərəcəli diplomla bitirmişdir. Birinci Dünya Müharibəsinin iştirakçısı olan Bəhram bəy Nəbibəyov 1918-1920-ci illərdə məşhur sərkərdələrimiz Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovla Milli ordu quruculuğumuzun təməl daşını qoyanlardandır.

Bəhram bəy Nəbibəyov 1930-cu il iyul ayında Şəkinin Bideyiz kəndinin yaxınlığındakı Buxdur dağında Beriya və Bağırovun üsyanı yatırmaq üçün göndərdikləri çeka cəlladları ilə döyüşdə qəhrəmancasına həlak olmuşdur.

NƏBİYEV NURU MƏHƏRRƏM OĞLU



Nuru Nəbiyev 1929-cu ildə kəndli ailəsində anadan olmuşdur. 1939-1947-ci illərdə Qoxmux 7 illik məktəbində təhsil almışdır.

1947-1949-cu illərdə Qoxmux kənd kolxozunun sıravi üzvü olmuşdur.

1949-1952-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. Qayıtdıqdan sonra kolxozda fəaliyyət göstərmiş və burada fəaliyyəti dövründə müxtəlif rəhbər vəzifələrdə işləmiş, dəfələrlə yerli sovetlərə deputat seçilmişdir.

1954-1959-cu illərdə Şəki kənd Təsərrüfatı Texnikumunun əyani aqronomiya şöbəsində təhsil almışdır.

1966-cı ildə SSRİ Ali Sovetinin qərarı ilə "Şərəf ordeni" və SSRİ Xalq Təsərrüfat Sərgisinin gümüş medalı ilə təltif olunmuşdur.

Təsərrüfatda yüksək nailiyyətlərə görə Şəhər Partiya Komitəsinin plenium üzvü, 1969-cu ildə kolxozçuların III qurultayının iştirakçısı olmaqla, Mərkəzi Komitənin rəyasət heyətinə üzv seçilmişdir.

1979-cu ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunun (indiki Gəncə Kənd Təsərrüfatı akademiyası) qiyabi aqronomiya şöbəsini əla qiymətlərlə bitirib, doğma kəndinə qayıtmış və burada 20 il baş aqronom vəzifəsində çalışmışdır.

1973-cü ildə SSRİ Ali Sovetinin fərmanı ilə "Lenin ordeni" ilə təltif olunmuşdur.

N.M.Nəbiyevin əməyi daim yüksək qiymətləndirilmiş, o, dəfələrlə bir çox orden və medallara layiq görülmüşdür.

OSMANOVA ŞƏFİQƏ SABİR QIZI

Şəfiqə Osmanova 1957-ci ildə anadan olmuşdur. 1964-cü ildə orta məktəbin 1 sinifinə daxil olmuş, 1974-cü ildə Şəki şəhər M.F.Axundov adına 2 saylı orta məktəbi bitirmişdir.

1976-cı ildə Şəki Pedaqoji Məktəbinə daxil olmuş, 1979-cu ildə həmin məktəbi "Ümumtəhsil məktəbləri üçün ibtidai sinif müəlliməsi" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

1977-ci ildə Şəki şəhər zəhmətkeş deputatları sovetinə deputat seçilmiş, həmin ildə sosializm yarışının qalibi olmuş, Azərbaycan və İttifaq komsomolu Mərkəzi Komitəsinin Fəxri fərmanları ilə təltif olunmuşdur.

1981-ci ildə Azərbaycan Pedaqoji İnstitutuna daxil olmuş, 1986-cı ildə həmin institutun İbtidai təlim pedaqogikası və metodikası fakültəsini bitirmişdir.

1979-cu ildən Nərimanov rayonundakı 45 saylı orta məktəbdə ibtidai sinif müəlliməsi işləyir.

Bir sıra konfranslarda, metodbirləşmə iclaslarında müxtəlif mövzularda çıxışlar etmişdir.

1999-cu ildə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olmuş II dərəcəli Diplomla təltif olunmuşdur.

PİRİYEV YUSİF TAHİR OĞLU

Piriyev Yusif 1920-ci ildə anadan olmuşdur. O, həmin kənddə 7 illik təhsilini başa vurduqdan sonra Şəki Pedaqoji məktəbinə daxil olmuş və oranı müvəffəqiyyətlə qurtardıqdan sonra 1940-1941-ci tədris illərindən doğma kəndində müəllim və məktəb direktoru vəzifəsində çalışmışdır.

1950-ci ildə M.F.Axundov adına Bakı Dövlət müəllimlər İnstitutuna daxil olmuş və 1952-ci ildə oranı qurtararaq rus dili müəllimi ixtisası almışdır.

1956-cı ildə Bakı Ali Partiya Məktəbinə daxil olmuş və 1960-cı ildə həmin məktəbi bitirmişdir.

Yusif Piriyev 1941-1945-ci illərdə Sovet Ordusu sıralarında kiçik komandir kimi xidmət etmişdir. Ordudan qayıtdıqdan sonra Çayqaraqoyunlu kəndində məktəb direktoru vəzifəsində çalışmışdır.

1952-1953-cü tədris ilində Şəki rayonunun Qayabaşı kəndində rus dili müəllimi işləmişdir.

1953-cü ildə irəli çəkilərək Xaldan rayon Partiya Komitəsində şöbə müdiri kimi çalışmışdır.

1953-1956-cı illərdə Şəki rayonu S.Orconikidze adına Taxılçılıq sovxozunda Partiya Komitəsinin katibi işləmişdir.

1960-1961-ci illərdə Şəki rayon Partiya Komitəsinə təlimatçı təyin edilmişdir.

1961-1964-cü illərdə S.Orconikidze adına Taxılçılıq sovxozunun Partiya Komitəsinin katibi vəzifəsinə irəli çəkilmişdir.

1964-1972-ci illərdə Şəki rayonu Camışçılıq sovxozuna direktor təyin edilmişdir.

1972-1986-cı illərdə S.Orconikidze adına Taxılçılıq sovxozunda Fəhlə Komitəsinin sədri vəzifəsində çalışmışdır.

Yusif Piriyev işlədiyi müddətdə Xaldan və Şəki rayon Sovetlərinin deputatı olmuşdur. O, eyni zamanda Azərbaycan KP XXVII və XXVIII qurultaylarının nümayəndəsi seçilmişdir.

1944-cü ilin may ayında Sovet İttifaqı Kommunist partiyası sıralarına daxil olmuşdur.

Yusif Piriyev Böyük Vətən müharibəsi illərində müxtəlif orden və medallarla təltif olunmuşdur.

1. 1941-1945-ci illərdə Almaniya üzərində qələbə medalı

2. 1944-cü ildə 2-ci dərəcəli Vətən müharibəsi ordeni
3. 1946-cı ildə "Qafqazın müdafiəsi" medalı və digər medallar

Yusif Piriyev dinc əmək quruculuğu fəaliyyətində də yüksək nailiyyətlər əldə etmiş və onun əməyi dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir.

1. 1966-cı ilin mart ayı "Lenin" ordeni
2. 1967-ci ildə "Qızıl medal"
3. 1970-ci ilə "Qızıl medal"
4. 1969-cu ildə "Gümüş medal"

Yusif Piriyev gərgin əməyinə görə dəfələrlə "Fəxri Fərman"lara layiq görülmüşdür və bir neçə dəfə "Ümumittifaq Xalq Təsərrüfatı nailiyyətləri" sərgisinin iştirakçısı olmuşdur.

2002-ci ildə vəfat etmişdir.

RƏCƏBOV MUSA MUSTAFA OĞLU

Musa Rəcəbov 1922-ci ildə anadan olmuşdur.

1939-cu ildə Oxud kənd orta məktəbini bitirmişdir. 1941-ci ildə Şəkidə 2 illik Müəllimlər İnstitutuna qəbul olunub və həmin ildə Böyük Vətən müharibəsi cəbhəsinə yola düşüb.

1943-cü ildə Kurs ətrafında gedən döyüşlərdə ağır yaralandığına görə ordudan tərxis olunub.

Ordudan tərxis olunduqdan sonra Oxud məktəbində müəllim işləyə-işləyə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində təhsilini qiyabi davam etdirib. Tarix ixtisası üzrə ali təhsil aldıqdan sonra Rayon Partiya Komitəsində "Təlimatçı", daha sonra isə Oxud kolxozunda uzun müddət Partiya təşkilatı katibi işləyib. Sonralar Oxud məktəbində tarix müəllimi kimi ömrünün sonuna qədər fəaliyyət göstərmişdir.

SSRİ Ali Sovetinin qərarı ilə 1971-ci ildə "Şöhrət nişanı" ordeni ilə təltif olunmuşdur.

1976-cı il 17 may Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan SSR Əməkdar müəllimi fəxri adı verilmişdir.

RƏHİMLİ ƏHMƏD ƏLİ-RZA OĞLU

Rəhimli Əhməd 1906-cı ildə anadan olmuşdur. Pedaqoji fəaliyyətinə 1925-ci ildən Şəki pedaqoji məktəbini bitirdikdən sonra başlamışdır.

1925-ci ildən 1929-cu ilə qədər Zaqatala uezdində müəllim, dərs hiss müdiri, müdir, Xalq Maarif Şöbəsində inspektor işləmişdir.

1929-1932-ci illərdə Az. Dövlət Pedaqoji institutunun riyaziyyat fakültəsini oxuyub bitirmişdi.

1932-1942-ci ilə qədər Şəki Tibb fəhlə fakültəsində müəllim, dər hissə müdiri, müdir, Xalq maarif şöbəsinin müdiri, 1942-1944-cü ildə Şəki şəhər Partiya Komitəsinin birinci katibi, 1949-cu ilə qədər Bakı şəhər Partiya Komitəsinin birinci katibi, sonra isə Azərbaycan Kommunist Partiyasının məsul təşkilatçısı vəzifəsində və 1951-ci ilə qədər Xaçmaz rayon partiya komitəsinin birinci katibi işləmişdir.

1951-1953-cü illərdə Azərbaycan Nazirlər Sovetinin nəzdində əmək ehtiyatları idarəsində birinci müavin, Bakı Vilayət Xalq Maarif Şöbəsində müdir, sonra isə Bakı şəhər İcraiyyə Komitəsinin sədrinin müavini işləmişdir.

1953-60-cı illərdə Azərbaycan SSR Maarif Nazirliyinin birinci müavini, 1960-1963-cü ilə qədər Az.SSR Dövlət Nəzarəti Komitəsində şikayət bürosunun müdiri işləmişdir. 1963-cü ildən

Bakı Yerli Sənaye Texnoloji Texnikumunun direktoru olmuşdur. Sonra respublika əhəmiyyətli fərdi təqaüdə çıxmışdır.

1959-cu ildə onun redaktorluğu və rus dilindən tərcüməsi əsasında 6-8 siniflər üçün ilk "Həndəsə" dərsliyi hazırlanmış və çapdan çıxarılmışdır. 1965-ci ildən Bakı şəhər Xalq Nəzarə Komitəsində ictimai əsaslarla ştatdankənar xalq maarif şöbəsinin səhiyyə, mədəniyyət və elm bölmələrinə başçılıq edib.

1954-cü ildə əlavə olaraq Sov.İKP MK-nın nəzdində Ali Partiya Məktəbini bitirmişdir.

1939-cu ildə Qırmızı Əmək Bayrağı Ordeni ilə təltif edilmişdir. Azərbaycan SSR Nazirlər Sovetinin fəxri fərmanı, müxtəlif medala layiq görülmüş və "Qabaqcıl maarif xadimi" nişanı ilə təltif olunmuşdur.

Ə.Ə.Rəhimli 1985-ci ildə dünyasını dəyişmişdir.

RƏHİMOVA MƏLAHƏT AZAX QIZI

Azərbaycan Respublikasının əməkdar həkimi Məlahət xanım 1930-cu ildə anadan olmuşdur. O, 1947-ci ildə bu şəhərdəki 3 saylı orta məktəbi qızıl medalla bitirərək, həmin il N.Nərimanov adına Azərbaycan Tibb institutuna daxil olub və 1953-cü ildə buranı bitirdikdən sonra təyinatda Mingəçevir şəhərinə işləməyə göndərilir. Gənc energetiklər şəhəri olan Mingəçevirdə mama-ginekoloq sahəsində müvəffəqiyyətlə çalışaraq 1955-ci ildə Məlahət xanım şəhər xəstəxanası nəzdində doğum şöbəsi yaradıb və 1966-cı ilə qədər ona rəhbərlik edir.

Məlahət xanımın fəaliyyəti əsasən ana və uşaqların sağlamlığının qorunmasına, ginekoloji xəstəliklərin müalicə və profilaktikasına həsr olunmuşdur.

O, 1969-cu ildə Mingəçevir şəhərində açılmış tibb texnikumunun yaranma günündən həyatının sonunadək (1980-ci il, 29 noyabr) rəhbərlik edib.

Məlahət xanım Mingəçevir xəstəxanasında və tibb texnikumunda işlədiyi müddətdə səhiyyə sahəsində göstərdiyi xidmətlərə görə Az.SSR Ali Sovetinin Rəyasət Heyətinin "Fəxri fərmanı" ilə təltif olunmuş, "Əməkdar həkim" adına layiq görülmüşdür. Onun tələbələri respublikamızda tibb sahəsində uğurla fəaliyyət göstərirlər.

RƏHİMOV ƏLƏFSƏR (ƏLƏFSƏR ŞƏKİLİ)



Ələfsər Məmmədrəhim oğlu Rəhimov 1930-cu ildə Nuxa şəhərində anadan olmuşdur. İbtidai məktəbi qurtardıqdan sonra Kirov adına kolxozda işləməyə başlamışdır.

Hələ kiçik yaşlarından musiqiyə həvəsi olan Ələfsər balaban çalmağa meyl salıb, bir sıra havaları, xüsusilə oyun havalarını öyrənmiş və sərbəst olaraq ifa etmişdir. Musiqini qavramaq qabiliyyəti və həssaslığı ilə tez zamanda tanındığı üçün 1946-cı ildə respublika özfəaliyyət olimpiadasının iştirakçısı olmuşdur. O, öz repertuarını get-gedə zənginləşdirmiş, peşəkar bir balabançı və zurnaçı kimi çıxış etməyə başlamışdır.

Gənc Ələfsər tez zamanda bir sıra klassik aşıq havalarını, Azərbaycan muğamlarından "Şur", "Segah", "Çahargah", "Bayatı Kürd" kimi musiqi növlərini, Azərbaycan xalq mahnılarından bir çoxunu və bunlarla yanaşı Azərbaycan bəstəkarlarının yaratdığı oyun və mahnı musiqi növlərini öyrənib ustalıqla ifa etmişdir.

O, 1956-1957-ci illərdə respublika festivalının iştirakçısı

olmuş, geniş xalq kütləsi qarşısındakı çıxışlarında özünü göstərmiş, gözəl ifaçılıq qabiliyyətinə malik olduğunu nümayiş etdirdiyindən I dərəcəli diplom və medalla təltif edilmişdir.

Ələfsər 1959-cu ildə Moskvada keçirilən Azərbaycan İncəsənəti və Ədəbiyyatı ongünlüyünün iştirakçısı olmuşdur.

RƏHİMOV ƏKRƏM İBRAHİM OĞLU

Əkrəm Rəhimov 1926-cı ildə anadan olmuşdur. Orta məktəbi Şəkidə qurtardıqdan sonra 1945-ci ildə Bakıda M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş, 1950-ci ildə oranı neft mühəndisi ixtisası ilə bitirmişdir. İnstitutu bitirdikdən sonra 1954-cü ilə qədər Bakı neft mədənlərində mühəndis kimi çalışmış, 1954-cü ildə təkmilləşdirmə məqsədilə dövlət tərəfindən Moskvaya təkmilləşdirmə kurslarına göndərilmişdir. Moskvadan qayıtdıqdan sonra Azərbaycanda Azad Mirzəjanzadənin rəhbərliyi altında neft laylarında mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib, texnika elmləri namizədi adına layiq görülmüşdür. Uzun müddət Qaradağ neft mədənlərində tanınmış neftçilər Ağa Nemətulla, Seyid Rza ilə bir yerdə işləmişdir.

RƏSULOV TOFİQ ƏŞRƏF OĞLU

Rəsulov Tofiq 1961-ci ildə anadan olmuşdur.

1978-ci ildə Şəki şəhər 8 saylı orta məktəbi bitirmiş, eyni zamanda atası Əşrəf Rəsulovdan şəbəkə sənətinin sirrlərini öyrənmişdir.

1978-ci ildə Xüsusi Elmi-Bərpa İstehsalat idarəsinə şəbəkə ustası vəzifəsinə təyin edilmiş, 1984-cü ildə keçmiş SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilmişdir.

1985-ci ildə Moskva şəhərində keçirilən Gənclərin və Tələbələrin Ümumdünya xalq sənətkarlığı festivalında iştirak etmiş, festivalın laureatı adına, həmçinin 1986-cı ildə İordaniyanın paytaxtı Əddis-Əbəbə şəhərində "Azərbaycan dekorativ tətbiqi sənəti" sərgisində əsərləri nümayiş etdirilmiş, 1988-ci ildə Moskva şəhərində Ümumittifaq Folklor festivalının diplomuna layiq görülmüşdür.

1996-cı ildə "Xalq sənəti və özünəməşğulluq" adı altında Bakı şəhərində keçirilmiş sərgi-yarmarkanın qalibi olmuş və birinci dərəcəli diplomla təltif edilmiş, 1998-ci ildə "Xalq sənətkarlarının 1-ci sərgi baxışı" müsabiqəsinin xüsusi mükafatını almışdır.

2000-ci ildə "Xalq sənətkarlarının 3-cü baxış müsabiqəsi"nin iştirakçısı olmuş və 2-ci dərəcəli mükafata layiq görülmüş, Moskvadakı "Bakı" restoranı və Rostovdakı "Azərbaycan" mağazasının bədii tərtibatında iştirak etmişdir.

Tofiq Rəsulovun əl işləri olan şəbəkə nümunələri Azərbaycan Dövlət Xalça muzeyində, Gəncə Xalqların incəsənəti muzeyində, Bakıda R.Mustafayev adına İncəsənət muzeyində nümayiş etdirilir.

Şəkixanovların ev muzeyində şəbəkəyə aid bərpa işləri də Tofiq Rəsulova məxsusdur və Şəki Xan Sarayında 2002-ci ildən başlanmış təmir-bərpa işlərində şəbəkə nümunələrinin bərpası Tofiq Rəsulova həvalə edilmişdir.

RƏSULOV RƏSUL KƏRƏM OĞLU

Rəsulov Rəsul 1934-cü ildə müəllim ailəsində anadan olmuşdur. 1941-ci ildə Şəki rayon Aşağı Şabalıd kəndinin orta məktəbinə daxil olub və 1947-ci ildə həmin məktəbin 7-ci sinifini bitirib.

Ağır ailə vəziyyəti ilə əlaqədar 1947-ci ildən 1952-ci ilə kimi Şəki rayonunun "Qırmızı Oktyabr" kolxozunda işləyib.

1952-ci ildə Şəki şəhərinin Kənd Təsərrüfatı texnikumuna

daxil olub. 1956-cı ildə texnikumu "Kiçik aqronom" ixtisası üzrə bitirib.

1956-cı ilin iyun ayından 1957-ci ilin fevralınadək "Qırmızı Oktyabr" kolxozunda işləyib. 1957-ci ilin fevral ayından 1959-cu ilədək Şəki şəhər Komsomol Komitəsində təlimatçı, 1959-cu ildən 1965-ci ilədək Şəhər Partiya Komitəsində, Vartaşen istehsalat partiya komitəsində, təşkilatçı müfəttiş işləmişdir.

1961-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinin qiyabi şöbəsinə daxil olmuş və 1967-ci ildə təhsilini başa vurmuşdur.

1965-ci ildən 1983-cü ilədək Şəki Kənd Təsrrüfatı Texnikumunda müəllim işləmişdir.

1983-cü ildən Şəki rayon İpəkçilik kontorunun müdiri vəzifəsində işləmişdirn.

1976-cı ildə aspiranturaa qəbul olmuş və 1979-cu ildə bitirmişdir.

1952-ci ildə komsomola qəbul olmuş, 1959-cu ildə partiyaya daxil olmuşdur.

Xalq təsərrüfatı üzrə bir çox orden və medalları vardır.

1987-ci ildə Daşbulaq üzümçülük sovxozunda direktor işləmişdir. İşlədiyi müddətdə üzüm planı hər il artıqlaması ilə dolmuş, kəndə bulaqlar çəkmiş, yol çəkilmiş, idarə, məktəb, uşaq bağçası, tibb məntəqəsi tikilmişdir.

1993-cü ildən ömrünün sonuna qədər Şəki elmi bazasında işləmişdir.

1953-cü ildə Rəsul Rəsulov hələ texnikumda oxuyarkən ömrünün sonuna qədər "Şəki fəhləsi" qəzetinin əməkdaşı olmuşdur.

Uzun müddət Şəki Bilik Cəmiyyətinin üzvü olmuşdur. R.Rəsulov bir çox tərbiyəvi məqalələrin müəllifi olmuşdur. Kolxozlar,

sovxozlarda bir çox elmi məruzələrlə zəhmətkeşlər qarşısında çıxış etmişdir.

Respublika qəzetlərində "Kənd həyatı", "Sovet kəndi", "Kommunist" qəzeti, "Azərbaycan" jurnalı, "Təşviqatçı" jurnalı, "Azərbaycan" jurnallarında bir çox elmi məqalələri çıxmışdır və hamısının abunəçisi olmuşdur. Axır illərdə "Arı" satirik qəzetinin və "Dialoq" qəzetinin zona müxbiri işləmişdir.

Rəsulov ömrünün çiçəkli vaxtında 1998-ci ildə dünyasını dəyişmişdir.

RƏSULOV ƏŞRƏF YAQUB OĞLU



Rəsulov Əşrəf 1928-ci ildə anadan olmuşdur.

Şəbəkə sənətini atası usta Yaqubdan öyrənmiş, 1952-ci ildən müstəqil fəaliyyət göstərmişdir.

1973-cü ildə keçmiş SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilmiş, 1989-cu ildə "Azərbaycan SSR-in əməkdar rəssamı" fəxri adına layiq görülmüşdür.

Şəki Xan Sarayının 1959-1965-ci illərdə aparılmış bərpa işlərində çalışmış, sonra isə ömrünün sonunadək Şəki şəhərinin muzey-qoruq hissəsi üzrə daimi şəbəkə ustası kimi fəaliyyət göstərmiş, Moskvadakı "Bakı" restoranı və Rostov şəhərindəki "Azərbaycan" mağazasının bədii tərtibatında iştirak etmişdir.

Hazırda onun əl işləri olan şəbəkə nümunələri Sankt-Peterburq Etnoqrafiya Muzeyinin, Azərbaycan Tarix Muzeyinin və Azərbaycan Dövlət Xalça muzeyinin daimi eksponatlarıdır.

Əşrəf Rəsulov dəfələrlə fəxri fərmanlara və müxtəlif sərgilərin diplomları ilə təltif edilmiş, sənətinin sirlərini böyük həvəslə

gənclərə də öyrətmişdir.

Usta Əşrəfin şagirdləri - oğlu Tofiq Rəsulov, həmçinin Soltan İsmayılov, Hüseyn Hacımustafazadə və başqaları hazırda müstəqil fəaliyyət göstərən şəbəkə ustalarıdır.

Rəsulov Əşrəf 1997-ci ildə vəfat etmişdir.

RÜSTƏMOV CAHANGİR MAHMUD OĞLU

Cahangir Rüstəmov 1926-cı ildə anadan olmuşdur.

1939-1941-ci illərdə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini müvəffəqiyyətlə bitirmiş və doğma vətənin yaradıcılıq həyatında fəal iştirak etmişdi.

C.Rüstəmovun rəngarəng əsərləri nəinki respublikamızda, həm də onun hüdudlarından kənarda yüksək dəyərləndirilmiş və sevilmişdir.

Rəssamın yaradıcılığı rəngkarlığın bir çox janrını əhatə edərək dərin milli ruh və poetikliyi ilə fərqlənmişdir. C.Rüstəmovun yaratdığı mənzərələr, natürmortlar, portretlər buna əyani sübutdur. Rəssamın yaradıcılığında əsas yer əmək mövzusuna verilmişdir. "Çay becərənlər", "Tarla zəhmətkeşləri", "Bakı", "Dağlarda", "Şahdağ" və digər əsərləri sənətşünaslar və sənətsevərlər tərəfindən çox bəyənilmiş və ona şöhrət gətirmişdir.

C.Rüstəmovun əsərləri Rusiyada, Türkiyədə, Bolqarıstanda, Macarıstanda, İran İslam Respublikasında, Suriyada, Livanda, Rumıniyada və bir çox başqa xarici ölkələrdə böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Onun əsərləri bir çox muzeylərin, qalereyaların fondlarında saxlanılır.

Təsviri sənətimizin xidmətlərinə görə Cahangir Rüstəmov 1982-ci ildə "Əməkdar rəssam", 2004-cü ildə isə "Xalq rəssamı" kimi fəxri adlara layiq görülmüşdür. O, həm də prezident təqaüdçüsü olmuşdur.

Görkəmli rəssam, gözəl insan Cahangir Rüstəmovun əziz xatirəsi sənətsevərlərin və həmkarlarının qəlbində daim yaşayacaqdır.

RÜSTƏMOV ORUC SOLTAN OĞLU

Oruc Rüstəmov 1933-cü ildə müəllim ailəsində anadan olmuşdur.

1951-ci ildə orta təhsilini bitirmiş və Azərbaycan Sənaye İnstitutunun Neft-mexanika fakültəsinə daxil olmuş və institutu 1956-cı ildə bitirərək "Artyomneft"də işləmişdir.

1961-ci ildə Kalinin adına cihazqayırma zavodunda mexaniki sexin rəisi işləmişdir.

O.S.Rüstəmov 1964-cü ildən xüsusi təşkilata işə götürülmüş və 1987-ci ilə qədər "Kasked" Birliyinin Bakı sahəsində idarə rəisinin müavini vəzifəsində çalışmışdır.



RÜSTƏMOV NOVRUZ SOLTAN OĞLU

Novruz Rüstəmov 1935-ci ildə müəllim ailəsində anadan olmuşdur. Oxud kənd 7 illik məktəbini bitirdikdən sonra Şəki şəhər 10 saylı orta məktəbə daxil olmuş və 1952-ci ildə yüksək qiymətlərlə həmin məktəbi bitirmişdir. Elə həmin il də Azərbaycan Sənaye İnstitutunun "Avtomatlaşdırma və telemexanika" ixti-

sasına daxil olmuş və 1957-ci ildə institutu bitirdikdən sonra Kalinin adına "Cihazqayırma" zavodunda cihaz yığma sexinin rəisi vəzifəsində çalışmışdır. O, həm də, Azərbaycan Neft və Kimya İnstitutunun aspiranturasında təhsilini davam etdirmiş və 1968-ci ildə "Kor layın maskası ilk ölçü cihazlarının həssas elementləri ilə mexaniki əlaqədə olmayan ked-impuls tipli çeviricilərin işlənməsi və tədqiqi" mövzusunda dissertasiyanı müdafiə edərək texniki elmlər namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. O, bir müddət "Avtomatika və telemexanika kafedrasında dosent vəzifəsində çalışmışdır. Neft Sənayesində avtomatlaşdırma sahəsində yüksək səviyyəli mütəxəssislərdən biri olmuşdur.

N.S.Rüstəmov 50-dən çox məqalə və tezisin müəllifidir.

N.S.Rüstəmov onu sevənlərin qəlbində daim yaşamaqdadır.

RƏŞİDOV MÜBARİZ MƏMMƏD OĞLU

Mübariz Rəşidov 1952-ci ildə anadan olmuşdur.

1959-1969-cu illərdə Bakı şəhəri Nərimanov rayonu 39 saylı orta məktəbdə təhsil almışdır.

M.Rəşidov 1969-cu ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU) riyaziyyat fakültəsinə daxil olmuş, 1973-cü ildə oranı müvəffəqiyyətlə bitirmiş, 1973-1974-cü tədris ilində Səlyan rayonu 27 saylı orta məktəbdə riyaziyyat müəllimi işləmişdir.

1975-ci ildə ordu sıralarından qayıtdıqdan sonra Moskva şəhərin "Sistemli idarəetmənin elmi-tədqiqat və informasiya mərkəzi"ndə riyaziyyatçı-proqramçı vəzifəsində işləmişdir.

1979-cu ildə Azərbaycan Elmi-tədqiqat layihə neft institutu-

nun əyani aspiranturasında təhsilini başa vurduqdan sonra, 1985-ci ilədək həmin institutun "Hesablama texnikası" şöbəsində kiçik elmi işçi vəzifəsində işləmiş, 1985-1988-ci ilin aprelinə qədər Dövlət Elmi-tədqiqat "Dənizneftqazlayihə" institutunda böyük elmi işçi vəzifəsində çalışmışdır.

2002-ci ilədək ADNA-nın "Avtomatika-telemexanika və elektronika" kafedrasında dosent vəzifəsində işləmişdir.

M.Rəşidov 2002-ci ildən Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin (AAHDM) "Gəmiçilik" kafedrasında dosent vəzifəsində işləyir.

1984-cü ildə İvano-Frankovsk Neft və Qaz İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

M.Rəşidov 1990-cı ildə dosent şəhadətnaməsi almışdır. Dünyanın bir sıra qabaqcıl elmi mərkəzlərində keçirilən müxtəlif simpozium və konfranslarda Azərbaycanın elmi ictimaiyyətini təmsil etmişdir. Texniki sistemlərdə avtomatik idarəetmə və informasiya texnologiyaları üzrə 50-dən çox elmi əsərin, 2 monoqrafiyanın və 18 ixtiranın müəllifidir.

SADIQOV SADIQ SƏMƏD OĞLU

Sadıq Sadıqov 1926-cı ildə ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini Şəkidəki 2 saylı orta məktəbdə olmuşdur.

1943-1952-ci illərdə K.Marks adına Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan İqtisad Universiteti) təhsil almış, oranı fərqlənmə diplomu ilə qurtarmışdır. İnstitutu bitirdikdən sonra Azərbaycan Respublikası Dövlət Bankında iqtisadçı vəzifəsində işləmişdir.

1957-1961-ci illərdə Dövlət Bankının

(indiki Milli Bank) şəhər idarəsinin rəisi olmuşdur.

1961-1975-ci illərdə Dövlət Bankında direktor müavini işləmişdir.

1975-1986-cı illərdə Azərbaycan Sənaye-tikinti (indiki Kapital Bank) Bankının idarə heyətinin sədri olmuşdur.

Keçmiş Sovet dövründə tikintiyə vəsait qoyuluşunun prioritet vəzifə kimi ön plana çəkildiyi zaman respublikamızda bank işinin təkmilləşməsi tələb olunurdu. Sadıq Sadıqov bir bank işçisi kimi bu sahədə əlindən gələni əsirgəməmişdir.

Uzun müddət SSRİ Tikinti Bankının Azərbaycan respublika kontorunda rəhbər vəzifədə çalışmış S.Sadıqov bu sahədə çoxlu kadrlar yetişdirmişdir. İndi onun yetirmələri iqtisadiyyatımızın inkişafında yaxından iştirak edirlər.

Əldə etdiyi nailiyyətlərinə görə müxtəlif medallarla, fəxri fərmanlarla, o cümlədən iki dəfə "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif olunmuşdur.

1982-ci ildə "Respublikanın əməkdar iqtisadçısı" fəxri adına layiq görülmüşdür. Dəfələrlə şəhər və rayon sovetlərinə deputat seçilmişdir.

SALAMOV AKİF ƏLƏSGƏR OĞLU

Salamov Akif 1946-cı ildə şəki şəhərində anadan olmuşdur.

1953-cü ildə Şəkidəki M.Qorki adına 10 saylı orta məktəbə getmiş, 1964-cü ildə oranı bitirmişdir. 1964-cü ildə atasının xəstəliyi ilə bağlı Bakıya gəlmişdir.

1964-cü ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna (indiki ADNA) daxil olmuş, 1969-cu ildə oranı bitirmişdir. Elə həmin ildəcə mühəndis-leytenant rütbəsi alıb, ordu

sıralarına yola düşür. 1971-ci ildə ordu sıralarından ehtiyatda olan zabit kimi tərxis edilmişdir.

1971-1974-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun (indiki AMEA KPİ) aspiranturasında təhsil almışdır. 1975-ci ildə akademik H.Şaxtaxtinskinin rəhbərliyi altında namizədlik dissertasiyasını müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

AMEA KPİ-nin nəzdində olan xüsusi konstruktor texnoloji bürosunda baş mühəndis, sonra isə AMEA Mikrobiologiya İnstitutunda laboratoriya müdiri vəzifələrində çalışmışdır.

A.Salamov bir çox elmi əsər və ixtiraların müəllifi olmuşdur.

2006-cı ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

SALAMOV AMİL HÜSEYN OĞLU

Salamov Amil 1930-cu ildə anadan olmuşdur.

1945-1950-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbində təhsil almış, 1950-1954-cü illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

1954-cü ildə Şəkidə əmək fəaliyyətinə başlayaraq, rayon pionerlər evində, Şəki pedaqoji texnikumunda, şəhər 10 saylı orta məktəbdə rəsm müəllimi, Şəki İpəkçilik texnikumunda, M.Füzuli adına mədəniyyət və istirahət parkında rəssam kimi fəaliyyət göstərmişdir.

1973-cü ildən Azərbaycan SSR Rəssamlar İttifaqının üzvü və Rəssamlar İttifaqının Şəki şöbəsinin rəhbəri, 1977-ci ildən keçmiş SSRİ Rəssamlar İttifaqının üzvü olmuşdur.

Yaradıcılığının əsas istiqaməti qrafika və rəngkarlıq olmuşdur.

1999-cu ildə vəfat etmişdir.

SALAMOV MÖVSÜM ƏSGƏR OĞLU

Salamov Mövsüm 1906-cı ildə dəmirçi usta Əsgərin ailəsində anadan olmuşdur. Ailə, çoxsaylı uşaqlarının gələcəyini təhsilli görmək üçün onları o vaxtlar üçün yeganə sayılan mollaxanaya, mədrəsəyə istiqamətləndirərdilər. Mövsümün də təhsil almasının ilk illəri mollaxana zamanlarına təsadüf etdiyi üçün, orada yazıb oxumağa başlamışdır.

1920-ci ilin inqilab hadisələri ailənin uşaqlarının təhsilini başqa yola istiqamətləndirdi.

Mövsümdən böyük qardaş, 1898-ci il təvəllüdlü Saleh 1922-ci ildə Bakıya köçəndən sonra, ali təhsil almaq üçün Mövsümü də Bakıya gətirdi.

Mövsüm Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini seçdi. O, orada fərqli tələbələrdən biri kimi tanındı. Qeyri-adi hafizəsi, axtarıb-öyrənmək istəkləri, elmi ədəbiyyata maraqları ona əsas yaratdı ki, Mövsümü aspiranturaya istiqamətləndirdilər. Orada, o dövrün təzə alimləri, Rusiyadan gəlmiş və s. mütəxəssislərlə birgə o, Azərbaycanı addım-addım gəzib öyrənməyə başladı. Tarixi abidələr, etnoqrafiya, qazıntı işləri və s. sahələrdəki işlər və tədqiqatlar onun yaxından iştirakı ilə baş verirdi.

Az vaxt keçmiş M.Salamov dissertasiya müdafiə etdi və tarix elmləri namizədi elmi dərəcəsinə layiq görüldü. Onun elmi rəhbəri və məsləhətçilərindən ən başlıcası Sankt-Peterburq alimi, akademik İvan ivanoviç Meşşaninov oldu. Akademik İ.İ.Meşşaninov Mövsüm Salamovun işlərinə yüksək qiymət verir, elmi inkişafını izləyir, lazım olduqca, təcrübəsini ondan əsirgəmirdi. Akademikin yazılı rəylərindən biri M.Salamovun yaxınlarından birinin arxivində indi də saxlanmaqdadır.

M.Salamovun nümayiş etdirdiyi yüksək şəxsi mədəniyyət, yaxşı təşkilatçılıq qabiliyyəti, tarixlə başqa sahələrin qarşılıqlı əlaqəsini, gənclərin yeni kadr olaraq tez və yüksək səviyyələrdə hazırlanması gərəkliklərini və s. məsələləri yaxşı və düzgün həyata keçirə bildiyi üçün ona Azərbaycan Tarixi Muzeyini yaratmaq kimi çətin bir tapşırıq verdilər. Bunun üçün onu həmin muzeyin direktoru təyin etdilər. O zaman bu çox çətin və məsuliyyətli bir iş idi. birinci ona görə ki, muzeyin yaradılması üçün ona məşhur milyonçu Zeynalabdin Tağıyevin şəxsi evini verdilər. O ev, köhnə və təzə ziyalıların axışıb gəldiyi bir yer idi. Muzey üçün heç bir avadanlıq yox idi. Keçmiş sahibin zəngin varidatı isə əlindən alınıb, kənara daşınmışdı. İşə böyük cavabdehlik, məsuliyyətlə yanaşan M.Salamov gecəsini gündüzünə qatmağa, həmin binadan çıxmayıb, elə oradaca da yaşayıb-yaratmağı davam etməyə məcbur oldu.

Az vaxt keçməmiş muzeydə maraqlananlara, tamaşaçılara arxeoloji materiallar, tarixi əşyalar, neçə-neçə maketlər, xalq sənəti əsərləri, tarixi sənədlər xəritələr, əşyayi-dəlillər və s. göstərilməyə başladı.

Lakin sovet ideologiyasının mənfi cəhətləri tədricən özünü büruzə verməyə başladığı dövrdə, bu rejimə mütiliklə xidmət etməkdən boyun qaçıranlardan biri də M.Salamov idi. Buna misal olaraq, belə bir faktı göstərmək kifayətdir ki, dinə qarşı mübarizə kampaniyası başlandıqda, məscidlər kütləvi şəkildə ləğv edilərkən, M.Salamov, Fətəli xanın Bibi-Heybət məscidindəki qəbirüstü daşını gecəliklə çıxartdırıb gizlətmişdir. Hal-hazırda bu qiymətli tarixi abidə Azərbaycan Tarixi Muzeyinin fondunda qorunub saxlanır.

Muzey özünün ilk addımlarını atmağa demək olardı ki, təzəcə başlayırdı ki, mənfur 1937-ci il gəldi. Elmlər namizədi, artıq neçə-neçə elmi yazıların müəllifi və əməli iştirakçısı, əvvəllər heç kəsin eşitmədiyi günahlarda təqsirli bilinən M.Salamov tədricxanaya salındı. Rusiyanın şimal ərazilərindən ən ucqarlarından biri olan Komi vilayətinə sürgün edildi.

1953-cü ildə İ.Stalinin vəfatından sonra bir çox günahsız müqəssirlər bəraət qazanıb, evlərinə dönmək imkanı əldə etdilər.

Mövsüm Salamov Bakıya 1956-cı ildə qayıtdı. Böyük şöhrətə malik xalq yazıçısı, akademik Mirzə İbrahimovun, eləcə də, tarixçi-alim Əlisöhbət sumbatzadənin şahidliyinə əsasən, M.Salamovun elmi adı bərpa edilib özünə qaytarıldı. Az vaxt keçmədi ki, onu "XV əsr Şirvanşahlar sarayı tarixi-qoruq memarlıq kompleksi Muzeyi"nə direktor təyin etdilər. Nəticədə M.salamov sanki yenidən həyata qayıtdı. Onun əmək fəaliyyətində və mənəviyyatında yeni dövr başlandı. Və bu dövr onun ömrünün axırınadək davam etdi.

Salamov Mövsüm 1985-ci ildə vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

SALMANOV RÜSTƏM ƏSƏDULLA OĞLU

Rüstəm Salmanov 1935-ci ildə anadan olmuşdur. Orta təhsil aldıqdan sonra 1953-cü ildə Azərbaycan Neft Kimya İnstitutuna (AZİ) daxil olaraq 1958-ci ildə bitirmişdir. Ali təhsil aldıqdan sonra təyinatla Salyan rayonuna ixtisası üzrə işləməyə göndərilib. O, neft mədənlərində qazma ustası, mühəndis, baş müəllim Salyan Neft və Qazçıxarma İdarəsinin direktoru vəzifələrində işləmişdir.

1973-cü ildə Respublika tabeliyində Neftçala rayonu yaradılanda Rayon Partiya Komitəsinin III katibi vəzifəsinə seçilir. Bu vəzifədə yüksək təşkilatçılıq və rəhbərlik bacarığına malik olduğunu göstərən R.Salmanova daha böyük etimad göstərilir və o, Neftçala Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri vəzifəsinə seçilir. R.Salmanov ona etibar edilmiş rəhbər və məsul vəzifələrdə özünü şərəflə doğrultmuş,

rayon ictimaiyyətinin, geniş xalq kütlələrinin böyük rəğbətini qazanmışdır.

1981-ci ildən daimi yaşamaq üçün Bakıya köçən R.Salmanov ömrünün axırına qədər "Azəriqaz" trestində baş mühəndis vəzifəsində işləmişdir.

1993-cü ildə vəfat etmişdir.

Yüksək intellektual səviyyəsi, qibtə ediləsi əxlaqi-mənəvi keyfiyyətləri, ədəb-ərkanı, sadəliyi və qeyri-adi təvazökarlığı ilə sl insan, ziyalı zirvəsini fəth edən R.Salmanov özündən sonra dərin iz qoydu, xeyirxah əməllərilə əbədiyyətə qovuşdu.

P.S. R.Salmanovun atası Əsədulla Nəsrulla oğlu Salmanov folklor bilicisi idi. Dilçi alim, filologiya elmləri doktoru, professor M.İslamov onun dilindən xeyli mətn, o cümlədən "Xan və oğlu" nağılını, Şeyx Şamil və onun naibi Hacı Murad haqqında tarixi rəvayətləri yazıya alaraq "Azərbaycan dilinin Nuxa dialekti" kitabında (Bax: Musa İslamov. "Azərbaycan dilinin Nuxa dialekti", Azərbaycan SSR EA nəşriyyatı Bakı - 1968, s. 220, 221, 222) nəşr etdirmişdir.

SALEHLİ EDİSON MİRZƏ OĞLU



Edison Salehli 1940-cı ildə anadan olmuşdur. 1947-ci ildən 1957-ci ilədək Şəki şəhəri M.Qorki adına 10 saylı orta məktəbdə təhsil almışdır. 1957-ci ildə orta məktəbi bitirərək M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Neft və Kimya İnstitutunun (hazırkı Neft Akademiyası) mühəndis mexanik ixtisası üzrə fakültəsinə daxil olmuşdur. 1962-ci ildə İnstitutu bitirərək, 1962-1969-cu illərdə Bakı şəhərində yerləşən Tibb Preparatları zavodunda müxtəlif vəzifələrdə çalışmışdırb. Zavodda işlədiyi müddət ərzində istehsalatda tətbiq

etdiyi yeniliyə görə, 1963-cü ildə rəhbərlik tərəfindən ona təşəkkür elan edilmiş və mükafat verilmişdir.

1969-cu ildə SSRİ Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılaraq 1972-ci ilədək xidmətdə olub. 1970-ci ildə Frunze şəhərinə Ali Uçuş Akademiyasına göndərilmiş, 1972-ci ildə kapitan rütbəsində ordudan tərxis olunub. Qayıtdıqdan sonra 1972-1975-ci illərdə Sovet Ticarət Texnikumunda texniki fənlər üzrə müəllim, 1975-ci ildən 2003-cü ilədək Bakı Baza Energetika Texnikumunda müəllim, eyni zamanda "Arzu" Elm-Tədqiqat istehsalat kommersiya kompaniyasında elmi-tədqiqatlar departamentinin rəisi vəzifəsində, Elmlər Akademiyasının İnnovasiya mərkəzində böyük elmi işçi, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyində müxtəlif vəzifələrdə işləmişdir. V.S.Altunin adına Ekologiya və Təbiətdən istifadə Beynəlxalq Akademiyasının 16 fevral 2006-cı il tarixli qərarına əsasən Akademiyanın həqiqi üzvü seçilməyi ilə əlaqədar ona 019D saylı diplom verilmişdir. Eyni zamanda Akademiyanın müxbir üzvü seçilib. Bununla yanaşı, xroniki xəstəliklərin qarşısını almaq istiqamətində onun tərəfindən ixtira olunmuş tibbi aparatların tətbiqində əldə etdiyi misilsiz nailiyyətlərə görə, Akademiyanın 22 mart 2006-cı il tarixli qərarı ilə medalla təltif olunub.

SALEHLİ MİRZƏ MƏMMƏDBAĞIR OĞLU



Mirzə Salehli 1905-ci ildə Şəki şəhərində anadan olmuş, orta məktəbdə təhsil aldıqdan sonra Azərbaycan Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə daxil olmuşdur. Ali məktəbi bitirdikdən sonra təyinatla İsmayıllı rayonunun Lahıc kənd orta məktəbinə direktor vəzifəsinə təyin olunmuşdur. 5 illik direktor fəaliyyətindən sonra Şəki şəhər Pedaqoji məktəbində müəllim işləmişdir.

Böyük Vətən müharibəsi illərində o da bütün sovet vətəndaşları kimi, cəbhənin müxtəlif istiqamətlərində xidmət edərək, kapitan rütbəsinə kimi yüksəlmiş və artilleriya batareyasının komandiri olmuşdur. 1945-ci ildə Poznan (Almaniya) şəhərinin alınmasında fəal iştirak edərək ayaq nahiyəsindən aldığı ağır yaraya görə ordu sıralarından tərxis olunmuşdur. Müharibə illərində dövlət tərəfindən müxtəlif orden və medallara təltif olunmuşdur.

Müharibədən qayıtdıqdan sonra öz pedaqoji fəaliyyətini davam etdirərək 1950-ci ilə qədər Şəki şəhər Pedaqoji məktəbinin direktoru vəzifəsində işləmişdir.

1950-1955-ci illər ərzində Azərbaycan Respublikası Təhsil Nazirliyində Ali və Orta ixtisas üzrə kadrlar şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1955-ci ildən etibarən Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsində geoloji coğrafiya fənninin tədrisi üzrə baş müəllim, sonra dosent vəzifəsində işləmişdir. Bu dövrlərdə əmək fəaliyyətində əldə etdiyi nailiyyətlərə görə dövlət tərəfindən Şərəf nişanı ordeni ilə təltif olunmuşdur.

1963-cü ildə vəfat etmişdir.

SƏDİYEVA SUSAN BABA QIZI

Susan Sədiyeva 1934-cü ildə anadan olmuşdur. 1952-ci ildə Şəki şəhər 11 saylı orta qızlar məktəbini 4 və 5 qiymətlərlə bitirmişdir.

1952-1957-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda oxuyaraq "Neft və qaz texnologiyası" fakültəsini bitirib. "Mühəndis-texnoloq" ixtisasına yiyələnmişdir.

3 iyul 1957-ci il tarixindən təyinatla Əliheydər Qarayev adına Bakı Neftayırma

zavodunda əmək fəaliyyətinə başlamışdır.

12 noyabr 1958-ci tarixindən köçürülmə yolu ilə Sumqayıt "-SK" zavodunda mühəndis işləmişdir.

26 mart 1963-cü ildən "Azərkimya" Dövlət Layihə İnstitutunda əmək fəaliyyətini davam etdirmişdir

İşlədiyi müddətdə o, müxtəlif vəzifələrdə çalışaraq, baş mütəxəssis vəzifəsinə qədər yüksəlmiş, dəfələrlə müxtəlif təşəkkürlər almış, daima şərəf lövhəsində şəkli asılmışdır.

30 may 1969-cü il tarixində Sumqayıt şəhər Zəhmətkeş Deputatları İcraiyyə Komitəsi tərəfindən işdəki vicdanlı xidmətlərinə görə "Fəxri fərman"la təltif olunmuşdur.

1989-cu ildə "Qosniixlorproyekt"in 30 illiyi münasibətilə çoxillik fəal əmək fəaliyyətinə görə Moskva Baş təşkilatı tərəfindən "Fərman"la təltif olunmuşdur.

25 may 1991-ci ildə "Kimyaçılar günü" şərəfinə SSRİ Kimya Sənaye Nazirliyinin "Fəxri fərman"ı ilə təltif olunmuşdur.

27 fevral 1987-ci il tarixindən SSRİ Ali Sovetinin qərarı ilə çoxillik vicdanlı əmək fəaliyyətinə görə "Veteran truda" medalı ilə təltif olunmuşdur. Layihə İnstitutunda işləyərkən "Sulfonol", "100%-li alkilbenzol" "yuyucu tozlar", "benzol riforminqi", "ksilol riforminqi", "Xlor istehsalı", "Etilen istehsalı" və s. kimi iri layihələrdə fəal iştirak etmişdir.

2004-cü ildən işləməyən təqaüdçüdür, Sumqayıt şəhərində yaşayır.

P.S. "Azərkimya" Dövlət Layihə İnstitutu bu illər ərzində müxtəlif adlar daşımışdır:

1963-1966-cı ildə P/ya 3092 təşkilatının Sumqayıt filialı

1966-1975-ci ildə "Qiproxlor"un Sumqayıt filialı

1975-1990-cı ildə "Qosniixlorproyekt"in Sumqayıt filialı

1990-1991-ci ildə MNPO "Sintez"in Sumqayıt filialı

1991-1993-cü ildə Kimya Sənayesinin Sumqayıt Layihə İnstitutu

10 fevral 1993-cü ildən "Azərikimya" Dövlət Layihə İnstitutu

SƏDİYEV NAZİM KAMAL OĞLU



Nazim Sədiyev 1933-cü ildə anadan olmuşdur.

O, 1951-1952-ci tədris ilində Şəki şəhər 10 saylı orta oğlanlar məktəbini əla qiymətlərlə bitirmişdir.

N.Sədiyev 1952-1957-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda oxuyaraq "Elektrik stansiyaları, şəbəkələri və sistemləri" fakültəsini bitirib. "Mühəndis-elektrik" ixtisasına yiyələnmişdir.

O, 1957-ci ildən təyinatla Sumqayıt "Boru-yayma" zavodunda əmək fəaliyyətinə başlamışdır.

Sonralar Sumqayıt "SK" zavodunda sex energetiki vəzifəsində, Sumqayıt "Kimya sənaye" zavodunda baş energetikin müavini vəzifəsində, Sumqayıt Layihə İnstitutunda qrup rəhbəri vəzifəsində çalışmışdır.

1 sentyabr 1965-ci il tarixində M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda aspiranturaya qəbul olunub və oranı müvəffəqiyyətlə bitirərək "Texnika elmləri namizədi" alimlik dərəcəsinə layiq görülmüşdür.

Sonrakı illərdə Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialı ATTM (indiki Sumqayıt Dövlət Universiteti)də dosent, dekan, kafedra müdiri vəzifələrində işləmişdir.

7 dekabr 1973-cü ildə Ali Attestasiya Komissiyasının qərarı ilə "Sənaye elektrotexnikası" kafedrası üzrə dosent elmi adına layiq görülmüşdür. O, Şəbəkə və sistemlər kafedrasının laboratoriya bazasının yaradılması üçün böyük təşəbbüs göstərmiş, tədrisin keyfiyyətli keçirilməsinə çalışmışdır.

Gənc nəslin tərbiyəsində və təhsilində müstəsna rolu olmuşdur. Onun çoxsaylı elmi əsərləri, konfrans materialları nəşr olunmuşdur.

3 yanvar 1984-cü il tarixində Sumqayıt Alüminium zavodunda Baş energetikin müavini vəzifəsində çalışmışdır.

31 dekabr 1985-ci ildə SSRİ Ali Sovetinin qərarı ilə çoxsaylı vicdanlı əmək xidmətlərinə görə "Veteran truda" medalı ilə təltif olunmuşdur.

Elmi nailiyyətlərindən başqa "Klassik güləş" üzrə idmançı kimi müxtəlif yarışlarda Respublikamızın şərəfini qoruyaraq 1-ci dərəcəli diplomlara layiq görülmüşdür (1952, 1954, 1962-ci illərdə və s.).

N.Sədiyev 10 iyul 1987-ci ildə ağır xəstəlikdən dünyasını dəyişmişdir.

SƏRKƏROV ŞÖVKƏT-ZİYA ŞAMİL OĞLU



Sərkərov Şövkət-Ziya 1915-ci ildə sənətkar ailəsində anadan olmuşdur. O, Təbii ipəkdən kələğayıların istehsalında böyük nüfuza malik olanlardan biri olmuşdur.

O, "Təbii ipək" müəssisəsini ilk dəfə Şəki şəhərində təsis etmişdir. Gəncə, Yevlax, Göyçay, Ağdaş, Zərdabda basqallı Həbib dayı ilə 1950-1969-cu illərdə kələğayı sexlərinin təməlini qoymuşlar. Əmircanda da kələğayı sexi yaratmışdılar. Müəssisədə istehsal olunan məhsullar 1977-1990-cı illərdə "Keyfiyyət nişanı"na layiq görülmüşdür.

Bu illərdə dostu, xalçaçı rəssam Kamil Əliyevin dəyərli fikir və tövsiyyələri olmuşdur. Kamil Əliyev 1975-ci ildə İstehsal şöbəsinə rəhbərlik edirdi.

Sərkərov Şövkət-Ziya baş örtüklərinin təbii ipəkdən toxunması, onların çeşidlərinin seçilməsində rənglərinin və müxtəlif ornamentlərin işlənilməsində bir çox yeniliklər etmişdir. Belə ki,

o, köhnə milli ənənələrə sadiq qalaraq, geniş və rəngarəng naxışlarla və təbii koloritlə yeni növ kələğayıların istehsalında böyük işlər görmüşdür.

Cənnət göyləri kimi firuzəyi, dağlar başındakı qar kimi ağappaq, sübh şəfəqi kimi qırmızı, ana kədəri kimi qara... doğma torpağın rəngləri məharətli usta əlləri ilə ipək parçalara, kələğayılara köçür, el-el, oba-oba dolaşır.

Yerli Sənaye Nazirliyinin sərgisində 1978-ci ildə xaricilər də iştirak edirdi. Böyük sifariş qəbul olunmuşdu.

1999-cu ilin avqustun 25-də Sərkərov Şövkət-Ziya dünyasını dəyişmişdi.

SƏRKƏROV MUSTAFA HÜSEYN OĞLU

Mustafa Sərkərov 1905-ci ildə Nuxa şəhərində yoxsul kəndli ailəsində anadan olmuşdur. Azərbaycanda Sovet Hakimiyyətinin qurulması M.Sərkərova da yüz minlərlə başqa gənclər kimi, oxumaq və inkişaf etmək imkanı vermişdir. O, Nuxa şəhəri Pedaqoji fəhlə fakültəsini bitirdikdən sonra 1926-cı ildə Bakıya gələrək "Tənqid-təbliğ" teatrına daxil olur. Bu illərdə "Tənqid-təbliğ" teatrında çalışan Rza Darablı, A.S.Gəraybəyli, İsmayıl Talıblı, Fatma Qədri, Sona Hacıyeva, Əzizə Məmmədova və başqa görkəmli artistlərlə yanaşı, bir sıra maraqlı rollarda çıxış edərək tamaşaçıların rəğbətini qazanmışdır. Bakı işçi (Tənqid-təbliğ) teatrı 1932-ci ildə Gəncəyə köçürüldüyü vaxtdan başlayaraq M.Sərkərov bu teatrda çalışmışdır.

M.Sərkərov 1941-1945-ci illər ərzində Böyük Vətən Müharibəsində iştirak etmişdir. Müharibə iştirakçısı olan M.Sərkərov SSRİ orden və medalları ilə təltif olunmuşdur. 1943-cü ildən

Kommunist Partiyasının üzvü olan M.Sərkərov müharibədən sonra Gəncə teatrına qayıtmış və uzun müddət truppa müdiri vəzifəsində işləmişdir. İşlədiyi müddətdə o, ""lülər""ə Heydər ağa, ""açaq Nəbi"d" Təhmasib və bir sıra yadda qalan maraqlı obrazlar yaratmışdır.

Sadıq Həsənzadə hərtərəfli inkişaf etmiş kamil bir aktyor idi. O, dram əsərlərindən başqa musiqili komediyalarda da oynadığı obrazları eyni bacarıq və ustalıqla yaratmışdır.

Azərbaycan dövləti Azərbaycan teatr səhnəsində uzun illərdən bəri qüsursuz işlədiyinə görə onu bir çox fəxri fərman və fəxri adlarla təltif etmişdir.

M.Sərkərov əmək fəaliyyətini "Gəncə Alimlər evi"ndə inzibati işlər üzrə müdir müavini vəzifəsində bitirmişdir.

M.Sərkərov 1997-ci ildə Gəncədə vəfat etmişdir.

SƏFƏROV YUSİF HƏBİBULLA OĞLU

Azərbaycanın tanınmış tarixçi alimi, tarix elmləri doktoru, müharibə və əmək veteranı Yusif Həbibulla oğlu Səfərov Azərbaycanın füsunkar guşələrindən biri olan, öz füsunkar təbiəti ilə insanları heyran edən, qədim ticarət, sənətkarlıq və mədəniyyət mərkəzi kimi tanınan Şəki şəhərində 1921-ci ildə dünyaya göz açmışdır. Onun sonrakı tale yolu həyatın özü qədər keşməkeşli, tələtümlü, enişyoxuşlu və bir o qədər də şərəfli olmuşdur. Yusif Səfərov çox mənalı, ibrətamiz, indiki və bütün gələcək nəsillərə örnək olası bir ömür yolu keçmişdir. Sadə sənətkar ailəsində dünyaya gələn Yusif sonralar böyük əzmi, qırılmaz iradəsi və sarsılmaz fədakarlığı sayəsində Respublikanın görkəmli simalarından biri oldu. Yusif Səfərov Azərbaycan ziyalıları arasında

öz dəsti-xətti ilə seçilən alimlərdəndir.

Atası Həbibulla kişi adi bir pinəçi idi və zamanın sosial-iqtisadi çətinlikləri və maddi sıxıntıları üzündən təhsil ala bilməsə də müdrik bir insan idi və övladlarını oxumuş, ziyalı görmək istəyirdi. Fəqət amansız müharibə, bir çoxlarının olduğu kimi, onun da arzularını gözündə qoydu. Həbibulla kişi yaşının ötməsinə baxmayaraq könüllü olaraq cəbhəyə yollanmış və 1943-cü ildə Kerç uğrunda gedən döyüşlərdə həlak olmuşdur.

Həbibulla kişi böyük ailəsinin (ailədə 6 uşaq böyüyürdü) azuqəsini çətinliklə qazanırdı. Anası Hüseynova Xədicə Məhəmməd qızı evdar qadın idi. Odur ki, ailənin kasıblıq məngənəsində çarpışdığını görən Yusif, erkən yaşlarından atasının çəkməçilik sənətinə yiyələnir və orta məktəbdə oxuya-oxuya 11 yaşından əmək fəaliyyətinə başlayır.

30-cu illərin bütün çətinliklərinə baxmayaraq Yusif Səfərov 1939-cu ildə Şəki şəhəri 11 saylı orta məktəbini fərqlənmə attestatı ilə bitirərək Bakı Dövlət Universitetinin tarix fakültəsinə imtahansız qəbul olunur. Kiçik yaşlarından Vətənə böyük məhəbbət ruhunda tərbiyə alan, atası Həbibulla kişinin vətən, yurd, doğma torpaq haqqında dediklərini böyük maraqla dinləyən, gəncliyi II Dünya müharibəsinin ağrılı-acılı illərinə təsadüf edən Yusif Səfərov 1941-1945-ci illər müharibəsi başlayan kimi Universitet təhsilini müvəqqəti dayandırmış, ordu sıralarına getmiş, müharibənin bir çox cəbhələrində alman faşistlərinə qarşı vuruşmuşdu.

O, 1941-ci ilin avqust ayında Bakıda təşkil edilən 34-cü kursant briqadasının tərkibində könüllü olaraq cəbhəyə yollanır. Bundan öncə Həbibulla kişinin dediyi sözlər "Möhkəm dayan, oğul, get, sənə yaxşı yol. Arxanca mən də gələrəm" həmişəlik onun yaddaşına həkk olundu. Bir müddətdən sonra atasının Qafqaz cəbhəsində vuruşduğu xəbərini aldı. Ata və oğul Taman uğrunda gedən döyüşlər zamanı bir-birilə rastlaşdılar. Lakin bu görüş uzun sürmədi. Həbibulla kişi savaşların birində aldıbı ağır yaradan oğlu Yusifin qolları üstündə əbədiyyətə qovuşdu, şəhid-

lik zirvəsinə ucaldı. Atası ilə son vida kəlməsini kəsən Yusif Səfərov Kerç, Krım, Sevastopol, Qroznı, Mogilyov, Varşava, Krakov və digər şəhərlərin azad edilməsində iştirak etdi. Onun döyüş yolu Oder çayı üzərində yerləşən alman şəhəri Frankfurtda başa çatdı.

1945-ci il aprel ayının 19-da Frankfurt şəhəri uğrunda gedən ağır döyüşlərin birində qıçından ağır yaralandı. Bundan sonra Yusif Səfərov 1945-ci ilin aprelindən 1947-ci ilin iyununa qədər bir çox hərbi qospitallarda ondan artıq cərrahiyyə əməliyyatı keçirmişdir. Bu ağır yaradan axıradək sağala bilməyən Y.Səfərov II qrup müharibə əlili kimi ordu sıralarından tərxis olundu və doğma yurdu Bakıya qayıdaraq ADU-nun tarix fakültəsinin II kursuna bərpa edildi. Cəbhədə aldığı bu ağır yara ömrünün sonuna kimi alimi müşaiyət edəcək və vaxtaşırı qayıdan kəskin, dözülməz ağrılarilə müharibənin dəhşətlərini təkrar-təkrar xatırladacaqdı. Lakin əlilliyinə baxmayaraq Yusif Səfərov müvəffəqiyyətlə təhsilini davam etdirməklə bərabər həm də SSRİ tarixi kafedrasının laborantı və baş laborantı işləmişdir. Yusif cəbhədən qayıdarkən sinəsini "Qırmızı Bayraq", "Qırmızı Ulduz", I və II dərəcəli "Vətən Müharibəsi" ordenləri, "Qafqazın müdafiəsi", "Varşavanın azad edilməsi" və bir çox başqa döyüş orden və medalları bəzəyirdi. Y.Səfərov Ali Komandanlığın çox sayda fəxri fərmanı ilə də təltif olunmuşdur.

1951-ci ildə tarix fakültəsini fərqlənmə diplomu ilə bitirdiyinə görə Elmi Şuranın qərarı ilə Y.Səfərov ADU-nun aspiranturasında saxlanıldı və elə həmin il gənc tədqiqatçı M.Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsinə məqsədli aspirant kimi ezam edildi. 1954-cü ilin yanvar ayında Y.Səfərov "1806-1912-ci illər Rusiya-Türkiyə müharibəsi (Qafqaz cəbhəsi)" mövzusunda namizədlik dissertasiüası müdafiə edib tarix elmləri namizədi adını aldı.

1954-cü ilin aprelində Bakıya qayıdan Y.Səfərov Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində müəllim, 1955-ci ildən isə baş müəllim və kafedranın dosenti vəzifəsində çalışmışdır.

Pedaqoji fəaliyyətə başladığı andan Y.Səfərov tarix elminin xüsusilə geniş erudisiya, nəzəri bilik və məntiqi təfəkkür tələb edən sahələrindən biri tarix elminin tarixşünaslığı üzrə ixtisaslaşmışdır. Ölkə universitetlərində tarix elminin nəzəri əsası olan "Tarix elminin tarixşünaslığı" fənninin tədris edilməsinin əsası XX əsrin 50-ci illərində qoyulmuşdur. Y.Səfərov tarix elmləri namizədi kimi tarixşünaslıq elmi sahəsində, Moskva Dövlət Universitetinin tarix fakültəsində əldə etdiyi təcrübəyə söykənərək, Azərbaycanda tarixşünaslıq və mənbəşünaslıq elmlərinin tədrisi və həm də tədqiqi ilə yaxından məşğul olur və ADU-nun tarix fakültəsində "SSRİ xalqları tarixinin mənbəşünaslığı və tarixşünaslığı" fənlərinin tədrisi və tədqiqinin əsasını qoyur. Moskva təhsili, böyük zəhmətsevərlik onun bu işdə uğur qazanmasına kömək edir.

50-ci illərin sonu, 60-cı illərdə Səfərov ayrı-ayrı rus və Azərbaycan tarixçilərinin tarixi görüşlərinə dair maraqlı elmi əsər və məqalələri ilə çıxış edir. Bunlardan 1961-ci ildə "Elm" nəşriyyatı tərəfindən çap edilmiş "M.V.Lomonosovun ictimai-siyasi görüşləri", 1968-ci ildə çapdan çıxan "İnqilabçı-demokrat A.İ.Gertsen", 1960-cı ildə işıq üzü görmüş "Buxarest sülh müqaviləsində Qafqazda Rusiya-Türkiyə sərhədi məsələsi haqqında" və 1966-cı ildə nəşr olunmuş "Feodal təhkimçilik sisteminin böhranı və kapitalist münasibətlərinin inkişafı dövründə rus-zadəgan tarixşünaslığı" və s. əsərlərini göstərmək olar.

1964-cü ildə Yusif Səfərovun görkəmli rus zadəgan tarixçisi Karamzinin tarixi görüşlərini tarixşünaslıq baxımından tədqiq edən əsəri nəşr olunur. Y.Səfərov 1965-1970-ci illərdə ADU-nun "SSRİ tarixi" kafedrasının müdiri vəzifəsində çalışmışdır. Onun bu illərdə tarix elminin nəzəriyyəsi olan tarixşünaslıq problemlərinin tədris və tədqiqi məsələlərində fəaliyyəti daha da genişlənib stabil forma aldı. 1969-cu ildə Y.Səfərov "SSRİ xalqlarının tarixşünaslığı (XIX əsr)" adlı 18 çap vərəqi həcmində əsərini nəşr etdirir. Bu əsər İttifaq miqyasında tarixşünaslığa dair ilk dərs vəsaiti idi. SSRİ məkanında, SSRİ tarixşünaslığına dair dər-

slik Y.Səfərovun kitabının nəşrindən 2 il sonra, 1971-ci ildə çap olunmuşdur. Y.Səfərovun kitabının nəşri ilə əlaqədar "Voprosı istorii" jurnalı yazırdı ki, Y.Səfərovun "SSRİ xalqlarının tarixşünaslığı" kitabı milli dildə yazılan ilk əsərdir. Daha sonra Y.Səfərovun 1972-ci ildə "Azərbaycan XIX əsr rus tarixşünaslığında" və 1975-ci ildə "Xalqın qəhrəmanlıq epopeyası" adlı əsərləri çap olunur.

80-ci illərdən etibarən "Azərbaycan tarixşünaslığı" fənninin tədris və tədqiq edilməsi məsələləri ilə ciddi məşğul olmuşdur. 1988-ci ildə Y.Səfərov "Azərbaycanın qədim tarixinin tarixşünaslığı" adlı dərs vəsaitini, 1989-cu ildə "Qədim Azərbaycan - nə bilirik" monoqrafiyasını və bir sıra elmi məqalələrini çap etdirir. Azərbaycanın qədim tarixinin təsvirinə həsr edilmiş "-Qədim Azərbaycan - nə bilirik" əsəri Azərbaycanın həm daxilində, həm də xaricində tarixçi mütəxəssislərin, eyni zamanda, ulu tariximizə maraq göstərən geniş oxucu kütləsinin dərin marağına səbəb olmuşdu. Heç də təsadüfi deyildir ki, bu kitab "Azadlıq radiosu"nun efirində 3 aydan artıq bir müddətdə gündə 3 dəfə təkrar-təkrar səsləndirilmişdir. Y.Səfərov 1994-cü ildə "Azərbaycanın qədim tarixinin tarixşünaslığı" (1920-1980-ci illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə edir, tarix elmləri doktoru alimlik dərəcəsini alır.

80-ci illər Y.Səfərovun yaradıcılıq həyatında daha yeni-yeni uğurlarla əlamətdar olmuşdur. Bu illərdə onun "Azərbaycanın sinifli cəmiyyətə qədərki tarixinin sovet tarixşünaslığı", "Azərbaycan sovet tarixşünaslığında SSRİ və ZFSSR tarixinin öyrənilməsi tarixinin öyrənilməsi məsələsinə dair", "SSRİ ərazisində qədim dövlətlər", "Arxeologiya tariximizdən" və s. əsərləri çap edilir. Ümumiyyətlə, Y.Səfərov 80-ci illərdən etibarən tədqiqtçı kimi diqqətini Azərbaycan xalqının tarixi keçmişinin ən ziddiyyətli, mürəkkəb və tarix ədəbiyyatında fikir müxtəlifliyilə fərqlənən dövrün tarixinin, dövlət quruculuğu məsələlərinin Azərbaycan xalqının etnogenezi və dil mənsubiyyəti problemlərinin araşdırılmasına yönəltmişdir. Y.Səfərovun bir tarixçi kimi elmi maraq

dairəsi çox geniş olmuşdur. O, Azərbaycan tarixində ən az işlənmiş və mübahisəli suallara cavab tapmağa çalışmış, xalqımızın soykökünün, qədim dövlətlərimizin tarixi-coğrafi ərazilərinin, dövlətçilik ənənələrimizin və s. araşdırılması ilə məşğul olmuşdur. 1998-ci ildə Y.Səfərovun "Azərbaycanın qədim və erkən orta əsrlər tarixinin tarixşünaslığı" adlı monoqrafiyası çapdan çıxdı. Monoqrafiyada Azərbaycanın tarixi qədim daş-paleolit dövründən VII əsrə - Azərbaycanın ərəb istilası, Albaniya-Azərbaycan dövlətinin süqutuna qədərki böyük bir dövrün tarixi tarixşünaslıq baxımından tədqiq edilir. Monoqrafiyada "Azərbaycan" adının etimologiyası ilə bağlı yəni mülahizələr irəli sürülür. Bu problemlə əlaqədar 1998-2000-ci illərdə Yusif Səfərovun BDU-nin Xəbərlərində "Azərbaycan" adının etimologiyasına dair" adlı məqaləsi dərc olunmuşdur. Eyni problemə həsr olunmuş "Azərbaycan və yeganə Azərbaycan" elmi məqaləsi 1998-ci ildə "İyirmi birinci gənclik dərgisi" jurnalında çap edilmişdir. Y.Səfərov elmi işi ilə pedaqoji fəaliyyətini sıx əlaqələndirən alimlərdən idi. Pedaqoji fəaliyyətilə bağlı nümayiş etdirdiyi intizam və tələbkarlığı onu başqa həmkarlarından fərqləndirirdi. Y.Səfərov, sanki, bir intizam, məsuliyyət və tələbkarlıq mücəssəməsi idi. Bu gözəl xüsusiyyətləri hərbi xidmət dövründə özündə tərbiyə etmiş Yusif müəllim onları tələbələrinə aşılamağa çalışır, onları dərin dərin məsuliyyət hissi ilə tarix elminin incəliklərinə yiyələnməyə, tariximizin öyrənilməmiş səhifələrini tədqiq etməyə istiqamətləndirirdi. Yusif müəllimdən dərs alan tarixçi tələbələr, hazırda, respublikamızın müxtəlif idarə və təşkilatlarında - dövlət strukturlarında, özəl qurumlarda elmi-təhsil ocaqlarında çalışırlar. Yusif müəllim onlarca doktorluq və namizədlik dissertasiyalarının məsləhətçisi və rəhbəri olmuş, onun rəhbərliyi altında bir sıra alimlər yetişmişdir. Y.Səfərov 100-dən çox elmi əsərin və məqalənin, metodik və dərs vəsaitinin müəllifidir. O, 60-cı illərdən bəri keçirilən bir çox elmi-nəzəri və elmi-praktik konfransların, sessiyaların seminarların iştirakçısı olub Azərbaycanda tarix elminin inkişafı ilə bağlı maraqlı məru-

zələrlə çıxış etmişdir.

Uzun illər Universitet Həmkarlar İttifaqı bürosunun, Azərbaycan SSR EA-nın Terminologiya komissiyasının və digər təşkilatların, o cümlədən, "Bilik" Cəmiyyəti nəzdindəki tarix bölməsinin üzvü olmuşdur. Döyüşlərdə göstərdiyi qəhrəmanlıq və şücaətinə görə təltif edildiyi orden və medallara əlavə olaraq Yusif Səfərov həm də müstəqil Azərbaycan Respublikasının yüksək mükafatı olan "Tərəqqi" medalına layiq görülmüşdür. O, Maydamaq stansiyasının fəxri vətəndaşı idi. Professorun, yaşı 80-i adlamasına baxmayaraq, hələ çox planları, fikirləri var idi. Lakin amansız ölüm bu planların çoxunun həyata keçməsinə imkan vermədi. Xüsusilə də o son işinin - "Azərbaycan tarixşünaslığı (ən qədim dövrdən XIX əsrədək)" əsərinin nəşrini görmək ona nəsib olmadı. Professor Yusif Həbibulla oğlu Səfərov ömrünün 82-ci yayında, yarım əsrlik elmi-pedaqoji və ictimai fəaliyyətindən sonra 2002-ci ildə vəfat etmişdir. Həmişə hamının sevimlisi olmuş Yusif müəllim onu tanıyanların qəlbində hər zaman yaşayacaqdır.

SƏLİMOV VƏHYƏDDİN SALMAN OĞLU

Vəhyəddin Səlimov 1920-ci il fevral ayının 23-də fəhlə ailəsində anadan olmuşdur.

1927-1932-ci illərdə Şəki şəhərində ibtidai təhsil almış, orta təhsilini isə Sənaye texnikumunda və fəhlə fakültəsində davam etdirmişdir.

1936-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1941-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir. Böyük Vətən müharibəsi illərində polk həkimi vəzifəsinə çağırılmışdır.

1942-1944-cü illərdə Polşa, Fransa və Almaniya hərbi əsirlərinin olduğu hərbi xəstəxanada, 1944-cü ilin avqust ayından isə partizan dəstəsində Fransanın Liypi şəhərində həki-cərrah işləmişdir. 1944-1945-ci illərdə Fransada SSRİ vətəndaşları üçün həkim-cərrah və hərbi xəstəxanada rəis vəzifəsində çalışmışdır. 1945-ci ilin avqust ayından 2100 saylı qospitalda, 1945-1947-ci illərdə xüsusi hərbi düşərgədə, 1947-1949-cu illərdə Leninabad vilayətinin Proletarsk şəhərində həkim-cərrah vəzifəsində əmək fəaliyyətini davam etdirmişdir. 1949-1955-ci illərdə Arxangelsk vilayətinin Pukso-Ozero rayonundakı Pliseyskiy şəhər xəstəxanasında həkim-cərrah vəzifəsində işləmişdir.

1955-ci ildən Şəki şəhərində rayonarası şəhər xəstəxanasında həkim-cərrah vəzifəsində çalışmış, 1957-ci ildən cərrahiyyə şöbəsinin müdiri təyin olunmuşdur. 1967-ci ildən rayonarası baş cərrah işləmişdir. Gəncə, Zaqatala, Qax, Oğuz, Qəbələ, Balakən və digər rayonlara ağır cərrahiyyə əməliyyatlara məsləhətçi həkim kimi çağırılmışdır.

Tədqiqatlardan məlum olmuşdur ki, doktor Səlimov 1966-1968-ci illərdə travmatologiya, urologiya, akuşero-ginekologiya və digər sahələr üzrə 1173, 1983-1985-ci illərdə isə 1107 xəstə üzərində uğurlu cərrahiyyə əməliyyatları keçirmişdir. Respublikamızda cərrah kadrların yetişməsində onun böyük əməyi olmuşdur.

Həkimin əməyi xalqımız və hökumət tərəfindən yüksək qiymətləndirilmişdir. Vəhyəddin Səlimov 1966-cı ildə - qırmızı Əmək Bayrağı ordeninə, 1966-cı ildə "Respublikanın səhiyyə əlaçısı" döş nişanına, 1967-ci ildə "20 illik Almaniya üzərində qələbə" medalına. 1968-ci ildə Respublika Səhiyyə Nazirliyinin Fəxri fərmanına, 1983-cü ildə "İlin ən yaxşı həkimi" adına, Şəki Rayon Partiya Komitəsinin keçici Qırmızı Bayrağına layiq görülmüşdür.

Cərrah Səlimov Vəhyəddin Salman oğlu 2 avqust 1992-ci ildə 72 yaşında vəfat etmişdir.

SƏLİMOVA ARZU SƏFTƏR QIZI

Arzu Səlimova 1957-ci ildə anadan olmuşdur. İlk təhsilini M.Qorki adına 10 saylı orta məktəbdə almışdır.

1976-cı ildə Azərbaycan Dövlət Dillər İnstitutuna daxil olmuş, 1981-ci ildə həmin institutu ingilis-alman dilləri üzrə mütəxəssis kimi başa vurmuşdur.

1981-1984-cü illərdə Qax rayonunda müəllim işləmiş, 1991-ci ildən təhsil aldığı institutda əvvəl laborant, sonra baş laborant, daha sonra müsabiqə yolu ilə müəllim vəzifəsinə qəbul olunmuşdur.

Hal-hazırda "İngilis dilinin qrammatikası" kafedrasında müəllim kimi fəaliyyət göstərməkdədir. Bir sıra məqalə və tezisləri çapdan çıxmışdır.

"Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" kitabının müəllifidir.

A.S.Səlimova "Müasir ingilis dilində ismin mənsubiyyət kateqoriyası" mövzusunda elmi iş üzərində işləyir.

SOLTANOV NAQİM SOLTAN OĞLU

Naqim Soltanov 1950-ci ildə anadan olmuşdur. 1967-ci ildə Bakı şəhərindəki 80 saylı orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika-riyaziyyat ixtisasına daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. Bu zaman ona aspirantura-da təhsilini davam etdirməsi tövsiyyə olunmuşdur.

N.S.Soltanov 1974-cü ildə Ukrayna Elmlər Akademiyasının Mexanika İnsti-

tutunun aspiranturasına daxil olmuş və 1977-ci ildə fizika-riyaziyyat elmlər doktoru Xoroşunun rəhbərliyi altında "2 fazalı bərk cisimlərdə temperatur sahəsi və termodözümlü gərginliklər" mövzusunu uğurla müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

O, 1982-ci ilə qədər o, Ukrayna Elmlər akademiyasının Mexanika İnstitutunda şöbə müdiri vəzifəsində çalışmışdır. 30-a qədər elmi əsərin müəllifi olmuşdur.

N.S.Soltanov bu gün də onu sevənlərin xatirəsində yaşayır.

SOLTANOV NİYAZİ SOLTAN OĞLU



Niyazi Soltanov 1939-cu ildə Oxud kəndində anadan olmuşdur. Oxud kənd orta məktəbini bitirdikdən sonra 1958-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş və həmin ali məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra təyinatla SSRİ Müdafiə Nazirliyinə işə göndərilmişdir. O, Sır-Dərya sahillərində - Baykanurda hərbi tikintidə usta vəzifəsindən başlayaraq, hərbi hissənin baş mühəndisi vəzifəsinə qədər yüksəlmişdir.

1969-cu ilin axırlarında Bakıya qayıtmış və "Kaskad" Birliyində xüsusi işlər üzrə fəaliyyətə başlamışdır.

1970-ci ildə Az Pİ-nin "Tikintinin iqtisadiyyatı və təşkili" kafedrasına konkursla baş müəllim vəzifəsinə seçilmişdir. O gündən həmin kafedranın bazasında çalışır.

Hal-hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetinin "İnşaatın və biznesin təşkili, idarə edilməsi" kafedrasının baş müəllimidir. O, işlədiyi dövrdə istər Politexnik institutunda, istərsə "İnşaat mühəndisləri Üniversiteti"ndə, AzMİU-də siyasi-ict-

imai işlərdə yaxından iştirak edir. O, uzun illər İnşaat Mühəndisləri İnstitutu"nda 1980-ci illərdən başlayaraq dekan müavini vəzifəsində çalışmış və dərs prosesinin təşkilində böyük təcrübəyə malikdir.

1990-cı ildən "Tikinti-iqtisad" fakültəsinin yaradılması ilə əlaqədar o, dekan müavini kimi fakültənin formalaşmasında böyük əməyi vardır. İşlədiyi dövrdə 70-ə yaxın elmi əsəri, metodik göstəriş, monoqrafiyası çap olunmuş və hətta "Tikintinin təşkili, planlaşdırılması və idarə edilməsi fənni üzrə kurs layihələrinin yerinə yetirilməsinə aid ümumittifaq səviyyədə metodik göstərişin müəllifidir. Əsasən xüsusi sahələr üzrə tikintinin təşkili, iqtisadiyyatı şəhər infrastrukturunun iqtisadi əsaslandırılması ilə məşğul olur.

SULTANOVA SƏADƏT ƏHƏDXAN QIZI

Səadət Sultanova 1927-ci ildə ziyalı ailəsində anadan olmuşdur. Atası Sultanov Əhədxan Cəfər oğlu Şəkidə tanınmış ziyalılardan idi. O, 1930-cu ildə Şəkidə Sovet imperiyasına qarşı başlanmış üsyanın rəhbərlərindən biri olmuşdur. Ailə vəziyyəti ilə əlaqədar olaraq Bakı şəhərinə köçmüş və ömrünün axırlarına qədər Bakı şəhərində yaşamışdır. Səadət xanım Sultanova 1947-ci ildə Bakı şəhərində 132 saylı məktəbi bitirərək Azərbaycan Dövlət Universitetinin Geoloji coğrafiya fakültəsinə daxil olmuşdur. 1952-ci ildə ADU-ni bitirərək Azərbaycan Respublikasının Geologiya idarəsində mühəndis geoloq, Gədəbəy rayonu ərazisində geoloji-kəşfiyyat işləri aparan dəstədə Baş geoloq vəzifəsində çalışmışdır.

1959-cu ildən Bakı su kəmərləri idarəsinin Şollar xidmətində

baş mühəndis vəzifəsinə təyin olunmuşdur. Az müddətdən sonra Şollar su xidmətinin rəisi vəzifəsinə irəli çəkilmişdir. İşlədiyi müddət ərzində bir neçə dəfə Kommunal təsərrüfat nazirliyinin tərəfindən fəxri fərmanla təltif edilmişdir və 4 dəfə Xaçmaz rayon Xalq Deputatları Sovetinin deputatı seçilmişdir. V.İ.Leninin 100 illiyi ilə əlaqədar xüsusi fərmanla və medalla təltif edilmişdir.

1987-ci ildən fəxri təqaüdçüdür.

SULTANOVA BİLQEYİS ABDULQƏDİR QIZI

Bilqeyis Sultanova 1923-cü ildə Azərbaycanın dilbər guşəsi olan məşhur Şəki şəhərində dünyaya göz açmışdır. Onun uşaqlıq, gənclik illəri ağır ictimai-siyasi şəraitə - yeni iqtisadi siyasətin formalaşması, səfalət, aclıq, milyonlarla günahsız insanların məhv olduğu, faşizm ideyasının sürətlə baş qaldırdığı, nəhayət ikinci dünya və Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar alman faşistləri və onların müttəfiqləri ilə amansız "ölüm, ya qalım" mübarizəsinin aparıldığı, döyüş meydanlarında xəsarət almış milyonlarla Vətən oğul və qızlarının, o cümlədən körpə uşaqların, hamilə qadınların müalicəsinə, reabilitasiyasına, ana bətnindəki uşaqların sağlam doğulub böyüməsinə kəskin ehtiyac olduğu, həkim kadrların çatışmadığı dövrə təsadüf etmiş və təbii ki, bu amillər Bilqeyis xanım Sultanovanın gələcək peşə yönümünü müəyyənləşdirmiş, o, tibb təhsili almaq, müqəddəs həkim peşəsinə yiyələnmək, insanların sağlamlığı keşiyində dayanmaq arzusuna qapılmışdı. Məqsədyönlü surətdə bu arzunun nəticə olaraq B.Sultanova məhz 01 sentyabr 1939-cu ildə - dünya müharibəsinin başlandığı tarixdə Azərbaycan Tibb İnstitutuna

daxil oldu, ömrünü ədəbi bağladığı gələcək həkimlik peşəsinin sirlərini müharibə illərinin məşəqqətlərinə baxmayaraq, özünəməxsus böyük həvəs və əzmlə öyrənməyə başladı. Təhsilini əyani davam etdirməklə yanaşı o, öz qəlbinin səsi və Ana Vətənin çağırışı ilə 1941-1943-cü illərdə gecə növbəsində, Bakı şəhərində yerləşən, xalq arasında "Papanin" adı ilə məşhurlaşmış hərbi hospitalda həkim kimi fəaliyyət göstərmiş, yüzlərlə əsgərlərə öz əlləri və qayğısı ilə şəfa vermişdir.

1943-cü ildə göstərilən institutun müalicə-profilaktika fakültəsini əla qiymətlərlə bitirmiş gənc həkim B.Sultanova təyinatla Qazax rayon Səhiyyə şöbəsinə işlə təmin olunmaq üçün göndərilmiş, 1946-cı ilədək həmin rayonda mama-ginekoloq ixtisası üzrə həkim işləmiş, sonra öz işini Qax rayon xəstəxanasında davam etdirmiş, qeyd olunan ildə orada tanınmış cərrah Sultanov Midhət Musa oğlu ilə ailə həyatı qurmuşdur.

1950-ci ildə Bilqeyis xanım ailəsi ilə Mingəçevir şəhərinə köçmüş və ömrünün sonuna - 1995-ci ilə kimi şəhər xəstəxanasında əvvəlcə ginekoloji şöbənin müdiri, sonra doğum evinin baş həkimi vəzifələrində işləmiş, 35 il ərzində böyük bir kollektivə bacarıqla rəhbərlik etmiş, öz işgüzarlığı, tələbkarlığı, tabeçiliyində işləyənlərə qayğısı, insani keyfiyyətləri ilə doğma kollektivin, eləcə də şəhər səhiyyə şöbəsinin bütün tibb işçilərinin, şəhər ictimaiyyətinin hədsiz hörmət və rəğbətini qazanmışdır.

B.Sultanova öz ixtisasının, peşəsinin vurğunu olmuş, daim öz üzərində çalışmış, tibb və xüsusi tibb ədəbiyyatlarında, dövri mətbuatda əksini tapmış qabaqcıl elmi fikir və nəzəriyyələrin təcrübədə müvəffəqiyyətlə tətbiqinə nail olmuş, eləcə də şəhərin ictimai-siyasi həyatında fəal iştirak etmişdir.

B.Sultanova öz zəngin bilik və təcrübəsini, mama-ginekoloq peşəsinin incəliklərini onlarla gənc həkimlərə dərindən öyrətmiş, onların peşəkar, püxtələşmiş, ixtisaslı, öz peşəsini. Xalqını sevən həkim və insan kimi yetişib formalaşmasında onun əvəzsiz rolu olmuşdur.

Həmkarları və onu tanıyanlar arasında böyük nüfuza malik olan, öz halal zəhməti ilə hörmət qazanmış B.Sultanovanın tibb sahəsindəki xidmətləri dövlət, Səhiyyə Nazirliyi, Mingəçevir şəhərinin rəhbərliyi və səhiyyə şöbəsi tərəfindən layiqincə qiymətləndirilmiş, o, Qırmızı Əmək Bayrağı ordeni, müxtəlif medallar, fəxri fərmanlarla, SSRİ Səhiyyə Əlaçısı döş nişanı ilə mükafatlandırılmışdır.

Peşəkar həkim, minlərlə insanlara, dünyaya körpə gətirən analara şəfa vermiş, onların sağlam uşaq doğub böyütmələrinə yardımçı olmuş gözəl insan Bilqeyis xanım Sultanovanın əziz xatirəsi onun övladlarının və onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

SULTANOVA MAYA ABDULQƏDİR QIZI

Maya Sultanova 1926-cı ildə ziyalı ailəsində anadan olmuşdur. 1930-cu ildən Bakı şəhərində yaşamışdır. 1944-cü ildə orta məktəbi Bakı şəhərində bitirmiş, 1945-ci ildə Dövlət Tibb İnstitutuna daxil olmuşdur. 1952-ci ildə Pediatriya fakültəsini bitirmişdir.

XIX partiya Qurultayının qərarı ilə təyinatla Xam torpaqlara - Qazaxıstan Respublikasının Çimkent şəhərinə göndərilmişdir. 1952-ci ildə ailə qurmuş və 1954-cü ildə Bakı şəhərinə qayıtmışdır. 1955-ci ildə Azərbaycan Respublikasının Xaldan rayonunda uşaq məsləhətxanasının müdiri vəzifəsinə təyinat almışdır. 1963-cü ildə Mingəçevir şəhər xəstəxanasında uşaq şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1970-i ildə Uşaq xəstəxanasının açılışı ilə əlaqədar olaraq Mingəçevir uşaq xəstəxanasına baş həkim təyin edilmişdir. 1996-cı ilə kimi həmin vəzifədə çalışmışdır. İşlədiyi müddətdə orden və medallarla təltif olunmuşdur.

1966-cı ildə SSRİ Ali Sovetinin qərarı ilə "Şərəf Nişanı" ilə təltif olunmuşdur.

1973-cü ildə "Sosialist yarışmalarının qalibi" ordeni ilə təltif olunmuşdur.

1977, 1979-cu ildə şəhər sovetinin deputatı seçilmişdir.

1978-ci il 28 oktyabrda SSRİ Ali Sovetinin qərarı ilə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

1989-cu ildə SSRİ Səhiyyə Nazirliyinin qərarı ilə əlaçı həkim fəxri adı ilə mükafatlandırılmışdır.

Hazırda Şirvan və Gəncəbasar zonasında bir çox valideynlər uşaqlarına nicat tapmaq üçün Maya Sultanovaya müraciət edirlər. Bütün ömrünü səhiyyəyə sərf edən Maya xanım öz təcrübəsini onlardan da əsirgəmir.

SULTANOV AKİF ƏNVƏR OĞLU

Sultanov Akif 1938-ci ildə anadan olmuşdur.1957-ci ildə Şəki şəhər 10 saylı orta məktəbi bitirmiş, həmin ilin noyabr ayında ordu sıralarına getmiş və 1959-cu ildə ordu sıralarından baş leytenant rütbəsi ilə qayıtmışdır.

1959-cu ilin Şəki İpək Kombinatının rəssamlıq emalatxanasına köməkçi rəssam vəzifəsinə təyin edilmişdir.

Keçmiş SSRİ Yüngül Sənaye Nazirliyinin nəzdindəki Bədii Şura tərəfindən əvvəl 3-cü dərəcəli, sonra isə 1-ci dərəcəli rəssam adına layiq görülmüşdür. İpək parçalar üçün çəkdiyi rəsmlər nəinki keçmiş SSRİ-də, həmçinin, xaricdə də nümayiş etdirilmiş və yüksək qiymətləndirilmişdir. Parça üçün çəkdiyi rəsmlərə görə keçmiş SSRİ Yüngül Sənaye Nazirliyinin 1-ci dərəcəli diplomuna layiq görülmüş, eləcə də SSRİ Xalq Təsərrüfatı nailiyyətləri sərgisinin

fəxri fərmanına layiq görülmüşdür.

1967-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbini müvəffəqiyyətlə bitirmişdir. Şəkiyə qayıdaraq, həm İpək Kombinatında rəssam kimi, həm də Şəki Pedaqoji Texnikumunda müəllim kimi fəaliyyətə başlamış, eyni zamanda fərdi yaradıcılıqla da məşğul olmuşdur.

1975-ci ildə keçmiş SSRİ Rəssamlar İttifaqına üzv qəbul edilmişdir. Dəfələrlə əsərləri V.Səmədova adına sərgi salonunda, Dövlət Rəsm Qalereyasında nümayiş etdirilmişdir.

Şəki İpək Kombinatı fəaliyyətini dayandırdıqdan sonra, fəaliyyətini Pedaqoji texnikumunda davam etdirmişdir. Respublikamız müstəqillik əldə etdikdən sonra Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur.

SULTANOVA TƏHMİNƏ CƏFƏR QIZI

Sultanova Təhminə 1926-cı ildə anadan olmuşdur. Hələ kiçik yaşlarından valideynlərini itirən Təhminə qardaşının himayəsində böyümüşdür.

İlk təhsilini Şəki şəhər 7 saylı məktəbdə almışdır. Yeddiillik təhsilini başa vurduqdan sonra Şəki Pedaqoji texnikumuna daxil olmuşdur. Pedaqoji təhsil aldıqdan sonra Qax rayonunun Malax kəndində işləmişdir. II Dünya müharibəsindən sonra təhsilini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmiş, dil və ədəbiyyat müəllimi ixtisasına yiyələnmişdir.

Təhminə müəllimin işlədiyi rayonların atlası genişdir. İndinin özündə də Qəbələ rayonunun Zarağan və Bum, Qusar rayonunun Urva, Xaçmaz rayonunun Çarxı kənd məktəblərində Təhminə müəllimi yaxşı xatırlayır və onu xeyirxahlıqla yad edirlər. Şagird-

lərinin əksəriyyəti indi bu məktəblərdə onun yolunu uğurla davam etdirirlər.

Təhminə müəllimə fəal ictimaiyyətçi kimi də həmişə diqqəti cəlb edib. Çalışdığı rayonlarda dəfələrlə kənd və rayon sovetlərinin deputatı olub. Müxtəlif daimi komissiyalarda faydalı təklifləri, təşəbbüskarlığı ilə köməyə çatıb. Rayon Xalq Maarif Komissiyasının sədri, xalq məhkəmələrinin iclasçısı seçilib.

Təhminə müəllimə Sumqayıt 1 saylı orta məktəbdə dil-ədəbiyyat müəllimi işləmişdir. Baş müəllimdir. O, keçmişə nəzər salanda halal və gərgin əməyinə həmişə yüksək qiymət verildiyini görüb bir qədər fəxr edir, bir qədər kövrəlir. Onlarla Fəxri fərman, Yubiley və Əmək veteranı medalları, neçə-neçə təşəkkür və tərifnamə onun yuxusuz gecələrinin bəhrəsidir.

Uşaq yaşlarından anasız qalıb özü hamının anasına-bacısına çevrilmiş ağbirçək qadının bu həyatda qazancı öz şagirdlərinin, onların valideynlərinin, onu tanıyanların hörməti və ehtiramıdır. O, uşaqların və gənclərin xoşbəxt gələcəyinə inanır.

O, hal-hazırda təqaüdçüdür.

Azərbaycan Respublikasının Əməkdar müəllimi, Sumqayıt şəhər "Sevil" Qadınlar Cəmiyyətinin sədri, Qabaqcıl Maarif xadimi, Maarif əlaçısı, 11 saylı tam orta məktəbin direktoru, şairə Ofelya Hacıməmməd qızı Babayeva müəlliməsi Sultanova Təhminəyə "Anam" deyərək onun 60 illik yubileyinə həsr etdiyi şeri-ni belə tamamlayır:

Qara saçlarına dən düşdü erkən,
Gülüşü, sevinci gen düşdü erkən.
Bahar, yaz ömrünə çən düşdü erkən,
Qaldı taleyilə barışan anam
Gözləri yol çəkən pərişan anam.

SULTANOVA AYNA CƏFƏR QIZI

Ayna Sultanova 1916-cı ildə anadan olmuşdur. O, 1934-cü ildə Bakı şəhərində 1 saylı orta məktəbi bitirmişdir. Ayna xanım bəy qızı olduğuna görə Sovet dövlətinin o zamankı qanuna görə 1934-1937-ci illərdə ali məktəbə qəbul ola bilməmişdir Nəhayət, 1937-ci ildə İ.Stalinin Kommunist qəzetində "Oğul ataya cavabdeh deyil" məqaləsi çıxandan sonra Ayna xanım Azərbaycan Pedaqoji İnstitutunun kimya-biologiya fakültəsinə daxil olmuşdur. O, institutu bitirdikdən sonra, 1942-ci ildə təyinatla Qax rayonunun Güllük kəndinə kimya-biologiya müəllimi göndərilmişdir.

1946-cı ildə Ayna müəllimə Bakıya qayıtmış və Azərbaycan Tibb İnstitutunun anatomiya kafedrasında müəllimlik fəaliyyətini davam etdirmişdir. O, 1954-cü ildə ailə vəziyyətinə görə işdən azad olmuşdur. Sonradan 1956-cı ildən 1990-cı ilə qədər Bakının 14 saylı məktəbində öz müəllimlik fəaliyyətini davam etdirmişdir.

Ayna xanım 1968-ci ildə Azərbaycanın "Əməkdar müəllimi" adına layiq görülmüşdür. O, daha sonra "Qırmızı Əmək Bayrağı" ordeni ilə və "fəxri fərman"la təltif olunmuşdur.

Ayna Sultanova 1991-ci ildə Bakı şəhərində vəfat etmişdir.

SÜLEYMANOVA LƏMAN VAQİF QIZI

Süleymanova Ləman 1977-ci ildə ziyalı ailəsində anadan olmuşdur. 1983-cü ildə Şəki rayonu Cumakənd orta məktəbinin 1-ci sinifinə daxil olmuş və 1994-cü ildə həmin məktəbi bitirmişdir.

O, 1995-ci ildə BDU-nun Şəki filialının filologiya fakültəsinə daxil olmuş və 1999-cu ildə oranı fərqlənmə diplomu ilə qurtarmışdır. Elə həmin ildə BDU-nun filologiya fakültəsinin magistraturasına "Folklorşünaslıq və mifologiya" ixtisası üzrə qəbul olunaraq 2001-ci ildə oranı fərqlənmə ilə bitirmişdir.

L.Süleymanova 2000-ci ildən AMEA Folklor İnstitutunda çalışır. Əvvəlcə baş laborant, kiçik elmi işçi, hazırda isə elmi işçi vəzifəsində işləyir.

O, hazırda AMEA Folklor İnstitutunun aspirantıdır və "Şəki folklor mühiti (sinxronik vəziyyəti və diaxronik proseslər)" adlı dissertasiya mövzusu üzərində işləyir.

L.Süleymanovanın bir çox məqalələri müxtəlif elmi toplu və jurnallarda çap olunmuşdur.

ŞAMİLOV ƏMİRASLAN ŞÖVKƏT-ZİYA OĞLU

Öz yaradıcılığı ilə insanları heyrətə salan Şəki sənətkarlarından biri usta Sərkərov Şövkət-Ziya Şamil oğlunun övladı Şamilov Əmiraslan Şövkət-Ziya oğludur. 1954-cü təvəllüdlü Əmiraslan bu peşəni öz atasından öyrənmişdir. Hələ kiçik yaşlarından bu peşəyə maraq göstərir. Əmiraslan əmək fəaliyyətinə öz atasının sexində fəhlə kimi başlamış, təhsilini artırmış, Şəki toxuculuq texnikumunun boyaq-bəzək şöbəsini bitirmiş, sex ustası vəzifəsindən müəssisənin rəhbəri vəzifəsinə qədər yüksəlmişdir. İşlədiyi müddət ərzində bu sənətin bütün incəliklərinə qədər öyrənmişdir.

Hazırda həmin sexdə müxtəlif təyinatlı, müxtəlif ölçülərdə kələğayı, yaylıq və şərf hazırlanır. İstehsal etdiyi məhsullar bir çox yerli və xarici sərgilərdə nümayiş etdirilmişdi.

Belə ki, 2003-cü ilin may ayında Gəncə şəhərində "Yerli məhsullara üstünlük verək" devizi altında keçirilmiş milli satış sərgisinin iştirakçısı olmuş, sertifikat almışdır. Şəkidə istehsal olunan məhsulları xarici ölkələrin də böyük marağı vardır. Belə ki, onların dəvəti ilə bir çox ölkələrdə, o cümlədən Türkiyədə, Finlandiyanın şəhərində öz sərgilərində təbii ipəkdən hazırlanmış kələğayı nümunələri nümayiş etdirilmişdir.

2005-ci ilin fevral ayında Bakı-Gülüstan sarayında "Azərbaycan Respublikası regionlarının sosial iqtisadi inkişafının sürətləndirilməsi proqramı"nın 1 illiyinə həsr olunmuş görüşdə iştirak etmiş, Azərbaycan Respublikası Prezidenti tərəfindən fəxri nişanla təltif olunmuşdur.

ŞAMİLOV ƏLİHEYDƏR ƏHMƏD OĞLU

Şamilov Əliheydər 1931-ci il tarixdə anadan olmuşdur. 1953-cü ildə orta məktəbi bitirdikdən sonra Kənd Təsərrüfatı İnstitutunun "Kənd təsərrüfatının mexanikləşdirilməsi fakültəsinə daxil olub, 1958-ci ildə həmin fakültəni bitirmişdi.

1962-ci ildə Avtomobil Nəqliyyatı Nazirliyinin Şəki avtobazasına kalon rəisi vəzifəsinə keçirilmişdir.

1963-cü ildə Daxili İşlər Nazirliyinin əmri ilə Şəki rayon Daxili İşlər şöbəsinə "Baş Dövlət avtomobil" müfəttişi vəzifəsinə qəbul olmuşdu. 1970-ci ilə qədər həmin vəzifədə işləyib. Orqanda işlədiyi müddətdə qatı bir cinayətin üstünü açdığına görə "Milis əlaçısı" döş nişanı ilə təltif edilmişdi.

1970-ci ildə səhhətinin səbəbindən Şəki rayonlararası vətəndaşlara məxsus avtomaşınların təmiri stansiyasına mühəndis vəzifəsinə daxil olmuşdu və 1971-ci ilin oktyabr ayından həmin stansiyada direktor vəzifəsinə keçib.

1975-ci ilin iyul ayında Şəki şəhər Partiya Komitəsinin qərarı ilə Şəkidə yeni təşkil olunmuş Azərkəndtexnika Birliyinin nəqliyyat müəssisəsinə direktor vəzifəsinə keçmişdi. 1980-ci ildə isə Şəki rayonunda yeni təşkil edilmiş "Şəki kənd-kimya" Birliyinə sədr vəzifəsinə keçmişdi.

1998-ci ildə təqaüdə çıxıb.

1998-ci ildən əmək veteranıdır.

ŞAMİLOV TEYMURXAN ŞÖVKƏT-ZİYA OĞLU

Teymurxan Şamilov 1950-ci ildə anadan olmuşdur. 1967-ci ildə 7 saylı şəhər orta məktəbini bitirərək Azərbaycan Politexnik İnstitutunun Mexanika şöbəsinə qəbul olunmuşdur. 1972-ci ildə həmin institutu bitirdikdən sonra təyinatla Mingəçevir şəhərində şüşə liflər zavodunda usta köməkçisi kimi işə başlayıb. 1973-cü ildə ailə vəziyyəti ilə əlaqədar Şəki şəhərinə qayıdaraq sənaye kombinatında mühəndis-mexanik vəzifəsinə işə qəbul olunmuşdur. 1976-cı ilədək həmin vəzifədə işləmişdir.

1976-1979-cu illərdə Şəki ipək kombinatının baramaaçan istehsalında sex ustası, istehsalat rəisi işçisi vəzifəsində çalışmışdır.

1979-1982-ci illərdə Bakı şəhərinə köçməsi ilə əlaqədar Bakı şəhərində bədii istehsalat idarəsində mühəndis vəzifəsində işləyib. 1982-ci ildən Şəki şəhərində yeni xalça fabrikinin tikinti işlərində rəhbərlik etmək üçün köçürülmə yolu ilə göndərilmişdir.

1991-ci ilədək həmin Şəki istehsalat kombinatında müxtəlif vəzifələrdə çalışmışdır.

1991-ci ilin sentyabr ayının 1-dən həmin müəssisədə baş mühəndis vəzifəsinə təyin olunmuşdur. 10.02.1996-cı il tarixdən direktor vəzifəsinə irəli çəkilib.

1999-cu ilin iyul ayından "Şəki-İpək" ATSC-nin İdarə Heyətinin sədri vəzifəsinə seçilmişdir.

12 dekabr 1999-cu ildən Şəki Bələdiyyəsinə üzv seçilmişdir. 17 yanvar 2000-ci ildə Şəki Bələdiyyəsinin üzvləri tərəfindən Şəki Bələdiyyəsinə sədr seçilmişdir.

Bu müddətdə əlillərin Dizayn Assosiasiyasına, rayonlararası ruhi əsəb dispanserinə yardım etmişdir. Şəki şəhərinin su xəttinin bərpası işlərinə başlamışdır. Şəki şəhərinin su xəttinin bərpası işlərinə başlamışdır. Son zamanlarda Şəki şəhəri abadlaşıb və gözə çarpan qədər gözəlləşib.

ŞƏRİFOVA ELMİRA BAĞIR QIZI

Şərifova Elmira 1934-cü ildə qulluqçu ailəsində anadan olmuşdur.

1942-ci ildə Bakıdakı 18 saylı məktəbin birinci sinfinə daxil olmuş atasının işinin Gəncə Hospitalına dəyişdirilməsilə bağlı 1945-ci ildən Gəncədəki 9 saylı orta məktəbdə təhsilini davam etdirmiş və 1952-ci ildə oranı bitirmişdir. Elə həmin il də o, S.M.Kirov adına ADU-nin (indiki BDU) kimya fakültəsinə daxil olmuşdur.

1957-ci ildə ali təhsilini başa vuraraq Dövlət İmtahan Komissiyasının tövsiyyəsi ilə Azərbaycan Elmlər Akademiyasının Kimya İnstitutuna baş laborant vəzifəsinə işə göndərilmişdir.

E.Şərifova 1957-ci ilin noyabrında kiçik elmi işçi vəzifəsinə

keçirilmişdir.

1960-1963-cü illərdə Azərbaycan Elmlər Akademiyasında Qeyri-üzvi və Fiziki-Kimya (indiki AMEA KPİ) institutunun aspiranturasında təhsil almışdır.

1966-cı ilin dekabr ayında Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, k.e.d. prof. Z.H.Zülfüqarovun rəhbərliyi altında namizədlik dissertasiyasını müdafiə etmiş və 1967-ci ilin martında ona kimya elmləri namizədi alimlik dərəcəsi verilmişdir.

Həyat yoldaşının işi ilə əlaqədar olaraq 1968-1970-ci illərdə İran Respublikasının Tehran şəhərində Qırmızı Xaç Cəmiyyətinin xəttilə xəstəxanada işləmişdir. Bakıya qayıtdıqdan sonra E.Şərifova Azərbaycan EA QÜFKİ (indiki AMEA KPİ)-də elmi-tədqiqat işlərini davam etdirmiş və elmi fəaliyyətindəki uğurlarına görə baş elmi işçi vəzifəsinə irəli çəkilmidir.

E.Şərifova 20-ə yaxın ixtira üçün müəlliflik şəhadətnaməsinin və 100-dən çox elmi əsərin müəllifidir.

Hazırda təqaüddədir.

ŞƏRİFOVA SƏDAYƏ YAQUB QIZI

Sədayə Şərifova 1945-ci ildə anadan olmuşdur. 1961-1962-ci dərs ilində Şəki şəhər 5 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş, 1967-ci ildə kimyaçı mühəndis ixtisası üzrə ali təhsil almışdır.

S.Şərifova əmək fəaliyyətini bütövlükdə pedaqoji işə sərf etmiş, Bakı Yerli Sənaye Texnikumunda müəllim kimi gənc nəslin təlim və tərbiyəsilə məşğul olmuş, müxtəlif ixtisas fənlərini yüksək metodiki səviyyədə tədris etmişdir. Onun yetişdirdiyi tələbələr ali məktəblərdə

təhsillərini davam etdirmiş xalq təsərrüfatının müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər. Pedaqoji fəaliyyəti dövründə müəllim kollektivinin və şagirdlərin böyük hörmətini qazanmış, əməyi yüksək qiymətləndirilmişdir.

Sədayə Şərifovanın pedaqoji və ictimai fəaliyyəti çoxsaylı fəxri fərmanlar və mükafatlarla təltif edilməklə daim yüksək qiymətləndirilmişdir.

ŞİRİNZADƏ NATİQ ƏHMƏD OĞLU



Natiq Şirinzadə 1966-cı ildə anadan olmuşdur. Şəkidəki 10 saylı məktəbi tərifnamə ilə 1983-cü ildə qurtardıqdan sonra ADNA-da D.İ.Mendeleyev adına Moskva Kimya Texnologiya (RXTU) Universitetinə imtahan vermiş və həmin universitetin "Silikatların kimyəvi texnologiyası" fakültəsinə qəbul olunmuşdur. Orada şüşə və silikatların, sement və yapışdırıcıların, keramik və odadavamlı məmulatların texnologiyası ixtisasına yiyələnmişdir. O zaman SSRİ Ali və Orta İxtisas Təhsil Naziri Gennadiy Alekseeviç Yaqodinin imzası ilə xüsusi təltiflə mükafatlandırılmışdır.

1989-cu ildə həmin universiteti müvəffəqiyyətlə bitirmişdir O, 1992-ci ildə Azərbaycan Nazirlər Kabineti yanında Ali Menecerlər Məktəbinin dinləyicisi olmuşdur.

1994-1996-cı illərdə Azərbaycan Qərb Universitetinin "Beynəlxalq iqtisadi münasibətlər" fakültəsində təhsil almışdır. Burada "Xarici iqtisadi əlaqələrin təşkili və idarə olunması" ixtisasına yiyələnmişdir.

N.Şirinzadə 1999-cu ildə BMT-nin "Sənayenin İnkişafı" Təşkilatının, Yunanıstanın "Ticarətə Yardım" Təşkilatının, 2001-ci il

Yaponiya XİN-in təşkil etdiyi "Yeni Müstəqil Dövlətlərlə İş" Proqramının dinçəyicisi və məzunu olmuşdur.

Natiq Şirinzadə Azərbaycan Respublikası Prezidenti Yanında Sahibkarlar Şurasının, İctimai Televiziya və Radio yayımlar şirkətinin yayım şurasının üzvüdür. Bir çox Beynəlxalq konfrans və simpoziumların iştirakçısı və məruzəçisi olmuşdur. Moskva, İstanbul, Tokio, Afina, Roma, Milan və bir çox xarici ölkələrdə rəsmi-işgüzar səfərlərdə olmuşdur.

N.Ə.Şirinzadə 1997-ci ildə "Qiymətli kağızlar bazarına giriş", 2003-cü ildə "Kiçik və orta biznes yeni mərhələdə" adlı kitablarını yazmışdır, 50-yə yaxın elmi-analitik məqalənin həmmüəllifi və müəllifi olmuşdur.

O, ilk dəfə Daşkəsən dəmir filizinin neft borularının üzlənməsində tətbiqinin əsasını qoyub. Bu iş hazırda respublikamıza milyonlarla dollar xeyir gətirməkdədir. Hazırda bu baxımdan, prezidentin fərmanına əsasən "Regionların sosial inkişafı" proqramı çərçivəsində, Rusiyanın "Bentonit" Elmi-İstehsalat Birliyi ilə "Daşsalahlı Bentonit gilinin emalı" texnologiyası üzərində geniş miqyasda birgə iş aparır.

Natiq Şirinzadə 2004-cü ildə "Ənənə və Prestij" üzrə İspaniyada beynəlxalq mükafata, Biznes və iqtisadiyyat sahəsində nailiyyətlərinə görə "Uğur" Milli mükafatına, 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən: "Azinşaat Holdinq" şirkətlər qrupunun prezidenti Ş.N.Ə.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının uğurla icrasına verdiyi əhəmiyyətli töhfəyə görə təltif edilir" fəxri nişanı ilə və nəhayət, 2006-cı ildə "Xəzər" beynəlxalq inteqrasiya klubunun "Regionların inkişafındakı xidmətlərinə görə" fəxri diplomuna layiq görülmüşdür.

2006-cı ildə N.Ə.Şirinzadənin İradə Nüsrət qızı Şirinzadə ilə birgə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən dərslik kimi təsdiq edilmiş, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, geologiya-minerologiya elmləri doktoru, professor Xudu Məmmədovun unudulmaz xatirəsinə ithaf edilən "İnşaat

materiallarının fiziki-kimyəvi əsasları" adlı kitabı nəşr olunmuşdur.

Natiq Şirinzadə hal-hazırda yuxarıda sadalanan istiqamətlərdə fəaliyyətini uğurla davam etdirir.

ŞİRİNOVA SÜSƏN YUSİF QIZI

Süsən Şirinova 1930-cu ildə orta təhsil aldıqdan sonra Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki ATU) daxil olmuş, 1949-cu ildə təhsilini müvəffəqiyyətlə başa vurmuşdur..

Əmək fəaliyyətinə Daxili İşlər Nazirliyinin 10 saylı islah əmək koloniyasında müalicə həkimi kimi başlamışdır.

1952-ci ildə DİN Mərkəzi xəstəxanasında Baklava ratoriya rəisi olmuşdur.

1953-1983-cü illərdə Biokimya üzrə Həkimləri Təkmilləşdirmə kurslarının, kliniki diaqnostika mərkəzinin rəisi olmuşdur.

1970-ci ildə Səhiyyə Nazirliyinin qərarı ilə "Ali dərəcəli kliniki diaqnosist" kateqoriyası verilmişdir. Ali dərəcəli səhiyyə işçisidir, bir çox orden və medallara layiq görülmüşdür.

1950-ci ildən fasiləsiz, 50 ildən yuxarıdır ki, Süsən xanım Şirinova islah əmək kaloniyası baş xəstəxanasında çalışır.

ŞİRİNOV HƏSƏN YUSİF OĞLU

Həsən Şirinov 1926-cı ildə anadan olmuşdur.

1943-1948-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki ATU) təhsil almış və təyinatla Ukraynanın Dnepropetrovsk şəhərinə Daxili İşlər Nazirliyinin hərbi hissəsinə həkim vəzifəsinə göndərilmişdir.

1950-ci ildən Azərbaycan Daxili İşlər Nazirliyinin tibb müəssisələrində leytenant rütbəsindən başlayaraq polkovnik rütbəsinə qədər yüksəlmişdir. Daxili İşlər Nazirliyinin (DİN) hospitallarının təşkilatçısı və birinci rəisi olmuşdur.

1964-1985-ci illərdə DİN hospitallarının rəisi vəzifəsində çalışmışdır və bu illər ərzində bir neçə hospital binasını inşa etdirməyə nail olmuşdur. O, həm də bu illər ərzində hospitalın Baş cərrahı olmuşdur. 1968-ci ildə Səhiyyə Nazirliyinin qərarı ilə "Ali Dərəcəli Cərrah" kateqoriyası verilmişdir.

Həsən Yusif oğlu Şirinov bir çox orden və medallarla təltif edilmişdir.

ŞİRİNOVA RƏHİLƏ MƏMMƏD QIZI

Rəhilə Şirinova 1932-ci ildə anadan olmuşdur.

1950-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuş, 1955-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

1956-cı ildən Azərbaycan Dövlət Teleradio Komitəsində çalışmışdır. Radionun ilk qadın redaktorlarından olmuşdur.

Əmək veteranı, Jurnalistlər İttifaqının üzvü olmaqla yanaşı 40 illik fəaliyyəti dövründə bir sıra gözəl əsərlər yaratmış, onlarla cavan jurnalist yetişmişdir. Onun bir çox verilişləri radionun qızıl fondunda saxlanılır.

R.M.Şirinova 1996-cı ildə Bakıda vəfat etmişdir.

ŞİRİNOV CƏMİL MƏMMƏD OĞLU

Cəmil Şirinov 1925-ci ildə anadan olmuşdur.

1942-1949-cu illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. O, Böyük Vətən Müharibəsinin II qrup əlilidir.

Şirinov Cəmil Məmməd oğlu həm də əmək veteranıdır. O, 12 orden və bir çox medallarla təltif edilmişdir.

ŞÜKÜROV RAFİQ ŞÜKÜR OĞLU



Şükürov Rafiq 1952-ci ildə anadan olmuşdur.

O, 1959-cu il tarixdə Aşağı Küngüt kənd orta məktəbinin 1-ci sinifinə daxil olub, 1967-ci il tarixdə həmin məktəbin VIII sinfini bitirmişdir. 1967-ci il tarixdə Şəki şəhər 10 saylı orta məktəbin IX sinfinə qəbul olunub, 1969-cu ildə həmin məktəbin X sinfini bitirib.

Həmin ildə Lenin adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil olub, 1973-cü ildə həmin institutu bitirib.

İlk pedaqoji fəaliyyətinə 1973-cü ildə Baş Kəldək kənd 8 illik orta məktəbində başlayıb.

R.Şükürov 1975-ci ildə irəli çəkilərək Aşağı Daşğıl kənd 8 illik məktəbində direktor vəzifəsinə təyin edilmişdir. 1983-cü

ildə Şəki Pedaqoji Məktəbində tədris işləri üzrə direktor müavini, 1988-ci ildə Şəki Məişət Xidməti texnikumunda direktor, 1933-cü ildə Şəki Texnologiya texnikumunda direktor, 1995-ci ildən bu günə kimi Şəki Pedaqoji Texnikumunda direktor vəzifəsində çalışır.

İşlədiyi müddətdə dövri mətbuatda onlarla elmi məqalələrlə çıxış etmiş, 2 kitabın müəllifidir.

I kitab "Pedaqogika tarixindən mühazirə materialları" - 2004.

II kitab "Pedaqogika dərsləri" - 2005.

O, 1997-ci ildən YAP-ın üzvüdür və Partiyanın hər üç qurultayının nümayəndəsi olub.

ŞÜKÜROV MƏCLUM ŞÜKÜR OĞLU

Şükürov Məclum 1954-cü ildə anadan olmuşdur. 1961-ci ildə Aşağı Küngüt kənd orta məktəbinin 1 sinifinə daxil olmuş, 1971-ci ildə məktəbi əla qiymətlərlə bitirərək, Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin 1 kursuna qəbul olmuşdur. 1976-cı ildə Universitet bitirərək, tətbiqi riyaziyyat ixtisasına yiyələnmişdir.

O, 1976-1980-ci illərdə göndəriş əsasında Azərbaycan Elmlər akademiyasının Kibernetika İnstitutunda elmi-tədqiqat işləri ilə məşğul olub. 1980-ci ildə Leninqrad Aqrofizika İnstitutunun məqsədli aspiranturasına qəbu olmuşdur. Aspiranturada təhsil aldığı müddətdə "Suvarılan torpaqlarda əkinlərin nəmliklə idarə olunması" mövzusunda namizədlik dissertasiyası işləyib hazırlamış, 1985-ci ildə Leninqrad İnstitutunda müdafiə edərək, texnika elmləri namizədi adına və alimlik dərəcəsinə layiq görülmüşdür. Aspirantura təhsilini başa vurduqdan sonra təyinatla işləməyə Azərbaycan Elmi-

Tədqiqat Əkinçilik İnstitutuna göndərilmişdir.

M.Şükürov 1984-1986-cı illərdə Əkinçilik İnstitutunda kiçik elmi işçi, 1986-89-cu illərdə isə baş elmi işçi vəzifəsində çalışmışdır.

O, 1989-cu ildə Leninqrad Aqrofizika İnstitutunun doktoranturasına qəbul olunmuşdur. Doktoranturada oxuduğu zaman ölkəmizin iqtisadiyyatı üçün çox mühüm əhəmiyyəti olan, ən müasir elmi istiqamətlərdən biri hesab edilən kənd təsərrüfatı bitkinlərinin məhsuldarlıq prosesinin riyazi modelləşməsi sahəsinə həsr edilmiş "Tətbiqi modellərin qurulması metodologiyası və əkinlərin nəmliklə təmin olunmasında onlardan istifadə" mövzusunda doktorluq dissertasiyasını işləyib hazırlamış, Sankt-Peterburqda bu mövzunu müdafiə edərək Aqrofizika İnstitutunun Elmi Sovetinin qərarı ilə Texnika elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür

Doktoranturada oxuduğu müddətdə elmi fəaliyyət ilə yanaşı doğma vətənimizin xalqımızın mənafeyini qorumaq naminə Sankt-Peterburq şəhərinin ictimai-siyasi həyatında fəal iştirak etmişdir. Keçmiş SSRİ-nin şimal qərb regionunda Azərbaycan lobbisinin formalaşdırmaq məqsədi ilə Sankt-Peterburqda "AZƏRİ" Mədəniyyət Cəmiyyətini yaratmış, təhsilimin sonuna qədər ona rəhbərlik etmişdir. Azərbaycanda baş verən hadisələrə keçmiş SSRİ rəhbərliyinin, sonradan Rusiya hökumətinin qərəzli mövqelərinə etiraz olaraq şəxsən Sankt-Peterburq, Moskva, o cümlədən Azərbaycan və bir çox Avropa ölkələrinin mətbuatı və radiostansiyaları ilə çıxışlar etmişdir.

Sankt-Peterburq "AZƏRİ" Cəmiyyəti xaricdə yaşayan azərbaycanlılar arasında böyük nüfuza malik olmuşdur. Ümumdünya Azərbaycan lobbisinin yaradılması ideyasının daşıyıcılarından biri də məhz "AZƏRİ" Cəmiyyəti olmuşdur. Bu məqsədlə bilavasitə təşkilatçılığımızın və iştirakımızla dünyanın müxtəlif ölkələrində yaradılmış Azərbaycan Cəmiyyətinin "Sankt-Peterburq-90", "Tallin-91" konfransları keçirilmişdir.

Rəhbərlik etdiyi dövrdə Sankt-peterburq "AZƏRİ" Cəmiyyə-

ti milli dövlətçilik tariximizin, müstəqilliyimizin, mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın təbliği sahəsində çox mühüm işlər görülmüşdür. 1990-91-ci illər, may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranmasının ildönümü münasibəti ilə keçirdiyimiz tədbirlərdə, Qarabağda baş verən hadisələrə Moskvanın tutduğu qərəzli münasibətə qarşı cəmiyyətimizin Nevski prospektində təşkil etdiyi etiraz nümayişlərində. O vaxtlar ciddi yasaq sayılan üç rəngli milli dövlət bayrağımızın tərəfimizdən qaldırılması bütün SSRİ-də böyük rezonansa səbəb olmuşdur.

Hələ o vaxtlar bütün dünya və o cümlədən SSRİ-də erməni lobbisinin Azərbaycan əleyhinə qurduğu təbliğat kompaniyasının tüğyan etdiyi dövrdə, tərəfimizdən Sankt-Peterburqlu jurnalist Bakıya ezam edilmiş, ziyalılarımız ilə görüşlərindən hazırladıqları məqalələr cəmiyyətimizin bilavasitə köməyi ilə o dövrün ən populyar qəzeti olan "SMENA"da çap edilmiş, Sankt-Peterburq televiziyasının məşhur "Beşinci təkər" və digər proqramlarında verilişlər nümayiş etdirilmişdir Bununla erməni lobbisinin və onların SSRİ rəhbərliyindəki havadarlarının apardığı təbliğat kompaniyasının qarşısı alınmışdır.

Doktoranturada təhsilini başa vurduqdan sonra yenidən Azərbaycana qayıtmış, elmi fəaliyyətini Əkinçilik İnstitutunda davam etdirmişdir.

Məclum Şükürov 1996-cı ildə isə həm ailə vəziyyəti ilə əlaqədar, həm də elmi araşdırmaları bilavasitə Şəki-Balakən regionunda tətbiq etmək məqsədi ilə Şəkiyə gəlmiş və Əkinçilik İnstitutunun rəhbərliyi tərəfindən institutun Şəki Dayaq Məntəqəsinə direktor təyin edilmişdir. Rəhbərlik etdiyi dövr ərzində müəssisənin iqtisadi və elmi həyatında mühüm dəyişikliklər baş vermiş və müəssisəmizin alimləri ilə birgə bölgəmiz üçün vacib olan yüksək məhsuldarlığa malik yeni "ŞƏKİ-1" buğda sortu yaradılmışdır. Altmışdan çox elmi əsərin müəllifidir.

O, hal-hazırda Şəki Regional Məsləhət və Şəki Regional aqrar Elm Mərkəzinə rəhbərlik etmişdir.

Məclum Şükür oğlu Şükürov1999-2004-cü il Bələdiyyə seçkilərində Şəki şəhər bələdiyyəsinə, 2005-ci ildə Azərbaycan Respublikası üçüncü çağırış Milli Məclisinə seçkilərdə 115 saylı Şəki ikinci kənd seçki dairəsində qələbə qazanaraq Milli Məclisə üzv seçilmişdir. Milli Məclisin Aqrar siyasət daimi komissiyasının və Parlamentlərarası Azərbaycan-Yunanıstan Azərbaycan-Estoniya, Azərbaycan-Litva qruplarının üzvüdür.

TAĞIYEVA BİLLUR LÜTVƏLİ QIZI

Tağıyeva Büllur Lütfəli qızı 1963-cü ildə ziyalı ailəsində anadan olmuşdur. 1980-ci ildə Şəki şəhərində Nekrasov adına 8 saylı orta məktəbi bitirmişdir. Həmin ildə də Azərbaycan Tibb İnstitutunun "Pediatriya" fakültəsinə daxil olmuşdur və 1986-cı ildə bu institutu bitirərək pediatriya ixtisasına yiyələnmişdir.

Ali məktəbi bitirdikdən sonra Bakı şəhər 3 saylı uşaq klinik xəstəxanasında 1 il müddətində interna olaraq körpələrə xidmət etmişdir.

1989-1994-cü illərdə Bakı şəhər 15 saylı uşaq poliklinikasında pediatr kimi çalışmışdır. Bu müddətdə neçə körpəni ölümün caynağından qurtarıb yenidən həyata qaytarmışdır.

1994-cü ildən bu günədək Bakı şəhər Səbail rayonu üzrə baş pediatr vəzifəsində çalışır. Səbail rayon Səhiyyə Şöbəsində pediatriya üzrə rəis müavinidir.

2003-cü ildən B.Tağıyeva Azərbaycan Beynəlxalq Universiteti (ABU) Tibb Mərkəzində "Pediatriya" şöbəsinin müdiridir və həmin universitetin tibb fakültəsində müəllim işləyir.

Son zamanlar müasir elektron hesablama maşınlarının yardımı ilə riyazi modelləmə bir çox sahələrdə olduğu kimi tibb aləmin-

də də geniş şəkildə tətbiq olunmağa başlamışdır. Bu sahədə bir çox önəmli nəticələr alınmışdır.

Daim öz üzərində çalışaraq tibb elminə olan maraq nəticəsində tibbin bəzi sahələrində məsələn, infarkt miokard xəstəliyinin mexanizminin açıqlanması modeli və populyasiyasını sadə modelləri üzərində araşdırmalar aparmaqdadır.

TAHİROV ÇİNGİZ ƏHMƏD OĞLU

Çingiz Əhməd oğlu Tahirov 1925-ci ildə məşhur tarzən, Azərbaycan Respublikasının əməkdar müəllimi Əhmədbəy Tahirovun ailəsində anadan olmuşdur. Orta təhsilini Şəki şəhəri 7 saylı orta məktəbdə almış və 1942-ci ildə oranı fərqlənmə sənədi ilə başa vurmuş, 1943-cü ildə M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Sənaye İnstitutunun (indiki ADNA) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1949-cu ildə oranı dağ-mədən mühəndis-geoloqu ixtisası üzrə müvəffəqiyyətlə bitirmişdir. Ç.Tahirov oxuduğu müddətdə həm də institut tələbə elmi cəmiyyətinin sədr müavini olmuş və onun işində fəal iştirak etmişdir.

O, əmək fəaliyyətinə "Artyomneft" (indiki "Abşeronneft") Trestinin mərkəzi elmi-tədqiqat laboratoriyasında başlamışdır. 1949-cu ildən "Artyomneft" Trestinin mərkəzi elmi-tədqiqat laboratoriyasının baş mühəndis-geoloqu və geoloji şöbəsinin rəisi, 1949-cu ildən 1950-ci ilədək trestin geoloji şöbəsinin baş geoloqu işləmişdir. 1950-ci ildən "Kirovabadneftkəşfiyyat" Trestinin Dəlməmmədli neft kəşfiyyatının (Acınohur sahəsi) baş geoloqu və rəisin birinci müavini vəzifələrində çalışmışdır. "Azərneftkəşfiyyat" Birliyinin rəhbərliyi Çingiz Tahirovun elmi-istehsalat fəaliyyətini nəzərə alaraq neft və qaz yataqlarının paleontologiyası və stratiqrafiyası üzrə elmi işçi hazırlamaq məqsədilə onu Azərbaycan Elmi-Tədqiqat Neft Geoloji-Kəşfiyyat İnstitutuna keçirmək qərarına gəlir.

1951-ci ildə ilin oktyabrından bu günə kimi Çingiz Tahirov artıq 56 ildir ki, Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat İnstitutunda fəaliyyət göstərir. O, paleontologiya laboratoriyasında (bu laboratoriya müxtəlif illərdə müxtəlif adlarla fəaliyyət göstərib stratiqrafiya, stratiqrafiya və fauna, litostratiqrafiya və kollektor xassələri laboratoriyaları) baş mühəndis, baş elmi işçi, laboratoriya müdirinin əvəzi, aparıcı elmi işçi vəzifələrində çalışmışdır.

1951-ci ildən başlayaraq, Böyük Qafqazın Azərbaycan hissəsinin (Şimali Qobustan, Dibrar fliz zonası, Quba-Xəzəryanı ərazisi və Cənub yamacı) və Kiçik Qafqazın Azərbaycan hissəsinin təbaşir çöküntülərinin mikrofauna və stratiqrafiyasının tədqiqi ilə məşğul olur.

Çingiz Tahirov 1958-ci ildə akademik Qambay Əlizadənin və professor Cəlil Xəlilovun rəhbərliyi altında "Şimali-şərqi Azərbaycanın apt və alb mərtəbələrinin foraminiferləri və onların stratiqrafik əhəmiyyəti" mövzusunda geologiya-minerologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün müvəffəqiyyətlə dissertasiyasını müdafiə etmişdir.

Onun tədqiqatları nəticəsində alt və üst təbaşir çöküntülərinin ayrı-ayrı mərtəbə, yarım mərtəbə və horizontları, həmçinin onların müxtəlif hissələri üçün səciyyəvi olan rəhbər formaların kompleksləri ayrılmış və dəqiq surətdə təyin edilmişdir. Bu müddət ərzində struktur-axtarış və dərin kəşfiyyat quyularından, eyni zamanda təbaşir çöküntülərinin klassik və əsas kəsilişlərindən götürülmüş minlərlə süxur nümunələri dəqiqliklə tədqiq edilmişdir. Çingiz müəllim foraminiferlərdən 2 yeni cinsin və 101 yeni növün mikropaleontologiya elmində ilk dəfə olaraq təsvirinin müəllifidir. Bu tədqiqatların nəticələri Ç.Ə.Tahirovun "Cənub-Şərqi Qafqazın apt və alb mərtəbələrinin foraminiferləri və onla-

rın stratiqrafik əhəmiyyəti" (Azərnəşr, Bakı, 1961) monoqrafiyasında və "Paleontologiyanın əsasları" (Moskva, 1959) 15 cildlik toplunun I cildində, həmçinin ABŞ, Kanada, Macarıstan, Rumıniya və başqa xarici ölkələrdə çap edilmiş mötəbər və nüfuzlu mikropaleontologiya əsər toplularında dərc edilmişdir. Onun "Böyük Qafqazın Azərbaycan hissəsinin təbaşir çöküntülərinin qumlu foraminiferləri və onların stratiqrafik əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyası 1975-ci ildə müdafiəyə qəbul edilmişdir. Doktorluq dissertasiyası haqqında həm ölkə daxilindən, həm də bir çox xaricdən müsbət rəylər alınmışdır. Hazırda dissertasiya işi Geologiya İnstitutunda müdafiəyə tövsiyyə edilmişdir.

Qeyd etmək lazımdır ki, doktorluq dissertasiyasının xülasəsini o, alman dilində yazmışdır. Onun həm dissertasiyaları, həm də başqa əsərləri neft, qaz və başqa faydalı mədən yataqlarının axtarış və praktik əhəmiyyətə malik olmaqla istiqamətləndirici rol oynayırlar.

65 illik iş stajına malik Çingiz Tahirovun 160-dan çox elmi əsərin müəllifi olmaqla yanaşı, bir çox respublika, ümumittifaq, beynəlxalq konfrans, sessiya, simpozium, kollokvium və konqreslərdə iştirak etmişdir. O, Polşada 1967-ci ildə keçirilmiş X beynəlxalq mikropaleontoloqlar konqresində və Rumıniyada olmuş, 1975-ci il XIV Beynəlxalq mikropaleontoloqlar konqresində sovet nümayəndə heyətinin tərkibində Azərbaycan Respublikasını təmsil etmiş və məruzələrlə çıxış etmişdir. Onun 70-dən çox elmi əsəri xarici nəşrlərdə dərc edilmişdir.

Ç.Tahirov Moskva, Sankt-Peterburq, Tbilisi, Aşqabad, Kiyev, Minsk, Mahaçqala, Krasnodar, Qroznı və s. elm mərkəzlərinin və neft rayonlarının mikropaleontoloqlarına müntəzəm elmi-praktik məsləhətlər vermiş və zəngin təcrübəsini onlarla bölüşmüşdür. O, bir çox doktorant, dissertant və aspirantların məsləhətçisi və rəsmi opponenti olmuşdur. Onu da qeyd etmək lazımdır ki, Ç.Tahirovun 500-dən artıq məqaləsi jurnal, qəzet və toplularda çap edilmişdir.

1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli

əməyə və qələbənin 30-cu və 40-cı, 50-ci yubiley medalları ilə təltif edilmiş, 6 dəfə "Əmək veteranı", Azərbaycan Ali Sovetinin Neft Sənayesi Nazirliyi, "Bilik" Cəmiyyətlərinin fəxri fərmanları ilə, bir neçə yubiley medalı və fəxri nişanlarla təltif edilmişdir.

Elmi fəaliyyəti ilə yanaşı Çingiz müəllim daim respublikanın ictimai-siyasi işlərində də fəal iştirak etmişdir. O, İnstitutun, Nərimanov rayonunun, Bakı şəhərinin, eləcə də respublikanın ictimai-siyasi işlərilə bu gün də yaxından maraqlanır. O, Azərbaycan Paleontologiya Cəmiyyəti Şurasının üzvü, Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutu Veteranlar Şurası sədrinin ideoloji iş üzrə müavini, Nərimanov rayon Veteranlar Şurası sədrinin ideoloji iş üzrə müavinidir. Çingiz Tahirov M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının və H.Aslanov adına Mərkəzi Zabitlər evi kitabxanasının, habelə bir neçə başqa kitabxanaların da "Fəxri oxucusu" adına layiq görülmüş və eyni zamanda "Bakı şəhər müharibə, əmək, silahlı qüvvələr və hüquq-mühafizə orqanları veteranları şurasının fəxri fərmanı" və Nərimanov rayon İcra Hakimiyyətinin fəxri fərmanı ilə də təltif edilmişdir.

Tanınmış neftçi-alim, Beynəlxalq EKO-Energetika Akademiyasının akademiki, Azərbaycan və Rusiya Milli Elmlər Akademiyalarının nəzdində paleontologiya cəmiyyətlərinin fəxri üzvü, SSRİ neft sənayesi əlaçısı, Azərbaycan Respublikasının əməkdar təbliğatçısı, prezident təqaüdçüsü və müharibə veteranı Çingiz Tahirovun ümumi iş stajının yarım əsrdən çox olmasına baxmayaraq, o, hazırda öz elmi, istehsalat və ictimai-siyasi fəaliyyətini davam etdirir.

Çingiz Əhməd oğlu Tahirov 2005-ci ildən prezident təqaüdçüsüdür.

TAHİROV AĞA MÖVSÜM OĞLU

Ağa Tahirov 1923-cü ildə anadan olmuşdur.

1930-cu ildə Şəki şəhəri 7 saylı orta məktəbinə daxil olub, 1940-cı ildə həmin məktəbi bitirərək Ə.Əzimzadə adına Bakı rəssamlıq məktəbinə daxil olmuş və eyni zamanda 1941-ci ildə Vətən müharibəsi başlayan zaman hərbi zavodda çalışmışdır. Rəssamlıq məktəbini qurtardıqdan sonra Şəki şəhərində əmək fəaliyyətinə başlayaraq ilk illər Şəki Dram Teatrının rəssamı, sonralar isə təqaüdə çıxanadək Şəki İpəkçilik Birliyində tətbiqi rəssam kimi çalışmışdır.

1974-cü ildə Ağa Tahirov SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilmişdir. Bu dövrdən rəssamın fəaliyyəti daha genişlənmiş və çoxtərəfli olmuşdur. Belə ki, tez-tez yaradıcılıq ezamiyyətləri zamanı Rusiyanın, Ukraynanın, Baltikyanı ölkələrin mənzərələrini öz etüdlərində təsvir etmişdir. Eyni zamanda A.Tahirov ipək parçalar üzrə çox istedadlı tətbiqi rəssam idi. Onun işləri dəfələrlə ümumittifaq və beynəlxalq tətbiqi incəsənət və rəssamlıq sərgilərində mükafatlara layiq görülmüşdür. 1975-ci ildə isə onun ipək parça üçün hazırladığı "Buta" kompozisiyası Almaniya Demokratik Respublikasının Leypsiq şəhərində keçirilən beynəlxalq ticarət sərgisinin qızıl medalına layiq görülmüşdür.

1978-ci ildən Ağa Tahirov "Azərbaycan Respublikasının əməkdar rəssamı" adına layiq görülmüşdür.

1998-ci ildə A.Tahirov Şəki şəhərində vəfat etmişdir.

TAHİROVA AFAQ ƏNVƏR QIZI

Afaq Tahirova 1948-ci ildə anadan olmuşdur. 1966-cı ildə orta məktəbi, 1969-cu ildə musiqi texnikumunu, 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1974-1978-ci illərdə Bakı şəhərində fortopiano sinfi üzrə musiqi müəllimi vəzifəsində işləmişdir.

O, 1978-ci ildən indiyədək Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın sovet dövrü tarixi" şöbəsinin əməkdaşıdır. 2004-cü ilin aprelin 7-də "Şəki şəhərinin tarixi (1920 - iyun 1941-ci illərdə)" adlı namizədlik dissertasiyasını müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Bu mövzunun üzərində işlərkən o, Azərbaycanın Dövlət Arxivinin şəki filialından Şəki şəhərinin tarixinə aid çoxlu faktiki material toplamışdır. Mövzu üzrə 6 elmi məqaləsi çap edilib.

O, hal-hazırda AMEA Tarix İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır.

TEYMUROV VAQİF MƏMMƏD OĞLU

Vaqif Teymurov 1939-cu ildə ziyalı ailəsində anadan olmuşdur. 1946-cı ildə Şəkidə 1-ci sinifə getmiş, 1956-cı ildə məktəbi bitirmişdir. Həmin il 1956-cı ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə qəbul olmuş, 1961-ci ildə oranı bitirmişdir.

1 il zabit kimi hərbi xidmətdə qulluq

etdikdən sonra o, 1962-ci ildən Kibernetika İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamış, həmin institutun şöbə müdiri vəzifəsinə qədər yüksəlmişdir. 1970-ci ildə elmlər namizədliyi dissertasiyasını müdafiə edərək texnika elmləri namizədi adına layiq görülmüş, 1973-cü ildə dosent adını almışdır.

İqtisadiyyat, Riyaziyyat institutlarında şöbə müdiri, Meliorasiya idarəsində müdir müavini, "Bakıbaştikinti" tikintidə Avtomatlaşdırılmış idarəetmə sistemi idarəetmə sistemi idarəsinin rəis müavini, rəis vəzifələrində çalışmışdır.

Müxtəlif vəzifələrdə belə çalışmasına baxmayaraq, institutu bitirdiyi ildən ömrünün sonuna kimi müəllimlik fəaliyyətindən uzaqlaşmamışdır. Demək olar ki, bütün dövlət institutlarında (son zamanlar yaranmış özəl institutların vəzilərində) saat hesabı dərs demişdir. Xüsusilə Bakı Dövlət Universiteti ilə Məşədi Əzizbəyov adına Neft və Kimya İnstitutunu qeyd etmək yerinə düşər.

Teymurov Vaqif Məmməd oğlu 1996-cı il mart ayının 28-də 56 yaşında vəfat etmişdir.

VAHABOV SABİR MƏMMƏDİYYƏ OĞLU



Sabir Vahabov 1936-cı ildə anadan olmuşdur. 1948-ci ildə 16 saylı ibtidai, 1951-ci ildə 12 saylı natamam orta, 1954-cü ildə 10 saylı orta məktəbi qurtarmışdır. Həmin ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) Geoloji Kəşfiyyat fakültəsinə qəbul olmuş, orada 2 kurs oxuduqdan sonra Neft Mexanika fakültəsinə keçirilmiş və oranın "Avtomatika telemexanika, elektron ölçü cihazları və qurğuları" şöbəsini 1959-cu ildə bitirmişdir. Həmin ildən 1962-ci ilin sonuna kimi qapalı müəssisədə işləmiş, 1963-cü ildən Sumqayıt şəhəri "Neftqazavtomat"

Elm İstehsalat Birliyində işləyir. O, İnstitutda mühəndis, qrup rəhbəri, elmi tədqiqat laboratoriyalarının müdiri vəzifəsində, 1986-cı ildən isə "Avtomatlaşdırılmış idarə sistemləri üçün telemexanika kompleksləri" elmi tədqiqat şöbəsinin müdiri vəzifəsində çalışır.

O, əmək fəaliyyəti dövründə elmi-praktiki işlərlə məşğul olmuşdur. Onun faliyyət sahəsi telemexaniki komplekslərin işlənib hazırlanması, onların əsasında neftçıxarma sənayesində tətbiq edilən mərkəzləşdirilmiş nəzarət və idarəetmə sistemlərinin yaradılması və onların obyektlərdə tətbiqində bilavasitə iştirakı olmuşdur.

İraq Respublikasının neft mədənlərində mərkəzləşdirilmiş nəzarət sistemlərinin tətbiqində iştirak etmək üçün S.M.Vahabov 1984-1985-ci illərdə oraya ezam olunmuşdur.

O, 38 elmi əsərin, o cümlədən 13 ixtiranın müəllifidir.

O, "SSRİ ixtiraçısı", Cihazqayırma nazirliyinin "ən yaxşı iştiraçısı", "Cihazqayırma əlaçısı" döş nişanları, bir sıra fəxri fərmanlar və Xalq Təsərrüfatı sərgisinin gümüş medalı və "rəşadətli əməyə görə" medalı ilə təltif olunmuşdur.

S.M.Vahabov neftçıxarma sənayesində tətbiq edilən müasir telemexaniki komplekslərin yaradılması sahəsində fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.

VAHABOVA NAİLƏ RƏSUL QIZI

Nailə Vahabova 1928-ci ildə anadan olmuşdur. 1945-ci ildə Şəkidə 7 saylı orta məktəbi, 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirərək riyaziyyatçı ixtisasına yiyələnmiş və Balakən rayonunun Katex kənd orta məktəbinə fizika-riyaziyyat müəllimi göndərilmişdir. 1953-1956-cı

illərdə ADU-nun təcrübi fizika kafedrasında böyük laborant işləmişdir

53 illik iş stajının 47 ili neft sənayesinə aiddir.

1956-89-cu illərdə AzNQSDETLİ-də mühəndis, böyük mühəndis, böyük elmi işçi vəzifələrində çalışmışdır. 1990-cı ildən "Dənizneftqazlayihə" DETLİ-də böyük, aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 1997-ci ildən AzNQSDETLİ-də fərdi əmək müqaviləsi ilə neft mexanikası laboratoriyasında böyük elmi işçi vəzifəsində çalışır.

1974-cü ildə neft, qaz və qazkondensat yataqlarının işlənməsi və istismarı ixtisası üzrə "Qeyribircins məsaməli mühitdə mayenin hərəkəti və lay təzyiqi doğma təzyiqindən aşağı olan neft yataqlarının işlənməsinin bəzi məsələləri" mövzusunda dissertasiya işi müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

N.R.Vahabova 27 elmi məqalənin müəllifidir, 96 elmi tədqiqat işinin məsul icraçısı olmuşdur.

Elmi işləri müxtəlif keçiricilikli horizontlarda, həllolmuş qaz, elastik, subasqılı rejimlərdə işlənmə, zəif keçiricikli arakəsmələrlə ayrılmış horizontlarda süzülmə zamanı qarşılıqlı təsir, təbii rejimdə işləyən yataqlarda quyudibi təzyiqin son neftverməyə təsiri, dəniz və quruda neft və qaz yataqlarının layihələndirilməsində hidrodinamik modellərin qurulması və seçilməsi, proqnoz-hesablama üsullarının təkmilləşdirilməsi istiqamətindədir.

N.R.Vahabova 2 dəfə AzNQSDETLİ-nin, 1 dəfə "Azneft" İB-nin və AHİK-nin fəxri fərmanı ilə təltif edilmişdir.

VƏLİYEVA SOLMAZ YUNUS QIZI

Solmaz Vəliyeva 1948-ci ildə anadan olmuşdur. 1965-ci ildə 7 saylı orta məktəbi qızıl medalla bitirmiş, həmin il ATİ-nun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1971-ci ildə həmin fakültəni əla və yaxşı qiymətlərlə bitirmiş, 1971-1973-cü illərdə

Şəkidə həkim kimi fəaliyyət göstərmiş, 1974-cü ildən Bakıda Sağlamlıq zonasında işləmiş, 1984-cü ildən Respublika klinik xəstəxanasında qastroliterologiya şöbəsində həkim işləyir.

Həkim kimi fəaliyyət göstərdiyi illərdə keçmiş sovetlər ittifaqının bir çox elmi mərkəzlərində (Kiev, Moskva, Kurqan) elmi konfranslarda və kurslarda olmuşdur, həkimlik fəaliyyəti ilə yanaşı tibb məktəbində dərs aparmışdır. Çalışdığı bütün illərdə yüksək səviyyədə elmi erudisiyası, professional xüsusiyyətlər xəstələrə son dərəcə qayğıkeş və humanist münasibətilə fərqlənmişdir. Tez-tez çıxış etdiyi televiziya verilişlərində auditoriyanın böyük rəğbətini və marağına səbəb olmağı bacarığını nümayiş etdirmişdir.

İlk illərdən həkimliyin hüquqi məsələlərini dərindən öyrənmiş, əcnəbi ölkələrdə və bizdə həkimin və xəstənin hüququnu müdafiə edən qanunları öyrənmiş, gözəl təşkilatçılıq bacarığına malik olmuşdur. Ancaq vəzifəyə həvəs göstərməyib ailəsinə, uşaqlarının tərbiyəsinə özünün birinci və ümdə vəzifəsi hesab etmişdir. Onun bu səyi də özünü doğrultmuşdur.

Oğlu Rauf 26 yaşında Avstraliyada doktorluq, Almaniyada magistr diplomu müdafiə etmiş, Nyu-York Akademiyasının üzvü seçilmişdir. Hazırda dünyanın bütün ölkələrində filialı olan Alyans firmasında Münxendə çalışır.

İkinci oğlu ali təhsilli hüquqşünasdır. "Konsilium" Tibb jurnalında, "Şəfa" qəzetində məqalələri çap olunur.

S.Vəliyevanın adı son əsrin ən görkəmli tibb alimləri və həkimlərinin adı daxil edilmiş Azərbaycanın 100 görkəmli həkimi kitabına düşmüşdür.

YAQUBOVA ESMİRA ARİFAĞA QIZI

Esmira Yaqubova 1968-ci ildə anadan olmuşdur. 1985-ci ildə Bakıda 200 saylı orta məktəbi bitirmişdir. Həmin ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) kimya-texnologiya fakültəsinə daxil olmuşdur.

1990-cı ildə "Qeyri-üzvi maddələrin texnologiyası" ixtisası alaraq, təyinatla Azərbaycan Elmlər Akademiyasının (indiki Milli EA) Qeyri-üzvi və Fiziki Kimya institutunun (indi Kimya Problemləri) "Koordinasiyon birləşmələr kimyası" laboratoriyasına göndərilmişdir və elmi fəaliyyətinə başlamışdır.

E.A.Yaqubova nadir torpaq və keçid elementlərin heteroikinüvəli metalkarbonil birləşmələr istiqamətində elmi tədqiqat işi aparmışdır.

Bu tədqiqatın yekunu kimi o, 1998-ci ildə professor G.Z.Süleymanovun rəhbərliyi altında Bakı Dövlət Universitetinin İxtisaslaşdırılmış Elmi Şurasında "İtterbium və vanadium renumkarboniltetrahidrofuranat komplekslərinin sintezi və tədqiqi" adlı mövzusunda dissertasiya işini müdafiə edərək kimya elmləri namizədi adı almışdır.

E.A.Yaqubovanın bu sahədə aldığı ən vacib elmi nəticələrdən biri, bəzi susuz metaldihalogen duzlarının və onlar əsasında dəmir və manqan üzvi-liqandlı metalüzvi birləşmələrin alınması üçün Azərbaycan Respublikası Kimya və Neft Kimya sənayesinin məhsullarından istifadə etməklə yeni elmi istiqamətin formalaşmasından ibarət olmuşdur.

E.A.Yaqubova 20-dən çox elmi məqalənin, o cümlədən (3 patentin müəllifidir. O, Beynəlxalq (Türkiyə və Yaponiya) və Respublika konfranslarında iştirak edib.

Hal-hazırda E.A.Yaqubova Azərbaycan Milli Elmlər Akademiyasında Kimya Problemləri institutunda baş elmi işçi vəzifəsində işləyir.

YUSUBOV ÇƏRKƏZ ƏSGƏR OĞLU

Çərkəz Yusubov 1954-cü ildə Şəki rayonunun Oxud kəndində müəllim ailəsində anadan olmuşdur. 1971-ci ildə Oxud kənd orta məktəbini qızıl medalla bitirmiş, həmin il də S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsinə daxil olmuş və 1976-cı ildə universiteti müvəffəqiyyətlə bitirərək mexanik ixtisası almışdır.

Ç.Ə.Yusubov 1976-1993-cü illərdə Azərbaycan Maşınqayırma Elmi tədqiqat və layihələndirmə (AzİNMAŞ institutunda mühəndis, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi və "Avtomatlaşdırılmış layihələndirmə sistemləri" (ALS) şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1993-cü ildən köçürmə yolu ilə Dənizdə Neft və Qaz çıxarma İstehsalat Birliyinin "Azərineftinformatika" Dövlət müəssisəsinə direktor müavini vəzifəsinə təyin edilmişdir. 1997-2002-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Baş İnformasiya Hesablama Mərkəzi"ndə (BİHEM) baş mütəxəssis və həmin mərkəzin direktoru vəzifəsində işləmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İnformasiya texnologiyaları və kompüterləşdirmə üzrə baş koordinatoru vəzifəsində çalışır.

Ç.Ə.Yusubov 1999-2003-cü illərdə "Dənizneftqazlayihə" DETLİ-nin dissertantı olmuş, apardığı elmi tədqiqat işlərini tamamlayaraq 2003-cü ildə texnika elmləri doktoru, professor M.Z.Kərimovun rəhbərliyi altında "Mürəkkəb magistral qaz kəmərlərinin qeyri-stasionar iş rejimlərinin hesablanması üsulla-

rı" mövzusunda dissertasiya işi müdafiə etmiş və texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Onun tərəfindən işlənmiş üsullar və proqram kompleksləri mürəkkəb magistral qaz kəmərləri sistemlərində baş verən qeyri-stasionar proseslərə aid bir çox məsələləri həll etməyə imkan verir, böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir. Ç.Ə.Yusubovun elmi işlərinin nəticələrindən elmi-tədqiqat və layihə institutlarında magistral qaz kəmərlərinin layihələndirilməsi və istismar edilməsində geniş istifadə edilir.

Təklif edilmiş metodların magistral qaz kəmərləri sistemində operativ-dispetçer üsulu ilə idarəetmə məsələlərinin həlli üçün tətbiqi, nəticədə magistral qaz kəmərləri sisteminin dispetçer xidməti sahəsinin keyfiyyətinin yüksəldilməsinə, sərf olunan enerji sərfinin və həmçinin qaz itkisinin azaldılmasına imkan verir. Aparılan elmi-tədqiqat işləri nəticəsində, magistral qaz kəmərlərində baş verən qeyri-stasionar proseslərin hesablanmasına dair metodik vəsait tərtib edilmiş və istifadə edilmək üçün Elmi-tədqiqat və Layihə institutları tərəfindən qəbul edilmişdir.

Ç.Ə.Yusubov bir monoqrafiyanın və 25-dən çox elmi əsərin müəllifidir.

YUSİFOV ZAMAN MƏMMƏD OĞLU



Zaman Yusifov 1957-ci ildə anadan olmuşdur. 1964-1974-cü illərdə Şəki rayonu Oxud kənd orta məktəbində təhsil almışdır.

1974-cü ildə V.İ.Lenin adına API (indiki ADPİ)-nin Ümumi Texniki Fənlər (ÜTF) fakültəsinə daxil olmuş və oranı 1979-cu ildə "Ümumi texniki fənlər və fizika" (ÜTF və fizika) ixtisası üzrə bitirmişdir. Ali təhsil aldıqdan sonra kəndə qayıdaraq, Oxud kənd orta məktəbində müəllim kimi fəaliyyətə başlamışdır.

Z.M.Yusifov Səudiyyə Ərəbistanı, Türkiyə, İran, Suriya, İordaniya, Misir, Ukrayna, Rusiya, Türkmənistan, Özbəkistan, Həbəşistan, Orta Asiya, Gürcüstan, Şimali Qafqaz ölkələrində işgüzar səfərlərdə olmuşdur.

Z.M.Yusifov iki dəfə (2004-2006-cı illərdə) Dünya müsəlmanlarının qibləgahı olan, Səudiyyə Ərəbistanının Məkkə şəhərindəki Kəbədə Həcc ziyarətində olmuşdur. Ona Qafqaz Müsəlmanları İdarəsinin Xarici Əlaqələr Şöbəsi tərəfindən Həcc ziyarətinə getmək barədə "Şəhadətnamə" verilmişdir.

Hacı Zaman dövrünün sayılıb-seçilən ziyalılarından olub, ictimai və xeyriyyəçilik tədbirlərində daim fəal iştirak edir.

YUSİF-ZADƏ ZİYA MƏMMƏDİYYƏ OĞLU

- Ziya Yusif-zadə 1929-cu ildə ziyalı ailəsində anadan olmuşdur;
- 1945-ci ildə Zaqatalada orta məktəbi qızıl medalla bitirmişdir;
- 1952-ci ildə Moriz Torez adına I Moskva Dövlət Xarici Dillər İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir;
- 1952-55-ci illərdə Az.SSR Maarif Nazirliyində və Az.SSR Nazirlər Sovetində məsul vəzifələrdə işləmişdir;
- 1956-cı ildə Az.SSR Dövlət Təhlükəsizlik Komitəsinə həqiqi hərbi xidmətə qəbul olunmuşdur;
- 1972-76-cı illərdə DTK-nın əks-kəşfiyyat xidmətinin rəisi, 1976-cı ildən DTK sədrinin I müavini, 1980-1988-ci illərdə DTK-nın sədri vəzifəsində çalışmışdır;
- Dövlət təhlükəsizlik orqanlarında 33 il fəaliyyət göstərmiş, 1988-ci ildə general-leytenant hərbi rütbəsində istefaya buraxılmışdır;

- 1988-1992-ci illərdə Az.SSR Nazirlər Sovetində Millətlərarası münasibətlər söbəsinin müdiri vəzifəsində işləmişdir. 1992-ci ilin avqust ayında öz xahişi ilə təqaüdə çıxmışdır.

- 1998-ci ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası yaradılmış və istefada olan general-leytenant Yusif-zadə Prezident H.Əliyevin sərəncamı ilə yenidən hərbi xidmətə çağırılaraq Akademiyanın rəisi vəzifəsinə təyin olunmuşdur. MTN-in Akademiyası milli təhlükəsizlik orqanları və sərhəd qoşunları üçün peşəkar kadrların hazırlanmasında əldə etdiyi nailiyyətlərə görə 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə ulu öndərimiz Heydər Əliyevin adına layiq görülmüşdür;

- SSRİ Dövlət Təhlükəsizlik orqanlarının və Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin fəxri əməkdaşıdır;

- Orqanlarda xidmət etdiyi 40 ildən ziyadə bir müddətdə SSRİ-nin, xarici dövlətlərin və Azərbaycan Respublikasının 35-dən yuxarı orden və medallarına layiq görülmüşdür;

- Bir neçə çağırış Bakı Sovetinin, Azərbaycan SSRİ Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı seçilmişdir;

- 1970-1988-ci illərdə Azərbaycan KP Mərkəzi Komitəsinin (MK) üzvlüyünə namizəd, MK üzvü, MK-nın büro üzvlüyünə namizəd, 1980-1988-ci illərdə MK-nın büro üzvü olmuşdur;

- Dörd xarici dil bilir. Orqanlarda xidmət illəri zamanı 50-dən yuxarı xarici dövlətlərdə xidməti ezamiyyətlərdə olmuşdur;

- Hal-hazırda general-leytenant Z.M.Yusif-zadə MTN-in H.Əliyev adına Akademiyasının rəisidir.

YUNUS-ZADƏ NEYLÜFƏR MƏMMƏD QIZI

Yunus-zadə Neylüfər Məmməd qızı 1935-ci ildə anadan olmuşdur.

1951-ci ildə həmin şəhərdə 11 saylı qızlar məktəbini bitirmişdir.

1951-ci ildə Azərbaycan Sənaye İnstitutunun neftayırma texnologiyası fakültəsinə qəbul olunmuşdur.

1957-ci ildə həmin institutu bitirib və təyinatla Sumqayıt şəhərinin Alüminium zavodunun laboratoriyasında 1959-cu ilin avqust ayına kimi işləmişdir.

1959-cu ildə Sumqayıt Kimya zavoduna keçirilib kimya laboratoriyasının müdiri təyin olunmuşdur.

1976-cı ildə həmin zavodda mərkəzi kimya laboratoriyasının rəhbəri təyin olunmuşdur.

1980-ci ildə SSRİ Nazirlər Soveti və Azərbaycan Ali Soveti tərəfindən fəxri fərman və "Şərəf nişanı" ordeni ilə (1289778 saylı orden kitabçası) təltif olunmuşdu (SSRİ Ali Sovetinin rəyasət heyətinin 1980-ci il 30 oktyabr tarixli fərmanı).

1985-ci ildə təqaüdə çıxmışdı.

1994-cü ildə Sumqayıt şəhərində vəfat edib.

ZEYNALOVA SƏADƏT CAMAL QIZI

Səadət Zeynalova 1935-ci ildə anadan olmuşdur. 1952-ci ildə 5 saylı qızlar orta məktəbini bitirmişdir. Şəki ikiillik Pedaqoji Müəllimlər İnstitutuna daxil olmuş, oranı fərqlənmə diplomu ilə bitirdikdən sonra təhsilini Azərbaycan Pedaqoji Universitetində (APİ) davam etdirmişdir. Əmək fəaliyyətinə fəhlə-gənclər məktəbində başlayıb. 17 il orada riyaziyyat müəllimi işləmişdir. 1971-ci ildə ailəsilə birlikdə Sumqayıta gəlmiş və 8 saylı məktəbdə müəllimlik etmişdir. 1980-ci ildən 28 saylı orta məktəbdə riyaziyyat fənnini tədris edir.

S.Zeynalovanın 50 illik pedaqoji fəaliyyəti çox zəngindir.

Orta və ali məktəblərdə oxuyarkən komsomol fəallığı göstərən Səadət xanım sonralar Şəhər Sovetinin deputatı, müəllimlərin və qadınların respublika qurultaylarının iştirakçısı, plenumların üzvü, partiya və həmkarlar təşkilatlarının rəhbəri olub. Hazırda YAP Qadınlar Şurasının üzvüdür. Səadət xanımın fəaliyyəti həmişə yüksək qiymətləndirilib.

Dəfələrlə Respublika Təhsil Nazirliyinin, Şəhər Təhsil Şöbəsinin, məktəb müdiriyyətinin fəxri fərmanları ilə mükafatlandırılmışdır. Bir neçə döş nişanlarına layiq görülüb.

İşlədiyi müddət ərzində şagirdlərinə dərin və əsaslı bilik verməyə çalışan Səadət müəllimə onların hərtərəfli inkişafına xüsusi diqqət yetirmiş, valideynlərin böyük hörmətini qazanmışdır.

Hələ uşaqlıqdan ədəbiyyata, şerə böyük həvəs, maraq göstərən Səadət müəllimə yüzdən çox şerin, publisistik və elmi məqalələrin müəllifidir. Şer və məqalələri daima dövri mətbuatda çap edilmişdir.

"Ürəyim həmdəmimdir" və "Ömrümə düşən izlər" kimi şerlər kitabının müəllifidir.

Səadət müəllimə özü də həmişə xeyirxah və mehriban olmağa çalışır. O pedaqoji kollektivin və dərs dediyi şagirdlərinin sevimlisidir.

Hazırda Sumqayıt şəhər 28 saylı orta məktəbdə riyaziyyat müəlliməsidir.

ZEYNALOV NİZAMİ HÜSEYN OĞLU

Nizami Zeynalov 1951-ci ildə ziyalı ailəsində anadan olmuşdur. 1968-ci ildə o, Zaqatala şəhər orta məktəbini bitirdikdən sonra Azərbaycan Pedaqoji dillər İnstitutunun rus dili və ədəbiyyatı fakültəsinə daxil olmuşdur.

1973-cü ildə ali məktəbi bitirdikdən sonra Quba rayonu Qəçrəş kənd orta məktəbində rus dili müəllimi işləmişdir.

1974-1984-cü illərdə Azərbaycan EA-nın QÜFKİ-də Elmi-

texniki informasiya şöbəsində nəşriyyat qrupunun rəhbəri vəzifəsində çalışmışdır. Bu illərdə o, həm də Bakı axşam Neft Texnikumunda, sonra Lenin adına API-də rus dili müəllimi işləmişdir.



1984-1987-ci illərdə Fizika-riyaziyyat təmayüllü respublika litseyində, 1987-1995-ci illərdə Kimya-biologiya təmayüllü respublika litseyində rus dili və tərbiyəçi müəllim vəzifəsində işləmişdir. Gənc nəslin tərbiyəsində əldə etdiyi uğurlara görə 1987-ci ildə o, metodist-tərbiyəçi adına layiq görülmüşdür.

1995-ci ildən o, Xətai rayon Sahibkarlıq və Elm, elmi-istehsalat işçiləri Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində işləyir. Bu illər ərzində o, dəfələrlə Azərbaycan Həmkar İttifaqları qurultaylarına nümayəndə seçilmiş, Respublika Həmkarlar İttifaqının və Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının fəxri fərmanları ilə təltif edilmişdir.

O, Azərbaycan Həmkarlar İttifaqı konfederasiyasının məclis üzvüdür.

1995-2000-ci illərdə o, Bakı şəhər məhkəməsinin iclasçısı seçilmişdir.

ZEYNALOVA İLAHƏ XANLAR QIZI

İlahə Zeynalova 1968-ci ildə ziyalı ailəsində anadan olmuşdur. 1985-ci ildə Bakı şəhəri 190 saylı orta məktəbi qızıl medalla bitirmiş və həmin il Azərbaycan Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) I müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində Tələbə Elmi Cəmiyyətinin üzvü

olmuş və adlı təqaüdə ("Lenin" təqaüdü) layiq görülmüşdür.

1991-ci ildə institutu fərqlənmə diplomu ilə bitirdikdən sonra Elmi şuranın qərarı ilə ATU-nun II mama-ginekologiya kafedrasında iki il kliniki ordinator tsiklini keçmişdir.

1994-cü ildən indiyə kimi Səhiyyə Nazirliyi Respublika Doğum evində həkim mama-ginekoloq kimi fəaliyyət göstərir.

2000-ci ildən elmi-tədqiqat işi ilə məşğul olmuşdur. 2007-ci ildə Azərbaycan Tibb Universitetinin Dissertasiya Şurasında "Hestorozlarda fetoplasentar çatışmazlığın müasir metodlarla korreksiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, "Mamalıq və ginekologiya" ixtisası üzrə tibb elmləri namizədi alimlik dərəcəsi adını almışdır. 10 elmi əsərin və "Hestozlar" adlı tədris-metodik vəsaitin müəllifidir.

ZƏRGƏROV AKİF ƏZİZ OĞLU

Akif Zərgərov 1958-ci ildə anadan olmuşdur. Bakıdakı 31 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş, 1980-ci ildə institutu bitirdikdən sonra Moskva şəhərində ixtisaslaşma kursu keçmiş, xalq təbabəti ilə yaxından tanış olmuş, qədim şərq fəlsəfəsinə əsaslanan və ən qədim müalicə üsulu olan iynəbatırma ilə müalicə metodunu öyrənmiş və bu metodun Azərbaycanda ilk tətbiqçilərindən biri olmuşdur.

A.Zərgərov 1983-cü ildə işlədiyi Neftçilər Xəstəxanasında refleksoterapiya kabineti təşkil etmiş, burada akupunktura, elektropunktura, lazeropunktura, nöqtəli massaj, dağlama kimi müalicə üsullarının bir sıra daxili xəstəliklərə təsirini elmi surətdə araşdırmış, ilk dəfə olaraq şəkərli diabet xəstəliyində iynəbatırmanın maddələr mübadiləsinə təsirini əsaslı surətdə öyrənmiş və

sahədə 1989-cu ildə namizədlik dissertasiyası müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsini almışdır. O, aparılan araşdırmaların nəticəsi və şəxsi təcrübəyə əsaslanaraq akupunktura nöqtələrinin optimal variantını təklif etmiş və bu sahədə işləyən həkimlər üçün praktik məsləhətlər işləyib işləyib hazırlamışdır.

A.Zərgərovun Azərbaycanda, Rusiyada, Türkiyədə, Rumıniyada, Çexiyada 20-ə qədər elmi əsəri çap olunmuşdur. O, refleksoterapiya mövzusuna həsr olunmuş bir çox beynəlxalq konfranslarda aktiv iştirak etmiş, 1986-cı ildə Buxarestdə keçirilən beynəlxalq simpozium və 1988-ci ildə Praqada keçirilən ümumdünya konqresində isə xüsusi diplomlara layiq görülmüşdür.

ZÜLFÜQAROVA RƏNA HƏSƏN QIZI

Rəna Zülfüqarova 1953-cü ildə anadan olmuşdur.

O, 1970-ci ildə Şəki şəhərindəki 3 saylı orta məktəbi, 1971-ci ildə isə Şəki Musiqi məktəbini bitirmişdir.

R.H.Zülfüqarova 1972-ci ildə Azərbaycan Pedaqoji Dillər İnstitutuna (indiki AXDU) daxil olmuş və 1977-ci ildə həmin institutu "xarici dil müəllimi" ixtisası üzrə müvəffəqiyyətlə başa vurmuşdur. O, institutu bitirdikdən sonra Dövlət Texniki Peşə məktəbləri (DTPMK) Komitəsində çalışmışdır.

1989-cu ildən Azərbaycan Dövlət Neft Akademiyasında işə qəbul olunmuş və indiyədək ADNA-nın "Xarici dillər" kafedrasında baş müəllim vəzifəsində fəaliyyət göstərir.

Rəna Həsən qızı Zülfüqarova 17 elmi məqalə, "Kimya və Polimer texnologiyası üzrə İngiliscə-Azərbaycanca-Rusca lüğət" kitabının müəllifidir.

ŞƏKİ HAQQINDA ŞEİRLƏR VƏ ŞƏKİ MƏNZƏRƏLƏRİ FOTO-GÖRÜNTÜLƏRDƏ

ŞƏKİ

"Özünüz şəkili olduğunuz halda,
niyə Şəkiyə bir şer həsr etməmisiniz"

Bir məktubdan

Bir nəğmə qoşmadım hələ mən sənə,
Dağlar bunu mənə kəsir sanmasın.
Mən dedim vurğunam Azərbaycana,
Deyirəm heç zaman xırdalanmasın.

Könlümdən ucalan bu avaz, bu səs,
Böyükdür, ucadır məsləkim mənim.
Bala anasına "sevirəm" deməz,
Mən də deməmişəm, a Şəkim mənim!

Mən sənə borcluyam, öz balan kimi,
Çox da ki, şerimdə görünmür adın.
Mənim oxuduğum nəğmələrimi,
Mənim qulağıma sən pıçıldadın.

Şerimin mayası - bu qaynar nəfəs,
Sənin öz çiçəyin, sənin öz barın.
Şerimdə dil açıb danışmırmı bəs,
Sənin bulaqların, göy çinarların?

Mən həm bakılıyam, həm lənkəranlı,
Gəncəli, qubalı, həm naxçıvanlı,
Şəkili, şirvanlı, qarabağlıyam,
Bütöv vətənimə, bütöv bağlıyam.

Mən sənin qoynunda gəldim cahana,
Özün bəxş elədin Azərbaycana.
İçib maral gözlü çeşmələrindən,
Elimə, obama mən vurulmuşam,
Bir eldə doğulub xoşbəxtəm ki, mən,
Böyük bir Vətənə oğul olmuşam.

***Xalq şairi, akademik* Bəxtiyar Vahabzadə**
Noyabr, 1971

ŞƏKİ

Uca dağlar qatar-qatar,
Dörd dövrənə çəkib hasar.
Nə gəzməli oylağın var,
Nə gəzməli oylağın var.

Addım-addım, qədəm-qədəm,
Dağlarını çox gəzmişəm.
Bulağından su içmişəm,
Dayanır bir dağ təki
Dağlar qoynunda Şəki.
Hər sözümün əzəlisən,
Sevimlisən, məzəlisən.
Gözəllərin gözəlisən,
İpəklərin əldə gəzir,
Adın sənin dildə gəzir.
Xoş nəfəsdə, eldə gəzir.
Dayanır bir dağ təki
Dağlar qoynunda Şəki.

Dövlət xadimi,
dramaturq-ədəbiyyatşünas
Şıxəli Qurbanov

"ŞƏKİ SARAY" OTELİ

"Şəkidə turizmin inkişafı üçün çox gözəl şərait var. Turizmi inkişaf etdirmək üçün gərək infrastruktur yaradılsın. Elektrik enerjisi olmayan yerdə heç bir turizm inkişaf edə bilməz, heç bir müəssisə fəaliyyət göstərə bilməz. Mən indi gedib yeni mehmanxananın açılışında iştirak edəcəyəm. Əgər yaxşı yol olmasa, işıq olmasa, su olmasa, istilik olmasa hansı mehmanxana tikilə bilər, oraya kim gələcəkdir? Bunu etmək üçün infrastruktur, bütün lazım olan şərtlər - yollar, elektrik enerjisi, qaz, su olmalıdır və biz bunu yaradırıq. Mən şübhə etmirəm ki, Şəki şəhərinin gələcək abadlaşması da uğurla gedəcək, Şəki öz qədimliyini, tarixi simasını saxlamaq şərti ilə müasirləşəcək və həmişə olduğu kimi, şəkililər Azərbaycanın inkişafında öz böyük rolunu oynayacaqlar".

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

AzərTAC-ın rəsmi məlumatında bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 14-də, elektrik stansiyasının açılışından sonra Şəki şəhərinə gələrək, burada "Şəki saray" otelinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etdi. Mərasimə toplaşan şəhər sakinləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Yerli iş adamı Cavanşir Feyziyevin təsis etdiyi "Tour-İnvest" şirkəti tərəfindən inşa edilən "Şəki saray"ın tikintisinə 2004-cü ilin sentyabrında başlanmışdı.

Milli memarlıq üslubunda və yüksək standartlara uyğun ucaldılan otel binasının inşasında müasir arxitektura elementlərindən

də geniş istifadə edilmişdir. Otel Şəki şəhərinə xüsusi görkəm verməklə yanaşı, buraya gələn xarici turistlərə, iş adamlarına və beynəlxalq təşkilatların nümayəndələrinə yüksək səviyyədə xidmət göstərilməsinə imkan yaradacaq. Oteldə fəaliyyət göstərəcək bələdçilər qrupu xarici qonaqları Şəkinin görməli yerləri, tarixi abidələri ilə tanış edəcək, bölgənin turizm imkanları barədə hərtərəfli məlumat verəcəkdir. Otelin beşmərtəbəli binasının ümumi sahəsi 1200 kvadratmetr, nömrələrinin sahəsi isə 30-60 kvadratmetrdir. Burada "5 ulduz" sertifikatına uyğun, eyni vaxtda 65 nəfəri qəbul edə bilən 34 nömrə, o cümlədən 3 lüks nömrə var.

Prezident İlham Əliyev otelin rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısı otel ilə tanış oldu, ayrı-ayrı otaqları gəzdi. Onu müşaiyət edən Cavanşir Feyziyev bildirdi ki, birinci mərtəbədə avtomatlaşdırılmış qəbul şöbəsi, biznes mərkəzi, habelə 50 nəfərlik restoran və bar fəaliyyət göstərir. Geniş foyedə qonaqların istirahəti üçün hər cür şərait yaradılıb. Biznes mərkəzində isə qonaqlar internet və peyk rabitəsi xidmətlərindən istifadə etməklə dünyanın istənilən guşəsi ilə əlaqə saxlaya biləcəklər. İkinci mərtəbədəki 60 nəfərlik konfrans-ziyafət salonunda beynəlxalq səviyyəli tədbirlər keçirmək mümkün olacaqdır.

Prezident İlham Əliyev otelin foyesində "Qafqaz turizm" jurnalı ilə tanış oldu. Cavanşir Feyziyev məlumat verdi ki, respublikada vətən haqqında ilk iri həcmli beynəlxalq turizm jurnalının I buraxılışını baş redaktor Ramazan Qafarlı sentyabr ayında Türkiyənin Antalya şəhərində keçirilən X Türk Dövlət Topluluqları, Dostluq, Qardaşlıq və İşbirliyi qurultayında nümayiş etdirib. Prezident İlham Əliyev orada jurnalı gördüyünü xatırladı və belə mətbuat orqanlarının əhəmiyyətindən danışdı. Təsisçisi Cavanşir Feyziyev jurnalın II buraxılışının yenicə işıq üzü gördüyünü, III buraxılışın isə çapa hazırlandığını bildirdi.

Prezident İlham Əliyev Şəki sakinləri qarşısında çıxış edərkən bölgəyə göstərilən dövlət qayğısından danışaraq demişdir: "Şəki şəhərinin çox qədim tarixi var. Azərbaycanın çox gözəl, çox böyük tarixə malik olan şəhəridir. Ona görə Şəki şəhərinin inkişafına xüsusi diqqət göstərilir. Mən bu ilin aprelində burada olarkən görüşlərdə, ondan sonra sahibkarlarla görüşdə, vəziyyətlə tanış olarkən həmişə vurğulayırdım ki, biz Şəkinin inkişafına çox böyük diqqət göstərməliyik. Elektrik stansiyasının məhz Şəkidə tikilməsi də Şəkiyə olan özəl münasibətdən irəli gəlir. Biz Şəkinin inkişafına əlavə vəsait də ayırdıq və bu vəsaitlə böyük abadlıq işləri aparılır. Şəki şəhərinin və Şəki rayonunun inkişafına dəstək verən xüsusi sərəncam da imzalanmışdır. Baxmayaraq ki, 2004-cü ilin əvvəlində qəbul olunmuş "Regionların sosial-iqtisadi inkişafı dövlət proqramı"nda Şəkinin inkişafı öz əksini çox geniş tapmışdır, bununla bərabər, xüsusi bir sərəncam imzalandı və o, icra olunur. Şəkinin bütün problemləri həll edilməlidir. Şəkinin çox böyük potensialı, çox böyük imkanları var".

Məhz bu mənada dövlətimizin başçısı otelin inşasına da böyük önəm verdiyini bildirdi və buranın elektrik enerjisi, istilik təminatı, havalandırma sistemləri və s. ilə maraqlandı. Cavanşir Feyziyev məlumat verdi ki, kanal tipli havalandırma sistemi Yaponiyanın "Air kanal" firmasının texnologiyası əsasında qurulmuş, 12 nəfərlik lift "Mitsubişi" firmasının məhsuludur. Oteli daimi elektrik enerjisi ilə təmin etmək üçün İngiltərənin "Perkins" firmasının istehsalı olan 500 kilovat gücündə transformator quraşdırılmışdır. Oteldə 50 nəfərə yaxın daimi işçi çalışacaqdır.

Prezident İlham Əliyev Cavanşir Feyziyevlə birlikdə binanın sonuncu mərtəbəsinə çıxaraq, qədim Şəkinin öz gözəlliyi ilə xoş təsir bağışlayan mənzərəsini seyr etdi, bu bölgədə turizmin inkişafına kömək edəcək belə obyektlərin yaranmasının əhəmiyyətini vurğuladı, ətraf ərazilərdə abadlıq-quruculuq işlərinin aparılması üçün tövsiyə və tapşırıqlarını verdi və Şəki şəhər İcra başçısına dedi ki, otel binasının yanındakı yararsız hala düşmüş kinoteatr da "Şəki saray" kompleksinə qatılmalıdır.

Dağlar qoynunda yerləşən Şəkidə tarixi ənənələr qorunub saxlanılmaqla yanaşı, müasirliyə də geniş meydan açılır. Bölgədə onlarla yaşayış məntəqələri var ki, orada yaşayanlar tərəqqiyə, qurub-yaratmağa, sənətkarlığa həmişə böyük maraq göstərir, öz

həyat tərzlərini həyatsevərlik və zəhmətə qatlaşmaqla yaradır, yaşamaq haqqını sökməklə deyil, tikməklə qazanırlar.

Şəki şəhərinə gələn qonaqlar əvvəl kəndlərdən keçirlər. Böyük Dəhnə də magistral yola baxır. Dəhnə, əslində, qədim diyarın ilk bələdçisidir. Tarixin uzaq dönəmlərində bölgəyə pis niyyətlə ayaq basan yad qoşunlarının qabağına ilk olaraq dəhnəlilər və göynüklülər çıxırdılar. Onların qurduğu səddi keçə bilməyən yağılar geri qayıdırdılar.

"ŞƏKİ SARAY" OTELİNİN ÖZƏLLİKLƏRİ

"Şəki saray" Bakıdan kənarda istifadəyə verilən həqiqi beynəlxalq səviyyəli - "5 ulduz"lu ilk oteldir. Şəkinin mərkəzində, Xan sarayına, dövlət idarələrinə və mağazalara yaxın ərazidə yerləşir. Bina zirzəmi və 5 mərtəbədən ibarətdir. Xatırladaq ki, Şəkinin iqlimi mülayim dağ iqlimidir. Yayı sərin, qışı yağmurludur, amma mülayim keçir.

Nəqliyyat: Bakıdan 325 km məsafədə yerləşir. Maşınla 4 saatlıq yoldur.

Ödəmə formaları: Nəqd ödəmələr milli valyuta - Azərbaycan manatı ilədir (AZN). Bank köçürmələri və kredit kart yolu ilə də ödəmə mümkündür.

Biznes mərkəzi: İnternet. Faks. Surətçıxarma. Tərcümə. 12 nəfərə qədər toplantı keçirmək imkanı.

Banket və toplantı imkanları: "Nuxa" otağı 40 nəfərə qədər toplantı, mətbuat konfransı, ad günləri, uşaqlar üçün tədbirlər, işgüzar nahar və şam yeməkləri üçün çox münasibdir. İsti mövsümlərdə binanın damı müxtəlif banket tədbirləri təşkil etmək üçün çox gözəldir. Otel eyni zamanda mehmanxanadan kənarda Şəki içərisində banket tədbirləri təşkil edir. bütün tədbirlər audio-vizual avadanlıqla təmin olunur.

Qonaq otaqları: adi otaq - 2 enliçarpayılı otaq - 21, ikiçarpayılı otaq - 5, junior lüks otağı - 3, executiv lüks otağı - 2, prezident otağı - 1. Otelə qəbul vaxtı - 2.00 PM. Oteli tərk etmə vaxtı - 12:00 AM.

Ümumi xidmətlər: 24 saat ərzində otaq xidməti. Çoxdilli heyət. 24 saat növbətçi müdir. 24 saat. 24 saat tibbi xidmət (sifarişlə). Tərcüməçi (sifarişlə). Şəhər gəzintisi üçün bələdçi (sifarişlə). Dayə (sifarişlə). Camaşırxana xidməti. Mehmanxanadan kənarda Şəki ərazisində banket tədbirlərinin təşkil edilməsi.

Qonaq otağındakı xidmətlər: Mərkəzləşdirilmiş kondisioner və havalandırma sistemi. Vanna və duş (Adi otaqlarda yalnız duş). Satelit televiziya. Mini bar. Birbaşa yığılan telefon Siqaret çəkilməyən otaqlar. Böyük ikinəfərlik çarpayı. Uzaqdan idarə olunan rəngli TV. Elektrik saçqurudanı.

Oteldə "Şəbəkə" restoranı və "Buta" barı fəaliyyət göstərir. Oturacaqların sayı restoranda 38, burda 50-dir. Restoranda günün hər vaxtı beynəlxalq yemək çeşidləri, gündəlik dəyişən "Günün yerli yeməyi", barda saat 10:00-dan 24:00-dək müxtəlif qəlyanaltılar verilir. Əyləncə üçün hələlik həzin musiqidən istifadə olunur. Turizm mövsümündə (yaz və yay aylarında) Azərbaycan estrada və xalq musiqisi ustalarının canlı konsertlərinin təşkili nəzərdə tutulur.

Texniki təminat: 500 kilovat gücündə "Perkins" markalı tam avtomat generator işıq kəsilən andan 5 saniyə ərzində işə düşür və oteli lazımi işıqla təmin edir. Ümumiyyətlə, oteldə 400 kilovat gücündə "Çetinkaya" markalı işıq tənzimləyicisi, 650 kilovat gücündə transformator, tam avtomat "Vilo" markalı qazanxana, isti su və isitmə sistemi, 13 nəfərlik panoramalı "Mitsubişi" markalı lift, tam avtomat, qum, karbon, yumşaldıcı, bioloji tənzimləyiciləri olan su filtrasiya sistemi var.

"Şəki Saray" otelinin tikinti, tərtibat və təminat işləri üzrə smeta dəyəri 2 488 746 ABŞ dolları təşkil etmişdir.



Şəki Xan Sarayı



Şəkinin ümumi görünüşü

Şəkinin giriş qapısı

«Şəki Saray» oteli və onun görüntüləri



«Şəki Saray» otelinin görüntüləri



«Şəki Saray» otelindən görüntülər

Soyuqbulaq

"Narın Qala" istirahət mərkəzi



"Marxal" istirahət zonası



"Şəki-Karvansaray" otelindən görüntülər

Daş bulaq kəndində alban məbədi

Kiş məbədi

Şəki Qalasında qədim məbəd



Qala divarı



Aşağı Karvansara



M.F. Axundov adına kinoteatrın qabağı

M.F.Axundovun ev muzeyi



Oxud kəndi, "Yel Baba" ziyarəti,
Fransa qəhrəmanı Əhmədiyyə Jəbrayılov və onun oğlu
Azərbaycanın Milli Qəhrəmanı Mikayıl Jəbrayılovun abidələri



Şəkinin ümumi mənzərəsi

MÜNDƏRİCAT

Ön söz əvəzi (*II hissəyə*) 3
Ön söz (*I hissədən*) 5
Şəki və şəkililər 7
Şəkili kimdir? 11
"ŞƏKİ. Alim və Ziyalılar" kitabı və Şəkidə doğulub boya-başa çatmış kimyaçılar 15
"ŞƏKİ. Alim və Ziyalılar" kitabı 22

Abbasova Əmanət Əsabəli qızı 23
Abbasova Fəridə Firuz qızı 24
Abbasova Şövkət İmran qızı 25
Abdullayev Firidun Muxtar oğlu 26
Abdullayev Qəni Abdulcəmil oğlu 26
Abdullayev Mahir Məmmədiyyə oğlu 28
Abdullayev Muxtar Nağı oğlu 29
Abdullayev Nuru 29
Abdullazadə Lətafət Həsən qızı 30
Abdullayeva Gülarə Abdurəhman qızı 31
Abdullayev Osman Abdulcəmil oğlu 32
Abdurəhmanov Nəsib Yusif oğlu 33
Abdurrəhmanova Züleyxa Məmməd qızı 34
Abidov Atakişi Cabbar oğlu 35
Abidov Aydın Atakişi oğlu 36
Ağahüseynzadə Möhtərəm Rza qızı 37
Ağasıyev İkram Kərim oğlu 38
Ağasıyev Fərrux Fərhad oğlu (Ağasıbəyli) 39
Axundov Baxşəli Kazım oğlu (Baxşəli Əfəndi) 40
Axundova Diləfruz Baxşəli qızı 41
Axundov Mirhəsən Mirabdulla oğlu 42
Axundova (Sultanova) Fəzilət Mirhəsən qızı 44
Axundov Sədi Mirhəsən oğlu 46
Axundova Ruhəngiz Nəsirxan qızı 47

Axundov Rəşid Mirzə Fətəli oğlu 48
Alxazov İsmayıl Məmməd oğlu 48
Allahverdiyev Mustafakamal Hacıbala oğlu 49
Azərli (Qaşımova) Aliya Yusif qızı 51
Babayeva Reyhanə Səttar qızı 51
Babayev Sərdar Səttar oğlu 53
Bağırova (Məmmədova) Bəyaz xanım Nəsib qızı 54
Bayramov Çərkəz Həsən oğlu 55
Bədəlov Vəzir Nəzir oğlu 57
Bədəlov Nurəddin İbrahim oğlu 58
Bədəlov Niyazi Mustafa oğlu 59
Bədəlova İntizar Nurəddin qızı 60
Bəkirov Qəşəm Muxtar oğlu 61
Cabbarzadə Vaqif Mustafa oğlu 63
Cavadova Zərinə Ələkbər qızı 64
Cəbrayılov Gündüz Abdulhəmid oğlu 65
Cəfərova Rəna Əsəd qızı 66
Cəfərov Əhməd Məmməd oğlu 67
Cəfərov Cəfər Qəmət oğlu 68
Cəlilov Natiq Qurban oğlu 68
Cəlilova Rəhimə Qurban qızı 69
Cəlilova Ruhim Əlihüseyn qızı 70
Cumayev Sadəddin Səfər oğlu 71
Çərkəzova Sevda Sabir qızı 72
Eldarov Süleyman Ələsgər oğlu 73
Əbdürrəhmanova Səfurə Dadaş qızı 73
Əbdülkərimli Loğman Şəfaət oğlu 73
Əbdürrəhimova Mehriban Lətif qızı 74
Əbdürrəhimov Hüseyn Yəhya oğlu 76
Əfəndiyev Abdulcəmil Abdulla oğlu 76
Əfəndiyeva Leyla Heydər qızı 78
Əfəndiyev Yalçın Heydər oğlu 78
Əfəndiyeva Rahilə Bəhram qızı 79
Əfəndiyev Həbibullah Məmmədsəid oğlu 81

Əfəndiyev Rəşid bəy İsmayıl oğlu 82
Əfəndiyev Veysəl Rəsul oğlu 83
Əfəndiyev Aqil Nəsrullah oğlu 84
Əhmədov Məmməd Məmmədəli oğlu 86
Əhmədova Məlahət Qədir qızı 87
Əhmədov Əli Davud oğlu 88
Əhmədov Nəzir Laçın oğlu 88
Əhəmdova Sevda Nadir qızı 89
Əkbərova Səxavət Oqtay qızı 90
Əliyev Əli Yusif oğlu 91
Əliyev Nemət Abdüləziz oğlu 92
Əliyev Abdul-Əli Rza oğlu 94
Əliyev Telman Fətulla oğlu 95
Əliyev Cavanşir İsmət oğlu 97
Əliyev Feyzulla Baharçı oğlu 98
Əliyeva Sürəyya Haşım qızı 99
Əliyev Faiq Vəlhəm oğlu 99
Əliyeva Fərəh Şirməmməd qızı 100
Əliyev Qoşqar Seyfulla oğlu 101
Ələkbərova Arifə Yusif qızı 102
Ələkbərova Şəfiqə 105
Ələkbərov Sənan Cabbar oğlu 106
Əlizadə Zahid İlyas oğlu 109
Əlizadə Firəngiz Əliağa qızı 110
Əlibəyov Ənvər Mustafabəy oğlu 112
Əlibəyov Mustafa bəy 112
Əlibəyova Xədicə Ələddin qızı 114
Əlibalayev Əbdüləli Baqi oğlu 115
Əmrahov Mais İsrail oğlu 116
Əsgərzadə Saleh Əsgər oğlu 117
Əsgərzadə Məmmədemin Əsgər oğlu 119
Əsgərzadə (Əliyeva) Rəqiyyə Yusif qızı 121
Əsgərov Veysəl Əlinağı oğlu 122
Əsgərov Kamal Əlinağı oğlu 123

Əsədova Rəna Şərif qızı 124
Əyyubov Natiq Cabbar oğlu 125
Əyyubov Camaləddin Bilal oğlu 126
Əyyubov Mahir Ələkbər oğlu 127
Əzizov Mənsur Qara oğlu 129
Əzizova Naimə Mahmud qızı 129
Əzizov Fərhad Şirin oğlu 131
Əzizov Fikrət Şaban oğlu 133
Əzizov Fikrət Vahid oğlu 134
Fərəcova Əsmayə Şirin qızı 135
Fərzəlibəyov Şarid Nəsibbəy oğlu 137
Fərzəlibəyov Varid Nəsibbəy oğlu 138
Fərzəlibəyov Nəsib bəy Mustafabəy oğlu 142
Fərzəlibəyov Mərahim Fərzəli oğlu 143
Fərzəliyev Çingiz Əbdülməcid oğlu 146
Feyziyev Cavanşir Əyyub oğlu 147
Feyzullayev Müşfiq Əhəd oğlu 151
Hacıyev Məmməd Cəbrayıl oğlu 152
Hacıyev İlham Oruc oğlu 153
Hacıyeva Elmira Ələkbər qızı 154
Hacıyev Rasim Rəmzi oğlu 155
Hacıyev Rəmzi Niyazi oğlu 156
Hacıyeva Sona Salman qızı 157
Hacıyev Əbdüləli Məmməd oğlu 158
Hacımustafazadə Hüseyn Tofiq oğlu 159
Hacəhmədzadə Xuraman Şamil qızı 159
Hacı-Seyidov Tofiq Kərimbala oğlu 160
Haşımova Ceyran Əsəd qızı 161
Haşımova Mahiyə Müzəffər qızı 162
Haşımov Rəşad Mirhaşım oğlu 163
Həşimov Abiddin Abdulla oğlu 164
Həşimova Aynurə Abdulla qızı 164
Həmidli Tahir Əhmədiyyə oğlu 166
Həmidov Bəylər Əbdül Rəhim oğlu 166

Həmidov Sədrəddin Qaful oğlu 169
Həsənov Hüseyn İlyas oğlu 170
Həsənova Sevda Hüseyn qızı 171
Hacı Həsənov Camal Qədir oğlu 171
Hüseynov Töhrab Fərrux oğlu 172
Hüseynov Şirməmməd Ağaməmməd oğlu 173
Hüseynova Ülkər İbrahim qızı 175
Hüseynova Lalə Şirməmməd qızı 176
Hüseynov Qurban Zəkəriyyə oğlu 177
Hüseynova Cəmilə Salman qızı 179
Hüseynov İsa Zilfay oğlu 179
Husuinov Qəni Məcid oğlu 180
Xalıqov Fikrət Ramazan oğlu 182
Xasməmmədov Fatiq İsa oğlu 183
Xasməmmədova Gülnarə Fatiq qızı 184
Xəlifəzadə Mahir Çingiz oğlu 186
Xəlilov Cəlil Əliheydər oğlu 188
Xəlilov Rüfət Qaffar oğlu 189
İbadzadə Qafar Məmməd oğlu 190
İbrahimova Validə Yaqub qızı 191
İbrahimova Xalidə Yaqub qızı 192
İbrahimov Rizvan Paşa oğlu 194
İbrahimov Firədun Nadir oğlu 195
İbrahimov Nazim Asabəli oğlu 197
İbrahimova Rəxşəndə Yaqub qızı 198
İbrahimov Nəsib Ələkbər oğlu 199
İsakov Hakim Vəlican oğlu 200
İsmayılov Ağəli Lütfəli oğlu 202
İsmayılov İsmət Şirəli oğlu 204
İsmayılov Məmməd Saleh Cəlil oğlu 205
İslamova Şəfəq İsrafil qızı 205
İsgəndərova Aişə İsgəndər qızı 206
İlyasov Gülü Göyüş oğlu 207
İsrafilov Azər Telman oğlu 208

İsrafilov Hacı Rafiq Abid oğlu 209
İdrisov Şərif Yunus oğlu 210
Kaşanlı Rafiq Rizvan oğlu 211
Kaşıyev Aydın Rizvan oğlu 212
Kaşiyeva Tamilla Rizvan qızı 213
Kaşıyev Rizvan Hüseyn oğlu 214
Kərimova Sariyə Məcid qızı 215
Kərimov Məzahir Məmmədəli oğlu 216
Kərimov Cəfər Məcid oğlu 217
Qafarov Telman Əhmədiyyə oğlu 218
Qaffarov Ənvər Ağababa oğlu 219
Qaffarov İsmayıl Hüseyn oğlu 220
Qaffarov Mahir İsmayıl oğlu 222
Qaffarova Hüsniyə Yaqub qızı 223
Qafarzadə Cəlil Davud oğlu 225
Qarayev Ənvər Vahid oğlu 226
Qasımov İbrahim İsrafil oğlu 227
Qasımov Əbuzər Fərəc oğlu 228
Qasımova - Axundova Ofelya Mirhəsən qızı 229
Qasımova Bilqeyis Əli qızı 230
Qasımova Fərzanə Zahid qızı 231
Qasımova Zülqədə Allahverdi qızı 232
Qazıyev Şamil Əhmədağa oğlu 233
Qazıyev Qurban Həbibullah oğlu 234
Qədirov Məzahir Hüseyn oğlu 235
Qələndərov Sabir Əhməd oğlu 236
Quliyeva Minayə Əliəşrəf qızı 237
Quliyev Cavanşir Rəhim oğlu 238
Quliyeva Xuraman Veysəl qızı 240
Quliyev Həsən Nurməmməd oğlu 241
Quliyev Nurməmməd Həsən oğlu 242
Quliyeva Nüyvər Xəlil qızı 243
Quliyev Əsabəli Musa oğlu 243
Quliyev İlham Nurməmməd oğlu 244

Lətifov Cövdət Şakir oğlu 246
Mahmudov Emin Sabit oğlu 246
Mahmudova Ceyran Emin qızı 251
Mahmudova (Şərifova) Təranə Abid qızı 251
Mahmudov Faiq Ədhəm oğlu 252
Mahmudov Ədhəm Abdulkərim oğlu 253
Mahmudov Teymur Seyran oğlu 254
Manafov Tərlan Məmməd oğlu 255
Mehdiyev Vahid Zülfüqar oğlu 257
Məcidov Məcid Məmməd oğlu 258
Məmmədov Ələfsər Bəxtiyar oğlu 259
Məmmədov Əliş Zabit oğlu 260
Məmmədov Ülvi Ələfsər oğlu 263
Məmmədova Gülyaz Zakir qızı 266
Məmmədova Gülyanaq Zakir qızı 267
Məmmədov Etibar Əbülfət oğlu 267
Məmmədov İbrahim Qərib oğlu 269
Məmmədov Nəsir Qədir oğlu 270
Məmmədov Fərrux Məmməd oğlu 271
Məmmədova Ziynət Cabbar qızı 274
Məmmədova Sevda Cəbrayıl qızı 275
Məmmədova Solmaz Vəlican qızı 276
Məmmədov Səlhab İsa oğlu 277
Məmmədova Nazəndə Knyaz qızı 279
Məmmədov Şükür Şükür oğlu 280
Məmmədova Dürrə Əliabbas qızı 281
Məmmədəliyev Vasim Məmmədəli oğlu 282
Məmmədəliyev Vamiq Məmmədəli oğlu 287
Məmmədəliyev Raqif Rəşid oğlu 289
Məhərrəmov Məhərrəm Nəcəf oğlu 290
Muxtarov Nəsib Mirsaleh oğlu 291
Mustafayev Rasim Fərman oğlu 292
Mustafayev Akif Hətəm oğlu 293
Mustafayeva Rəhimə İsmayıl qızı 295

Mustafayev İbrahim Nurməmməd oğlu 296
Mustafayeva-Həmidova Adikə Məcid qızı 297
Mustafayev Şəmsəddin Rəhim oğlu 299
Mustafayev Nuru İsmayıl oğlu 300
Mustafayev Elşad Nuru oğlu 301
Mustafayev Rasim Bəxtiyar oğlu 302
Mustafayev Bəxtiyar İsmayıl oğlu 303
Mustafayeva Afət Sədrəddin qızı 304
Mustafayev Mustafa Seyidəhməd oğlu 305
Mustafayev Yusif Mustafa oğlu 306
Mustafazadə Abdulla Hüseyn oğlu 307
Musayeva Tamilla Həşim qızı 309
Musayev Əbdüləli Əhməd oğlu 311
Mustafabəyli Hüseyn Lütvəli oğlu 313
Mirzəzadə Xəyyam 314
Mürşüdova Ulduz Bəşir qızı 316
Naibov Nurməmməd Hacıməmməd oğlu 318
Nağıyev Aydın Ənvər oğlu 318
Nəbibəyovlar 319
Nəbiyev Nuru Məhərrəm oğlu 321
Osmanova Şəfiqə Sabir qızı 322
Piriyev Yusif Tahir oğlu 322
Rəcəbov Musa Mustafa oğlu 324
Rəhimli Əhməd Əli-Rza oğlu 325
Rəhimova Məlahət Azax qızı 326
Rəhimov Ələfsər (Ələfsər Şəkili) 327
Rəhimov Əkrəm İbrahim oğlu 328
Rəsulov Tofiq Əşrəf oğlu 328
Rəsulov Rəsul Kərəm oğlu 329
Rəsulov Əşrəf Yaqub oğlu 331
Rüstəmov Cahangir Mahmud oğlu 332
Rüstəmov Oruc Soltan oğlu 333
Rüstəmov Novruz Soltan oğlu 333
Rəşidov Mübariz Məmməd oğlu 334

Sadıqov Sadıq Səməd oğlu 335
Salamov Akif Ələsgər oğlu 336
Salamov Amil Hüseyn oğlu 337
Salamov Mövsüm Əsgər oğlu 338
Salmanov Rüstəm Əsədulla oğlu 340
Salehli Edison Mirzə oğlu 341
Salehli Mirzə Məmmədbağır oğlu 342
Sədiyeva Susan Baba qızı 343
Sədiyev Nazim Kamal oğlu 345
Sərkərov Şövkət-Ziya Şamil oğlu 346
Sərkərov Mustafa Hüseyn oğlu 347
Səfərov Yusif Həbibullah oğlu 348
Səlimov Vəhyəddin Salman oğlu 354
Səlimova Arzu Səftər qızı 356
Soltanov Naqim Soltan oğlu 356
Soltanov Niyazi Soltan oğlu 357
Sultanova Səadət Əhədxan qızı 358
Sultanova Bilqeys Abdulqədir qızı 359
Sultanova Maya Abdulqədir qızı 361
Sultanov Akif Ənvər oğlu 362
Sultanova Təhminə Cəfər qızı 363
Sultanova Ayna Cəfər qızı 365
Süleymanova Ləman Vaqif qızı 365
Şamilov Əmiraslan Şövkət-Ziya oğlu 366
Şamilov Əliheydər Əhməd oğlu 367
Şamilov Teymurxan Şövkət-Ziya oğlu 368
Şərifova Elmira Bağır qızı 369
Şərifova Sədayə Yaqub qızı 370
Şirinzadə Natiq Əhməd oğlu 371
Şirinova Süsən Yusif qızı 373
Şirinov Həsən Yusif oğlu 373
Şirinova Rəhilə Məmməd qızı 374
Şirinov Cəmil Məmməd oğlu 375
Şükürov Rafiq Şükür oğlu 375

Şükürov Məclum Şükür oğlu 376
Tağıyeva Billur Lütvəli qızı 379
Tahirov Çingiz Əhməd oğlu 380
Tahirov Ağa Mövsüm oğlu 384
Tahirova Afaq Ənvər qızı 385
Teymurov Vaqif Məmməd oğlu 385
Vahabov Sabir Məmmədiyyə oğlu 386
Vahabova Nailə Rəsul qızı 387
Vəliyeva Solmaz Yunus qızı 388
Yaqubova Esmira Arifağa qızı 390
Yusubov Çərkəz Əsgər oğlu 391
Yusifov Zaman Məmməd oğlu 392
Yusif-zadə Ziya Məmmədiyyə oğlu 393
Yunus-zadə Neylüfər Məmməd qızı 394
Zeynalova Səadət Camal qızı 395
Zeynalov Nizami Hüseyn oğlu 396
Zeynalova İlahə Xanlar qızı 397
Zərgərov Akif Əziz oğlu 398
Zülfüqarova Rəna Həsən qızı 399

ŞƏKİ HAQQINDA ŞEİRLƏR VƏ ŞƏKİ MƏNZƏRƏLƏRİ FOTO-GÖRÜNTÜLƏRDƏ

Şəki (Bəxtiyar Vahabzadə) 401
Şəki (Şıxəli Qurbanov) 402
"Şəki saray" oteli 403
"Şəki saray" otelinin özəllikləri 406
Rəngli foto-reproduksiya 408

ƏLƏFSƏR MƏMMƏDOV, FİKRƏT XALIQOV

ŞƏKİ. Alim və Ziyalılar

BAKI – "ELM" – 2007

Mətn redaktoru və tərtibçi-dizayner
Ülvi Ələfsər oğlu MƏMMƏDOV

"Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi

Direktor: **Ş.Alışanlı**
Baş redaktor: **T.Kərimli**
Mətbəənin direktoru: **Ə.Məmmədov**
Kompüter tərtibi: **Ə.Kərimov**
Texniki redaktor: **T.Ağayev**

Formatı 60x90 $^{1}/_{16}$.
Həcmi 26,75 ç.v.
Tirajı 600.
Sifariş № 47.
Qiyməti müqavilə ilə.

"Elm" RNPM-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
(Bakı, İstiqlaliyyət, 8)

AZ-243781



Şəki-Marxal